**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU**

**SƏİDƏ BƏHRAM QIZI HƏSƏNZADƏ**

# AİLƏLOGİYA

*BDU-nun nəzdində təşkil edilmiş*

*B/D.02.013 Dissertasiya* **Şurasının** *Qərarı ilə çapa məsləhət bilinmişdir.*

**Bakı – 2022**

Elmi redaktor: **RÜSTƏM SAHİB OĞLU MƏMMƏDOV**
hüquq üzrə elmləri doktoru, professor

Rəyçilər: **HABİL SURXAY OĞLU QURBANOV**
hüquq üzrə elmlər doktoru,professor

**MAYİS NƏBİ OĞLU ƏLİYEV**
hüquq üzrə elmlər doktoru, professor

Səidə Bəhram qızı Həsənzadə, hüquq üzrə elmlər doktoru.
**Ailəlogiya**, *Bakı, "OPTİMİST"* MMC çap mərkəzi-*2022, 430 s.*

**ISBN- 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 4 6 - 1**

*Müasir dövr-baş verən dərin proseslər, insanlar, dövlətlər, cəmiyyətlər,dinlər, sivilizasiyalar və digər bəşəri təzahürlər arasında, bütün əlaqələrin və münasibətlərin genişlənməsi, ümumdünya informasiya cəmiyyətinin formalaşması,beynəlxalq kapital,əmtəələr, işçi qüvvələri, təbii resurslar, texnogen təsirlər və sairi məcmuu şəkildə özündə birləşdirməklə beynəlxalq bazarı, iqtisadiyyatı,mədəniyyəti,həyat tərzini, bir sözlə, ictimai həyatın bütün sahələrini əhatə edən geniş miqyaslı, qlobal bir prosesi ehtiva edir.Bu gün aparılan müxtəlif istiqamətli və çoxsaylı tədqiqatlarda qloballaşmanın çoxtərəfli və çoxməzmunlu inkişaf istiqamətlərinin daha dərindən öyrənilməsinə maraq artmışdır. Mahiyyətinə və dərinliyinə diqqət yetirdikdə,mövcud informasiyaların , texnologiyaların, iqtisadiyyatın, siyasətin,bazarın, bir sistem olaraq məntiqi- epstemoloji struktur baxımdan və rəngarəng sosial sistem olaraq elmlə sıx bağlı olduğu tam təsdiq edilir.Bu da bəşəriyyətin və dünyanın bir sistem olaraq elmi əsaslarla tədqiqinə zərurət yaradır.Təsadüfü deyil ki, bütün baş verənləri dərindən təhlil edib,konkret nəticələrə gələn Ulu Öndər Heydər Əliyev, böyük uzaqgörənliklə göstərirdi ki, "İndi dünya mədəniyyət dünyasıdır,intelektual dünyadır,elmi tərəqqi dünyasıdır".Bu kontekstdə, müasir dövr təbiətin, cəmiyyətin, təfəkkürün, ümumilikdə bəşəriyyətin bir sistem olaraq küll halında tədqiqini son dərəcə aktuallaşdırmış və aparıcı mahiyyət kəsb etməyə başlamışdır. Bu da hazırda elmin tarxinin , sosialogiyasının,fəlsəfəsinin dərindən öyrənilməsinə tələbat yaratmışdır. Bu mərhələdə elmin sahələri, anlayışları, tədqiqat metodları sürətlə genişlənmiş və ən yeni uğurlarla tarixə düşmüşdür. «Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğ-*

*ru» adlı Bakı Beynəlxalq Humanitar Forumunda, Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlers öz çıxışında, müasir dünya böhranı şəraitində ailə münasibətlərinin inkişafının və bu kontekstdə qlobal problemlərin uğurlu həllinin mümkünlüyü barədə, əsaslandırılmış nəzəriyyə irəli sürmüşdür. Bu nəzəriyyəyə görə, beynəlxalq və qlobal problemlərin uğurlu həllinə, ilk öncə ailələrdən başlanılması zəruri hesab edilmişdir . Bu müddəanı dəstəkləyən Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev də haqlı olaraq qeyd etmişdir ki, güclü ailə güclü dövlət deməkdir. Məhz güclü və sağlam ailələr dövlətin əsasını,özəyini, bazasını təşkil edir. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və güclüdür.Təsadüfü deyil ki,ölkəmizin müstəqillik illərində Ulu Öndər Heydər Əliyev və onun layiqli siyasi varisi, Respublika prezidenti, cənab İlham Əliyev ailələrin inkişafı və ailə münasibətlərinin hüquqi tənzimlənməsi sahəsində sistemli tədbirlər hazırlayıb həyata keçirmişlər.*

*Son illər elmin ən müxtəlif sahələrinin tədqiqi üçün böyük uğurlara səbəb olan ən yeni elmi metodların aşkar edilməsi,yeni elm sahələrinin yaradılması, ümumi elmi metodologiyaların inkişafı, cəmiyyətin həyatında elmin rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Təbiətin,cəmiyyətin və insan idrakının öyrənilməsinə maraq ildən ilə artmaqdadır.Etiraf edək ki, belə dünyəvi problemlər içərisində,geniş mənada "ailə"nin ən müxtəlif elmlərin köməyi ilə mükəmməl öyrənilməsi, artıq zamanın tələblərindən birinə çevrilmişdir. Bu mənada ailənin kompleks öyrənilməsi "ailəlogiya" elminin əsas predmetini təşkil edir və təqdim olunan monoqrafiya bu sahədə atılan ilk addım olaraq cəmiyyətin marağına səbəb olacaqdır.Monoqrafiya dövlət və hüquq problemlərini öyrənənlər, ictimai-siyasi xadimlər,müəllimlər, tələbələr və geniş əhali kütləsi üçün nəzərdə tutulmuşdur.*

*Azərbaycan Dövlət Tibb Universitetini və Moskva Dövlət Sosial Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirmiş, peşəkar həkim və hüquqşünas olan Səidə Həsənzadə, bu gün AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi vəzifəsində çalışır. Ailə, qadın və uşaq problemlərinə dair 9 monoqrafiyanın, 125 elmi məqalənin, bir neçə qanun lahiyəsinin müəllifidir. Bu əsər onun 10-cu monoqrafiyasıdır. Monoqrafiya ali məktəblərin hüquq fakültələrinin müəllimləri, doktorantları, tələbələri, qadın hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilatların əməkdaşları üçün nəzərdə tutulmuşdur.*

**© Səidə Həsənzadə, 2022**

# MÜNDƏRİCAT

GİRİŞ ........ 5
I FƏSİL. Ailəlogiya elmi-yeni və müasir elm sahəsi kimi ........ 19
1.1. Ailəlogiya – müasir dövrümüzün yeni və aktual elm sahəsi kimi ........ 19
1.2. Ailəlogiya elminin müasir metodları və metodologiyaları ... 56
II FƏSİL. Azərbaycanda ailənin və nikahın hüquqi statusu ........ 77
2.1. Azərbaycan ailəsinin hüquqi statusu ........ 77
2.2. Nikah əqdi – ailənin hüquqi statusunun əsası kimi ........ 106
III FƏSİL. AZƏRBAYCAN AİLƏSİNİN SOSİAL-SİYASİ VƏ HÜQUQ MAHİYYƏTİ ........ 162
3.1. Demokratik hüquqi dövlət quruculuğu konteksində ailə-sosial dövlət münasibətlərinin konstitusiya və beynəlxalq hüquqi müqayisəsi ........ 162
3.2. Azərbaycan ailə modeli ........ 188
IV FƏSİL. AZƏRBAYCAN AİLƏSİNİN STRUKTURUNDA TƏMSİL OLUNAN SUBYEKTLƏRİN STATUSU ........ 221
4.1. Qloballaşma və transformasiya şəraitində Azərbaycan ailəsinin strukturu ........ 221
4.2. Azərbaycan ailəsində qadının – ananın hüquqi statusu: müqayisəli təhlil ........ 247
4.3.Azərbaycan ailəsinin üzvü kimi uşağın hüquqi statusu ........ 287
4.4. Azərbaycan ailəsinin statusunun təkmilləşdirilməsi, onun hüquqlarının müdafiəsi və mühafizəsi məsələləri ........ 304
NƏTİCƏ ........ 361
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI ........ 386

# GİRİŞ

Torpaqlarımızı erməni faşistlarinin əsarətindən qəhrəmanlıqla azad etmiş, Vətən övladlarına xoşbəxtlik arzuları ilə.

***Müəllif***

Qloballaşan, inteqrasiya və transformasiya prosesləri gündən-günə dərinləşən və zənginləşən dünyamız təbiət, cəmiyyət, insan və ailə təməli üzərində bərqərar olmuşdur. Bəşəriyyət tarixində və müasir sivil dünyada bu gün cəmiyyət, şəxsiyyət və dövlət üçün qadın və ailə qədər dəyərli, ailə qədər əhəmiyyətli və ailə qədər geniş təsir imkanlarına malik olan başqa bir insan birliyi yoxdur. Apardığımız sosialoji və hüquqi təhlillər bir mənalı şəkildə təsdiq edir ki, bir institut olaraq ailə, öz ictimai-siyasi, sosial və hüquqi əhəmiyyətinə, strukturuna, funksiyalarına, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, bu günkü müasir inkişafına, sosiomədəni mühitə göstərdiyi fəal təsir effektlərinə, Azərbaycançılıq ideologiyasına, sadiqliyinə mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanmasına, inkişafına, nəsildən-nəsilə ötürülməsinə, varisliyin təmin edilməsinə əhəmiyyətli təsir göstərən tarixi, fenomenal, sosiomədəni və hüquqi təsisat olmaqla onun öyrənilməsi və tədqiqi ən aktual problemlərdən birinə çevrilmişdir. Nikah isə qız və oğlanın, kişi və qadının,ər və arvadın ailə qurmaq niyyəti ilə könüllü olaraq yaratdıqları birliyin müvafiq dövlət orqanlarında qeydə alınan rəsmiləşdirilməsi, ittifaqıdır [75, s.20]. İnsan birliyinin zaman baxımından ən qədim və ən əhəmiyyətli formalarından biri olan ailə, insan nəslinin davamlı olaraq istehsalı və inkişafı üçün əvəzsiz və təkrarsız sosial rol oynayır. Ailənin təşəkkülünün və inkişafının əsasında qadının və kişinin bir-birinə olan təbii-fizioloji tələbatı, bioloji vəhdəti, sosial həmrəyliyi, nəsilartırmaq marağı dayanır. Bu, bir sosiomədəni və bioloji proses olaraq, ən qədim dövrlərdən başlayaraq davam etmiş, təbii, qanunauyğun və tarixi bir təzahürə çevrilmişdir.Onun insanın mənəvi tələbatların ödənil-

məsində, maddi nemətlər istehsalında əvəzsiz və təkrarsız rolu vardır. Ailənin funksional vəzifələrinə daxil olan çoxsaylı fəaliyyət, maraq və məqsəd tarixin sonrakı inkişaf mərhələlərində yeni-yeni komponentlərlə zənginləşsə də, lakin nəsil artırmaq motivi öz aktuallığı ilə daim gündəmdə qalmışdır. Çünki qadın və kişi münasibətləri, onların bioloji vəhdəti təmin olunmadan, insan nəslinin təşəkkülünü və inkişafını təmin etmək mümkünsüz olardı. Ailə – qadın və kişi birliyinin təşkilati-hüquqi əsası kimi bioloji, sosial, iqtisadi, hüquqi, mənəvi, əxlaqi, siyasi və beynəlxalq mahiyyət daşıyır və buna görə də hər bir konkret halda ailənin kompleks elmi tədqiqatların nəticəsi olaraq öyrənilməsi zəruri, müasir və aktualdır. Cəmiyyətin və ictimai-siyasi həyatın əsasında məhz insan və ailə fenomeni dayanır. İnsan, sosial varlıq olmaqla, cəmiyyətin və ailənin yaradıcısı, istənilən sosial-iqtisadi sistemin əsas aparıcı və hərəkətverici qüvvəsi hesab olunur. T.Hobbs göstərir ki, cəmiyyət strukturunun ilkin hüceyrələri – insanlar olmadan nə ailə və nə də dövlət ola bilməzdi. İnsan, təbiətlə cəmiyyəti birləşdirən canlı bir həlqədir [299, s.120-121]. İnsan bütün sosial dəyərlərin əsas ölçüsüdür. Bu baxımdan cəmiyyət və onun ən mükəmməl tədqiqatçılarından biri olan Karl Marks haqlı olaraq yazırdı ki, «İnsanın mahiyyəti, mücərrəd deyil, ayrıca bir fərdə xasdır. Əslində o bütün ictimai münasibətlərin məcmusunu ifadə edir» [456, s.265].

Cəmiyyətin və insanlığın xüsusi önəm verdiyi dəyərlər sistemində ailə son dərəcə böyük və əvəzsiz əhəmiyyətə malikdir. Bu insanların şəxsi və ictimai həyatının müxtəlif sahələrindəki fəaliyyətlərində özünü göstərir, mürəkkəb sosiomədəni, sosial, iqtisadi, demoqrafik və digər ictimai amillərlə şərtlənərək, təşkilati və tənzimləyici funksiyalar yerinə yetirir. Ailə-nikah və ailə-qohumluq münasibətlərinin, davranış mədəniyyətinin formalaşmasını, düzgün tənzim edilməsini, inkişafını, bu münasibətlərin qorunub saxlanmasını, nəsildən-nəsilə ötürülməsini məhz ailə təmin edir. Bu problemlə məşğul olan mütəfəkkirlər haqlı olaraq göstərirlər ki, qlobal mənada ailənin iki ən mühim və ən əsas səciyyəvi xüsusiyyətləri vardır. Bunlardan birincisi: ailənin – ər-arvad, valideynlər və uşaqlar arasında qarşılıqlı münasi-

bətlərinin tarixən formalaşan konkret sistem olmasında; ikincisi isə: ailənin yaradılması, uşaqların doğulması və tərbiyə edilməsi məqsədilə təsis edilən; üzvlərinin nikah, qohumluq və övladlığa götürmə ilə bağlı olan münasibətlərə, məişət və təsərrüfat ümumiliyinə və qarşılıqlı məsuliyyətə əsaslanan, millətin xüsusi sosiomədəni kodu ilə şərtlənən, cəmiyyətdə, ictimai-siyasi və dövlət həyatında sosial qrup və insan birliyi kimi səciyyəvi xüsusiyyətləri ilə fərqlənməsində ifadə olunur [304, s.9-12].

Cəmiyyətin inkişafının əsas aparıcı qüvvəsi, maddi nemətlər istehsalının, elmin, mədəniyyətin və sivilizasiyanın yaradıcısı olan insan, bioloji fərd olaraq ailələrdə doğulur, böyüyür, sosial mühitdə şəxsiyyət kimi yetişir, başqaları ilə birləşir, dövlət, hakimiyyət, din yaradır, insan nəslinin və cəmiyyətin varlığını və inkişafını təmin edir. Ailə,cəmiyyət, tələbat, təbii zərurət, sosial və bioloji varlıqdan doğan insanların tarixən təşəkkül tapdığı birgə fəaliyyəti nəticəsində meydana gəlir .Qeyd etmək zəruridir ki, dövlət cəmiyyəti qorumaq, onun maraqlarını və məqsədlərini təmin etmək üçün müvafiq strukturlar yaradır, onlara hakimiyyət və legitim güc verir. Sivil cəmiyyətin əsas özəyi hesab edilən ailənin ən başlıca hamisi və qayğıkeşi kimi məhz dövlətlər çıxış edirlər. Dövlət isə cəmiyyətin inkişafının müəyyən mərhələsinin məhsulu olmaqla, onun tələblərinə, maraqlarına, məqsədlərinə və iradəsinə xidmət edir. Dövlət, cəmiyyətin kütləvi və legitim hakimiyyət gücü hesab olunur. Karl Marks göstərirdi ki, dövlət cəmiyyətin bir hissəsi, lakin onun nisbətən müstəqil hissəsidir. Çünki ictimai münasibətlərin nizamlanmasında və cəmiyyətin öz təbiətindən irəli gələn zəruri və ümumi məsələlərin həllində onun özünə məxsus xüsusi yeri və rolu vardır [455, s.1-545; 457; 471]. Dövlətin yaranması ilə insanlar, yaranışdan sahib olduqları anadangəlmə təbii hüquqlarından, həm də vətəndaş hüquqlarından istifadə edirlər. Dövləti inkişaf etmiş və böyümüş ailə birliyi də hesab etmək olar.Ailə böyük dövlətdir. Ailənin funksiyaları olduqca geniş, rəngarəng və məsuliyyətli elementləri əhatə edir. Ailənin statusu bütöv bir sistem olaraq öz tərkibində təmsil olunan subyektləri- valideynləri, uşaqları, digər yaxın qohumları sistemaltı element kimi özündə bir-

ləşdirir. Bunun da əsasında nikah əqdi və ya qan qohumluğuna əsaslanan birlik dayanır. [200, s.182-308]. Cəmiyyətdə ailənin rolu, xidmətləri, funksiyaları, gücü, qüdrəti və təsir dairəsi çox geniş və aparıcı mahiyyət daşıyır. Ailə, cəmiyyətdən, dindən, dövlətdən, hüquqdan və digər oxşar təsisatlardan daha erkən və ilkin mərhələdə meydana gələrək, uzun bir təkamül yolu keçmişdir. Buna baxmayaraq o elmi baxımdan yalnız sonralar tədqiq edilməyə və öyrənilməyə başlanılmış, başqa sözlə bu hazırda sözün əsil mənasında tarixi zərurətə çevrilmişdir . Həyatda mövcud olan bütün dəyərlərin yaranmasında və inkişafında insanın və insan birliyi olan ailənin mühim və əvəzsiz rolu olmuşdur. Tarixən ailənin formaları, tipləri, quruluşu, funksiyaları, məqsədlari və vəzifələri, müəyyən dəyişikliklərə məruz qalsa da, lakin onun mahiyyəti və əhəmiyyəti, əsasən sabit qalmışdır. Məhsuldar qüvvələrin tərəqqisi, əmək bölgüsünün və sinifli cəmiyyətin yaranması, dövlətin yeni-yeni təzahür formalarının, ictimai-iqtisadi formasiyaların tədricən dəyişməsinə baxmayaraq, ailə institutu bu günə qədər də öz ilkin mahiyyətini əsasən qoruyub saxlamışdır. Azərbaycan ailəsi, adətlərin və ənənələrin, vərdişlərin və rəftar normalarının, qayda-qanunun, dinin, dövlətin, hakimiyyətin, mədəniyyətin, sivilizasiyanın yaranmasında, inkişafında, milli mənlik şüurunun formalaşmasında, azərbaycançılıq ideologiyasının varislik əsasında nəsildən-nəsilə ötürülməsində böyük rol oynayır [200, s.182-308]. Ailə münasibətlərinə müsbət yönüm verən dəyərlər sistemi, təsəvvürlər, prioritetlər və stereotiplər, milli mentalitetin və milli xüsusiyyətlərin əsasını, özünəməxsusluğunu, etnik kodunu təşkil edir və cəmiyyətdə ailənin rolunun son dərəcə əhəmiyyətli olduğunu şərtləndirir. Ailə və nikah forma və məzmun etibarilə olduqca rəngarəngdir, oxşar və fərqli cəhətləri ilə səciyyəvidir. Ər-arvadı biri-birinə bağlayan nikah, ailə institutunun mühim bir komponenti, onun tərkib hissəsi və hüquqi əsası hesab olunur. Buna görə də nikah ləğv olunduqda ailə birliyi də dağılmış olur. Ailə, ölkədə sabitliyin və tərəqqinin əsasında dayanır, onu stimullaşdırır. Tarixi və hüquqi baxımdan ailənin rolu, funksiyaları, əhəmiyyəti və dəyəri nəzərə alınaraq, sonralar bir sıra ölkələrdə onun hüquqi statusunun əsas qanunda-konstitusiyada təsbit edilməsi

tarixi zərurətə çevrilmişdir. Bu da onunla əlaqədardır ki, hüquqi, dünyəvi və demokratik dövlət quran hər hansı bir ölkədə konstitusiya ən ali normativ-hüquqi akt olmaqla,cəmiyyət və dövlət üçün ən önəmli və ən vacib olan institutların statusunu öz məzmununda təsbit etməklə cəmiyyətin inkişafını bərqərar etmiş olur. Onun yaradılmasında ratifikasiya olunmuş beynəlxalq müqavilələrdən və beynəlxalq hüquq normalarından yaradıcılıqla istifadə olunur. Tədqiqatçılar təsdiq edirlər ki, müasir cəmiyyət müstəqil dövlətsiz, demokratik hüquqi dövlət isə konstitusiyasız mümkün olmur. Dünyada gedən qloballaşma prosesləri cəmiyyətin tarixən formalaşmış bütün təsisatlarına, o cümlədən ailəyə əhəmiyyətli təsir göstərmiş, ailə və dəyərlər sistemi çox təəsüf ki, ilkin mənasını az da olsa dəyişmiş, ailəyə, qadına və uşağa olan bəşəri münasibət fərqli səciyyə daşımağa başlamışdır. Azərbaycan ailəsinin ənənəvi dəyərlərinin qorunub saxlanması və inkişafı, hazırki mərhələdə dövlətimiz qarşısında duran ən prioritet vəzifələrdən birinə çevrilmişdir. Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev [146] və onun layiqli siyasi varisi, Respublika prezidenti, Müzəffər Ali baş komandan, cənab İlham Əliyev ölkəmizdə ailənin dinamik inkişafı, ailə münasibətlərinin hüquqi tənzimlənməsi və konstitusiyada təsbit edilməsi sahəsində ardıcıl və sistemli tədbirlər həyata keçirmiş,bu gün sosial ailə dövlət qayğısı ilə tam əhatə olunmuşdur. Referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında «ailə» və «nikah» institutunun təsbiti təmin edilmiş, bununla bağlı çoxsaylı və zəruri məcəllələr və normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və ISESCO-nun Xoşməramlı Səfiri, respublikanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə daim böyük diqqət yetirmiş,əslində onun hamisinə çevrilmiş və bu xeyirxah missiya bu gün də davam etdirilməkdədir [185].

Bir institut olaraq ailənin konstitusiya hüquqi statusu ilk dəfə olaraq, Ulu Öndər Heydər Əliyevin səyi ilə, 1978-ci ildə qəbul edilən Azərbaycan SSR-nin sonuncu Konstitusiyasında öz təsbitini tapmışdır. Bu ənənə gözlənilərək Azərbaycan Respublikasının 12 noyabr

1995-ci il tarixli referendumu ilə qəbul edilmiş ilk milli Konstitusiyasında ailənin statusu təsbit olunmuşdur [77, s.7-8]. Sonralar keçirilən referendumların nəticəsi olaraq konstitusiya normalarının daha da təkmilləşdirilməsi, beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, çoxsaylı milli məcəllələrin, normativ-hüquqi aktların hazırlanması və qəbul edilməsi təmin olunmuşdur. MDB məkanında ilk dəfə olaraq Azərbaycan Respublikasında xüsusi bir qurum- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, qadınların, ailənin və uşaqların sosial hüquqlarının, mənafelərinin, rifahlarının yaxşılaşdırılması, yoxsulluğun imkan daxilində aradan qaldırılması, gənc ailələrin qorunması və inkişafı, elmin və təhsilin müasirləşməsi, yeni iş yerlərinin yaradılması, sosial mənzil tikintisinin genişləndirilməsi və s. haqqında kompleks, sistemli və ardıcıl Dövlət Proqramları hazırlanıb, həyata keçirilmişdir. Ölkəmiz ailə və ailə münasibətləri ilə bağlı bütün beynəlxalq müqavilələrə qoşulmuş, üzərinə müvafiq öhdəliklər götürmüş və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmişdir [262, s.7-124].

Ailənin hüquqi statusunun konstitusiyada təsbit edilməsi, dövlət səviyəsində ailəyə verilən böyük önəmin və dəyərin hüquqi nəticəsidir [84, s.10-11]. Dünyada baş verən qlobal dəyişikliklər, ictimai-siyasi və sosial həyatda, mənəvi-əxlaqi mühitdə, dəyərlər sistemində, ailə münasibətlərində köklü dəyişikliklərə, böhrana səbəb olmuş, bütün bu proseslər Azərbaycan ailəsinə də təsirsiz ötüşməmişdir. Beləki öz səciyyəvi xüsusiyyətləri, milli, mənəvi və əxlaqi dəyərləri, yaranması və formalaşmasının müsbət yönümləri, təkrarsız inkişafı, tarixən formalaşmış müsbət yönümləri ilə həmişə böyük maraq kəsb edən, dünya səviyyəli yarışlarda üstünlük qazanan və diqqət çəkən «Azərbaycan ailə modeli» son illər təəsüf ki, dünyada baş verən qlobal prosesslər kontekstində, o cümlədən mənəvi-əxlaqi dəyərlər sistemində baş verən böhranlar nəticəsində müəyyən dəyişikliklərə məruz qalmışdır. Ailələrin dağılması,ağsaqqal nüfuzunun tədricən öz əhəmiyyətini itirməsi, ailədaxili mənfi prosesslər nəticəsində bəzən uşaqlar valideyn himayəsindən məhrum olmuş, doğum azalmış, ailə zorakılığının, qadınlar və yetkinlik yaşına çatmamışlar arasında hü-

quq pozuntularının artması qaçılmaz bir prosessə çevrilmişdir [62, s.3-7]. Bu dəyişikliklərin elmi-nəzəri tədqiqi, cəmiyyətin əsas özəyi olan ailə institutunun konstitusiya hüququ statusunun kompleks tətqiqinə, onun problemlərinin müəyyən edilməsinə və həllinə böyük zərurət yaratmış, müəllif nikah və ailə institutunu bir vəhdətdə tədqiq etməyə üstünlük vermişdir. İnsanın və ailənin konstitusiya statusunun tədqiqi zamanı hüquq elmlərinin müxtəlif sahələri, xüsusilə ailə hüququ, konstitutsiya hüququ,inzibati hüquq, beynəlxalq hüquq və sairlə yanaşı, həm də fiziologiya, genetika, psixologiya, təbiət və humanitar elmlərin və sairin müasir nailiyyətlərindən yaradıcılıqla istifadə edilməklə öyrənilmişdir. Bütün bunlar tədqiqatın kompleksiliyini və mükəmməlliyini təmin etmişdir. Göstərilən obyektiv və subyektiv səbəblər cəmiyyətdə ailənin son dərəcə mühim rolunu üzə çıxarmış və onun tədqiqinə zərurət yaratmışdır. Şərh etdiyimiz bütün bu hallar yeni bir elm sahəsinin – «Ailəlogiya» elminin aktuallığını şərtləndirmiş və bu istiqamətdə elmi tədqiqatların cəmiyyət üçün son dərəcə vacib və aktual olduğunu ortaya qoymuşdur.»Ailəlogiya» elmi- ailə, ailə birlikləri və onunla sıx bağlı olan təsisatların ən müxtəlif elm sahələrinin birgə səyi ilə kopmleks öyrənilməsinin vacib olduğunu təsdiq etmişdir. Biologiya, sosiologiya, hüquq, politologiya, genetika, psixologiya, repraduktiv təbabət və onlarla digər elm sahələrinin birgə səyi ilə bu gün ailə və ailə problemlərinin kompleks və vaxtaşırı olaraq öyrənilməsi artıq bir tarixi zərurətə çevrilmiş, cəmiyyətin ümumi və fərdi problemlərinin vaxtaşırı olaraq tədqiqi, müqayisəli təhlili üçün çox əhəmiyyətli olduğunu göstərmişdir.Müxtəlif ölkələrdə ailə və ailə problemlərinin öyrənilməsi, qarşılıqlı müqayisəsisi, onun problemlərinin tədqiqi, ailələrin qorunub saxlanması sahəsində ümumdünya fəaliyyətinin gücləndirilməsi, bu gün artıq beynəlxalq əhəmiyyətli tarixi bir zərurətə çevrilmişdi. Çünki cəmiyyətin və dövlətlərin əsasında, insanlığın inkişafında, dəyərlərin qorunmasında, ailələrin rolu misilsizdir. Bu baxımdan cəmiyyətin ən vacib və ən mühim institutlarından biri olan ailənin tarixi, insanlığın tarixi qədər qədim olsada, fəqət onun elmi cəhətdən kompleks öyrənilməsi iki yüz ildən çox deyildir. Artıq dünyanın bir çox siyasi, ictimai, sosial

və dövlət xadimləri, mütəfəkkirləri, alimləri cəmiyyətdə ailələrin öyrənilməsi zərurətini və ictimai-siyasi əhəmiyyətini dərindən dərk etməyə başlamışlar. İsveç hüquqşünası İohan Bahofen Yakobun «Analıq hüququ» adlı üç cilddən ibarət tarixi əsəri 1861-ci ildə nəşr edildikdən sonra, qadın və analıq hüququnun tədqiqinə dair maraq sürətlə artmağa başlamışdır. Bunun nəticəsi olaraq sonralar F.Engels, K.Yunq, E.Fromm, R.Rilke, T.Mann, V.Benyamin, Dürgeim və başqaları ailə təsisatını ən müxtəlif baxımdan öyrənilməsini və tədqiqini vacib hesab etmişlər. İ.B.Yakob cəmiyyətin və dövlətin idarə olunmasında qadınların tarixi rolunun önə çəkilməsini elmi cəhətdən əsaslandırmış və bunu önəmli hesab etmişdir. Dünyanın böyük mütəfəkkirləri cəmiyyətdə və dövlət həyatında mövcud olan ən mühim problemlərin uğurlu həllini, məhz ailələrdən öyrənməyin zəruriliyi ideyasını irəli sürmüşlər və sonralar bunun tam əsaslı olduğu öz təsdiqini tapmışdır.

Qərbin və Şərqin kəsişdiyi bir məkanda yerləşən, analoqu olmayan inkişafı ilə dünyada qabaqcıl yerlərdən birini tutan, multikultural dəyərləri, tolerantlığı, azərbaycançılıq ideologiyasını milli səfərbəredici və birləşdirici qüvvə kimi qəbul edən ölkəmiz və xalqımız, ailəni tarixən müqəddəs hesab edilən dəyərlər sisteminə daxil etmişdir [166, s.188-192]. Bu gün əhalisinin sayı təxminən 11 milyon, ailələrin sayı 2 milyon 80 min olan ölkəmizdə, ailənin kompleks öyrənilməsi, cəmiyyətin ümumi problemlərinin, ümumbəşəri insan problemlərinin tərkib hissəsi olaraq öyrənilməsinə, onun aktual problemlərinin müəyyən olunmasına, bu problemlərin həll edilməsinə və ya aradan qaldırılmasına, onların uğurlu həllinə xüsusi önəm verməyə diqqəti artırmişdır. Bu baxımdan ailəlogiya elminin əhəmiyyəti zaman keçdikcə artmaqdadır. Elə buna görə də təqdim olunan əsərdə insanın və ailənin bioloji və psixoloji mahiyyətinin, xüsusi ilə onun konstitusiya hüquqi statusunun kompleks öyrənilməsi dəfələrlə qeyd edilmişdir. Bir sıra dövlət Proqramlarında, xüsusi ilə elmin inkişafına dair lahiyələrdə, ailələrin kompleks elmi-nəzəri və təcrübi tədqiqi milli elmimizin qarşısında duran vacib prioritetlərdən biri kimi qiymətləndirilmişdir. Bütün bunlara görə də Azərbaycan ailəsinin və ni-

kahının məhz xüsusi bir elm – «Ailəlogiya» elmi tərəfindən kompleks tədqiqi, müasir dövrümüz üçün aktual və əhəmiyyətli hesab olunmalıdır [30; 67; 83; 132; 136; 143; 148; 152; 157; 160; 164; 187; 201; 203; 213; 217; 218; 221; 223; 227; 241; 244; 246; 258; 261; 272; 274; 312; 315; 395; 430; 492; 563].

Dünyada və insanlıq tarixində ən dəyərli təsisat olan ailənin hüquqi statusunun konstitusiyada təsbit edilməsi, cəmiyyətin, dövlətin, mədəniyyətin və sivilizasiyanın tarixi inkişafının nəticəsi kimi qiymətləndirilməlidir. Hazırda qloballaşan cəmiyyətin ümumdünya problemləri sırasında ailənin kompleks və vaxtaşırı öyrənilməsi çox aktuallaşmış və müasirləşmişdir. Ailə cəmiyyətin əsasında, özəyində dayanan təsisat – institut olmaqla, o müxtəlif vaxtlarda tarixçilər, etnoqraflar, sosioloqlar, ailə hüququ üzrə mütəxəssislər, iqtisadçılar, siyasətçilər, filosoflar tərəfindən bu və ya digər dərəcədə öyrənilmişdir. Tədqiqatçı S.A.Tokarev, hələ 1987-ci ildə bu mövzuda yazdığı əsərində, ailə və ailə problemlərinə dair Qərb ölkələrində 1900-1960-cı illər ərzində 12 mindən çox kitab və məqalə yazıldığını qeyd etmişdir [540, s.15]. Görkəmli tədqiqatçılar C.F.Mak-Lennanın, Baxoven İyohan Yakobunin, C.Lebbokunin, L.Morqanın, F.Engelsin, K.Marksın, O.Kontın, G.Zimmelin, F.Le Plenin, A.Q.Xarçevin, C.Ferqusonun, Liro-Telonun, O.Qanskayanın, Y.Semyonovanın, A.Ponamoryevun, A.T.Jdankonun, M.V.Antokolskayanın, V.A.Ryasençevin, Q.K.Matveyevin, A.M.Neçayevanın, Q.M.Sverdlovun, V.P.Şaxmatovun, V.İ.Boşkonun, A.V.Vişnyakovanın, A.İ.Zaqorovskiyin, V.A.Denisovun, N.İ.Marişevanın, M.İ.Petrovun, N.N.Tarusinanın, O.A.Xazovanın, D.Şestakovun, Ə.Əsədovun, Q.Manayevin, Ə.Əlizadənin, A.Abbasovun və onlarla digərlərinin apardığı tədqiqatlar və yazdıqları monoqrafiyalar ailənin tarixi, etnoqrafiyası, psixologiyası, sosiologiyası, fəlsəfəsinə həsr olunmuş və obyektiv elmi nəticələr çıxarılmışdır. Eləcə də son illər Rusiyada, Azərbaycanda, Türkiyədə və bir sıra digər ölkələrdə çoxsaylı dissertasiyalar işləri ailənin müxtəlif problemlərinin tədqiqinə həsr edilmişdir. Belə ki, A.V.Aqeyevanın, L.V.Sayenkonun, S.E.Vavilçenkovanın, O.V.Kuznetsovanın, X.Q.Aslanovun, Q.A.Zaikinanın, Y.V.Nikolayevanın, A.P.Platono-

vanın, V.A.Ramixın, M.V.Qellerin, Y.V.Anoxinin, N.E.Borisovanın, M.D.Dəmirçiyevanın, K.Şiriyevanın, P.F.Poveliçınanın, Z.Q.Sadıqovun, M.N.Əliyevin, Y.N.Əliyevanın, Z.G.Kantemirovanın, Q.Ə.Qeybullayevin, N.M.Quliyevanın, N.Ə.Salmanovanın, İ.R.Allahverdiyevanın, Camal Abdulkərim Abdonun və başqalarının monoqrafiyaları və dissertasiya işləri tədqiqatın nəzəri əsası üçün əhəmiyyətli rol oynamışdır [33; 127; 158; 304; 314; 321; 341; 347; 356; 360; 373; 374; 386; 432; 486; 500; 510; 514; 563]. Türkiyə Cümhuriyyətində İ.Doğanın, A.Yıldırımın, B.Köşeoğlunun, M.Duralın, T.Öğüzün, M.A.Gümüşün, T.Akıntürkün, D.Ateşin, A.M.Kılıçoğlunun, B.Öztanın, H.Hateminin, B.K.Oğuztürkün, A.A.Şafakın, Z.Akıncının, C.D.Gökyaylanın [283; 284; 286; 287; 288; 289; 290; 292; 293; 294; 295; 297; 298] və başqalarının monoqrafiyaları türk cəmiyyətində ailənin və ailə münasibətlərinin aktual problemlərinin tədqiqinə həsr olunmuşdur. Bu tədqiqat əsərləri [30; 136; 148; 160; 219; 221; 223; 253; 261; 312; 314; 395; 430; 492; 563] ailənin mənşəyi, tarixi formaları, sosial, iqtisadi, psixoloji, etik, estetik, bioloji, genetik, etnoqrafik və s. istiqamətlərdə tədqiqinə həsr olunsa da, lakin ailənin və nikahın konstitusiya hüquqi statusunun və bu zamində onun kompleks tədqiqi indiyə qədər aparılmadığından, bu sahədə aşkar bir boşluq aydın görünməkdədir.Bu da ailənin ən müxtəlif elm sahəlıərinin birgə səyi ilə vaxtaşırı öyrənilməsinə böyük zərurət yaradır. Elə bu baxımdan da xüsusi ilə vurğulanmalıdır ki, ailə problemi bu gün milli elmimizdə ilk dəfə olaraq ki, müstəqil «Ailəlogiya» elminin tədqiqat obyektinə cəlb edilmiş və öyrənilməsi vacib hesab edilmişdir. Müasir Azərbaycan Respublikasında bir institut olaraq ailənin və nikahın Konstitusiya hüquqi statusunun qanunvericilikdə təsbiti, onun beynəlxalq hüquq normaları ilə müqayisəli təhlilinin «Ailəlogiya» elmi tərəfindən öyrənilməsi, bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsinin dəyərləndirilməsi, həyata keçirilən köklü sosial islahatlar, bütöv bir sistem olaraq işin əsas tədqiqat obyektininin mahiyyətində dayanmışdır.Müasir ailə və nikah institutu sahəsində hüquq normalarının beynəlxalq hüquqla müqayisəli təhlili işin əsas predmetini təşkil etmişdir. Belə yanaşma müasir Azərbaycan ailəsinin əsas

və qlobal problemlərinin kompleks elmi-nəzəri tədqiqatlara cəlb edilməsi yolu ilə onların müəyyən edilməsi və həlli üçün, yeni təkliflərin, müddəaların və tövsiyələrin irəli sürülməsinə imkan yaratmışdır. Hüquqi dövlət quruculuğu yolunda böyük inamla inkişaf edən müasir Azərbaycan Respublikasında ailənin və nikahın konstitusiya hüquqi statusu beynəlxalq hüquqla kompleks və müqayisəli şəkildə tədqiq olunmuş, yeni, daha uğurlu, daha mötəbər nəticələr çıxarılmış, çoxsaylı təkliflər və müddəalar irəli sürülmüşdür.

Tədqiqatın metodoloji əsasını, cəmiyyətin, dövlətin və şəxsiyyətin inkişafının obyektiv və dialektik qanunauyğunluqları, normativ-hüquqi, elmi və təcrübi materialların ümumiləşdirilməsi, tarixi və sistemli yanaşma, müqayisəli hüquqşünaslıq, sistemli-struktur, kompleks, statistik təhlillər, nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi və tarixilik metod prinsipi təşkil edir. İşin metodoloji əsasında ictimai və humanitar elmlərin, o cümlədən konstitusiya və beynəlxalq hüquq elmlərinin ümumelmi, xüsusielmi və müasir elmi metodları dayanır. Bu problemin öyrənilməsi və həlli ilə əlaqədar olaraq ailənin və nikahın mahiyyəti araşdırılarkən şəxsiyyətin hüquqlarına və azadlıqlarına hörmətlə yanaşılması, determinizm, tərəqqi, qanunun aliliyi prinsipinin gözlənilməsi, sosioloji təhlil, statistik məlumatların ümumiləşdirilməsi, nəticələrin çıxarılması, müqayisəli təhlillərin aparılması və digər məsələlərin önə çəkilməsini təmin etmişdir. Obyektiv yanaşma kimi prinsipdən yaradıcılıqla istifadə edilmiş, bir çox hüquqşünas-alimlərin əsərləri mütaliə və təhlil olunmuş, tədqiqat əsərlərində irəli sürülmüş fikirlərə və mülahizələrə obyektiv və tənqidi yanaşılması təmin olunmuşdur. Araşdırma zamanı BMT-nin və Avropa Şurasının müvafiq Konvensiyalarının, Azərbaycan Respublikasının çoxsaylı normativ-hüquqi aktlarının, hüquq elminin müxtəlif sahələrinin, o cümlədən dövlət və hüquq nəzəriyyəsinin, konstitusiya hüququnun, inzibati hüququn, beynəlxalq ümumi hüququn, humanitar hüququn, habelə fəlsəfə, sosiologiya, iqtisadiyyat və s. elmlərin nəzəri müddəalarından, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində müvafiq prinsiplərdən, məhkəmə təcrübəsindən geniş istifadə edilmiş, problemə yeni dünya düzəni kontekstində yanaşma, iki-

li standartlar doğuran səbəblərə dair tədqiqat əsərlərindən və yeni yanaşmalar tələb edən metodlardan istifadə olunmuşdur. Eləcə də monoqrafiyada istifadə edilmiş çoxsaylı mənbələr – əsərlər, məqalələr, sosioloji sorğular, ümumiləşdirmələr, təhlillər,məhkəmə qərarları və s işin nəzəri əsasını təşkil etmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki,Azərbaycan Respublikasında müasir ailənin və nikahın Konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli və kompleks elmi-nəzəri tədqiqinə həsr olunmuş, ilk monoqrafik xarakterli əsər olmaqla onun nəzəri və təcrübi əhəmiyyəti çoxdur. Beynəlxalq və milli hüquq normalarının müqayisəli tədqiqi, bir çox müəlliflərin problemlə bağlı əsərləri, monoqrafiyaları, məqalələri, sosioloji sorğuları, statistik məlumatlar, ümumiləşdirmələr, təhlillər, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri, Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin müvafiq qərarları işin yazılmasında əhəmiyyətli rol oynamışdır. Ailənin Konstitusiya hüquqi statusu və bununla sıx bağlı olan normativ-hüquqi aktlarda, məcəllələrdə, məhkəmə və istintaq təcrübəsində mühim əhəmiyyət kəsb edən anlayışlara, terminlərə, ayrı-ayrı hüquq normalarına, maddələrə konstitusiya hüquqi baxımdan aydınlıq gətirilmiş, elmi cəhətdən dərindən təhlil olunmuş, problemlə bağlı bir çox terminlərin ilk dəfə olaraq definisiyaları verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının, Ailə, Mülki, Mülki-Prosessual, Cinayət Məcəllələrinin, «Uşaq hüquqları haqqında», «Məişət zorakılığının qarşısının alınması haqqında» və digər çox saylı qanunlara, habelə beynəlxalq konvensiyalara dair yeni və daha uğurlu təkliflər, müddəalar irəli sürülmüşdür. Ölkəmizdə ilk dəfə olaraq «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi hazırlanıb qanunverici orqana təqdim edilmiş, müsbət qiymətləndirilmiş və müzakirə üçün qəbul edilmişdir. Araşdırma zamanı tədqiq olunan problemlə bağlı çoxsaylı təkliflər irəli sürülmüş, mövzu ilə bağlı aparılan tədqiqatın nəticələrini əks etdirən monoqrafiyalar yazılmış və məqalələr nüfuzlu elmi jurnallarda dərc edilmişdir. Tədqiqatın nəzəri, elmi və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat zamanı əldə olunmuş nəzəri nəticələr, çoxsaylı təkliflər və irəli sürülmüş müddəalar ailənin və nikahın

konstitusiya hüquqi statusunun metodoloji bazasının müasirləşməsini və möhkəmləndirilməsini təmin edə bilər. İşdə ailənin və nikahın konstitusiya hüquqi statusunun müasir tələblər baxımından müəyyən edilməsi, ailə və ailə münasibətləri ilə əlaqədar olan terminlərə aydınlıq gətirilmiş, qadın hüquqlarının və azadlıqlarının, ailənin hüquqlarının qorunmasına, məişət zorakılığına qarşı mübarizənin təkmilləşdirilməsinə, yeni ailə məhkəmələrinin yaradılmasına, Ailə Məcəlləsinin ayrı-ayrı normalarının yeni redaksiyalarda verilməsinə, ailə və uşaq hüquqlarının müdafiə və mühafizə mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər, konstitusiya hüququnun, beynəlxalq hüququn və ailə hüququnun daha da mükəmməlləşməsini təmin edə bilər. Bu sahədə aparılan tədqiqatların daha da təkmilləşdirilməsi, konstitusiya hüququ, beynəlxalq hüquq və ailə hüququ sahəsində tədrisin və tədqiqatın əhəmiyyətli dərəcədə yaxşılaşmasında faydalı ola bilər.

Monoqrafiyanın əsas elmi nəticələri Azərbaycan Milli Elmlər Akademiyasında, onun ayrı-ayrı institutlarında, Bakı Dövlət Universitetində, İdarəçilik Akademiyasında, Polis Akademiyasında, Rusiya Federasiyasında, Ukraynada, Qazaxıstan Respublikalarında, Türkiyədə, Bolqarıstanda, ABŞ-da və bir sıra başqa ölkələrdə keçirilən beynəlxalq, regional və milli səviyyədə keçirilən elmi konfranslarda müəllifin şəxsən və ya onun elmi məqalələri əsasında edilmiş məruzələri, çıxışları və digər iştirak formaları ilə aprobasiyadan keçirilmişdir. Tədqiqat zamanı müəllifin, ümumiyyətlə iki yüz çap vərəqindən çox 10 monoqrafiyası, o cümlədən mövzu ilə bağlı yeddi monoqrafiyası, yüzə qədər məqaləsi ölkədə və xaricdə, nüfuzlu elmi jurnallarda türk, rus, ingilis, qazax, ukrayna, bolqar və Azərbaycan dillərində çap edilmişdir. Bu məqalələrin on beşi beynəlxalq, on beşi respublika konfranslarının materiallarında dərc edilmişdir. Ulu Öndər Heydər Əliyevin doğum günləri, dövlət müstəqilliyinin bərpası, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Konstitusiya Məhkəməsi, Ombudsman Aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsi, Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Polis Akademiyası, Müəllimlər İnstitutu və digər qurumlarla birlikdə keçirilən «Hüquq elminin müasir problemləri və həlli yolları», «Məi-

şət zorakılığı ilə mübarizənin müasir problemləri», «Cinayətkarlıqla mübarizə», «Qadın və uşaq hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması, qadın və uşaq hüquqlarına təhdid», «İnsan hüquq və azadlıqlarının mühafizəsinin və müdafiəsinin aktual problemləri» və digər bu kimi mövzularda keçirilən beynəlxalq, regional və milli səviyyədə keçirilən konfransların materiallarında əks olunmuşdur. «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmiş müsbət qiymətləndirilmiş və qanunvericiliyin təkmilləşdirilməsi zamanı nəzərə alınacağına dair cavab məktubu alınmışdır. Eləcə də tədqiqat nəticəsində Azərbaycan Respublikası Konstitusiyasının «Ailə, uşaqlar və dövlət» adlanan 17-ci maddəsinin, «Nikah hüququ»na həsr olunmuş 34-cü maddəsinin, Ailə Məcəlləsinə təklif olaraq hazırlanmış 6 «a» maddəsinin, eləcə də Ailə, Mülki, Mülki-Prosessual, Cinayət Məcəllələrinə edilmiş çoxsaylı təkliflər monoqrafiyada tam əks olunmuş və mütəxəsislər tərəfindən yüksək qiymətləndirilmişdir. Bütün bunlar mövzunun tədqiqi ilə bağlı problemin həllinə doğru ciddi səylər göstərildiyini tam təsdiq edir və əsəri elmi dəyərinin yüksək olduğunu göstərir.

# I FƏSİL. AİLƏLOGİYA – MÜASİR ELM SAHƏSİ KİMİ

## 1.1. Ailəlogiya – müasir dövrümüzün yeni və aktual elm sahəsi kimi

Qloballaşan dünyada cəmiyyətin, dövlətin, ailənin, şəxsiyyətin və dinin müasir problemlərinin elmi-nəzəri tədqiqi təsdiq edir ki, onlar bütün hallarda və bütün dövrlərdə insanla, şəxsiyyətlə, cəmiyyətlə və dövlətlə sıx bağlı olmuşlar. Çünki ailənin əsasını, nüvəsini insan şəxsiyyəti təşkil edir və o kişinin və qadının ailə yaratmaq məqsədi ilə, könüllü birliyi əsasında yaradılır. Yer üzərində mövcud olan bütün canlıların ən dəyərlisi, ictimai-siyasi və tarixi fəaliyyətin, təkamül prosesinin, mədəniyyətin və sivilizasiyanın əsas subyekti, ailənin yaradıcısı, məhz insandır. O, bütün fəlsəfi problemlərin əsas obyekti olmaqla, şəxsiyyəti təcəssüm etdirən xassə, keyfiyyət və dəyərlərin ölçüsüdür. Cəmiyyəti də, ailəni də, dövləti də yaradan və quran insan təfəkkürü, insan fəaliyyətidir. Bu gün bütün sahələrdə dinamik inkişafda olan müasir Azərbaycan Respublikasında ailə, öz funksiyalarına, daşıdığı rola və cəmiyyətə göstərdiyi fəal təsir effektlərinə görə son dərəcə mühim əhəmiyyətə malikdir. Azərbaycan ailəsi ən önəmli bir institut olaraq, kişinin və qadının ailə qurmaq və nəsil artırmaq məqsədilə yaratdıqları və birgə həyatın cəmiyyət tərəfindən qəbul olunmuş sosial formasını, hüquqi məzmununu ifadə edir. Ailənin sosial və hüquqi təsisat, xüsusilə ailəlogiya elminin bir institutu kimi kompleks elmi-nəzəri tədqiqi mühim əhəmiyyət kəsb edir. Mənəvi baxımdan ailənin strukturunu və ailədaxili münasibətlərin əsasını tarixən tənzim edilən adətlər və ənənələr, ailə qurmağın qaydaları, hüquq normaları, tərəflərin öz rolu ilə bağlı statusu – hüquqları, azadlıqları və vəzifələri, habelə həyatın bu sahəsində cəmiyyətin təsdiq etdiyi və formalaşdırdığı simvollar sistemi təşkil edir [142; 274, s.168].

Cəmiyyətin, şəxsiyyətin və dövlətin həyatında ailəni əvəz edəcək və ailə qədər dəyərli bir insan birliyi yoxdur. İctimai-siyasi quruluşlar, rejimlər, dövlət və hüquq, dəyərlər sistemi zaman keçdikcə dəyişir, ailələr isə dünyaya insan gətirərək, onu böyüdərək, şəxsiyyət kimi yetişdirərək, cəmiyyətə öz dəyərli töhfələrini verirlər. Ailə tarixən mövcud olmuşdur və onun həmişə olacağı da heç bir şübhə doğurmur [261, s.7-31, s.67-79].

Müstəqillik illərində dövlətin, ailənin və şəxsiyyətin dinamik inkişafı üçün əhəmiyyətli işlər görülmüş, ardıcıl, sistemli və kompleks tədbirlər həyata keçirilmişdir [48, s.14-27; 55, s.3-577; 129, s.221-287; 164, s.5-11, s.112; 246, s.6-65; 247, s.67-110]. Fəqət, misilsiz əhəmiyyətinə və tarixi roluna baxmayaraq ailənin müxtəlif hüquq elmlərinin bir institut olaraq statusunun, beynəlxalq hüquqla müqayisəli tədqiqi və təhlili indiyə qədər aparılmamışdır [304, s.6-7]. Akademik V.N.Kudryavtsev yazır ki, hər hansı bir anlayışın və ya hadisənin mahiyyətini aydınlaşdırarkən, yaxud ona tərif verərkən, bu zaman onun elə xarakterik əlamətlərinin məcmusunun götürülməsi zəruridir ki, bu tərif və ya anlayış, həmin hadisənin və ya təzahürün mahiyyətini aça bilsin, onun arxasında dayanan gerçəkliyin obyektiv qanunauyğunluqlarını üzə çıxarmış olsun [429, s.36-37]. R.Dekart isə göstərirdi ki, anlayışları dəqiqləşdirin və siz dünyanı yanılmaqdan xilas etmiş olarsınız [516, s.119-131]. Bu baxımdan hər hansı bir problemin tədqiqinə əsas anlayışların mahiyyətinin müəyyən edilməsindən başlanılması, təcrübədə özünü doğruldan yaradıcılıq üsullarından biri hesab edilir. Ailənin konstitusiya hüquqi statusunun tədqiqi kimi mürəkkəb və çox əhəmiyyətli bir problemin araşdırılması üçün ilk öncə, «institut», «status», «ailə», «nikah», «qadın», «uşaq» və sair bu kimi terminlərə aydınlıq gətirilməlidir. Latın dilində «bərqərar etmə», «yaratma», «təşkil etmə» mənasını verən «institutum» sözündən [50, s.557] əmələ gələn «institut» məfhumu – ictimai siyasi və humanitar elmlərdə şəxsiyyətin, cəmiyyətin, ailənin və dövlətin əsas problemlərinin tədqiqi zamanı istifadə edilir. Elmdə «institutium» sözü dəyərli ictimai sərvətləri və norma səciyyəsi daşıyan qaydaları özündə birləşdirən, obyektiv və subyek-

tiv əlaqələr və münasibətlər əsasında formalaşan, subyektlərin konkret rolunu və statusunu bir sistem kimi, sabit və kompleks şəkildə ifadə edən, xüsusi tipli inteqrativ bütövlük təsisatı mənasını ifadə edir [274, s.169-171]. «Ailə»nin fundamental bir dəyər, bir institut olaraq konstitusiyada təsbit edilməsi önəmli bir hadisədir. Latın dilində «hüquqi vəziyyət», «əsasnamə» kimi mənaları ifadə edən «status» sözü, elmi ədəbiyyatlarda geniş istifadə edilir. Ona oxşar olan «statut» sözü, bəzən sinonim sözlər kimi işlədilsə də, əslində «statut» sözü, latın dilində «qərara alıram» mənasını ifadə edir və «status» sözündən fərqlənir. AR Konstitusiyasının 94-cü maddəsinin 3, 5, 7, 10-cu bəndlərində, 114, 134, 142 və bir sıra digər maddələrində «status» sözündən istifadə edilmişdir [86, s.40-81]. Bu söz, konstitusiyanın əsas və həm də fundamental institutlarının mahiyyətini aydınlaşdırmaq və onların statusunu dəyərləndirmək üçün istifadə edilmişdir [301, s.12-24; 352, s.30; 375, s.90-93]. Ailənin və nikahın bir institut olaraq, konstitusiya hüquqi statusu dedikdə, ailənin və nikahın yaranmasının hüquqi əsasları, ailənin hüquqları, vəzifələri, öhdəlikləri, habelə nikahın mahiyyəti, ona xitam verilməsinin əsasları başa düşülür. İşdə istifadə edilən «müasir» ifadəsi, bir tərəfdən problemin zaman meyarını, müstəqillik mərhələsini əhatə edən müasirliyini, digər tərəfdən isə bu mərhələnin cəmiyyətdə gedən qloballaşma, inteqrasiya və transformasiya prosesləri şəraitində inkişafını səciyyələndirir. A.V.Qulıqaya görə, indiki dövr mənasında başa düşülən «müasirlik», keçmişdən gələcəyə keçid mərhələsini ifadə edən zamanın bu günki vaxt meyarını, hazırki anını ehtiva edir . Müasirlik, həm də əsrin və ya günün tələblərinə müvafiqlik, özünü cəmiyyətin inkişafının əvvəlki dövlərinə qarşı qoyan epoxa – yeni dövr mənasında işlədilmişdir [227, s.247-264]. Bu da milli dövlətin və ailənin müstəqil, demokratik və hüquq quruculuğu kimi keyfiyyət göstəricilərinə, azərbaycançılıq ideologiyasına söykənən milli mənəvi və əxlaqi dəyərlərinin müasir elementlərini özündə birləşdirir [48, s.16-21]. Qərbdə ailə dəyərlərinin sürətlə qiymətdən düşdüyü, ailənin isə ciddi böhran keçirdiyi qloballaşma mərhələsində Azərbaycan əhalisinin sayı demək olar ki, artıq 11 milyon nəfərə yaxınlaşır. Ailələrin sayı isə 2 milyon

80 mini keçmişdir [113]. Ölkədə ildə orta hesabla yüz minə yaxın yeni ailə yaradılır [178]. Əhalinin, ailənin və yeni yaradılan ailələrin sürətlə artması, qloballaşma, inteqrasiya və transformasiya şəraitində, müasir Azərbaycan ailəsinin bir institut olaraq elmi-nəzəri tədqiqinin ailəlogiya elmi baxımından müqayisəli öyrənilməsi, ailə və ailə üzvlərinin hüquqlarının və vəzifələrinin təhlili, ailə institutunun müasir problemlərinin müəyyən edilməsi, həlli, hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi, həm insan üçün, həm də cəmiyyət və dövlət üçün olduqca vacib və əhəmiyyətlidir [155, s.12-34; 248, s.7-12; 265, s.181-190; 303, s.5-11; 353, s.85-90; 367, s.5-18; 369, s.56-62; 458, s.34-44; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15]. Problemin genişliyi, aktuallığı və əhəmiyyəti nəzərə alınaraq, onun kompleks və sistemli tədqiqi təmin edilmişdir. Bu gün müasir Azərbaycanda ailənin və nikahın konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqi, ölkədə mühim sosial mədəni, mənəvi-hüquqi əhəmiyyət kəsb edən yeni və böyük problemin uğurlu həllinə, ailəlogiya elminin ümumilikdə təşəkkülünə və inkişafına xidmət edir. Bu ölkənin və ailənin gələcəyi və perspektivləri üçün olduqca əhəmiyyətlidir. Azərbaycan ailəsinin hüquqi statusunun konstitusiyada və beynəlxalq hüquq normalarında ona verilən böyük dəyərin və önəmin təcəssümüdür. Ailənin statusunu təsbit edən konstitusiya və beynəlxalq hüquq normaları öz tənzim etmə predmetinə, dəyərinə, məzmununa, oxşarlığına, təkrarlanan, yekcins və bir tipli olması keyfiyyətlərinə görə konstitusiya, konstitusiya hüququ, beynəlxalq hüquq və ailəlogiya elminin müstəqil bir institutu hesab edilir [155, s.12-34; 248, s.7-12; 265, s.181-190; 303, s.5-11; 353, s.85-90; 367, s.5-18; 369, s.56-62; 458, s.34-44; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15].

Bir elm kimi beynəlxalq hüququn çoxsaylı tədqiqatçıları – F.İ.Kojevnikovun, V.M.Şumilovun, H.Hegelin, İ.Tripelin, K.Naginin, F.Martensin, N.Kelsenin, H.Rupinin, A.Holsendorfun, N.A.Bezobrazovun, O.Kantın, V.A.Nezabitovskinin, N.M.Komarovun, F.Listin, Ə.Əsgərovun, L.Hüseynovun, R.Məmmədovun və onlarla başqalarının rusca «международное право», ingiliscə «international

law», almanca «volkerrecht», türkcə «milletlerarası hüquq», Azərbaycanca «beynəlxalq hüquq», yaxud «xalqlar hüququ» (yus gentium), «xarici dövlətlər hüququ», «dövlətlər hüququ», «cəmiyyət hüququ», «dünya hüququ», «dövlətlərarası hüquq», «qlobal hüquq», «beynəlmiləl hüquq» və s. bu kimi müxtəlif adlarla təqdim etdiyi, bu gün isə milli hüquq elmimizdə son olaraq «beynəlxalq hüquq» kimi qəbul edilən bir elm sahəsi hesab olunur. Beynəlxalq hüquq suveren dövlətlər, dövlətlərarası beynəlxalq və regional təşkilatlar, transmilli kooperasiyalar, beynəlxalq münasibətlərin digər subyektləri arasında siyasi, iqtisadi, hərbi, hüquqi, humanitar, geopolitik, elmi-mədəni və digər beynəlxalq münasibətləri, bu münasibətləri nizama salan, tənzim edən beynəlxalq hüquq normalarının səciyyəvi xüsusiyyətlərini, beynəlxalq təşkilatların təşkili, fəaliyyəti və statusunu tədqiq edib öyrənən, onun qanunauyğunluqlarını müəyyən edən elmi fəaliyyət sahəsidir. Bu hüquq sahəsi dünyada sülh və təhlükəsizliyi qorumaq, beynəlxalq hüququn prinsip və şərtlərini təmin etmək, dövlətlərin suverenliyini və ərazi bütövlüyünü qorumaq, insan hüquqlarına və azadlıqlarına yüksək dəyər kimi əməl etmək və çoxsaylı digər prinsiplərə əsaslanaraq beynəlxalq problemlərin həllinə xidmət edir. Bu baxımdan BMT-nin Baş Məclisi tərəfindən 11 dekabr 1946-cı il tarixdə qəbul edilmiş «Beynəlxalq hüququn proqressiv inkişafı və məcəllələşdirilməsi haqqında» Qətnamə mühim tarixi hadisə kimi qiymətləndirilə bilər. 1990-2000-ci illəri əhatə edən «Beynəlxalq hüquq onilliyi» tədbirlər sisteminin keçirilməsi bu elmin inkişafına mühim töhfələr vermişdir. Bu gün qloballaşan dünyada müxtəlif millətlərin, müxtəlif sivilizasiyaların, müxtəlif mədəniyyətlərin, müxtəlif xalqların, müxtəlif dinlərin, müxtəlif dillərin, müxtəlif siyasi rejimlərin, müxtəlif dövlət quruluşlarının fəaliyyət göstərdiyi planetdə ahəngdar harmoniyanın – vahid dünya hüquq məkanının və dünya nizamının formalaşmasında, qorunub saxlanmasında və inkişaf etdirilməsində beynəlxalq hüququn mühim rolu xüsusi olaraq qeyd edilməlidir. Dünya ölkələrində milli hüquq sisteminin əsasında dayanan milli konstitusiyaların ən çox əsaslandığı, ən çox inteqrasiya və sintez olunduğu elm sahəsi məhz beynəlxalq hüquq elmi və beynəlxalq hü-

quq normaları hesab edilə bilər. Çünki müasir suveren dövlətlər beynəlxalq hüquqi əlaqələrini, onun prinsip və şərtlərini ilk öncə öz konstitusiyalarında təsbit edir və inkişaf etdirirlər. Bu baxımdan hüququn və beynəlxalq münasibətlərin müxtəlif problemlərinə dair tədqiqatlarda beynəlxalq hüquq normalarından və beynəlxalq hüquq elminin nailiyyətlərindən istifadə edilməsi olduqca zəruridir. Ailələgiya elmi isə yeni və müasir elm sahəsi olmaqla, ailə haqqında ümumi elmi təlimləri,ailənin ən müxtəlif ictimai-siyasi,humanitar və təbiət elmləri tərəfindən əldə edilən elmi müddəaların və nəticələrin kompleks elmi nəzəri tədqiqini öyrənir. Müstəqilliyin ilk illərində – «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» 16 avqust 1994-cü ildə 106 saylı Sərəncam, «Azərbaycan Respublikasında beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi haqqında» 13 iyun 1995-ci il tarixli Qanun, «İdarələrarası xarakter daşıyan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydalarının təsdiq olunması haqqında» 20 dekabr 1996-cı il tarixli 526 saylı Fərman, «Beynəlxalq xüsusi hüquq haqqında» Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli Qanun ölkəmizin beynəlxalq və diplomatik əlaqələrinin genişlənməsində mühim əhəmiyyətə malik olmuşdur. Hər bir fərdin,ailənin,icmanın, millətin,xalqın mənafeyi iqtisadi sosial,icmtimai siyasi,mədəni maarif,mənəviyyat,hüquq və təhlükəsizlik məslələrini özündə birləşdirir. Bununla belə Heydər Əliyevin köklü islahatlar proqramında cəmiyyətin iqtisadi inkişafı, sosial inkişafı, ailənin və insanın inkişafı, ədalətli və sivil dövlət quruculuğu məsələləri, qarşılıqlı münasibətlər sisteminin təşəkkülü, insan fəaliyyətinin təşkili və cəmiyyətin siyasi həyatının inkişafı mühim səciyyəvi əhəmiyyətə malikdir. Dövri ədəbiyyatda "sosial dövlət" istilahı ilk dəfə olaraq 1850-ci ildə alman alimi Lorens Fon Şteyn tərəfindən işlədilmişdir.F.Ş Lorensə görə sosial dövlət bütün siniflərə, eləcə də hər bir vətəndaşa bərabər hüquqlar və bərabər imkanlar yaradan dövlət hesab olunur. Belə dövlətlər də hökümət bütün vətəndaşlarına iqtisadi və ictimai inkişafına siyasi, hüquqi, iqtisadi dəstək verməlidir. Bu ideyanı daha da inkişaf etdi-

rən digər alim H. Heller isə "Sosial-hüquqi dövlət" anlayışını siyasi arenaya gətirən müəlliflərdən hesab olunur.Hər hansı bir cəmiyyətdə vətəndaşların hüquqi təminatları və hüquqi tənzimlənmə mükəmməl olmadan sosial rifah dövlətini yaratmaq faktiki olaraq mümkün deyildir.Buna görə də sosial dövlətin əsas əlamətləri: 1. Sosial sahədə mükəmməl qanunvericiliyin olması; 2. Dövlət tərəfindən müxtəlif sosial yönümlü proqramların hazırlanması və həyata keçirilməsi; 3. Vətəndaş cəmiyyətinin qurulması; 4. Dövlətin öz vətandaşları qarşısında sosial məsuliyyəti; 5. Dövlət tərəfindən hər bir vətəndaşın sosial müdafiəsinin təmin olunması və layiqli həyat şəraitinin yaradılması; 6. Layiqli sosial, iqtisadi, mədəni həyat təminatları əldə etmək üçün hər kəsə bərabər imkanlar yaradılması 7. Ölkənin iqtisadi inkişafının yüksək səviyyədə təmin olunması və s.

Sosial dövlət quruculuğuna ötən əsrin ortalarından, II Dünya müharibəsindən sonra başlanmışdır. Dünyada ilk dəfə 1949-cu ildə Almaniya Federativ Respublikası özünü sosial dövlət olduğunu bəyan etmişdir. Sosial dövlət qurulmasının başlıca şərti o dövlətdə sosial ədalətin, demokratiyanın və hüququn aliliyinin təmin olunmasında ifadə olunur. Bu da sosial dövlətin aşağıdakı əsas fünksiyaları yerinə yetirməsində ifadə olunur: 1. Sosial müdafiəyə ehtiyacı olan şəxslərin ( əlillər, qocalar, işsizlər və s.) qayğısını öz üzərinə götürmək; 2. Əməyin mühafizəsini və insanların sağlamlığını təmin etmək ; 3. Ailəyə, ana və uşaqlara dəstək vermək; 4. Gəlirlərin yenidən bölüşdürülməsi yolu ilə sosial qeyri-bərabərliyi yumşaltmaq; 5. Xeyriyyəçilik fəaliyyəti üçün geniş imkanlar yaratmaq; 6. Təhsil və mədəniyyət proqramlarına maaliyə yardımı göstərmək; 7. İşsizliklə mübarizə və s.

Ölkəmizdə sosial dövlət ideyasının reallaşdırılması dövlətin kompleks islahat proqramlarının həyata keçirilməsi yolu ilə həyata keçirməkdədir və bu sahədə yadda qalan uğurlar əldə edilmişdir. Bu zaman ölkəmizin 1988-ci ildən cəlb edildiyi Qarabağ müharibəsinin mühim mənfi təsirini və təzahürlərini qeyd etməmək olmaz. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandan, cənab İlham Əliyevin birbaşa təşəbbüsü ilə həyata keçirilən ardıcıl və sistemli təd-

birlər nəticəsində 27 sentyabr 2020-ci ildən başlayaraq 30 ildən çox işğal altında olan ərazilərimizin 44 gün ərzində erməni faşistlərindən azad edilməsinin tariximizin ən böyük və ən uğurlu qələbəsi kimi xüsusi olaraq qeyd edilməsi millətin, xalqın və ailələrin xilas yolu kimi ölkənin ictimai-siyasi və sosial həyatında ən yadda qalan hadisələrdən birinə çevrilməsini qeyd etməmək olmaz. Bu qələbə müzəffər Ali Baş Komandanın rəhbərliyi, canından keçməyə hazır olan əsgərlərimizin- igidlərimizin, xalqın qəhrəman oğullarının həyatı bahasına başa gəldiyini xüsusi ilə qeyd etmək zəruridir [107].

Beynəlxalq hüququn milli hüquqa uyğunlaşdırılması və tətbiqinin inkorporasiya, istinad və resepsiya üsullarından yaradıcılıqla istifadə edilsə də, Azərbaycan Respublikasının referendum yolu ilə qəbul edilmiş ilk milli Konstitusiyasında dövlətlərlə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarının nəzərdə tutduğu prinsiplərə əsaslandığı təsbit edilmiş, beynəlxalq hüquq normalarının qanunvericilik sistemimizin ayrılmaz tərkib hissəsi olduğu bəyan edilmişdir. Ölkəmizin qoşulduğu və ratifikasiya edilmiş beynəlxalq hüquqi aktların hüquqi qüvvəsinin üstünlüyü tanınmışdır. Ölkədə qanunvericilik sisteminin beynəlxalq hüquq normalarına uyğun olaraq hazırlanmasında BMT Nizamnaməsinin, BMT-nin «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»sinin müstəsna əhəmiyyəti olmuşdur. Bu sənəd dünya hüquq mədəniyyətinin və hüquq düşüncəsinin ən yaxşı nümunəsi və nailiyyəti olmaqla yanaşı, Azərbaycan milli qanunvericilik sisteminin hazırlanmasında da əhəmiyyətli rol oynamışdır. Etiraf edilməlidir ki, «Ümumi Bəyannamə» BMT Baş Məclisi tərəfindən Qətnamə formasında qəbul edildiyinə görə, ilk öncə o yalnız Tövsiyyə xarakteri daşısa da, zaman keçdikcə «Ümumi Bəyannamə», bu gün beynəlxalq hüququn və mütərəqqi milli hüquq sistemlərinin əsas və başlıca mənbələrindən biri hesab edilir. Bəyannamə 360-dan çox dilə tərcümə olunmuş və BMT-nin üzvü olan 200-dən çox dövlət, öz milli Konstitusiyalarının hazırlanmasında bu sənəddən istifadə etmişdir. BMT Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şurasının, Hamilik Şurasının, Haaqa Beynəlxalq Məhkəməsinin, BMT-nin ixtisaslaşmış qurumlarının, 16

dekabr 1966-cı ildə qəbul edilmiş «Mülki və siyasi hüquqlar haqqında», «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktlar, «Uşaq hüquqlarına dair» Konvensiya, «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmə və müdafiə etmək haqqında hüquq və məsuliyyət haqqında» BMT Bəyannaməsi, Avropa Birliyinin, İslam Əməkdaşlıq Təşkilatının, MDB-nin, Beynəlxalq Əmək Təşkilatının, Avropa İnsan Hüquqları Məhkəməsinin, Avropa Sosial Xartiyasının, Avropa Şurasının və digər təşkilatların konvensiyaları, qərarları, qətnamələri, tövsiyyələri, bəyannamələri, görkəmli alimlərin əsərləri və rəyləri beynəlxalq hüququn inkişafında əhəmiyyətli rol oynamışdır. Buna görə də ailənin konstitusiya hüquqi statusunun tədqiqi zamanı onun bu və ya digər institutlarının tədqiqində beynəlxalq hüquq normalarının bir mənbə kimi yerinə və roluna müvafiq diqqət yetirilmiş, konstitusiya hüquq normalarının beynəlxalq hüquqi əsaslarına aydınlıq gətirilmiş və müqayisəli təhlillər aparılmışdır. Bu da tədqiqatın kompleksliliyini təmin etmişdir. Ölkənin ən ali və ən yüksək normativ hüquqi aktı hesab edilən milli konstitusiyanın hazırlanması və qəbulu zamanı, müstəqillik illərində ratifikasiya edilmiş beynəlxalq hüquq normalarından yaradıcılıqla istifadə edilmişdir. Konstitusiyamız öz mahiyyəti və məzmunu etibarilə, konstitusiya hüquq normalarının məcmusundan ibarət olmaqla, onun funksiyalarının və qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edən bütöv və mükəmməl bir sistemdir [130, s.20-29; 155, s.11-63; 255, s.145-156]. Bu normaların mühim təsbit və tənzim etmə xüsusiyyətləri vardır. O cəmiyyətdə, dövlət həyatında və şəxsiyyətlə bağlı münasibətlərin ümumi parametrlərini, tənzimləmə hədlərini, müxtəlif dövlət və beynəlxalq təsisatların biri-birinə olan münasibətlərini, hüquqlarını və vəzifələrini ən yüksək səviyyədə təmin edir. Belə normalar definitiv və prinsip müəyyənedici normalar hesab edilirlər. Onların təsbit olunması və realizə mexanizmləri, özünəməxsus fərqli səciyyə daşıyır. Çünki konstitusiya hüquq normaları ölkədə ən yüksək və ən güclü hüquqi qüvvəyə - səlahiyyətverici, məcburedici və qadağanedici xüsusiyyətlərə malikdirlər. Bu normalar nizamladığı ictimai münasibətlərin dəyərinə, xüsusiyyətlərinə, səciyyəvi cə-

hətlərinə görə «institut» adlanan müəyyən bircinsli qruplarda birləşir, oxşar, yekcins və bir tipli münasibətləri təsbit edir [130, s.20-29; 155, s.11-63; 258, s.49-51]. Bu normalar beynəlxalq hüquqi prinsiplərə söykənərək öz reallaşdırma xüsusiyyətlərinə, eynicinsli, eyni tipli obyektlərə, subyektlərə, ictimai münasibətlərin dairəsinə görə qruplaşdırılır və təsnifatlaşdırılır. Ölkənin hakimiyyət, dövlət və siyasi sistemində biri-biri ilə sıx əlaqədə və ümumi vəhdətdə olan belə institutlar konstitusiyanın strukturunda əsas yerləri tutur, bölmələrdə və fəsillərdə ardıcıllıqla və bir sistem olaraq yerləşdirilirlər. İdarəetmə üçün onun komponentlərinin və qarşılıqlı əlaqələrinin sistemi, prinsipial əhəmiyyət kəsb etməklə nəzəri və metodoloji əhəmiyyətə malikdir [411, s.11-20]. Mühim bir yanaşma və müasir paradiqma kimi sistemlilik, idarəetməyə lazımi yekdillik, koordinasiya, məqsədəyönlülük və səmərəlilik verir. Məlumdur ki, hər hansı bir problemin dərin nəzəri tədqiqinin əsas vasitələrdən biri, məhz sistemli təhlil metodu hesab olunur. Sistemin təşkili, sistemin mövcudluğunu saxlamaq üçün qarşılıqlı əlaqədə olan, hissələrarası münasibətlərin vəhdətində özünü göstərir və sistemin bütövlüyünü təmin edir. Sistem anlayışı ümumi məqsədlərə çatmaq, bütövlüyü saxlamaq, müəyyən zaman kəsiyində onu qaydaya salmaq və tənzimləməklə xarakterizə olunan çoxsaylı əlaqəli hissələrin, komponentlərin qarşılıqlı təsiri kimi ifadə olunur. Sistemin səciyyəvi əlamətləri – özünün qarşılıqlı əlaqədə olan hissələrinin və təsirinin mövcudluğunda, məqsədə çatmaq üçün qarşılıqlı təsirin mükəmməl nizamnlanmasında özünü göstərir. Sistemin əsas komponentlərinə, onun elementləri, elementlər arası qarşılıqlı münasibətləri, alt sistemi və sistemin strukturu daxildir. Sistemi təşkil edən elementlər, qarşılıqlı əlaqəni, qarşılıqlı təsiri və qarşılıqlı asılılığı göstərmək üçün sistemə iyerarxiya və mürəkkəb təsnifatlar verir. Açıq və ya özünübərpa sistemləri, əslində canlı ilə cansız arasında bir sədd təsirini bağışlayır. İnsan özünü dərk edir, onda yüksək inkişaf etmiş hafizə, iradə, nitq, təhlil, məlumatı qəbul etmək və müqayisə etmək kimi qabiliyyətlər vardır. İdarəetmənin obyekti, ən əvvəl işin əsas aparıcı qüvvəsi olan insanlardan, müxtəlif elementlərlə qarşılıqlı təsirdə olan komponentlərdən – kapital, başqa

vəsaitlər, müasir istehsal alətləri, əmtəə, mütərəqqi texnologiya və mükəmməl informasiya təminatlarından ibarətdir [233, s.79-96; 272, s.12-21]. Bütün bunlarla yanaşı hər bir sistemin əsas, başlıca və ən vacib elementi, hərəkətverici qüvvəsi insandır. O idarəetmənin həm subyekti və həm də obyekti hesab oluna bilər. Cəmiyyətdə baş verən proseslərin hamısı insanın ağlı ilə dərk edilir və əməlləri ilə ona reaksiyalar verilir. Buna görə də insan fenomeni bütün elmlər tərəfindən tədqiq olunur və bütün tədqiqatların əsasında dayanır. Subyektin əsas məqsədi idarəetmə obyektinin inkişafına, insanların sosial rifahının yaxşılaşdırılmasına və maraqlarının təmin olunmasına xidmət edir. Subyektlə obyektin əlaqələri birbaşa, qarşılıqlı əlaqədə və münasibətdə olur [519]. Bu baxımdan insanın və ailənin idarə edilməsi olduqca məsuliyyətli bir fəailiyyətdir və dövlət idarəçiliyi vərdişləri üçün bir örnək rolu oynaya bilər. Öz ailəsini idarə edə bilməyən hökmdarların,rəhbərlərin cəmiyyəti və dövləti uğurla idarə edə bilməsi inanılmazdır.

Konstitusiya hüquq institutları daim dinamikdir, inkişafdadır, dəyişkəndir və zərurət yarandıqda, müəyyən islahatların aparılmasını şərtləndirir.Onun mühim xüsusiyyəti öz sabit məzmunu ilə cəmiyyətdə də sabitliyin təmin olunmasına xidmət etməsində ifadə olunur. Belə sənəd bütöv sistem, alt sistem və ya sahə sistemi kimi qruplarda təsnifatlaşdırılır və daim qarşılıqlı əlaqədə özünü göstərir. Konstitusiyanın rolu ayrı-ayrı hüquq normalarında ifadə edilməklə, əslində hüquqi funksiyanı, tənzimlənməni həyata keçirmək yolu ilə ayrı-ayrı fundamental dəyərlərin təsbitini də təmin edir. Sabitlik hüquq sisteminin özəyi olan konstitutsiyanın mahiyyəti, onun demokratik təbiəti və ictima münasibətlərin davamlılığı ilə şərtlənir.Təsadüfü deyil ki Konstitutsionalizmin siyasi hüquqi mahiyyəti birbaşa konstitutsiya münasibətlərin sabit inkişafı ilə bağlı olaraq qanunçuluq rejiminin sabitliyi,insan hüquqlarının və azadlıqlarının aliliyi hakimiyyətin bölünməsi vətəndaş və dövlət arasında qarşılıqlı məsuliyyətin təmin olunmasıvacib şərtlər hesab olunur. Müəlliflərdən A. Şayo «konstituonalizmi»-ictimai sabitlik məqsəd ilə hakimiyyətin məhdudlaşdırılması prosesi kimi səciyyələndirir. Konstitusiya dövlətin özünəməx-

sus atributu olmaqla sosial və siyasi qüvvələrin nisbətini, cəmiyyətin vəziyyətini, inkişaf meyillərini təcəssüm etdirir. Sosial funksiya, ölkədə mövcud olan sosial sistemin mahiyyətinə və məzmununa uyğun olaraq məhz konstitusiya vasitəsilə və ona uyğun olaraq həyata keçirilir. Konstitusiyanın siyasi funksiyası xalq, dövlət, hakimiyyət, vətəndaş cəmiyyəti və digər bu kimi təsisatların statusunu, hüquqlarını, vəzifələrini və öhdəliklərini müəyyən etməklə, tərbiyə və tənzimlənmə fəaliyyətini yerinə yetirməsi bir-başa təsbit olunmuşdur [388, s.3-22]. Konstitusiyanın məzmununda onun sosial dövlət xüsusiyyətləri ifadə olunur. İqtisadiyyatın sosial yönümlü inkişafı, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmə məqsədini güdən dövlətin sosial siyasətinin əsasını təşkil etməsi, əslində dövlətin üzərinə bu istiqamətdə müvafiq öhdəliklər qoymuşdur.Sosial dövlət ideyası alman mütəfəkkiri Lorens fon Şteyn tərəfindən hələ 19-cu əsrdə irəli sürülsədə, müasir dövrümüz üçün bu məqsəd artıq prioritet məqsədlərə çevrilmişdir. Başqa sözlə, sosial-dövlət elmi səviyyədə ideya və bu ideyanın inkişaf konsepsiyası kimi normativ səviyyədə dövlətin əsas qanunlarında təsbit olunmuş prinsip kimi, empirik səviyyədə isə cəmiyyətin sosial problemlərinin həllinə yönəlmiş praktik fəaliyyət kimi nəzərdən keçirilir.AFR Konstitusiyasının 20-ci maddəsində, Fransa Konstitutsiyasının 1-ci maddəsində, İtaliya Konstitusiyasının 2-ci maddəsində sosial-dövlət ideyası öz təsbitini tapmişdır. Azərbaycan Respublikası Konstitutsiyasının 15-ci maddəsinin 2-ci hissəsində isə ölkəmizin sosial yönümlülüyü birbaşa təsbit olunmuş, 12-ci maddəsinin 1-ci hissəsində isə iqtisadiyyatın sosial yönümlü olması ilə vətəndaşların layiqlı həyat səviyyəsinin təmin edilməsi öhdəliyi dövlətin üzərinə qoyulmuşdur.Bu da onu sosial yönümlülüyünü birdaha təsdiq edir.

Azərbaycan Respublikasında da ailə, öz ictimai, siyasi, iqtisadi, sosial, mənəvi və hüquqi əhəmiyyətinə, strukturna, funksional parametrlərinə, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, sosiomədəni mühitə göstərdiyi fəal təsir effektlərinə, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanmasına, insanın, cəmiyyətin və dövlətin təşəkkülünə, müasir yüksək inkişafına əhəmiyyətli təsir gös-

tərən fenomenal, sosiomədəni və hüquqi təsisat olmaqla millət və dövlət üçün əvəzsiz bir təsisatdır. İnsan birliyinin ən qədim və ən geniş yayılmış və əhəmiyyətli formalarından olan ailə - insan nəslinin davamlı istehsalı və inkişafı üçün əvəzsiz və əsas rol oynayır. Öz daxili identikliyinə, müstəqilliyinə, ümumi və özünəməxsus səciyyəvi xüsusiyyətlərinə görə hər bir ailə tarixən həmişə özünə məxsus cəhətlərinə görə fərqlənmiş, təkrarsız və bənzərsiz olmuşdur. Ailələrin yaranmasında, formalaşmasında və inkişafında, qadının və kişinin bir-birinə olan təbii-fizioloji tələbatı, bioloji vəhdəti, sosial həmrəyliyi, hüquqi birliyi dayansa da, nəticə etibarilə, insan nəslinin davam etdirilməsinə olan maraq və məqsəd, bu birliyin yaranmasında əhəmiyyətli rol oynamış, cəmiyyətdə insan nəslinin tarixi mövcudluğunu və inkişafını təmin etmişdir. Kişinin və qadının bir-birinə olan təbii tələbatı ilə yanaşı, nəsilartırmaq motivi ailənin bioloji, mənəvi mövcudluğu və psixoloji əsasında dayanır. Bu bir biofizioloji, sosiomədəni proses olaraq, fasiləsiz davam etmiş, təbii və qanunauyğun bir təzahürə çevrilmişdir. Ailənin funksional vəzifələrinə daxil olan digər çoxsaylı maraqlar və məqsədlər tarixin sonrakı inkişaf mərhələlərində yeni-yeni elementlərlə zənginləşsə də, lakin təbii-fizioloji tələbatın ödənilməsi və nəsil artırmaq motivi hər zaman öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamışdır. Reallıq isə bundan ibarətdir ki, qadın və kişi münasibətləri olmadan, onların bioloji vəhdəti baş vermədən, cəmiyyətin və dövlətin, insan nəslinin ardıcıl, sistemli və davamlı inkişafını təmin etmək mümkünsüz olardı. Ailə - qadın və kişi ittifaqının sosiomədəni təzahür forması, təşkilati-hüquqi əsası olmaqla, bioloji, sosial, iqtisadi, hüquqi, mənəvi-əxlaqi və siyasi mahiyyət daşıyır, cəmiyyətin əsasını təşkil edir. Ailəyə müxtəlif elmlər tərəfindən verilən definisiyalar bəzi xüsusiyyətlərinə görə fərqlənsə də, lakin onların başlıca meyarları əsasən üst-üstə düşür [30, s.12-24; 223, s.3-6; 261, s.7-14; 312, s.63, s.121; 315, s.86-94; 492]. Müasir hüquq və sosiologiya elmlərində mövcud olan nəzəri müddəaları məcmu şəkildə ümumiləşdirərək, qanunvericiliklə müəyyən edilmiş prinsipləri və şərtləri nəzərə alaraq, əsasən hamı tərəfindən qəbul edilməsi mümkün hesab edilə bilən yekun bir nəticəyə gəlmək olar ki, konsti-

tusiya hüquqi təsisat – institut olaraq ailə – qanunla müəyyən edilmiş nikah yaşına çatmış qadının və kişinin, qarşılıqlı məhəbbətinə, hüquq bərabərliyinə, biri-birinə olan hörmət hisslərinə, yardımına, məsuliyyətinə, ailənin ümumbəşəri beynəlxalq və milli prinsiplərinə və dəyərlərinə əsaslanan, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən, ailə qurmaq məqsədilə yaradılmış və müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilmiş nikah əsasında yaradılan könüllü insan birliyi, ər-arvad ittifaqıdır [30, s.12-24; 223, s.3-6; 261, s.7-14; 312, s.63, s.121; 315, s.86-94; 491, s.44-51] Azərbaycan dövlətinin ailə siyasətinin əsas məqsədi – ölkədə hər bir ailənin xoşbəxtliyini təmin etməyə, ailə həyatının keyfiyyətini yüksəltməyə, müasirləşdirməyə, ailənin əsas vəzifələrinin və funksiyalarının uğurla yerinə yetirməyə xidmət edir. Bu siyasətin əsasını ər-arvad birliyi olan ailənin maddi vəziyyətinin stabilləşdirilməsi, çoxuşaqlı ailələr üçün bütün şəraitin yaradılması, mənzil probleminin həlli, işləyən qadınların maddi və sosial vəziyyətinin yaxşılaşdırılması, ailənin və ailə üzvlərinin, xüsusilə qadının və uşağın sağlamlığının qorunması, rifahının yüksəldilməsi, sağlam uşaqlar doğulması və böyüdülməsi, onların bir şəxsiyyət kimi yetişdirilməsi, ümumiyyətlə, ailənin xoşbəxtliyinin və rifahının, sosial dövlət siyasətinə tam cavab verə bilən bir səviyyədə təmin olunması təşkil edir [30, s.13-14].

AR Konstitusiyasına görə ölkəmizdə dövlət hakimiyyətinin yeganə mənbəyi – bir ölkənin əhalisi mənasını verən, əlahiddə coğrafi əraziyə, milli kodu kimi təcəssüm edən etnik dilə, maddi, mənəvi və spesifik sosial həyata, iqtisadi və məişət birliyinə, azərbaycançılıq ideologiyasına söykənən və tarixən formalaşmış insan birliyi konstitusiya statusu alan Azərbaycan xalqıdır. Öz müqəddəratını təyin etmək və öz idarəetmə formasını seçmək Azərbaycan xalqının suveren hüququdur. O ölkə ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan AR-nın vətəndaşlarından ibarət olmaqla, vahiddir və bütövdür. Azərbaycan xalqı Azərbaycan insanından, Azərbaycan ailəsindən ibarət olmaqla, onun vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir və milli suverenliyinin təcəssümüdür. Müstəqillik illərində referendum yolu ilə qəbul edilmiş

AR-nın Konstitusiyasının 17, 25, 29, 31-35, 38, 45, 52, 58, 66, 71, 94, 109, 119, 139, 144 və bir sıra başqa maddələrində ailə institutunun konstitusiya hüquqi statusu ilə bağlı məsələlər təsbit edilmişdir. Sonrakı illərdə keçirilən ümumxalq səsverməsi (referendum) yolu ilə bu normaların daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi təmin edilmişdir [94]. Konstitusiyanın müxtəlif maddələrində ailənin, qadının və uşağın konstitusiya hüquqi statusunun daha da möhkəmləndirilməsi təmin edilmiş və bununla da ailənin statusu tam təsbit olunmuşdur. Konstitusiyamızın bütün normaları nəticə etibarı ilə, cəmiyyətdə əsas dəyər hesab edilən ailənin statusu ilə bu və ya digər dərəcədə bağlıdır. Qısa, lakonik və məntiqi cəhətdən əsaslandırılmış normaların məzmununu özündə birləşdirən AR-nın ilk milli Konstitusiyasında ailə institutunun, ailənin strukturunda təmsil olunan subyektlərin - qadının, kişinin, uşağın hüquqi statusu müstəqil sistemlər kimi təsbit edilmişdir. Ailə və ailə ilə bağlı yaranan ictimai münasibətlərin sahəvi hüquq normaları ilə tənzimlənməsi üçün, mükəmməl hüquqi baza yaradılmışdır [306, s.49-52; 327, s.5-16; 344, s.74-83; 369, s.56-62; 565, s.5-12; 568, s.5-15].

Cəmiyyətin, yaşadığımız planetin zəngin həyatı, gözəllikləri, rəngarəngliyi, elmi kəşfləri və bütün möhtəşəm nailiyyətləri insan idrakının, insan fəaliyyətinin nəticəsidir. İnsan isə ailədə doğulur, böyüyür və cəmiyyətin ən ağıllı və ən qüdrətli bir fenomeninə, varlığına çevrilir. Buna görə də cəmiyyətin, dövlətin və insan nəslinin inkişafında ailənin böyük rolu vardır. Bu rol insanların şəxsi və ictimai həyatının müxtəlif sahələrindəki fəaliyyətlərində özünü göstərir, mürəkkəb sosiomədəni, sosial-iqtisadi, demoqrafik və digər ictimai amillərlə şərtlənərək, təşkilati və tənzimləyici funksiyalar yerinə yetirir. İnsanların davranış mədəniyyətinin formalaşmasında, inkişafında, qorunub saxlanmasında, nəsildən-nəsilə ötürülməsində, varisliyin təmin edilməsində ailə əhəmiyyətli rol oynayır. Cəmiyyət, ailə birliklərinin məcmusunu ehtiva etməklə, onları özündə birləşdirir, onları himayə edir, sıx qarşılıqlı əlaqədə və təsirdədirlər. Cəmiyyət, dövlət və din onu səciyyələndirən keyfiyyət göstəricilərinə, onda təmsil olunan subyektlərin dairəsinə və statusuna görə bir qədər mücərrəd göründü-

yü halda, ailə daha konkret statusu, daha dəqiq görünən subyektləri özündə birləşdirir. Ailənin və dövlətin idarəçiliyini müqayisə etsək, oxşar cəhətləri ilə ailənin kiçik bir dövlətə oxşadığını görə bilərik. Dövlət ailələr birliyi, ailələr ittifaqı hesab oluna bilər. Onun funksiyaları və üzərinə düşən vəzifələr geniş, rəngarəng və məsuliyyətli elementləri əhatə edir. Ailə özü bütöv bir sistem olaraq struktur tərkibində, müstəqil və ya alt sistemlər kimi səciyyələndirilə bilən subyektləri - valideynləri, uşaqları və yaxın qohumları əhatə edir [495, s.116-122]. Onların hər birinin də müstəqil olaraq öz statusu - hüquqları, vəzifələri və öhdəlikləri vardır. Cəmiyyətin və dövlətin həyatında elə bir sahə yoxdur ki, ailə bu və ya digər dərəcədə onunla bağlı olmasın və ona təsir göstərməsin. Dünyamız insanların və insan birliyi olan ailələrin üzərində bərqərar olmuşdur. Tarixi baxımdan ailə, cəmiyyətdən, dindən, dövlətdən, hüquqdan daha erkən meydana gəlmiş və onların təşəkkülündə əhəmiyyətli rol oynamışdır. Cəmiyyətin və məhsuldar qüvvələrin inkişafı, əmək bölgüsünün yaranması və formalaşması, nəticə etibari ilə sinifli cəmiyyətin və dövlətin təşəkkülünə gətirib çıxarmışdır [200, s.182-308]. Ailə münasibətlərinə müsbət yönüm verən dəyərlər sistemi, təsəvvürlər, prioritetlər və stereotiplər milli mentalitetin nüvəsini, özünəməxsusluğunu, mənlik şüurunu, etnik kodunu təşkil edir. Bu da cəmiyyətdə ailənin rolunun əhəmiyyətli olduğunu şərtləndirir. Hər bir millətin və hər bir xalqın öz mənəvi-əxlaqi dəyərlərinin, milli mənlik keyfiyyətlərinin, özünəməxsusluğunun qorunmasında ailənin mühim və ötürücü rolu vardır. Müxtəlif cəmiyyətlərdə, müxtəlif dövlətlərdə və müxtəlif millətlərdə ailələr oxşar və fərqli taleləri ilə yaşayırlar. Lev Tolstoy elə buna görə də yazır ki, bütün xoşbəxt ailələr biri-birinə bənzəyir, lakin hər bir bədbəxt ailənin özünəməxsus bədbəxtliyi vardır [269, s.3].

Nəsil pillələrinə, subyektlərə, ailə üzvlərinin sayına, cinsinə, ailədaxili münasibətlərin səciyyəsinə və digər göstəricilərinə görə böyük ailələr və kiçik ailələr, sadə ailələr və mürəkkəb ailələr, yekcins ailələr və qarışıq ailələr, milli ailələr və beynəlmiləl ailələr fərqləndirilir. Bu mənada ailənin çoxsaylı təsnifatları vardır və onlar dəyişkəndir. Ailə və nikah forma və məzmun etibarilə rəngarəngdir və təs-

nifatı zəngindir. Ailənin inkişafı, onun bütövlüyü, xoşbəxtliyi, əmin-amanlığı istisnasız olaraq hər bir ölkədə sabitliyin və tərəqqinin əsasında dayanır. Ailənin cəmiyyətin, dövlətin və şəxsiyyətin həyatındakı müstəsna rolu, funksiyaları, əhəmiyyəti və digər bu kimi vacib amillər nəzərə alınaraq, onun konstitusiya hüquqi statusunun təsbiti müəyyən tarixi zərurətdən qaynaqlanmış və bir institut olaraq ailənin konstitusiyada təsbitinə müstəqillik illərində xüsusi əhəmiyyət verilmişdir. Azərbaycan ailəsinin ənənəvi dəyərlərinin, adət-ənələrininin təşəkkülü, inkişafı və qorunub saxlanması hazırki mərhələdə dövlətimiz qarşısında duran mühim vəzifələrdən biridir. Ölkə başçısı, cənab İlham Əliyev haqlı olaraq qeyd edir ki, güclü ailə güclü dövlətdir. Məhz güclü və sağlam ailələr dövlətin əsasını təşkil edir. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və güclüdür [179, s.14-19]. Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev və onun layiqli varisi, Respublika prezidenti, cənab İlham Əliyev ölkəmizdə ailənin inkişafı və ailə münasibətlərinin hüquqi tənzimlənməsi sahəsində sistemli tədbirlər həyata keçirmişlər. Referendum yolu ilə qəbul edilmiş AR-nın Konstitusiyasında ailə və nikah institutunun təsbiti təmin edilmiş, Ailə Məcəlləsi, Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, Mənzil Məcəlləsi, Əmək Məcəlləsi və zəruri olan bir çox sahəvi normativ-hüquqi aktlar qəbul edilmişdir [75; 79; 93; 97; 98]. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və ISESCO-nun Xoşməramlı Səfiri, respublikanın Birinci Vitse-Prezident Mehriban xanım Əliyeva ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə daim böyük diqqət yetirmiş və bu xeyirxah missiya bu gün də davam etdirilməkdədir [48, s.8-35;185].

Dövlətin ali qanunu hesab edilən konstitusiyanın və konstitusiya haqqında təlimlər sistemi hesab edilən konstitusionalistikanın vətəni İngiltərə hesab olunur. İlk yazılı konstitusiya hesab edilən ABŞ Konstitusiyasının 17 sentyabr 1787-ci ildə qəbul edildiyini nəzərə alsaq, onda yazılı konstitusiyaların tarixi cəmi 234 il təşkil edir. Buna baxmayaraq həmin konstitusiyada ailənin statusuna yer ayrılmamışdır [417, s.19-20]. Azərbaycan cəmiyyətində isə ən mühim və ən qədim insan birliyi hesab edilən ailənin konstitusiya təsbitinin tarixi cə-

mi qırx ildir [103, s.19]. Dünyanın ən qədim dövlətlərindən biri olmasına baxmayaraq ailə institutu, tariximizdə ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış Azərbaycan SSR-nin sonuncu Konstitusiyasında təsbit edilmişdir [80, s.5]. Ailə və ailədaxili münasibətlər, nikah, qadın, uşaq və digər ailə üzvləri ilə bağlı olan ictimai münasibətlər ilk əvvəllər dəyərlər əsasında formalaşan adət və ənənələrlə, sonradan isə dekretlərlə, məcəllələrlə, təlimatlarla, əsasnamələrlə və digər bu kimi normativ-hüquqi aktlarla tənzim edilmişdir. Müstəqillik illərində beynəlxalq standartlar nəzərə alınaraq ailə, nikah, qadın, kişi, uşaq və digər bu kimi subyektlərin hüquqları genişləndirilmiş və onların statusu konstitusiyada təsbit edilmişdir. Beynəlxalq standart dedikdə, ailə və ailə münasibətləri sahəsində beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş əsas ölçülərin, tələblərin və icrası zəruri hesab edilən hüquqi standartların, ailənin əsas meyarlarının, göstəricilərinin, hədlərinin, elementlərinin, qaydalarının və hüquq normalarının məcmusu başa düşülür [304, s.9-10].

Sosioloqlar hesab edirlər ki, ailə qızla oğlanın, kişi ilə qadının, ərlə-arvadın nəsil artırmaq məqsədilə yaratdıqları birliyin, ittifaqın cəmiyyət tərəfindən qəbul olunmuş hüquqi formasıdır. Ailədaxili qarşılıqlı münasibətləri tənzim edən normalar, ailə qurmaq qaydaları, tərəflərin öz rolu ilə bağlı öhdəlikləri və hüquqları ailə qanunvericiliyində əhəmiyyətli yer tutur [274, s.168]. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış AR-nın Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş və bu sənəddə ailənin konstitusiya hüququ statusu mükəmməl təsbit olunmuşdur. Sonralar keçirilən referendumlar da konstitusiyanın müxtəlif maddələrinin daha da təkmilləşdirilməsi təmin edilmişdir [94]. Nikah və ailə yalnız sosial münasibətlərin inkişafı sahəsində fövqəladə əhəmiyyətə malik deyil, o həm də insan cəmiyyətinin bütövlüyünü və inkişafını təmin edən əsas institutlardandır [261, s.18-71].

Müasir və demokratik dövlətlərin hüquq sisteminin əsasında dayanan konstitusiyaların, ölkə vətəndaşlarının, şəxsiyyətin, dövlətin və ailənin inkişafında və hüquqi idarəçiliyində mühim rolu vardır.

Böyümüş və inkişaf etmiş müasir cəmiyyəti konstitusiyasız idarə etmək mümkün deyildir. Beynəlxalq hüquq normalarına müvafiq olaraq hazırlanan konstitusiya hüquq normaları öz səciyyəvi xüsusiyyətlərinə və statusuna görə digər hüquq normalarından əhəmiyyətli dərəcədə fərqlənməklə, ali hüquqi qüvvəyə malikdir [130, s.20-29; 155, s.11-63; 255, s.145-156]. Konstitusiyalar xüsusi qaydada qəbul edilməklə, ölkənin ictimai-siyasi mühitində sabitliyi və mükəmməlliyini təmin edir. Bu baxımdan AR-nın Konstitusiyası xalqın iradəsinin ümumxalq referendumu yolu ilə ifadəsi və təcəssümü olmaqla yüksək legitimliyə malikdir. Konstitusiya xalqın, millətin və dövlətin suverenliyinin, iradə ifadəsinin təcəssümüdür. O dövlətin ictimai-siyasi və hüquqi strukturunu, hakimiyyətlər bölgüsünü, onlar arasında hüquqların və vəzifələrin, səlahiyyətlərin və funksiyalarının sərhədlərini müəyyən etmişdir. Konstitusiya qanunvericilik sistemimizin əsasında dayanır, digər normativ-hüquqi aktların hazırlanması üçün əsas rolunu oynayır. Konstitusiya birbaşa hüquqi qüvvəyə malik olmaqla, insanın və vətəndaşın hüquq və azadlıqlarının mükəmməl sistemini nəzərdə tutmuş, ölkədə demokratik, dünyəvi, hüquqi respublika quruculuğunu təmin etmişdir. AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-nın qanunvericilik sisteminin tərkib hissəsi hesab olunur və beynəlxalq hüququn üstünlüyü tanınır. Yeni Konstitusiya ölkəmizdə hüquqi dövlət quruculuğuna stimul vermiş, gənc, suveren və müstəqil dövlətin güclənməsini, xalqın sosial rifahının yaxşılaşmasını, bazar münasibətlərinin inkişafını, vətəndaş cəmiyyətinin bərqərar edilməsini, insan hüquqlarının və azadlıqlarının etibarlı müdafiəsini təmin etmişdir [129, s. 49-89; 155, s.11-107; 247, s.67-110].

Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin ictimai, siyasi və iqtisadi quruluşunu, ailə, din, dil, ərazi kimi dəyərlər sistemini, xalq hakimiyyətinin və xalq suverenliyinin vahidliyini, xalqı təmsil etmək hüququnu, dövlətin əsaslarını, şəxsiyyətin statusunu, qanunvericilik, icra və məhkəmə hakimiyyətini birləşdirən dövlət hakimiyyətinin, yerli özünüidarəetmə orqanlarının statusunu, qanunvericilik və hüquq sisteminin əsasını, dövlət və ictimai təşkilatların fəaliyyətinin və təşkilinin əsas prinsiplərini müəyyən edən, dövlətin

ən yüksək hüquqi qüvvəyə malik olan normativ-hüquqi aktı hesab olunur [85, s.10-11; 367, s.5-18; 388, s.3-22; 484, s.99-107; 492; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15]. Konstitusiyamızın qəbulu müstəqillik illərinin ən mühim ictimai-siyasi və hüquqi hadisəsi hesab oluna bilər. Milli Konstitusiyamız ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun, gələcək inkişafının konseptual əsaslarını və prioritetlərini, siyasi, iqtisadi və sosial münasibətlər sisteminin fundamental prinsiplərini müəyyən etmişdir. Milli Konstitusiyamızın bütün normalarının və prinsiplərinin əsasını məhz demokratik, hüquqi, sosial dövlət ideyası, ailənin, insanın, şəxsiyyətin, onun hüquqlarının və azadlıqlarının ali dəyər olmaqla, etibarlı müdafiəsi və mühafizəsi məsələləri təşkil edir. Ailənin və nikahın konstitusiya hüquqi statusunun tədqiqi beynəlxalq hüquq, fəlsəfə, sosiologiya və bir sıra digər ictimai elmlərin, metodoloji baxımdan üzvi surətdə əlaqələndirilməsini, müasir elmi metodlardan və metodologiyalardan yaradıcılıqla və kompleks istifadə edilməsini tələb edir ki, bütün bunlar da tədqiqat zamanı təmin olunmuşdur.

Demokratik hüquqi dövlətlərdə konstitusiya hüquq sisteminin özəyini, dövlətin əsas sütununu təşkil edir, cəmiyyətdə siyasi sabitliyin, ictimai sülhün, milli barışığın təminatçısı kimi mühim rol oynayır. Vətəndaş, ailə, cəmiyyət, dövlət, iqtisadiyyat, din və s. təsisatlar arasında yaranan mühim ictimai münasibətləri tənzimləyən, dövlət və ictimai quruluşun əsaslarını, siyasi sistemin təşkili prinsiplərini, dövlətin fəaliyyəti və gələcək inkişaf konsepsiyasını və prioritetlərini müəyyənləşdirən konstitusiyalar, bu gün demək olar ki, bütün dövlətlərin əsas qanunu kimi- statusu çıxış edir. Hüquq elmində uzun illər «əsas qanun» və «konstitusiya» ifadələri sinonim terminlər kimi işlədilsələrdə, lakin sonralar qanunların «əsas qanun» və ya «qeyri-əsas qanun» kimi təsnifatlara ayrılması məqbul hesab edilməmiş, beləliklə də, «konstitusiya» terminindən istifadə edilmişdir. Konstitusiyanın qəbul edilməsi yeni ictimai-siyasi sistemin hüquqi baxımdan tanınması faktı kimi deyil, həm də Azərbaycanın inkişafının keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyması kimi qəbul edilir. Konstitusiyaya görə siyasi sistemin əsasında insanın, ailənin, onun hüquqlarının və

azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının dayanması önəmli və təqdirəlayiqdir. İnsan birliyi olaraq ailənin cəmiyyətdə ali dəyər kimi qəbul olunması konstitusiya normalarının və prinsiplərinin başlıca qayəsini təşkil edir və hüquqi tənzimləmə sisteminin əsasında dayanır. Bu da ictimai münasibətlərin inkişafında sabitlik, müəyyənlik amili kimi çıxış edir, ölkədə təşəkkül tapmış dövlətçilik ənənələrinin, hüquq qaydasının, demokratik nailiyyətlərin və dəyərlərin qorunmasına xidmət edir. Əgər müstəqilliyin ilk illərində ictimai-siyasi sabitlik pozulmuş, hətta iki dəfə dövlət çevrilişinə cəhd edilmişdirsə, milli konstitusiya qəbul edildikdən sonra, ölkədə sabitlik və dinamik inkişaf etibarlı şəkildə bərqərar olmuş, insan hüquqlarının və azadlıqlarının müdafiəsi və mühafizəsi gücləndirilmişdir. Konstitusiya Azərbaycanın ictimai-siyasi və dövlət quruluşunun vacib hüquqi əsası kimi xalq hakimiyyətinə yüksək dəyər verir, öz müqəddəratını təyin etmək və öz idarəetmə formasını seçməyi Azərbaycan xalqının suveren hüququ olduğunu, xalqımızın vahidliyini, dövlətimizin təməlini və AR-nın ölkə vətəndaşlarının ümumi və bölünməz Vətəni olduğunu təsbit edir. Konstitusiya vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsini, ölkədə mükəmməl sosial və hüquqi dövlət qurulmasının əsas məqsəd olduğunu bəyan etmişdir. Bu ali sənəddə Azərbaycan dövlətinin – xalqın, ailənin, hər bir vətəndaşın rifahının yüksəldilməsinin, sosial müdafiəsinin təmin edilməsinin vacibliyi qeyd edilmişdir. Konstitusiyamız ictimai münasibətlər sistemində dövlətin roluna məhz müasir cəmiyyət tələblərindən yanaşaraq, onun hər hansı mücərrəd maraqlara deyil, məhz xalqın və vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcı qüvvəsi olan ölkə vətəndaşlarının maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə təcəssüm etdirir. Çünki dövlət öz gücünü, müstəqilliyini, suverenliyini və legitimliyini məhz onu yaradan xalqdan alır və xalqa arxalanır. Konstitusiyada ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunması prinsipinə ciddi riayət olunması, dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşması, siyasi sistemdə plüralizmə təminat verilməsi, beynəlxalq

hüququn milli qanunvericilik üzərində primatlığı kimi prinsiplər təsbit edilmişdir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, ailənin, mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, xalqımızın tarixi, maddi və mənəvi irsini qoruyur. Cəmiyyətin inkişafı və tərəqqisi, vətəndaş sülhü, yalnız insanın ali dəyər, onun hüquqlarının və azadlıqlarının təmin edilməsinin isə dövlətin əsas vəzifəsi kimi qəbul edildiyi hallarda mümkündür. Bu normalar, Azərbaycanın tarixən formalaşmış demokratiya ideallarına və bəşəri dəyərlərə sadiqliyinin ifadəsidir [87].

Konstitusiyamızın üçüncü fəsli bütünlüklə əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını təsbit etmiş, onların reallaşdırılması mexanizmlərini, ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədlərini nəzərdə tutmuşdur [87]. Konstitusiyanın əsas hüquqi əlamətlərindən biri, onun məzmunca sabit və uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulmuş akt olmasındadır. İctimai münasibətlərin inkişafı cəmiyyətdə və dövlət həyatında baş verən köklü dəyişikliklərlə bağlı olaraq zərurət yarandıqda, ölkə konstitusiyalarının da təkmilləşdirilməsini mümkün hesab edir. Bu da təsadüfi deyil, çünki konstitusiyanın tənzimetmə predmetini təşkil edən qlobal ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyətin zaman keçdikcə dinamik inkişaf etməsi və dəyişməsi tamamilə təbiidir. Bu dialektik inkişafın hamı tərəfindən qəbul edilmiş qanunauyğun nəticəsidir. Cəmiyyətdə baş verən inkişaf statik mahiyyət daşıyan konstitusiyanın müəyyən dövrdən sonra təkmilləşdirilməsinə zərurət yaradır. Konstitusiya islahatları Azərbaycanın hüquq sisteminin inkişaf etmiş mütərəqqi və demokratik dövlətlərin təcrübəsinə əsaslanaraq, ölkəmizdə demokratikləşdirmə proseslərinin genişləndirilməsinə, dərinləşməsinə, insan hüquqlarının və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət edir. Azərbaycan dövlətinin və ailəsinin hərtərəfli tərəqqisi, ölkə həyatının ən müxtəlif sahələrində reallaşdırılan irimiqyaslı müasir hüquq, sosial və iqtisadi islahatlar, öz əsasını və mənbəyini məhz konstitusiyadan alır. Bu sənəddə təsbit edilmiş prio-

ritetlər, prinsiplər və əsas istiqamətlər ölkəmizdə güclü və müasir sosial və hüquqi dövlət quruculuğuna, köklü islahatların həyata keçirilməsinə, dövlət hakimiyyət və idarəçilik orqanlarının müasir tələblərə müvafiq olaraq təkmilləşdirilməsinə, ailənin, insanın və vətəndaşın hüquqlarının və azadlıqlarının etibarlı məhkəmə müdafiə mexanizmlərinin təşəkkülünə hüquqi əsas yaratmışdır [87]. Qanunvericilik sistemində və hüquqtətbiqetmə təcrübəsində konstitusiya dəyərlərinin aliliyinin təmin edilməsi ictimai münasibətlərdə ədalətli tənzimlənməyə, mübahisələrin və münaqişələrin sivil yolla – hüquq müstəvisində həllinə, barışa nail olmağa, qanunçuluq rejiminin təmin edilməsinə, dövlət orqanlarının və vətəndaşların konstitusiyaya müvafiq olaraq fəaliyyət göstərmələrinə əlverişli şərait yaratmış, hüquq isə ən mühim və ən üstün sosial tənzimləmə vasitəsinə çevrilmişdir. Bu da ölkədə konstitusiya dəyərləri vasitəsilə hüquqi dövlət quruculuğunu və vətəndaş cəmiyyətinin inkişafını təmin etmişdir [130, s.20-29; 155, s.11-63; 255, s.145-156]. Çünki hüquqi dövlətin təməlini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının mükəmməlliyi, genişliyi və etibarlı müdafiəsi prinsipləri təşkil edir [155, s.12-34; 248, s.7-12; 265, s.181-190; 303, s.5-11; 353, s.85-90; 367, s.5-18; 369, s.56-62; 388, s.3-22; 458, s.34-44; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15]. Bizi əhatə edən aləmdə, cəmiyyətin və dövlətin həyatında qlobal dəyərlər sisteminin başlıca elementləri kimi - dövlətin, hüququn, dinin, ailənin bir institut olaraq konstitusiyada təsbiti, cəmiyyətin, mədəniyyətin və sivilizasiyanın inkişafının nəticəsidir [155, s.2-34; 265, s.181-190; 303, s.5-11; 353, s.85-90; 367, s.5-18; 369, s.56-62; 458, s. 34-44; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15].

İnsanın və insan nəslinin həyata gəlişindən ömrünün sonuna qədər tərkibində olduğu bütöv bir təsisat, birlik olaraq ailənin statusunun konstitusiyada təsbit edilməsi və onun vaxtaşırı olaraq öyrənilməsi zamanın tələblərindən irəli gəlir. Çünki ailə dünyanın, cəmiyyətin və dövlətin əsasında dayanan, onun inkişafını təmin edən doğma insanların birliyi olmaqla, müstəsna və əvəzsiz əhəmiyyətə malikdir. Ailə mühim bir sosial təsisat olmaqla, cəmiyyətin və dövlətin inkişafının müəyyən tarixi məqamında, dindən və dövlətdən çox-çox əvvəl

yaranmış, zaman-zaman inkişaf etmiş və mükəmməl forma alana qədər yüksələn xətt üzrə inkişaf etmişdir [48]. Konstitusiyada hüquq münasibətlərinin subyektləri, insan və onun sosial birlikləri - din, ailə, dövlət, xalq və s. bu kimi institutlar, onların statusu və hüquqi vəziyyəti öz təsbitini tapmışdır. Konstitusiya dərin məzmunlu, qısa,mükəmməl elmi dillə yazılmış və nisbətən yığcam səciyyə daşıdığından, bu sənəddə cəmiyyət, dövlət, din və şəxsiyyət üçün ən vacib olan təsisatların, institutların, fundamental dəyərlərin əsas statusları təsbit olunmuşdur. Bu gün demokratik və hüquqi dövlət, konstitusiyasız mümkün deyildir. Hüquqi dövlətlərdə konstitusiyalar dövlətin və xalqın iradəsini, suverenliyini, insanın və vətəndaşın əsas hüquqlarını və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarını və xalqın özünüidarə sisteminin əsaslarını təsbit edir [130, s.4-20; 155, s.53-63; 255, s.145-156; 261; 323, s.135-136]. Konstitusiya hüquq elmi sahəsində görkəmli tədqiqatçı prof. S.M.Şaxray müasir konstitusiyaları öz elmi dəyərinə və əhəmiyyətinə görə təhlil edərək, onları «bu gün üçün konstitusiya və gələcək üçün konstitusiya» kimi iki əsas qrupa bölür. Fikrimizcə, müstəqillik dövründə referendum yolu ilə qəbul edilmiş ilk AR Konstitusiyasını öz milli və elmi dəyərinə görə həm bü günün və həm də gələcəyin konstitusiyası kimi qiymətləndirmək olar [560, s.121-136]. Bu baxımdan konstitusiyamız ölkəmizin uzun müddətli dövr üçün ahəngdar inkişafına və yüksəlişinə stimul verən siyasi və hüquqi sənəddir [24, s.60-81].

Məlumdur ki, quruluşu və fəaliyyəti xalqın iradəsi əsasında formalaşan, insan və vətəndaş hüquqlarının və azadlıqlarının tələblərinə cavab verə bilən dövlətlər demokratik dövlətlər hesab olunurlar [249, s.27]. Demokratiya, hər şeydən əvvəl dövlət forması, xalq hakimiyyətinin mənbəyi hesab olunur. Azlığın çoxluğa tabe olması prinsipinin rəsmi etirafı, vətəndaşların hüquq bərabərliyinin təmin olunması, geniş siyasi və hüquqi azadlıqların bərqərar edilməsi, ali dövlət orqanlarının seçkili təşkili, fikir müxtəlifliyi, hakimiyyətlərin bölünməsi, qanunun aliliyinin təmin olunması və digər bu kimi mütərəqqi prinsiplər əsasında yaradılan dövlət, siyasiləşmiş müasir dünyamızın prioritetinə çevrilməklə, hüququn aliliyinə əsaslanır [259, s.27]. Döv-

lətin demokratikləşməsinin, iqtisadiyyatın liberallaşmasının vacib şərtləri, ilk olaraq iqtisadi modernləşmədən, mərhələli demokratikləşmədən, vətəndaş cəmiyyətinin formalaşmasından, mühim iqtisadi dəyişikliklərin səmərəli nəticələr verməsindən çox aslıdır. Ölkədə demokratik transformasiyanın və vətəndaş cəmiyyətinin qurulmasının əsası hərtərəfli azadlıq və güclü hakimiyyət reallıqlarına söykənir [228, s.48-50]. Demokratiya hər bir insana, ailəyə, kollektivə, cəmiyyətə azad surətdə özünü realizə etməyə, normal həyata, yaradıcılığa, öz tələbatını ödəməyə, rifahının yaxşılaşmasına və harmonik inkişafına xidmət edir. Əsas insan və vətəndaş hüquqlarına və azadlıqlara riayət etmə; şəxsi toxunulmazlıq hüququ; öz müqəddəratını təyin etmə; mənəvi muxtariyyət; şəxsiyyətin inkişaf etmə imkanlarının genişliyi; şəxsiyyətin təməl mənafeyinin qorunması; siyasi bərabərlik, əmin-amanlıq, sülh şəraitində və firavan yaşama və s. bu kimi əlamətlər demokratik dövlətin başlıca xüsusiyyətlərini və mahiyyətini təşkil edir [255, s.55]. Demokratik cəmiyyətlərdə idarəetmə və təşkilatçılıq bacarığı mühim əhəmiyyətə malikdir. Cəmiyyətin bütün üzvlərinə bərabər hüquqlar və azadlıqlar verilir, hər bir vətəndaşdan da konstitusiya hüquqi vəzifələrinin yerinə yetirilməsi tələb olunur. Belə cəmiyyətlərdə ilk olaraq hüquqi, demokratik dövlət quruculuğu həyata keçirilir, azad bazar iqtisadiyyatının və sahibkarlığın inkişafına əlverişli şərait yaradılır. Hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını klassik alman fəlsəfəsinin banisi İ.Kant işləyib hazırlamışdır. Onun konsepsiyasında əsas yeri insan və şəxsiyyət tutur. İ.Kanta görə dövlət, hüquqi qanunlara tabe olan insanlar çoxluğudur. Dövlətin rifahı, mükəmməl hüquq sisteminin mövcudluğundan asılıdır. Dövlət, konstitusiya əsasında fəaliyyət göstərirsə, xalqın ümumi iradəsini ifadə edirsə, o hüquqidir, orada vətəndaşların şəxsi azadlıqları, vətəndaş hüquqları qanunsuz olaraq məhdudlaşdırıla bilməz. Dövlətin təyinatı təkmilləşdirilmiş və mükəmməlləşdirilmiş hüquqdadır, onun quruluşu və rejimi qanunlara ciddi surətdə əməl etməkdədir [401, s.233]. Konstitusiya cəmiyyət, dövlət, ailə, şəxsiyyət və kollektiv arasında mövcud olan əsas ictimai münasibətləri tənzim və təsbit edən, hüquq müstəvisində ən yüksək qüvvəyə malik olan normalar sistemini əhatə

edir. Bu sənəd ailə, din kimi sosial təsisatlara, atalıq, analıq, uşaqlıq kimi sosial dəyərlərə, sosial sistemdə mövcud olan münasibətlərə müsbət təsir göstərir və yeni dəyərlərin formalaşması üçün fundamental zəmin yaradır. Milli konstitusiyamız xüsusi subyekt olan xalq tərəfindən, demokratik əsaslarla, ədalətli şəkildə, xalqın iradəsinin ifadəsi kimi qəbul edilir, təsisedici xarakterə malik olur, cəmiyyət, dövlət və şəxsiyyət arasındakı əsas əlaqələrin və münasibətlərin özəyini təsbit edir. Sosial institutların və təsisatların statusunun mükəmməl müəyyən edilməsi cəmiyyətdə onun nüfuzunu əhəmiyyətli dərəcədə artırır və ölkə həyatında ən vacib və ən önəmli olan ana qanuna çevirir. Bu da ondan irəli gəlir ki, konstitusiyamız tarixən formalaşan milli mədəniyyətimizin, milli hüquq düşüncəmizin, fəlsəfi fikrimizin, mənəvi və əxlaqi dəyərlərimizin, zəngin dövlətçilik təcrübəmizin, bəşəri və dünyəvi baxışlarımızın beynəlxalq hüquq inkişafının yekunu kimi böyük əhəmiyyət kəsb edir və müqəddəs mahiyyət daşıyır [85, s.5-12; 155, s.53-63; 248, s.28-59; 264, s.53-84; 265, s.181-190; 303, s.5-11; 352, s.72-91; 353, s.85-90; 367, s.5-18; 369, s.56-62; 458, s.34-44; 527, s.63-71; 553, s.90-94; 568, s.5-15]. Qəbul edilən məcəllələr, normativ hüquqi aktlar konstitutsiyada təsbit edilən əsas institutların statusuna müvafiq olaraq hüquqi nizamasalma ilə sıx bağlı olan tənzimlənmə məsələlərini həll edir.

Müxtəlif ictimai, iqtisadi və siyasi formasiyalar, rejimlər, mədəniyyətlər, sivilizasiyalar, dinlər, təriqətlər, müharibələr, böhranlar, tənəzüllər və yüksəlişlər olmasına baxmayaraq, bir təsisat, bir icma, bir birlik, bir institut olaraq ailə həmişə olmuş, cəmiyyətin inkişafına və insan nəslinin yetişdirilməsində əhəmiyyətli rol oynamışdır. Bu mənada ailə həm çox qədim və həm də çox müasirdir. Ailə qadın və kişinin ailə qurmaq məqsədi ilə yaratdığı birliyin, ittifaqın, icmanın, insan qruplarının sosial başlanğıcı və ilkin formasıdır. Ailə birliyində, ailə mühitində insanlar, cəmiyyətdə yaşamaq, ünsiyyət qurmaq, həmrəy olmaq, məqsədə çatmaq uğrunda qüvvələri birləşdirmək, cəmiyyətin gələcək əsasını təşkil edən uşaqların tərbiyəsi və formalaşdırılması bacarığını öyrənir və tətbiq edirlər [273, s.211]. Ailə insanlıq məktəbidir, o daimi insanla bağlıdır. Ailəni digər sosial institutlar-

la müqayisə edərkən bu təsisatın özünəməxsus səciyyəvi xüsusiyyətləri, əhəmiyyəti, yeri və rolu aydın görünür. Ailənin mədəniyyətin, sivilizasiyanın, əxlaqın formalaşmasında əvəzsiz rolu vardır. Ailəni insan, onunla sıx bağlı olan cəmiyyət yaradır, o, dövlətlə, dinlə, mədəniyyətlə, başqa təsisatlarla üzvi və qarşılıqlı surətdə inkişaf edir. Ailənin əsasında insanlar, onların şəxsi həyatı, arzuları, problemləri, qayğıları dayanır. Bütün bunların uğurlu həlli əlbəttə ki, cəmiyyət və dövlət üçün çox əhəmiyyətlidir. Ailə elə bir sosial institutdur ki, bu institutun daşıyıcıları qohumluq, nikah və yaxud övladlığa götürmə telləri ilə bağlıdırlar. Onlar iqtisadi əməkdaşlığa və uşaqlara qayğı göstərmək və onları tərbiyə edib cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi yetişdirmək kontekstində birgə həyatı təmsil edirlər. E.Giddensin fikrincə, ailə cəmiyyətin bir-birini sosial, iqtisadi və psixoloji cəhətdən müdafiə edən və yardım göstərən, bir-birinə həm də doğma olan insanlardan ibarət mükəmməl bir özəkdir. Ailənin fərqləndirici xüsusiyyəti iqtisadi baxımdan, ailə təsərrüfatının bir subyekt kimi birgə yaradılmasından, idarə olunmasından, sahibkarlıq fəaliyyəti nəticəsində ailələrin maddi imkanlarının yaxşılaşdırılmasından və maddi nemətlər istehsalının təmin edilməsi kimi vəzifələrdən ibarətdir [359, s.78]. Bazar münasibətləri şəraitində fərdi kəndli təsərrüfatlarının, ailə istehsalat kooperativlərinin, müxtəlif təyinatlı firmaların yaradılması və inkişafı bunlara misal ola bilər.

Ailənin daimi mövcudluğu cəmiyyət üçün lazım olan insan birliyinin, insan kütləsinin, əhali qrupunun mənəvi və fiziki təkrar istehsalına olan zəruri tələbatla şərtlənir. Çünki cəmiyyəti insansız, insanı ailəsiz təsəvvür etmək mümkünsüzdür. Hər bir cəmiyyətdə ailə ikili xarakter daşıyır. Bir tərəfdən o sosial təsisat, digər tərəfdən isə kiçik sosial qrup olmaqla özünəməxsus struktur tərkibi, fəaliyyət və inkişaf qanunauyğunluqları ilə fərqlənir. Ailənin öz sosial quruluşundan, mövcud iqtisadi, siyasi və dini münasibətlərdən asılılığı və eyni zamanda nisbi müstəqilliyə malik olması, bütün bu keyfiyyətlərin məcmusu ilə ifadə olunur. Ailə ər-arvadlıq, valideynlik-övladlıq, habelə qan qohumluğu və övladlığa götürmə əsasında yaranan, inkişaf edən, uşaqların sosiallaşmasını təmin edən, sosial qarşıdurmanın və gərgin-

liyi aradan qaldırılmasına istiqamətlənən və öz üzvlərinin monolitliyini təmin edən, spesifik sosial birlik hesab olunur [31; 32; 111; 136; 223; 315; 460; 492].

İnsanın və cəmiyyətin ən vacib və ən əhəmiyyətli hesab etdiyi dəyərlər sisteminin əsasında, bünövrəsində ilk olaraq insan, sonra isə insan birliyi olan ailə dayanır. Bir təsisat, bir institut olaraq «ailə»nin hüquqi statusu təəssüf ki, dünyanın inkişaf etmiş bir sıra ölkələrinin konstitusiyalarında belə, indiyə qədər tam təsbit olunmamışdır. Elə dünyada ən qədim yazılı konstitusiya hesab olunan ABŞ Konstitusiyası buna misal ola bilər [418]. Ailənin qarşısında duran məqsədlərin və vəzifələrin tez-tez dəyişməsi, cəmiyyət və dövlət üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq, konstitusiya hüquq elmi tərəfindən tədqiqatlara cəlb edilməsi mühim əhəmiyyət kəsb edir [136; 223; 315; 460; 488, s.56-67; 518]. Təsadüfi deyil ki, Azərbaycanda 2009-2015-ci illərdə elmin inkişafına dair Milli Strategiyada və Dövlət Proqramında bu problemin vaxtaşırı olaraq tədqiqi vacib və aktual hesab edilmişdir.

Ailə insanlıq məktəbidir. Dünyanın və insanın taleyi, cəmiyyətin bu günü və sabahı, insanlığın və nəsillərin davamlı inkişafı məhz ailədə təşəkkül tapır və inkişaf edir. Ailə isti bir ocaq, doğma, rahat və əvəzlənməsi mümkün olmayan insanların yuvası, möhtəşəm qalasıdır. İnsan ailədə daha güclü və qüdrətli olur. Cəmiyyətdə ağılın və məntiqin qələbəsi, xeyirxahlığın və ədalətin təntənəsi, insanlığın uğuru, əmin-amanlığın, sülhün və barışın, tərəqqinin və inkişafın əsasında məhz ailə birliyi dayanır. Cəmiyyətin, dövlətin, dinin, mədəniyyətin, şəxsiyyətin təkamülü ailə ilə sıx bağlıdır. Buna görə də cəmiyyət, dövlət və şəxsiyyət öz inkişafının və tərəqqisinin bütün uğurlarına görə ailəyə borcludur [377, s.102-109; 404, s.34-41; 484, s.99-107; 488, s.56-67; 527, s.63-71].

Cəmiyyətin, dövlətin, millətin, sivilizasiyanın elə inkişaf mərhələsi gəlib çatır ki, konstitusiyada ailənin statusunun təsbit edilməsi tarixi zərurətə, cəmiyyətin sifarişinə çevrilir [304; 468, s.24-31; 469, s.67-72; 514]. Bu da ailənin cəmiyyətdə oynadığı misilsiz və əvəzsiz rolun qiymətləndirilməsi, dəyərləndirilməsi ilə sıx bağlıdır. Qədim

tarixə malik olan Azərbaycanda belə bir zərurət 1978-ci ilə təsadüf etmişdir. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və cidd səyi ilə ailənin statusu konstitusiyada təsbit edilmişdir. Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə təcəssüm etdirir. Demokratik və hüquqi dövlət quran ölkəmizdə hakimiyyət bölgüsü, ali icra, qanunverici və məhkəmə hakimiyyəti - bunların hamısı, legitim olaraq xalqın iradəsi əsasında, seçkilər yolu ilə formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi – "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipi konstitusiyamızın əsas qayəsini təşkil edir [165; 428, s.83-89; 553, s.90-94; 568, s.5-15]. Ölkənin həyatında konstitusiyadan daha önəmli başqa bir normativ-hüquqi akt yoxdur. O dövlətin, cəmiyyətin siyasi-hüquqi təşkilini, şəxsiyyətin hüquqi statusunu, yerli özünüidarəetmənin əsaslarını təsbit edən və ali hüquqi səciyyə daşıyan normativ-hüquqi akt hesab edilir [136; 223; 315; 460; 488, s.56-67; 518].

Müstəqillik illərində yeni konstitusiyanın legitimliyi onun xalqın iradəsinin sərbəst ifadəsi kimi, referendum yolu ilə qəbul edilməsində özünü göstərir. Legitimlik xalqın iradə ifadəsinin təcəssümü olmaqla, konstitusiya normalarının hüquqiliyində, demokratikliyində, ədalətliliyində, xalq hakimiyyətinin reallığında, xalq və dövlət suverenliyinin, şəxsiyyətin inkişafı üçün zəruri şəraitin yaradılmasında, insan hüquqlarının və azadlıqlarının üstünlüyünün qəbul edilməsində, yerli özünüidarəetmənin inkişafı üçün əlverişli imkanların yaradılmasında təcəssüm olunur. Konstitusiyanın aliliyi onun ölkənin qanunvericilik sistemində ən yüksək hüquqi qüvvəyə malik olması, milli hüquq sisteminin əsasını təşkil etməsi və beynəlxalq hüququn üstünlüyünü tanımasında ifadə olunur. Bu da onun siyasi və hüquqi əhəmiyyətini, milli və beynəlxalq hüquqa sadiqliyini təcəssüm etdirir. Konstitusiya bütün ölkə ərazisində eyni cür və dürüst tətbiq edilir, konstitusiya prinsiplərinin və normalarının mühafizəsinin və müdafiəsinin səmərəli mexanizmlərini müəyyən edir və onun tətbiqinin zərurliyini şərtləndirir. Konstitusiya qanunvericiliyi, imperativ normalardan ibarət olmaqla, cəmiyyət, dövlət və şəxsiyyət arasında yaranan, ən başlıca münasibətlərin əsaslarını təsbit və tənzim edən,

dövlət həyatında vacib olan hakimiyyət strukturlarının, şəxsiyyətin statusunu və ona verilən xüsusi önəmi təcəssüm etdirən mükəmməl siyasi-hüquqi akt hesab olunur [129, s.49-89; 155, s.11-107; 247, s.67-110].

Ailə ilə bağlı olan beynəlxalq və regional hüquq normalarının müəyyən etdiyi prinsiplər və standartlar, ailə və nikahla bağlı AR Konstitusiyasının, Ailə Məcəlləsinin və digər normativ-hüquqi aktların hazırlanması və qəbulu zamanı nəzərə alınmış, onun hüquqi və mənəvi əsası olmuşdur. Ailə və nikahla bağlı milli hüquq normaları beynəlxalq hüququn tələblərinə və standartlarına tam müvafiq olaraq hazırlanmış və onlara əsaslanmışdır [88, s.549]. Bütün bunların böyük roluna və əhəmiyyətinə baxmayaraq, konstitusiya doqma deyil. O normativ-hüquqi sənəd və yazılı akt olmaqla, öz təbiətinə görə statik səciyyə daşıyır. İnsanın, cəmiyyətin və dövlətin həyatı isə daim dialektik inkişafdadır. Milli Konstitusiyamızda əlavələrin və dəyişikliklərin hüquqi mexanizmləri öz mükəmməl təsbitini tapmışdır. Bu isə ilk milli konstitusiyamızın demokratik-hüquqi təbiətindən, onun yaradıcı mahiyyətindən və legitimliyindən irəli gəlir [85; 155]. Yeni Ailə Məcəlləsinin qəbulundan keçən ötən dövr ərzində keçirilən üç referendumda ailə və ailə münasibətlərinin hüquqi tənzimlənməsində, ailənin, qadının, uşağın hüquqi statusunda, onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində müəyyən boşluqlar qalmaqdadır. Ailə və ailə daxili münasibətlərdə köklü dəyişikliklər baş vermişdir. Bu da yeni Ailə Məcəlləsinin hazırlanmasına, onun beynəlxalq standartlara və AR-nın Konstitusiyasına uyğunlaşdırılmasına zərurət yaradır.

AR Konstitusiyasında nəzərdə tutulan hüquq normaları təsisedici, sistemyaradıcı, definitiv, prinsip müəyyənedici, səlahiyyətverici, məcburedici, qadağanedici, nizamlayıcı xüsusiyyətlərə, normaların tərkibinin klassik elementlərinə, xüsusi qəbuledilmə, dəyişilmə, təkmiləşdirmə, realizə və tənzimetmə mexanizmlərinə, təsbitolunma mənbəyinə, hüquqi qüvvəsinə görə ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan normativ-hüquqi akt hesab olunur. Konstitusiyamızın tənzim etdiyi ictimai münasibətlər, fundamental səciyyə daşı-

yır, digər hüquq sahələri və dövlətin fəaliyyəti üçün önəmli hesab edilən rəhbər prinsipləri, hüquqi aktların növlərini və qanunvericilik sisteminin əsasını müəyyən edir. Bu normalar nizamladığı ictimai münasibətlərin oxşarlığına, predmet məzmununa, identikliyinə, yekcinsliyinə, təyinatına, ifadə olunma xüsusiyyətlərinə, məzmun keyfiyyətlərinə, məqsədlərinə, əhəmiyyətinə, nizamlama xüsusiyyətlərinə, subyektlərinə görə «institut» adlanan müəyyən qruplarda birləşir və təcəssüm olunur. Konstitusiya dərin fəlsəfi və hüquqi məzmun, qısa, lokanik, məntiqi və nisbətən yığcam səciyyə daşıdığından, onda cəmiyyət, dövlət və şəxsiyyət üçün ən vacib və ən önəmli olan təsisatlar, institutlar, fundamental dəyərlər təsbit olunur və onların konstitusiya statusu müəyyən edilir.

Konstitusiyadan fərqli olaraq AR-nın Ailə Məcəlləsi ailə və nikah münasibətlərini tənzim edən sahəvi normativ-hüquqi aktların məcmusunu əhatə edir. Buna görə də Ailə Məcəlləsinin 2-ci maddəsində, bu Məcəllənin tənzim etdiyi münasibətlərin dairəsi konkretləşdirilmişdir. Ailə Məcəlləsi ilə yanaşı, ailə üzvləri arasında əmlak və ya şəxsi qeyri-əmlak münasibətlərinə, mülki qanunvericiliyin ailə münasibətlərinin mahiyyətinə zidd olmayan normaları tətbiq edilir. Konstitusiya xüsusi subyekt olan xalq tərəfindən, demokratik əsaslarla, ədalətli şəkildə, xalqın iradəsinin ifadəsi kimi qəbul edilir, təsisedici xarakterə malik olur, cəmiyyət, dövlət və şəxsiyyət arasındakı əsas əlaqələrin və münasibətlərin özəyini təsbit edir. Əsas sosial institutların və təsisatların statusunun mükəmməl müəyyən edilməsi, cəmiyyətdə onun nüfuzunu və əhəmiyyətini artırır və ölkə həyatında ən vacib və ən önəmli olan yeganə bir ana qanuna çevirir. Bu da ondan irəli gəlir ki, konstitusiyamız milli mənsubiyyətimizin, mədəniyyətimizin, etnik kodumuzun, hüquq düşüncəmizin, əxlaqımızın, zəngin dövlətçilik təcrübəmizin, bəşəri və dünyəvi baxışlarımızın təcəssümü və yekunu kimi böyük əhəmiyyət kəsb edir və müqəddəs mahiyyət daşıyır. Təsadüfi deyil ki, xalq tərəfindən seçilmiş Respublika prezidenti, Konstitusiyanın 103-cü maddəsinə müvafiq olaraq AR Konstitusiyasına əməl edəcəyi, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qorucayağı, xalqa ləyaqətlə xidmət edəcəyi haqqında «Qurani-Kə-

rim»ə və AR-nın Konstitusiyasına əl qoyub, and içərək. Prezidentlik fəaliyyətinə başlayır [194, s.6].

Dövlətin iqtisadi, sosial və siyasi əsaslarının konstitusiyanın 13-19-cu maddələrində birbaşa təsbit edilməsi mühim əhəmiyyət kəsb edir və dövlətin bu sahələrə verdiyi xüsusi önəmin bariz nümunəsidir. Konstitusiyanın «Dövlətin əsasları»na həsr edilmiş II fəslinin 17-ci maddəsinin «Ailə, uşaqlar və dövlət»ə həsr edilməsi, ölkəmizdə dövlətin ailə institutuna verdiyi böyük önəmin nəticəsi kimi qiymətləndirilə bilər [87]. Konstitusiyanın məzmununda göstərilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsində, onun qayğısı altındadır. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin müqəddəs və şərəfli vəzifəsidir. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir [87]. Bu məqsədlə ölkə prezidenti 8 may 2012-ci il tarixli 626 nömrəli Fərmanı ilə «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası»nı təsdiq etmişdir. Göründüyü kimi Konstitusiya: 1) ailəni cəmiyyətin əsas özəyi kimi qəbul edir; 2) ailənin dövlətin xüsusi himayəsində olduğu qeyd edilir; 3) uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək borcunu valideynlərin üzərinə qoyur və sonuncu 4-cü isə valideynlərin uşağın qayğısına qalmaq və onları tərbiyə etmək vəzifəsinə dövlətin nəzarət etdiyini müəyyən edir. Konstitusiyanın 17-ci maddəsinin digər bəndləri isə dövlət-uşaq münasibətlərini təsbit edir [16].

Ailə institutunun yaranması və inkişafı, İohan Bahofen Yakobun «Analıq hüququ», Fridrix Engelsin «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərlərində göstərildiyi kimi, böyük təkamül yolu keçmiş, əsrlərlə təkmilləşmiş, mükəmməlləşmiş və fenomeni olaraq, bu günkü vəziyyətə gəlib çıxmışdır [136; 200, s.182-308; 261; 484, s.99-107; 492].Cəmiyyətin əsas dəyərlər sistemində, bütün digər təsisatlardan fərqli olaraq ailə daha böyük dəyərə, mənəvi üstünlüyə, təsir imkanlarına malik olmaqla, özünün və cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır [136; 261; 484, s.99-107; 492].

Dövlət, müstəqil ailə birliklərinin məcmusunu əhatə etməklə, onları özündə birləşdirir, onların inkişafına stimul verir, cəmiyyətin qarşısında duran məqsədlərin reallaşdırılmasında səyləri birləşdirib,

onları eyni istiqamətə səfərbər edir. Böyük yunan filosofu Platon yazırdı ki, dövlət qadın və uşaqların ümumiliyi hesab edilməlidir... Aristotel isə ailənin qadın və kişinin nəsil artırmaq məqsədilə bir-birindən ayrı ola bilmədiklərini diqqətə çəkərək göstərirdi ki, bu birləşmə şüurlu qərar əsasında deyil, bütün canlılara və bitkilərə xas olan, özündə sonra, özünə bənzər varlıq qoyub getmək kimi təbii tələbatlardan yaranır. Dövlət, təbii olaraq əmələ gələn ilkin ünsiyyətin və bunun nəticəsində yaranan ailənin məhsuludur. Ailələrin yaranması, inkişafı, fiziki və mənəvi tərbiyyəsi, son nəticədə dövlətin təkmilləşməsinə təsir göstərir [48; 261].

Cəmiyyətdə fərdin, insanın, şəxsiyyətin, ailənin, dövlətin və millətin xoşbəxtliyi biri-biri ilə üzvi surətdə əlaqəlidir və biri-digərini tamamlamaqdadır. Ailənin öz üzvləri və cəmiyyət qarşısındakı funksiyaları olduqca geniş və əhəmiyyətlidir [75]. İnsan, cəmiyyət və dövlət üçün ən mühim və ən vacib olan dəyərlər sisteminin özülünü ailə təşkil edir. Elə buna görə də sosial dövlətin ən mühim vəzifələrindən biri, insanın və ailənin rifahının, sosial vəziyyətinin daim yaxşılaşdırılması və ideala yaxın olan bir vəziyyətin təmin edilməsinə xidmət edir. Dövlət tərəfindən həyata keçirilən sosial siyasət, nəticə etibarilə ailələrin və insanların sosial tərəqqisinin və inkişafının yüksək səviyyədə təmin olunmasına səfərbər edilir. Bütün bəşər nəsli ailə ilə bağlıdır və bu gün cəmiyyət öz mövcudluğuna görə məhz ailələrə minnətdar olmalıdır.

Dövlətin və xalqın milli birliyinin, monalitliyinin, tərəqqisinin və yüksəlişinin əsasında dayanan Azərbaycançılıq ideologiyası, müasir Azərbaycan ailəsinin milli-mənəvi və əxlaqi dəyərlərinin ideoloji əsasını təşkil edir, dövlət-ailə, millət-ailə, ailə-fərd, ailə-şəxsiyyət münasibətlərinin birliyini, həmrəyliyini təmin edir, onu möhkəmləndirir və bu birliyin keyfiyyət göstəricilərinin mühim və əsas meyarlarını təşkil edir [233, s.79-96; 272, s.12-21]. Maddi, mənəvi və əxlaqi dəyərlərin, vərdişlərin, gənc nəslin tərbiyəsi, təşəkkülü və inkişafı məhz ailələrdə formalaşır, onun vasitəsilə nəsildən-nəsilə ötürülür və milli-mənəvi sərvətlərin əsasında dayanır. Dünya əhalisinin 82%, Azərbaycanda isə 91% ailələrdə təmsil olunurlar. Təsadüfi deyil ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən sosioloji sor-

ğu zamanı, respondentlərin 91.9%-i və ya mütləq əksəriyyəti ölkəmizdə ailənin milli dəyərlər sistemində ən üstün yer tutduğunu təsdiq etmişlər. Qalan 7.2%-i isə ailənin dəyərlər sistemində əhəmiyyətli yer tutduğunu vurğulamışlar [244, s.9-11]. Ailənin, bir dəyər kimi yüksək qiymətləndirilməsinin səbəbini, soruşulanlar əsaslandırmağa çalışmış və göstərmişlər ki, həyatda hər bir insanın, hər bir fərdin başlıca və ən etibarlı dayağı məhz ailədir. Orta və yaşlı nəslin nümayəndələri arasında keçirilən sorğunun iştirakçılarının 61.7%-i isə bunun səbəbini göstərərək təsdiq etmişlər ki, ən çətin şəraitlərdə, ən çətin situasiyalarda, məhz ailəsi və ailə üzvləri ona birmənalı şəkildə dəstək olmuş, lazım olan bütün köməklikləri göstərmişlər. Soruşulanların 34.2% isə belə yanaşma ilə əsasən razı olduqlarını etiraf etmişlər [244, s.11-13].

Ailə, ər-arvad arasında sabit ictimai birlik olaraq hüquqi, əxlaqi, psixoloji, bioloji, təsərrüfat, estetik, məişət dəyərləri əsasında formalaşan ittifaq kimi müstəsna əhəmiyyətə malikdir və bu insanların bir məqsəd ətrafında birləşməsini təmin edir. Mütərəqqi ictimai-siyasi quruluşlarda ailənin cəmiyyətin təşəkkülündə və inkişafında əvəzsiz rolu hər yerdə və daimi olaraq yüksək dəyərləndirilir [85, s.10]. Bu da onu göstərir ki, ölkəmizdə milli səviyyədə ailənin inkişafı və uşaq strategiyasının hazırlanması, həyata keçirilməsi və ailə siyasətinin formalaşması zamanı, bütün bu cəhətlərin nəzərə alınması vacibdir. Ölkədə insan resurslarının inkişafı, əhalinin təkrar istehsalının təmin edilməsi, demoqrafik proseslərin və ailə münasibətlərinin mütərəqqi inkişafını stimullaşdırmaq üçün bu gün dövlət səviyyəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilməkdədir. 1999-cu ilin dekabr ayının 9-da Ulu Öndər Heydər Əliyev «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası»nı [584] təsdiq etmişdir. Bu sənəd hazırlanarkən mütəxəssislər uzun müddətli dövrü və gələcəyi müəyyən edən əsaslı təhlillər apararaq, demoqrafiya sahəsində əsas problemləri müəyyən etmiş və onların aradan qaldırılması yollarını göstərmişlər. Sənəddə uzun müddətli dövr üçün demoqrafik proseslərin inkişaf tendensiyaları müəyyən edilərkən, dünya əhalisinə nisbətən Azərbaycanda əhali artımının son illərə qədər yüksək templə inkişafını müəyyən etmiş, bununla belə müstəqillik illərində ölkənin münaqişə və müharibəyə cəlb

edilməsinin demoqrafik və miqrasiya proseslərinə mənfi təsirini üzə çıxarmışdır. Bu isə münaqişənin və müharibənin mövcudluğu, müxtəlif növ xəstəliklərin artması, ərzaq məhsullarının keyfiyyətinin pisləşməsi, ekoloji tarazlığın pozulması, sağlam həyat tərzinin ləng formalaşması və maarifləndirici tədbirlərin zəifliyi, miqrasiya proseslərinin artması və digər bu kimi çoxsaylı səbəblərlə əlaqələndirilir. Ölkədə ailə və ailədaxili münasibətlərin düzgün tənzimlənməsi, nikah və boşanma proseslərinin qarşısının alınmasına diqqətin artırılması, ailə institutunun ənənəvi formalarının, mənəvi-əxlaqi dəyərlərinin, sosial ədalətin və sosial rifahın yaxşılaşdırılması sahəsində tədbirlərin gücləndirilməsi vacib hesab edilmişdir. Əhalinin, anaların və uşaqların sağlamlığının qorunması, ailələrə, qaçqın və məcburi köçkünlərə ünvanlı sosial yardımın təkmilləşdirilməsi, ana və uşaqların sosial müdafiəsinin və mühafizəsinin gücləndirilməsi, reproduktiv sağlamlığın yaxşılaşdırılması, çoxuşaqlı ailələrə pulsuz səviyyə xidmətinin göstərilməsi, xüsusilə üç və daha çox uşağı olan anaların mənzil şəraitinin yaxşılaşdırılması və sosial təminatının gücləndirilməsi vacib hesab edilmişdir [62; 584].

Ailə – cəmiyyətdə insanın davamlı olaraq yetişdirilməsini təmin edən, maddi və mənəvi istehsalın əsasında dayanan, biososial, iqtisadi, mənəvi və hüquqi qaydalara söykənən insan birliyi hesab edilir. İnsanlar ailədə doğulur, böyüyür, tərbiyə olunur və cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi yetişdirilir. Cəmiyyətin özünün təşəkkülünü və inkişafını məhz ailələr təmin edirlər. Bütün ictimai-iqtisadi, siyasi, mənəvi, sosial və mədəni dəyişikliklər, ailədə və onun məişətində öz əksini tapır. Ailə və ailə üzvləri cəmiyyətdə və ictimai-siyasi həyatda maddi nemətlər istehsalının əsas yaradıcısı, istehsalçısı və istehlakçısıdır. Ailə mühim sosiomədəni və biososial fenomen hesab olunur [136; 261]. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev göstərirdi ki, ailə dəyərlərinə, ailə ənənələrinə, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi cəmiyyət üçün mühim əhəmiyyət kəsb edir ki, bütün bunlar da ailələrdə təmin olunur [48].

Ailə, AR-nın milli maraqlarının və mənafelərinin, fundamental dəyərlərinin və sərvətlərinin, dövlətin və millətin taleyüklü vəzifələrinin vaxtında və uğurlu həllinin, insanın, cəmiyyətin və dövlətin tərəqqisinin, xalqın vahidliyinin, mədəni-tarixi irsinin, ümumbəşəri və milli mənəvi dəyərlərinin, dilinin, özünüdərkinin, vətənpərvərliyinin, intellektual potensialının, demokratik inkişafının və hüquqi dövlət quruculuğunun, peşəkar milli kadr hazırlığının, iqtisadi, sosial və siyasi tərəqqisinin, davamlı insan inkişafının, təhsilin və elmin, texnologiyaların, iqtisadi uğurların, cəmiyyətdə firavanlığın, ləyaqətin, milli tolerantlığın, barışın və sülhün təşəkkülündə və inkişafında misilsiz rol oynayan və heç nə ilə əvəz edilə bilməyən tarixi təsisat, sosial və hüquq institutu, insan birliyinin ən geniş yayılmış və ən mükəmməl formasıdır. Amerika alimi L.Morqanın qeyd etdiyi kimi «ailə fəal bir başlanğıcdır. O heç bir vaxt bir yerdə dayanıb durmur, cəmiyyət asağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da sadə, aşağı formadan yuxarı daha mürəkkəb formaya keçir» [200, s.189-190]. Ailə – mədəniyyətin və sivilizasiyanın beşiyidir. O, insan məişətini təşkil və təmin edən, formalaşdıran və inkişaf etdirən bütöv bir sistemdir. Tarixən insanın yaranmasında və inkişafında, qəbilə, tayfa, icma, cəmiyyət, əxlaq, din və dövlət haqqında təlimlər sisteminin bünövrəsi məhz ailədə və ailə mühitində qoyulur, formalaşır və inkişaf edir. Cəmiyyət və insan, qadın və kişi, oğlan və qız fərqli insan cinsi olmaqla onların ailə qurmaq məqsədi ilə, nikah əsasında yaratdıqları birlik, ittifaq, həm də onların ömürlərinin sonuna qədər davam edən ailə həmrəyliyini, vahidliyini, vəhdətini, bir olmasını təcəssüm etdirir. Ailə – şəxsiyyətin sosial-mənəvi və əxlaqi cəhətdən formalaşmasını təmin edən mənəvi mühit, insanlıq məktəbidir. O fəal ünsürdür, dinamik olaraq aşağı pillədən yüksək pilləyə qədər inkişafla səciyyəvidir [142; 274, s.168]. Ailə – təsərrüfat, məişət, iqtisadiyyat, siyasət, din, cəmiyyət və dövlət münasibətlərinin yaradıcısı, insan birliyinin müasir günlərimizdə də davam etdirilən qoruyucusu və dayağıdır. O cəmiyyətin ilkin özəyi, insanların sosial qarşılıqlı təsirinin bir forması kimi zaman-zaman inkişaf etmişdir. Ailənin yaranmasında insan-cəmiyyət, insan-təbiət, insan-dövlət, insan-din münasi-

bətlərinin və əlaqələrinin mühim və qarşılıqlı rolu olmuşdur. Ailə – əhalinin və insanların dinamik artımını və inkişafını bioloji cəhətdən təmin edən ocaqdır. Onun kökündə məhəbbət, sevgi, tələbat, mənəvi rahatlıq, tərəqqi və yüksəliş dayanır, onun alternativi yoxdur. Ailəsiz cəmiyyətin və dövlətin mövcudluğu istisna edilir. Ailə – cəmiyyətin və dövlətin, onun sosial əsasını təşkil edən, onun ictimai, maddi-mənəvi və iqtisadi yüksəlişinin əsasında dayanan sosial-siyasi və hüquq institutudur. Ailə həyatın özülü və cəmiyyətin əsasıdır [136; 261]. Bu mənada Azərbaycan Respublikasında ailənin konstitusiya və beynəlxalq hüquqi statusunun mahiyyəti çox dərin və həm də yüksəkdir. Ötən tarixi dövr ərzində o böyük bir təkamül yolu keçmiş və bu gün o özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır. Buna görə də onun müasir mərhələdə mükəmməl və vaxtaşırı olaraq tədqiqi milli dövlətçilik baxımdan çox əhəmiyyətli və aktualdır.

## 1.2. Ailəlogiya elminin müasir metodları və metodologiyaları

Təbiətdə növcud olan bütün canlıların ən dəyərlisi, müdrüki,ağıllısı, ibrətamizi və təkrarsız, öz ruhu,nəfsi və bədəni ilə məcmu şəkildə vəhdət təşkil edən canlı varlıq,şəxsiyyət insan hesab olunur.Çünki insan, öz ağlı, mənəviyyatı, düşüncəsi və hərəkətləri ilə baş verən bütün tarixi prosesslərin mərkəzində,əsasında dayanır.O, yer üzərində mövcud olan bütün maddi və mənəvi mədəniyyətin subyekti, yaradıcısı, həyatın digər formaları ilə genetik bağlılıqda olan, yaratdığı əmək alətləri, istehsal vasitələri və öz təkrarsız fərdi qabiliyyətləri, intelektual təfəkkürü və şüuru ilə fərqlənən, canlı olmaqla cəmiyyətlə birlikdə və onunla üzvü sürətdə, intensiv olaraq inkişaf etmək xasiyyətinə malikdir. İnsan biososial varlıq olsada, cəmiyyətlə birlikdə götürüldükdə, geniş mənada insan məfhuhumunun mahiyətini ehtiva edir.İnsan öz zəkası ilə gördüyü, duyduğu , hiss etdiyi, ətrafını dərk etməyə çalışır, gözəlliklərdən və öz insani uğurlarından ləzzət almağı bacarır. Bu da mənəvi və fiziki kamilliyin həqiqı vəhdətinin ideallığını təcəssüm etdirən bütöv, hərtərəfli və kamil inkişaf etmiş şəxsiyyət kimi özünü təcəssüm etdirməyə imkan yaradır. Onun təkrar olunmaz özünəməxsusluğu, nadir, mənlik fərdiliyinə sahib olması, əslində insanın ictimai və sosial varlıq olaraq fəaliyyətinə geniş imkan yaradır. İnsanın iqtisadi, sosial , elmi-texniki, təşkilatı-idarəetmə, dərk etmə və kəşfetmə fəaliyyəti həyatın müxtəlif sahələrində özünü vaxtaşırı olaraq təcəssüm etdirir. İnsanın ən böyük təkrarsızlığı onun digər canlılarda olmayan yaradıcı və elmi təfəkkürə sahib olmasında ifadə edilir.İnsan ən qədim və ən mükəmməl elm sahəsi olan fəlsəfəni ilk tədqiqat obyekti kimi daim yüksək qiymətləndirmiş və onun insan həyatında, insanın uğurlarında, elmi potensialında misilsiz rolu daim etiraf edilmişdir. Çünki insan bəşəriyyətin əşrəfi, yer üzərində mövcud olan bütün canlıların ən dəyərlisi, ictimai-siyasi və tarixi fəaliyyətin, təkamül prosesinin və mədəniyyətin ən əsas subyekti olmaqla, bəşəriyyət, hər şeyə və hər uğura görə məhz ona minnətdar olmalıdır. Elə bütün bunlara görə də insan təbi-

ət, cəmiyyət və təfəkkür elmlərinin ən əsas tədqiqat obyekti hesab edilir. Bütün digər elmlər də tədqiqat predmetinə görə, bu və ya digər şəkildə məhz insanla bağlıdır. İnsanın təbiəti, mahiyəti, mənşəyi və rolu onun dünyadakı mövqeyi haqqında məsələ, zaman-zaman fəlsəfi fikir tarixində öyrənilən ən əsas və aktual problemlərdən biri olaraq qalmış, onunla bağlı problemlərin ən müasir elmi metodlara öyrənilməsinə diqqət artmışdır [19; 20; 26; 34; 35; 37; 57; 175; 180; 214; 222; 229; 230; 234; 236; 250; 261; 267]. İnsanın mahiyyətində bioloji amillər əsas yer tutmasına baxmayaraq, cəmiyyətdə onun ictimai-siyasi rolu misilsiz və əvəzsizdir. Təsadüfü deyil ki, insanlıq tarixində bütün dövrlərdə gələcəyin insanı hər şeydən xəbərdar olmağa, təbiətin, cəmiyyətin və insan təfəkkürünün, habelə insanın ən sirli məqamlarına dair suallara cavab tapmağa çalışmışdır. Nəticə etibarı ilə bioloji varlıq olaraq insan cəmiyyətlə birlikdə götürüldükdə, mənəvi və fiziki kamilliyin həqiqi vəhdətini özündə təcəssüm etdirən, bütöv və hərtərəfli şəxsiyyət olması ilə tarixə düşmüşdür. İnsan və onun ictimai varlığı zaman-zaman ən müxtəlif elm sahələri tərəfindən öyrənilmişdir. Bu zaman həyatın mənası, insanın mahiyəti, məqsədi, həyat idealları müxtəlif elm sahələri tərəfindən indi də, vaxtaşırı olaraq öyrənilməkdədir. İnsan, ictimai-siyasi və bioloji-sosial varlıq olaraq, onu bir şəxsiyyət kimi təcəssüm etdirən xassə və keyfiyətlərin əsas daşıyıcısı və məcmusudur. Buna görə də əslində insana, xassələrinin mürəkkəblik dərəcəsi ilə fərqlənən mükəmməl bir sistem kimi baxmaq və öyrənmək daha məqbul hesab edilməlidir. Alman filosofu İohan Hotte(1749-1832) haqlı olaraq yazırdı ki « Təbiətin yaratdıqlarından ən heyrətamizi insan şəxsiyyətidir».Qədim Romada ağıllı insanlar quşların uçuş trayektoriyalarını diqqətlə təhlil edərək gələcək haqqında,sabah haqqında dəqiq fikirlər yürüdərdilər. Buna görə də elm kimi qiymətləndirdiyimiz insan fəaliyyəti və yaradıcılığı çox vaxt özünütəsdiq, maraq və özünümüdafiə kimi amillərin birləşdirilməsini, ondan məcmu şəkildə istifadə olunmasını tələb edirdi. Təsadüfü deyil ki hərəkət və davranışları, hadisə və prosesləri dərindən təhlil edib doğru nəticələr çıxarmaq keyfiyyəti məhz ağıllı insanlara məxsusdur. İnsanın əsas əməli və nəzəri fəaliyyətinin spesifik sahəsi;

ictimai şüur formalarından biri olan elmi fəaliyyət məhz insana məxsusdur.Buna görədə elmin inkişafı cəmiyyətin və insanlığın ən əsas və ən qlobal nailiyyəti və uğuru hesab oluna bilər. Ümumilikdə isə elm, insan fəaliyyəti olaraq təbiət, cəmiyyət və insan təfəkkürünün inkişaf qanunları haqqında biliklər sistemi hesab olunur.Bəşəriyyət tarixinə diqqət yetirsək elmin ən qədim dövrlərdən başlayaraq ibtidai insanın ilk olaraq yarandığı və mövcud olduğu ərazilərdə- Qədim Şərq ölkələrində – Babilistanda, Misirdə, Hindistanda, Çində və digər qədim ölkələrdə yaradıldığı birmənalı şəkildə təsdiq olunur. Qədim Yunan mütəfəkkirləri – Aristotel və onun müasirləri elmin ilkin dövrlərində həyat haqqında abstrakt fikirlər irəli surmuş, dünyanın yaranmasının təbii qanunauyğunluqlarını öyrənməyə və dərk etməyə çalışmış, ayrı-ayrı bilik sahələri tədricən naturfəlsəfədən ayrılmışdır. Ellinizm dövründə həndəsə Evklid, mexanika Arximed, astranomiya Ptolomey tərəfindən öyrənilməyə təşəbbüslər göstərilmişdir. Orta əsrlərdə Ərəb Şərqi və Orta Asiya mütəfəkkirləri – İbn Sina, İbn Ruşd , Əl- Buruni və s. yunan elminin tarixi ənənələrinə əsaslanaraq məşğul olduqları elm sahələrini yeni-yeni biliklərlə zənginləşdirməyə çalışmışlar. Avropada bu ənənə xristianlığın təsirinə məruz qalaraq elmin spesifik forması olan sxolastikanın yaranmasına səbəb olmuşdur. Müasir mənada elm əsasən XVI-XVII əsrlərdən başlayaraq kapitalist istehsal üsulunun tələbatına cavab verməyə istiqamətlənmiş və ona xidmət etmişdir. Dini təfəkkürün sarsılmağa başladığı intibah dövründə elm mənəvi həyatın müstəqil amilinə çevrilməyə başlamış, Leonardo da Vinçi, N.Kopernik və digər dahilərin yaranmasına öz təsirini göstərmişdir. Yeni dövrün elmi fəaliyyətində eksperiment kimi tədqiqat metodları geniş yayılmış, nəzəri mühakimələri təbiəti dərk etmək prosesi ilə sıx əlaqələndirmişdir. XVI-XVII əsrlərdə elmin idraki gücünün artması, onda baş verən dəyişikliklər elmdə inqilabi uğurlarla nəticələnmişdir. Q.Qalileyin, İ.Keplerin, U.Harveyin, R.Dekartın, İ.Nyutonun və onlarla başqalarının mövcudluğu. düşünən zəkanı hər şeyin yeganə meyarı olması nəticəsinə gəlməyə əsas vermişdir. Dunyanın mexanistik şərhində, XVII əsrin sonunda sistemləşdirilmiş və tamamlanmış mexanikanın müvəfəqiyyətlərinin

həlledici rolunu təsdiq etmişdir. Bu zaman universal dünyagörüş tələbatı elmin vacib amilinə çevrilmişdir. Nəinki fiziki və kimyəvi,hətta bioloji hadisələrin, o , cümlədən insanın bütöv orqanizm kimi izah edilməsi konsepsiyası mexanistik dünyagörüşü çərçivəsində idi. Yeni dövr elminin eksperimentə istinad etməsi və mexanikanın inkişafı elmin istehsalatla sıx əlaqəsinin əsasını qoymuşdur. Dünyanın mexanistik mənzərəsi əsasında XVII əsrin əvvəllərində gerçəkliyin müxtəlif sahələrinə aid xeyli elmi bilik toplanmış və sistemə salınmışdır. Lakin əldə edilən biliklərin şərhi metafizika çərçivəsində mümkün olmadığından yeni metoda-elmin nəticələrinin sintezinə ehtiyac yaranmışdı. Enerjinin saxlanması və çevrilməsi qanunun kəşfi fizika və kimya üçün ümumi elmi əsas yaratmışdır. T. Şvannın, M.Şleydin hüceyrə nəzəriyyəsi bütün canlı orqanizmlərin oxşar quruluşa malik olduğunu təsdiq etmişdir. Ç.Darvinin təkamül təlimi isə təbiətşünaslığın inkişafına stimul vermişdir. Mendeleyevin elementlərin dövri sistemini kəşf etməsi bütün məlum maddə növləri arasında daxili bir əlaqə olduğunu aşkar etmişdir. XVII əsrin ortaları üçün içtimai inkişaf haqqında elmi nəzəriyyənin sosial-iqtisadi, fəlsəfi və ümümelmi əhəmiyyət kəsb edən ilkin şərtlər yaranmışdır. K.Marks və F.Engels ictimai elmlərdə və fəlsəfədə inqilabi çevriliş etdilər və cəmiyyət haqqında elmlərin metodoloji bazasını yaratmağa müəssər oldular. Bu sahədə yeni inkişaf mərhələsi V.İ. Lenin tərəfindən davam etdirildi. XIX və XX əsrlərdə isə, əsasən fizika elmi sahəsində yeni kəşflər-elektronun,radioaktivliyin və digər mühim əhəmiyyət kəsb edən fiziki proseslərin kəşfi, yeni dövr klassik elmin, xüsusi ilə onun tədqiqat metodlarının və metodologiyaların təkmiləşdirilməsinə əhəmiyyətli təkan verdi. Kapitalist münasibətlərinin inqilabi sürətlə inkişafı yeni elmi uğurlar sahəsində öz imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi. Elm texnikanın tərəqqisi inkişaf edərək, insanın təbiət və cəmiyyət qüvvələrini özünə tabe etdirməsini mühim göstəricisinə çevrildi. Təsadüfi deyil ki F.Engels yazırdı ki, insanın zəkası onun təbiəti dəyişdirməyi öyrənməsi amili artıq tarixi bir zərurətə çevrildi. Bütün bunlar onu göstərir ki, elm dindən, incəsənətdən fərqli olaraq öz məlumatlarının həqiqiliyini və dürüstlüyünü sübut edən obyektiv,

məntiqi biliklər sistemi olmaqla, dünyanı dəyişməyə qadirdir. Elm – elməqədərki təfəkkürə xas olan empirik və şüur səviyyəsindən əhəmiyyətli dərəcədə fərqlənir. Getdikcə hadisələri və prosesləri doğuran səbəblərin mahiyyətinin öyrənilməyə xüsusi diqqət veririlir və qanunauyğunluqları üzə çıxarılırdı. Elm hadisələrin və prosesslərin yalnız zahiri əlaqələrini deyil, ictimai praktikada dəfələrlə sübuta yetirilən, təbiət və cəmiyyət qanunları ilə ifadə olunan əlaqələri aşkara çıxarır,onu müvafiq təhlükələrini ifadə edir, kəmiyyət və keyfiyyət qanunları şəklində müəyyənləşdirirdi. Elm, gerçəkliyi abstrakt-nəzəri formada əks etdirir, onu məntiqi anlayışlarda göstərir və şərh edir.Elmin sosial rolu və gələcəyi problemi antaqonist cəmiyyətlərdə müxtəlif və çox zaman ziddiyyətli dünyagörüşü baxımından qiymətləndirilir. Elmin ictimai həyatda müstəsnalığını qeyd edən mütəfəkkirlər onun digər ictimai şüur formaları ilə çox cəhətli və mürəkkəb əlaqələrini tədqiq edir və onun imkanlarından yaradıcılıqla istifadə etməyə xüsusi əhəmiyyət verirdi. Elmi biliklərin inkişafı öz əksini elmlərin təsnifatında təcəssüm etdirir. Biliklərin təsnifatı ideyası Qədim Şərqdə ərsəyə gəlmiş, antik dövrün mütəfəkkirləri isə bilikləri obyektinə görə təbiət(məsələn, fizika), cəmiyyət (məsələn, etika) və təfəkkür (məsələn məntiq) sahəsinə bölməyi vacib və məntiqi hesab etmişlər. F.Bekon bütün bilikləri tarix, poeziya və fəlsəfə sahəsinə görə təsnif etməyi tövsiyyə edirdi. Riyaziyyatı ümumi metod hesab edən. T.Hobs isə deduktiv elmlər üçün həndəsəni, induktiv elmlər üçün isə fizikanı vacib hesab edirdi. Həmin metoda əsaslanan R. Dekart elmlərin təsnifatını biliklərin öz predmet əlamətlərinə görə qruplaşdırmağı tövsiyə edirdi. Elm, bir sosial institut kimi XVII-XVIII əsrin əvvəlində, Avropada, elmi cəmiyyətlərin və akademiyaların yarandığı və elmi jurnalların nəşr edildiyi dövrdə daha kamil formalaşmağa başlandı. O vaxta qədər elmi biliklər kitablar, təhsil, alimlər arasında yazışma və ünsiyyət vasitəsilə inkişaf edirdi. XIX əsrin sonunadək elmlə məşğul olanların sayı nisbətən az olduğundan o hələ sadəcə elm olaraq qalırdı. XX əsrin əvvələrindən başlayaraq güclü texniki bazaya malik olan elmi tədqiqat institutlarının və labaratoriyalarının yaranması elmi fəaliyyəti müasir sənaye əməyi forlmalarına yaxınlaşdı-

rırdı. Beləliklə, böyük elmi mühitin formalaşdığı müşahidə edilirdi. Həyatın bütün sahələrinə riayət edən müasir elm ictimai-iqtisadi potensialın ən mühim amilinə çevrilir, getdikcə daha artıq vəsait tələb edirdi. Nəticədə elm sahəsindəki siyasət sosial idarəetmənin aparıcı sahələrindən birinə çevrildi. Beləliklə də elmin nailiyyətlərindən əsasən inhisarların gəlirini artırmaq, istismarı genişləndirmək, iqtisadiyyatı hərbiləşdirmək məqsəd ilə istifadə olunmağa başlandı. Sosializmdə isə elmin inkişafı bütün xalqın mənafeyi naminə ümumdövlət miqyasında planlaşdırılır və göstərilirdi ki, cəmiyyətin tələbatına uyğun olaraq dövlət elmin planlı şəkildə inkişafını və elmi kadrların hazırlanmasını təmin etməlidir. Elmi tədqiqatların nəticələrinin xalq təsərüfatında və həyatın başqa sahələrinə tətbiq olunması dövlət tərəfindən təşkil və təmin edilirdi. İqtisadiyyatın elmi əsasda planlı inkişafı nəticəsində ölkələrin maddi-texniki bazasının yaradılmasında və inkişafına əhəmiyyətli təsir göstərilirdi. İnkişaf etmiş sosializm cəmiyyəti həqiqi mənada zəhmətkeşlərin mənafeyi naminə elmin yeni-yeni müvəfəqiyyətləri uçün geniş imkanlar açdığını tam təsdiq edirdi. Elmin ən mühim əhəmiyyəti və xüsusiyyəti hadisə və prosessləri,qanunauyğunluqları və nəticələri öncədən görməyə səfərbər olunurdu. Bu da elmi-texniki nailiyyətlərin dinamik inkişafına təkan verirdi. Bu zaman müxtəlif siyasi sistemlərin mövcudluğu şəraitində ölkənin maddi-texniki bazasının hərbi sənaye uğurlarının və yaradıcı insanın kəşflərinə əlverişli şərait yaratması bir reallıq idi.Dövlətlərin və xalqların inkişafı və qüdrəti elmin inkişafı ilə düz mütənasiblik təşkil edirdi. Bu eyni zamanda elmin ən müxtəlif sahələrinin tədqiqi üçün əhəmiyyətli olan metod və metodologiyaların zənginləşməsinə dəyərli tövhələr verirdi. İctimai və humanitar elmlərin metod və metodologiyaları dinamik olaraq zənginləşirdi. Müstəqil elm sahəsi kimi elmşünaslıq inkişaf edir və onun nailiyyətləri yeni uğurların əldə olunmasına dəyərli tövhələr verirdi. Bu isə həm termin və terminologiyaların, anlayışların və mükəmməl definisiyaların təkminləşdirilməsinə tələbat yaradırdı.Elm inqilabi sürətlə inkişaf etsədə təəsüfki elə dəyərlər və təsisatlar var ki, onların tədqiqinə o qədərdə əhəmiyyət verilmirdi. Məsələn, Bəşəriyyət tarixində ən qədim təsisatlardan

biri olan ailə öz ictimai-siyasi və sosial roluna,mühim dəyərinə baxmayaraq yalnız sonralar, yəni ilk dəfə olaraq 1861– ci ildə Bahofen Yakobun «Analıq hüququ» adlı əsrinin nəşrindən sonra, buna diqqət artdı və öyrənilməyinin zəruriliyi dərk edilməyə başlandı. Mahiyyət etibarı ilə ən inkişaf etmiş ölkələrin – Almaniyanın, Rusiyanın, Fransanın, İngiltərənin və bir sıra başqa ölkələrin tədqiqatçıları tərəfindən ən müxtəlif istiqamətlərdə və ən müxtəlif sahələrdə elmi araşdırılmaların dərinləşdirilməsinin və genişləndirilməsinin zəruriliyi meydana çıxdı [19; 102; 199; 245; 250; 333; 406; 532]. Bu gün tarix elmi birmənalı şəkildə təsdiq edir ki, bəşəriyyətin və insanlığın inkişafı elmin inkişafı ilə düz mütənasibdir. Yaşadığımız informasiya əsri artıq məlumatların, informasiyaların, ümumilikdə isə elmin gəlir gətirən bir vasitəyə çevrildiyini sübut edir. Nəticə etibarı ilə bu gün dünya elmi təbiət, cəmiyyət və təfəkkür haqqında yeni və dəyərli biliklərin istehsalına yönəlmiş insan fəaliyyəti kimi təcəssüm edir. Hər şeydən əvvəl, xüsusi ilə qeyd edilməlidir ki, inkişaf etmiş ölkələrdə əsas uğurların kökündə elm və elmi fəaliyyət dayandığı artıq bir reallığa çevrilmişdir. Elm, həm də hadisə və proseslər haqqında təhlillər aparmaqla, öncəgörmə qabiliyyətləri ilə geniş nüfuz qazanmağa başlamışdır. Necə deyərlər harada elm inkişaf edirsə, orada cəmiyyət və onun uğurlarının da mütənasib olaraq yüksək olması şübhə doğurmur. Əsl elmi tədqiqatlar hadisə və proseslərin inkişafını qabaqlayır, onun nəticələrini öncə görür və proqnozlar verir ki, bu da cəmiyyətlərin və dövlətlərin fəaliyyətlərinin əsas istiqamətləri üçün son dərəcə əhəmiyyətli rol oynayır.

Müstəqillik illərində insan fəaliyyətinin ən əhəmiyyətli hissəsi olan elm və elmi fəaliyyətin fəlsəfi mahiyyətinə xüsusi diqqət yetirilməyə başlanıldı. Təsadüfi deyil ki, Azərbaycan tarixində ilk dəfə olaraq 14 iyun 2016-cı il tarixdə «Elm haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi, bununla əlaqədar olaraq Dövlət Proqramları fəaliyyətə başladı.

Qanunda göstərilir ki, elm-hadisələrin və gerçəkliyin mahiyyəti haqqında obyektiv biliklərin və informasiyaların əldə edilməsi, toplanılması, sistemləşdirilməsi, işlənməsi, yayılması, təbliği və tətbiqin-

dən ibarət olan insan fəaliyyətinin əsas məcmusunu ehtiva edir. Elmi fəaliyyət isə elmi biliklərin əldə edilməsinə, tətqiqinə və təbliğinə yönəlmiş yaradıcılıq prosesidir. Tarixən elmi fəaliyyətin ən mühim və ən vacib sahələri fəlsəfə, yaxud elm fəlsəfəsi tərəfindən öyrənilmiş, onun qanunauyğunluqları, səciyyəvi cəhələri, tədqiqat metodları və metodologiyaları təhlil edilmiş və müvafiq nəticələr çıxarılmışdır. Elm fəlsəfəsi- varlığın-təbiət və cəmiyyətin, insan təfəkkürünün, idraki proseslərin tabe olduğu ən ümumi qanunauyğunluqlar haqqında fəaliyyət-elm hesab olunur. Təsadüfi deyil ki, fəlsəfə – mahiyyət etibarı ilə ictimai şüur formalarından biri olmaqla, onun əsas məsələsi təfəkkürün varlığa, şüurun materiyaya münasibətinin ən əsas problemlərini öyrənməkdən ibarətdir. Fəlsəfə bir metodoloji vasitə kimi ayrı-ayrı elmlərin ən mühim məslələrini,problemlərini,anlayışlarını, kateqoriyalarını, onun fəaliyyətini və nəticələrini zaman-zaman tədqiq etmiş, təkmilləşdirmiş və mükəmməl nəzəriyyələr formalaşdırmışdır. Elə buna görə də şüurdan asılı olmayaraq, var olan obyektiv aləmi, materiyanı ifadə edən mövcudluq fəlsəfi anlayışların əsasında dayanmaqla, varlıq adlanan ümumi və abstrakt anlayış hesab olunur. Elm zaman-zaman inkişaf etdikcə, elmin müxtəlif spesifik sahələri təşəkkül tapmış və sonradan elmin təsnifatlaşdırlmasına zərurət yaranmışdır. Elmin inkişafının vacibliyini və əhəmiyyətini lazımincə qiymətləndirən ölkələrdə təhsillə sırf bağlı olan fəaliyyət dövlətin və cəmiyyətin inkişafı üçün müstəsna rol oynamışdır. Elmin ayrı-ayrı istiqamətlərdə inkişafı fundamental, tətbiqi və eksperimental tədqiqatların aparılmasına zərurət yaratmış, elmi fəaliyyət, onun inkişafı, nəticələri, tətbiqi, uğurları, elmi kadrların hazırlanması və bir çox faliyyəti özündə birləşdirməklə onu fundamental, tətbiqi və eksperimental, təbiət, texniki, humanitar, ictimai , akademik , empirik, innovativ, nəzəri və tətbiqi elmi fəaliyyət növlərinin inkişafına stimul vermişdir. Təsadüfü deyil ki, bazar münasibətləri müasir elmin innovasiya istiqamətdə inkişafına zərurət yaratmış, bu da elm, təhsil və iqtisadiyyatın vəhdət şəklində təşkilinə səbəb olmuşdur. Bu gün elm ölkənin ictimai-siyasi,sosial-iqtisadi və mədəni inkişafında, dövlət idarəetmə sisteminin təkminləşdirilməsində, ölkənin iqtisadi, siyasi və hərbi

qüdrətinin artmasına, milli təhlükəsizliyin təmin edilməsinə, demokratik dövlət quruculuğunda, milli mənafelərin qorunmasında, elmi-texniki tərəqqinin sürətlənməsində, elmi fəaliyyətin nə dərəcədə vacib və əhəmiyyətli olduğunu şərtləndirməyə müstəsna təsir göstərmişdir. Artıq bəşəriyyət qəbul edir ki, bu gün, elm dünyanın ən gəlir gətirən insan fəaliyyəti sahələrindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, elmin və təhsilin inkişafı üzrə müxtəlif mərhələləri əhatə edən, Milli Strategiyaların və Dövlət Proqramlarının kompleks işlənib hazırlanması, ümumiyyətlə bu sahədə qarşıda duran məqsəd və vəzifələrin konkretləşdirilməsinə, dövlətin elmi-texniki və innovasiya siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsinə, elmi infrasturkturların modelləşməsinə böyük təsir göstərmişdir. Bu gün insanların ictimai, maddi və mənəvi fəaliyyətinin məhsulu olan, aləmin obyektiv xassələrinin və əlaqələrinin, təbiət və insan fəaliyyətinin ideal ifadə forması olan bilik, artıq əmtəə xarakterli dəyər predmetinə, satış vasitəsinə çevrilmiş və böyük gəlir mənbəyinə çevrilmişdir. Təsadüfi deyil ki, dördüncü sənaye inqilabi mərhələsinə qədəm qoymuş ölkələr, bazar münasibətləri şəraitində, hərbi sənaye kompleksi üçün mühim əhəmiyyət kəsb edən əmtəələrin istehsalına və satışına xüsusi önəm verirlər. Məsələn, hərbi sənaye kompleksinin ən müasir tələblərinə cavab verən Türkiyə, İzrail,Rusiya, Yaponiya, Sinqapur, ABŞ, Böyük Britaniya və başqa bu kimi ölkələr bazara çıxartdıqları ən yeni əmtəə məhsulları ilə faktiki olaraq bazarlarda hökmranlığı ələ almışlar. Bu baxımdan həmən ölkələrdə elmi-texnoloji uğurlar gündən-günə inkişaf etdirilir və elmi nailiyyətlərin inkişafına xüsusi önəm verilir.

Elmi fəaliyyətin məzmunun və vasitələrinin, tədqiqat metodlarının, üsullarının, elmi nəticə və əmtəə məhsullarının, tətbiqi texnologiyalarının yenilik xarakterinin bu günki inkişafı, elm sahəsində tətqiqatların çeşidliyinin təmin olunmasını, elm sahəsində idarəçiliyin təkmilləşdirilməsini və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir. Bu da mahiyyət etibarı ilə yeniliklərin, əqli mülkiyyət dəyərlərinin çeşidli inkişafını, ixtiralara, kəşflərə,texnologiyalara, brendlərə, ticarət və əmtəə məhsullarının inkişafını, tətbiqini və onun bir sistem

kimi inkişafını diqqətdə saxlamağa zərurət yaradır. Bu gün milli innovasiya sistemlərinin intensiv təkmilləşdirilməsi və texnoparkların müasirləşdirilməsi böyük gəlir gətirir. Bu sahədə uğurlar çoxsaylı komponentlərlə, onların müasir inkişafı və təkmilləşdirilməsi ilə üzvü sürətdə əlaqəlidir. Bu həm də müxtəlif elm sahələrinin müasir metodlarının və metodologiyalarının tətbiqinə və təkmilləşdirilməsinə böyük zərurət yaradır.

Məlumdur ki, elmi metod yunan dilindən tərcümədə – təhqiqat, yol, təlim mənalarını verən elmi fəaliyyətin üsul və vasitələrini ehtiva edir. İdrak insanların yaradıcılıq fəaliyyətinin ictimai tarixi prosessini, biliklərini formalaşdırır və bütün bunların əsasında insan hərəkətlərinin məqsədləri və motivləri meydana gəlir. Zehni əməklə fiziki əmək arasında əksliyin mövcud olduğu yaradıcı, kəşfedici və yeni yaradan fəaliyyətin, icraedici köhnəlmiş fəaliyyətə sosial şəkildə əks qoyduğu sinfi fromasiya tarixində idrak bir qayda olaraq mənəvi istehsalın xüsusi funksiyası rolunur oynayır. Onun əsasında insanların təbiətə fəal təsiri, təbiət maddəsinin yenidən işlənməsi prosessi dayanır və o canlı müşahidə, duyğu, qavrayış, təsəvvür və s. bu kimi formalarda həyata keçirilir [157, s.171-172]. İdrak vasitəsi kimi metod, öyrənilən predmetin təfəkkürdə öyrənilməsi üsullarını əks etdirir. Elmi cəhətdən əsaslandırılmış metodların şüurlu və yaradıcı sürətdə tədqiq edilməsi yeni biliklər əldə etməyin ən mühim və sınaqdan çıxmış şərti hesab olunur. Məsələn, idrakın inkişaf prosessində elmi təfəkkürün induksiya, deduksiya, analiz, sintez, analogiya, eksperiment, müşahidə və s bu kimi ümumi prinsipləri və üsulları bu gün təcrübədə geniş tətbiq edilməkdədir. Konkret elmlərin xüsusi metodları məqsədə çatmağın ən optimal yolunu göstərir. Məsələn, dialektik metod təcrübədə dünyanı dəyişdirməyin qəbul edilmiş metodlarından ən vacibi hesab edilir. Metod doqma hesab edilmir, yaradıclıq prosessində o, bu və ya digər şəkildə tətbiq olunur, inkişaf etdirilir və təkmilləşdirilir.

Elmdə metodologiya, metodlar haqqında üsul, vasitə və təlimlərin məcmusunu ehtiva edir. Metodologiya müstəqil götürüldükdə, metodlar haqqında təlimləri özündə birləşdirən elm sahəsi hesab olu-

nur. O, idrak və praktiki dəyişdirici fəaliyyətin təşkili vasitələrindən, ilkin şərtlərini və prinsiplərini tədqiq edib öyrənən bilik sahəsidir. Müxtəlif elmlərin tədqiqat metodları bir-birindən fərqləndiyi kimi, metodlarıda bir elm sahəsi olaraq fərqli səciyyə daşıyır, metodların üsul və vasitələrinin səmərəliyini öyrənir. Nəzəriyyədə metod tədqiqatçının konkret vəziyyətdə seçdiyi optimal üsul və vasitə hesab edilir. Bu eyni zamanda konkret elmin açarı rolu oynayan, ayrı-ayrı anlayışların definisiyasının formalaşmasına və onların tədqiqinə imkan yaradır.Hər bir elmin seçilmiş terminləri, anlayışları və onların tədqiqi ümumiyyətlə, tədqiq edilən predmetin bu və ya digər məsələlərinin düzgün başa düşülməsində və öyrənilməsində mühim rol oynayır.Konkret vəziyyətdə ailəlogiya elmi üçün «qadın» , «uşaq», «nikah» və s bu kimi terminlər,ailə ilə bağlı olan problemlərin və onunla bağlı mövzuların öyrənilməsi sahəsində bir açar rolunu oynayır. Bunlarda onu göstərir ki, tədqiqat zamanı predmetin ayrı-ayrı məsələlərini dərindən öyrənmək üçün, qəbul olunmuş definisiyalara aydınlıq gətirilməlidir. Belə yanaşma bütün elmlərdə və bütün mövzuların tədqiqində əhəmiyyətli rol oynayır.

XXI əsri – elm əsri kimi qəbul edən mütəfəkkirlər cəmiyyətdə baş verən prosesləri dərindən dərk etmək və öyrənmək üçün ailə və ailə problemlərinin öyrənilməsinin vacibliyini dəfələrlə xüsusi olaraq vurğulamışlar. Bu baxımdan ailənin statusu və ailə münasibətlərinin konstitusion hüquqi tənzimlənməsi məsələlərinin öyrənilməsi mühim əhəmiyyətə malikdir. Bu dövlətin ailə təsisatına verdiyi dəyərlərlə bağlıdır. Konstitusiya hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər, bir qayda olaraq cəmiyyət üçün fundamental səciyyə daşıyır və cəmiyyətin hüquqi əsasının başlıca prinsiplərini müəyyən edir. Konstitusiya dövlətin təşkilinin, cəmiyyətin özünü təşkilatlandırmasının hüquqi əsaslarını, cəmiyyət və dövlət arasındakı ictimai münasibətləri nizamlayır və tənzim edir. Buna görə də o, cəmiyyət, dövlət və şəxsiyyət üçün xüsusi əhəmiyyət kəsb edən münasibətlərin əsası, özəyi olan və qlobal mahiyət daşıyan konstitutsiyalarda təsbit edilir. Təsadüfi deyil ki, Konstitusiya cəmiyyətin,dövlətin əsas və ana qanunu hesab edilir. Konstitusiya insan və cəmiyyət, cəmiyyət və dövlət,

insan və dövlət arasında yaranan ən fundamental ictimai münasibətləri nizamlayan və tənzim edən, ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan hüquq normalarının sistemini özündə birləşdirir. Demokratik-hüquqi dövlətlərdə konstitusiya dövlətin əsas struktur elementlərini təcəssüm etdirir. Konstitusiya ölkədə siyasi qüvvələrin nisbətini nəzərə almaqla qəbul edildikdə, o ölkədə siyasi və hüquqi həmrəyliyi təmin edən bir sənədə çevrilir və ölkədə stabillik yaradan sənəd kimi özünü göstərir. AR-nın Konstitusiyası xalqın suverenliyi, vahidliyi, dövlətin hüquqi əsasları, din-dövlət, ailə-dövlət və digər bu kimi qlobal məsələlərə xüsusi olaraq yer ayırmış, ailə, uşaq və dövlət münasibətlərinə aydınlıq gətirmişdir [83; 155; 264; 312; 459]. Ailə, insan cəmiyyətinin, şəxsiyyətin və fərd olaraq insanın özünün maddi və psixoloji cəhətdən ən mötəbər və ən etibarlı dayağı hesab olunur. Ailə cəmiyyətin, dövlətin, insanlığın maddi, mənəvi, psixoloji, sosioloji, iqtisadi, siyasi inkişafının əsasında dayanır, bu münasibətlər ərə və arvada mənəvi rahatlıq gətirir, mədəniyyətin, əxlaqın, tərbiyənin, ideyaların, elmin, dinin başlıca əsası, nəsildən-nəsilə keçən ötürücüsü, daşıyıcısı və qoruyucusu hesab olunur [484, s.99-107]. Bu mənada ailənin konstitusiyada təsbiti və konstitusion hüquqi mühafizəsi yüksək qiymətləndirilməli və dəyərləndirilməlidir. Cəmiyyət və xalq eyni zamanda ailədə, ailə özəyində, vətəndaş cəmiyyətində, dövlətdə birləşmiş, inkişaf və tərəqqi tapmışdır. Təsadüfi deyil ki, görkəmli fransız alimi, professor A.Cosran haqlı olaraq yazır ki, sadəcə desək, bəla və ziyanın ilk əlamətləri dövlətin geniş və qüdrətli strukturlarında baş verməzdən ilk öncə, özünü ailələrdə büruzə verir. Çünki cəmiyyətin bütün üzvləri,bütün insanlar ailələrdə doğulur, yaşayır, tərbiyə olunur və formalaşırlar [276, s.106-108]. Bu baxımdan «Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru» adlı 3 oktyabr 2014-cü ildə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumunda Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlers öz çıxışında, müasir dünya böhranı şəraitində ailə münasibətlərinin inkişafının və bu kontekstdə qlobal problemlərin uğurlu həllinin mümkünlüyü barədə, əsaslandırılmış nəzəriyyə irəli sürmüş və onu müdafiə etmişdir. Bu nəzəriyyəyə görə, beynəlxalq və

qlobal problemlərin uğurlu həllinə, ilk öncə ailələrdən başlanılması təklif edilir [197].

Müasir ailənin rifahı, əsas etibarilə ailənin yaşadığı cəmiyyətlə və onu cəmiyyətlə bağlayan çoxlu sayda görünməz tellərlə – xarici mühitlə qarşılıqlı əlaqəsindən asılıdır. Ailə səviyyəsində biz cəmiyyətdəki idarəetmə proseslərinin daha kiçik, simvolik, ailə səviyyəsinə uyğun olan elementlərini görürük. Ailə üçün idarəetmənin hüquqi deyil, əsasən mənəvi-etik formaları səciyyəvidir. Ailənin həyat fəaliyyətinin idarə edilməsi, onun tələbatlarının təmin edilməsi və inkişafının strateji planlaşdırılması, ailə mədəniyyətinin formalaşdırılması və qorunması, onun üzvlərinin mənəvi sağlamlığı, uşaqların maddi təminatı və mənəvi inkişafı, onların əməyə və yüksək mənəvi dəyərlərə cəlb edilməsi, uşaqların müstəqil həyata hazırlanması – bilik, enerji, təcrübə, dözüm və müdriklik tələb edir.

Ailənin idarə edilmə sənətinin [21; 111; 237; 261, s.79-111; 274; 492] əsasını insanların idarə edilməsi və özünüidarəni təmin edən qaydalar toplusu təşkil edir. Ailənin idarəçilik mədəniyyətində [222, s.281-285] bütövlükdə həyat fəaliyyətində olduğundan daha artıq dərəcədə, bütün müxtəlifliyi ilə həyatın özü ön plana çıxır. Ailədə və əmək kollektivində münasibətlərin xarakteri, psixoloji cəhətdən fərqlənsə də, idarəetmə üslubu çox oxşardır. Bu da daha çox ailə başçısının - atanın və ya ananın xarakterindən asılıdır. Ailə idarəçiliyi, milli mədəniyyətin və sivilizasiyanın ən əhəmiyyətli nailiyyətlərinin mənimsənilməsini, müstəqillik, məsuliyyət və yaradıcılıq fəaliyyətinin formaslaşmasını, şəxsi mədəniyyətinin bütöv və ahəngdar inkişafını tələb edir. Ailənin idarə edilməsi – təbii və zəruri prosesdir. Çünki ailə hər hansı digər kollektiv kimi, ümumi məqsədlərə çatmaq üçün qüvvə və maraqların balanslaşdırılmasını və qüvvələrin eyni istiqamətə yönəldilməsini tələb edir. Elmi tədqiqat əsərlərində yaradıcı prosesin mühim elementlərini özündə ehtiva edən «metod» və «metodologiyalar» anlayışı təsadüfən istifadə edilmir. Belə ki, hər bir yaradıcı şəxs öz fəaliyyətində müəyyən metodlara və metodologiyalara əsalanaraq, elmi məqsədlərə daha tez və daha kamil çatmağa çalışır. Buna görə də hər bir elmin qəbul edilmiş ümumi və xüsusi elmi

metodları vardır. Bu üsullar zaman-zaman daim təkmilləşir,müasirləşir və bütün bunlar tədqiqatların uğurla başa çatdırlmasında əhəmiyyətli rol oynayır.

Etiraf edilməlidir ki, ailənin qlobal bir problem kimi öyrənən ailəlogiya elmi bütün elmlərin az və ya çox dərəcədə elmi nəticələri ilə sıx bağlıdır.Ailə münasibətlərinin hüquqi tənzimlənməsini öyrənmək nə dərəcədə aktual və əhəmiyyətlidirsə,qadın və uşaq sağlımlığını öyrənən təbabət elmlərinin, yaxud pedoqoji və psixiloji bilikləri öyrənmək o dərəcədə əhəmiyyətli və zəruridir.Çünki həyatda elə bir elm sahəsi yoxdu ki, o, bu və ya digər dərəcədə ailəlogiya elmi ilə bağlı olmasın. Bu baxımdan ailə problemlərinin ən müxtəlif istiqamətlərdə mükəmməl tədqiqi və öyrənilməsi hər şeydən əvvəl tədqiqatların kompleks öyrənilməsinə tələbat yaradır. Elmi cəhətdən əsaslandırılmış metodların tətbiq edilməsi, idrakın müvəfəqiyyətlə inkişafının ən mühim şərti hesab oluna bilər. Metod elmi biliyin əldə edilməsinin və onun praktik fəaliyyətdə tətbiqinin yollarını, üsullarını və vasitələrini öyrənməyə imkan yaradır. Əgər metod üsul və vasitələrin tətbiq edilməsi prosesini əhatə edirsə, məqsəd elmi biliyin əldə edilməsini nəzərdə tutursa, onda tətbiq edilən metodun özü də kifayət qədər elmi olmalı və konkret mahiyət daşımalıdır. Buna görə də hər bir elmdə, o cümlədən hər bir tədris fənnində tətbiq ediləcək metodların düzgün seçilməsi, mühim və əhəmiyətli bir mərhələnin tədqiqinə imkan yaradır. Bu baxımdan elmi işlə məşğul olan hər bir kəs üçün tədqiqat metodlarının mənimsənilməsinin böyük idrakı və praktik əhəmiyyəti vardır.

İctimai elmlərdə istifadə olunan metodları əsasən üç qrupa bölmək olar. Birinci qrupa, daxil olan metodlar bütövlükdə idrak prosesinin təşkilini və həyata keçirilməsini əhatə edir. Onlar bütün elmlərdə istifadə olunduqlarına görə, ümummәntiqi metodlar və ya elmi idrakın ümumi metodları adlandırılır. İkinci qrupa, ictimai elmlərdə tədqiqatın istiqamətini, daha konkret desək, tədqiqatçının tədqiq olunan obyektə yanaşmasını müəyyən edir. Üçüncü qrupa, isə bu və ya digər ictimai elmlərdə istifadə olunan tətbiqi xarakterli metodlar nəzərdə tutulur. Bu metodlar, ümumi metodlardan fərqli olaraq, ictimai

elmlərin bəzilərində istifadə olunan xüsusi metodlar hesab olunurlar. Qeyd olunan bu üç qrup metod ictimai elmlər sahəsində elm tədqiqatların səmərəli təşkil olunmasında və aparılmasında mühim rol oynamaqla yanaşı, tədqiq olunan cisim və hadisələrin dərindən və hərtərəfli dərk olunmasına kömək edir.

Ümuməntiqi metodlar və ya elmi idrakın ümumi metodları elmin bütün sahələrində istifadə olunduqlarına görə, idrak prosesinin təşkilini və həyata keçirilməsini xarakterizə edir. Ümuməntiqi metodlar elmi idrakın ümumi metodları olaraq universal səciyə daşıyır. Elmi tədqiqatlar iki əsas səviyyədə- empirik və nəzəri səviyyədə aparıldığına görə, ümuməntiqi metodların növlərindən danışdıqda sözügedən metodları bir-birindən ayırmaq zəruridir. Buna görə də tədqiqat metodlarının təsnifatında ümuməntiqi tədqiqat metodlarını iki – empirik və nəzəri tədqiqat metodları olaraq ayırmaq olar. Hər bir qrupa daxil olan, yəni hər bir səviyyədə tətbiq olunan ümuməntiqi tətqiqat metodlarını nəzərə çarpdırmaq zəruri hesab olunmalıdır. Təcrübədə empirik tədqiqat metodlarını təqdim etməzdən öncə, elmi idrakın empirik səviyyəsinin mahiyyətinə aydınlıq gətirmək zəruridir,çünki belə yanaşma empirik tədqiqat metodlarını daha dərindən anlamağa, başa düşməyə kömək edəcəkdir. Empirik səviyyənin mahiyyəti ondan ibarətdir ki, burada dərketmə prosesinin subyekti elmi biliyi empirik yolla, yəni təcrübə yolu ilə qazanmağa,öyrənməyə əlverişli imkan yaradır. Hər bir tədqiqatçı elmi biliyi müxtəlif sahələrindən – təbiətdən, cəmiyyətdən və insan təfəkküründən əldə edib, ümumiləşdirməklə nəticələr çıxardır. Lakin bu səviyyədə tədqiq olunan obyekt, bir qayda olaraq, özünün xarici əlaqələri və təzahürləri əsasında araşdırmaya cəlb edilir. Dərketmə prosesinin empirik səviyyəsində tədqiqatçı aşağıdakı vəzifələri yerinə yetirir: 1. Bu və ya digər sahədə baş verən hadisələri müşahidə edir. 2. Müşahidə edilən hadisələrdən toplanan faktları təhlil edib ümumiləşdirir. 3. Hadisələr arasında əlaqələri müəyyənləşdirir. Bu vəzifələr müşahidə, təsvir, müqayisə, ölçü və eksperiment kimi tədqiqat metodlarından və üsullarından istifadə etməklə yerinə yetirilir. Elmi biliyin əldə olunmasın-

da bu metodların böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq onların hər birini ayrılıqda təhlil etmək məqsədəuyğun və məntiqidir.

Yaradıcı prosesdə geniş istifadə edilən müşahidə metodu-cisim və hadisələrin öyrənilməsinə, onların mənasının və əhəmiyyətinin müəyyən edilməsinə istiqamətlənmiş, gerçəkliyin məqsədyönlü qavranılmasını ifadə edir. Müşahidə prosesi müşahidənin obyekti və ya müşahidə olunan cisim və hadisə hesab olunur. Müşahidəçi adlanan subyekt, konkret şəxsi, tədqiqatçını nəzərdə tutur. Müşahidənin vasitələri isə məqsədə çatmağa imkan verən müşahidənin tərkib hissələrini ehtiva edir. Müşahidə tədqiq olunan obyekt haqqında ilkin məlumatın alınmasından başlanır. Müşahidə vasitəsi kimi insanın hiss orqanları çıxış edir. Bir qayda olaraq müşahidə zamanı subyekt obyektin inkişafına müdaxilə etmir. Obyekt təbii,adi şəraitdə tədqiq olunur və subyekt tərəfindən öyrənilir.

Müşahidə nəticəsində əldə olunan məlumat subyektin istəyindən, arzularından asılı olmur. Başqa sözlə desək, bu məlumat obyektiv xarakter daşıyır. O, müşahidə olunan cism və hadisələrin obyektiv əlamətlərini və qarşılıqlı münasibətləri haqqındavəziyyəti ehtiva edir. Sözügedən məlumatın məzmunu tədqiq olunan cisim və hadisələrin sonrakı öyrənilməsinin növbəti mərhələlərində tədqiqatçı üçün faydalı nəticələr verir.

Adi müşahidə ilə müqayisədə elmi müşahidənin bir sıra mühim xüsusiyyətləri vardır: 1. Elmi müşahidə konkret nəzəriyyəyə və ya nəzəri müddəalara əsaslanır; 2. Elmi müşahidə müəyyən nəzəri məsələlərin həllinə, mövcud fərziyələrin yoxlanılmasına, yeni fərziyələrin irəli sürülməsinə yönəlir; 3. Elmi müşahidə xüsusi müşahidə vasitələrindən – kompüterdən, teleskopdan, fotoaparatdan və sairdən istifadə etməklə həyata keçirilir; 4. Elmi müşahidə intersubyektivlik tələbinə cavab verməlidir. Başqa sözlə desək, konkret nəticələr verən bu və ya digər müşahidəni eyni nəticələr əldə etməklə başqa müşahidəçi də apara bilər. Elmi müşahidənin intersubyektivlik xüsusiyyətlərinin əhəmiyyəti ondan ibarətdir ki, o, müşahidənin nəticəsinin obyektivliyini nümayiş etdirir.Bu da elmi müşahidənin adi müşahidəyə nisbətən üstünlüklərinin əsasını təşkil edir.

Müşahidənin iki növü vardır: 1. Xarici və ya kənardan aparılan müşahidə. Xarici müşahidə tədqiqatçı (müşahidəçi) baş verən prosesi kənardan izləyir. Məsələn, tədqiqatçı bu və ya digər ali məktəbdə tələbələrin müəyyən bir dərsə marağının azalmasının səbəblərini anlamaq üçün kənar bir izləyici kimi müşahidə aparır; 2. Daxili müşahidə. Burada müşahidəçi baş verən prosesin fəal iştirakçısı kimi çıxış edir. Məsələn, neftlə zəngin bir ölkədə qeyri-neft sektorunun inkişafının əhəmiyyətini müəyyən etmək nəqsəd ilə bu ölkədə yaşayan tədqiqatçı ardıcıl şəkildə uzun illər müşahidə aparır. Bundan başqa müşahidə zamanı texniki vasitələrdən istifadə olunub-olunmamasından asılı olaraq müşahidı bilavasitə və ya dolayı- instrumental ola bilər. Bilavasitə müşahidələrdə subyekt, obyekt haqqında məlumatı heç bir texniki vasitədən istifadə etməyərək əldə edilir. Subyekt obyekt haqqında bilikləri dolayı yolla da məsələn,müsahibə və ya anket sorğusu yolu ilə əldə edə bilər. Belə müşahidə dolayı müşahidə adlandırılır. Dərketmə prosesinin səmərəli metodu olmaq üçün müşahidə bir sıra tələblərə cavab verməlidir. İlk növbədə müşahidə planlı şəkildə aparılmalıdır. Müəyyən müşahidə aparmağı nəzərdə tutan tədqiqatçı konkret plan əsasında fəaliyyət göstərməli və məqsədini nəticəyə doğru səfərbər etməli, müşahidə məqsədyönlü olmalıdır. Tədqiqatçı bu və ya digər hadisəni müşahidə edərkən qarşısında müəyyən məqsəd qoymalı və məqsədə çatmağa çalışmalıdır. O,müşahidə olunan hadisənin bütün əlamətlərini deyil, tədqiqat üçün müəyyən əhəmiyyət daşıyan əlamətlərini öyrənməlidir.Planlı və məqsədyönlü şəkildə aparılan müşahidə konkret situasiyadan asılı olaraq müşahidə metodunun yuxarıda qeyd olunan növlərindən (daxili,xarici,bilavasitə və dolayı) biri və ya bir neçəsi vasitəsi ilə fəal şəkildə həyata keçirilməlidir. Müşahidənin çevik olması onun qarşısında irəli sürülən daha bir mühim tələbdir.

Beləliklə, müşahidənin dərketmə prosesində səmərəliliyi onun planlı, məqsədyönlü və çevik olmasından asılıdır. Müşahidənin nəticəsində əldə olunan məlumat bir qayda olaraq fərdi şüurun materialı kimi özünü təcəssüm etdirir. Bu məlumatı geniş ictimaiyyətə çatdırmaq, bir sözlə onu ictimai şüurun materialına çevirmək və lazım gəl-

dikdə elmi təhlil sahəsinə təqdim etmək üçün əldə olunan məlumat müəyyən işarə sistemi vasitəsilə möhkəmləndirilməli və ötürülməlidir. Məlumatım möhkəmləndirilməsi və ötürülməsi prosesi təsvir metodu vasitəsilə həyata keçirirlir. Təsvir bir tədqiqat metodu kimi müşahidə nəticəsində obyektlər haqqında əldə edilən məlumatın təbii və ya süni dilin vasitəsilə qeyd olunmasıdır. Bu metod vasitəsilə qeyd olunmasıdır. Bu metod vasitəs ilə hissi orqanların köməyi ilə əldə olunan məlumat məfhumlar, işarələr, sxemlər və rəqəmlər dilinə çevrilir. Bu isə onun sonrakı rasional istifadəsi üçün, o cümlədən sistemləşdirilməsi, təsnifatı və ümumiləşdirilməsi üçün şərait yaradır. Təsvirdə təbii dildən istifadə etdikdə, müşahidənin nəticələri sözlə təqdim olunur. Təsvir müşahidənin son mərhələsi kimi çıxış edir. Bu mərhələdə müşahidə olunan obyektlərin mahiyyətinin aşkarlanamsı məsələsi nəzərdə tutulmur. Burada, bir qayda olaraq tədqiqatçı araşdırılan obyektin əsasən zahiri tərəflərini ətraflı şəkildə göstərmək istəyir. Bir metod kimi təsvirin elmi tədqiqatda rolu böyükdür. O, elmi idrakın strukturunda vacib bir element kimi çıxış edir. Lakin elmin inkişafı ilə ə əlaqədar təsvirin xarakteri dəyişir. Təbii dil vasitəsilə təqdim olunan təsvirin həcmi azalır. Süni dil vasitəsilə təqdim olunan təsvirin həcmi əksinə artır. Bu prosesin səbəbi odur ki, təbii dil vasitəs ilə aparılan təsvir qeyri-dəqiq, çoxmənalı və qeyri-müəyyən terminlərlə təqdim olunur. Sözsüz ki, belə təsvir dəqiq elmlərdə istifadə edilə bilməz. Buna görə də müasir elmlərdə öz məntiqi sərtliliyi ilə seçilən süni təsvirdən istifadə olunur. Bununla belə təsvirdə təbii dilin əhəmiyyəti itmir, çünki o, məcburi element kimi süni dilin hər bir sisteminə daxildir. Təsvirin iki əsas növü vardır: keyfiyyət və kəmiyyət təsviri. Bu iki növ təsvir bir biri ilə bağlıdır. Onların hər biri vahid tədqiqat prosesinin müxtəlif tərəflərini təşkil edir. Keyfiyyət təsviri təbii dil vasitəsilə aparılır. O, sözlə ifadə olunur. Kəmiyyət təsviri isə adətən müxtəlif cədvəllər, qrafiklər və matrisalar vasitəs ilə həyata keçirilir. Bu vasitələr «müşahidənin protokolları» adlanır. Onlar müxtəlif ölçü əməliyyatlarının nəticəsində yaranır. Buna görə də bəzən kəmiyyət təsviri ölçünün göstəricilərinin qeydiyyatı kimi çıxış edir.

Müqayisə – idrak prosesinin ən geniş yayılmış və universal metodlarından biri olmaqla elmi fəaliyyətdə əhəmiyyətli üsul hesab edilir. Elə buna görə də geniş yayılmış və tez-tez xatırladılan aforizmin birində deyilir: «Hər şey müqayisədə dərk olunur». Müqayisə obyektlər arasında oxşar və fərqli cəhətləri müəyyən etmək məqsədilə, onların tutuşdurulmasına yönələn metod hesab olunur. Bu metod cism və hadisələrin məhiyyətinin müəyyən edilməsində mühim rol oynayır. Müqayisə nəticəsində iki və daha çox obyektə xas olan ümumi əlamət müəyyən edilir. Bu isə elmi araşdırmanın mühim şərtlərindən biridir. Müqayisə elmi biliyin mühim mərhələsi olan ümumiləşdirmə prosesinin ən vacib və əhəmiyyətli şərti hesab olunur. Bundan başqa müqayisə analogiya üzrə əqli nəticələrdə də əhəmiyyətli rol oynayır. Digər tədqiqat metodları kimi müqayisə də səmərəli olmaq üçün müəyyən tələblərə cavab verməlidir. Belə tələblərdən ikisini göstərmək olar: 1. Müqayisə bir metod kimi aralarında müəyyən oxşar əlamət olan obyektlərə tətbiq oluna bilər. 2. Cism və hadisələr arasında müqayisə onların mühim əlamətləri üzrə aparılır.

Elmi araşdırmada müqayisə metodu vasitəsilə cism və hadisələr haqqında məlumatı iki müxtəlif yolla əldə etmək olar: 1. Məlumat müqayisə metodunun tətbiqinin bilavasitə nəticəsi kimi çıxış edə bilər. 2. Bəzən məlumat, yeni bilik müqayisə nəticəsində əldə olunan ilkin məlumatın sonrakı təhlilindən alınır.

Məlum olduğu kimi, analogiya elə bir fərqli nəticədir ki, onun vasitəsilə obyektlərin bir cəhətə görə oxşarliqlarının əsasında onların digər cəhətlərə görə də oxşarlıqları haqqında fikir söylənilir. Analogiyaya əsaslanan əqli nəticə vasitəsilə iki obyekt və onların əlamətləri arasındakı müəyyən oxşarlığın əsasında bir obyektə mənsub olan əlamətin digər obyektdə də olmasına dair nəticə alınır. Başqa sözlə desək, burada müqayisə metodunun köməyi ilə bilavasitə əldə olunan nəticədən əlavə yeni bilikdə qazanılır. Məsələn, müqayisə metodu vasitəsilə tədqiqatçı A və B cisimləri arasında bir sıra mühim oxşar əlamətlərin olmasını aşkar etdikdən sonra analogiyaya əsaslanan əqli nəticə vasitəsilə A-da olan daha bir əlamətin B-də olması haqqında fikir irəli sürür. Lakin əldə olunan nəticə ehtimali xarakter daşıyır.

Yəni bu nəticə səhv də ola bilər. Buna görə də çalışmaq lazımdır ki, həqiqi biliyin əldə edilməsi ehtimalı mümkün qədər çox olsun. Bunun üçün isə aşağıdaki qaydalara riayət etmək lazımdır. 1. Müqayisə edilən cism və hadisələrdə nə qədər çox oxşar əlamət aşkar olunsa, analogiyaya əsaslanan əqli nəticə vasitəsilə əldə olunan nəticənin həqiqiliyi bir o qədər çox olar; 2. Müqayisə nəticəsində aşkar olunan oxşar əlamətlərin obyektlərin mühim əlamətləri olması əldə olunan nəticənin həqiqiliyini artırır. 3. Bir obyektdən digər obyektə keçirilən əlamət ikincinin mahiyyətinə zidd olmamalıdır. Müqayisə olunan obyektlər arasındaki oxşar əlamətlərlə yanaşı onlar arasındaki müxtəliflik də nəzərə alınmalıdır.

Eksperiment (latın dilindən tərcümədə-təcrübə) – empirik tədqiqatın elə bir metodur ki, o, bu və ya digər müddəanın həqiqiliyini yoxlamaq məqsədilə müşahidə situasiyası yaradaraq nəzarət və idarə olunan şəraitdə əşya və hadisələri tədqiq edir. Eksperiment müşahidə, ölçü və tədqiq olunan obyektlərə fiziki təsirdən ibarətdir. Müşahidədən fərqli olaraq eksperiment zamanı tədqiq edilən şərait əvvəlcədən mövcud olmur. O, xüsusi məqsədlə yaradılır. Digər empirik tədqiqat metodlarından fərqli olaraq eksperiment tədqiq olunan obyektin gedişatına müdaxilə etməyi nəzərdə tutur. Eksperiment zəruri şərtlərin yaradılmasına maneçilik törədən bütün təsirlərin və faktorların aradan götürülməsini, müvafiq texniki qurğularla müşahidənin və ölçünün aparılmasının  ehtiva edir.Başqa sözlə desək, eksperiment obyekti dərk etmək məqsədilə həmin obyektə və ya onun əhatə edən mühitə bilavasitə fiziki təsiri nəzərdə tutan dərketmə metodudur.

Bir tədqiqat metodu kimi eksperiment aşağıdaki elementlərdən ibarətdir. 1. Eksperimentin məqsədi; 2. Eksperimentin obyekti; 3. Eksperiment prosesində tədqiqat obyektinin olduğu və yaxud yerləşdirlirdiyi şərait; 4. Eksperiment vasitələri; 5. Obyektə fiziki təsir;

Eksperimentlər məqsədləri baxımından bir-birindən fərqlənir. Bəzi eksperimentlər məqsədinə görə axtarış xarakterli olur. Belə eksperimentlərin məqsədi tədqiq olunan  obyetlər haqqında müəyyən faktların aşkar olunmasından və yaxun onlar arasında qanunauyğunluqların müəyyən edilməsindən ibarətdir. Digər qrup eksperimentlər

məqsədinə görə yoxlayıcı xarakter daşıyır. Belə eksperimentlərin məqsədləri tədqiq olunan obyektlər və yaxud onların əlamətləri haqqında müəyyən fərziyyələrin həqiqi olub-olmamasını sübut etməkdir. Sözsüz ki, bu iki qrup eksperiment arasında qeyd olunan fərqi nisbi xarakter daşıyır. Müstəqillik illərində dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da elmi tədqiqatların inkişafına,təkmilləşdirilməsinə və onun nəticələrindən istifadə edilməsinə diqqət artırılmışdır. Bu eyni zamanda müxtəlif elm sahələrində metodların inkişafına öz müsbət təsirini göstərmişdir. Metod və metodologiyaların nəzəri və təcrübi problemlərinin öyrənilməsinə diqqət artmış və çox saylı əsərlər yazılmışdır [19; 20; 26; 34; 35; 37; 175; 180; 214; 222; 229; 230; 234; 235; 236; 245; 250; 261; 267].

# II FƏSİL. AZƏRBAYCANDA AİLƏNİN VƏ NİKAHIN HÜQUQİ STATUSU

## 2.1. Azərbaycan ailəsinin hüquqi statusu

Tarixi mənbələr və təhlillər təsdiq edir ki, müxtəlif ictimai-iqtisadi və siyasi formasiyalarda, müxtəlif dövlətlərdə, müxtəlif rejimlərdə və müxtəlif xalqlarda, zaman və məkan baxımından sosial təsisat olaraq ailənin çeşidli formaları, məqsədləri, vəzifələri, tipləri, təyinatı, oxşar və fərqli xüsusiyyətləri müşahidə edilir [498, s.20-33]. Cəmiyyətin inkişafında şəxsiyyət kimi formalaşan insanların həyati fəaliyyəti, onun üzərinə düşən vəzifələrin və funksiyaların uğurla həyata keçirilməsi, ailələrin inkişafı üçün əhəmiyyətli rol oynayır. Şəxsiyyətin özünün yetişdirilməsi, təşəkkülü və inkişafı daha çox ailələrdə və ailə mühitində bərqərar olur. Buna görə də ailənin bütövlüyünü və möhkəmliyini şərtləndirən amillərin öyrənilməsi, onun mənfi və müsbət cəhətlərinin müəyyən edilməsi, qüsurlarının aydınlaşdırılması və onların aradan qaldırılması üçün səmərəli tədbirlərin görülməsi bu gün cəmiyyəti narahat edən aktual problemlərdən biri hesab olunur. Bu isə ailə üzvləri – ərin və ya arvadın, qadının və ya kişinin, onlarla yaşayan uşaqların, habelə valideynlərin bir-birinə olan xoş ünsiyyətindən, tərbiyə sisteminin mükəmməlliyindən xeyli dərəcədə aslıdır. Bir evli cütlük, əslində öz davranışları, biri-birinə olan münasibətləri, o cümlədən ər-arvad arasında xoş ünsiyyətlərinin mövcudluğu əslində öz övladları üçün əsl nümunə ola bilər və olmalıdırlar.

Ailənin tarixi formaları, ailə üzvlərinin say və cins tərkibi, təşkilinin və formalaşmasının meyarları, ailənin quruluşu, təyinatı, vəzifələri, funksiyaları, ailə üzvlərinin, xüsusilə qadının və kişinin biri-birinə olan münasibətlərinin səciyyəvi xüsusiyyətlərinə və s. bu kimi amillərə görə təsnifatlaşdırmaq olar. Böyük ailələr, kiçik ailələr, qarışıq ailələr və s. bu kimi əlamətlərə görə ailələri fərqləndirmək olar. Başqa meyarlara görə də ailələrin təsnifatları aparıla bilər. Qan qo-

humluğuna əsaslanan ailədə kəbinli qrupların tarixən nəsillər üzrə bölünmüş babalar və nənələr, bacılar və qardaşlar, ailə daxilində biri-biri üçün ər-arvad rolunu oynaması bəzi mənbələrdə ehtimal edilir. Bu tipli ailələrdə əvvəlki dövrlərlə müqayisədə ən müsbət cəhət, ata-analarla övladlar arasında ər-arvad münasibətlərinin qadağan olunması faktı göstərilə bilər. Yoldaşlıq münasibətlərinə əsaslanan «punalua» ailə tipində mütərəqqi cəhət bacılarla-qardaşlar arasında ər-arvad münasibətlərinin qadağan edilməsində ifadə olunur. Bu zaman qohumluq ana xətti ilə müəyyənləşdirilirdi. Çünki qadınlar və kişilər ümumi olduğundan uşağın atasının kimliyini müəyyən etmək faktiki olaraq mümkün deyildi və buna görə də nəsil, ana xətti ilə müəyyələşdirilirdi. Ailənin bu tipi, cəmiyyətin inkişafında müəyyən bir dövrün məhsulu olmaqla, qan qohumluğu əsasında yaranan ailəyə nisbətən müəyyən inkişafın və təkamülün nəticəsi idi. İkili ailə isə qan qohumluğu əsasında bağlanan qrup nikahının, xüsusilə əvvəlcə yaxın, sonra isə uzaq qohumlar arasında evlənmənin zaman-zaman qadağan edilməsi ilə səciyyəvi olmuşdur. Bu zaman bir qadının bir əri olduğu halda, bir ərin bir neçə həyat yoldaşının olması çoxarvadlılığa şərait yaradırdı. Belə vəziyyətin mövcduluğu ailə münasibətlərində uşağın atasının müəyyənləşdirilməsinə imkan verirdi. Bu isə cəmiyyətdə və ailədə madərşahlıq dövrünün pədərşahlıq dövrü ilə əvəz edilməsi kimi tarixə düşmüşdür. Bu məsələyə münasibət bildirən F.Engels haqlı olaraq göstərdi ki, ana hüququnun devrilməsi qadın cinsinin ümumdünya tarixi məğlubiyyəti hesab oluna bilər. Bununla da ər evdə faktiki olaraq idarəetməni bütünlüklə öz əlinə aldı və nəticə etibarı ilə qadın əslində bir qula çevrildi [200].

Monoqam ailə tipi, mülkiyyət münasibətlərinin inkişafının məhsulu idi. Bu eyni zamanda sinfi ziddiyyətləri özündə əks etdirirdi. Qrup nikahına əsaslanan belə ailələrin tarixən poliqamiya, poliandriya, ekzoqamiya, endoqamiya, qoşa nikah – monoqamiya kimi tipləri tarixən mövcud olmuşdur [160, s.5]. Bütün bunlardan başqa tədqiqatçılar mürəkkəb ailəni – belə ailə tipi böyük və ya genişləndirilmiş ailə hesab edilməklə, valideynlər, onların övladları, qadın və ya kişinin valideynlərdən biri və ya hər ikisi və ya ən yaxın qohumla-

rın – babaların, nənələrin, nəvələrin, nəticələrin, kötücələrin, yadıcaların və s. birgə yaşadığı ailə tipi hesab olunurdu. Belə ailə tiplərinə az da olsa, indi də rast gəlmək mümkündür.

Nuklear ailə tipi valideynlərdən və uşaqlardan ibarət olan sadə tipli ailələr hesab olunur. Belə ailə tipini bir evli cütlük və onların övladları əhatə edir. Natamam ailə isə adətən nuklear ailələrdən ibarət olmaqla, bəzən uşaqların atası və ya anası olmadığı hallarda formalaşan ailə tipi hesab olunur. Eləcə də nuklear ailə tipi, həm də uşaqsız cütlükləri əhatə edə bilər. Mürəkkəb tipli ailə övladları və qohumları - nənə, baba, xala, bibi, əmi, dayı ilə birlikdə yaşayan evli cütlüyü əhatə edir. Tam ailə tipləri isə valideyn və övladların məcmusunu əhatə edir. Azuşaqlı ailə tipləri, adətən ən çoxu bir və iki uşaqlı ailələr hesab olunurlar. İnfertil ailə tipi isə uşağı olmayan sonsuz ailələr – bir evli cütlük hesab olunur. Bundan başqa ənənəyə söykənən müasir ailə, bərabər münasibətlərə əsaslanan egalitar ailə və digər bu kimi ailə növlərinə də rast gəlmək olar [48, s.241].

Ailənin ən qədim, ən mühim, ən başlıca və ən dəyərli funksiyalarından biri öz nəslini artırmaq prosessi ilə ifadə edilir. Bu funksiyanın – reproduktiv funksiyanının yerinə yetirilməsi, bəşər nəslinin təkrarlanması, yeni-yeni insan nəslinin bioloji, sosioloji olaraq formalaşdırılması – uşaqların doğulması, tərbiyələnməsi, tibbi, sosial, mənəvi-əxlaqi cəhətdən bütöv şəxsiyyət olaraq yetişdirilməsi, mürəkkəb və kompleks, uzun müddətli və son dərəcə əhəmiyyətli və şərəfli vəzifələrin yerinə yetirilməsi hərəkətlərinin kompleksində ifadə olunur. Bu, sosial kökləri olan qadının və kişinin birgə iştirakını tələb edən mühim fizioloji və sosial prosesdir. Mahiyyət etibarilə mühim bir təkamül yolu keçməsinə baxmayaraq, ailənin əsasında kişinin və qadının birgə səyi, istəyi ilə, fizioloji yaxınlığı ilə uşağın əmələ gəlməsi, doğulması, tərbiyələndirilməsi və təhlükəsiz cinsi həyat sürmələri üçün tələb olunan fiziki, psixi, tibbi və sosial mühitin mövcudluğu ilə əhatə olunur. Bu isə reproduktiv sağlamlıq üçün çox vacibdir [160, s.161]. İnsan nəslinin artımı və inkişafı üçün ailənin reproduktiv funksiyası olduqca mühim, əhəmiyyətli və qlobal mahiyyət daşıyır. Bu, ailədə və cəmiyyətdə stabilliyin, sakitliyin, rahatlığın və əmin-

amanlığın yaradılması, şəxsiyyətin lazımi səviyyədə formalaşdırılması prosesi ilə üzvi surətdə əlaqədardır. İnsan təbiətin qoyduğu qanunlara müvafiq olaraq fizioloji baxımdan nəsil artırmaq məqsədilə seksual tələbatın ödənilməsi problemi ilə yüklənmişdirsə, o, öz sevgisinə qovuşmağa can atır, əks cinslər arasında qarşılıqlı olaraq biri-birinə lazımi hörmət, diqqət və qayğı ilə əhatə olunma prosesi baş verir [48; 152, s.108-113].

Ailənin seksual funksiyası ər-arvadın fizioloji tələbatlarının ödənilməsi fəaliyyətini əhatə edir. İnsan həyatında və fəaliyyətində bu funksiyanın rolu və əhəmiyyəti olduqca mühim və vacibdir. Nəticə etibarı ilə bu insan nəslinin davamlı inkişafını təmin edən ən mühim fəaliyyət növlərindən biri hesab olunur. Göstərilən fəaliyyət insanın bioloji və mənəvi sağlamlığı, rahatlığı üçün son dərəcə vacib və əhəmiyyətlidir. Bu eyni zamanda cinslərarası səmimiyyətə və məsuliyyətli ailə tərbiyəsinə xidmət edir. Nümunəvi valideyn olmağa istiqamətlənmiş kişi və qadın birliyi, onların şəxsiyyətinin formalaşması prosesini özündə birləşdirən, sosial-siyasi və milli dəyərlərə uyğun olan cinsi tərbiyə anlayışını əhatə edən bu fəaliyyət, ailələrin uğurlu gələcəyi üçün çox vacibdir. Gənc nəslin yetişməsində və ailə birliyinə hazırlanmasında bu tərbiyə kompleksinin mühim yeri və rolu vardır. Ailənin tərbiyə funksiyası atalıq və analıq vəzifələrinin mükəmməl həyata keçirilməsi, övladın Vətənə məhəbbət ruhunda tərbiyə olunması, onun bir şəxsiyyət kimi formalaşdırılması, yetişdirilməsi olduqca çətin, uzunömürlülüyü ilə seçilən və mühim əhəmiyyətə malik olan dəyərli bir fəaliyyətdir. Ailənin kommunikativ funksiyası isə cəmiyyətdə və ailədə mənəvi ünsiyyətin formalaşması, bu sahədə müvafiq tələbatların kamil ödənilməsi məqsədinə xidmət edir. Psixoloqlar ailə münasibətlərində hamiləlik dövrünü qadın-kişi münasibətlərinin imtahan dövrü kimi səciyyələndirirlər. Bu dövrdə qadınlarda hormonal dəyişikliklər baş verir və nəticədə emosional gərginlik halı get-gedə artır və əsəblər gərginləşir. Davranışda və psixologiyada baş verən dəyişikliklər, analıq psixologiyasının tədricən formalaşmasına, ərin bəzən təcrübəsizlik üzündən hamilə qadının vəziyyətini düzgün qiymətləndirməməsinə və bu da mənfi nəticələrə gəlib çıx-

mağa səbəb olur. Ailədə destruktiv münasibətlərin, zidiyyətlərin və münaqişələrin yaranması, kəskinləşməsi və vaxtında həll olunmaması çox vaxtı arzuolunmaz nəticələrə gətirib çıxarır. Buna görə də şəxsiyyətin formalaşması gələcək ailə başçısından- atalıq hissinin, atalıq məsuliyyətinin, valideynlik öhdəliyinin təbliği və bunun təcrübi olaraq davranışa çevrilməsi prosesinin reallaşdırılması mərhələsi tədriciliyə, səbr və dözümə söykənən mürəkkəb bir proses olmaqla əhəmiyyətli və zəruri hesab olunur. Cəmiyyət həyatındakı yeniliklərin mütərəqqi xarakteri bütün dövlətlərdə və dövrlərdə ailənin yaşam tərzinə, quruluşuna, təsisinə, məqsədlərinə, vəzifələrinə, ailədaxili münasibətlərə, ailənin statusuna, onun ümumi prinsiplərinə müvafiq qaydada təsir göstərir. Bu gün cəmiyyətdə böyük hörmət və qayğı ilə əhatə olunan müasir Azərbaycan ailəsi, zamanın reallıqlarına adekvat cavab verərək, modernləşir, müasirləşir, təkmilləşir, həm də möhkəmlənir [128]. Tarixən formalaşmış adətlər və ənənələr, ailə dəyərləri, ailə münasibətləri, ailənin funksiyaları, ailənin statusu Qərb ölkələrində hazırda müəyyən böhran keçirtməkdədir. Bu gün «Kaliforniya sindromu» cəmiyyətdə neqativ təzahür olmaqla, insanın daha çox şəxsən özünü düşünməsi, eqoist davranışlarına, iş, karyera, rahatlıq, sərbəstlik azadlığına, qadınla qeyri-rəsmi vətəndaş nikahına üstünlük verilməsinə səbəb olur. Bu zəmində ailənin və uşağın ikinci plana, o qədər də önəmli olmayan arxa plana keçməsi səciyyəvi hal almışdır ki bu da ailələrin dağılmasına imkan yaradır. Azərbaycan da isə ailə modelinə müəyyən müasir elementlər əlavə edilməklə yanaşı, ənənəvi formanın,qadının və kişinin bir-birinə olan dərin hörmətinə, məhəbbətinə söykənir, uşaqlar arasında valideynlərinə hörmət və diqqətin yaranmasına və müsbət inkişafına söykənir. Ağsaqqal sözü,böyüklərin nüfuzu, xətir-hörmət ən mürəkkəb situasiyalarda münaqişə tərəflərinin güzəştə getməsinə imkan yaradır. Milli ailə modelimiz – yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, sevgiyə əsaslanan, qadının ictimai həyatda və ailədəki rolunun üstünlüyünü qəbul edən, adətlərə və ənənələrə, ciddi mənəvi-əxlaqi və mental dəyərlərə, azərbaycançılıq məfkurəsinə əsaslanan, böyüklərə hörmət və ehtiram, uşaqlara sevgi, mərhəmət və qay-

ğı əsasında formalaşan, tərəflərin fizioloji tələbatlarının ödənilməsini təmin edən, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq məqsədilə qadının və kişinin, gələcək ərin və arvadın könüllü razılığı və bərabərliyi əsasında təsis olunan, dövlətin xüsusi himayəsində saxlanılan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş qaydalara əməl etməklə müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan tarixi,sosial və hüquqi insan birliyi hesab olunur [316; 319, s.80-85; 469, s.67-72; 549, s.31-41].

Azərbaycanın ailə modeli tarixən formalaşmış mənəvi-əxlaqi və tərbiyəvi dəyərlərə əsaslanmaqla böyük-kiçik, qadın-kişi, valideyn-uşaq münasibətlərinin yüksək dərəcədə və müsbət yönümdə tənzimləməsini təmin edir, mükəmməl ailə idarəçiliyi ənənələrinin və uzunömürlülüyünün təmin olunmasına şərait yaradır və faktiki imkan verir. Ailə hər bir azərbaycanlı üçün müqəddəs ocaq, şərəf və namus işi, böyük dəyərlər sisteminin məcmusu, cəmiyyətin və dövlətin əsası kimi müstəsna əhəmiyyətə və dəyərə malikdir. Ailə qurmaq ən şərəfli və ən vacib məsələlərdən biri hesab olunur və yaşlı nəslin bütün vəsilədən olan üzvləri bu məsələyə müsbət yönümdə kömək etməkdən qürur duyur. Ailə cəmiyyət üçün sosial funksiyanı, nəsil artırmaq və kamil insan yetişdirmək baxımından əvəzsiz rola malik olan bir təsisatdır. Ailə milyon illər davam edən çoxməzmunlu, rəngarəng proseslərin və hadisələrin məntiqi nəticəsi kimi formalaşmış və böyük təkamül yolu keçərək, bu günki səviyyəyə gəlib çatmışdır. Təsadüfi deyil ki, BMT Baş Assambleyasının 20 sentyabr 1993-cü il tarixli Qətnaməsinə müvafiq olaraq, hər ilin 15 may tarixi «Beynəlxalq ailə günü» kimi bütün dünyada qeyd olunur. Bu cəmiyyətin və dövlətin bütün diqqətini ailəyə, onun inkişafına istiqamətləndirir. Nümunəvi ailə qurmaq,onu qoruyub saxlamaq milli mentalitetimizdə şərəf işi hesab olunur [122, s.612]. «Beynəlxalq ailə günü» ölkəmizdə də geniş və yüksək səviyyədə bayram edilir. Bu gün ictimai-siyasi və hüquq ədəbiyyatında müxtəlif ailə modelləri və ailənin müxtəlif problemləri haqqında tez-tez yazılır, tövsiyələr verilir, düzgün yol göstərilir [21; 75; 128; 216; 492]. Qərb və Şərq dünyasında ailə, valideyn-

lik və uşaq tərbiyəsi problemləri bir-birindən kəskin sürətdə fərqlənir. "Valideyn-uşaq münasibətlərinə dair" Hişam ət-Talib, Əbdülhəmid əbu Suleyman və Ömər ət Talibin hazırladığı vəsaitin müstəsna əhəmiyəti və dəyəri vardır. Müəlliflər müxtəlif ölkələrdə,müxtəlif din və təriqətlərdə,müxtəlif tərbiyə və təhsil sistemlərində Uşaq-Valideyn münasibətlərinə,yaxud «Vaşinqton ailəsi», «Britaniya ailəsi» və digər ailə sistemlərinə xüsusi yer ayrılaraq, onların mənfi və müsbət cəhətlərinə münasibət bildirilmiş, müəllif tövsiyələri arzu edilmişdir.

Müəlliflər qeyd etmişlər ki, «millət ailələrdən, kişi və qadınlardan ibarətdir». Ağıllı olmaq təkcə anadan gəlmə xüsusiyəti deyil o, həm də qazanılan keyfiyyət göstərcisidir. Stabil ailələr sabit və fəal cəmiyyətin qurulmasının mühim vasitəsi və göstəricisidir. Ailə qohumluq münasibətlərinin birləşdirdiyi insanlar qrupudur, ailələr evlilik vasitəsi ilə formalaşır. Hazırda geniş ailələr nuklear ailələrlə əvəzlənmiş və ailə üzvlərinin sayı azalmışdır. Ailə özü özülyündə bitkin mədəniyyətin nümunəsi hesab olunur.

Tez-tez dəyişən və bəzən fərqlənən statistik məlumatlara görə ABŞ-da qeydə alınan 123.3 milyon ailənin 60 milyonu evlilik, 8 milyonu evlənmədən partnyorluq, 34.2 milyonu isə birvalideynli ailələrin payına düşür. 2000-ci ilin nəticələrinə görə aparılan tədqiqatlar zamanı ABŞ-da 5 milyon ailənin nikahdan kənar yaşadıqları müəyyən edilmişdir.ABŞ-da sürətlə yayılan «Razılaşdırılmış boşanma» forması, hələ 1969-cu ildə Kaliforniya qubernatoru R.Reyqanın ilk dəfə olaraq qəbul etdiyi qanun əsasında tənzimlənmiş və hazırda da geniş yayılmışdır. Məsələn, 1960-cı ildə ABŞ-da qeyri-qanuni doğulanların cəmi sayı 5% idisə, bu rəqəm 1996-cı ildə 25%-ə qədər artmışdır. H.Klinton «Bir uşaq tərbiyə etmək üçün bütöv kəndə ehtiyac vardır» adlı kitabında qeyri-qanuni doğulanların ABŞ-da ildən-ilə artmasını, belə doğuşların ana və uşaqlar üçün mənfi nəticələr doğuracağını ətraflı təhlil etmiş, XXI əsrin ən qorxulu təzahürlərinin nəticəsi olaraq ABŞ-da ailələrin dağılmasının və uşaqların gələcəyi üçün böyük təhlükələr yaracağını xüsusi olaraq vurğulamışdır. Bunlardan birincisi, Amerika ailələrinin zəifləməsi və dağılması nəticəsində nikahdankənar uşaqların sayının artması; ikincisi,ekoloji taraz-

lığın pozulması nəticəsində antisanitar təzahürlərin ailə və uşaqların sağlamlığına mənfi təsirinin artması və sonuncu alkoqollu içkilərə meylin sürətlə artması nəticəsində ailələrin dağılmasına mənfi təzahürün mühim amilə çevrilməsi kimi xüsusiyətlər qeyd olunmuşdur [275, s.118-121].

2014-cü il 15 may ərəfəsində Böyük Britaniyada «beynəlxalq ailə günü»nün iyirmi illik yubileyinə həsr edilmiş tədbirlərdə iki yüzə yaxın ölkə içərisində, öz müsbət cəhətləri ilə seçilən və bəyənilən altı ailə modelindən biri, məhz Azərbaycanın ailə modeli olmuşdur [48, s.77]. Bu da son illər ölkəmizdə dövlət səviyyəsində ailə institutuna verilən böyük önəmlə bağlıdır. Çünki müasir ailənin cəmiyyətin, dövlətin və vətəndaşların ictimai-siyasi və sosial həyatında müstəsna rolu və yeri vardır. İnsanlara və fərdlərə qiymət və dəyər onun qurduğu ailəyə görə verilir. Müasir Azərbaycanın ailə modeli milli dəyərlərə, tarixən formalaşmış adətlərə, ənənələrə, vərdişlərə, son illər isə daha çox hüquq normalarına və beynəlxalq standartlara əsaslanan bir təsisat kimi yüksək qiymətləndirilir. Azərbaycan ailə modelində mühim əhəmiyyət kəsb edən «ailə başçısı», «ağsaqqal», «ağbirçək» terminləri, ailə münasibətlərində xüsusi nüfuzu, hörməti, müdrikliyi ilə seçilən və rəhbər statusu daşıyan kişiyə, ərə, valideynə, ailə başçısına şamil edilir.Ənənəyə və müsbət dəyərlərə söykənən belə ailə modelləri cəmiyyətdə haqlı olaraq böyük hörmətə və diqqətə sahib olur. Elə buna görə də çox vaxt ailə münasibətlərində «kişi» dedikdə, cinsi keyfiyyətindən daha çox «ailənin başçısı», «ailənin rəhbəri» statusu daşıyan şəxs başa düşülür. Onun sözü ailədə daha keçərli hesab olunur və son söz ona mənsubdur. Əsilli-köklü ailələrdə bir qayda olaraq ailə başçısı hesab edilən kişinin - ağsaqqalın, bununla yanaşı həm də onun həyat yoldaşı olan qadının – ağbirçəyin fikirləri, mövqeləri əsas götürülür, ailə münasibətlərində onların sözü keçərli hesab edilir. Azərbaycan ailəsinin möhkəmliyinin və uzunömürlülüyünün mühim səbəblərindən biri də ailənin rəhbərinin, başçısının öz yerində olması, mövqeyini qoruması, ailəni müdrikliklə idarə etməsi, onun həyat yolunu düzgün istiqamətləndirməsi, hətta problem, münaqişə, mübahisə yaransa belə, onu səssiz, sakit və kənar şəxslər bilmə-

dən, vaxtında və uğurla həll edilməsindən qaynaqlanır. Belə ailələr böyük hörmət qazanır, cəmiyyətdə nümunə göstərilir, uşaqlar öz müsbət xüsusiyyətləri ilə əhəmiyyətli dərəcədə fərqlənirlər. Bütün bunlar başqalarına nümunə göstərilir, müsbət təcrübələrin ənənəyə çevrilməsinə, ailələrin qorunub saxlanılmasına, uzunömürlülüyünə imkan yaradır [237; 261].

Ailə – bir sosial və hüquqi birlik olaraq o cəmiyyətə və dinə nisbətən daha konkret səciyyə daşıyır. Cəmiyyətin və dinin daha çox mücərrəd mahiyyətindən fərqli olaraq, ailə daha konkret mahiyyəti ilə seçilir. Onun strukturu, tərkibi, vəzifələri və subyektləri dəqiq və aydındır. Ailələr ittifaqı kimi səciyyələndirilə bilən, dövlətin yaranması haqqında nəzəriyyələrdə-patriarxal nəzəriyyə kimi qiymətləndirilən belə baxışa tez-tez istinad edilir [225; 272, s.6-17]. Ailə – əxlaqın, tarixən formalaşmış adətlərin, ənənələrin, milli kimlik xüsusiyyətlərinin nəsildən-nəsilə ötürülməsində, qorunub saxlanmasında və inkişafında müstəsna və əvəzsiz rol oynayır. O cəmiyyətin əsas xüsusiyyətlərini özündə ehtiva etməklə, nikaha, qan qohumluğuna, məişət, birgə yaşayış və təsərrüfat birliyinə əsaslanaraq, ailə və qohumluğu səciyyələndirən bitkin münasibətlər sistemi kimi təzahür edir. Ailə – cəmiyyətdə insanın davamlı olaraq yetişdirilməsini təmin edən, maddi və mənəvi istehsalın əsasında dayanan, biososial, iqtisadi, mənəvi və hüquqi qaydalara əsaslanan insan birliyi hesab edilir. İnsan nəslinin təkrar istehsalını, bəşər nəslinin zaman-zaman intensiv və ahəngdar inkişafını məhz ailələr təmin edirlər. Ailə – mədəniyyətin və sivilizasiyanın yaradıcısı və beşiyidir. O, tərbiyənin, əxlaqın, mənəviyyatın və vərdişlər sisteminin qorunub saxlanmasında, nəsildən nəsilə ötürülməsində böyük rol oynayır. Ailə – insanların fizioloji, maddi və mənəvi tələbatının ödənilməsini təmin edən sosial təsisat hesab olunur. Bəşəriyyət bütün dünyanı heyrətə salan, onun varlığını və inkişafını təmin edən uğurlara, kəşflərə və nailiyyətlərə görə məhz ailələrə minnətdar olmalıdır. Ailə – dəyərlər sisteminin yaranmasını, bərqərar edilməsini və inkişafını təmin edir. O, şəxsiyyətin sosial-mənəvi və əxlaqi cəhətdən formalaşmasını təmin edən mənəvi mühit hesab edilə bilər. Ailə – təsərrüfat, məişət, iqtisadiyyat, siyasət, din,

cəmiyyət və dövlət münasibətlərinin yaranmasında mühim rolu olan, insan birliyinin müasir və ən qədim forması hesab oluna bilər. O cəmiyyətin ilkin özəyi, insanların sosial qarşılıqlı təsirinin bir forması kimi zaman-zaman inkişaf etmişdir. Ailənin yaranmasında insan-cəmiyyət, insan-təbiət, insan-dövlət, insan-din münasibətlərinin və əlaqələrinin müstəsna rolu olmuşdur. Ailə fenomenal insan birliyinin özəyi olmaqla, o nikah və qohumluq münasibətləri əsasında yaranan insan birliyinin ən geniş yayılmış tipik nümunəsi, formasıdır. Ailə – əhalinin və insanların dinamik artımını və inkişafını bioloji cəhətdən təmin edən ocaqdır. Onun kökündə məhəbbət, sevgi, tələbat, mənəvi rahatlıq, tərəqqi və yüksəliş dayanır. Ailəsiz mütərəqqi cəmiyyətin və müasir dövlətin mövcudluğu istisna edilir. Ailə – cəmiyyətin və dövlətin ictimai sosial inkişafını təşkil və təmin edən, onun maddi-mənəvi və iqtisadi yüksəlişinin əsasında dayanan sosial-siyasi və hüquq institutudur. Sosioloqlar belə hesab edirlər ki, bir institut olaraq ailə – kişinin və qadının ailə yaratmaq və nəsil artırmaq məqsədilə yaratdıqları və birgə həyatın cəmiyyət tərəfindən qəbul olunmuş sosial formasını, hüquqi məzmununu ifadə edir. Mənəvi baxımdan, onun struktur tərkibinə ailədaxili qarşılıqlı münasibətləri tənzim edən adətlər, ənənələr, vərdişlər, sonralar isə həm də hüquq normaları, ailə qurmağın qaydaları, tərəflərin öz rolu ilə bağlı statusu – öhdəlikləri, hüquqları və vəzifələri daxildir [274, s.168].

Ailə, yalnız sosial münasibətlərin inkişafı sahəsində fövqəladə əhəmiyyətə malik deyil, o həm də bəşəriyyət tarixində insan cəmiyyətinin bütövlüyünü və inkişafını təmin edən əsas institutlardan biri hesab olunur.

Azərbaycan ailə modeli daha çox sevgiyə, etibara, tarixən formalaşmış adətlərə və ənənələrə əsaslanır. Müxtəlif tarixi dövrlərdə və müxtəlif müəlliflər tərəfindən ailəyə müxtəlif anlayışlar, definisiyalar, izahlar və təriflər verilmiş, ən gözəl poetik ifadələr, yaradıcılıq nümünələri, ailələrə və ailə üzvlərinə- anaya, qadına, qəhrəmanlıq və fədakarlıq göstərmiş kişilərə, övladlara həsr edilmişdir. Uzun illər erməni faşistlərinin əsarətində saxlanılan Vətən torpaqlarımız qəhrəman oğullarımız tərəfindən bir ailəyə, "anaya" bənzədilərək, onu

azad etməyin vacibliyini şərəf işi hesab edən oğullarımız-igidlərimiz, hətta ölümə belə cəsarətlə getmiş və onu şərəf işi hesab etmişlər. Bütün bunlar milli ordumuzun əsgər və zabitlərinin böyük qəhrəmanlıq göstərməyə psixoloji cəhətdən səfərbər etmiş, Vətən Torpağı azad edilmiş, böyük qəhrəmanlıqlar göstərilmişdir. Azərbaycan ailələri bütün dünyanın təəcüblə baxdığı qəhrəman oğullar yetirib, tərbiyə etmişdir.

Ailələr – nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrup hesab olunsalarda, onlar cəmiyyətimizdə böyük hörmət qazanmışlar. Ailə üzvləri biri-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlı olan sabit sosial birlik hesab olunur [101, s.187]. Eyni fikir «Fəlsəfə ensiklopedik lüğəti»ndə də əks olunmuşdur [546, s.602]. Demoqrafik ensiklopediyanın müəllifləri ilə fikri üst-üstə düşən filosoflar, ailəni - biri-biri ilə məişət birliyi və qarşılıqlı öhdəliklə bağlı olan adamların-insanların nikah və ya qan qohumluğuna söykənən birliyi kimi səciyyələndirilmişdir [379, s.395]. Professor Q.Manayev isə hesab edir ki, ailə – nikaha və ya qohumluğa əsaslanan, dövlət qayğısı ilə əhatə edilən və cəmiyyətin özəyini təşkil edən qadın və kişi birliyidir, ittifaqıdır [223, s.18]. «Gender terminləri» adlı lüğətdə ailənin – nikah, qan qohumluğu, yaxud övladlığa götürülməyə əsaslanan, üzvlərinin biri-biri ilə eyni məişət, qarşılıqlı kömək və cavabdehlik əlaqələri əsasında formalaşan kiçik qrup olduğu təsbit edilmişdir [160, s.5]. Müasir Azərbaycanda ailə hüququnun görkəmli tədqiqatçısı, prof. M.Dəmirçiyeva ailəni – nikahla və ya qohumluqla bağlı olan, bir-biri ilə və birlikdə yaşayan şəxslər qrupu kimi səciyyələndirmişdir [136, s.6]. Bəzi müəlliflər hesab edirlər ki, ailə biri-biri ilə məişət birliyi, qarşılıqlı məsuliyyət, birgə həyat tərzi ilə bağlı olan, insanların nikah və qan qohumluğuna əsaslanan birliyindən ibarətdir [177, s.180-182]. Ailə – ata-anadan, uşaqlardan, nəvələrdən və yaxın qohumlardan ibarət olub, bir yerdə yaşayan insanların məcmusudur. O.Kont ailəni cəmiyyətin ilk özəyi, G.Zimmer insanların sosial qarşılıqlı təsirinin bir forması, Fredrik Le Ple ailəyə «kiçik cəmiyyət» kimi baxmış və cəmiyyəti başa düşmək üçün ilk öncə ailəni başa düşməyi vacib hesab etmişdir. A.Q.Xariçev ailəni

nikah və qohumluq əsasında insanların birləşməsi, onların məişət eyniliyi və qarşılıqlı məsuliyyəti əsasında qurulması kimi səciyyələndirmişdir [261, s.16]. Ailə cəmiyyətin özəyi, nüvəsi, ilkin hüceyrəsi olmaqla, ər-arvad arasında sabit ictimai birlik kimi hüquqi, əxlaqi, psixoloji, bioloji, təsərrüfat, estetik, məişət dəyərləri əsasında formalaşan və nikah əsasında yaradılan tarixi bir ittifaqdır. Ailə hüququ isə, nikahdan doğan münasibətlər əsasında yaranan və ailə üzvləri arasında olan ictimai münasibətləri, sonsuz ictimai münasibətlər sistemindən ayıraraq, əlahiddə öyrənən hüquq elmidir [220, s.135-139].

Beləliklə, çoxsaylı müəlliflərin ailəyə verdiyi tərifləri ümumiləşdirərkən belə bir yekun nəticəyə gəlmək mümkündür ki, ailə – cəmiyyətin əsas özəyi, nüvəsi hesab olunan kiçik sosial qrup, şəxsi məişəti təşkil etməyin mühim forması hesab olunmalıdır. Bu bir yerdə yaşayan və ümumi təsərrüfatı birgə idarə edən ər və arvad, valideynlər və uşaqlar, qardaşlar və bacılar, digər qohumlar arasındakı çoxtərəfli münasibətlərə əsaslanan birlik, ittifaq kimi səciyyəvi xüsusiyyətləri ehtiva edir. Ailənin nikah münasibətinə əsaslanan kişi və qadın birliyi kimi izahı müəyyən tarixi dövrün məhsulu olmaqla, ailə üzvləri arasında yaranan münasibətləri tənzim edir, hər bir subeyktin statusunu müəyyən edir. Ailə – bir institut olaraq yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis edilən, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin təməlini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş qaydalara əməl etməklə, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yarandılan insan birliyidir. Ailənin həyatı müxtəlif maddi-bioloji, fizioloji, təsərrüfat, mənəvi, əxlaqi, hüquqi, psixoloji, estetik proseslərin vəhdətini əks etdirir. Ailənin sosial rolu insanın özünün təkrar istehsalında, bəşər nəslinin davam etdirilməsində, onun bilavasitə iştirakı ilə müəyyən olunur [160, s.19]. AR-nın Konstitusiyasının 94-cü maddəsinin 14-cü bəndinə əsasən ailə münasibətlərinə dair ümumi qaydalar AR Milli Məclisinin, vətəndaşlıq məsələləri isə ölkə

prezidentinin səlahiyyətlərindədir. Bu ailə və ailə münasibətlərinin tənzimlənməsinə olan böyük diqqətin nəticəsidir. Konstitusiyaya referendum yolu ilə edilmiş əhəmiyyətli dəyişikliklər, AR-nın Ailə Məcəlləsində, Mülki Məcəllədə, Mülki-Prosessual Məcəllədə və digər zəruri normativ-hüquqi aktlarda müvafiq dəyişikliklərin aparılması ilə nəticələnmiş, müasirləşdirilmiş və təkmilləşdirilmişdir [92].

Azərbaycan Respublikasının Ailə Məcəlləsi 28 dekabr 1999-cu ildə qəbul edilmişdir. Ölkəmizin ictimai-siyasi, iqtsadi və hüquqi həyatın baş vermiş köklü dəyişikliklər ailə və ailə münasibətlərinə də öz təsirini göstərmiş, təbii olaraq yeni-yeni problemlər və ziddiyyətlər yaratmışdır. Məcəllədə intensiv təkmilləşdirmələr aparılsa da, onun bir sıra qüsurları hələ də qalmaqdadır. Belə ki, Məcəllədə əsassız boşanmaların qarşısını almaq, ailənin dağılmaması üçün zəruri tədbirlər həyata keçirmək, ailənin və uşaqların sosial rifahını yüksəltmək, ailə idarəçiliyində ananın və atanın yerini və rolunu konkretləşdirmək, məsuliyyətini və s. bu kimi istiqamətlərdə dəyişikliklərin aparılmasına zərurət yaranmışdır. Ölkəmiz uşaqların hüquq və azadlıqları, nikahdan kənar doğulan uşaqların hüquqi statusu ilə bağlı ölkələrarası övladlığa götürmə haqqında, uşaq alverinə, uşaq fahişəliyinə, uşaq pornoqrafiyasına, uşaqların silahlı münaqişələrə cəlb edilməsi haqqında, uşaq əməyinin mühafizəsi haqqında və onlarla digər beynəlxalq hüquqi sənədlər AR-da ratifikasiya edilmiş və bunlara müvafiq olan milli hüquq normaları yaradılmışdır [266]. Bununla belə Ailə Məcəlləsində ailənin idarə olunmasında tərəflərin – ərin və arvadın hüquqları, vəzifələri və məsuliyyəti konkretləşdirilməmişdir. Ailədaxili zorakılıq ildən-ilə artmasına baxmayaraq, onun konstitusion təminatları konkret müəyyənləşdirilməmişdir. Halbuki Braziliya, Kolumbiya, Efiopiya, Vyetnam, Hindistan, Niderland, Latviya, Fransa, Banqladeş, İsrail və bir sıra ölkələrdə ailə zorakılığı konstitusion normalarla qadağan edilmişdir. Bu mənada AR Konstitusiyasında da zamanın tələblərindən irəli gələn müvafiq dəyişikliyin aparılması vaxtı çatmışdır.

Azərbaycanın müasir ailə modeli bütün məziyyətlərinə görə dünyada böyük maraq kəsb edir. Belə ki, bu ailə modeli müasir ailə-

nin elə formalaşmış və hamı tərəfindən qəbul edilən formasını nəzərdə tutur ki, bu xüsusiyyətlər daha çox məhz Azərbaycan ailəsinə şamil edilə bilər. Dünyada mövcud olan bütün müasir ailə modellərinin əksəriyyəti ümumi və fərdi keyfiyyətlərinə və əlamətlərinə görə biri-birindən bu və ya digər dərəcədə fərqlənirlər. Ailənin qanunvericiliklə müəyyən edilmiş quruluşunda ümumi cəhətlər çoxluq təşkil edir, onun məqsədləri götürülmüş konkret ailə nümunəsində özünəməxsusluğu, fərdi cəhətləri ilə seçilir, təkrarsız və bənzərsiz səciyyə daşıyır. Bu zaman ailə quran tərəflərin – qızın və oğlanın, gələcək ərin və arvadın adı, soyadı, təvəllüdü və demoqrafik göstəriciləri ilə konkret, təkrarsız və bənzərsiz fərdilik keyfiyyətləri ilə özünəməxsusluq əldə edir, vəzifələri, təyinatı, qanunvericilik əsasları, nikah rəsmiləşdirilməsi isə ümumi cəhətlərə əsaslanır. Tarixən formalaşmış ənənələrə, milli xüsusiyyətinə, dininə, dilinə, iqtisadi və sosial inkişafına, ailə dəyərlərinə, milli mentalitetə, milli mənlik koduna, ailə üzvlərinə və uşaqlara olan münasibətə, digər çoxsaylı yanaşmalara görə milli ailə modelləri oxşar və fərqli keyfiyyətləri ilə fərqlənirlər. Hər bir ölkənin, millətin milli ailə modelləri müəyyən keyfiyyət göstəricilərinə və səciyyəvi xüsusiyyətlərinə görə biri-birindən seçilir. Bu mənada müasir dünyada nümunə kimi göstərilən Azərbaycanın ailə modeli qloballaşan dünyada öz milli-mənəvi, əxlaqi və müsbət keyfiyyətləri ilə fərqlənir. Azərbaycan ailəsinin «kiçik dövlət» modelinə müvafiq olaraq yüksək mənəvi-əxlaqi keyfiyyətlərə, dəyərlərə əsaslanması və hər bir cəmiyyət üzvü üçün ailənin son dərəcə əhəmiyyətli və müqəddəs ocaq olması xüsusiyyəti əsas təşkil edir [48; 152, s.108-113].

Azərbaycanın ailə modelində uşaqların sayının çoxluğu ailənin möhkəmliyinin mühim milli amili, təkrarsız səciyyəvi xüsusiyyəti hesab oluna bilər. Bu mənada çoxuşaqlılıq Azərbaycanlıların əksər ailələrinin çox arzu etdiyi ideallardan biri hesab olunur. Bir çox ölkələrdən və xalqlardan fərqli olaraq Azərbaycan xalqı, sübut etmişdir ki, çoxuşaqlılıq ailələrin nəinki dağılmasına, habelə onun monolitliyinin və möhkəmliyinin qorunub saxlanmasının ən mühim bir vasitələrdən biridir. Çox uşaq doğmuş analar bioloji cəhətdən çox sağlam

və möhkəm olur,tərbiyəli uşaqlar biri-birinə nümunə olur və ailədə öz problemlərini özləri həll etməyə fürsət tapırlar.

Təəssüf ki, son illərin statistik məlumatlarından görünür ki, ölkədə çoxuşaqlı ailələrin sayında azalma halları müşahidə edilir. Əgər 1999-cu ildə biruşaqlı ailələrin göstəricisi 22.5%, 2009-cu ildə 30.1%, 4 və daha çox uşaqlı ailələrin statistikası 1999-cu ildə 16.7%, 2009-cu ildə 9,7% olmuşdursa, bütün bunlar son illər çoxuşaqlı ailələrin sayının sürətlə azalması tendensiyası ilə əvəz edilmişdir. Rəsmi məlumatlarda bu problemlə məşğul olan ayrı-ayrı məmurların, «18 yaşadək 5 uşağı olan ailələrin çoxuşaqlı ailə» kimi qiymətləndirilməsinə dair təklifləri ilə razılaşmaq çətindir [594]. Hesab edirəm ki, belə yanaşma düzgün hesab edilə bilməz, ailə və uşaqların rifahı nəzərə alınaraq və çoxuşaqlı ailələrin sayının artımına stimul vermək məqsədilə, ailədə 18 yaşadək 3 uşağı olan ailələrin «çoxuşaqlı ailə» kimi qiymətləndirilməsi, belə ailələrə dövlət qayğısının artırılması, eləcə də hər bir uşağa xüsusi müavinətlərin təyin olunması üçün tezliklə, təsirli tədbirlərin görülməsi vacibdir [62]. Elə bu yaxınlarda bu məsələni yenidən gündəmə gətirilməsi təklifimizin əsaslı olduğunu birdaha təsdiq edir.

Azərbaycan ailəsinin ən böyük uğuru, sevinci və xoşbəxtliyi dünyaya çoxlu uşaq gətirməkdə ifadə olunur. Ailənin və uşaqların xatirinə tərəflərin yarana biləcək hər bir çətinliyə dözməsi, güzəştə getməsi, böyüklərin sözünü dinləməsi, tövsiyyələrə hörmətlə yanaşılması ailə problemlərinin uğurlu həllində çox önəmlidir. Ailənin maddi rifah halını yaxşılaşdırmaq daha çox kişinin – ərin üzərinə düşürsə, ailə təsərrüfatının idarə edilməsi, qənaətçilik, ailə üzvlərinin və uşaqların ərzaq və geyim problemlərinin lazımi qaydada təmin olunması qadınların üzərinə düşür. Ailədaxili təminatların reallaşdırılması vəzifəsi qadına aiddirsə, ailədənkənar məsələlərin həllində kişinin rolu əhəmiyyətli yer tutur. Ərin və arvadın, kişinin və qadının qarşılıqlı olaraq valideynlərinin hörmətini gözləməsi, mənəvi-əxlaqi dəyərlərə hörmət etməsi, qoruması, nəzakətli və diqqətcil olması ailədə böyüyən və tərbiyə edilən övladlar üçün nümunə səciyyəsi daşıyır. Tarixən formalaşmış Azərbaycan ailəsində kişinin, qadının, övladların

hər birinin ailədə öz yeri, fərqli mövqeyi, funksiyası və rolu olmuşdur. Belə rəftar və münasibət Azərbaycan ailəsində pozulmaz norma kimi qəbul edilir və bu gün də qorunub saxlanılmaqdadır. Ailədaxili münasibətləri ən əvvəl tarixən formalaşan ciddi əxlaqi meyarlara söykənir, abır, ismət ailənin çöhrəsi hesab olunur. Bu münasibətlərə görə ailə daxilində əsas rol valideynlərə – ataya və anaya aid olmaqla yanaşı, ağsaqqalların da hörməti, nüfuzu və məsləhətləri əhəmiyyətli yer tutur. Azərbaycan ailəsində hamilə qadına əsasən hamı hörmət edir, ona qayğı, diqqət və nəzakət göstərillər. Arzu və istəklərinin reallaşdırılmasına çalışılır. Bu ənənəvi olaraq hamilə qadına olan böyük hörmət və ehtiramla bağlı olsa da, həm də gələcəkdə uşağın sağlam doğulmasına xidmət edən vacib məsələ hesab edilir. Bir qayda olaraq ailədə körpələr arasında yaşca ən kiçik olanı daha çox sevilir, əzizlənir. Əgər ailədə olan uşaqlar arasında qız və oğlan uşaqları vardırsa, onların yaşca daha kiçik olanına və ya bir qayda olaraq qız uşaqlarına valideynlər daha çox diqqət və qayğı göstərirlər. Valideynlərə kömək etmək, ailə daxilində, məişətdə anaya yardımçı olmaq hər bir qız uşağının mənəvi borcu hesab olunur. Bu həm də onun özünün gələcək ailə həyatına hazırlamağa xidmət edir. Evdən kənarda olan və fiziki güc tələb edən təsərrüfat işlərinə daha çox oğlanlar, kişilər cəlb edilirlər. Tarixən formalaşmış ənənələrə görə ailənin daxili problemlərini əsasən qadın həll edirsə, kişilər daha çox ailədən kənar, ailə xaricində olan problemlərin həllinə səy göstərir, şərti olaraq adlandırılan «kişi işləri»nin yerinə yetirilməsini təmin edirlər. Azərbaycanın ailə modelində yaşlı valideynlər yetişmiş övladlarının qız və ya oğlan olmasından asılı olmayaraq, onların yeni qurduqları ailə tam formalaşana qədər, gənc ailəyə maddi və mənəvi yardım göstərir, kömək edir, dəstək olur, qayğı və məsləhətlərini əsirgəmirlər. Valideynlərin ən böyük qayğısı və problemi, övladlarının yaratdığı və qurduğu gənc ailənin möhkəmlənməsi mərhələsinə qədər olan dövrdə onlara ən zəruri köməklik göstərilməsində ifadə olunur [30, s.12-32; 75, s.19-29].

Azərbaycan ailəsində tərəflər – qız və oğlan, gələcək ər və arvad öz valideynləri tərəfindən imkan daxilində zəruri ailə məişəti ilə,

mənzillə, avadanlıqlarla mümkün qədər təmin edilənədək onlara dəstək olmağa çalışırlar. Bir çox ailələrdə və bir çox regionlarda gənc ailəni ən zəruri şəraitlə, bütün avadanlıqlarla təmin edilmiş mənzillə, evlə, hətta minik maşını ilə təmin etməyə çalışırlar. Lakin bu cəhət heç də bütün ailələrə şamil edilə bilməz və söhbət yalnız imkanı normal olan ailələrdən gedir. Valideynlər yeni yaradılmış gənc ailələrə öz gələcəkləri, nəsilin davamı kimi baxır, onlara zəruri maddi və mənəvi yardım göstərməkdən ləzzət alır və qürur duyurlar. Belə münasibət Azərbaycan ailə modelində üstün mövqe tutur, bu qayğı valideynlərin bir növ yazılmamış borcu hesab edilir və müxtəlif cəhətləri ilə daim zənginləşir.

Azərbaycan ailəsində kişi və qadın arasında əsaslı fərqli cəhətlərə, xüsusilə son illər qadın hüquqsuzluğuna dair xarakter hal almış təzahürlərə bir qayda olaraq təsadüf edilmir. Mövcud qanunvericilikdə qadın və kişinin hüquq bərabərliyi təsbit olunmuşdur. Azərbaycanın ailə modelində, xüsusilə rayon və kənd yerlərində ailədə kişinin üstünlüyü, son sözə sahib olması birmənalı şəkildə təbii qəbul edilir. Əlbəttə ki, şəhər mühitində və bəzi Qərb yönümlü ailələrdə kişinin «hökmran» mövqeyi heç də tam qəbul edilmir. Çox vaxt belə yanaşmalar ailə münasibətlərində münaqişələrə, mübahisələrə və ailələrin dağılmasına gətirib çıxarır. Ailə qurulmasında seçim çox vaxt oğlan, kişi və ya onun ailəsi tərəfindən edilir. Cəmiyyətdə baş verən urbanizasiya prosesləri, şəhər reallıqları, açıq-saçıqlıq, tarixi ənənələrə biganəlik, təsadüfü əlaqələrin artması, tərəflərin bəzən biri-birini yaxşı tanımaması, xasiyyətləri uyğunlaşmadan evlənmələri, erkən nikahlar, lüzumsuz sərbəstlik, kənar şəxslərin yersiz müdaxiləri bu gün ailələrin cuzi səbəblər üzündən vaxtsız dağılmasının ən əsas səbəblərindən hesab olunur. Ailələr qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və şərtlərə əməl etməklə rəsmi dövlət orqanlarında bağlanmış nikah əsasında yaradılsa da, bununla belə Azərbaycanın ailə modelində nikahın rəsmi forması ilə yanaşı, həm də qeyri-rəsmi olaraq, müsəlman adəti əsasında «kəbin duası»nın oxunması şərti ilə reallaşdırılmasına diqqət yetirilir. Hətta sovet rejimi dövründə qadağalara baxmayaraq, müsəlman ailələrində dini kəbinin bağlanması da qeyri-rəs-

mi olaraq təmin edilmiş və belə kəbin qaydasına əməl edilməyən ailələrdə uşaqların doğulmasına kəbinsiz, qanunsuz kimi baxılmışdır.Sosioloji sorğular təsdiq edir ki, «Kəbin duası» oxumaqla nikahların dini qaydada da bağlanması ənənəsi Azərbaycanın ailə təcrübəsində bütün evlənənlərin təxminən 85-90%-ini əhatə edir [244, s.46-68]. Xüsusilə, yaşlı nəslin nümayəndələri olan ailələrdə nikahın, həm də dini qayda-qanunlara əməl edilməklə bağlanması zəruri hesab edilir [202]. Dini kəbin kəsmə qanunla qadağan edilməmişdir və fikrimizcə, dini kəbin ailələrin möhkəmləndirilməsi üçün əhəmiyyətli hesab edilə bilər. Bu gün Azərbaycan cəmiyyətində reallıq bundan ibarətdir ki, eynicinslilər, transseksualistlər arasında "ailə qurulması" halları əhali tərəfindən təqdir edilmir. İnsan hüquqlarının və azadlıqlarının ifrat təcəssümü kimi qəbul edilən belə «nikah»lar Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda pis bir əməl kimi, pis bir təzahür kimi rədd edilir. Eyni qaydada, ikiarvadlılıq və çoxarvadlılıq faktları da bir çox müsəlman ölkələrindən fərqli olaraq Azərbaycanda məqbul hesab edilmir. Belə hallar ailədə olan qadınlara fərqli münasibətə, mənəvi-əxlaqi dəyərlərin tənəzzülünə, uşaqların tərbiyəsinə mənfi təsir göstərir, abır, həya, ismət, sədaqət, vəfa kimi milli-mənəvi dəyərlərin pozulmasına, münaqişələrin və mübahisələrin artmasına, kriminal təzahürlərin çoxalmasına təsir göstərir. İkiarvadlılıq və çoxarvadlılıq halları qadınlar və ailənin yaşlı üzvləri, habelə uşaqlar arasında müsbət qarşılanmır, ailənin monolit birliyini və möhkəmliyini zəiflədir, tərəflər arasında qarşılıqlı inam azalır, xəyanətə stimul yaranır və bəzən bu proseslər hətta ailələrin dağılması ilə nəticələnir. Elə buna görə də Sovet rejimi dövründə bütün bu amillər nəzərə alınaraq belə əməllərə görə cinayət məsuliyyəti müəyyən edilirdi. Hazırda Avropaya inteqrasiya prosesləri belə nikahları məqbul hesab etsə də, lakin ölkəmizdə bu geniş yayılmamışdır və bir qayda olaraq mənfi hal kimi qarşılanır. Buna görə də Azərbaycan Respublikasının Ailə Məcəlləsinin «Nikahın bağlanmasına mane olan hallar»a həsr olunmuş 12-ci maddəsinə aşağıdakı yeni bəndin əlavə edilməsini təklif edirik:

«12.0.5. eyni cinsdən olan şəxslər arasında».

Milli-mənəvi və əxlaqi dəyərlərimiz, tarixən formalaşmış mentalitetimiz Azərbaycan üçün belə əməllərə görə cinayət məsuliyyətinin bərpa olunmasına zərurət yaradır. Burada əsas məqsəd heç də kiminsə məsuliyyətə cəlb edilməsinə deyil, daha çox belə əməllərdən çəkindirmək məqsədini daşıyır. Əgər belə yanaşmaların səbəbi tarixən formalaşmış adətlər, ənənələr, vərdişlər və əxlaq normaları hesab edilirsə, digər başlıca səbəb isə eynicinslilər, transseksualistlər arasında nikah münasibətləri, çoxarvadlılıq halları həm də insan sağlamlığına, sağlam nəsil yetişdirilməsinə və onların tərbiyəsinə mənfi təsir göstərən amil kimi rədd edilir. Qərbdə baş verən ən müxtəlif proseslər, nəticə etibarilə ailəni artıq ən qiymətli dəyər kimi deyil, iş, karyera, rahatlıq, sərbəstlik, əyləncə, azad yaşayış, həyat tərzi, gəlir vasitəsi, varlanma mənbəyi kimi yanaşmaya gətirib çıxarmışdır. Qərbdə gənc yaşlarından başlayaraq nikahdankənar münasibətlərin sərbəstliyi, açıq-saçıqlıq, «vətəndaş nikahı»nın geniş yayılması, doğumun azalması, demoqrafik proseslərin kəskinləşməsi ənənəvi ailə dəyərlərinin pozulmasına təsir göstərmişdir. Bütün bunlar ailənin bir institut kimi sosial statusunda dəyişikliklərə səbəb olmuşdur [128; 178]. Azərbaycanın müasir ailə modeli, öz uzunömürlülüyü, möhkəmliliyi, milli-mənəvi və əxlaqi dəyərlərə sadiqliyi, milli mentalitetin, adət-ənənələrin qorunub saxlanması, bunların ən vaciblərinin və əhəmiyyətlilərinin nəsildən-nəslə ötürülməsi, müasir dövrün tələbatlarına daha tez uyğunlaşması, təhsilin və mədəniyyətin inkişafı, Vətən və ailə sevgisi, sosial strukturun ayrılmaz elementlərinin mühafizəsi və müdafiəsi, cəmiyyətin əsas özəyini təşkil etməsi kimi səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Azərbaycan ailəsi Avropa və Qərb dəyərlərinin ən yaxşı və ən müsbət cəhətlərini mənimsəməklə yanaşı, eyni zamanda tarixən formalaşmış milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanmasına və inkişafına daha çox önəm verməsi ilə diqqəti cəlb edir. Azərbaycanın ailə modeli ölkə vətəndaşlarının ictimai və şəxsi mənafeyinin ahəngdar surətdə əlaqələndirilməsini, ailələrə dövlət qayğısının genişləndirilməsini, maddi rifah halının və sosial problemlərinin mümkün qədər mükəmməl həllini, mənzil-məişət şəraitinin daim yaxşılaşdırılmasını, analığın, uşaqlığın və atalığın qanunve-

riciliklə müəyyən edilmiş qaydada mühafizəsini və məhkəmə müdafiəsini önə çəkir. Uşağın xoşbəxtliyinin məhz ailədə təmin olunması vacib hesab edilir. Böyüməkdə olan nəslin fiziki və mənəvi sağlamlığı, uşaqların tərbiyəsinin məhz ailədə mükəmməl formalaşdırılmasının mümkünlüyünü, uşaq bağçalarının, körpə evlərinin, internat məktəblərin, təhsil müəssisələrinin daim inkişaf etdirilməsi, təkmilləşdirilməsi və dövlət qayğısı ilə əhatə olunması diqqətdə saxlanılır. Azərbaycan ailəsində maddi nemətlər və var-dövlət hərislərinin üstünlük təşkil etməsi önəmli səciyyə daşımır. Ailədə mənəvi mühitin, məhəbbətin, sülhün və əmin-amanlığın bərqərar olması vacib hesab edilir. Qanunvericilikdə ailənin möhkəmləndirilməsinin zəruriliyi, ailənin qarşılıqlı məhəbbətə və hörmətə əsaslanması, ailənin daxili işlərinə hər kəsin qarışmasının yolverilməzliyi, ailə qarşısında duran vəzifələrin birlikdə həllinin təmin olunması, hər bir ailə üzvünün öz hüquqlarını və azadlıqlarını maneəsiz və sərbəst olaraq həyata keçirilməsinin real olaraq təmin edilməsi kimi prinsiplər öz təsbitini tapmışdır. Azərbaycan ailə modelində ayrı-seçkiliyə, tərəflərin birinin digərinə nisbətən üstün olmasına, sosial, siyasi, irqi, milli, dini, əmlak, vəzifə, mövqe, ixtisas, təhsil, dil və digər xüsusiyyətlərinə görə fərqləndirilməsi, onların hüququnun məhdudlaşdırılması və ya üstün imtiyaz qazanması yolverilməz hesab edilir. Azərbaycanın ailə modeli ümumiyyətlə ailənin hamı tərəfindən qəbul edilmiş ümumbəşəri prinsiplərinə, ailə münasibətlərinin, qadın və kişinin könüllü nikah ittifaqı, bütün ailə üzvlərinin maddi mülahizələrdən azad olan qarşılıqlı məhəbbətinə, dostluğuna və hörmət hislərinə əsaslanır. Ailədə uşaqlar ərin və arvadın birgə səyi ilə Vətənə sədaqət ruhunda tərbiyə olunur, sağlam, təhsilli, gümrah böyüdülür, uşaqların hüquqları və mənafeləri müdafiə edilir, onların xoşbəxt böyüməsi, ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin yüksək mənada təlqin edilməsi, tərbiyə olunması, uşaqların zərərli adətlərdən və pis vərdişlərdən istisna edilmiş bir mühitdə və şəraitdə böyüməsi vacib və əhəmiyyətli hesab edilir [152, s.110-112].

Milli ailə modelimizin daha da təkmilləşdirilməsi, ailə və ailə münasibətlərində boşluq kimi qiymətləndirilə bilən bir sıra ziddiyyət-

lərinin aradan qaldırılması vacibdir. Məsələn, Azərbaycan SSR-nin 20 dekabr 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan SSR Nikah və Ailə Məcəlləsi»nin 41-ci maddəsində ailənin qorunub saxlanılmasına xüsusi diqqət verilməsi vacib hesab edilirdi. Orada göstərilirdi ki, ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının daha mümkün olmadığı hallarda məhkəmə nikahı pozur. Qüvvədə olan Ailə Məcəlləsində isə belə məhdudiyyətlər nəzərdə tutulmamışdır. Ər-arvad arasında barışıq olmadıqda və ya onlar nikahın pozulmasını təkid etdikdə nikah pozulur. Əvvəllər boşnmalara, fövqəladə bir hadisə, ailə və onun təmsil olunduğu nəsl üçün çox ağır, əskildici bir təzahür kimi baxılırdı. Bu gün isə belə hallar çox təəsüf ki, adi bir təzahürə çevrilmişdir. Tərəflərin boşanma haqqı və onun reallaşdırılmasına, guya insan hüquqlarının ifadəsi kimi baxılır, qadının və uşağın taleyinə isə faktiki olaraq biganəlik göstərilir. Məhz buna görə son illər ölkədə boşanma halları xeyli dərəcədə asanlaşmış, həm də çoxalmışdır. Ailənin qorunub saxlanılması üçün mümkün olan bütün tədbirləri təmin etmək üçün Ailə Məcəlləsinin 20-ci maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirik:

«20.1. ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının daha mümkün olmadığı müəyyən edildikdə nikah pozulur».

Eləcə də Ailə Məcəlləsinin 22.2.1-ci maddəsinin aşağıdakı redaksiyada verilməsini zəruri hesab edirəm:

«22.2.1. Boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqlardan valideynlərin hansının yanında qaldığını müəyyən etməli, əgər uşaq həmin valideynnin yanında deyildirsə, onun digər validenydən alınıb yanında qalması müəyyən edilən valideynə verilməsi məsələsi həll edilməlidir. Bu zaman uşağın hansı valideynin yanında qalması və alimentin miqdarının müəyyən edilməsi hallarında, uşağın üstün mənafeyinin təmin olunması əsas götürülməlidir».

Ailə Məcəlləsinin 23.3-cü maddəsində «çıxarış» sözündən sonra «nikahın pozulmasının dövlət qeydiyyatı üçün» söz birləşməsinin əlavə edilməsini təklif edirəm.

Məlumdur ki, Ailə Məcəlləsinin 26.1.7-ci maddəsinə görə, saxta nikahın etibarsızlığı barədə iddia qaldırmaq hüququ ancaq ər və ar-

vada verilmişdir. Ərin və yaxud arvadın sağlığında, bu qayda məqsədəuyğun hesab oluna bilər. Məhkəmə təcrübəsində ər və arvadın hər hansı birinin ölümündən sonra, digər maraqlı şəxslər tərəfindən belə iddiaların qaldırılması hallarına təcrübədə təsadüf olunur. Məsələn, mirasa sahib olmaq məqsədi ilə bağlanılmış saxta nikahın etibarsız hesab edilməsi barədə vərəsələr tərəfindən qaldırılan iddialar buna misal ola bilər. Onların iddia hüquqlarının olmaması, saxta nikahın bağlanması nəticəsində pozulmuş hüquqlarının və mənafelərinin müdafiəsinə imkan vermir. Buna görə də həmin maddənin təkmilləşdirilməsi məqsədəmüvafiq hesab edilməlidir. Bu baxımdan Ailə Məcəlləsinin 26.1.7 bəndinin aşağıdakı yeni redaksiyada verilməsini təklif edirəm:

«26.1.7. saxta nikah bağlandığı halda saxta olmasını bilməyən ər (arvad) və digər maraqlı şəxslər».

Yuxarıda göstərildiyi kimi ailə münasibətlərində ailə idarəçiliyi, başqa sözlə, ailəyə rəhbərliyin təcrübi olaraq həyata keçirilməsi qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsinə tələbat yaradır. Bu baxımdan, Ailə Məcəlləsinin 29.1 maddəsində «ailə münasibətlərində» sözündən sonra «ailə idarəçiliyində» söz birləşməsinin əlavə edilməsini təklif olunur.

Ailə Məcəlləsinin 30.4-cü maddəsinin məzmunundan görünür ki, nikahın pozulduğu hallarda ərin və arvadın ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadı bərpa etmək hüququ boşanan tərəflərin subyektiv hüquqları sırasındadır. Bununla belə həmin maddənin təhlili göstərir ki, ər-arvad nikah bağladıqları zaman götürdükləri ümumi soyadının saxlanılmasına etiraz edə bilməzlər. Təcrübədə isə nikah pozularkən keçmiş ər və ya arvad çox vaxt ümumi soyadın saxlanılmasına etiraz edir və onların əvvəlki soyadlarına keçmələrini tələb edirlər. Soyada hüququn şəxsi xarakter daşıması baxımından hesab edilir ki, buna ancaq soyadın ilkin daşıyıcısı olan ər və arvadın razılığı əsasında yol verilə bilər. Buna görə də Ailə Məcəlləsinin 30.4 maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirəm:

«30.4. nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna yalnız onların öz razılığı ilə yol verilə bilər».

Ailə münasibətlərində birgə nikah dövründə əldə edilən mülkiyyətin hüquqi rejimi sahəsində müəyyən boşluqlar vardır. Məlumdur ki, Ailə Məcəlləsinin 32-ci maddəsinə görə ər-arvadın nikah müddətində əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Özəlləşdirmənin ayrı-ayrı növlərinə əsasən (Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, umümi qaydada özəlləşdirmə) əldə edilmiş mənzillərin ər-arvadın ümumi birgə mülkiyyəti olması, məhkəmə təcrübəsində mübahisələrə səbəb olur. Buna görə də həmin normada Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, ümumi qaydada özəlləşdirmə kimi halların istisnasız olaraq nəzərə alınaraq, onların hər birinə fərdi məxsus olması amilinin nəzərə alınması zəruridir.

Ailə Məcəlləsinin 36.9-cu maddəsinə əsasən nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddialara 3 illik iddia müddəti tətbiq edilir. Mülkiyyət mülki hüququ anlayış olduğuna görə hesab edilir ki, bu müddəa Mülki Məcəllənin 384-cü maddəsinə uyğun deyildir və normalar arasında ziddiyyət vardır [97, s.272-273]. Həmin maddəyə görə mülkiyyət hüququna iddia müddəti tətbiq edilmir. Buna görə də nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddianın müddətinə MM-nin 384-cü maddəsinin tətbiq edilməsi və Ailə Məcəlləsinin 36.9-cu maddəsinin çıxarılmasını təklif edirəm.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 64.0.7-ci maddəsinə görə ərin və yaxud arvadın bir-birinin sağlamlığına və ya həyatına qarşı qəsdən cinayət etməsi halları valideynlik hüququndan məhrum etmə üçün əsas sayılır. Lakin hesab edirik ki, bu zaman qanunverici ədalət prinsipinə riayət etməmişdir. Belə ki, göstərilən əsaslar valideynlik hüququndan məhrum etmənin mahiyyəti ilə bila-

vasitə bağlı hesab oluna bilməz. Buna görə də 64-cü maddənin «64.0.7» bəndinin çıxarılmasını təklif edirəm.

Tarixi təcrübə və sosialoji təhlillər göstərir ki, milliyyətindən, dilindən, dinindən, təhsilindən, yaşından və digər çoxsaylı demoqrafik göstəricilərindən asılı olmayaraq, cəmiyyətin bütün üzvləri, bütün normal insanlar möhkəm və yaxşı ailəyə zaman-zaman möhtac olmuşlar. Aristotel qeyd edirdi ki, ailə dövlət üçün ilkin və olduqca zəruri başlanğıcdır. Bu baxımdan ailəsiz cəmiyyətin və dövlətin mövcudluğu ümumiyyətlə mümkünsüzdür. Çünki ailə cəmiyyətdə baş verən bütün sosial, mədəni, iqtisadi, siyasi və mənəvi proseslərin əsasını təşkil edir, mərkəzində dayanır. Bu baxımdan ailə sosiumda mürəkkəb fenomenal mahiyyət daşıyır. Vətəndaş cəmiyyəti üzvlərinin biri-birinə olan fərdlərarası münasibətlərindən əhəmiyyətli dərəcədə fərqlənən qohumluq əlaqələrinə və münasibətlərinə əsaslanan xüsusi icma hesab edilən ailə, mülki cəmiyyətin, fundamental dəyərlər sisteminin əsasını təşkil edir. Təsadüfi deyil ki, Hegelə görə, dövlətin ilkin bazisini məhz ailə təşkil edir. Bütün cəmiyyətlərdə ailələr olmuşdur, bu gün də var və sabah da olacaqdır.

Ailənin məişət və ya iqtisadi funksiyası isə ailə üzvlərinin maddi tələbatlarının mükəmməl ödənilməsinə, insan rifahının daim yaxşılaşdırılmasına, uşaqların sağlam böyüdülməsinə, təhsil və elmi nailiyyətlərin qazanılmasına xidmət edən mühitin formalaşdırılması ilə sıx bağlıdır. Müasir ailə münasibətlərində ən mühim və ən çətin məsələlərdən biri aliment öhdəliklərinin real təmin edilməsi ilə bağlıdır. Bu aktual problemin birdəfəlik həlli üçün ölkədə dövlət səviyyəsində «Aliment Fondu»nun yaradılması vacibdir. Buna görə də Ailə Məcəlləsinə «Aliment Fondu» adlı aşağıdakı məzmunda, yeni «113a» maddəsinin əlavə edilməsini təklif edirəm:

«Maddə 113a. Aliment Fondu

113a.1. Ailə münasibətlərində aliment öhdəliklərinin vaxtında və zəruri məbləğdə ödənilməsini təmin etmək məqsədilə AR Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin nəzdində «Aliment Fondu» yaradılır.

113a.2. «Aliment Fondu» dövlət büdcəsi, ayrı-ayrı tutulmalar, ianələr, xeyriyyə tədbirləri, reqres iddialardan əldə edilən məbləğlər və digər qanuni mənbələr hesabına formalaşdırılır».

«Aliment Fondu»nun yaradılması ayrı-ayrı şəxslərin aliment öhdəliklərinin təxirəsalınmadan, dövlət səviyyəsində ödənilməsinə, ailə və uşaqların həyat səviyyəsinin təmin olunmasına, aliment hesabına yardıma ehtiyacı olan digər şəxslərə mümkün şərait yaradılmasına xidmət etməlidir. Büdcə ayırmaları, ianələr, xeyriyyə fondları, yardımlar, reqres iddialar hesabına cavabdehlərdən müvafiq məbləğlərin tutulub «Aliment Fondu»nun hesabına ödənilməsi yolu ilə Fondun maliyyə mənbələrinin və resurslarının mötəbərliyini və möhkəmliyini təmin etmək mümkündür.

Müstəqil ailə məhkəmələrinin yaradılması da vacib və aktual səciyyə daşıyır. Ailə və ailədaxili münasibətlərin qorunması, ailə sirlərinin mühafizəsi, təcrübəli və ixtisaslı hakimlər tərəfindən, ailə və uşaq münasibətləri ilə əlaqədar olan mülki işlərə ixtisaslaşmış məhkəmələrdə baxılması, problemin həlli, ailə münasibətlərinin möhkəmləndirilməsinə, ailələrin qorunmasına əhəmiyyətli təsir göstərə bilər. Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən ailə məhkəmələri buna müsbət bir nümunə ola bilər. Bundan başqa hesab edirik ki, ailələrin dağılmasının qarşısını almaq üçün boşanma prosesləri müəyyən məhdudiyyətlərin qanunvericilik yolu ilə tətbiq edilməsi də vaxtı çatmış məsələlərdən biridir.

AR-nın Cinayət və İnzibati Xətalar Məcəlləsində ailə və ailə münasibətlərinə qəsd edən müxtəlif əməllərə görə inzibati və cinayət məsuliyyəti müəyyən etmək yolu ilə ailə qanunvericiliyinin mühafizəsini təmin edən tədbirlər sistemi nəzərdə tutulmuşdur. Belə ki, AR Cinayət Məcəlləsinin 57.2 maddəsi, 18 yaşı tamam olmamış şəxslərə və qadınlara ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini qadağan etmişdir. Əməlin yetkinlik yaşına çatmayan şəxs və hamilə qadın tərəfindən törədilməsi, şəxsin himayəsində azyaşlı uşağın olması kimi əlamətlər cəzanı yüngülləşdirən hallar sırasına daxil edilmişdir. Əməlin aşkar surətdə hamilə vəziyyətdə olan qadına və azyaşlıya qarşı törədilməsi CM-nin 61-ci maddəsində nəzərdə tutulan

cəzanın ağırlaşdırıcı hallar sırasına daxil edilmişdir. Ailə və ailə münasibətləri ilə bağlı bir sıra əməllər cinayət məsuliyyəti yaratdığı halda, onlar «Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər»ə görə məsuliyyət müəyyən edən 12-ci fəsildə deyil, müxtəlif fəsillərdə – «Sülh və insanlıq əleyhinə olan cinayətlər» və «Şəxsiyyət əleyhinə olan cinayətlər»ə görə məsuliyyət müəyyən edən bölmələrdə nəzərdə tutulmuşdur. Buna görə də gələcəkdə həmin normaların ayrıca bir «Ailə münasibətləri əleyhinə olan cinayətlər» fəslində yerləşdirilməsi məqsədəmüvafiq olardı [58]. Buna görə də AR Cinayət Məcəlləsinin 12-ci fəslinin adı dəyişdirilərək «Ailə münasibətləri əleyhinə olan cinayətlər» fəsli yaradılmalı və yuxarıda qeyd edilən maddələr bu fəsilə daxil edilməlidir.

AR-nın Konstitusiyasının 31, 32 və 33-cü maddələri hər kəsin təhlükəsiz yaşamaq hüququnu, şəxsi toxunulmazlıq hüququnu və mənzil toxunulmazlığı hüququnu tanımışdır. AR Ailə Məcəlləsinin 1.3-cü maddəsi, Mülki Məcəllənin 1, 2.3, 6.1.6 və 23.2 maddələri isə şəxsi və ailə həyatına özbaşına müdaxiləni, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyi prinsipini müəyyən etmişdir. Buna baxmayaraq məhkəmə və istintaq təcrübəsi birmənalı şəkildə təsdiq edir ki, ailə münasibətlərinin pozulması və boşanmalar, çox vaxt ailənin işinə, şəxsi və ailə həyatına özbaşına qarışma və ya müdaxilə, şəxsi və ailə həyatının sirrlərinin və şəxsi toxunulmazlıq hüququnun pozulması nəticəsində baş verir.

AR Cinayət Məcəlləsinin 106-cı maddəsində şəxsi həyatın toxunulmazlığını pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutmuşdur. Həmin maddənin dispozisiyasından görünür ki, yalnız şəxsi və ailə həyatının sirri olan məlumatların, sənədlərin, materialların toplanılması və yayılması belə əməllər sırasındadır. Bu normada şəxsi həyatın toxunulmazlığı dedikdə, qanunverici, şəxsin həyatına aid sirr hesab edilən məlumatların toplanılmasını və qanunsuz yayılmasını nəzərdə tutur. Ailə üçün mühim əhəmiyyət kəsb edən məlumatların, habelə ailənin fəaliyyətinə müdaxilə və ailənin işinə qanunsuz müdaxiləyə görə Cinayət Məcəlləsində məsuliyyət nəzərdə tutulmamışdır. AR Mülki Məcəlləsinin 6.1.6 maddəsi ailənin işinə hər kəsin qarış-

masının yolverilməzliyi, ailədaxili məsələlərə, şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasını, MM-nin 23-1 maddəsi isə şəxsi və ailə həyatının sirrinin və ya şəxsi toxunulmazlıq hüququnun pozulmasını qadağan etmişdir. AR Mülki Məcəlləsinin 1.2 maddəsi şəxsi və ailə həyatının, şəxsi toxunulmazlıqdan müdafiə hüququnu tanımış və onların qanunla qorunduğunu təsbit etmişdir. Lakin təcrübədə AR Konstitusiyasının, Ailə Məcəlləsinin və Mülki Məcəllənin müəyyən etdiyi qaydalar cinayət hüquq vasitələrlə müdafiə olunmadığından ailənin işlərinə qanunsuz qarışma və ailədaxili münasibətlərə müdaxilə, ailə münasibətlərinə mühim zərər vurmaqla hazırda da davam etməkdədir. Bütün bunları nəzərə alaraq və ailənin möhkəmləndirilməsini təmin etmək üçün AR-nın Cinayət Məcəlləsinə aşağıdakı məzmunda 156-1 maddəsinin əlavə edilməsini təklif edirəm:

«Maddə 156-1.1. Şəxsi və ailə həyatının toxunulmazlığını pozma

Şəxsi və ailə həyatına özbaşına müdaxilə, ailədaxili məsələlərə qanunsuz qarışma, ailənin və şəxsin həyatının toxunulmazlığını pozmağa yönəlmiş əməllər -

Beş yüz manatdan səkkiz yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətdə islah işləri ilə cəzalandırılır.

Maddə 156-1.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, təkrar törədildikdə və ağır nəticələrə səbəb olduqda –

Üç ilədək müddətdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğulluq hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

Ulu Öndər Heydər Əliyev 7 mart 1998-ci ildə qadınlar bayramı münasibətilə etdiyi çıxışında göstərirdi: «Ümumiyyətlə, qadın,ana çox ülvi və müqəddəs bir məfhumdur. Qadına – anaya hörmət hər bir insanın ən yüksək mənəvi keyfiyyətə malik olmasını göstərir... Hər bir insan dünyadakı həyatına görə, bütün varlığına görə anaya borcludur. «Ana» sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də «Ana Vətən» deyirik. Torpağa da «Ana torpaq» deyirik... Bu anlayış-

lar «ana» anlayışı ilə bərabərdir və biz Vətənə «Ana Vətən» deyəndə Vətənin nə qədər əziz, nə qədər qiymətli və müqəddəs olduğunu bir daha qeyd etmiş oluruq. Anaya hörmət, hər bir insanın həyatda ana qarşısında borcunu yerinə yetirməsi, onun ən ali vəzifəsi olmalıdır... Ana həyatda hər bir şeyin başlanğıcıdır. Ana, Vətəni, ölkəni qorumaq üçün əsgər böyüdür, igidlər, qəhrəmanlar yetişdirir. Analar cəmiyyətimizə zəkalı, istedadlı insanlar böyüdür, bəxş edir. Analar ailələrin dayağı hesab olunur. Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən çox asılıdır. Hər birimiz anaya borcluyuq və hər bir qadında ana olmaqla xoşbəxt olur... Analığa nail olan hər bir qadın, dünyada ən xoşbəxt insandır. Cəmiyyətdə ananın ailəyə münasibəti daim yüksəltmək qadına hörmətdən başlanır» [164, s.174-178]. Bütün bu müdrik sözlər və müdrik tövsiyyələr Azərbaycanda anaya və ailəyə verilən yüksək dəyərin və böyük hörmətin bariz nümunəsi kimi səciyyələndirilə bilər.

Ailənin məişət sahəsində başlıca vəzifəsi, bu sosial qrupa daxil olan üzvlərin, başqa sözlə ailənin məcmu olaraq ev təsərrüfatının və məişət birliyinin mükəmməl formalaşmasını təmin etməkdən ibarətdir. Bu isə hər şeydən əvvəl ailə ocağının - ata ocağının və ana yurdunun maddi əsasında dayanan mənzil və ya ev probleminin təmin olunmasından başlanır. Ailə münasibətlərində ev – yurd, ailə ocağı kimi istilahlar uzun bir təkamül yolu keçmiş və müasir anlamda Ocaq, Yurd, Vətən səciyyəsinə yüksəlmiş, insan həyatında müəyyən dəyər statusunu qazanmışdır. Ailə üçün ev həmişə rahatlıq, isti, doğma və müqəddəs əhəmiyyətə malik olmaqla, müəyyən məkanı ehtiva edir. Böyük Vətən anlayışı, əslində ailənin mənzilindən, evindən, kandarından başlanır. Ailənin formalaşmasında və inkişafında ev təsərrüfatının – yaşayış evinin, mənzilin, ailə büdcəsinin, ailənin maddi və mənəvi ehtiyaclarının ödənilməsi çox vacibdir. Ailə məişətinin səviyyəsi, cəmiyyətin inkişafı ilə sıx surətdə bağlı olaraq, ailənin formalaşmasında, inkişafında, uşaqların tərbiyəsində, böyüdülməsində, yetkin insan kimi formalaşmasında mühim rol oynayır. Ailə üzvlərinin sayı, səviyyəsi, dünya görüşü, təhsili, mənzili, əmək fəaliyyəti, təminatı, həyatı, təsərrüfat birliyi və s. kompleks götürüldükdə, ailə

məişətini əhatə edir. Bir sosial institut kimi ailənin və ailələrin maddi, mənəvi, əxlaqi, sosial, iqtisadi, məişət və s. bu kimi elementləri, ailənin ümumi səviyyəsini müəyyən edir. Bu da ümumiyyətlə cəmiyyətin və dövlətin inkişafında mühim əhəmiyyətə malik olmaqla, eyni zamanda cəmiyyətin özünün də səviyyəsinə əhəmiyyətli təsir göstərir. Ailə tərkibinə daxil olan üzvlərin – ananın, atanın, uşaqların geniş hüquq və azadlıqları AR-nın Konstitusiyasında təsbit edilmişdir. Bu hüquqların və azadlıqların ayrı-ayrı elementlərinə müəyyən aydınlıq gətirilmişdir. Belə ki, ailənin kişi və qadın birliyi, ittifaqı olaraq yaşamaq, yaratmaq, uşaq sahibi olmaq, onları cəmiyyətə layiqli övlad kimi yetişdirmək, ən mühim hüquqlarına yaşamaq, ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq və s. bu kimi hüquqları xüsusi olaraq qeyd edilməlidir. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Mütəxəssislər haqlı olaraq göstərirlər ki, ana dilinin qorunub, saxlanması, mühafizəsi və inkişafı sahəsində ən şərəfli və ən dəyərli missiya məhz ailə ocağı vasitəsi ilə nəsildən-nəslə ötürülür, təkmilləşir, müasirləşir və qorunub saxlanılır. Bu mənada ana dilindən istifadə hüquququnun təmin olunması buna əhəmiyyətli təkan verir və əlverişli şərait yaradır. AR vətəndaşlarının özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilməsi də qanunvericiliklə qadağan edilmişdir. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilmişdir [85]. Beləliklə, Azərbaycan ailə modeli qloballaşan dünyada milli-mənəvi dəyərlərə əməl edilməsini təmin edir və bununla belə tarixən formalaşmış ailə dəyərlərinə böyük diqqət və hörmət göstərilməsini təcəssüm etdirir.

## 2.2. Nikah əqdi – ailənin hüquqi statusunun əsası kimi

Müstəqillik illərində Azərbaycan Respublikası beynəlxalq hüquq normalarında qadın və kişi hüquqlarının bərabərliyini, siyasi və əmək hüquqlarının təmin olunmasını, yetkinlik yaşına çatmış şəxslərin nikah hüququnun tanınmasını, qadın hüquqlarının və azadlıqlarının genişləndirilməsini, gender bərabərliyininin gözlənilməsini və digər məsələlərin beynəlxalq hüquqi tənzimlənməsinə dair çoxsaylı Konvensiyaları – BMT-nin «İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi», «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında», «Qadınlara münasibətdə ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyaları, «Mülki və siyasi hüquqlar haqqında» və «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktları, «Qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi haqqında», «Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında» Bəyannamələri, «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» Avropa Şurasının Konvensiyasını, «Dəyişdirilmiş Avropa Sosial Xartiyası»nı, Pekin Bəyannaməsini, BMT-nin Baş Məclisinin «Minillik Bəyannamə»ni, «İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında», BƏT-in «Sosial təminatın minimum normaları haqqında» Konvensiyalarını, BƏT-in «Analığın mühafizəsi haqqında» Tövsiyəsini, BƏT-in «Analığın mühafizəsi haqqında» Konvensiyasını və onlarla digər sənədləri ratifikasiya etmiş və öz milli qanunvericiliyinin təşəkkülündə və inkişafında bu beynəlxalq hüquq normalarından yaradıcılıqla istifadə edilmişdir [122, s.9]. Nikahın ailənin hüquqi əsası olması, beynəlxalq hüquq normalarında və Azərbaycan Respublikasının milli qanunvericilik sistemində birmənalı şəkildə qəbul edilir. Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsində, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda – konkret desək, 18 yaşı tamam olduqda, ailə qurmaq hüququ təsbit edilmişdir. Bu münasibət nikah əqdinin bağlanması ilə rəsmiləşdirilir. Latınca deyildiyi kimi, *nuptias facit consensus* yəni nikah könüllü razılıq əsasında bağlanır və heç kəs, bir insan olaraq bu əqdi bağlamağa məcbur edilə bilməz. Elə buna görə də nikah və ailə dövlətin himayəsində olmaqla, nikah

əqdlərinin rəsmiləşdirilməsi də dövlətin xüsusi ayrılmış orqanları tərəfindən həyata keçirilir. Yalnız belə bağlanmış nikahlar dövlət tərəfindən tanınır və müdafiə olunur. Bu qaydaları müəyyən edən normalar həm Azərbaycan Respublikasının Konstitusiyasında və həm də bu Konstitusiyaya müvafiq olaraq hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Ailə Məcəlləsində nəzərdə tutulmuşdur, başqa sözlə *dura lex,sed lex.* Bütün bunlar isə öz mənbəyini və hüquqi əsasını beynəlxalq hüquq normalarından götürmüşdür. Belə ki, BMT-nin «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında» 7 noyabr 1962-ci il tarixli Konvensiyası, nikahla bağlı Azərbaycan Respublikasının qanunvericilik aktlarının və hüquq normalarının hazırlanması üçün əsas olmuşdur. Ölkənin milli konstitusiyası hazırlandıqdan sonra BMT-nin göstərilən Konvensiyası 31 may 1996-cı il tarixdə Milli Məclisdə ratifikasiya edilmiş və qanunlarımızın bu sənədə uyğunlaşdırılması əsasən təmin edilmişdir. Konvensiyanın 16-cı maddəsində göstərilmişdir ki, «Yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli, yaxud dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikah bağlayarkən, nikahda olarkən və nikah pozularkən eyni hüquqlardan istifadə edirlər. Nikah yalnız nikaha daxil olan hər iki tərəfin azad və tam razılığı əsasında bağlanılır». Bu Konvensiyada BMT-nin Nizamnaməsində və «Ümumi Bəyannamə»də müəyyən edilmiş bütün prinsiplərə əməl edilməsi təsbit olunmuş və köhnəlmiş adətlərin və ənənələrin ləğv edilməsi qaydası müəyyən edilmişdir. Konvensiya nikah yaşının müəyyən edilməsini üzv dövlətlərə tövsiyyə etmişdir. Eləcə də «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» 4 noyabr 1950-ci il Avropa Konvensiyasının 12-ci maddəsində göstərilmişdir ki, nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Bütün bunlara görə də AR-nın Ailə Məcəlləsi nikah yaşını 18 yaş müəyyən etmişdir. Ailə və ailə münasibətlərinin hüquqi baxımdan yaranmasında mühim hüquqi nəticələr doğuran nikah əqdinin, geniş mənada hüquq institutunun mühim yeri və rolu vardır [419, s.137-142; 420, s.70-75;

541, s.59-68; 549, s.31-41]. Beynəlxalq və milli hüquq normaları oğlanın və qızın, ərin və arvadın, kişi və qadının nikah əsasında ailə qurmasını insanın təbii hüququ kimi tanıyır və qəbul edir. Bu baxımdan dövlət orqanlarında qeydə alınan belə nikah əqdləri, nikahın bağlanması ailənin rəsmi olaraq dövlət və beynəlxalq təşkilatlar tərəfindən tanınması kimi qiymətləndirilə bilər. Nikah – Azərbaycan ailəsinin hüquqi əsası kimi mühim əhəmiyyətə malik olmaqla, tərəflər üçün ciddi hüquqi nəticələr doğurur və ailə institutunun tərkib hissəsidir. Tarixən Azərbaycanda kəbin şəriət qanunları əsasında bağlanmışdır. Rusiya İmperiyasının tərkibində olduğu illərdə Azərbaycanda kəbin şəriət qanunları və Rusiya İmperiyasının müvafiq normativ-hüquqi aktları əsasında rəsmiləşdirilmişdir [136]. Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi illərdə isə ailə və nikah münasibətlərinə dair ilk rəsmi sənədlər hazırlanıb qəbul edilmişdir. Lakin bu Respublika bolşeviklərin və daşnakların birgə səyi ilə devrildikdən sonra ailə-nikah münasibətlərində Sovet Rusiyasının qəbul etdiyi normativ-hüquqi aktların Azərbaycan variantları hazırlanıb, təcrübədə istifadə edilmişdir. Bu dövrdə qəbul edilmiş «Vətəndaş nikahı haqqında, uşaqlar haqqında və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılması haqqında Dekret»in, eləcə də «Nikahın pozulması haqqında eyni məzmunlu Dekret»in qəbul edilməsi buna misal ola bilər. 29 may 1928-ci ildə «Azərbaycan SSR-nin nikah, ailə, qəyyumluq və vətəndaşlıq vəziyyəti aktları haqqında qanunlar Məcəlləsi» qəbul edilmişdir. Bu Məcəllə 26 dekabr 1969-cu ildə «Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsi»nin qəbul edilməsinə qədər qüvvədə olsa da, lakin 1928-1969-cu illərdə bu Məcəlləyə bir sıra zəruri və əhəmiyyətli dəyişikliklər aparılmışdır. Ailənin hüquqi baxımdan yaranmasını təmin edən nikah əqdinin konstitusiya statusu, tariximizdə ilk dəfə olaraq 21 aprel 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında təsbit edilmişdir. Həmin dövrə qədər nikah institutuna da ailə institutu kimi Azərbaycan SSR-nin Konstitusiyalarında yer ayrılmamışdır. Bu sahədə ictimai münasibətlər tarixən qüvvədə olan Ailə və Nikah Məcəlləsi, Ailə Məcəlləsi, eləcə də vaxtilə qəbul edilmiş dekretlər, təlimatlar və digər bu kimi normativ-hüquqi sənədlərlə tənzim edilmişdir [77; 103; 136;

223; 320]. Müstəqillik illərində AR-nın ailə qanunvericiliyi, əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədəki vəzifələrini, vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarının müəyyən etmişdir. Bu sahədə AR-nın hazırda qüvvədə olan Ailə Məcəlləsinin mühim yeri və rolu olmuşdur [73, s.4].

Cəmiyyətdə, dövlətdə və şəxsiyyətin həyatında müstəsna əhəmiyyətə malik olan qız və oğlan, ər və arvad, kişi və qadın birliyinin rəsmi ifadə forması olan, dövlət tərəfindən tanınan nikah əqdi hər bir insanın həyatında mühim əhəmiyyət kəsb edən sosial-iqtisadi və hüquqi əhəmiyyətli hadisədir. Ər və arvad arasındakı çoxtərəfli münasibətlərin sosial forması, hüquqi ifadəsi olan nikah, əqd olaraq tərəflər üçün çoxməzmunlu nəticələr doğurur, hüquqlar və öhdəliklər yaradır. Belə nikahlar əsasında yaranan ailələr, dövlətin xüsusi orqanlarında rəsmi qeydiyyata alındığı vaxtdan etibarən onun himayəsinə keçir. Nəticə etibarı ilə vətəndaş, ailə və dövlət arasında keyfiyyətcə tamamilə yeni məzmun kəsb edən münasibətlər yaranır. Nikahın, ailənin və cəmiyyətin həyatındakı rolu, fəlsəfi mahiyyəti haqqında görkəmli alman alimi Gustav Radbrux olduqca dəyərli tədqiqatlar aparmış və mülahizələr bildirmişdir [253, s.191-201]. Nikah əsasında yaradılan ailəni dövlət bir institut olaraq tanıyır, onu himayə edir, ona sosial qayğı göstərir, güzəştlərə gedir və nəzarət edir. AR Konstitusiyasında nikahın və ailənin dövlətin himayəsində olmasının xüsusi olaraq vurğulanması məhz elə bununla bağlıdır. Dövlətin ailəyə və nikaha himayədarlıq göstərməsinin konstitusiya normasında təsbit edilməsi, bu tərkibdə işlədilən «himayədarlıq» sözünə müəyyən aydınlıq gətirilməsinə zərurət yaradır. Azərbaycan dilinin izahlı lüğətində göstərilir ki, ərəb mənşəli söz olaraq «himayədarlıq» sözü kiminsə, kiməsə, nəyinsə nəyəsə havadarlıq etməsi, onu qoruması, onun qeydinə qalması, ona arxa və kömək olması, ona diqqət göstərməsi kimi çoxməzmunlu və çoxmənalı fəaliyyətin məcmusunu ifadə edir [53, s.393]. Nikah ailə münasibətlərinin dağılması və ya nikaha girən tə-

rəflərdən birinin ölümü ilə sona çatır. Vətəndaşın rəsmi hüquqi statusu, onun şəxsiyyət vəsiqəsi – pasportu ilə müəyyən edilirsə, nikahın bağlanması haqqında qeydi əks etdirən «Nikah haqqında Şəhadətnamə» insan birliyi olaraq ailənin pasportu, hüquqi əsası hesab edilə bilər [75, s.100-114]. Ailə və nikah münasibətlərində hüquqi əhəmiyyət kəsb edən nikah, ölüm, doğum, boşanma və s. bu kimi faktların təsdiqinə dair rəsmi dövlət sənədləri, bir qayda olaraq «şəhadətnamə» adlandırılır. Fars dilində «şəhadət etmək», «təsdiq etmək» mənalarını ifadə edən «şəhadətnamə» sözü, bir faktı təsdiq edən rəsmi kağız, vəsiqə mənasında işlədilir [51, s.331].

İnsan birliyinin ən qədim forması olan ailənin, eləcə də nikahın tarixən müxtəlif formaları olmuşdur. Qeydə alınmış nikah əqdi və qeydə alınmamış nikah əqdi – vətəndaş nikahı kimi formalar hazırda geniş yayılmışdır. Qloballaşma, inteqrasiya və transformasiya proseslərinin intensiv olaraq getdiyi müasir cəmiyyətdə, Sovet dövründən fərqli olaraq, bu gün «vətəndaş nikahı» əsasında yaradılan ər-arvad birliyinin ildən-ilə artması müşahidə edilir. Azərbaycan dilinin izahlı lüğətində «nikah» məfhumu «kəbin», «izdivac», «evlənmənin qanuni şəklə salınması» mənasında işlədilir [50, s.489]. Nikah bəşəriyyət tarixində insan münasibətlərinin ən qədim və ən geniş yayılmış birlik forması, kişinin və qadının ailə qurmaq məqsədilə yaratdıqları ittifaqın rəsmi hüquqi ifadə formasıdır. Bu insan istehsalının fasiləsiz olaraq təmin edilməsi ilə yanaşı, nəticə etibarı ilə insanın, nikaha daxil olan ərin və arvadın biri-birinə olan bioloji, fizioloji, maddi və mənəvi tələbatlarının ödənilməsinə hüquqi və mənəvi əsas verir. Ən qədim nikah münasibətləri vaxtilə adətlərə, ənənələrə, dini qayda-qanunlara əsaslansa da, sonradan dövlətin və hüququn təkamül prosesi, nikah hüququnun konstitusiyada və buna müvafiq olaraq digər sahəvi normativ-hüquqi aktlarda, məcəllələrdə təsbitinə və tənzimlənməsinə gətirib çıxarmışdır [223, s.3-6]. Ailənin mahiyyətini, məzmununu və hüquqi statusunu tədqiq etmək üçün ailə institutu ilə yanaşı, «nikah» institutunun da konstitusiya statusuna aydınlıq gətirilməsi vacibdir. Çünki rəsmi nikahsız ailə mümkün olmadığı kimi, elə ailə dedikdə də ilk öncə nikah yada düşür. Onlar biri-biri ilə olduqca sıx əlaqədə və

vəhdətdədirlər, biri-birini tamamlamaqda və nikah ailəni möhkəmləndirməkdədir. Təsadüfi deyil ki, ailə ilə sıx bağlı olan «nikah» institutu bir fenomen kimi hələ qədim yunan filosoflarının diqqətini cəlb etmiş və onun haqqında müxtəlif fikirlər söylənilmişdir. Aristotelin mövqeyinin əksinə olaraq Platon, utopik təlimlərində ailəni «qadınların və uşaqların icması kimi» səciyyələndirərək, onun dövlətdən ayrı olduğunu vurğulayırdı. Hobbs, Russo və başqaları isə ailəni və nikahı qadını və kişini biri-birinə bağlayan əqd olmaq etibarı ilə şəxsiyyətin alçaldılması, despotizmin əlaməti, insan azadlığının məhdudlaşdırılması kimi səciyyələndirirdilər [548, s.3]. İ.Kant göstərirdi ki, nikah kişi və qadının ülvi məhəbbətinə əsaslanaraq bağlanılan ittifaq olsa da, bununla belə ailənin simasında tərəflər öz əxlaqi, mənəvi və şəxsi ləyaqətlərini və azadlıqlarını qoruyub saxlayırlar [402, s.15]. N.A.Berdyayev hesab edir ki, ailə, nikah əsasında insan azadlığının nəticəsi olaraq deyil, daha çox mənəvi və əxlaqi tələbatdan və zərurətdən yaranır. Cəmiyyət isə, insanın doğulması ilə sıx bağlı olduğuna görə, onun əsası hesab edilən «nikah» institutu, ər-arvad münasibətlərinin tənzim edilməsini və ailə münasibətlərinin möhkəmləndirilməsi vəzifəsini yerinə yetirir [332].

Ailənin və nikahın hüquqi tənzimlənməsi sahəsində qədim Yunanıstanın, qədim Romanın zəngin tarixi vardır. Hələ Roma hüquqşünası A.Modest ailəni «ər və arvadın ittifaqı, bütün həyatın birləşməsi, ilahi və insan hüquqlarının ümumiliyi» kimi səciyyələndirirdi [256, s.67-68]. Eyni yanaşmaya Şərq ölkələrində də rast gəlmək mümkündür. Tədqiqatçıların çoxu bir institut kimi ailənin öyrənilməsi tarixinin Bahofen Yakobun 1861-ci ildə nəşr edilmiş «Analıq hüququ» adlı əsərinin nəşrindən başlandığını qəbul edirlər [48; 136; 261]. Əgər ailənin tarixi milyon illərlə hesablanırsa, ailə və ailə münasibətlərinin elmi-nəzəri tədqiqinin tarixi cəmi 150 ili əhatə edir. Ailə tipli insan birliklərinin yaranması konkret bir tarixi deyil, uzun müddətli təşəkkül və təkamül prosesi ilə bağlı olaraq əsrlərlə davam etmişdir. Tarixçilər təsdiq edirlər ki, miladdan əvvəl birinci minilliyin başlanğıcında Azərbaycanda tayfadaxili münasibətlərin inkişafı əmək bölgüsünə mütənasib olaraq sürətlə inkişaf edirdi. Miladdan

əvvəl IX əsrdə mövcud olan Manna, VII əsrin ortalarında təşəkkül tapmış Midiya dövlətlərinin ərazisində «böyük patriarxal» və «kiçik ailələr» mövcud idi [106, s.182, 215; 311, s.58]. Alban çarı III Mömin Vaçaqananın dövründə qəbul edilmiş "Aquen qanunnaməsi"ndə ailə münasibətlərinin tənzimlənməsi qaydalarına müəyyən yer ayrılmışdır [198, s.49, 73, 187]. İ.Lavrovun mövqeyinə görə, hələ eramızdan əvvəl III-II əsrlərdə Qafqazda təsərrüfatın əsas özəyində ailə və ailə münasibətləri dayanırdı [437, s.183]. «Orta əsr Azərbaycan ailəsi»ni tədqiq etmiş prof. Ş.T.Bünyadovanın ailənin yaranmasının müxtəlif regionlarda fərqli dövrə – neolit və eniolit dövrünə təsadüf etməsinə dair mövqeyi tamamilə haqlı hesab edilməlidir [126, s.11]. Bütün bunlar ailə və ailə münasibətlərinin, habelə nikahın, kəbinin uzun bir tarixi yol keçdiyini və daim təkmilləşdiyini təsdiq edir [200; 210; 211]. Ailənin, nikah münasibətinə əsaslanan kişi və qadın birliyi olması, ailə üzvləri arasında ərin və arvadın, habelə ailənin digər üzvləri arasındakı münasibətlərin düzgün və ədalətli tənzimlənməsini tələb edir [71, s.4-7]. Nikahın könüllülüyü, nikaha daxil olan şəxslərin iradə ifadəsinin sərbəstliyi, qanunla müəyyən edilmiş yaş həddinə çatması, ailənin möhkəmləndirilməsinin zəruriliyi, ər və arvadın hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunması və bu hüquqların məhkəmədə müdafiəsi imkanları, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması və s. bu kimi prinsiplər, nikahın bütün mərhələlərini əhatə edir. Erkən nikahlar yolverilməz hesab edilir.

Uzun müddət ailə münasibətlərinin tənzimlənməsi zamanı ər və arvadın sərəncamında olan əmlakın, hədiyyələrin və digər vasitələrin nikahın ləğvi zamanı ədalətli bölüşdürülməsi, məhkəmələrdə böyük çətinliklərlə, mübahisələrlə, uzun sürən prosseslərlə müşayiət olunurdu. Yeni Ailə Məcəlləsinin 38.1 maddəsi belə mübahisələrə və çətinliklərə son qoydu və bu normaya görə, tərəflər arasında bağlanan nikah müqaviləsi, nikah dövründə və nikah pozulduğu hallarda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişə müvafiq olaraq həll edilir. Nikah müqaviləsi, ər-arvadın birgə mülkiyyətinin qanunla müəyyən olunmuş hüquqi rejimini dəyişərək,

ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ayrıca mülkiyyət rejiminin tətbiq edilməsini nəzərdə tutur [75, s.37-39; 239].

Fredrix Engels ailənin ilkin mənasını ifadə edən «familia» terminini tədqiq edərək, onun qədim dövrlərdə «ev qulu» mənasını ifadə etdiyini, sonradan isə ailə üzvü olan qadının və uşağın bir şəxsə – ailə başçısına, kişiyə mənsubluğunu ifadə edən söz kimi məna dəyişikliyinə məruz qaldığını vurğulamışdır [569, s.56]. Nikah, Hegel tərəfindən tədqiq edilərək, bu təsisatın hüquqi, iqtisadi və siyasi təbiətə malik olmaqla yanaşı, həm də əxlaqa söykənən məhəbbətin hüquqi ifadəsi hesab edirdi [355, s.211]. U.F.Nitsşe isə göstərirdi ki, nikah məhəbbət əsasında bağlanan əqddir. Bu əqdlə əslində insan, özünün – ata və doğma anası tərəfindən yaradıldığının hüquqi əsasını ifadə edir [487, s.216].

Əsirlər boyu nikah hüququnda daha çox kişilərin rolu üstünlük təşkil etmiş, evlənmə təşəbbüsü kişilərdən gəlmiş və onların mövqeyi əsas hesab edilmişdir. Bu mənada müasir dövrümüzdə sosial varlıq olaraq «qız»ın, «qadın»ın, «ana»nın nikah hüququ əhəmiyyətli dərəcədə genişlənmişdir. Qadın-kişi birliyinin ifadəsi olan nikahın, konstitusiyada təsbit edilən hüquqi statusu öz mənbəyini beynəlxalq hüquq normalarından almışdır. Bütün bunlara uyğun olaraq Ailə Məcəlləsi ailənin və nikahın mahiyyətinə, məzmununa, hüquqi statusuna müəyyən tənzimləmə forması gətirsə də, lakin nikahın rəsmiləşdirilməsi, qeydi, etibarsızlığı, ləğvi, hüquqi nəticələri, müdafiəsi və s. bu kimi məsələlər, çoxsaylı normativ-hüquqi aktlarla tənzim edilir. Tarixən ölkəmizdə nikah institutu dini qayda-qanunlar əsasında tənzim edilsə də, lakin Rusiyada baş verən Böyük Oktyabr inqilabından sonra, bu sahədə müvafiq dekretlər, normativ-hüquqi aktlar, təlimatlar, metodik tövsiyyələr hazırlanmış və tətbiq olunmağa başlanmışdır. Bu zaman nikahın və ailənin dünyəvi meyarları əsas götürülmüşdür. Nikahı ailə institutunun konstitusiyası hesab etmək olar. Ailə, insanların bir-biri ilə qurduğu münasibətlərin ən qədim və unikal formaları olmaqla, o əsasən nikaha və ya kəbinə əsaslanır, nikahla rəsmiləşdirilir, hüquqi nəticələr doğurur, tərəflərin statusunu dəyişir. Əvvəllər bi-

ri-birilə tamamilə yad olan, biri-birini tanımayan insanlar, sevgi, məhəbbət, istək əsasında qərara gələrək nikah əsasında ailə qurmaqla, biri-birinə doğma olan insanlara çevrilir, birgə fəaliyyətin nəticəsi olaraq ana dünyaya insan – uşaq gətirir və bu ailəni daha da möhkəmləndirir. Ailə münasibətləri nikah, qan qohumluğu və digər yaxın münasibətlər əsasında formalaşır [256, s.66-67]. Qohumluq münasibətlərinin dərəcəsi, doğmalığı ailənin möhkəmliyi üçün mühim rol oynayır. Cinayət-Prosessual Məcəllənin 7.0.32 və 7.0.33 maddələrində «yaxın qohumlar» və «qohumlar»ın dairəsi dəqiq müəyyən edilmişdir [76, s.43]. Eləcə də Mülki Məcəllənin vərəsəlik hüququna dair bölməsinin müxtəlif maddələrində də (məsələn, mad. 1159 və s.) qohumluq dərəcələrinə dair müddəalar vardır [97, s.617-653].

Sovet dövründə zəruri atributa çevrilən nikahın dövlət orqanlarında qeydə alınması qaydası, ailənin hüquqi statusunun yaranmasının, təsis olunmasının başlanğıcı, əvvəli və əsası hesab edilirdi [30, s.35-43]. Ailə münasibətlərinin hüquqi tənzimlənməsinin dövlət orqanları tərəfindən həyata keçirilməsinə qədər olan dövrdə də, tarixən bizim başa düşdüyümüz mənada ailə institutu mövcud olmuş və fəaliyyət göstərmişdir. Lakin qadın və kişi arasında ər-arvadlıq münasibətləri tarixən, müxtəlif dini məzmun kəsb edən dualarla, ayinlərlə, mərasimlərlə, rituallarla icra edilmiş və nikahın dini qayda-qanun əsasında bağlanması, ailənin yaranması üçün bir növ hüquqi əsas rolunu oynamışdır. Daha qədimdə isə nə kəbin, nə də nikah qeydə alınmadan belə kişi-qadın birliyinin faktiki yaranması – ailələrin yaranmasının əsası kimi qəbul edilmiş və cəmiyyətdə ənənəvi funksiyaların yerinə yetirilməsini təmin etmişdir. Nikah, ailələrin qanuni, halal və müqəddəs əsasla formalaşmasının hüquqi əsası kimi qəbul edilmişdir [148]. Azərbaycanda müsəlman adəti ilə rəsmiləşdirilən kəbindən fərqli olaraq, nikah xüsusi olaraq həvalə edilmiş dövlət orqanları tərəfindən, kişi və qadın ittifaqının başlıca tərəfləri olan – gələcək ərin və arvadın razılığı və könüllülüyü əsasında, əsasən XIX əsrin əvvəllərindən başlayaraq Rusiya İmperiyasının qanunları əsasında rəsmiləşdirilmişdir. Ailə münasibətlərinin hüquqi tənzimlənməsini təmin edən dünyəvi qanunların – normativ-hüquqi aktların, dekretlə-

rin qəbul edilməsi isə Böyük Oktyabr Sosialist İnqilabı qalib gəldikdən sonra intensiv olaraq təkmilləşdirilməyə başlandı və dini nikahların tətbiqi tədricən qadağan edildi [136, s.97-100; 223, s.27-29]. AR-nın Ailə Məcəlləsi hazırda qızlar və oğlanlar üçün nikah yaşını 18 yaş müəyyən etmişdir. Bu beynəlxalq birliyin və mütərəqqi ölkələrin hamı tərəfindən qəbul olunmuş standartlarına tamamilə cavab verir. Halbuki, uzun illər azərbaycanlı qızların nikah yaşı şəriət qanunlarına müvafiq olaraq 9 yaşdan başlanırdı. Bu mürtəce qayda, hətta 1872-ci ilə qədər qüvvədə qalmış, xalqın kütləvi narazılığı əsasında 1872-ci ildə səlahiyyətli dini idarələr tərəfindən nikah yaşı müsəlman kişilər üçün 15, qızlar üçün 13, sovet dövründə isə qızlar üçün nikah yaşı 16 yaş müəyyən edilmişdir. Lakin 1 aprel 1970-ci ildən qüvvəyə minən Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsi, eləcə də hazırda qüvvədə olan Ailə Məcəlləsi, qızlar və oğlanlar üçün nikah yaşının son olaraq 18 olduğunu müəyyən etmişdir. Bu norma hazırda da qüvvədədir [152, s.108-113].

Müstəqillik illərində AR-nın ilk Ailə Məcəlləsi qəbul edilmiş və nikahın milli tənzimləmə məsələlərini təmin etmişdir. Qeyd olunmuşdur ki, dini kəbin kəsmə (dini nikah) heç bir hüquqi əhəmiyyətə malik deyildir. Çünki AR-da nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir, yalnız müvafiq icra hakimiyyəti orqanlarında bağlanmış nikah tanınır və hüquqi nəticələr doğurur [73, s.4-5]. AR-nın Ailə Məcəlləsinə görə nikah – kişi ilə qadının ailə qurmaq məqsədilə, müvafiq icra hakimiyyəti orqanında qeydə alınan könüllü birliyinin rəsmiləşdirilməsini ifadə edir [214, s.6]. Ailə Məcəlləsinin 12-ci və bir sıra digər maddələrində yaxın qohumlar, övladlığa götürülənlər və ya övladlığa götürənlər, ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər, ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya kamallılıq nəticəsində məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan, habelə tibbi müayinədən keçməyən və müvafiq arayışı olmayan şəxslər arasında nikahın bağlanılması qadağan edilmişdir [73, s.10]. Qanunvericilik nikaha daxil olan subyektlərin, tərəflərin birmənalı şəkildə kişi və qadın olmasını nəzərdə tutmuş, kişi ilə kişini, qadınla qadını, eyni-

cinslilərin və ya transseksualların nikahını nəzərdə tutmamışdır. Rusiya Federasiyasının Ailə Məcəlləsinin 12-ci maddəsində [518, s.5-6] nikahın kişi və qadın arasında bağlanması şərti birmənalı şəkildə təsbit edilmişdir. AR-nın Ailə Məcəlləsinin 9.1, 9.5, 10.2, 11, 13 və bir sıra digər maddələrində kişi və qadın ifadəsi əvəzində «nikaha daxil olan şəxslər» söz birləşməsindən istifadə edilmişdir. Məsələn, Ailə Məcəlləsinin 11-ci maddəsində «qadın və kişi» sözlərinin əvəzinə qeyri-korrekt olaraq, vicdanlı yanlışlığa yol verilərək «nikaha daxil olan şəxslər» söz birləşməsindən istifadə edilmişdir [75, s.23-26]. AR-nın ailə qanunvericiliyinin məzmunundan və Ailə Məcəlləsinin 2.3-cü maddəsində verilmiş nikahın hüquqi anlayışından isə görünür ki, nikah yalnız kişi ilə qadın arasında bağlana bilər və Azərbaycanda homoseksual şəxslər arasında nikahların bağlanmasının hüquqi əsası yoxdur. Başqa sözlə, Ailə Məcəlləmiz eyni cinsdən olan şəxslərin nikah münasibətinə daxil olması kimi əxlaqsız, iyrənc, qeyri-insani münasibətlərin tənzimlənməsini nəzərdə tutmamışdır. Buna görə də hesab edirik ki, Ailə Məcəlləsinin 9.1, 9.5, 10.2, 11, 13 və bir sıra digər maddələrində göstərilən «nikaha daxil olan şəxslər» sözləri, Məcəllənin digər maddələrində göstərildiyi kimi «kişi və qadın» sözləri ilə əvəz edilməklə dəqiqləşdirilməlidir. Buna görə də Ailə Məcəlləsinin 9.5 maddəsində «nikaha daxil olmaq istəyən şəxslər», 10.2 maddəsində «nikaha daxil olmaq istəyən», 11.1 maddəsində «nikaha daxil olan şəxslərin», 13 maddəsinin adında və mətnində istifadə edilən «nikaha daxil olmaq istəyən şəxslərin» ifadələri «nikaha daxil olan şəxslər - kişi və qadın» söz birləşməsi ilə əvəz edilməsi təklif edilir [75, s.23-26].

Bu gün insan hüquqları adı altında bir sıra Qərb ölkələrində – ABŞ-da artıq transseksualların, eynicinslilərin, homoseksualistlərin, lesbiyanların birgə yaşaması, «ailə» münasibətlərinə daxil olması faktları dərin ikrah hissi doğurur. Kişi və qadının hüquq bərabərliyi ideyasının gündən-günə genişlənməsi, eynicinslilər arasında münasibətlərin, homoseksualistlər və lesbiyanlar arasında nikahın leqallaşdırılması haqqında ABŞ, Danimarka, Norveç və s. bu kimi ölkələrdə qanun qəbul edilməsi faktı mütərəqqi insanlar tərəfindən qəbul edil-

mir. Hələ eramızın başlanğıcında yaddaşlarda müqəddəs apostol kimi qalmış Pavelin uzaqgörənliklə dediyi sözlər bu gün öz təsdiqini tapmaqdadır. Müqəddəs apostol Pavel vaxtilə demişdir ki, cəmiyyətdə kişinin və qadının, guya bərabər hüquqlu olması ideyasının reallaşdırılması və eynicinslilər arasında nikahın leqallaşdırılması bəşəriyyətin faciəvi sonluğu olacaqdır. Bu müdrik sözləri xatırladaraq, Xristian kilsələri nümayəndələrinin Moskvada keçirilən 20-ci qurultayının açılışında çıxış edən Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkin, apostol Pavelin uzaqgörənliklə dediyi çağırışları bir daha xatırladaraq, bu gün «dünyanın hüquq sisteminin məhv ərəfəsində olduğu»na diqqətə çəkərək, həyəcan təbili çalmışdır [579]. Son günlər ABŞ-ın ən yüksək vəzifəli şəxslərinin (B.Obama, D.Tramp, C.Kerri) birbaşa rəhbərliyi və himayəsi ilə belə nikahlara nəinki icazə verilmiş, habelə belə nikahların məqbul hesab edilməsinə dair ümumdünya təbliğatına və təşviqatına başlanılmışdır [587]. Belə münasibətləri tənzim edən normativ-hüquqi aktların qəbul edilməsi faktı isə, hüququn və əxlaqın böhranı kimi qiymətləndirilməlidir. «Şəxsiyyətin cinsi toxunmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərə görə məsuliyyət müəyyən edən AR Cinayət Məcəlləsinin 149-153 maddələrində zorakılıqla törədilmiş belə əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Belə əxlaqsız və qeyri-insanı əməllərin könüllü edilməsinə görə isə məsuliyyət nəzərdə tutulmamış, sanki qanunvericiliyimiz mənəvi-əxlaqi dəyərlərimizə, milli mentalitetimizə və insan sağlamlığına ağır zərər vuran əmələ əslində susmaqla razılıq vermişdir. Bunun əsil səbəbi aydın deyil və bu istiqamətdə qətiyyətli tədbirlər görülməsini tələb edir. AR-nın Ailə Məcəlləsinin 2.3 maddəsi nikah əqdi üçün zəruri şərt kimi tərəflərdən birinin qadın, o birinin isə kişi olmasını nəzərdə tutmuşdur. Bu kontekstdə yuxarıda qeyd edilən nikah faktlarının – hər iki tərəfin eyni cinsli olması – kişinin kişi ilə, yaxud qadının qadınla evlənməsi, belə münasibətlərin rəsmiləşdirilməsi, ailə münasibətlərində, mənəviyyatda və əxlaqda ciddi böhranın təzahürü kimi qəbul edilməklə yanaşı, həm də qanunvericiliyin tələblərinə ziddir. Bu qeyri-əxlaqi hərəkət olmaqla bərabər, həm də insan sağlamlığı üçün, nəsil artımı üçün

ciddi fəsadlar yaradan əməl olmaqla, bu, Henri Kissincer və bu əqidədə olanların dünya əhalisinə qarşı soyqırım cinayətinin həyata keçirilməsinin bir üsulu kimi nəzərdə tutulur [592]. Bu eyni zamanda insan doğuşunun və insan artımının qarşısını almağa xidmət edən Qərbin məkirli siyasətinin nəticəsidir. Hesab edirik ki, milli mənəvi və əxlaqi dəyərlərimizin müqəddəs hesab olunduğu, hüquqi dövlət quruculuğunun aparıldığı bir mərhələdə belə qanunsuz, qeyri-hüquqi, qeyri-əxlaqi, qeyri-insani və tibbi nöqteyi-nəzərdən zərərli olan əməllərə görə qanunvericilik yolu ilə cinayəti məsuliyyətinin nəzərdə tutulması mühim çəkindirici əhəmiyyətə malik ola bilər. Nikah ailə qurmaq məqsədilə kişinin və qadının birgə ittifaqının hüquqi rəsmiləşdirilməsi olmaqla, hüquqi, əxlaqi, dini, sosial-psixoloji, fizioloji, iqtisadi nəticələr doğurur. Nikahın sosial mənası, hüquqi mənasından daha genişdir, tərəflər üçün hüquqlar, vəzifələr və öhdəliklər yaradır, onun statusunu müəyyən edir [75, s.20]. Ailənin mahiyyətinin və məzmununun əsasında dayanan nikahın hüquqi mahiyyəti zaman-zaman müxtəlif tədqiqatçıların marağına səbəb olmuşdur. Bu barədə çoxsaylı monoqrafiyalar və məqalələr yazılmışdır [300, s.99-101; 311, s.50-56; 349, s.61-73; 365, s.125-130; 419, s.137-142; 485, s.66-73; 541, s.59-68; 549, s.31-41]. Nikahla bağlı müxtəlif alimlərin fikirləri, normativ-hüquqi aktlarda öz ifadəsini tapmasına baxmayaraq, bu terminin, anlayışın hamılıqla qəbul edilmiş vahid, universal tərifini, definisiyasını vermək halədə problem olaraq qalmışdır. Bu baxımdan müəlliflərdən A.M.Belyakova, N.V.Orlova, V.A.Ryasentsev və başqaları belə hesab edirlər ki, nikahın hüquqi tərifi onun bütün əlamətlərini və keyfiyyətlərini son dərəcə dəqiq ifadə edə bilmədiyinə və subyektvizmə yol verildiyinə görə o heç vaxt mükəmməl olmayacaqdır [530, s.64]. Azərbaycan Respulikasının Ailə Məcəlləsində göstərilir ki, nikah kişi və qadının ailə qurmaq məqsədilə yaratdıqları ər-arvad birliyi olmaqla, müvafiq icra hakimiyyəti orqanlarında onun rəsmiləşdirilməsini tələb edir [73, s.6]. Nikah haqqında müxtəlif müəlliflərin mövqeləri oxşar və fərqli cəhətləri ilə seçilir. Əslində isə nikahın əsas və başlıca məqsədi və motivi ilk öncə fizioloji tələbatın ödənilməsinə və ailə qurmağa hüquqi əsas verir və mü-

vafiq hüquqi nəticələr doğurmağa xidmət edir. Kişi və qadın, gələcək ər və arvad, ailə qurmaqla bioloji, fizioloji, maddi və mənəvi tələbatlarının ödənilməsi ilə yanaşı, eyni zamanda dünyaya uşaq gətirmək, onu böyütmək, tərbiyə etmək, təkrar insan istehsalını həyata keçirmək, arzularını reallaşdırmağı nəzərdə tuturlar. Dövlət kişi və qadın birliyinin bu formada qeydə alınmasını, nikah bağlanmasını vacib hesab edir və ailənin başqa qeydiyyat formalarını məqbul hesab etmir. Ailə-nikah münasibətlərinə girərkən, ər-arvadlıq statusunu qazanarkən, tərəflərin qarşılıqlı məhəbbət və hörmət, qarşılıqlı yardım və məsuliyyət hisslərinin bərqərar olması, maddi və mənəvi ehtiyaclarının birlikdə ödənilməsi motivi də mühim əhəmiyyət kəsb edir. Bu ailə münasibətləri, öncə, biri-birinə olan marağa, sevgiyə, məhəbbətə, dostluğa əsaslansa da, onun kökündə eyni zamanda kişinin və qadının bir insan kimi bütün tələbatlarının ödənilməsi marağı dayanır. Ona görə də bu münasibətlər hüquqi cəhətdən nikah qeydi ilə rəsmiləşdirilsə də, tərəflərin qarşılıqlı razılığı, könüllülüyü, hüquq bərabərliyi, dünyaya uşaq gətirmək istəyi, ailə yaratmaqla öz maddi və mənəvi tələbatlarının ödənilməsi niyyəti, uşaqlara qayğı göstərmək, onları böyütmək, tərbiyə etmək marağı, həm də gələcəkdə özlərinə kömək edəcək, dayaq olacaq və nəsili davam etdirmək ənənələrini qoruyub saxlayan övlad yetişdirmək istəyi mühim əhəmiyyət kəsb edir. Ailə və nikah münasibətləri ümumbəşəri prinsiplər əsasında qurulur. Ailənin hər bir üzvü öz hüquq və vəzifələrini yerinə yetirərkən, nəinki özlərinin, habelə ailələrinin, ailə üzvlərinin, cəmiyyətin və dövlətin maraqlarına xüsusi diqqət yetirirlər. Nikah bağlanarkən tərəflərin qanunvericiliklə müəyyən edilən yaşa çatması, anlaqlılığı, sağlamlığı, faktiki olaraq başqası ilə nikah münasibətində, eləcə də qanunvericiliklə müəyyən edilmiş yaxınlıq və qohumluq münasibətlərində olmaması və başqa bu kimi şərtlərin gözlənilməsi tələb edilir. Cinslərarası münasibətlərin tənzimlənməsini tələb edən və uşağın ailədə yerini müəyyənləşdirən qadınla kişinin ittifaqı [340, s.41] və ya «tarixən şərtləndirilmiş, cəmiyyət tərəfindən sanksiyalaşdırılmış və tənzimlənən, bir-birinə və uşaqlarına münasibətlərini müəyyənləşdirən ictimai forma [339, s.60; 547, s.60] olması kimi xüsusiyyətlər nikahın sosial

mahiyyətini təşkil edir. «Nikah ər və arvadın hüquq və vəzifələrini doğuran və uşaqları qarşısında öhdəliklərini yaradan, kişi ilə qadının ailə ittifaqıdır» [338, s.151]. Tarixən nikahın subyektləri sırasında, bir qayda olaraq və bütün hallarda, iki tərəf – bir kişi, bir qadın olması nəzərdə tutulmuş, eynicinsli, kollektiv nikahlar bir qayda olaraq qəbul edilməmişdir. Uzun illər çoxarvadlılıq sovet cinayət qanunvericiliyində haqlı olaraq məsuliyyətə səbəb olmuşdur.

Nikahın hüquqi əsası ilə yanaşı, onun həm də etik, əxlaqi, iqtisadi, siyasi, mənəvi əsasları mühim rol oynayır. Nikahın hüquqi anlayışının tərkibinə kişi ilə qadın arasında bağlanmış ittifaqın qanuniliyi; bu ittifaqın bağlanması anından başlayaraq ərlə arvad arasında qarşılıqlı şəxsi hüquq, əmlak hüququ və vəzifələrin yaranması, islamda deyildiyi kimi, onların biri-birinə halal edilməsi, ittifaqın ailə qurmaq məqsədi ilə yaradılması, könüllülüyə, bərabərhüquqluluğa və ömürlük olması kimi tərkib elementlərinə əməl edilməsi mühim əhəmiyyət kəsb edir. Müəlliflərdən P.E.Orlovski isə göstərir ki, bizim ailə qanunvericiliyimiz nikahın ərlə arvad arasında könüllü, ömürlük olması kimi mühim müddəaya əsaslanır. Sovet dövründə nikah əqdi üçün çox əsaslı olaraq ərlə arvadın ümumi ailə təsərrüfatını birgə idarəetməsi və bir yerdə yaşamaları zəruri hesab edilirdi. Hazırda isə bu əlamət qanunvericilikdən əsassız olaraq çıxarılmışdır. Akademik O.S.İoffeyə görə, nikah hüquqi nəticələr əldə etmək məqsədi ilə könüllü və məqsədyönlü əqd hesab olunmalıdır. Bununla da müəllif nikahın, mülki sazişlə eyniliyi fikrini əsaslandırmağa çalışır. Nikaha daxil olan şəxslər üçün hüquqi nəticələr, bu ittifaqın dövlət tərəfindən tanınması ilə sıx bağlıdır. Bu ittifaq qarşılıqlı məhəbbət və hörmətə əsaslanır. Buna görə də bu ittifaqın əsası, özəyi, mənəvi tərəfi olan qarşılıqlı məhəbbət və hörmət hissləri aradan qalxdıqda nikahın pozulması və ya əqdin hüquqi əhəmiyyətini itirməsi prosesi baş verir. Mülki-hüquqi sazişlərdə isə bu mümkün olmur. Buna görə də, nikahın sosial məzmunu, məqsədləri və hüquqi xüsusiyyətləri onun mülki-hüquqi sazişin xüsusi bir növü kimi qiymətləndirməyi diktə edir. Nikah, çoxtərəfli sosial hadisə olduğundan, onda ilk növbədə, kişi və qadın arasında insan nəslinin davam etməsi məqsədi ilə, təbiətin özü

tərəfindən şərtlənən və təbii münasibətlərdə təzahür edən mənəvi amillər əhəmiyyətli rol oynayır. Bu mənada nikah əqdi ailənin hüquq rəsmiləşdirilməsi hesab olunur. Nikah, ailənin mənəvi, əxlaqi, hüquqi, eləcə də şəxsi və əmlak münasibətlərini təcəssüm etdirir. Elə buna görə də görkəmli tədqiqatçı Q.F.Şerşeneviç nikaha, kişi və qadının birgə yaşayış məqsədilə, qarşılıqlı razılaşmaya əsaslanan və müəyyən edilmiş formada bağlanan ittifaq kimi anlayış vermişdir. Müəlliflərdən Q.M.Sverdlov, A.M.Belyakova, E.M.Vorojeykin, N.V.Orlova, A.İ.Prqament, O.S.İoffe, Q.K.Matveyev, V.F.Maslov, A.A.Puşkin, V.A.Ryansentsev, V.İ.Boşko və digərləri də nikaha oxşar anlayışlar vermişlər. Q.M.Sverdov hesab edir ki, nikah, qanunla müəyyən edilən qaydalara əməl etməklə bağlanılan, ər-arvadın hüquq və vəzifələrini doğuran, ailəni yaradan, kişi və qadının azad, könüllü və bərabərhüquqlu monoqam ittifaqını ifadə edir. V.A.Ryasentsev nikahı, kişi və qadının ailə yaradılmasına yönəldilmiş və onlar üçün qarşılıqlı şəxsi və əmlak hüquq və vəzifələrini doğuran, hüquqi cəhətdən rəsmiləşdirilmiş, azad və könüllü ittifaq kimi səciyyələndirir. Nikaha analoji yanaşma A.M.Belyakova, O.A.Xazova, A.M.Neçayeva və digərləri tərəfindən də təkrar edlir. Məsələn, A.M.Belykova nikaha, kişi və qadının ailə yaradılmasına yönələn və onlar üçün qarşılıqlı şəxsi və əmlak hüquq və vəzifələrini doğuran, hüquqi cəhətdən rəsmiləşdirilmiş, azad və könüllü ittifaq kimi baxır. V.İ.Boşko nikahı – kişi və qadının qanunla müəyyən edilmiş qayda və şərtlərə əməl etməklə bağlanılan, ailə yaradılmasına yönələn, şəxsi və əmlak hüquqları yaradan, ər-arvadın hüquq və vəzifələrini doğuran, azad, bərabərhüquqlu və bir qayda olaraq, ömürlük bağlanmış ittifaq hesab edir. Q.K.Matveyevin mövqeyinə görə, nikah kişi və qadının ailə qurmaq məqsədilə bağladığı və onlar arasında qarşılıqlı şəxsi və əmlak hüquq və vəzifələr yaradan, azad, bərabərhüquqlu və ömürlük ittifaq kimi qiymətləndirir. Azərbaycan ailə hüququ elminin görkəmli tədqiqatçılarından olan, professor Q.Manayev «Nikah qanunla müəyyən edilmiş şərtlərə və qaydaya riayət etməklə kişi ilə qadın arasında bağlanmış, onlar üçün qarşılıqlı şəxsi hüquq və əmlak hüququ və vəzifələri yaradan, ailənin təşkilinə yönəldilmiş, prinsip etibarilə ömürlük,

azad, könüllü, bərabərhüquqlu bir ittifaqı kimi tərif vermişdir [223, s.40]. Müasir ailə hüququnun görkəmli tədqqiatçısı, professor M.Dəmirçiyeva isə hesab edir ki, nikah – qanunla müəyyən edilmiş qaydaya və şərtlərə riayət etməklə bağlanılan, ailə yaratmaq məqsədi güdən və ər-arvad arasında şəxsi və əmlak hüquq və vəzifələrini doğuran, qadınla kişinin azad, könüllü və bərabərhüquqlu ittifaqıdır [136, s.104]. Bu məsələ ilə bağlı müxtəlif rus alimlərinin də maraqlı yanaşmaları mövcuddur. Q.M.Sverdlovun mövqeyinə görə, nikah qanunla müəyyən edilən qaydalara əməl etməklə bağlanılan, ər-arvadın hüquq və vəzifələrini doğuran, ailə yaradan, kişi və qadının azad, könüllü və bərabərhüquqlu monoqam ittifaqını ifadə edir [517, s.96]. A.M.Neçayeva hesab edir ki, nikah müxtəlif cinsli şəxslər arasında münasibətlər formasına, həm nikaha daxil olanlar üçün və həm də dövlət üçün özünəməxsus simvolik hüquqi nəticələrə səbəb olan, kişinin və qadının ittifaqıdır [483, s.20]. O.A.Xazovaya görə nikah – kişinin və qadının qanunla müəyyən edilmiş qaydaya əməl etməklə bağlanılan, ər-arvad arasında qarşılıqlı şəxsi və əmlak hüquqlarını və vəzifələrini doğuran, könüllü və bərabərhüquqlu monoqam ittifaq hesab olunur [550]. L.M.Pçelintseva hesab edir ki, nikah aktı ailə-hüquq münasibətlərinin yaranmasını doğuran mühim hüquqi fakt olmaq etibarilə, kişi ilə qadının ailə yaradılmasına yönələn, qanunun tələblərinə əməl etməklə bağlanılan azad və könüllü ittifaqıdır [508, s.190]. Latın dilində deyildiyi kimi ***facta concludentia.***

Nikah münasibəti haqqında müxtəlif fikirlər və mülahizələr olsa da, bütün bunların hamısının mahiyyətində ailə yaratmaq niyyətinin olduğu bəyan edilir. Hüquqi baxımdan isə yalnız dövlət rəsmiləşdirilməsinə əməl etməklə bağlanan nikahlar tanınır. Beləliklə, nikah – qanunvericiliklə müəyyən edilmiş yaş həddinə çatan, anlaqlı, sağlam, başqa nikahda olmayan, qanunvericilikdə müəyyən edilmiş yaxın qohumlar istisna edilmək şərti ilə, qarşılıqlı məhəbbət və hörmət əsasında, maddi və mənəvi tələbatlarının ödənilməsinə, şəxsi əmlak və vəzifələrin əmələ gəlməsinə, birgə yaşamaq, ailə təsərrüfatını birgə idarə etmək, övlada sahib olmaq, onları böyütmək, tərbiyə etmək və ailə qurmaq məqsədilə, tərəflərin azad iradəsini ifadə edən və kö-

nüllü razılığına əsaslanan, müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyata alınan könüllü ittifaq müqaviləsidir. Hüquqi mənada «ittifaq» anlayışı, konkret vəziyyətdə ər-arvad münasibətlərinə daxil olan qadının və kişinin sosial və hüquqi birliyini, həmrəyliyini ehtiva edir. Nikahın bağlanması şərtlərinə hazırda tibbi müayinədən keçmənin zəruriliyi barədə müddəanın əlavə edilməsi ailə uzunömürlülüyünü təmin edən amil kimi qiymətləndirilə bilər. AR-nın Ailə Məcəlləsinin 13-cü maddəsi belə müayinənin hüquqi əsaslarını müəyyən edir. Həmin maddənin 13.1 bəndində göstərilir ki, nikaha daxil olmaq istəyən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlərin verilməsi, onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və ya bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir. Belə şəxslərə onların tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Bu sənəd tibbi müayinədən keçmə faktını, tibbi məsləhətin verildiyini təsdiq edir. Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin, nikaha daxil olmaq istəyən şəxslərdən onların tibbi müayinəsinin nəticələrini tələb etməyə haqqı yoxdur, çünki bu şəxsi həyatın və həkimin sirri hesab olunur [75, s.25].

Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəmədə iddia qaldıra bilər [75, s.25].

Ulu Öndər Heydər Əliyev «Respublika Ailə Sağlamlıq Mərkəzi»nin açılışı zamanı etdiyi çıxışında, yaxın qohumlar arasında evliliyin ciddi mənfi nəticələr doğurduğunu xüsusi olaraq qeyd edərək, bu sahədə bir mütərəqqi qayda yaradılmasının vacibliyini vurğulamışdır. O, göstərmişdir ki, yaxın qohumlar arasında evlilik sonsuzluğa, şikəstliyə, görmə qabiliyyətinin zəifliyinə və digər ciddi fəsadlara gətirib çıxara bilir. Buna görə də Ulu Öndər yaxın qohumlar arasında evliliyin məqsədəmüvafiq olmaması barədə, hələ 20 dekabr 1995-ci

il tarixli çıxışında müvafiq tövsiyyələr vermişdir [164, s.108-115, 300-307]. Bütün bunlar nəzərə alınaraq, AR Ailə Məcəlləsinin 11 və 13-cü maddələrində aparılan dəyişikliklərdə, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin zəruriliyi, 12-ci maddəsində isə yaxın qohumlar arasında nikahın bağlanmasının yolverilməzliyi müddəası təsbit edilmişdir [75, s.24-25]. Burada məqsəd yeni yaradılan ailədə gənc nəslin sağlam doğulmasını və sağlam böyüməsini təmin etməyə yönəlmişdir. Müstəqillik illərində ailənin planlaşdırılması, ailənin rifahının yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, ailələrin mənzillə təmin edilməsi, çoxuşaqlı ailələrə sosial yardımların göstərilməsi, maddi və mənəvi tərbiyəyə diqqətin artırılması vacib hesab edilir [164, s.355-406]. Ölkə Prezidentinin 16 dekabr 2016-cı il tarixli Qanunu ilə yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164.5 manat, pensiyaçılar üçün 130.2 manat və uşaqlar üçün 136.6 manat müəyyən edilmişdir ki, bu da ailənin və uşaqların maddi vəziyyətinə müəyyən müsbət təsir göstərəcəkdir [6]. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq ailədə olduğu kimi, onun hüquqi əsası hesab edilən nikah institutunda da son illər əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərin sosial, siyasi, iqtisadi, reproduktiv, hüquqi meyarları xüsusi olaraq qeyd edilə bilər. Hazırda nikahın rəsmiləşdirilməmiş formasının – vətəndaş nikahının artması halları müşahidə edilir. Bu da təsadüfi hesab edilə bilməz. Belə ki, qədim tarixə malik olsa da, lakin XIX əsrdə nikahların vətəndaş qeydiyyatı forması sürətlə genişlənməyə başladı.

Tarixən formalaşmış ənənələrə görə qadınların izdivac dövrünün 14-16 yaşından başlanması məqbul hesab edilirdi. Avropa modeli isə qadın üçün nikahın 24-28 yaş arasında bağlanmasını töfsiyyə edirdi. Fransada XIX əsrdə – 1804-cü ildə Napoleonun Vətəndaş Kodeksi (1807-ci ildə qüvvəyə minmişdir), ABŞ-da 1831-ci ildə «Mülkiyyət haqqında» Akt, İngiltərədə 1858-ci ildə «Boşanma haqqında» Akt qadınlara münasibətdə əhəmiyyətli rol oynamış və müəyyən qüsurlu yanaşmaların yalnış olduğunu təsdiq etmişdir [160, s.93]. Bütün bunlarla yanaşı rəsmiləşdirilməmiş nikah əsasında ailə yaratmağın mövcudluğu qədim tarixi dövrə gedib çıxır. Roma mülki hüqu-

qunda ərdə olmayan, subay qadınla uzun müddət ər-arvad kimi bir yerdə nikahsız, kəbinsiz yaşamaq vəziyyəti – «konkubinat» institutunun yaranmasına səbəb olmuşdur. Təsadüfi deyil ki, İtaliyanın hazırkı Konstitusiyasının 30-cu maddəsi, nikahdankənar doğulmuş uşaqlara qanuni ailə üzvlərinin hüquqları ilə uzlaşacaq bütün hüquqi və sosial müdafiəni təmin etmək, atalığın təsbit olunması üçün qayda və hədləri təsbit etmək öhdəliyini qanunvericiliyin üzərinə qoymuşdur [196, s.35]. Belə münasibətlər nəticəsində doğulan uşaqlar nikah münasibətində olmayan ər-arvaddan kəbinsiz doğulan övlad hesab olunur. Bu məsələyə münasibət bildirərək Napaleon göstərirdi ki, konkubinatlar qanunu pozur və buna görə də qanun konkubinatları qəbul etmir [342, s.19]. Son illər Azərbaycan mühitində də rəsmi nikahda olmayan, kəbinsiz, lakin uzun müddət bir evdə, ər-arvad münasibətlərində yaşayan insanlara təsadüf edilir. Hətta belə izdivaclar nəticəsində çoxsaylı uşaqların – övladların doğulmasına dair faktlar da vardır [61]. Rəsmi nikah münasibətlərinə daxil olmadan ər-arvad kimi birgə yaşayışın, birgə münasibətlərin fakt kimi mülki hüquqi tanınması, qarşılıqlı ərizə ilə qeydiyyata alınması, təntənəli toy münasibətləri ilə ifadə olunması təcrübəsi artıq nadir hadisə hesab olunmur. Rusiya Federasiyasının Sverdlovski vilayət məhkəməsi R.Qavrikovanın «rəsmi qeydə alınmamış nikahda yaşadığı ərinin ölməsi nəticəsində vurulan zərərin ödənilməsi haqqında» iddiasını, tərəflər arasında nikahın olmamasına əsaslanaraq rədd etmişdir. Buna baxmayaraq Avropa İnsan Hüquqları Məhkəməsi Sverdlovski vilayət məhkəməsinin 5 oktyabr 2005-ci il tarixli qətnaməsini ləğv edib, işi əlavə məhkəmə baxışına qaytarmışdır. Təkrar baxış zamanı iddiaçının təqdim etdiyi sübutları araşdıran və qiymətləndirən məhkəmə iddianın təmin edilməsi barədə qətnamə çıxarmışdır [420, s.70-75]. Necə deyərlər **res iudicata proveritate acciptur.**

AR-nın Mülki-Prosessual Məcəlləsinin 307-ci maddəsi də nikahın qeyd edilmə faktının məhkəmə qaydasında tanınmasını mümkün hesab edir. Təcrübədə isə Ailə Məcəlləsinin tələblərini rəhbər tutan məhkəmələrimiz bir qayda olaraq nikah faktının tanınmasına dair işlərə baxmırlar [136, s.154]. Halbuki 17 mart 2000-ci ildə AR-

nın qoşulduğu «Nikahdankənar uşaqların hüquqi statusu haqqında» Avropa Konvensiyası bu məsələyə birmənalı şəkildə nizam vermişdir. Bütün bunlar nəzərə alınaraq AR-nın Ailə Məcəlləsinin 2.3 maddəsinə «ittifaqıdır» sözündən sonra aşağıdakı məzmunda yeni bəndin əlavə edilməsini təklif edirəm: «Kişi və qadının razılıqları əsasında ailə qurmaq, övlad sahibi olmaq, birgə yaşamaq, ümumi təsərrüfatı birgə idarə etmək məqsədilə birgəyaşayış və nikah faktı məhkəmədə təsdiq olunduğu hallarda, belə əqd müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyata alınan hüquqi ittifaqa bərabər tutulur, nikah hesab edilir, tərəflər üçün hüquqlar, vəzifələr və öhdəliklər yaradır». ***Non ex regula ius sumatur, sed ex iure quid est, regula fiat***

Aparılan təhlillər göstərir ki, kənd yerlərində gənclər daha tez, erkən olaraq ailə qurduğu halda, şəhər yerlərində tərəflərin nikah yaşının artdığı müşahidə edilir. Müəyyən təhsil, mükəmməl iş və dolanışıq təminatları və hətta normal mənzil olmadan şəhər əhalisi arasında nikahın «gecikməsi» halları müşahidə edilir. Sosioloji təhlil aparılarkən ailə quranların 66.7%-i «sevib-seçdiyi insanla birgə olmaq», 39.4%-i «nəslini davam etdirmək», 27.0%-i «tənha qalmamaq», 24.8%-i «bu belə qəbul olunub» və digər bu kimi motivlərlə ailə qurduqlarını təsdiq etmiş və ailə qurmağın səbəblərinə dair öz mülahizələrini bildirmişlər [244, s.64-65].

Son illər qeyri-rəsmi yaşayan ailələrin sayının sürətlə artması müşahidə edilir. Bu da onunla əlaqədardır ki, insan bir varlıq olaraq öz təbii fizioloji tələbatlarını ödəmək üçün əks cinslə müəyyən münasibətlər qurmağa məhkumdur. Buna görə də bəzən o, yazılmış qanunlara tam əməl etmədən belə münasibətlər qurmaq imkanından yararlanır, istifadə edir və nəticədə ailələr yaranır. Belə münasibətlərdən nikahsız uşaqlar doğulur, davamlı ailə münasibətləri formalaşır və ailənin mövcudluğu bir reallığa çevrilir [244, s.57]. Ona görə də bu gün ailə və nikah münasibətlərində yeni-yeni təzahürlərin müşahidə edilməsi, tamamilə məntiqi hesab edilməlidir. Napoleon Məcəlləsinin qəbulundan sonra, ailə münasibətlərində bir sıra subyektlərin yeni adlarla tanınması halları yaranmağa başladı. Bunlar sırasında «ev sahibəsi», «ev xanımı», «evdar qadın» kimi ifadələri qeyd etmək

olar. Bütün bunlar isə əslində «ailənin xanımı» mənasını ifadə edir [509, s.92-93].

Beynəlxalq və milli hüquq normaları nikah yaşını ciddi surətdə müəyyən etməsinə baxmayaraq, bütün Şərq ölkələrində olduğu kimi, ölkəmizdə də erkən nikahların mövcudluğu bir reallıqdır. Nikah yaşı tamam olmadığı halda qızın və oğlanın valideynlərinin xeyir-duası ilə faktiki olaraq ailə qurması, ər-arvad kimi birgə yaşaması, erkən nikah aktının əsas mahiyyətini və məzmununu təşkil edir. Erkən nikahın çoxsaylı mənfi nəticələri mübahisə doğurmur. Belə münasibətlər yetkinlik yaşı tamam olmamış qadının sağlamlığına, təhsil, əmək, istirahət və başqa hüquqlarının pozulmasına səbəb olur, belə nikahlardan doğulan uşaqlar arasında xəstəlik hallarının artması ilə müşayət olunur. Belə ailələr tez dağılır, ailə qanunvericiliyi ilə müəyyən edilmiş normaların pozulmasına gətirib çıxarır. Erkən nikahlar, ənənəvi olaraq patriarxal ailələrdə adət-ənənələrin və dini qaydaların güclü olduğu regionlarda, çox vaxt valideynlərin, bu və ya digər formada təsiri altında, «beşikdə göbək kəsmə» ənənələrinə uyğun olaraq, «qız yükündən xilas olmaq» və başqa iqtisadi motivlərlə əlaqədar olaraq baş verir. Belə nikahlar, çox vaxt kənd və rayon yerlərində, valideynlərin savadsızlığından, ailənin maddi imkansızlığından, yoxsulluğundan, maarifləndirici tədbirlərin zəif aparılması üzündən baş verir, təhsil hüququnun sona qədər həyata keçirilməsinə mane olur. Belə əməllərdə ən çox zərər çəkən qızlar olur. Buna baxmayaraq, bəzən oğlanlar arasında da erkən nikahlara rast gəlinir. Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəllələləri, nikah yaşına çatmayan şəxslərin vaxtından tez, qanunsuz olaraq ərə verilməsinə görə məsuliyyət nəzərdə tutmasına baxmayaraq, təəssüf ki, belə hallar hələ də qalmaqdadır. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatlarından və aparılan təhlillərdən aydın olur ki, ölkədə 2010-cu ildə 4883, 2011-ci ildə 5138, 2012-ci ildə 295, 2013-cü ildə 229, 2014-cü ildə 479, 2015-ci ildə 391, 2016-cı ildə 411 erkən nikah faktı baş vermişdir. Eləcə də 15-17 yaşlı analar tərəfindən 2010-cu ildə 4103, 2011-ci ildə 4392, 2012-ci ildə 3236, 2013-cü ildə 2855, 2014-cü ildə 3296, 2015-ci ildə 2895, 2016-cı ildə

3111,2017-ci ildə 3112,2018-ci ildə 2836,2019-cu ildə 3019 və 2020-ci ildə 3121 uşaq doğulmuşdur ki, bütün bunlar da erkən nikahların faktiki olaraq qaldığını bir daha təsdiq edir. Təhlillər göstərir ki, ölkəmizdə bütün doğulanların 1970-ci ildə 3.4%, 1975-ci ildə 5.2%, 1980-cı ildə 3.0%, 1985-ci ildə 2.6%, 1990-cı ildə 2.6%, 1995-ci ildə 5.8%, 2000-ci ildə 5.4%, 2005-ci ildə 18.4%, 2010-cu ildə 15.3%, 2014-cü ildə 15.4%-i, 2015-ci ildə 12,8%,2016-ci ildə 13.1%,2017-ci ildə 15.6%,2018-ci ildə 17.1%,2019-cu uldə 16.9%, 2020-ci ildə 17.5% rəsmi qeydiyyata alınmamış nikahdan doğulan uşaqlar olmuşlar. 2014-cü ildə bu rəqəm təxminən 26112 nəfər, 2015-ci ildə isə 24016 nəfər,2016-ci ildə 26288 nəfər, 2017-ci ildə 22796 nəfər, 2018-ci ildə 20716 nəfər, 2019-cu ildə 21453 nəfər,2020-ci ildə 17714 nəfər təşkil etmişdir. Bu dövr üçün kənd və şəhər əhalisi arasında nikahdankənar doğulan uşaqların nisbəti tez-tez dəyişmişdir. Son olaraq kənd yerlərində rəsmi qeydə alınmamış nikahdan olan qadınların doğduğu uşaqların sayı şəhər əhalisinə nisbətən 4.4% artmış və ya 16.4% olmuşdur. Rəsmi qeydə alınmamış nikahdan olan qadınların doğduğu uşaqlar, Bakı şəhərində, Sumqayıt şəhərində, Gəncə-Qazax iqtisadi rayonunda, o cümlədən Şəmkir və Tovuz rayonlarında, Goranboy rayonunda, Astara, Masallı, Cəlilabad və Lənkəran rayonlarında çoxluq təşkil edir. Belə göstəricilər Naxçıvan Muxtar Respublikasının ərazisinə daxil olan rayonlarda, Respublikanın Tərtər, Şirvan, Hacıqabul, Zərdab, Ucar, Neftçala, Ağcabədi, Bərdə, Siyəzən, Lerik, Qax, Oğuz və s. bu kimi rayonlarında nisbtən azlıq təşkil edir. Bunun çox müxtəlif səbəbləri sırasında aşağıdakılar xüsusi olaraq qeyd edilməlidir: 1. hüquqi savadsızlıq və baş verə biləcək nəticələrə biganəlik; 2. nikah münasibətlərinin qeyd etdirilməsinin zəruriliyinə olan diqqətsizlik və məsuliyyətsiz münasibət; 3. dini nikahın tətbiq olunması və onunla kifayətlənmə; 4. nikah qeydinin rəsmiləşdirilməsi sahəsində bürokratik əngəllər, rüsumların ödənilməsindən imtina və s.; 5. ailə qurmaq niyyəti ilə qadın və kişinin faktiki münasibətlərinin uzun ömürlülüyünə olan inamsızlıq; 6. ər-arvad münasibətlərində yaşayan, lakin nikah münasibətləri rəsmiləşdirilməyən şəxslər arasında uşaq doğulmasının gözlənilməzliyi və bəzən tə-

sadüfi xarakter daşıması; 7. rəsmi nikahda olduğu halda, müəyyən yaş dövründə kişinin sevgili kimi başqa bir qadınla da faktiki münasibət yaratması və hətta bu izdivacdan uşaqların doğulması halları və sairə. Vaxtilə ikiarvadlılığa görə cinayət məsuliyyətinin mövcud olması, məsuliyyətə cəlb edilmə qorxusu, ikinci nikahın rəsmiləşdirilməsinin qanunvericilikdə yolverilməz olduğu və s. bu kimi səbəblər bir yerdə, ailə formasında nikahsız yaşayanların, sevgililərin, məşuqların, aşnaların sürətlə çoxalmasına gətirib çıxarmışdır. Eyni zamanda bir çox hüquqi mübahisələrə səbəb olan belə izdivacların, kəbinsiz, nikahsız ər-arvad münasibətlərinin doğurduğu problemin hüquq müstəvisində tənzimlənməsində müəyyən boşluqlar və çətinliklər vardır. Dünya təcrübəsində isə bu məsələyə fərqli yanaşmalar vardır. Kəbinsiz (cohabitation), nikahsız yaşamaq vəziyyəti, hazırda gündən-günə artan təzahür kimi müstəqil sosial problemə çevrilmişdir. Bu münasibət, real surətdə mövcud olan ər-arvadlıq faktı Fransada tərəflərin – ər-arvadın yazılı razılığı Belçikada, İslandiyada, Lüksemburqda ərizə verməklə, Niderlandda, İsveçdə, Danimarkada təntənəli toy mərasimi formasında rəsmiləşdirilməklə həll edilir. Macarıstanda, İtaliyada, Portuqaliyada, ABŞ-da, İsveçrədə isə mövcud faktın reallığı nəzərə alınır. Bütün bu münasibətlər, problemin qanunvericilik yolu ilə tənzimlənməsinə tələbat yaradır. İsveç ilk dünya dövlətlərindəndir ki, burada 1987-ci ildə qəbul edilmiş qanunla kişi və qadının faktiki olaraq birgə yaşaması və ər-arvadlıq münasibətində olması faktı - nikah kimi nəzərə alınır [575, s.232]. Lakin bu zaman tərəflərin biri-birinə maddi kömək göstərməsi məcburi hesab edilmir. Tərəflər biri-birinin öhdəliklərinə görə məsuliyyət daşımır və biri-başqasının soyadını götürməyə borclu deyillər. Onların yalnız bir mənzildə yaşaması və ev əşyalarından birgə istifadə etməsi faktı məqbul hesab edilir. Bununla belə tərəflər əmlaklarını biri-birinə vəsiyyət edə bilərlər və məhkəmədə biri-digərinin əleyhinə ifadə verməyə və ya şahidlik etməyə haqlı hesab olunmurlar [420, s.70-75; 541, s.59-68].

Erkən nikahların qarşısını almaq üçün ən əlverişli yol, mövcud qanunlara ciddi surətdə əməl etmək imkanlarını mümkün qədər ge-

nişləndirməkdən keçir. Rəsmi qeydə alınmamış birgə yaşayanların, sevgililərin, məşuqların münasibətlərinin, fakt olaraq, hüquqi rejimi barədə müasir dünya təcrübəsində müxtəlif yanaşmalara təsadüf edilir və bəzi ölkələrdə faktiki nikahın məhkəmə yolu ilə tanınmasına icazə verilir. Bizim ölkəmizin tarixində də faktiki nikahların məhkəmə qaydasında tanınması təcrübəsi olmuşdur. Belə ki, 8 iyul 1944-cü il SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı qəbul edilənədək, müttəfiq Respublikaların, o cümlədən AR-nın ailə və nikah qanunvericiliyində faktiki nikahın məhkəmə qaydasında tanınması hallarına yol verilirdi. Bu cür nikahdan doğulan uşaqların valideynləri barəsində hüquqları və vəzifələri, rəsmi nikahda doğulan uşaqların hüquq və vəzifələrinə bərabər tutulurdu. Lakin 8 iyul 1944-cü il SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı faktiki nikah münasibətlərinin məhkəmə yolu ilə müəyyən edilməsini qadağan etdi [223, s.27-33]. Həmin vaxtdan da faktiki birgə yaşayanların və onlardan doğulan uşaqların hüquq və öhdəliklərinin etibarlı müdafiəsində problemlər yarandı və bu vəziyyət bu günə qədər qalmaqdadır.

Beynəlxalq hüquq normalarına müvafiq olaraq Azərbaycan vətəndaşlarının bir fərd olaraq nikah hüququ, onun ayrılmaz və təbii hüququ kimi konstitusiyada da təsbit edilmişdir. Bunun üçün birinci əsas şərt şəxsin – qadının və ya kişinin qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatması, ikinci mühim şərt nikahın könüllülüyə, azad iradə ifadəsinə əsaslanması, üçüncü mühim şərt isə nikahın ailə qurmaq məqsədilə yaradılmasına əsaslanır. Konstitusiyanın tələbinə əsasən nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi istisnasız olaraq dövlət tərəfindən həyata keçirilir, yalnız müvafiq icra hakimiyyəti orqanlarında bağlanmış nikah tanınır və hüquqi nəticələr doğurur. Dövlətin ailəyə, uşaqlara, anaya çoxsaylı qayğı, kömək göstərməsi də elə bu hüquqi əsasa müvafiq olaraq həyata keçirilir. Ailə Məcəlləsinin 1.5-ci maddəsinin tələbinə görə, dini kəbin kəsmə və ya dini nikah heç bir hüquqi əhəmiyyətə malik deyildir. Bununla belə dinə və dini kəbin kəsməyə münaisbət vicdan azadlığı ilə bağlı olduğuna görə, hesab edirik ki, Ailə Məcəlləsinin 1-ci mad-

dəsinə aşağıdakı məzmunda yeni 1.6 maddəsinin əlavə edilməsi məqsədəmüvafiqdir:

«1.6. Müvafiq icra hakimiyyəti orqanlarında nikah əqdi qeydiyyata alındıqdan sonra, tərəflər – kişi və ya qadın öz istəklərinə müvafiq olaraq, dini kəbin kəsmədən istifadə etməyə haqlıdırlar».

Nikahın xitam edilməsi müəyyən şərtlər daxilində tərəflərin istəyinə və arzusuna əsasən həyata keçirilir. Keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 iyul 1944-cü il Fərmanı, həmin tarixə qədər faktiki nikah münasibətlərində olan şəxslərin nikahının qanunvericiliyə müvafiq olaraq tanınmasını mümkün hesab edirdi. Həmin müddətdən sonra isə belə faktiki nikahların rəsmi tanınması yolverilməz hesab edilmişdir. Elə buna görə də AR MPM-nin 307.2.4-cü maddəsində nəzərdə tutulmuş nikah münasibətlərində olma faktı da 8 iyul 1944-cü ildən əvvəl başlanıb, ər-arvadın birinin vəfatına qədər davam etdiyi halları nəzərdə tuturdu. «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinin şərh edilməsinə dair» Konstitusiya Məhkəməsinin, 2 noyabr 2010-cu il tarixli Qərarı ilə AR Mülki-Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinin AR Konstitutiyasının 34-cü maddəsinin 1 və 2-ci hissələrinə və ailə qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmasının həll olunmasını Milli Məclisə tövsiyyə etmişdir [23, s.581-588].

AR-nın Ailə Məcəlləsi ilə tənzim edilən ailə və nikah münasibətlərinin düzgün tətbiqi üçün Nazirlər Kabinetinin 31 oktyabr 2003-cü il 145 nömrəli «Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası»nın təsdiq edilməsi haqqında, 1 mart 2001-ci il tarixli 52 nömrəli qərarı ilə «Vətəndaş vəziyyəti aktlarının qeydində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar»ın, 23 may 2001-ci il tarixli 98 nömrəli «Uşaqlar üçün valideynlərinin aliment tutulan manat və xarici valyuta ilə aldıqları əmək haqqının və başqa gəlirlərin növlərinin müəyyən edilməsi barədə Qərar»ın, 15 avqust 2000-ci il tarixli 141 nömrəli «Övladlığa götürməyə, qəyyumluğa və himayəsinə imkan verməyən xəstəliklərin Siyahısı»nın təsdiq edilməsi haqqında və digər çoxsaylı qərarların mühim əhəmiyyəti vardır [75, s.123-195].

«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» AR-nın Qanunu beynəlxalq standartlara tam cavab verərək, ölkədə vətəndaşların, ailə üzvlərinin hüquqi statusunun müəyyən edilməsində, vətəndaş-dövlət, vətəndaş-ailə münasibətlərinin tənzim edilməsində mühim əhəmiyyətə malikdir [2, s.5]. Bu sənəd öz əsasını Azərbaycan Demokratik Cümhuriyyətinin 23 avqust 1918-ci ildə qəbul etdiyi «Azərbaycan Demokratik Respublikasının təbəəliyi haqqında Əsasnamə»dən götürmüşdür. Lakin 11 avqust 1919-cu ildə qəbul edilmiş Qanunla təbəəlik institutundan imtina edilmiş və vətəndaşlıq institutu təsis edilmişdir. Öz dövrü üçün bu son dərəcə mühim bir sənəd idi [2, s.5]. Sonrakı illərdə bu sənəd daha da təkmilləşdirilmiş, «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Qanun qəbul edilmişdir. 14 iyun 1994-cü ildə «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında», həmin tarixdə «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında», 4 aprel 1996-cı ildə «Yaşayış yer və olduğu yer üzrə qeydiyyat haqqında», 27 avqust 2002-ci ildə «Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» və digər müvafiq və zəruri Qanunlar qəbul edilmişdir [277, s.115-124]. Beynəlxalq və milli səviyyədə qəbul edilmiş həmin aktlar AR vətəndaşının, onun ailə üzvlərinin statusunu, hüquqi vəziyyətini müəyyən etmişdir [2, s.1-126].

AR-nın Konstitusiya Məhkəməsi son dərəcə mürəkkəb və bununla belə həm də çox əhəmiyyətli olan ayrı-ayrı normativ-hüquqi aktların, onların müxtəlif maddələrinin, normalarının izahına və konstitusiya normalarına uyğunluğu haqqında müzakirələr aparmış və müvafiq qərarlar qəbul etmişdir. AR Ailə Məcəlləsinin 132.1.1, 132.1.2 maddələrinin şərhinə dair 5 oktyabr 2012-ci il tarixli, Ailə Məcəlləsinin 17.2.3, 182-ci maddələrinin bəzi müddəalarının Konstitusiyanın 60-cı maddəsinin 1-ci hissəsinə uyğunluğunun yoxlanılmasına dair 9 iyul 2013-cü il tarixli, Ailə Məcəlləsinin 80, 81-ci maddələrinin şərh edilməsinə dair 27 yanvar 2015-ci il tarixli, Ailə Məcəlləsinin 15-ci maddəsinin şərh edilməsinə dair 16 oktyabr 2015-ci il tarixli Plenumun qərarları ayrı-ayrı normaların uğurlu şərhini təmin etmişdir [75, s.197-224].

AR Ali Məhkəməsinin 29 oktyabr 2009-cu il tarixli 1 saylı, 28 oktyabr 2011-ci il tarixli 6 saylı, eləcə də yuxarıda qeyd edilmiş 28 mart 2016-cı il tarixli 8-2/2016 saylı Plenum Qərarları məhkəmələr tərəfindən Ailə Məcəlləsinin düzgün tətbiqi üçün əhəmiyyətli rol oynayır [75, s.225-239]. Ölkənin ictimai-siyasi və iqtisadi həyatında baş vermiş çoxsaylı müsbət dəyişikliklər ailə və ailə münasibətlərinə ciddi təsir göstərmiş, bu sahədə tənzimləmə məsələlərinə dair qanunvericilikdə çoxsaylı dəyişikliklər aparılmışdır. Bütün bunlar gələcəkdə Ailə Məcəlləsinin ya yenidən hazırlanmasını, yaxud da əsaslı təkmilləşdirilməsini şərtləndirir. Bu baxımdan yeni ixtisaslaşmış ailə məhkəmələrinin yaradılması məsələsinin həlli də olduqca vacibdir.

Tanınmış və görkəmli filosof A.Q.Spirkin ailəyə daha konkret tərif verərək yazır: «Ailə şəxsiyyətin fərdi təşəkkülünün ən əhəmiyyətli vasitəsidir: məhz uşaq ilk dəfə burada ictimai həyata cəlb olunur, onun sərvətlərini, davranış normalarını, təfəkkür tərzini, ana dilini mənimsəyir. Başqa sözlə, ailə tərbiyə, həyat təcrübəsi bəxş edən müdriklik məktəbidir» [534, s.147]. Ailə əvəzedilməz tərbiyə ocağıdır, nəsillərin təkrar istehsalına olan tələbatları reallaşdıran sosial institutdur və onun hüquqi əsası nikah əqdidir. Ailə, bitkin sosial institut kimi cəmiyyətin təşəkkül tapması ilə eyni bir vaxtda meydana gəlmişdir. Ailənin formalaşması və fəaliyyət göstərməsi prosesi dəyərlilik – normativlik xüsusiyyətləri ilə tənzimlənir. Sosial institut kimi ailənin özünəməxsusluğu bundan ibarətdir ki, ailə, birincisi, qan qohumluğu, nikah telləri ilə bir-biri ilə bağlı olan iki və ya daha çox şəxsdən ibarət sabit strukturlaşmış sosial birlikdir. İkincisi, ailə özünü tənzim edən və təşkil edən sistem kimi çıxış edir. Üçüncüsü, ailə cəmiyyət tərəfindən sanskiyalaşdırılmış ittifaq hesab olunur. Dördüncüsü isə, dövlət xüsusi qaydada və xüusi orqanlarda qeydə alınmış nikah əsasında yaradılan ər-arvad birliyini ailə olaraq tanıyır və ona himayədarlıq göstərir [32, s.6-7; 74; 223; 261, s.7-31; 274, s.281-284; 492].

Biologiya və fiziologiya elmi tam təsdiq edir ki, insan, bir çox başqa canlılar kimi çoxalma instinktinə malik olan varlıq olsada, o bir sıra fərqli səciyyəvi cəhətləri ilə başqa canlılardan fərqlənir. Qızın

və oğlanın ailə həyatı qurmağa can atması da təbii fizioloji tələbatın ödənilməsi zərurətindən qaynaqlanır. Mahiyət etibarilə istər kişi və istərsə də qadın ruhən, mənəvi baxımdan, instinkt və təbii olaraq, əks cinslə münasibətdə olmaq, cütləşmək üçün daim sağlam və gözəl tərəf müqabil tapmaq və onu sevmək arzusu ilə yaşayırlar. Sosial varlıq olaraq insan dərk edir ki, təkcə nəsil artırmaq əsas şərt deyil, ən mühim vəzifə sağlam nəsil yetişdirməyə xidmət etməlidir. Buna görə də ailənin, nəslin, təmiz qanının və müqəddəsliyinin, toxunulmazlığının və mötəbərliyinin qorunub saxlanması, sağlam nəsil yetişdirməsi istəyini reallaşdırmaq üçün qadın və kişinin biri-birinə fizioloji, bioloji, fiziki, mənəvi, sosioloji və psixoloji uyuşması, harmoniya yaratması çox vacib və önəmlidir. Bu missiyada tərəflərin, xüsusilə qadının rolu əvəzsizdir. O, nəslin-kökün, qanınının təmizliyi, ailə namusunun və qeyrətinin ən etibarlı mühafizəçisi və keşikçisidir. [21; 111; 139; 140; 237; 261; 274; 492].

Bioloqların, fizioloqların və psixoloqların apardıqları tədqiqatlar birmənalı şəkildə təsdiq edir ki, insanlar instinkt olaraq, sövqi-təbii olaraq öz immun sistemini tamamlayacaq tərəf müqabilini bədahətən, böyük həssaslıqla, ruhən hiss edir və tanıyır. Tərəflər çox vaxtı ona vacib olan, immun sisteminin məqbul daşıyıcısını həssaslıqla duyur və ona böyük mənəvi ehtiyac hiss edirlər. Tərəf müqabildə məhz belə şəxsə qarşı təbii ehtiras yaranır, coşqun-emosional maraq üstünlük təşkil edir. Bu da onu göstərir ki, qız və oğlan biri-birini sevib-seçərkən, daha çox öz təbii hislərinin və istəklərinin təsiri altında ailə qurarkən, çox vaxt təsadüfən deyil, məhz düşünülmüş olaraq, qəlbinin hökmü, ağılın və ilahi fəhmi ilə seçim edirlər. Tərəflərin daxilindən, düşüncəsindən, qəlbinin hökmündən və sifarişindən qaynaqlanaraq, instinkt olaraq özünə lazım olan layiqli tərəfdaş – partnyor seçirlər. Çünki insanlar, yalnız öz hisslərini ağılla, qəlblərinin hökmü ilə idarə edən zaman düzgün yol seçib, xoşbəxt olur və kamillik zirvəsinə ucalırlar. Fizioloji, psixoloji və bioloji instinkt – insanı əslində, nəfsinin, könlünün ona daha çox lazım olanının ardınca aparmağa şövq edir və o, seçim etməyə qadirdir. Ailədəki münasibətlərin mənəvi əxlaqi dəyərlərə xidmət etməməsi isə müxtəlif psixoloji prob-

lemlərə, mübahisələrə, münaqişələrə, ziddiyyətlərə, hətta bəzən xəyanətə gətirib çıxarır. Sağlam seksual həyat tərzi və əsil sevgi fizioloqların və bioloqların təsdiq etdiyi kimi, insanın immun sisteminin möhkəmləməsinə, sağlamlığına xidmət edən hormonların, adrenalin turşusunun artmasına, yüksək əhval-ruhiyyəyə, bəzən qeyri-adi seksual fəallığa səbəb olur və əks cinslə münasibətində insanın özünə inamında son dərəcə məmnunluq yaradır. Kişi xəyanətindən fərqli olaraq qadın xəyanətinin cəmiyyətdə, xüsusilə Şərqdə, Azərbaycanda daha ağır günah əməli hesab edilməsi də, təsadüfi deyildir. Çünki ulu babalarımız bədahətən və ilahidən gələn dərin intuisiya ilə hiss etmişlər ki, düşmən bir tayfadan, nəsildən və qəbilədən olan genlər, yalnız qadın xəyanəti nəticəsində öz nəslinin geni ilə qarışa bilər. Bu baxımdan qadın xəyanətinin müəyyən bir millət üçün, müəyyən bir nəsil üçün doğurduğu mənfi nəticələrin miqyası, bu xəyanətin bağışlanılmasını qətiyyətlə rədd edir. Ulu babalarımızın, nəticə etibarı ilə bu qənaəti, sonralar genetika, biologiya və fiziologiya elmlərinin apardığı tədqiqatlar nəticəsində tam təsdiq edilmişdir [48]. Aydın olmuşdur ki, tarixən yad bir genin nəsilə daxil olması, yalnız və yalnız qadın xəyanəti nəticəsində mümkün ola bilər. Şüurla dərk edilib-edilməməsindən asılı olmayaraq, qadın xəyanətinin bağışlanılmamasının əsas səbəbi də məhz elə bununla izah olunur. Qədim mayalıların, tibetlilərin və digər sivilizasiyaların tarixi də, qadın xəyanətində babalarımızın çıxardığı bu nəticələrin əsaslı olduğunu təsdiq edir [132, s.5-12].

Atalıq və ya analıq duyğusu, vəzifəsi insanın fizioloji, bioloji tələbat normalarından biri olmaqla, həm də sosial normalarla tənzim edilən rollardandır. Ata və ya ana övladının yetişdirilməsində şəxsən iştirak etməzsə, o, qanunvericilik yolu ilə, bu hüquqdan məhrum edilə bilər. Cəmiyyətdə atalıq və ya analıq statusu ona əsası övladın bioloji, fizioloji, sosioloji və psixoloji sağlamlığının təmin olunmasındakı xidmətlərinin məcmusu ilə müəyyənləşir. İnsanın bioloji fərd kimi nəsil artırmaq instinktinin, ehtiyaclarının təsiri altında bioloji motiv formalaşır və bu istək də onu bu missiyanı reallaşdırmağa daxilən təhrik edir. Bioloji motiv, valideyni övladın dünyaya gəlişinə, kişili-

yin və ya qadınlığın təsdiqi kimi yanaşır. Bundan fərqli olaraq sosial motiv insanın cəmiyyət qarşısında olan ictimai borcunun dərki sayəsində formalaşır və onu, bir sosial varlıq kimi üzərinə düşən vəzifəni mümkün qədər uğurla icra etməyə vadar edir [21; 111; 139; 140; 237; 261, s.79-111; 274; 492].

İnsan orqanizminin müxtəlif hissələrində, əsasən də onun baş nahiyəsində, beynində yerləşən təbii mərkəzlər müxtəlif təyinatlara və müxtəlif məqsədlərə xidmət edir. Bu da insanın qorxu, sevgi, əsəb, nifrət, qəzəb, istək və s. bu kimi hisslərini formalaşdıran və onun mənbəyi hesab olunan limbik sistemə əsaslanır [117, s.264-287]. Bu sistem bir neçə mikro maddədən ibarət olmaqla, gicgah payının orta hissəsində yerləşir və cəmi beş qramlıq kiçik bir hissəni özündə ehtiva edir. Limbik sistem adlandırılan beyin mərkəzi insanın bütün həyatını idarə edən üç kiçik cisim – talamus, amygdala və hipotalamus adlandırılan hissələri özündə birləşdirir. Bu üç kiçik cismin xidməti sayəsində beyinin 30 milyard hüceyrəsi bir-birilə sürətli rabitə əlaqəsinə daxil olur, insanın duyğularına, hisslərinə, istəklərinə, məqsədlərinə və motivlərinə uyğun olaraq insan həyatının idarə olunmasını təmin edirlər. Elm sübut edir ki, bu təbii rabitə sisteminin sürəti təxminən bir avtomobilin saatda 700 km sürətlə hərəkət etmə sürətinə bərabər olaraq dəyişir. Qorxu və sevgi mərkəzi olan badama bənzər formalı amygdalanın kütləsi, orta hesabla beş qram təşkil edir. Amma o az qala yer üzərindəki bütün insanları məqsədli şəkildə idarə edir və onların tez-tez dəyişən motivasiya proseslərinə stimul verir. İkinci adı «badamabənzər cisim» olan amygdala qıcıqlandıqda insanda ifrat qorxu, qəzəb, nifrət və hətta sevgi hissinin yaranmasını təmin edə bilir. Təcrübədə aparılan sınaq zamanı heyvanların gicgahında olan bu mərkəzlər çıxarılarkən, faktiki olaraq onlar qorxu hissini itirmiş və doğma balalarına belə laqeyd olan bir vəziyyətə düşmüşlər. Çünki bu mərkəzin zədələnməsi və ya ümumiyyətlə yox olması nəticəsində qarşı tərəf öz cinsini tanıya bilmək hissini faktiki itirmiş olur. Başqa sözlə, şəfqət və sevgi hisslərinin belə canlılarda olması tamamilə istisna edilir. Təcrübə göstərir ki, «badamabənzər» cisim daha çox sevgi deyil, qorxu amilindən qıcıqlanarsa o, artıq ilkin təyinatını

itirir və beyinə başqa informasiyalar ötürməyə başlayır. Belə olduqda isə, insan lüzumsuz olaraq həddindən çox hərəkətsizlikləri ilə və yalnız qorxu simptomları ilə idarə edilmiş olur. Nəticədə, isə insanın ruhunda olan sevgi hisslərinin get-gedə öləzləşməsi prosesi baş verir, ailələr dağılır və nikah pozulur [591].

İnsan bioloji varlıq olaraq, onun şüuraltı təbəqəsində nüfuzu qoruma instinkti mövcud olur. Bu da onu müxtəlif növlü fəaliyyətlərə təhrik edir, stimul verir, insanı öz qələbəsinə ruhlandırır, məğlubiyyətlə barışmağa imkan vermir və bütün bu sahələrdə mənəvi ehtiyaclarını ödəməyə səfərbər edir. Çünki hər hansı bir məğlubiyyət hissi insan orqanizminə, bu və ya digər dərəcədə neqativ psixoloji və fizioloji təsir göstərir. Məğlubiyyət və uğursuzluq zamanı orqanizmdə dofaminin, endorfinin miqdarı azalır, yorğunluq, ağrı, stress hormonu olan kortizolun miqdarı çoxalır və adrenalinlə qarışaraq qorxu hissini daha da artırır. Bu proses isə ümumilikdə orqanizmin immunitetinə mənfi təsir göstərir, sinir toxumaları qanı özünə doğru çəkir, nəticədə əzələlər zəifləyir, baş beyinin bir hissəsi olub, emosiya və yaddaşın formalaşmasında aktiv iştirak edən hippokamp adlanan hissə aktivləşir və yaddaşda uğursuzluqla bağlı neqativ xatirələr özünü göstərir. Bu xatirələr də yaddan çıxmır, bütün ömrü boyu ağır mənən bir yük kimi insanı fasiləsiz olaraq izləyir, dərd olur, onun mənfi emosiyalarının, konfliktlərə sürükləyən ziddiyyətlərinin artmasına fəal təsir göstərir. Buna görə də emosiyalarını ağıla tabe etməyə bacaran, münaqişələri emosiyalarla deyil, ağılla və məntiqlə, səbr və təmkinlə tənzim etməyə çalışan şəxslər kamillik zirvəsinə ucalmaq keyfiyyəti qazanır və bu da onu daim xoşagəlməz hadisələrdən mühafizə edib, qorunmağa imkan verir. Bütün bunlar qanunauyğun bir proses kimi təzahür edir. Neyrofiziologiyada sübut olunmuşdur ki, insan orqanizmində, o cümlədən onun düşünmə mərkəzi olan beynində saysız-hesabsız neyronların hər birinin hərəkət trayektoriyası tam məlumdur və neyronlar heç bir kənar təsirlə də öz yollarını dəyişə bilməzlər. Milyardlarla neyronun rasional yolu var və onlara bu yolla getməyə heç nə mane ola bilməz. Canlı və cansız aləmin vəhdətini, birliyini göstərən mühim əlamətlərdən biri də məhz elə budur. İnsan orqaniz-

mində hökm sürən qadağan qanunları qeyri-şüuru mahiyyət daşıyır. İnsan şüurundan, ağılından kənarda baş verən bu proseslər instinktiv səviyyədə idarə olunur. Öyrənmə və yaddaş prosesi təkcə beyinlə məhdudlaşmır və hər bir hüceyrənin özünün də öyrənmə və yaddaş xüsusiyyətləri vardır. Bunlar isə məcmu şəklində orqanizmin fərdi səciyyəvi xüsusiyyətlərinin qorunub saxlanmasını, məlumatların toplanılmasını, onlardan istifadəni təşkil və təmin edir. ABŞ tədqiqatçıları təsdiq edirlər ki, məsələn, beyinin özünün musiqi yaddaşına cavabdeh olan əlahiddə hüceyrələri vardır ki, həmin hüceyrələr məhz bu məsələdə cavabdehdirlər. Eyni xüsusiyyəti insan orqanizmində və insan beynində mühim əhəmiyyət kəsb edən digər məsələlərə də şamil etmək olar. Bütün bunlar insan həyatında baş verən proseslərin və hadisələrin nə vaxtsa, özünü təkrar göstərəcəyinə və öz izini qoyacağına böyük əminlik yaradır [150, s.25-28]. Buna görə də insan həyatının xarakter xüsusiyyətləri, ailə, təhsil, təlim-tərbiyə, zorakılıq, qəddarlıq və ya mərhəmət, sevgi və nifrət hislərinin hər biri, tarixi yaddaşda əhəmiyyətli rol oynayır. İnsan mənəviyyatı, onun ətrafında baş verənlərə mənfi və ya müsbət hisslərin təsiri altında formalaşır. Sadə hisslərin yaşanması bioloji amillərdən qaynaqlandığı halda, mürəkkəb hislər daha çox insanın həyat təcrübəsindən, genetik xüsusiyyətlərindən, onun böyüdüyü şəraitdən, aldığı tərbiyədən, təhsildən, əldə etdiyi biliklər toplusundan qaynaqlanır. Emosiyalar ötəri, tez unudulan, ağıl isə əbədi və uzunömürlü sevgi vəd edir. Buna görə də məhəbbət mənəviyyatı zənginləşdirən, zövqlərin oxşanması, arzuların, istəklərin reallaşması, xoşbəxt anların yaşanması kimi hislər toplusunu özündə əks etdirir. Bu baxımdan yalnız iki bir-birini sevən insanın birləşməsi, bütövləşməsi tamamilə mümkündür və olduqca faydalıdır. İnsan yalnız sevgisinin qarşılığını tapdığı və bunu ruhən duyduğu zaman fiziki və mənəvi cəhətdən xoşbəxt ola bilir. Ailənin xoşbəxtliyini isə məhz bu təmin edə bilər. Əsl məhəbbət ailəni möhkəmləndirir, ailədaxili münasibətləri təkmilləşdirir, cilalayır ailə mədəniyyətini inkişaf etdirir, övladların tərbiyəsinə pozitiv təsir göstərir. Ər-arvad arasındakı əsil məhəbbət ailə bütövlüyünün təminatı və zaman göstəricisidir. Buna görə də valideynlər arasında yaşanan əsil

məhəbbət, ülvi hiss, müqəddəs yanaşma yaddaş hüceyrələri vasitəsilə qorunub saxlanılır və nəsildən-nəslə ötürülür. Əsl məhəbbət olan ailələrdə ziddiyətlər, konfliktlər, uyğunsuzluqlar çox vaxt istisna edilir. Belə həyat isə, bəşəriyyətin ən ali istəyinin - insan xoşbəxtliyinin gerçəkləşməsinə aparan yeganə yolun özüdür. Deməli, məhəbbət və sevgi əsasında yaradılan insan birliyi olaraq ailə cəmiyyətin xoşbəxtliyinin əsasında dayanır. Dünyanın qorunması və xoşbətliyi də elə məhz bundan keçir [272, s.24-36].

Qadın ailə funksiyalarını və ümumi ictimai-iqtisadi funksiyaları birləşdirməyi bacardığı hallarda, ailə uzunömürlü olur və firavan həyat tərzi ilə seçilir. Ailədə qadının rolu, funksiyası, vəzifələri və öhdəlikləri getdikcə artır və mükəmməlləşir. Yalnız belə olduqda ailənin uzunömürlülüyü və ailə qarşısında duran vəzifələr müfəvvəqiyyətlə yerinə yetirilir [274, s.281-284].

Peşəkar fəaliyyət qadının intellektual və emosional aləmini zənginləşdirir, onun dünya görüşünü genişləndirir və ilk növbədə uşağın nəzərində ananın, ümumilikdə isə valideynlərin nüfuzunu artırır. Lakin eyni zamanda da statistik məlumatlar təsdiq edir ki, işləyən qadınlar uşaqlara xeyli az vaxt sərf etməli olurlar. Bu da çox vaxt tərbiyə prosesinə bilavasitə təsir göstərir. Uşağın ana ilə az ünsiyyətdə olması, onun tərbiyəsilə yanaşı, dünyagörüşünün formalaşmasına da mənfi təsir göstərir. Ailənin uğurlarında, bu birliyin dövlət tərəfindən tanınmasında, hüquqlarının və öhdəliklərinin hüquqi nəticələr doğurmasında rəsmi nikahların xüsusi yeri və rolu vardır. Nikah əqdi ailənin konstitusiya əsası, hüquqi bünövrəsi hesab olunur.

Avropa İnsan Hüquqları Məhkəməsinin pressedent hüququna görə qanuni nikahdan doğulmuş uşaqlarla nikahdankənar doğulan uşaqlar arasında fərq qoyulması Konvensiyanın tələblərinə ziddir və yolverilməzdir. Avropa İnsan Hüquqları Məhkəməsinin Mazurek Fransaya qarşı işdə dövlət, nikahdankənar doğulan uşaqların vərəsəlik hüquqlarının məhdudlaşdırılmasını, xüsusi olaraq qeyd etməyi vacib hesab etmişdir. Eləcə də Şahin Almaniyaya qarşı işdə Almaniya məhkəmələrinin nikahdankənar doğulan uşağı ilə görüşməyə icazə verilməməsini, haqlı olaraq Konvensiyanın 8 və 14-cü maddələrinin

tələblərinin pozulması kimi qiymətləndirmişdir [42, s.24-25, 65-66; 43, s.335, 391, 533].

İnsanların övladları digər canlıların balası ilə müqayisədə ən uzun uşaqlıq mərhələsi keçirir. Uşaqların valideynlərdən asılılığı hüquqi baxımdan 18 yaşadək davam edir. Bu dövrdə o, valideynlərinin – ananın və yaşlıların müdafiəsinə ehtiyac duyur. Müstəqil həyata hazırlıq prosesi yalnız ailə şəraitində formalaşır. Normal şəraitdə, ailə uşaqların valideynlərə tabeliyini yaş əlamətinə, qadının kişiyə tabeliyini isə cinsə görə təmin edir. Hazırkı şəraitdə hər iki parametr dəyişir. Gənclər valideynlərdən nisbətən tez ayrılmağa cəhd göstərir, müstəqil yaşamağa çalışır və öz peşəsini tez-tez dəyişməyə səylər edirlər [317, s.98]. Qadın azadlığı da ailənin iyerarxiyalı təşkilinin dağılmasına müəyyən təsir göstərir. Bununla əlaqədar olaraq sosioloqlar hazırda ailədəki vəzifələrin xarakterinə görə onun aşağıdakı üç başlıca tipinin mövcud olduğunu göstərirlər: 1. ənənəvi və ya patrialxal ailə. Ailənin təşkilinin belə tipi bir evdə ən azı üç nəslin nümayəndələrinin birgə yaşadığını nəzərdə tutur və ailədə liderliyin kişiyə aid olmasını düzgün hesab edir. Ənənəvi ailə üçün aşağıdakı üç cəhət xarakterikdir: a) qadının ərindən iqtisadi cəhətdən asılı vəziyyətdə olması; b) ailə sferasında funksional bölgünün, habelə kişi ilə qadının vəzifələrinin möhkəm olması; c) ailə başçısı məsələsində kişinin üstünlüyünün danışıqsız etiraf olunması, qəbul olunması və tanınması; 2. neoənənəvi ailə. Belə ailələrdə kişinin liderliyinin tanınması, bəzi məsələlərdə kişi ilə qadının vəzifələrinin məhdudlaşdırılması məqamlarının qorunub saxlanılması, lakin ailənin ilk tipindən fərqli olaraq qadının kişidən iqtisadi cəhətdən asılılğının azaldılması. Ailənin bu tipini sosioloqlar istismarçı tip adlandırırlar. Çünki qadın ictimai əmək sferasında kişilərlə bərabər hüquqlar əldə etməsinə baxmayaraq, ev təsərrüfatında müstəsna hüquqlara malik olurlar. Belə ki, evin və təsərrüfatın idarə edilməsi vəzifəsi qadının üzərinə düşür və o, nisbi-müstəqil fəaliyyəti ilə seçilir; 3. eqalitar ailə və ya faktiki bərabərliyin mövcud olduğu ailə. Belə ailə tipi üçün aşağıdakılar xarakterikdir: a) ailə üzvləri arasında vəzifələrin ədalətli, proporsional bölgüsü, məişət məsələlərinin həllində ərlə arvadın oynadığı rolun qarşılıqlı

surətdə əvəz olunması; b) başlıca ailə problemlərinin müzakirəsi və ailə üçün əhəmiyyətli olan qərarların birgə qəbul edilməsi; c) ailə-məişət münasibətlərinin, ərlə arvad, valideynlərlə uşaqlar və ailənin bütün digər üzvləri arasında münasibətlərin məzmun etibarilə dolğunluğu və mükəmməlliyi və s. Göstərilən tiplərdən əlavə ailənin keçid tipləri də mövcuddur ki, bu zaman kişinin oynadığı rol, onun faktiki davranışı ilə müqayisədə daha çox ənənəvi xarakter daşıyır və ya əksinə, demokratik rol oynamaq məqamlarına, ev təsərrüfatının təşkilində kişinin nisbətən az iştirak etməsi diqqəti cəlb edir [493, s.61].

Ailə sosial varlıq zəncirində mühim və əhəmiyyətli həlqədir. Hər bir millət, dövlət və cəmiyyət ayrı-ayrı ailələri özündə birləşdirir. Ailə ərlə arvadı, onların övladlarını birləşdirən tellərin ilgəyidir. Bir cüt fərqli-cinslərin ittifaqı tədricən genişlənərək bütöv bir nəslin və ümumilikdə isə cəmiyyətin formalaşması ilə müşayət olunur [533, s.124]. Məhz buna görə də ailə demək olar ki, bütün cəmiyyətlərdə dövlətin əsas dayaq nöqtəsinin əsaslarına xidmət etmiş, cəmiyyətin özəyi olmaq etibarilə onun sabitliyinin və tərəqqisinin təmin olunması üçün əvəzsiz xidmətlər göstərmişdir. Ər və arvad arasında sevgiyə və məhəbbətə əsaslanan mükəmməl nikah əlaqəsi onların müstəqilliyini, başqa sözlə, ərlə arvadın elə bir əlaqəsini nəzərdə tutur ki, bunun da sayəsində onlar bir-birindən kənarlaşmır, yalnız qarşılıqlı münasibətlər əsasında bir-birini nəzərə alır və biri-birinə bağlanırlar. Ortaq fəaliyyətin məhsulu olan uşaqların doğulması, mahiyət etibarı ilə ailədə ər-arvad münasibətlərini daha da möhkəmləndirir. Məhz belə hallarda, doğulan uşağın simasında, vücudunda, ərin və arvadın həqiqi birliyindən, ailə möhkəmliyindən danışmaq olar. Şəxsiyyətlərarası birlik problemi qeyri-adi dərəcədə incə və həm də olduqca mürəkkəb məsələdir. Kommunikasiya, birgə təsərrüfat fəaliyyəti, təhsil, oyun hərəkətləri, kişi ilə qadın arasındakı şəxsi münasibətlər prosesində ünsiyyətdə olan insanların birləşmiş, həmfikir olmuş vəziyyətdə nəzərə çarpırlar. Şəxsiyyətlərarası birlik – tərəflərin ünsiyyət, birgə fəaliyyət və ya nikah həyatında bir-birini qarşılıqlı surətdə qəbul etməsidir. Əlbəttə ki, belə qəbul edilmə, hər şeydən əvvəl, sərvət yönümünün optimal əlaqələndirilməsinə, sosial və əxlaqi mövqeyə,

zövqlərə, temperamentə və xarakterə, intellektual və emosional səviyyəyə, dünyagörüşə, əməyə münasibətə və s. bu kimi meyarlara əsaslanır. Kişi və qadın arasındakı münasibətlərdə, onların dostluğunda və məhəbbətində bəzi başqa şəxsi keyfiyyətlər də vacib rol oynayırlar. Ər-arvad cütlüyü, kişi ilə qadının hərtərəfli qarşılıqlı əlaqəsi əhalinin fiziki və mənəvi təkrar istehsalına olan tələbat, ailə ənənələri və s. bu kimi məsələlər ailənin mövcudluğunun əsası hesab edilir. Bu da rəsmi baxımdan nikah əqdi ilə möhkəmləndirilir [135, s.124-138; 240, s.308-312].

Cəmiyyətin, mədəniyyətin və sivilizasiyanın təşəkkülünə və formalaşmasına mütənasib olaraq təzahür edən və nikahla rəsmiləşdrilən ailə təsisatı - öz üzvlərinin, say etibarı ilə kiçik sosial qrup olaraq, müasir cəmiyyətdə spesifik demokratik və sivil məqamlara yiyələnməsi ilə xarakterizə olunur [531, s.45]. Bu gün məhz qanunun hakimiyyəti ilə şərtləşən ailə üzərinə və ailənin yetkinlik yaşına çatmış hər bir üzvü üzərinə dövlət tərəfindən iqtisadi, sosial, siyasi, psixoloji-mənəvi və dini vəzifələr qoyulur. Nisbi müstəqilliyə malik olan, kiçik sosial qrup və sosial təsisat, institut kimi mənalandırılan ailə həmin vəzifələrin yerinə yetirilməsi üçün xüsusi ictimai məsuliyyət, öhdəlik yaradır. Ailə, bəşər övladının cəmiyyət həyatında ilk addım atmağa başladığı elə bir məkandır ki, o insan ömrünün sonuna qədər öz mümkün mötəbərliyini, dəyərini və əhəmiyyətini qoruyub saxlayır. Ailə və valideynlər yetişdirdiyi hər bir fərdin davranışlarına və hərəkətlərinə görə məsuliyyət daşıyır və narahatçılıq keçirirlər. Milli mentalitetimizdə şəxsiyyətin hər hansı mənfi və ya müsbət hərəkətləri, ilk növbədə ailənin adı ilə əlaqələndirilir. Buna görə də ailə öz övladının hərəkətləri ilə daim maraqlanmalı, onları həmişə izləməli, onun davranışlarına nəzarət etməyə borcludur. Ailə üzvlərinin birinin-digəri qarşısında məsuliyyəti və öhdəliyi, onun dərəcəsi və hədləri rəsmi baxımdan nikah əqdi əsasında müəyyən edilir. Bu mənada nikahın ailə öhdəliklərinin icrasında mühim əhəmiyyəti vardır. Alimentin məbləğinin və təyinatın müəyyən edilməsində nikah əqdinin mövcudluğu dediyimizə misal ola bilər. Müasir tədqiqatlarda ər-arvad arasındakı qarşılıqlı münasibətlərin bir neçə səviyyəsi müəyyən

edilir. Onlar aşağıdakılardan ibarətdir: 1. Psixofizioloji səviyyə. Burada qeyri-ahəngdarlıq, seksual həyatın pozulması özünü göstərir. Bu, bütövlükdə, tez-tez baş verən həyat hadisəsi kimi xarakterizə olunur. Eyni zamanda boşanma haqqında qərarın tərəflərin öz istəyi ilə qəbul edilməsi, qismən də başlıca səbəblərdən biri kimi qiymətləndirilir. 2. Psixoloji səviyyə. Bu səviyyə onunla xarakterizə edilir ki, ailədə daim çəkişmə, küskünlük, qarşılıqlı və yersiz irad tutmalar, əsəb gərginliyi kimi hallar təzahür edir. Bunun da nəticəsində ailədə qeyri-sağlam, qeyri-normal bir mühit yaranır. Uşaqların incidilməsi bir çox hallarda bütün bu vəziyyətin yaranmasına səbəb olur. Bəzən isə münaqişəli şərait, elə birbaşa uşaqların incidilməsinə istiqamətləndirilir. 3. Sosial rollu səviyyə. Ailədə məişət vəzifələrinin qeyri-düzgün, qeyri-bərabər bölüşdürülməsi, ailə tərzində hərc-mərclik bu səviyyənin sabitliyinin pozulmasının əlamətləri hesab olunur. Belə ki, bəzən heç bir əsaslı səbəb olmadan ər və ya arvad tərəfindən hay-küy qoparılır, müxtəlif bəhanələr gətirilir və yerli-yersiz əsəbi dialoqlar sabitliyin pozulmasına gətirib çıxarır. Belə vəziyyətin ilk mənfi nəticələri uşaqlara və onların tərbiyəsinə təsir göstərir. 4. Sosial-mədəni səviyyə. Burada münaqişələr ərlə arvadın bir-birini başa düşməməsi, qarşılıqlı hörmətin nəzərə çarpmaması, tərəflərin ünsiyyətdən məhrum olması zəminində baş verir. Belə vəziyyətdə ailə həyatı dəyər qismində qəbul edilmir və münaqişələr ağır nəticələrə gətirib çıxarır [307, s.70-73; 372, s.54-67; 431, s.32-41; 436, s.29-33].

Ailənin cəmiyyətin və dövlətin inkişafında müstəsna rolunu dəyərləndirən mütəxəssislər, siyasi və dövlət xadimləri, sosioloqlar və hüquqşünaslar, fikir adamları onun öyrənilməsinə diqqəti artırmağı, beynəlxalq hüquqi statusunun müəyyən edilməsini vacib hesab edirlər. Bu, həm də ailənin müasir dövrdə düşdüyü böhranlı vəziyyətin, cəmiyyətin və dövlətin ən müxtəlif problemlərinə mühim təsir göstərməsi amilindən irəli gəlir. İki dünya müharibəsində baş verən ciddi proseslər ailənin rolunu lazımınca qiymətləndirərək, qadınların və uşaqların hüquqlarının tənzimlənməsinə, təkmilləşdirilməsinə, qorunmasına, mühafizəsinə, genişləndirilməsinə diqqətin artırılması ilə nəticələnmişdir. Ailə, geniş mənada dünyada baş verən bütün proses-

lərə təsir göstərən və həlledici əhəmiyyət kəsb edən elə təsisatlardandır ki, ona diqqətin artırılmasının zəruriliyini bütün ağıllı və müdrik insanlar tərəfindən birmənalı şəkildə dərk edilir, başa düşülür və müsbət qiymətləndirilir. Ailə cəmiyyətdə baş verən bütün xoşbəxtliklərin və bədbəxtliklərin barometrdir. Qərbdən gələn müxtəlif mənfi təsirlərin zərərsizləşdirilməsi, ailənin monalitliyinin qorunub saxlanması, uşaqların düzgün tərbiyəsi və inkişafı sahəsində qarşıda duran vəzifələr, ümumölkə problemi kimi daim diqqətdə saxlanılır. Son illər kütləvi informasiya vasitələrində dərc olunmuş materiallar, qeyri-hökumət təşkilatlarının nəşrləri, məhkəmə ümumiləşdirmələri və digər çoxsaylı məlumatlardan aydın olur ki, ölkədə boşanmalar əvvəlki illərlə müqayisədə artımağa doğru meyllidir. AR Ali Məhkəməsinin «Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qalması və uşaqlar üçün valideyndən aliment tutulmasına dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında» 28 mart 2016-cı il tarixli 8-2/2016 saylı Plenumun Qərarında bir sıra məsələlərə aydınlıq gətirilmiş və məhkəmələr üçün əhəmiyyətli izahlar verilmişdir. Bu zaman əsas diqqət ailələrin dağılmasının qarşısını almaq üçün zəruri tədbirlərin görülməsinə, ailə həyatına hörmət hüququna əməl olunmasına, tərəflərin hüquq və azadlıqlarına hörmət edilməsinə, boşanma hallarında uşaqlar üçün ən əlverişli və optimal imkanların nəzərə alınmasına, aliment ödənişlərinin düzgün təyini və vaxtında ödənilməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir [606].

Nikah münasibətlərinin düzgün qurulması ailələrin möhkəmliyinin və uzunömürlülüyünün təmin edilməsində mühim əhəmiyyətə malikdir. Ailələrin sevgi, qarşılıqlı hörmət, məhəbbət əsasında qurulması, tərəflərin intellektual, mədəni və dünyagörüşünün üst-üstə düşməsi və ya oxşarlığı, evlənən cütlüklərin biri-birini yaxşı tanıması, tərəflərin məsuliyyəti, güzəştə getmək bacarığı, tibbi və mənəvi sağlamlığı, valideynlərin və ağsaqqalların dəyərli tövsiyyələri və məsləhətləri, gələcək ailənin uzunömürlülüyü və möhkəmliyi üçün çox vacib və önəmlidir. Ailə bağları möhkəmlənənə qədər valideynlərin

gənc ailəyə qayğısı və diqqəti onların problemlərinin həllini aradan qaldırmağa kömək edir.

Yazılı qanunlarda qadın və kişi bərabərliyinin hüquqi təsbitinə baxmayaraq, reallıq bundan ibarətdir ki, ənənəvi Azərbaycan ailəsində kişi ailənin başçısı olmaqla, qərarverici funksiya, üstünlükdə məhz ona məxsusdur. Bununla belə müasir ailə, tarixi əmək bölgüsünə müvafiq olaraq kişinin və qadının rollarının kifayət qədər ixtisaslaşması, formalaşması və təkamülü ilə səciyyəvidir. Qadın ailə ocağının keşikçisidir. Od, istilik, günəş olmadan həyat olmadığı kimi, qadının da ailədə isti və doğma bir ailə ocağı yaratmaq qabiliyyəti çox vacibdir. Məhz qadının, ananın dözümlülüyü, müdrikliyi, nəcibliyi, qayğıkeşliyi ailə möhkəmliyinin əsasında dayanır. Azərbaycan qadını bütün bu keyfiyyətlərlə yanaşı, həm də zəhmətkeş, qənaətcil, diqqətcil, fədakar, insanpərvər keyfiyyətləri ilə fərqlənir. O, ana olaraq həyata insan gətirən yaradıcı bir varlıq olmaqla, həm də uşaqların sağlam böyüməsi, tərbiyəsi, təhsili, formalaşması sahəsində mühim funksiyalar yerinə yetirir. Unikal və təkrarsız olaraq məhz Azərbaycan ailəsində qadının, ananın «ömür yoldaşı», «həyat yoldaşı» kimi ən yüksək, ən uca adlarla, nəvaziş və hörmətlə çağırılması, adlandırılması, qadın-kişi birliyinin son dərəcə vacibliyini və cəmiyyətin bünövrəsi olaraq onun dəyərinin çox yüksək olduğunu, mənəvi-əxlaqi dəyərlərə və sınaqdan çıxmış meyarlara söykəndiyini bir daha təsdiq edir. «Həyat yoldaşı» kimi termini, müraciəti başqa xalqların dilində tapmaq çətindir və ailəyə, həyat yoldaşına belə yanaşma qədim və böyük milli mədəniyyətin bariz nümunəsidir. ...Şərq dünyasında ailəyə üçüncü subyektin - kənar şəxsin daxil olması təqdir edilmir. Üçüncü şəxsin ailəyə daxil olması və müdaxiləsi, bəzən ailə münasibətlərinin pozulmasına gətirib çıxara bilər [152, s.108-154; 154, s.30-31]. Ailənin və nikahın tarixinin, tiplərinin, forma və məzmununun, ailə və ailə münasibətlərindəki müasir meyllərin, təzahürlərin, mənfi və müsbət cəhətlərin tənəzzülündən və tərəqqisindən asılı olmayaraq, ailə qarşısında duran ənənəvi vəzifənin – nəsil yetişdirmək missiyası bu gün də Azərbaycan ailəsində öz aktuallığını qoruyub saxlamışdır. Layiqli və vətənpərvər insan yetişdirmək kimi mürəkkəb və məsuliy-

yətli vəzifə məhz qadının və kişinin birgə səyi ilə mümkündür. Ailə insan nəslinin ilkin ocağıdır. Bu ocaq insanın dünyaya gəlişinin əsasında dayanan, onun ana yurdu, əzəli və coğrafi ərazi məkanı hesab oluna bilər. İnsan, ilk növbədə ailə mühitində boy atır, yetişir və inkişaf edir. Onun cəmiyyətin layiqli üzvü kimi formalaşmasında, hər şeydən əvvəl ailənin, sonra isə insanın düşdüyü və onu əhatə edən sosial mühitin mühim rolu vardır. Buna görə də ailənin dövlət tərəfindən himayə edilməsi heç də təsadüfi səciyyə daşımır və müəyyən qanunauyğunluqlara əsaslanır. Müasir dövrümüzdə ailə dövlətin daim diqqətində və qayğısı altında inkişaf etdirilir. Ailənin və nikahın dövlətin nəzarətində olması, onun konstitusiya ilə nəzərdə tutulan ən etibarlı təminatlarından biri hesab oluna bilər.. Ailə institutunun yaranması üçün nikahın mühim hüquqi nəticə kimi qiymətləndirilməsinə baxmayaraq, «nikah» və ya «kəbin» kimi əqdlər olmamışdan çox-çox əvvəl, qadın və kişi birliyi, mahiyyət etibarilə bu günkü ailəyə çox oxşar olan bir ittifaq – ailə səciyyəsini daşıyan insan birliyi mövcud olmuşdur. Ailə institutunun tərkibinə, strukturuna daxil olan ayrı-ayrı subyektlər – ər, arvad, uşaq və s. bunların hər biri fiziki şəxs statusuna, hüquqlara, azadlıqlara və vəzifələrə malikdirlər.

AR-nın Mülki Məcəlləsinin 24-cü maddəsinə görə fiziki şəxs dedikdə hüquq münasibətlərində öz adından iştirak edə bilən insan fərdi nəzərdə tutulur [96, s.12]. Müasir anlamda nikah iki fərdi fiziki şəxsin – kişinin və qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanlarında qeydə alınan könüllü ittifaqı, birliyi hesab edilir [73, s.6] və hüquqi şəxs elementlərini özündə ehtiva edir. Qanunun mənasına görə ailə iki fiziki və fərdi şəxsin, qadının və kişinin birliyinə əsaslanır və nikah yalnız müvafiq dövlət orqanlarında qeydə alındığı hallarda hüquqi nəticələr doğurur. Ailənin tərkibinə daxil olan iki fərdin və fiziki şəxsin – kişinin və qadının ailə qurmaq məqsədilə yaratdıqları ər-arvad ittifaqının – ailənin, bu gün hüquq münasibətlərinin subyekti olması faktı heç bir mübahisə doğurmur [588]. Bununla belə ailənin – kişinin və qadının könüllü birliyinə əsaslanan ailə birliyinin, həm də hüquqi şəxs olub-olmaması məsələsinə müəyyən yanaşmalar tələb edir. Belə ki, AR-sı Mülki Məcəllənin 43-cü

maddəsində göstərilən şərtlər – hüquqi şəxsin dövlət qeydiyyatı əsasında yaranması, ayrıca əmlakı olması, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək imkanlarına, müstəqil balansa sahib olması, məhkəmədə iddiaçı və cavabdeh kimi iştirak etməsi və digər bu kimi elementlər (bütün bu xüsusiyyətlər bu və ya digər dərəcədə ailədə də vardır) hüquqi şəxsin statusu üçün zəruri elementlər hesab olunduğundan, ailədə də buna oxşar elementləri görməmək mümkün deyildir. Kişinin və qadının nikaha daxil olmaqla, ailə ittifaqı yaratmasında əsas məqsəd fizioloji tələbatın təmin edilməsi ilə yanaşı, həm də ailə yaratmaqdır. Hüquqi şəxsin yaradılması isə daha çox insan birliyinin konkret fəaliyyətlə məşğul olmasına, nizamnaməsində və ya əsasnaməsində nəzərdə tutulan məqsəd və vəzifələrə çatmağı təmin edən təşkilat, idarə və müəssisə yaratmaq yolu ilə həyata keçirilir. Bu isə cəmiyyətin və insanın rifahına xidmət edir. Nikah mahiyyət etibarilə tərəflər üçün həm də mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitam edilməsinə yönəldilmiş ikitərəfli iradə ifadəsinin təcəssümü olan əqd hesab edilir. Tərəflər üçün hüquqlar və vəzifələr yaradır və yalnız o vaxt hüquqi nəticələr doğurur ki, o qanunvericiliklə müəyyən edilmiş qaydada dövlətin xüsusi orqanlarında qeydiyyata alınmış olsun. Ailə institutu fiziki şəxslərin könüllü birliyi olmaqla, həm də hüquqi şəxs elementlərini özündə ehtiva edir. Ər-arvad ittifaqı nizamnamə və ya əsasnamə əsasında yaradılmasa da, lakin bağlanılan nikah tərəflər üçün müəyyən hüquqi nəticələr doğurmaqla yanaşı, o həm də ailənin əsasını təşkil edir və bu birliyə, hüquqi şəxsə oxşar forma verir. Bu da onu göstərir ki, iki tərəfin – ərin və arvadın könüllü ittifaqını ehtiva edən ailə hüquq münasibətlərinin subyektidir [588]. Buna görə də hüquqi və fiziki şəxslərə aid olan hüquqlar, vəzifələr və öhdəliklər bütünlüklə, həm də ailəyə şamil edilə bilər. Buna görə də AR Mülki Məcəlləsinin «Mülki hüquq münasibətlərinin subyektləri» adlanan 5.1 maddəsində «ola bilər» sözündən sonra aşağıdakı məzmunda əlavə edilməsi təkli edilir:

«Ailə mülki hüquq münasibətlərinin subyektidir».

Ailə münasibətlərində mühim boşluqlardan biri də AR-nın Ailə Məcəlləsində, Mülki Məcəllədə, «Əmək pensiyaları haqqında», «Ünvanlı dövlət sosial yardımı haqqında» və bir sıra digər məcəllələrdə və qanunvericilik aktlarında tez-tez işlədilən «ailə başçısı» termininə aydınlıq gətirilməməsidir [9; 17; 174; 278]. Halbuki, ailənin konstitusiya hüquqi statusunun müəyyən edilməsi üçün bu terminin başlıca meyarlarının müəyyən edilməsi və ona müvafiq definisiyanın verilməsi vacibdir. Bu, həm də ailə idarəçiliyinin mükəmməl həyata keçirilməsi üçün zəruridir.

AR Konstitusiyasının və Ailə Məcəlləsinin tələbinə görə ailə münasibətlərində ərin və arvadın hüquq bərabərliyi ilə yanaşı, həmdə ailə qarşısında duran vəzifələrin və öhdəliklərin yerinə yetirilməsində onlar bərabər məsuliyyət daşıyırlar. Ailə idarəçiliyinin həyata keçirilməsini, bir qayda olaraq «ailə başçısı» hesab edilən subyekt reallaşdırır. Hüquq ədəbiyyatında bu termin qədim dövrlərdən başlayaraq «ata hakimiyyəti» ifadəsi ilə sinonim kimi işlədilmiş, istifadə edilmişdir. Məsələn, Aristotel «Politika» əsərində göstərmişdir ki, ərin arvad üzərində hakimiyyətini, siyasi xadimin hakimiyyətini, atanın uşaq və ailə üzərindəki hakimiyyətini, çarın hakimiyyəti ilə müqayisə etmək olar. Axı, kişi təbiətcə, anormal hallar istisna edilməklə, qədimdən daha çox rəhbər olmaq üçün yaranmışdır [36, s.51].
Qədim Roma hüququnda- ***Corpus iuris civilis də*** valideynik hüququ kimi işlədilən termin «ata hakimiyyəti», «valideynlik hakimiyyəti», «valideynlik hüququ», «ailə başçısı» və s. bu kimi mənaları ifadə edirdi.

Dövlətin yaranması haqqında bəzi təlimlərdə, dövlət böyük ailə hesab edilir və ailənin inkişafının nəticəsi kimi təqdim edilir. Buna görədə ailəni dövlətə bənzətməklə, belə məntiqi nəticə çıxarılır ki, hər bir dövlətin başçısı olduğu kimi, hər bir ailənin də öz başçısı olmalıdır. Ərin və arvadın hüquqlarının bərabərliyi konteksində müasir ailənin başçısının kim olması məsələsinin tədqiqi aktuallaşmışdır. Tarixən Azərbaycan ailəsində ənənəvi olaraq «ailə başçısı» dedikdə,

həmişə, bir qayda olaraq ər, kişi başa düşülmüşdür. Məsələn, AR-nın Mülki Məcəlləsinin 1121 maddəsində göstərilir ki, ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxsə, zərərin əvəzinin ödənilməsi hüququ şəxsin ölümündən sonra doğulmuş uşağa da şamil edilir [97, s.611]. Doğumun bir fəaliyyət kimi istisnasız olaraq qadına aid olması, «ailə başçısı» dedikdə, kişinin, ərin nəzərdə tutulması mənasını ifadə edir. Belə münasibət Mülki Məcəllənin, Ailə Məcəlləsinin və digər çoxsaylı normativ-hüquqi aktlarda da öz təsbitini tapmışdır. Bu baxımdan Azərbaycanın ailə modelində ailə başçısı dedikdə, çox vaxt kişinin, ərin nəzərdə tutulması hamı tərəfindən qəbul edilir. Buna baxmayaraq, ərin öldüyü, yaxud ailələrin dağıldığı bir sıra hallar vardır ki, ailə təsərrüfatının başçısının qadın olması da istisna edilmir. Təsadüfi deyildir ki, fərdi kəndli təsərrüfatlarının uçotuna dair aparılan statistik hesabatlarda ailə başçısının və ya ailə təsərrüfatına rəhbərlik edən şəxslərin bir hissəsinin qadın olmasına dair çoxsaylı məlumatlar vardır. AR Statistika Komitəsinin 2015-2016-cı illərə dair demoqrafik və gender yönümlü məlumatlarından aydın olur ki, ölkədə uçotda olan bir uşaqlı ev təsərrüfatlarının 36,7%-inə, iki uşaqlı ev təsərrüfatlarının 37,1%-inə, üç uşaqlı ev təsərrüfatlarının 18,3%-inə, dörd uşaqlı ev təsərrüfatlarının isə 7,9%-inə məhz qadınlar rəhbərlik edirlər [60, s.18-71]. Başqa sözlə, qadın ailə təsərrüfatının başçısı statusunda çıxış edir. Fərdi və yaxud bir ailədə yaşayan, təsərrüfat idarə edən və həyat üçün zəruri olan tələbatların ödənilməsi məqsədilə birləşmiş insanlar qrupu ev təsərrüfatının və ya buna müvafiq olaraq işlədilən «ailə təsərrüfatı»nın əsas məqsədini təmin edir. AR Ailə Məcəlləsinin 31.3 maddəsi ailə kəndli təsərrüfatı üzvlərinin birgə mülkiyyəti üzərində ər-arvadın istifadə, sahiblik və sərəncam hüquqlarını tanıyır. ABŞ-da ailə biznesinin 30%-dən çoxuna qadınlar rəhbərlik edirlər. Azərbaycanda da son illər ailə sahibkarlığının, qadın sahibkarlığının, ailə-fermer təsərrüfatlarının inkişafı üçün zəruri normativ-hüquqi aktlar hazırlanmış və bu proses sürətlə inkişaf etməkdədir. «Ailə başçısı» ailə və ya ev təsərrüfatının rəhbəri, əslində hüquqi şəxs kimi qəbul edilən ailə təsisatının başçısı və ya rəhbəri hesab edilir. Bu baxımdan ailəni hüquqi şəxs olaraq qəbul edən

müəlliflərin mövqeyi tamamilə haqlıdır. Sovet dövrünə qədər də ailə həmişə hüquq münasibətlərinin subyekti və hüuqi şəxs kimi qəbul edilmişdir.

Vaxtilə bolşevik ideoloqu, marksist Pyotur Stuckanın mövqeyi bu səbəbdən maraqlıdır. O, ailənin hüquqi şəxs – sosializmə qədərki, burjua formasiyalarında «hüquqi subyekt» kimi tanıyaraq, «proletar» ailəsinə xüsusi mülkiyyəti təmsil etməyən bir subyekt kimi, bu məziyyətləri şamil eləmir, ona görə də o, yəni ailə, hüquqi şəxs kimi funksiyalarını itirmiş olur. Lakin bu gün, ailə subyekt olaraq artıq geniş, xüsusi mülkiyyətə sahibi olduğu və sahibkarlıq fəaliyyətini həyata keçirdiyi üçün, bu cür yanaşmaya yenidən baxılmasına zərurət yaranmışdır [537]. Öz əsərlərində Hegel ailənində hüquqi şəxs hesab edilməli olması nəticəsinə gəlmişdir [163, s.207-228].

Mənəvi-əxlaqi və milli ənənələr baxımından ərin ailənin başçısı kimi qəbul edilməsi, Azərbaycanın ailə modelində üstün mövqe tutur. Sosioloji sorğular da bu mövqeyin əsaslı olduğunu tam təsdiq edir. Lakin, məsələnin hüquqi baxımdan tənzimlənməsi məsələsi indiyə qədər tam təmin edilməmişdir. Təcrübədə ailəyə bir qayda olaraq «ailə başçısı» – kişi, ər rəhbərlik edir. Yalnız ailə dağıldıqda, ər vəfat etdikdə və digər hallarda – ailə təsərrüfatına rəhbərlik, başçılıq ya anaya, qadına, ya da əgər ailənin 18 yaşı tamam olmuş yetkin, böyük oğlu vardırsa, bu funksiyanın ona keçməsi mümkündür. Təcrübədə ailə başçısının ailənin yaşlı üzvü – qaynata, böyük qayın və s. subyektlər tərəfindən həyata keçirilməsi hallarına da təsadüf edilir. Hüquq ədəbiyyatında «valideynlik hüququ», «valideynlik hakimiyyəti», «ata hakimiyyəti» terminlərindən istifadə ediməsinə dair faktlar vardır. Məsələn, Fransanın 1804-cü il Mülki Məcəlləsində «valideynlik hakimiyyəti» terminindən istifadə edilmişdir. Fransanın hazırki Mülki Məcəlləsinin 373-cü maddəsində, İtaliyanın, ABŞ-ın, İspaniyanın, Argentinanın, Polşanın və bir sıra başqa ölkələrin mülki məcəllələrində «valideynlik hakimiyyəti» terminindən istifadə edilmişdir. Atanın ailə başçısı kimi qəbul edilməsi, hətta bəzi ölkələrin mülki məcəllələrində belə təsbit edilmişdir. Məsələn, «Valideyn hakimiyyəti» institutu Polşa Respublikasında 25 fevral 1964-cü ildə qə-

bul edilmiş «Ailə və Qəyyumluq Məcəlləsi»nə də daxil edilmişdir. Polşa Respublikasının məhkəmə təcrübəsi göstərir ki, «valideyn hakimiyyəti» institutunun tətbiq edilməsi məhkəmələrin işini bir qədər asanlaşdırmışdır. Buna baxmayaraq, məsələn, professor E.M.Vorejeykin hesab edir ki, belə yanaşma qadınların ləyaqətini aşağı salar, ailədə və cəmiyyətdə qadın və kişinin faktiki bərabərsizliyinə şərait yaradar və onu qanuniləşdirmiş olar. Buna görə də müəllif atanın, ərin «ailə başçısı» hesab etməyi məqbul hesab etmir. Müəllif öz mövqeyini, ər-arvadın bərabərlik prinsipi ilə əsaslandırır. Fikrimizcə E.M.Vorojeykinin mövqeyini ədalətli hesab etmək olmaz. Çünki «ailə başçısı» terminindən istifadə edilməsi, heç də qadınların ləyaqətini aşağı salmır, əksinə onların fəaliyyətinin özlərinə və uşaqlarına sərf etməyə imkan yaradır. Məsələyə belə yanaşmaya başqa müəlliflərin əsərlərində də rast gəlmək mümkündür. Həmişə olduğu kimi bu gün də uşaqla, ailə ilə bağlı qayğının çox hissəsi ananın, qadının çiyinlərinə düşür. Anaları belə qayğıdan müəyyən qədər azad etmək üçün artıq qanunda müvafiq dəyişiklik etməyin vaxtı çatmışdır. Çünki məhkəmə təcrübəsi göstərir ki, boşanmalar vaxtı qadınlar ailənin maddi təminatı və uşaqların böyüdülməsi məsələlərində əksər tələbləri kişilərə qarşı yönəldirlər. Məhz bu tələblərin yerinə yetirilməməsi üzündən, qadınlar boşanma üçün məhkəmələrə müraciət edirlər. Azərbaycanın milli adət-ənənələrinə görə kişi, ər təcrübədə, real olaraq «ailənin başçısı», onun rəhbəri funksiyasını yerinə yetirir və çox vaxt da ailə başçısı kimi qəbul edilir. Qadın və kişi bərabərhüquqlu olsalar da, əslində ananın ailə başçısı olması təcrübədə qeyri-real görünür. Bu cəmiyyətdə, ailədə kişilik, atalıq əzəmətini aşağı salmış olar [137, s.29-38]. Digər tərəfdən güclü cins hesab edilən kişinin ailə başçısı kimi qəbul edilməsi ilə, ailənin xanımının hüquqlarının məhdudlaşdırması nəticəsinə gəlmək, ən azı sadəlövlükdür. Təsadüfi deyildir ki, müdrik şəxslərin çoxu ailəni idarə etməyi, dövləti idarə etməklə müqayisə edib, ailəni idarə etməyi, ölkəni idarə etmək qədər çətin və məsuliyyətli olması nəticəsinə gəlmişlər. Bu mənada Aristotel haqlı olaraq yazır ki, kişi öz təbiəti etibarı ilə, qadına nisbətən rəhbərliyə daha çox meyllidir. Yaşlı adamın gənc adama nisbətən daha yaxşı

rəhbərlik etməsi mübahisə doğurmur. Bu mənada o qeyd edir ki, hər bir ailə dövlətin bir hissəsidir. Ayrı-ayrı hissələrin mənəvi məziyyətləri tam məziyyətlərə uyğun gəlməlidir [318, s.378].

Beləliklə, yuxarıda şərh edilənləri yekunlaşdıraraq belə hesab edirik ki, Ailə Məcəlləsinə aşağıdakı məzmunda yeni 6 c maddəsi əlavə edilməlidir:

«Maddə 6 c. Ailə başçısı – AR-nın Ailə Məcəlləsinə müvafiq olaraq, kişi və qadın tərəfindən ailə qurmaq məqsədi ilə yaradılmış və müvafiq orqanlarda qeydə alınmış insan birliyi olaraq ailənin hüquqlarının, azadlıqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini həyat yoldaşı ilə birlikdə təşkil və təmin edən, ailə idarəçiliyinə rəhbərlik edən ər, ailənin başçısı hesab olunur.

Tərəflərin qarşılıqlı razılığı əsasında, ailənin dağılması və ya ərin vəfatı nəticəsində olmayan ailə başçısı funksiyasını arvad həyata keçirir və o ailə başçısı statusunu alır».

Ailənin məişət və ümumi təsərrüfat birliyinin və özünəməxsus münasibətlər sisteminin əsasında, ailənin və ailə üzvlərinin hüquqları, vəzifələri və qarşılıqlı məsuliyyəti – cavabdehliyi məcmu etibarilə qarşılıqlı olaraq ailəni səciyyələndirən, onun statusunu müəyyən edən elementlər sistemi dayanır. Müasir ailəni hüquqi baxımdan səciyyələndirən definisiyanın mühim tərkib elementi kimi nəzərdə tutulan «nikah» əqdinin, ailə münasibətlərinin rəsmiləşdirilməsində mühim əhəmiyyəti vardır. Nikah əqdinə kişinin və qadının ailə qurmaq niyyəti ilə yaratdıqları birliyin, ittifaqın, müvafiq dövlət orqanlarında qeydinə və buna müvafiq olaraq rəsmi sənədin – şəhadətnamənin verilməsi ilə tamamlanan kompleks fəaliyyət kimi baxmaq olar. Bu, bir hüquqi əqd olaraq, tərəflər üçün qanunvericilikdə nəzərdə tutulmuş müəyyən hüquqlar, vəzifələr, öhdəliklər yaradır və hüquqi nəticələr doğurur. Son illər qanunvericilikdə nikah müqavilələrinin bağlanması və tətbiqi barədə tənzimləmələrin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi, mahiyyət etibarilə bu kateqoriyadan olan əqdlərin yeni bir forması kimi qiymətləndirilə bilər. Bu baxımdan ailə və ailə münasibətlərinin hüquqi tənzimlənməsinin, vaxtaşırı olaraq yeni elementlər-

lə zənginləşməsi tamamilə əsaslı və təbii hesab olunmalıdır [75, s.35-38].

Bir çox parametrlərinə görə dövləti böyük ailəyə oxşatmaq da mümkündür. Bu da ondan irəli gəlir ki, cəmiyyətin, dövlətin, dinin və ailənin əsasında məhz insan dayanır. İnsanın yaranışı, inkişafı və mövcudluğu, məhz cəmiyyətlə, dövlətlə, dinlə və ailə ilə sıx bağlıdır. Buna görə də bu təsisatlar, institutlar biri-biri ilə qarşılıqlı əlaqədə və təsirdədirlər. Ailənin öz üzvləri və cəmiyyət qarşısındakı vəzifələri, funksiyaları olduqca geniş, əhatəli və əhəmiyyətlidir. Ailə - insan, cəmiyyət və dövlət üçün çox mühim dəyər təşkil edən təsisatdır. Məhz bu keyfiyyətləri ona dünyanın demokratik, hüquqi və dünyəvi meyarlara cavab verən bir çox konstitusiyalarında təsbit olunmağa mənəvi, sosial və hüquqi əsas verir. Ailə – bəşər cəmiyyətinin və dövlətin təbii və əsas özəyi hesab olunur. Ailə üzvləri arasında qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik kimi ənənəvi münasibətlər sistemi, onun daim möhkəmlənməsinə stimul verir. Maddi, mənəvi və əxlaqi dəyərlərin, vərdişlərin, gənc nəslin tərbiyəsi, şəxsiyyətin təşəkkülü və inkişafı ən çox ailələrdə baş verir. Ailə – əxlaqın, adət-ənənələrin, milli kimlik xüsusiyyətlərinin nəsildən-nəsilə ötürülməsində müstəsna və əvəzsiz rola malikdir. Ailə – cəmiyyətin əsas xüsusiyyətlərini özündə ehtiva etməklə, nikaha, qan qohumluğuna, məişət, birgə yaşayış və ailə təsərrüfatının birgə idarə edilməsinə əsaslanmaqla, ailəni və qohumluğu səciyyələndirən bitkin münasibətlər sistemidir. O cəmiyyətdə insanın, şəxsiyyətin davamlı olaraq yetişdirilməsini təmin edən, maddi və mənəvi istehsalın əsasında dayanan, biososial, iqtisadi, mənəvi və hüquqi qaydalara əsaslanan insan birliyidir. Tarixin müxtəlif inkişaf mərhələlərində baş verən bütün ictimai-iqtisadi, siyasi, mənəvi, sosial və mədəni dəyişikliklər, ailədə və onun məişətində öz əksini tapır. Ailə və ailə üzvləri cəmiyyətdə və ictimai-siyasi həyatda maddi nemətlər istehsalının əsas yaradıcısı, istehsalçısı və həm də istehlakçısıdır. Ailə – sosiomədəni və biososial fenomendir, cəmiyyətin ictimai əsasını təşkil edən, onun maddi-mənəvi və iqtisadi yüksəlişini təmin edən sosial-siyasi və hüquq institutudur. Ailə – cəmiyyətdə və dövlət həyatında inkişafı və tərəqqini tə-

min edən elə insan birliyidir ki, onun alternativi yoxdur. Ailə həyatın özü, cəmiyyətin və dövlətin maddi və mənəvi əsasıdır. Ailənin struktur elementləri quruluşu, forması, tərkibi, məqsədi və vəzifələri ən az dəyişikliyə məruz qalan təsisatlardan biri hesab olunur. Ailə insanlardan, cəmiyyət ailələrdən, dövlət isə cəmiyyətin formalaşdırdığı bütöv bir təsisatlar sistemindən yaranır. Platon insanı «mikro dövlət», «mikro kosmos», Konfutsi ailəni «miniatür cəmiyyət - dövlət» adlandırmışdır. J.J.Russo cəmiyyəti insanlara görə, insanları isə cəmiyyətə görə öyrənməyin son dərəcə vacib olduğunu əsaslandırmışdır. Əl-Fərabi insan orqanizmini cəmiyyətə, Tomas Hobbs, J.J.Russo insanı dövlətə oxşatmışdır. Buna görə də mütəfəkkirlər haqlı olaraq göstərirlər ki, ailə miniatür cəmiyyət olaraq, onun tamlığından və bütövlüyündən bütün insan cəmiyyətinin təhlükəsizliyi asılıdır. İnsan necədirsə, cəmiyyət də, dövlət də o cürdür, çünki dövlətin rüşeymi insan xarakterlərindən yoğrulmuşdur [260, s.406]. Ailə münasibətləri qohumluq əlaqələrinə və nikah münasibətlərinə əsaslanmaqla, ümumi təsərrüfatı birgə idarə edən, məşğulluq fəaliyyətini həyata keçirən, bir yerdə yaşayan, biri-birinə sıx bağlı olan ər və arvad ittifaqının, birliyinin təcəssümü və hüquqi ifadəsidir [157, s.19]. Tarixdə ailə formaları cəmiyyətin inkişafına uyğun olaraq zaman-zaman dəyişmişdir. Bunlara ibtidai ailə, qan qohumluğuna əsaslanan ailə, qrup nikahı – poliqamiya, poliandriya, ekzoqamiya, endoqamiya, qoşa nikah – monoqamiya və s. bu kimi çoxsaylı tipləri mövcud olmuşdur [160, s.5]. Müasir ailə münasibətlərində müşahidə edilən böhranın çox müxtəlif səbəbləri vardır. «Müasir ailənin böhranı» adlı əsərində Amerika sosioloqu P.Sorokin ailələrində baş verən böhranının və ailələrin dağılmasının əsas səbəblərini cəmiyyətdə baş verən ciddi demoqrafik, iqtisadi, siyasi, ideoloji, sosioloji proseslər, urbanizasiya, ər-arvad arasında psixoloji və davranış ziddiyyətlərinin gündən günə kəskinləşməsi, işsizlik, mənzil problemləri, dəyərlər sisteminin böhranı və onlarla digər səbəblərlə əlaqələndirmişdir. Bu faktorlar sırasında P.Sorokin cəmiyyətdə və ailələrdə dinin rolunun kifayət qədər aşağı düşməsi amilini xüsusi olaraq qeyd etmişdir [357, s.181-182]. Hazırda eyni proseslər Azərbaycanın ailə mühitində də müşahi-

də edilməkdədir. Bu baxımdan dini qayda-qanunların ailələrdə yaradıcı şəkildə və müasir baxımdan gözlənilməsi ailələrin bütövlüyünü və ailə daxilində dəyərlərin gözlənilməsinə əhəmiyyətli təsir göstərə bilər. Fransız yazıçısı O.Balzak haqlı olaraq yazır ki, əgər ailə quranlar – qız və oğlan nikah münasibətlərinə daxil olana qədər bir-birinin xasiyyətini, xüsusiyyətlərini, adətlərini və ənənələrini, vərdişlərini, davranışlarını, münasibətlərini yaxşı öyrənməmişdirlərsə, onların nikahının xoşbəxt olacağı ümidsiz görünür [326, s.552]. Ailənin yarandığı ilk illərdə tərəflərin bir-birinin bütün xüsusiyyətlərini yaxşı bilməsi, sevgi və məhəbbət hisslərinin səmimiliyi, ideallığı, ləyaqətə söykənməsi, güzəştə getmək bacarığı, yeni yaranmış ailəyə, ömrün sonuna qədər bir yerdə olmaq niyyəti ilə yanaşmaq və digər çoxsaylı amillər ailədə yaranacaq bütün problemlərin uğurlu həllinin əsasında dayanır. Ailə əsil sınaq meydanıdır [419, s.137-142; 420, s.70-75; 541, s.59-68; 549, s.31-41]. Cəmiyyətdə baş verən yeni-yeni proseslər, urbanizasiya, işsizlik, erkən nikah, xəstəlik, qan qohumluğu və digər bu kimi amillər ailələrin erkən dağılmasının mühim səbəbi kimi dəyərləndirilir. Bu baxımdan kişinin boşanma barədə iddialarının icraata qəbul edilməsində müəyyən məhdudiyyətlərin tətbiq edilməsinə zərurət yaranmışdır. Çünki kişinin təşəbbüsü ilə boşanmanın reallaşması faktiki olaraq ailənin başsız qalması ilə nəticələnir ki, bu da ağır nəticələrə səbəb olur. Bu baxımdan ailənin başçısı hesab olunan kişinin boşanma barədə iddia qaldırmaq hüququnun müəyyən şərtlər daxilində məhdudlaşdırılması qanunvericilik yolu ilə həll edilə bilər. Məsələn, uşaqlı ailələrin mənzil problemini tam həll etmədən, uşağın məktəb yaşına – 7 yaşa çatmadan kişinin boşanma barədə iddia qaldırmaq hüququ məhdudlaşdırılmalıdır. Bu da onunla əlaqədardır ki, uşaq 7 yaşa çatdıqda onun təhsil dövrü başlayır və müəyyən problemləri artıq həll edilmiş olur. Məktəbə gedişin 7 yaşdan başlanması təsadüfi deyildir. Psixoloqların apardıqları tədqiqatlar təsdiq edir ki, insanın düşüncə mərkəzinin, yaddaşının, xatirələrinin, rəftar və münasibətlərinin, ətrafda baş verənlərin ibtidai formada dərkolma mexanizmlərinin gələcək insanın davranış elementləri kimi əsası, bünövrəsi məhz 7 yaşa qədər olan dövrdə formalaşır və möhkəmlənmə prose-

si davam edir. İnsan orqanizminin və təfəkkürünün inkişafı əsasən 25 yaşa qədər davam etsə də, lakin qeyd edildiyi kimi dərketmə prosesinin ilk bünövrəsi 7 yaşa qədər qoyulur. Bu dövrdə qəddarlıq, zülm, əzab, qeyri-insani davranışa məruz qalmış uşaqlar, sonralar qəddar-zorakı cinayətləri asanlıqla törədirlər. Bütün bunlara görə də 7 yaşa qədər ailə başçısını – atanı itirmiş, ata qayğısından məhrum edilmiş uşaqların gələcək taleyi hər bir insanı, o cümlədən məhkəmələri dərindən düşündürməlidir. Uşağının 7 yaşı tamam olana qədər atanın boşanma barədə iddia qaldırmaq hüququnun qanunvericilik yolu ilə məhdudlaşdırılması bu baxımdan çox vacibdir. Beləliklə, Azərbaycan Respublikasınını Ailə Məcəlləsinin 15 maddəsinin aşağıdakı yeni redaksiyada verilməsini təklif edirəm:

«Maddə 15. Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması.

Ailədə ən kiçik uşağın 7 yaşı tamam olmadan, uşaqlı ailənin mənzil problemi həll edilmədən, habelə arvadın hamiləliyi dövründə ər, nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz».

Təklif edilən variantın qəbul edilməsi ailədaxili münaqişələrin və mübahisələrin tədricən həllinə, sülhün və barışığın əldə edilməsinə, tələsik və əsəb gərginliyi şəraitində atılan vaxtsız addımların bir daha nəzərdən keçirilməsinə, uşaqların taleyinə laqeyd qalmadan və ailəni qorumaq xatirinə sülhün əldə edilməsinə şərait yaratmış olar və ailənin bütövlüyünü qorunub saxlanılmasına xidmət edər. Bu baxımdan insan hüquqlarının təmin olunması amili əsas götürülərək məhkəmələr çox vaxt «sürətli» boşanmalara rəvac verirlər. Bu isə yolverilməzdir. Buna görə də Ailə Məcəlləsinin 19.1 maddəsində «pozulur» sözündən sonra aşağıdakı məzmunda cümlənin əlavə edilməsini təklif edirəm:

«Məhkəmə, nikahın pozulması barədə ər və ya arvadın ərizə verməsinin səbəblərini müəyyən etməyə, ər-arvadı barışdırmaq üçün mümkün olan bütün tədbirləri görməyə borcludur».

Yaxın qohumlar arasında evliliyin ciddi mənfi nəticələr doğurması və dünyanın bir çox ölkələrində qadağan edilməsi müsbət nəticələrə gətirib çıxarması nəzərə alınaraq, Ailə Məcəlləsinin nikahın

bağlanmasına mane olan halları tənzim edən 12-ci maddəsinə aşağıdakı yeni redaksiyada 12.0.1 bəndinin əlavə edilməsini zəruri hesab edirəm:

«12.0.1. qan qohumları, yaxın qohumlar (valideynlər və uşaqlar, baba, nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaşlar və bacılar)».

Ailənin, məişət birliyinin və özünəməxsus münasibətlər sisteminin əsasında, ailənin və ailə üzvlərinin hüquqları, vəzifələri və qarşılıqlı məsuliyyəti - cavabdehliyi, məcmu etibarilə qarşılıqlı olaraq ailəni səciyyələndirən başlıca hüquqi xüsusiyyətlər dayanır. AR Mülki-Prosessual Məcəlləsinin 307.2.3-cü maddəsi doğum və yaxud ölüm faktının müəyyən edilməsində müəyyən çətinliklər yaradır. Halbuki, məhkəmə təcrübəsində doğum və ölüm faktlarının müəyyən edilməsi ilə əlaqədar olaraq ərizələrə daha çox təsadüf edilir. Bütün bunlar nəzərə alınaraq Mülki-Prosessual Məcəllənin 307.2.3-cü maddəsinə əsasən, doğum və yaxud ölüm faktının məhkəmə qaydasında müəyyən edilməsinin təcrübi olaraq həyata keçirilməsi təmin edilməlidir. Eləcə də Mülki-Prosessual Məcəllədə nikah münasibətinin müəyyən edilməsi sahəsində təkmilləşdirmələrin aparılmasına zərurət vardır. Çünki nikah faktının məhkəmə yolu ilə tanınması mühim təcrübi əhəmiyyətə malikdir. Ölkəmizin müharibə vəziyyətində olması ilə əlaqədar olaraq məhkəmə təcrübəsində belə ərizələrə tez-tez təsadüf edilir. Buna görə də Mülki-Prosessual Məcəllənin 307.2.4-cü maddəsində göstərilən əsaslarla, nikah faktının məhkəmə qaydasında tanınması təmin edilməlidir [75].

Ailənin funksiyası əsasən sosial xarakter daşıyır. Belə funksiya ailənin fəallığının təzahür üsuludur. Belə ki, ailənin funksiyası bütövlükdə onun özünü və ailənin bütün digər üzvlərinin həyatı fəaliyyətinin təminat vasitəsi kimi çıxış edir. Ailənin adətən aşağıdakı başlıca funksiyaları fərqləndirilir: 1. reproduktiv funksiya; 2. tərbiyə funksiyası; 3. təsərrüfat (iqtisadi, rekreatision, sosial status və tibbi) funksiyası və s.

Reproduktiv funksiya cəmiyyət üzvlərinin – insan nəslinin bioloji təkrar istehsalı ilə bağlıdır. Əgər bir nəslin digəri ilə əvəz olun-

masının mütəşəkkil sistemi yoxdursa, deməli, mütəşəkkil cəmiyyət də mövcud ola bilməz. Ailə əhalinin artımını təmin edən başlıca və əsas vasitədir, onun alternativi yoxdur. O, cəmiyyətdəki digər təsisatlara da əhəmiyyətli təsir göstərən mühim bir vasitədir. Ailə insan nəslinin təkrar istehsal və yeni nəslin tərbiyəsi sahəsində geniş imkanlara malik olduğu üçün, özünün reproduktiv funksiyasını müəyyən həddə qədər məhdudlaşdırmağa üstünlük verir. Belə hal xüsusən də iri şəhərlərdə daha çox nəzərə çarpır. Sosioloqların fikrincə, əhalinin reproduktiv davranışının başlıca meyllərinin oxşarlığına baxmayaraq, bu sahədə ölkələr arasında bəzi fərqlər nəzərə çarpır. Məsələn, Rusiyadan fərqli olaraq Almaniyada bir uşaqlı ailələrin xüsusi çəkisinin artması meylli müşahidə edilir [345, s.199]. Biz bu meylin Rusiya və bir sıra digər Avropa ölkələri ilə müqayisədə, son vaxtlar Azərbaycanda da nəzərə çarpdığını deyə bilərik. Bu da bir həqiqətdir ki, keçmiş sovet dövrü ilə müqayisədə Azərbaycanda hazırda çoxuşaqlı ailələrin sayı nisbətən azalmışdır. Bunu isə, fikrimizcə, cəmiyyətdə baş verən münasibətlər sistemi ilə, xüsusilə yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar olaraq aztəminatlı ailələrin sayının müvəqqəti də olsa, artması ilə izah etmək olar. Reproduktiv funksiya ailənin digər funksiyası – tərbiyə funksiyası ilə sıx bağlıdır. Gənc nəslin sosiallaşması, toplanmış biliklərin, təcrübənin, yaşlı nəsillərin əxlaqi və digər dəyərlərinin ona verilməsi və varisliyin ötürülməsi ailənin tərbiyə funksiyası ilə əlaqəlidir. Yaşlıları əvəz edən yeni nəsilin sosial rollarının, yalnız sosiallaşma prosesində mənimsəməsi mümkündür. Ailə ilk sosiallaşma özəyidir. Valideynlər uşaqlara öz həyat təcrübələrini öyrədir, xasiyyətlərini aşılayır, peşə təlimi, peşə yönümü verir, nəzəri biliklərə yiyələnmələrinə kömək edir, şifahi və yazılı nitqə yiyələnməyin bünövrəsini qoyur, onların hərəkətlərinə və davranışlarına nəzarət edir. İctimai həyata dair ilk təsəvvür ailədə və yaxın əhatə dairəsində əldə olunur. Uşaqların tərbiyəsində, dini, əxlaqi, siyasi dünyagörüşün formalaşmasında, başqa sözlə sosiallaşmasına ilk təsir göstərən əsas təsisat kimi ailənin yeri və rolu əvəzsizdir. Ailə uşağın əxlaq, din, dövlət, hakimiyyət, siyasət, məktəb, təhsil və digər təsisatlar haqqında biliklərinin və təsəvvürlərinin formalaşması əsaslarının

təşəkkülündə və inkişafında başlıca rol oynayır. Beləliklə, uşağın müxtəlif sosial hadisələrin xarakterini və həqiqiliyin başa düşməsi məhz müasir valideynlik institutunun və onun tərkibində əsas rol oynayan atanın və ananın ümumi mədəniyyətinin səviyyəsi, ailədə bərqərar olan baxışlar və dünyagörüş sistemi ilə əlaqəlidir. Bir sözlə, ailə uşaqlarının sosiallaşmasının əsil mənbəyi və məkanıdır [119].

Ailənin təsərrüfat-iqtisadi funksiyası, necə deyərlər, təsərrüfatı ümumi qaydada birgə idarə etməsi ailə-məişət münasibətlərinin müxtəlif aspektlərini əhatə edir. Həmin aspektlərə əsasən aşağıdakılar aid edilir: a) ev təsərrüfatının nizama salınması; b) ailə büdcəsinin təşkili və ondan istifadənin müəyyən edilməsi; c) ev təsərrüfatı ilə bağlı vəzifələrin bölüşdürülməsi; ç) ailənin qoca və ya əlil üzvlərinə qayğı göstərilməsi və s. Ailə ilə bağlı problemlərin tədqiqi nəinki nəzəri və həm də böyük təcrübi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, boşanma hallarının artmasında ailənin və nikahın qeyri-sabitliyi təcrübəsi, yeni bir təzahür kimi bütün inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bu, urbanizasiyanın təsiri və onunla bağlı olan əhalinin miqrasiyası ilə, qadın azadlığı, elmi-texniki tərəqqi, sosial-iqtisadi, mədəni, etnik və dini xarakterli səbəblərin doğurduğu çoxsaylı amillərlə əlaqədardır. Bütün bu kontekstdə hazırda ailə institutu, ümumiyyətlə bəzi nisbi, lakin çətin məqamlarını yaşamaqdadır. Ailəyə kənardan sabitləşdirici təsir göstərən bir çox amillər tədricən öz təsirini itirməkdə və ya yeni mənfi təzahürlərlə əvəz olunmaqdadır. Qadının öz ərindən iqtisadi cəhətdən asılılığı, boşanma hüququnun sərbəstliyi, dini-əxlaqi baxımdan boşanmanın bir növ qadağan olunması, yaxud bunun pislənməsi və digər çoxsaylı müsbət təsir amilləri təəssüf ki, yavaş-yavaş aradan qalxmaqdadır. Müasir ailənin spesifik funksiyalarından biri də sosial status funksiyasıdır. O, ailə üzvlərinin müəyyən sosial statusu təsəvvürünə təsir göstərməklə, onun sosial struktunun təkrarlanmasını və təkrar istehsalını təmin edir. Buna isə, şəxsiyyət üçün əhəmiyyətli olan vətənpərvərlik, millətsevərlik, sosial vəziyyət, şəhər və ya kənd həyat tərzi və s. bu kimi amillər aid edilir [434, s.161]. Şübhəsiz ki, ailə uşağın, onun valideynlərinin və qohumlarının statusuna yaxın olan rol oynamağa hazırlıq statusunu reallaşdırmalıdır. Bu

məqsədlə ailə uşağa müəyyən maraq, dəyərlər aşılamaqla, onun həyat tərzini formalaşdırmağa üstünlük verməlidir [274]. Beləliklə də, nikahın konstitusiya-hüquqi statusunun təhlilini yekunlaşdıraraq, AR Konstitusiyasının 34-cü maddəsinin aşağıdakı yeni redaksiyada qəbul edilməsini təklif edirəm:

«Maddə 34. Nikah hüququ

I. Hər kəsin qanunla nəzərdə tutulmuş nikah yaşına çatdıqda ailə qurmaq hüququ vardır. Ailə nikah əqdi əsasında rəsmiləşdirilir. Qanunvericiliklə müyyən edilmiş yaş həddinə çatan, anlaqlı, sağlam, başqa nikahda olmayan, qanunvericiliklə müəyyən edilmiş qan qohumları istisna edilmək şərti ilə, qarşılıqlı məhəbbətə və hörmətə əsaslanan, maddi, mənəvi və fizioloji tələbatların ödənilməsinə, şəxsi əmlak hüquqlarının və vəzifələrin əmələ gəlməsinə, birgə yaşamaq və ailəni idarə etmək, övlada sahib olmaq, onları böyütmək, tərbiyə etmək və ailə qurmaq məqsədilə, qadının və kişinin azad iradəsini ifadə edən və könüllü razılığına əsaslanan, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən birlik, nikah hesab olunur. Dövlət kişinin və qadının nikah bağlayarkən, nikah vəziyyətində olarkən və nikahı pozılarkən ərlə-arvadın hüquqlarının və vəzifələrinin bərabərliyini təmin edən tədbirlər görür. Nikahın pozulması halında bütün uşaqlar üçün zəruri müdafiə tədbirləri nəzərdə tutulur.

II. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş uşaq hüquqlarının və azadlıqlarının qorunmasına dövlət tərəfindən təminat verilir.

IV. Ailə münasibətlərində və ailə idarəçiliyində ərin və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də vəzifəsidir.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar».

Müstəqillik illərində nikah hüququna dair tarixi inkişafı, formalaşmış ənənələri, beynəlxalq təcrübəni, nəzəri müddəaları, təmin edən ni-

kah hüququna dair təklif bu sahədə müvafiq boşluqları aradan qaldıracaq, ailənin hüquqi əsası kimi onun möhkəmliyini təmin edəcəkdir.

# III FƏSİL. AZƏRBAYCAN AİLƏSİNİN SOSİAL-SİYASİ VƏ HÜQUQİ MAHİYYƏTİ

## 3.1 Demokratik hüquqi dövlət quruculuğu kontekstində ailə-sosial dövlət münasibətlərinin konstitusiya və beynəlxalq hüquqi müqayisəsi

Sosial rifahın və sosial təminatın mükəmməlliyi müasir insanın və ailənin xoşbəxtliyi üçün son dərəcə vacib və mühim əhəmiyyətə malikdir. Bu mənada ölkəmizdə müstəqillik illərində demokratik, hüquqi, dünyəvi respublika quruculuğu sahəsində köklü tədbirlər həyata keçirilmiş, insanların və ailənin rifahına xidmət edən sosial dövlət təsisatlarının yaradılmasına və inkişafına əhəmiyyətli töhfələr verilmişdir [149, s.12-36]. Dövlət və hüquq nəzəriyyəsində, sosial hüquqi dövlət meyarlarının - yəni sosial ədalətin, sosial rifahın, sosial təhlükəsizliyin təmin olunması, sosial hüquqların məcmu şəkildə bərqərar edilməsi və bu meyarların həyata keçirilməsi önəmli hesab olunur [224, s.42-44]. Müstəqillik illərində ailə-dövlət münasibətləri kontekstində sosial-hüquqi tənzimlənmə sahəsində köklü islahatlar aparımış, ailənin, qadının, uşağın, xəstələrin, əlillərin, köməyə ehtiyacı olanların dövlət hesabına maddi rifahının və mənzil problemlərinin həlli önə çəkilmişdir. Bu zaman dünyanın ən qabaqcıl sosial sistemlərinin müsbət və vacib hesab edilən tətbiqi təcrübəsindən geniş istifadə edilmiş, uşaq baxçalarının, məktəblərin, qocalar və əlillər evlərinin, imkansız ailələrin mənzil problemlərinin həlli sahəsində ardıcıl və sistemli tədbilər həyata keçirilmişdir. Bu tədbirlər bu gündə intensiv olaraq davam etdirilməkdədir.

Mahiyət etibarı ilə sosial dövlət, tarixən formalaşmış rifah dövləti hesab olunur. Bunun əsası vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi, dövlət həyatında və idarəçilikdə demokratiyanın genişləndirilməsi və yerli özünüidarəetmənin ahəngdar inkişafının təmin edilməsi kimi elementlər əhatə olunur. Azərbaycan Res-

publikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə görə dövlətin ali məqsədlərindən biri «Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinə» yönəlmişdir. Bu baxımdan iqtisadiyyatın sosial yönümlü inkişafı, vətəndaşlarının layiqli həyat səviyyəsini təmin etmək məqsədini güdən dövlətin sosial siyasətinin əsasını təşkil edir və bu sahədə onun üzərinə müvafiq öhdəliklər qoyur.

«Sosial dövlət» ideyası ilk dəfə olaraq XIX əsrdə məşhur alman dövlətşünası və iqtisadçısı Lorens fon Şteyn tərəfindən irəli sürülmüşdür. O, belə hesab edir ki, dövlətçilik ideyasının başlıca mahiyyəti sosial dövlətdə bərabərliyin və azadlığın bərqərar olunmasından, kasıb təbəqənin maliyə vəziyyətinin varlılar səviyyəsinədək dirçəlməsindən ibarət olan vəziyyəti ifadə edir. O, yazırdı ki, dövlət cəmiyyətin bütün üzvləri üçün iqtisadi və ictimai tərəqqiyə nail olmalıdır. Belə ki, bir nəfərin inkişafı digərinin inkişafını şərtləndirir. Yalnız bu mənada ictimai və ya sosial dövlət anlamından söhbət gedə bilər. Hal-hazırda «sosial dövlət» ifadəsi 3 əsas səviyyədə tədqiq edilir: elmi səviyyədə-ideya və bu ideyanın inkişaf konspesiyası kimi;normativ səviyyədə – dövlətlərin əsas qanunlarında təsbit olunmuş konstitusion prinsip kimi; empirik səviyyədə-cəmiyyətin sosial problemlərinin həlli istiqamətində dövlət təsisatlarının praktik fəaliyyəti kimi.

İkinci Dünya müharibəsindən sonra «sosial dövlət» ideyasının inkişafında yeni mərhələ başlandı. İnsan hüquqları və azadlıqları ilə birbaşa məntiqi bağlılığı olan «sosial dövlət» prinsipi, böyük itkilərə məruz qalmış bir sıra Avropa dövlətlərinin konstitusiyalarında təsbit edilməyə başlanıldı. Məsələn, AFR Konstitusiyasının 20-ci maddəsində, Fransa Konstitusiyasının 1-ci maddəsində və İtaliya Konstitusiyasının 2-ci maddəsində «sosial dövlət» ifadəsi öz təsbitini tapmışdır.Cəmiyyət həyatında inkişafın əsas məqsədi və son nəticəsi soisal rifahın etibarlı müdafiəsini təmin etməlidir. Bu isə cəmiyyətdə və dövlət həyatında iqtisadi uğurların kifayət qədər yüksək olması ilə sıx bağlıdır. Buna görə də müstəqillik illərində əhalinin sosial rifahını yüksəltmək üçün sistemli və ardıcıl pensiya islahatları bunun təcəssümü idi. «Əmək pensiyaları» haqqında, «Sosial müavinətlər»

haqqında, «Sosial sığorta» haqqında, «Ünvanlı dövlət sosial yardımı» haqqında və s bu kimi qanunların qəbul edilməsi planlı şəkildə və ardıcıl olaraq həyata keçirilir. Eləcə də «2009-2015-ci illərdə Azərbaycan Respublikasında siğorta-pensiya islahatlarına dair» Dövlət Proqramı uğurlar həyata keçirildi. Bu da əhalinin həyat mənafeyinin təmin olunmasına yönəlmiş, konkret tədbirlər sistemini əhatə etmişdir. Sosial siyasətin əsas məqsədi insanların tələbatının və maraqlarının ödənilməsi üçün şərait yaratmaq, ayrı-ayrı vətəndaşlara, sosial qruplara yardım göstərmək, onların sosial müdafiəsini və reabilitasiyasını təşkil etməkdə ifadə olunurdu. Bütün təbəqə və qrupların maraqlarını nəzərə alan sosial siyasət, cəmiyyətin sabitliyinə, kollektiv həmrəyliyə, sosial gərginliyin aradan qaldırılmasına, ictimai əxlaqın humanistləşməsinə əlverişli sosial-psixoloji iqlimin formalaşmasına kömək etdi. Sosial siyasət dinamik şəkildə, insanların tələbat və maraqlarını həyata keçirməyə yönəlmiş fəaliyət sahəsi olmaqla eyni zamanda insanların sosial təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Bu zaman sosial müdafiənin təşkilində ailənin rolunun gücləndirilməsi və ailənin cavabdehlik hissinin artırılması vacibdir. Ailə insanların elə birliyidir ki, bu birlik qohumluq, doğmalıq, təmmənasızlıq münasibətlərinə və təsərrüfatın birgə idarə olunması prinsipinə söykənir. Valideynlər öz övladları,yetkinlik yaşına çatmış övladlar isə valideynləri qarşısında qarşılıqlı öhdəliklər daşıyırlar. Buna görə də hər bir insan dünyaya uşaq gətirərkən onun məsuliyyətini dərk etməli, yalnız imkan çərçivəsində övladlarının doğulmasını arzu etməlidir. Təsadüfü deyil ki, yeni doğulmuş uşaqların cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi yetişməsində ailənin və məktəbin mühim rolu vardır. Alman filosofu İ.Kant elə buna görə də «iki insan ixtirasını-idarəetmə və tərbiyə etmək sənətini, ən çətin sənət hesab edirdi» O, qeyd edirdi ki, Valideynlər ailənin, hökmdarlar dövlətin qayğısını çəkməyə borcludurlar.

BƏT-in Nizamnaməsinin mühim bir hissəsi olan 1944-cü il Filadelfiya Bəyannaməsində «sosial təminat» terminınə mükəmməl elmi anlayış verilmişdir. Orada göstərilmişdir ki, «sosial təminat» – xalqın yoxsulluq, işsizlik, qocalıq, əlillik, ölüm səbəbləri, qismən və

ya tamamilə düşəcəyi çətin maddi vəziyyətlərə qarşı, ailədə uşağın sayının artırılması və ya azalması ilə bağlı dövlət tərəfindən həyata keçirilən mükəmməl tədbirlər sisteminnin məcmusundan ibarətdir [291, s.276-277]. Ailə – cəmiyyətin əsas nüvəsi hesab olunan kiçik sosial qrup, şəxsi məişəti təşkil etməyin mühim forması hesab edilir. Bu ər-arvadlıq ittifaqına və qohumluq əlaqələrinə, bir yerdə yaşayan və ümumi ailə təsərrüfatını birgə idarə edən valideynlər və uşaqlar, qardaşlar və bacılar, digər yaxın qohumlar arasındakı çoxtərəfli münasibətlərə əsaslanan birlik, icma kimi səciyyəvi xüsusiyyətləri ehtiva edir. Ailə, bir institut olaraq, sosiologiya və hüquq elmlərinin tədqiqat obyektlərindən biri hesab olunur. İki məşhur Avropa sosioloqları Q.Rilz və F. Le Ple ailənin strukturuna urbanizasiya, təhsil və din kimi sosial amillərin təsirinin müqayisəli empirik tədqiqatlarını aparmış, bütün bunların ailənin quruluşuna, ailə üzvləri arasında rol bölgüsünə və ailənin möhkəmliyinə əhəmiyyətli təsir göstərməsi nəticəsinə gəlmişlər [261, s.7-51; 273, s.211; 274, s.281-290]. Son dərəcə unikal, nadir bir institut, sosial təsisat olmaqla ailə cəmiyyətin, dinin və dövlətin aktual problemlərinin tədqiqi üçün vacib və əhəmiyyətlidir. Tədqiqat zamanı müxtəlif sosial və ailə situasiyalarında, ailə üzvlərinin rollarına, qarşılıqlı münasibətlərinə, cəmiyyətdə gedən proseslərin ailəyə təsirinin, ailə böhranının səbəblərinin öyrənilməsinə, ailə həyatının təşkilinə, formalaşdırılmasına və inkişafına, ailədə sabitliyin və uzunömürlülüyün əsasında dayanan əsas amillərin tədqiqinə, onların yerinə, roluna və təsirinə xüsusi diqqət yetirilmişdir [274, s.281-290].

Müasir dünyada milli Konstitusiyalar və qanunlar sosial subyektlərin davranış ölçüsünü, onların hüquq və vəzifələrinin həcmini və dövlət tənzimlənməsinin əsas meyarlarını müəyyən edir. Bu normalar təsisedici, səlahiyyətverici, hüquq mühafizəedici, nizamlayıcı, sistemyaradıcı, definitiv və prinsip müəyyənedici, sosial-normativ oriyentasiya funksiyaları daşımaqla, ali hüquqi qüvvəyə, özünəməxsus realizə mexanizmlərinə malikdirlər. Konstitusiya normaları hüquq sistemini, onun beynəlxalq hüququn imperativ normalarına uyğunluğunu və beynəlxalq hüquq normalarının milli hüquq sisteminə

implementasiya qaydasını göstərir. Konstitusiya insanın, vətəndaşın və şəxsiyyətin statusunu xalq hakimiyyəti və demokratik ünsürlər baxımından ümumi və universal şəkildə təsbit edir. Hüquq elmlərinin ən əsas mənbəyi və tədqiqat obyekti, ölkənin ana qanunu – Konstitusiyası hesab olunur, xalqın, dövlətin həyatı və taleyi ilə bağlı bütün fundamental ictimai münasibətlər və dəyərlər məhz onda təsbit edilir. Beynəlxalq hüquq normaları isə ölkəmizin milli hüquq sisteminin tərkib hissəsi hesab olunur və onun standartlarının gözlənilməsi mümkün qədər təmin edilir [130; 155; 227; 248; 264; 272].

AR vətəndaşlarının sosial rifahının təmin edilməsi üçün mülkiyyətin və mülkiyyət münasibətlərinin böyük rolu vardır. Buna görə də vətəndaşlarımızın mülkiyyət hüququ konstitusiyamızda təsbit edilmiş və onun qorunması üçün mükəmməl müdafiə mexanizmləri müəyyən edilmişdir. Hər bir ailənin mülkiyyətində daşınar və daşınmaz əmlak olması məqbul hesab edilmişdir. Bu isə hər şeydən əvvəl ev, bağ, mənzil, təsərrüfat həyatı, yardımçı sahələr, avtomobil, məişət əşyaları və digər maddi nemətlər və dəyərlər sistemini əhatə edir. Mülkiyyət hüququ [183, s.26-31] ailə başçısının və ya ümumiyyətlə ailənin əmlaka sahib olmaq, ondan istifadə etmək və onun üzərində sərəncam vermək hüququ kimi elementləri əhatə edir. Ailənin iqtisadi büdcəsi yüksək olduqca, onun rifahı və sosial tərəqqisi mütənasib qaydada inkişaf edir. AR-nın Konstitusiyası ölkəmizdə sosial dövlət olaraq, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsini AR-nın ali və son məqsədi olduğunu bəyan etmişdir [85, s.9]. Konstitusiyamızın Preambula hissəsində ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətimizin perspektiv inkişaf hədəflərindən biri hesab olunur. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır [85, s.10]. Konstitusiyaya görə mülkiyyətdən, insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz [85, s.10].

Məlumdur ki, ailənin, cəmiyyətin və şəxsiyyətin tarixi inkişafında dövlətin müstəsna yeri və rolu olmuşdur. Dövlət cəmiyyətin si-

yasi və hüquqi təşkilatı olmaqla, qədim tarixi köklərə malikdir. Lakin bütün zamanlarda o cəmiyyətdə daha çox nizamlayıcı, təşkilati və idarəetmə funksiyalarını yerinə yetirmişdir [200, s.187-240]. Dövlətin ən mühim xüsusiyyəti, onda hakimiyyət gücünün və idarəçilik funksiyasının olması ilə bağlıdır… [555, s.135-136]. O öz xarici simasında və ölkədaxili fəaliyyətdə sosial və siyasi mahiyyətini daha çox təcəssüm etdirir. Müəlliflərdən V.N.Xropanyukun mövqeyinə görə, dövlət cəmiyyətin elə vahid siyasi və suveren təşkilatıdır ki, o, öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə bərabər şamil edir, bunun üçün xüsusi idarəetmə aparatına sahibdir, hamı üçün ümumi və icrası məcburi olan göstərişlər verir [182, s.31-32]. Cəmiyyətin və insan fəaliyyətinin inkişafının nəticəsi olaraq yaranan dövlət, mahiyyət etibarilə və nəzəri baxımdan, sanki insanların müəyyən funksiyalarını davam etdirir və onları həyata keçirir. İnsan, vətəndaş statusunda dövlətin funksiyalarının realizəsini təmin edir. Cəmiyyətin təşəkkülündə və inkişafında insanın müstəsna rolu, əvəzsiz xidmətləri olmuşdur. Yaşadığımız yer planeti insan dediyimiz varlığın əqli və zəhməti hesabına bu günki yüksək inkişaf mərhələsinə gəlib çatmış və böyük təkamül yolu keçmişdir. Bütün canlıların ən ağıllısı və müdriki olan insan, əslində bütün maddi nemətlərin istehsalçısı, qlobal mənada yaşadığımız bəşəriyyətin bu günki təşəkkülündə, təkamülündə və inkişafında müstəsna rolu olan ağıllı bir varlıqdır. Elə buna görə də elmi fəaliyyətin əsasında, bir qayda olaraq insanın və cəmiyyətin dərindən öyrənilməsinə olan tələbat dayanır. Daim dinamik inkişafda olan və ardıcıl surətdə sadədən mürəkkəbə, ibtidaidən ailəyə doğru inkişaf yolu keçmiş ailənin tarixinin, təkamül yolunun, cəmiyyətlə və dövlətlə üzvi surətdə, əlaqəli şəkildə öyrənilməsi çox vacib və əhəmiyyətlidir [233, s.79-96; 272]. Müasir dünyada artıq insan və dövlət, dövlət və insan münasibətlərinin qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsi ənənəsi güclənməkdə və genişlənməkdədir. Bu da özünü daha çox onun demokratik, hüquqi və sosial dövlət yönümlü inkişafına istiqamət götürməsində təcəssüm edir. Bütöv dövlət özündə ağıl, ruh və istəkləri – maddi ehtiyacları ehtiva edən, canlı insan vücuduna, insan varlığına oxşadılır [285, s.8]. Dövlət cə-

miyyətin inkişafına məqsədəuyğun yönüm verir, onun bütövlüyünü, qayda və qanuna əməl olunmasını təmin edir və bu mənada o daha çox insanların ərazi təşkilatı hesab olunur. Burada birinci olaraq qohum, qəbilə, qan bağlılığı ilə birləşən insanların biri-birinə olan qarşılıqlı əlaqələri tədricən aradan götürülür və onu sırf ictimai əlaqələr əvəz edir. Müxtəlif insanların milli, dini və sosial əlamətlərinə görə neytral strukturları yaranır. Dövlət, vətəndaş institutu olaraq insanları hüquqi yolla özündə birləşdirir, ona nizam verir, insanların bütün həyat fəaliyyətinin, tələbatlarının, maraqlarının və məqsədlərinin ifadəsini əks etdirir, onun təmsilçisi rolunda çıxış edir, müxtəlif strukturlar və mexanizmlər yaratmaq vasitəsilə ümumi iradənin təsbiti üsuluna çevrilir və nəticə etibarı ilə insanları bütöv bir cəmiyyət halında birləşdirir [272].

T.Hobbs insanı təbiətin mürəkkəb bədən və sosial bədən quruluşu olan varlıq kimi səciyyələndirir. İnsanların müdafiəsi və mühafizəsi cəmiyyətin idarə olunması üçün dövlət strukturları yaradılır. Böyük mütəfəkkirin fikrinə görə, təbiət və cəmiyyətdə hər şey, sadəcə olaraq mexaniki qanunlarla hərəkət edir. O, insan orqanizmini və dövləti işləyən mükəmməl bir saat mexanizminə bənzədir. Hegel isə hakimiyyətin mahiyyətini təhlil edərək göstərirdi ki, hakimiyyət instinkti insanların əməlinin, psixologiyasının, əxlaq, hüquq, ideologiya, din və digər münasibətlərinin və siyasi hərəkətlərinin təməlində dayanır [163, s.72-79]. Hegel hakimiyyətə, ailə, cəmiyyət və dövlət arasında təbii əlaqə kimi baxırdı. Bu əlaqəni o hakimiyyətin maddi maraqla əlaqəsi, maraqları isə ailə, cəmiyyət və dövlət arasında, habelə fərdlər arasında olan münasibətlərin xüsusiyyəti kimi səciyyələndirirdi. O, dövləti – xalqın atası, hakimiyyət və idarəetmə aparatının fəaliyyətini isə, bu atalığın təcəssümü hesab edirdi [451, s.150-151]. Hakimiyyət, insanlar arasında ümumi institutlar vasitəsilə qarşılıqlı əlaqədə olur. Nəticədə hər bir şəxsiyyət öz maddi, sosial, intellektual, informasiya və s. amillər üzündən, başqasının tələblərinə uyğun olaraq, bu və ya başqa əməli və ya hərəkəti etməklə öz həyatını qurur, tələbatlarını təmin edir [272]. Hakimiyyət insanlar tərəfindən və insanlar üçün yaradılan mürəkkəb ictimai münasibətlər sistemini

əhatə edir. O iqtisadi, ideoloji və təşkilati-hüquqi mexanizmlər vasitəsilə insanların, sosial qrupların, ailənin, dinin, siniflərin fəaliyyətinə və davranışına təsir imkanları ilə xarakterizə edirlər, sosial münasibətlər forması hesab olunur [571, s.40]. Buna görə də hakimiyyət insan birliklərinin baza xüsusiyyətlərini müəyyən edir. Bu baxımdan hər hansı bir cəmiyyəti və dövləti hakimiyyətsiz təsəvvür etmək olmaz. Bu fenomenə insanın həyat fəaliyyətində bu və ya başqa formalarda rast gəlinir [272]. Bu da onunla bağlıdır ki, dövlət hakimiyyəti bütün iştirakçıları vahid iradəyə tabe etmək yolu ilə bütün sahələrdə ictimai istehsalın təşkilini təmin edir, insanlar arasındakı qarşılıqlı münasibətlərin nizamlanmasını hüquqi yolla həyata keçirir. Hakimiyyət dövlət fəaliyyətinin təşkilati vasitəsi olmaqla, onun funksiyasının bir hissəsini bilavasitə xalq, başqa hissəsini dövlət orqanları və institutları həyata keçirirlər [539, s.7, 14]. Müstəqillik illərində sosial inkişafa, xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onun sosial müdafiəsinə və layiqli həyat səviyyəsinin təmin edilməsinə xüsusi önəm verilmişdir. Bu da ailənin, qadınların və uşaqların hüquq və azadlıqlarının inkişafı və tərəqqisi ilə səciyyəvi olmuşdur. Ölkənin sosial yönümlü siyasəti ailə və sosial dövlət münasibətlərinin təkamülü ilə reallığa çevrilmişdir [131, s.13-20]. Yüksək iqtisadi inkişaf təmin edilmiş, mənəvi, dini, milli, sosial-iqtisadi və onların əsasını təşkil edən ailə münasibətlərinin, vətəndaş cəmiyyəti kontekstində, bəşəri dəyərlər əsasında inkişafına əhəmiyyətli töhfələr verilmişdir. Bu bir tərəfdən dövlət qayğısı, digər tərəfdən azad sahibkarlığın inkişafı, bazar münasibətlərinin ailələrin rifah halının yaxşılaşdırılmasına səfərbər edilməsi yolu ilə, yüksək inkişaf təmin edilmiş, anaların, uşaqların səhiyyə, təhsil, tərbiyə, mənzil, maddi təminat problemlərinin həllində uğurlu nailiyyətlər əldə edilmiş, xalqın və ailənin güzəranı, sosial təminatı intensiv olaraq yüksəldilmişdir. Ehtiyacı olan ailələrin mənzil və sosial problemlərinin həlli dövlətimizin gündəlik qayğısına çevrilmişdir. Ailənin sosial [361] rifahının yüksəlməsi, konstitusiya normalarının həyata keçirilməsi ilə öz hüquqi əsasını möhkəmləmdirmişdir. Nəticə etibarilə ölkəmiz sosial rifah dövləti olmaqla, insanın dövlətdən yaşayış minimumunu təmin etmək öhdəliyi,

normal yaşayış şəraitinin - mənzilin, səhiyyənin, təhsilin, sosial yardımların kompleks həyata keçirilməsi təmin olunmuş, sosial vergi siyasəti səmərəli nəticələr vermiş və bazar münasibətləri qiymət tənzimlənməsini ədalətli məcraya yönəltmişdir. Ölkədə ilk dəfə olaraq təhsil, elm, səhiyyə, sosial təminat, mənzil, mədəniyyət və s. haqqında mükəmməl qanunların hazırlanması, əhalinin sosial problemlərinin və mənəvi ehtiyaclarının ödənilməsinə hüquqi təminat yaradır. Yaşadığımız müasir dövr, müstəqil dövlətimiz ailənin və ailə üzvlərinin sosial rifahının gündən-günə yaxşılaşdırmasını prioritet istiqamət kimi seçmiş və bütün bunlar öz təsbitini beynəlxalq hüquq normalarına əsaslanmaqla ilk milli konstitusiyamızda tapmışdır [349, s.61-73; 363, s.40-49; 377, s.102-109; 404, s.34-41; 475, s.109-114].

Milli Konstitusiyamızda ölkədə demokratik, hüquqi, dünyəvi, unitar respublika qurulacağı, demokratik quruluşa təminat veriləcəyi, vətəndaş cəmiyyətinin bərqərar ediləcəyi, xalqın iradəsinin təcəssümü və ifadəsi olan qanunların aliliyinin təmin ediləcəyi, ümumbəşəri dəyərlərə sadiq olunacağı, ədalətli və sosial qaydalara müvafiq olaraq hamının layiqli həyat səviyyəsinin təmin ediləcəyi kimi bəşəri arzuların reallaşdırılmasını təntənəli şəkildə bəyan etmişdir. Bu da Azərbaycan xalqının öz müqəddaratını təyin etmək hüququnun və xalqın suverenliyinin real olaraq təmin edilməsi imkanlarının nəticəsi kimi qiymətləndirilə bilər. Gənc bir ölkənin hüquqi dövlət quracağı, hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normalarına əməl edəcəyi, müxtəlif mülkiyyət növlərinin və azad sahibklarlığın inkişafına əlverişli şərait yaratmaqla, hər bir vətəndaşın rifahının, sosial müdafiəsinin və layilqi həyat səviyyəsinin təmin edəcəyi barədə vədlər, ilk öncə real görünməsə də, lakin uzaqgörən, ardıcıl, sistemli, məqsədyönlü, siyasi kurs nəticəsində bütün vədlər uğurla yerinə yetirilmiş, ölkə əhalisinin, insanların və ailələrin rifahı inanılmaz dərəcədə yaxşılaşdırılmışdır. Belə iqtisadi uğurlar ölkədə hüquqi dövlət quruculuğu və demokratik təsisatların səmərəli fəaliyyəti nəticəsində mümkün olmuşdur. Elm, təhsil, səhiyyə, iqtisadiyyatın müxtəlif növlərinin uğurlu inkişafı, hüququn aliliyi, hakimiyyətin bölünməsi, hamının qanun qarşısında bərabərliyi, hüquq və azadlıqların üstünlüyünün tə-

min olunması, ölkədə insan və vətəndaşın hüquqlarının və azadlıqlarının real təminatı, şəxsin dövlət, dövlətin isə vətəndaş qarşısında məsuliyyəti, məhkəmə hakimiyyətinin müstəqilliyi, qanunverici və icraedici hakimiyyətin legitimliyi və demokratik əsaslarla formalaşması, vətəndaş cəmiyyətinin yüksəlişi kimi mühim prinsiplərə riayət olunması nəticəsində baş vermişdir [48; 75; 82; 144; 152; 160; 164; 185; 261]. Hüququ dövlətin bütün zəruri atributları, qanunların müstəqil və suveren ölkə olaraq yenidən hazırlanıb qəbul edilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması, Qərbə və Avropaya inteqrasiya proseslərinin sürətlənməsi təmin edilmiş, Azərbaycan bütün iqtisadi və sosial göstəricilərinə görə qabaqcıl ölkələr sırasında möhkəmlənmişdir. Sosial dövlət prinsipləri uğurla həyata keçirilərək ailələrin, qadınların, uşaqların, gənclərin hüquq və azadlıqlarının qorunması, iqtisadi və sosial yüksəlişinin təmin olunması, ailənin konstitusiya hüququ statusunun təsbiti təmin olunmuşdur. Ailə cəmiyyətin və dövlətin əsası olmaqla, ölkədə şəxsiyyətin formalaşmasını və bütövləşməsini təmin etmiş, ailə dəyərlərinə hörmət artmış, ailənin, qadının və uşaqların statusu, ailə və ailə münasibətlərinin tənzimlıənməsini təmin edən normativ hüquqi baza yaradılmışdır. AR-da ilk dəfə olaraq ailənin milli statusu müəyyən edilmiş, ailənin, qadının və uşağın hüquqları və azadlıqları beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Ailənin statusu, qadının və uşağın hüquqları və azadlıqları, hüquqi dövlət prinsiplərinə tam cavab verə bilən bir səviyədə hazırlanmış və beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir. Vətəndaş cəmiyyətinin fəalları, qeyri-hökümət təşkilatları, kütləvi informasiya vasitələri bu işin uğurlu aparılmasına ciddi səylər göstərmişlər. Bu sahədə Heydər Əliyev Fondunu fəaliyyəti dünyada böyük marağa səbəb olmuş və müstəqillik tarixinə şərəfili səhifələr yazmışdır [48; 75; 82; 152; 160; 164; 185; 246; 261]. Cəmiyyətin dəyərlər sisteminin əsasında, özəyində dayanan ailənin hüquqi statusunun konstitusiyada təsbit edilməsi, bu mənada müstəsna əhəmiyyətə malik olmuş, cəmiyyətdə onun rolunu artırmışdır [85, s.5-10].

Rusiyada Böyük Oktyabr Sosialist İnqilabı adlandırılan köklü dəyişikliklər 1917-ci ildə baş verdikdən sonra, Azərbaycan Demok-

ratik Cümhuriyyəti tərəfindən qəbul edilmiş bir sıra dekretlər ailə və ailə münasibətlərinin tənzimlənməsində müəyyən rol oynamışdır. Hətta 16 iyul 1923-cü ildə qəbul edilmiş Azərbaycan SSR-nin Mülki Məcəlləsinin bir sıra normaları, bir müddət ailə və ailə münasibətlərini tənzim etmişdir. Sovetləşmənin ilk illərində qəbul edilmiş Azərbaycan SSR-nin Nikah və Ailə haqqında Məcəlləsi, bu sahədə ictimai münasibətlərin tənzimlənməsində tarixi rol oynamışdır. Lakin bu Məcəllələrdə, eləcə də Azərbaycan SSR-nin Konstitusiyalarında ailənin nəinki anlayışı verilməmiş, habelə 1978-ci ilə qədər ailənin statusu konstitusiyada, ümumiyyətlə təsbit edilməmişdir. 18 oktyabr 1991-ci ildə «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda ailənin statusu müəyyən edilmiş, onun cəmiyyətin özəyi və dövlətin xüsusi himayəsində olduğu bəyan edilmişdir. Dünyanın qədim dövlətlərindən olan Azərbaycanda müqəddəs hesab edilən ailə institutunun tarixi uzun bir yol keçmiş və müasir səviyyəyə gəlib çıxana qədər mühim iqtisadi, siyasi, sosial, hüquqi, mənəvi-əxlaqi dəyişikliklərə məruz qalmış, mükəmməlləşmişdir [48, s.12-36]. Lakin bu çox ölkələrdəki kimi deyil, qanunvericiliyimizdə ailənin və nikahın definisiyası indiyə qədər verilməmişdir. Azərbaycan dilində işlədilən «ailə» sözü, etimioloji cəhətdən, ərəb mənşəli «avl» sözündən yaranmaqla, «dayanmaq», «biri-birinə etimad göstərən, dayaq olan insanlar birliyi» kimi mənaları ehtiva edir [577]. Bəşər tarixində əsrlərlə davam edən təbii, bioloji, ekoloji və iqtisadi proseslər ibtidai insanlar arasında həmrəyliyi, biri-birinə dayaq olmaq hissini zaman-zaman gücləndirmiş və bəlkə də ailə istilahının yaranmasına məhz bu cəhət, məna və məzmun etibarilə müəyyən bir əsas yaratmışdır. «Ailə» adlanan birliyin ilk ibtidai forması insanın biri-birinə olan təbii daxili və fizioloji tələbatından yaranmış, nəticədə həm də insan nəslinin fasiləsiz inkişafına xidmət etmişdir. Kişi və qadın münasibətləri, eyni zamanda insan qruplarının ətrafla mübarizədə öz varlığını qoruyub saxlanmaq üsuluna və vasitəsinə çevirmiş və bu birliyin daha da möhkəmlənməsinə tarixi zərurət yaratmışdır. Kişi və qadın birliyi, həm də və daha çox təbii-tarixi və fizioloji tələbatların ödənilməsi zərurəti ilə bağlı olaraq təbii proses kimi

baş vermişdir. Belə bir sosial təsisat təbiətdə və sonralar cəmiyyətdə gedən proseslərlə üzvi surətdə əlaqəli olaraq təkamül yolu keçmişdir [377, s.102-109; 404, s.34-41; 438, s.130-139; 482, s.25-31; 484, s.99-107; 488, s.56-67; 492; 499, s.83-90; 527, s.63-71; 551, s.91-96; 558, s.78-80].

İnsan, ailə, cəmiyyət və dövlət münasibətlərində təbiət və cəmiyyət bütövlüyünün, vəhdətinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Cəmiyyət insanların tarixən təşəkkül tapmış birgə fəaliyyət formalarının məcmusu olaraq, canlı sistemin xüsusi, yüksək inkişaf mərhələsi kimi meydana gəlmişdir. Bu özünü sosial təşkilatların, institutların, qrupların fəaliyyətində və inkişafında təcəssüm etdirir [100, s. 413]. Cəmiyyət, onu idarə etmək üçün dövlətə hakimiyyət və legitim güc verir. Geniş mənada hakimiyyət, insanlar tərəfindən və insanlar üçün yaradılan mürəkkəb ictimai münasibətlər sisteminin hüquqi ifadəsidir. Mürəkkəb və dəyişkən sistem olan cəmiyyətdə hakimiyyət, ilk öncə adətlərə, ənənələrə, dinə, sonralar isə hüquqa, demokratik institutlara əsaslanır. Dövlət hakimiyyəti isə iqtisadi, ideoloji, təşkilati-hüquqi mexanizmlər vasitəsilə insanların, sosial qrupların – ailənin, siniflərin fəaliyyətinə, davranışının xarakterinə və istiqamətinə təsir imkanları ilə xarakterizə olunan sosial münasibətləri formalaşdırır. Müəyyən bir cəmiyyət daxilində yaşayan hər bir müdrik insan, öz fiziki bədəninə baxaraq, onun haqqında dərindən düşünərək, quruluşunda ciddi nizam, ahəng,məqsəd və qayda görür, məmnun qalır və nümunə olaraq yaşadığı cəmiyyətdə də belə bir nizam görməyə can atır. Müəyyən məkan xüsusiyyətlərinə uyğun olaraq insan öz fəaliyyətində müxtəlif qaydalara uyğunluq və ya uyğunsuzluq cəhətlərini mənfi və ya müsbət mənada qiymətləndirir və konkret vəziyyətlərdə çıxış yolu tapır [162, s.34]. Cəmiyyət və insan dövlətin əsasını və substratını təşkil edir. İnsan və cəmiyyət olmadan dövlət və ailənin mövcudluğu mümkünsüzdür. Dövlətin möhkəmliyini təmin etməkdə əsas amil cəmiyyət üzvlərinin şüur səviyyəsinin, milli mənlik şüurunun yüksək olmasından, insanların milli qürurundan, dövlət maraqlarının şəxsi maraqlardan üstün tutulmasından, azərbaycançılıq ideologiyasının milli insanların əqidəsinə çevrilmə-

sindən, davranış və fəaliyyətlərinin daha çox hüquq normalarına uyğunluğundan asılıdır. Dövlət cəmiyyətin bütün insanlarının – təbəqələrinin, siniflərinin, qruplarının, ailənin, dinin, siyasi partiyaların, təşkilatların, hərəkatların və s. təsisatların maraqlarına toxunur, başqa sözlə, cəmiyyətdə çoxtərəfli təsir imkanları və münasibətlər formalaşır. Dövlətin təbiəti, onun insan həyatında tutduğu yerə, rola, dövlətin özünün yaranmasında və gələcək inkişafında baş verən proseslərdə təcəssüm olunur. İnsanların birgə fəaliyyətinin tarixən qərarlaşmış formalarının məcmusunu özündə ehtiva edən cəmiyyət, əslində sonradan yaratdığı müxtəlif təsisatların – dövlətin, ailənin, hüququn, dinin, hakimiyyətin mövcudluğuna dərin tələbat doğurur və onun inkişafını təmin edir [213, s.31-55; 272, s.65-72].

Cəmiyyət sadəcə olaraq fərdlərin, cəmiyyət üzvü olan insanların məcmusu kimi deyil, həm də mürəkkəb bioloji, sosial və siyasi orqanizm kimi özünü göstərir. Cəmiyyət, daimi və obyektiv xarakter daşıyan, ümumi maraqlarla bağlı olan, yüksək iradəsi və təfəkkürü ilə seçilən fərdlərin toplusu, məcmusu hesab olunur. Bu fərdlər və onların birlikləri arasında yaranan çoxşaxəli və çoxməzmunlu əlaqələrdən və münasibətlərdən ibarət olan sosial orqanizm kimi formalaşan cəmiyyət, mürəkkəb struktur və çoxməzmunlu təyinata malikdir. Cəmiyyət, öz üzvlərinin, şüur və iradəyə malik olan fərdlərinin toplusunu ehtiva etməklə, daimi və obyektiv xarakter daşıyan ümumi maraqların, qarşılıqlı əlaqələrin və münasibətlərin mükəmməl tənzimlənməsinə həmişə möhtac olmuşdur. Kifayət qədər mürəkkəb mexanizm kimi cəmiyyət, özünün müəyyən inkişaf mərhələsində zəruri ahəngdarlığın, sosial nizamasalmanın və hüquqi tənzimlənmənin vacibliyini şərtləndirmişdir. Bu da müəyyən sərt ölçülər daxilində cəmiyyətin inkişafına mütənasib olaraq, mövcud ictimai tələbatlardan, cəmiyyətin inkişaf mərhələlərindən və mütəşəkkillik səviyyəsindən asılı olaraq, sosial və hüquqi nizama salmanın həcmini, dairəsini, mükəmməlliyini və intensivliyini özündə birləşdirən hüquq elementlərinin yaranmasına və onun sisteminin formalaşmasına gətirib çıxarmışdır. Cəmiyyət inkişaf etdikcə sosial və hüquqi nizama salma insanların davranışında obyektiv olaraq, ümumi maraqların ifadə olunması

və bu maraqların həyata keçirilməsi ilə sıx bağlı olaraq baş vermişdir. Buna görə də sosial və hüquqi nizamasalmada konkretliliklə və müəyyənliklə yanaşı, normativlik keyfiyyəti artmış, mücərrədlik və ümumilik səviyyəsi yüksəlmişdir. Hüquqi vasitələrin və mexanizmlərin mürəkkəbləşməsi, təkmilləşməsi, nəticə etibarilə sosial və hüquqi nizama salmanın keyfiyyətinin əhəmiyyətli dərəcədə dəyişməsinə gətirib çıxarmışdır [213, s.31-55]. Normativ nizama salmanın köməyi ilə cəmiyyətdə insanların davranışını, iqtisadiyyatın, hakimiyyətin, ideologiyanın, bütün sosial həyatın tələblərindən irəli gələn, ümumi və eyni şərtlərə tabe edilən və ictimai münasibətlərə, fasiləsiz təsirə malik olan vahid qaydalar sistemini formalaşdırmaq mümkün olmuşdur. Cəmiyyətdə bir sıra mühim sosial dəyərlərin bərqərar olmasında vacib əhəmiyyətə malik olan proseslər baş vermiş və formalaşma mərhələsi uzun bir dövrü əhatə etmişdır. Müasir sivilizasiya şəraitində insanların davranışının cəmiyyətin özünün təbiətindən, təbii-hüquqi tələbatlarından irəli gələn, əsas humanitar başlanğıcların təsdiq edilməsi və reallığa çevrilməsi mühim əhəmiyyət kəsb edir. Sosial və hüquqi nizama salmanın mükəmməl normativ hüquqi təsbiti, səmərəli həyata keçirilməsi, güclü, ümumi və sabit səciyyə daşımaqla bərabər, dövlətin və ailənin idarə olunmasında həlledici əhəmiyyət kəsb etmişdir. Hüquqi və demokratik cəmiyyətlərdə sosial və hüquqi nizama salma, sistemin əsas məsələlərindən biri kimi aparıcı mahiyyət daşımışdır. Qanunun aliliyi, hamının qanun qarşısında bərabərliyi və cəmiyyətdə bütün məsələlərin yalnız hüquqi yolla, qanunla həllində etibarlı təminatlar sistemi təşəkkül tapmışdır. Buna görə də cəmiyyətdə əsas nizamlayıcı vasitəsi olan hüquq, sosial nizama salmanın bütün mexanizmləri və institutları ilə qarşılıqlı münasibətdə formalaşmış və ilk növbədə dövlət hakimiyyətinin, onun vəzifələrinin və funksiyalarının həyata keçirilməsinə, ailənin formalaşmasına, inkişafına, uşaqların, gələcək nəslin dəyərli varisi kimi yetişməsinə əhəmiyyətli təsir göstərmişdir [272, s.65-72]. Əslində dövlət cəmiyyətdə mövcud olan varlıqlara – insanlara, ailələrə, kişilərə və qadınlara məxsusdur. Buna görə də insan öz təbiətinə və stradegiyasına görə siyasi varlıq hesab olunur... [318, s.378]

Siyasi sistem bir-biri ilə qarşılıqlı əlaqədə olan subyektlərin elə məcmusunu əhatə edir ki, onlar vasitəsilə cəmiyyətdə siyasi hakimiyyət həyata keçirilir, dəyərlər dövlət orqanları vasitəsilə və hüququn tətbiqi ilə bölüşdürülür. Bu mənada siyasi sistem bütövlük təşkil edən, müəyyən fəlsəfi, dini, idarəçilik forması və məzmunu kəsb edən ideyaların, prinsiplərin, qanunların və doktrinaların kompleksi hesab edilir. Siyasi sistem cəmiyyətdə hakimiyyətlə bağlı olan siyasi münasibətləri, siyasi şüuru və siyasi təşkilatları özündə birləşdirən təsisatlar kompleksini əhatə edir. Siyasi sistemin bir çox sistemaltı ünsürləri olsa da, onun əsasında cəmiyyətin mürəkkəb dövlət təsisatları, ailələr və insanlar dayanırlar. Çünki dövlət iqtisadi, ideoloji, təşkilati-hüquqi təsirlər vasitəsilə, ənənə və məcburetmənin köməyi ilə insanların və sosial qrupların davranışına təsir etmək gücünə malik olan siyasi hakimiyyətə sahib olur. Buraya ordu, hüquq-mühafizə sistemi, cəza-icra strukturları, məhkəmələr və s. bu kimi təsisatlar daxildirlər. Cəmiyyətə daxil olan müxtəlif fərdlərin və sosial qrupların fərqli maraqları və onlar arasındakı münasibətlər dövlət tərəfindən hüquq vasitəsilə tənzim edilir və idarə olunur. Buna görə də dövlət bütün ölkə miqyasında müstəqil və suveren hakimiyyətə malik olan yeganə siyasi təşkilat hesab olunur. Bu baxımdan dövlət cəmiyyətdə rəsmən zorakılıqdan, məcbur etmədən, istifadə inhisarına malik olan siyasi-hüquqi təsisat səciyyəsi daşıyır. Bu mürəkkəb və məsuliyyətli vəzifələr dövlət sərhədləri ilə müəyyən edilən konkret ərazi hüdudları daxilində, xüsusi idarəetmə aparatı vasitəsilə həyata keçirilir. Dövlət suveren hakimiyyətin aliliyinə və müstəqilliyinə əsaslanaraq, öz siyasətini ölkənin daxilində ona münasibətdə həm də xaricində müstəqil olaraq həyata keçirmək imkanına malik olmalıdır. Dövlət müəyyən ərazisi, əhalisi, iqtisadiyyatı, ordusu, hüquq-mühafizə sistemi, idarəetmə aparatı və bütün bunların fəaliyyətinin suverenliyə əsaslanan siyasi hakimiyyət xüsusiyyətlərinə malik olur [47; 272, s.87-97]. Demokratik, hüquqi dövlətlərdə hüququn əsasları konstitusiyanın məcmusunu səciyyələndirir. Müxtəlif təbii proseslər – təbiət, cəmiyyət, dövlət, din, ailə, insan, onlar arasındakı münasibətlər, insan fəaliyyətinin, insan təfəkkürünün məhsulu olan maddi nemətlər, əmək alətlərinin, məh-

suldar qüvvələrin və istehsal münasibətlərinin dinamik inkişafı, tarixən müxtəlif elm sahələrinin diqqətini cəlb etmiş və onların öyrənilməsinə böyük zərurət yaranmışdır. Bu proseslər və onların nəticələri bütünlükdə ailələrdə və ailə münasibətlərində təcəssüm olunur. Rabindranat Taqor özünün «Qadın» adlı əsərində haqlı olaraq yazırdı ki, ailə, hər hansı bir cəmiyyətin və hər hansı bir sivilizasiyanın əsas özəyidir [538]. Ailə və ailə münasibətlərinin inkişafında, insanın, onun əməyinin, əmək alətlərinin inkişafı, zəhmətkeşliyi və məsuliyyəti böyük rol oynayır.

Cəmiyyətin sosial və hüquqi təsisatları içərisində dövlətin, dinin, hüququn təşəkkülündən çox-çox əvvəl və hətta insanla birlikdə yaranan və formalaşan cinslərarası münasibətlər, qarşılıqlı olaraq əks cinsə olan təbii fizioloji tələbat, birgə olmaq istəyi, ilahi sevgi, məhəbbət, övlad həyata gətirmək arzusu, nəsil artırmaq ehtiyacları, bəlkə də cəmiyyətdə olan bütün digər münasibətlərdən daha ilk olaraq yaranmış, tarixən daha yüksəkdə dayanmış və böyük bir yol keçmişdir. İlk əvvəl primitiv şüuru, ibtidai həyat tərzi ilə seçilən insan, milyon illər keçdikdən sonra qəbilə, daha sonra tayfa, daha sonra ibtidai formada da olsa, müxtəlif birliklər formasında təşəkkül tapmış və inkişaf etmişdir. Belə birliyin ən qədim və ən ilk forması olan ailənin yaranması bütün bu zərurətdən doğmuşdur [272, s.54-72].

Dövlətin yaranması haqqında patriarxal nəzəriyyə, eramızdan əvvəl 3-cü əsrdə görkəmli yunan mütəfəkkiri Aristotel tərəfindən «dövlətin nəsildən-nəsilə keçən ailə»dən yaranması nəzəriyyəsinin əsasında dayanmışdır. Sonradan bu nəzəriyyə Filmer və Mixaylovski tərəfindən inkişaf etdirilərək, daha da mükəmməlləşdirilmiş və təkmilləşdirilmişdir. Belə hesab edilmişdir ki, dövlət nəsildən-nəsilə keçən böyük ailənin inkişafı nəticəsində yaranmışdır. Bu ailənin başçısı, gələcək hökmdar olmuşdur. Onun hakimiyyəti ata hakimiyyətinin davamı kimi özünü göstərmişdir. Hökmdar özü isə bütün təbəələrin atası hesab olunurdu. Bundan da belə nəticə çıxarılmışdır ki, cəmiyyətin üzvü olan insanlar dövlət hakimiyyətinə və onun qanunlarına tabe olmağa borcludurlar. Bir nəzəriyyə və ya təlim olaraq patriarxal nəzəriyyə və onun ətrafında irəli sürülən müddəalar, sonralar öz təs-

diqini tapmamışdır. Əksinə təsdiq olunmuşdur ki, patriarxal ailə icma quruluşunun dağılması zamanı dövlətlə birgə əmələ gəlmişdir. Belə ailənin mövcud olduğu cəmiyyətdə qohumluq əlaqələri çox tez pozulur. Bu nəzəriyyənin mahiyyəti cəmiyyətdə mühim sosial təsisat olan ailəyə diqqəti daha çox yönəldir. Ailə cəmiyyətin kiçik hissəsidir və onun varlığı, forması cəmiyyətin inkişafına təsir edir, dövlətin yaranmasında özünəməxsus izlər qoyur [272, s.45]. Ailə və ailə münasibətlərinin, habelə ailə qanunvericiliyinin təşəkkülündə və inkişafında Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Belə ki, o, hələ Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra, «SSR İttifaqının və müttəfiq Respublikalarının nikah və ailə qanunvericiliyinin Əsasları»na müvafiq olaraq «Nikah və Ailə haqqında Azərbaycan SSR Məcəlləsi»ni Ali Sovetin VI sessiyasının 7-ci çağırışının müzakirəsinə təqdim etmiş və bu Məcəllə 26 dekabr 1969-cu ildə qəbul edilmişdir. Otuz il tətbiq edilən həmin Məcəllə 1 aprel 1970-cü ildən qüvvəyə minmiş və tətbiq olunmağa başlamışdır [223, s.34; 249, s.57].

Ulu Öndər Heydər Əliyevin birbaşa rəhbərliyi və təşkilatçılığı ilə hazırlanmış Azərbaycan Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyasında ailənin statusu, onun dövlət tərəfindən müdafiə olunması, qadınla kişinin bərabər hüquqluluğu, təhsil, əmək, istirahət, mənzil, sağlamlıq, sosial təminat və digər hüquqları və azadlıqları geniş şəkildə təsbit olunmuşdur [105, s.18].

Azərbaycanda ailə və qadın hüquqlarının qanunvericilikdə əks olunması və inkişafı Heydər Əliyevin adı ilə sıx bağlıdır. Belə ki, dövlət müstəqilliyi bərpa olunduqdan sonra referendum yolu ilə qəbul edilmiş AR-nın Konstitusiyasında bütün bu təsisatların hüquqi statusu öz təsbitini tapmışdır. Orada qeyd edilmişdir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsində, gündəlik qayğısı altındadır. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, AR vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğu bəyan edilmişdir. Dövlət xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onun sosial həyat səviyyəsinin gündəngünə yaxşılaşdırılması qayğısına qalır. Konstitusiyada eyni zamanda

göstərilmişdir ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Yeni Konstitusiyada hər bir ailənin sosial təminat hüququ tanınmışdır. Belə ki, yardıma möhtac olanlara kömək etmək, ilk növbədə onların ailə üzvlərinin borcu hesab olunmuşdur. Hər kəsin qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququ vardır. AR-nın Konstitusiyasının 94-cü maddəsinin 14-cü bəndinə əsasən ailə münasibətlərinə dair ümumi qaydalar AR-nın qanunverici orqanının - Milli Məclisinin səlahiyyətlərinə aid edilmişdir. Eyni zamanda, vətəndaşlıq məsələlərinin həll edilməsi ölkə prezidentinin səlahiyyətlərindədir. Bu gün Azərbaycanda ailənin və qadının ahəngdar inkişafı, sağlamlığı, təhsili, əməyi və istirahəti dövlətin qayğısı altındadır. Çoxuşaqlı ailələrin sosial müdafiə məsələlərinin həllinə dövlət xüsusi diqqət yetirir. Vaxtaşırı keçirilən tədbirlər gender bərabərliyinin təmin olunması, uşaqların tərbiyəsi, anaların sağlamlığı və sosial təminatı dövlətin diqqətindədir. Azərbaycan ailəsi, Azərbaycan milləti, ölkəmizdə qadınların, uşaqların inkişafı, onların hüquqlarının qanunvericilikdə mükəmməl təsbit olunması, hüquqlarının və azadlıqlarının dinamik inkişafı və yüksəlişi üçün Ulu Öndər Heydər Əliyevə minnətdar olmalıdır [146].

Sovet hakimiyyəti illərində ailə dövlətin və cəmiyyətin həyatında baş verən müəyyən proseslərlə sıx bağlı olmuş və ailəyə nəzarət güclü olaraq həyata keçirilmişdir. 1936-cı ildə qadınlara abort qadağan edilmişdir. 1944-cü ildə boşanma proseslərini çətinləşdirən süni əngəllər tətbiq edilməyə başlanmışdır. 1950-ci illərin sonlarında sosial siyasətdə həyata keçirilən tədbirlər qadınlara verdiyi azadlıq əvəzində, onların evdən kənardakı işini uşaqların doğumu və ya tərbiyəsi ilə uzlaşdırmağı, möhkəm ailə münasibətlərinin bərqərar edilməsini və ev büdcəsinin sabitliyinin təmin olunmasına cavabdehliyi qadına aid etmişdir. Lakin sonrakı dövrdə, xüsusilə demokratik proseslərin güclənməsi, insanın və vətəndaşın hüquqlarına və azadlıqlarına xüsusi önəm verilməsi nəticəsində 1955-ci ildə abort leqallaşdırıldı, 1965-ci ildə boşanma prosesləri asanlaşdırıldı, 1977-ci ildən isə konstitusiyada ailə mü-

nasibətlərində ərin və arvadın hüquq bərabərliyi təsbit edildi [160, s.126].

Ailə həyatının müəyyən mərhələsində tələbatlar və maraqlar dəyişə bilir, ailə qarşısında duran vəzifələri reallaşdırmağa, prinsip etibarilə yeni yanaşmalar tələb edən müasir şərait və imkan yarana bilər. Bütün bunlara baxmayaraq, ailənin rifahının, inkişafının və təhlükəsizliyinin təmin olunması ailə başçısının – atanın və ananın üzərinə düşür. «Fordist məşğulluq modeli» hesab edilən ailə birliyində həyat yoldaşını və uşaqlarını maddi cəhətdən təmin edən kişinin – ailə başçısının ömürlük zəhmətinə əvəz olaraq, qadının ev işlərini və ya bütün ailə üzvlərinə qulluq edəcəyi nəzərdə tutulurdu. Elə buna görə də patriarxal ailələrdə bu model ailə strukturunda dərin kök salmışdır [160, s.51].

Tarixi məxəzlər və arxeoloji qazıntılar bəşəriyyətin ilkin dövründə ibtidai formada da olsa, ailənin idarə olunmasında, ərzaq təminatında, ocağın qorunmasında, nəslin davamlı olaraq inkişafında, uşaqların böyüdülməsində, tərbiyəsində hakim mövqenin anaya – madərşaha məxsus olduğunu sübuta yetirir. Bu ideyanı ən mühim tərəfdarlarından biri olan  İsveç alimi, professor İohan Bahofen Yakob (alm. Johann Jakob Bachofen, 1815-1887) hələ 1861-ci ildə nəşr etdirdiyi «Analıq hüququ» adlı əsərində,çox saylı mənbələrə, o cümlədən arxeoloji qazıntılara və aparılan tədqiqatlara əsaslanaraq ata hökmranlığından, yəni patriarxal dövrdən əvvəl ana hökmranlığının, yəni madərşahlığın mövcud olduğunu tamamilə sübuta yetirmişdir. Oxşar mövqe alman alimi Fridrix Engelsin «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində də öz təsdiqini tapmışdır. Sonralar təbiətin və cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamış əmək bölgüsünün təşəkkülü, istehsal alətlərinin və vasitələrinin inkişafı, əmək məhsuldarlığının artması, ilkin mülkiyyət münasibətlərinin yaranması müxtəlif səbəblərə əsaslanan qəbilələrarası ziddiyyətlərin və münaqişələrin, amansız təbiətlə mübarizənin kəskinləşməsi, fiziki gücün üstünlüyü hesabına əldə edilən uğur, qələbə, maddi nemətlər uğrunda mübarizə tarixi, cəmiyyətdə kişilərin rolunun artmasına stimul vermiş və sanki qadının rolu arxa cəbhəyə, ikinci sıraya keçmiş-

dir. Qədim dinlərdə və rəvayətlərdə qadının rolu bir ana kimi çox vaxt müqəddəsləşdirilmiş, qədim şumerlər qadını – ananı hər şeydən – vardan, dövlətdən, övladdan belə üstün tutmuşlar. Etiraf edək ki, ailənin əsasında,özəyində məhz ana, qadın dayanır. Ailə üzvlərini – ərini, uşaqlarını öz ətrafına yığan, birləşdirən, həmrəylik və ittifaq yaradan da məhz anadır. Ana istiliyi, qayğısı, fədakarlığı, məhəbbəti və uğurlu təşkilatçılıq fəaliyyəti olmadan ailəni qoruyub saxlamaq, övladları tərbiyə edib böyütmək mümkün deyildir. Qədim şumer təfəkkürünə görə həyatda hər şey qazanmaq, əldə etmək olar, ancaq ananı yox. Buna görə də ana müqəddəs hesab olunmuş, analıq ləyaqəti, analıq haqqı hər bir övlad üçün, hansı cinsə mənsub olmasından asılı olmayaraq əzəli və əbədi olmuşdur. Qədim yunanlarda Fidiy, Poliklet və Kresilay kimi heykəltəraşların Artemida məbədinin sütunlar üzərində yaratdıqları gözəl, cazibəli qadının sağ döşü (süd vəzisi) kəsilmiş vəziyyətdə təsvir edilmişdir. Bu da onunla əlaqədar idi ki, antik dövrdə qız uşaqlarının sağ döşünün süd vəzisi yandırılaraq kəsilirdi ki, amansız döyüşlər zamanı oxun yayını çəkərkən döşləri ona mane olmasın, incitməsin və sona qədər sədaqətli olmağa özündə cəsarət tapsın [200, s.182-308; 256; 257, s.87-104; 261, s.8-9].

Ailənin psixologiyası [118; 133; 161; 205; 221; 243] onun tərkibinə daxil olan üzvlərin – kişinin, qadının, uşaqların hər birinin ayrılıqda və həm də məcmu şəklində olan psixoloji xüsusiyyətlərinin məcmusunu ehtiva edir. İnsan özünü dərk etdiyi vaxtdan etibarən, onun psixikasının şüuraltı təbəqəsinə, təbii, ilahi olaraq gələcəkdə quracağı ailəsi ilə bağlı müəyyən təsəvvürlər, xəyallar və arzular bərqərar olur. İnsanın emosional sferası ilə bağlı olan şüuraltı təbəqədə qərar tutan bu xəyallar, arzular və istəklər vaxtı çatanda – bioloji yetkinlik dövründə həyata keçirilmək üçün fəallaşma mərhələsinə keçir. Qeyri-şüuru təbəqədə yerləşdirilmiş arzuları həyata keçirmək mümkün olmadıqda, psixoloji harmoniya pozulur, destruktiv davranışın yaranmasına səbəb olur. Psixoloqlar sübut edirlər ki, insanda zorakılıq, münaqişə və təcavüzkarlıq motivi bir çox hallarda onun psixikasına əhəmiyyətli təsir göstərən fizioloji köklərlə bağlıdır. İnsan beynindəki badama oxşar cisim – sahə, zorakı, münaqişəli və təcavüzkar

hərəkətlərə cavabdehlik daşıyan mərkəz olmaqla, onları idarə edir. Bu proseslərə müəyyən hormonlar, spirtli içkilər, narkotik maddələr əhəmiyyətli təsir göstərir və onların inkişafına stimul verir. Amerika alimləri müəyyən etmişlər ki, ağır cinayət əməllərini qəddarlıqla törətmiş şəxslərin qanında testosteronun səviyyəsi, zorakılıqla bağlı olmayan başqa cinayətlərə görə məhkum edilmişlərin qanı ilə müqayisədə daha yüksək olur [507, s.396]. İnsan öz mühitini və şəraitini dəyişdikdə, beynin qabıqaltı mərkəzinin alışdığı qıcıqların dəyişməsinə qarşı olan oyanma sahəsində, ləngimələr baş verir, insanın yeni şəraitə və mühitə uyğunlaşmasında çətinliklər yaranır. Buna görə də beynin böyük yarımkürələrinin oyanma vəziyyətinə gəlməsi üçün, insanın yeni şəraitə psixoloji baxımdan hazır olmasına zərurət yaranır. Xüsusilə insan həyatında, onun fizioloji və təbii tələbatlarını ödəmək üçün əhəmiyyətli olan ailənin qurulması, insanın şüurunda əhəmiyyətli dəyişikliklərə səbəb olduğundan, o hələ gənc yaşlarından başlayaraq, ruhən də olsa, özünü psixoloji cəhətdən ailə qurmağa hazırlayır. Bu isə gəncin yetişdiyi, tərbiyə aldığı, formalaşdığı ailədə, məktəbdə, kollektivdə, cəmiyyətdə bu amilin ciddi surətdə nəzərə alınmasına zərurət yaradır. Natamamlıq komplekslərindən əziyyət çəkən insanlar özlərini cəmiyyətdə bir növ yararsız, artıq hesab edirlər. Bu isə müəyyən depressiyalara, psixoloji narahatlıqlara və gərginliklərə səbəb olur, insan özünü çıxılmaz vəziyyətlərdə təsəvvür edir. Natamamlıq kompleksləri insanı daim izləyir, onun uğurlarına mane olur, şəxsi keyfiyyətlərindəki qüsurlar cəmiyyətin tələbatlarına cavab vermir. Belə insanların cəmiyyətə uyğunlaşması prosesi müəyyən çətinliklərdən keçir və assosial davranışlara səbəb olur. İnsan utancaqlıqdan əziyyət çəkir və ya ifrat üsyankarlıq nümayiş etdirir. Tədqiqatçılar isə bunu həyatda baş verən uğursuzluqlarla, desosisallaşmalarla və psixoloji travmalarla əlaqələndirirlər. Buna görə də natamamlıq kompleksi şəxsiyyəti lazımi şəkildə bütöv olaraq formalaşmamış insanlarda mövcud olur və özünü aşkar şəkildə biruzə verir. Bütün bunlar insanın şəxsiyyət olaraq yetişməsində buraxılan səhvlərlə, natamamlıqlarla, psixi travmalarla səbəbli əlaqədə olur [118; 161; 205; 221; 243].

İnsan uşaq yaşlarından başlayaraq aldığı təhsil, tərbiyə, əxlaq, informasiya, yaşadığı həyat reallıqları, vəziyyətləri, keşməkeşləri, onun şəxsiyyətinin formalaşmasına mənfi və ya müsbət təsir göstərir. Bütün bunlar isə nəticə etibarilə insanın psixi fəaliyyətində, halət və xassələrində bir təzahür elementi kimi özünü göstərir. Həyati proseslərdə insanın aldığı informasiyalar, necə deyərlər, «senzura» təbəqəsindən keçərək şüuru təbəqənin köməyi ilə reallaşdırılmağa istiqamətləndirilir. Şüuraltı təbəqənin zaman-zaman tədricən yüngülləşməsi, qanunauyğun bir proses hesab olunur. Belə yüngülləşmə bu və ya digər səbəb üzündən baş vermədikdə, psixoloji yüklənmə yaranır və bununla da psixoloji neytrallıq vəziyyəti, harmoniya, ahəngdarlıq pozulmuş olur. Buna görə də valideynlər uşaqların xatirələrində neqativ iz buraxa biləcək hallara, hadisə və proseslərə mümkün qədər yol verməməyə çalışmalıdırlar. Ailənin əqli, psixi və mənəvi cəhətdən sağlam nəsil yetişdirmək vəzifəsi mühim və müstəsna əhəmiyyətə malikdir. Cəmiyyətdə və ailədə baş verən destruktiv münaqişələrin, mübahisələrin, ziddiyyətlərin yaranmasında, natamamlıq kompleksini daşıyan insanlar çoxluq təşkil edirlər. Buna görə də ailə mühitində böyüməyən uşaqlar, sonradan özlərini çox vaxt bədbəxt hiss edir, həyata çətin uyuşur, talehlərindən narazı qalır və beləliklə də öz ailə mühitini lazımi qaydada yarada bilmir, nəticədə müxtəlif problemlər baş verir. Bunun səbəbi onunla izah edilir ki, uşaqlıqda yaşanan ruhi və psixoloji sarsıntılar, travmalar insanın mənəvi aləmində təcəssüm tapan boşluqları, böyüyərkən doldurmaqda aciz olurlar. Buna görə də ailənin və şəxsiyyətin quruluşu, funksiyaları tam uyğunlaşdıqda, ailələrdə normal vəziyyətlər yaranmış olur. Ailənin funksiyalarına, ailə üzvlərinin hər birinin normal tələbatının təmin edilməsinə yönəldilən fəaliyyətin, əsas vəzifə olaraq qəbul edilməsi də məhz bununla bağlıdır. Qloballaşma kontekstində mədəniyyətlərarası, dinlərarası, sivilizasiyalararası, insanlararası əlaqə və münasibətlərin müasir problemlərinə həsr olunmuş və Bakıda keçirilən silsilə beynəlxalq forumlarda cəmiyyətdə və ailədə yaranan böhranın təsirləri ciddi müzakirə edilmişdir. Ölkə rəhbərliyi, cənab İlham Əliyev, eləcə də dünyanın bir çox görkəmli ictimai-siyasi və dövlət xadimləri, alimləri, bütün cəmiyyət-

də problemə çevrilən bir çox qlobal məsələlərin uğurlu həllində ailənin roluna diqqətin artırılmasının vacibliyini zəruri hesab etmişlər. Ailə problemlərinin uğurlu həllinə diqqətin artırılmasının zəruri və aktual olduğunu vurğulayan dünya şöhrətli siyasi və dövlət xadimləri, alimlər və ziyalılar, bu məsələnin dünyada gedən münaqişələrin və ziddiyyətlərin uğurlu həlli üçün vacib olduğunu önə çəkmişlər. Bu isə onu göstərir ki, cəmiyyətdə, dövlət həyatında və ailələrdə mövcud olan və ilk baxışda həll edilməz görünən problemlərin uğurlu həllinə məhz, ailə münasibətlərinin normallaşmasını təmin etmək yolu ilə nizama salmaq mümkündür [197, s.7-35].

İnsanın psixologiyasının, dünya görüşünün formalaşmasının əsası ailədə qoyulur. Bu da onunla əlaqədardır ki, bütün normal insanlar hər şeydən öncə ən çox ailə ilə bağlı olur, ailədə formalaşır, onun fəaliyyətinin mənfi və ya müsbət tərəflərinə münasibətlər, çox vaxt öz ailəsində müzakirə edilir, qiymətləndirilir və gələcəyə gedən yolların istiqamətlərini müəyyənləşdirirlər.

İnsanın həyat fəaliyyəti, cəmiyyətdə yeri və rolu, ictimai münasibətlərdə daşıdığı status, daha çox onun ailəyə bağlılığı ilə ölçülür, ailənin və cəmiyyətin formalaşmasına birbaşa təsir göstərir. Ailəyə, valideynlərə, övladlara, ailənin qan qohumlarına və doğmalarına olan qayğı və münasibət, bir fərd olaraq hər bir insanın cəmiyyətə və onun ayrı-ayrı üzvlərinə olan münasibətinin formalaşmasında mühim əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, cəmiyyətdə və dövlət həyatında siyasi və hüquqi rolu olan liderlərin, ümumiyyətlə maraq kəsb edən hər bir insanın, açıq və məxfi formada öyrənilməsinə kəşfiyyat orqanları, uzun illər, bir fərd, bir şəxsiyyət olaraq, məhz onun ailədəki rolundan, statusundan başlamağı vacib hesab edirlər [141, s.9-29]. Bu baxımdan ailə cəmiyyətin tərkib hissəsi, onun üzvi sisteminin mühim elementi kimi dəyərlidir. Geniş mənada ailə və cəmiyyət, ailə və dövlət biri-biri ilə sıx bağlıdır, əlaqəlidir və biri-birinə geniş təsir imkanlarına malikdirlər. Hər bir insan, cinsindən, təhsilindən, milliyyətindən, səviyyəsindən, peşəsindən, yaşından və digər demoqrafik göstəricilərindən asılı olmayaraq, həmişə bu və ya digər səviyyədə ailə və cəmiyyətlə bağlıdır. Onun bütün fəaliyyəti, münasibətləri, qayğıları, psixolo-

giyası, mənəviyyatı, əxlaqı, dəyərləri, tələbatları ilk öncə ailədə formalaşır, yetişir və bütövləşir [600].

Dövlət cəmiyyətin tələb və maraqlarını ifadə edən ümumi məcburi qanunlar vasitəsilə insanların fəaliyyətini tənzimləyir.Cəmiyyətdə və onun üzvü olan insan haqqında sivilizasiyasının yaranması və inkişafı dövlətçiliklə çox bağlıdır. Müasir dünyada, planetin hər bir yerində dövlətçilik mexanizminə, yeni istehsal texnologiyasına, yeni iqtisadi və demokratik şəraitə, ictimai həyat fəaliyyətinin yeni forma və mexanizminə, insanların ümidlərinə, maraqlarına cavab verən əlamətlər transformasiya olunur. Maddi həyatda baş verən dəyişikliklər insan münasibətlərində müəyyən adətlərin, ənənələrin, vərdişlərin, qaydaların, davranış normalarının təşəkkülünə və inkişafına səbəb olur. Ailənin sosial rolu insanın özünün təkrar istehsalında, bəşər nəslinin davam etdirilməsində, onun bilavasitə iştirakı ilə müəyyən edilir [157, s.19]. Ailənin mənşəyi məsələsində başlıca olaraq iki əsas baxış mövcuddur. Belə hesab edilir ki, ibtidai icma quruluşunun əvvəlində nizamsız cinsi münasibətlər hökmran olmuş, sonra isə onu qrup nikahı əvəz etmişdir. Zaman keçdikcə müvafiq surətdə ana və ata nəslinə uyğun böyük ana ailə icmasının, daha sonra isə böyük ata ailə icmasının əsasını təşkil edən qoşa nikah münasibətləri dövriyyədən sıxışdırılıb çıxarılmış, qadın və kişi nəslinin biri digərini əvəzləməsi prosesi baş vermişdir. İstər ana və istərsə də ata nəsli üzrə qoşa nikah qədimlərdə mövcud olmuşdur. Monoqamiya, qadının kişi tərəfindən əsarətə alınması ilə nəticələnmişdir. Buna görə də müəyyən cəmiyyətlərdə ailədaxili əlaqələrin xarakteri çox cəhətdən xüsusi mülkiyyət münasibətləri ilə üzvi şəkildə inkişaf etmiş, səbəb-nəticə əlaqəsində olmuşdur. Formaları və funksiyaları mövcud istehsal münasibətlərinin, bütövlükdə ictimai münasibətlərin xarakteri və cəmiyyətin mədəni inkişaf səviyyəsi ilə şərtlənən ailə, öz növbəsində cəmiyyətin həyatına əhəmiyyətli təsir göstərmiş və onun inkişafını təmin etmişdir. Uşaqların doğulması, tərbiyəsi, yeniyetmələrin sosiallaşması, əmək prosesinin fasiləsiz olaraq həyata keçirilməsi, fiziki, mənəvi və əxlaqi-estetik inkişafa təsir göstərən amillər zaman-zaman inkişaf etmiş və daha da təkmilləşmişdir [157, s.19].

Ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş «2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası»nın 3.1.2 maddəsi «gənc ailə» anlayışına aydınlıq gətirmişdir. Qeyd edilmişdir ki, yaşı 35-dən çox olmayan şəxslərin nikaha daxil olmasından yaranan ailə, habelə himayəsində azı 1 uşağı olan və yaşı 35-dən çox olmayan tək valideyn «gənc ailə» hesab edilir. Bu Strategiya eyni zamanda «ailəli gənclər» və «aztəminatlı ailələrdən olan gənclər» terminlərinə də anlayış vermişdir [598]. Aztəminatlı gənc ailələrin sosial rifahının yaxşılaşdırılması ilə əlaqədar olaraq dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən müvafiq tədbirlərin görülməsi, gənclərin və gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması mexanizmlərinin davamlı olaraq təkmilləşdirilməsi vacib hesab edilmiş, sosial evlərin geniş miqyasda tikintisinə başlanmışdır. Ölkə əhalisinin 2.7 milyon nəfərinin və ya 28.9%-nin 14-29 yaşa qədər olan şəxslər təşkil etməsi, gənclərin 52%-nin şəhər yerində, 48%-nin kənd yerində yaşaması, yeni doğulan uşaqların 82.6%-nin məhz gənc ailələrdə dünyaya gəlməsi faktı, bu sahədə nəzərdə tutulan tədbirlərin son dərəcə vacib olduğunu təsdiq edir [598]. Bununla belə 15-29 yaşlı şəxslər arasında işsizlərin sayının 123 min nəfər təşkil etməsi faktı da narahatçılıq doğurur. Təsadüfi deyil ki, ölkə rəhbərliyi gənclərin işlə təmin olunması, yeni iş yerlərinin yaradılması, yoxsulluğun azaldılması, gənc ailələrin inkişafının yüksəldilməsi və s. bu kimi istiqamətlərdə tədbirlərin həyata keçirilməsinə diqqəti artırmışdır.

Gənclərin inkişafını və asudə vaxtını səmərəli təşkil etmək məqsədilə ölkədə 30-dan çox sosial xidmət müəssisəsi – «gənclər evləri» tikilib istifadəyə verilmiş və bu tədbirlər hazırda da davam etdirilir. Ölkədə 300-ə qədər gənclər təşkilatının və bu yönümlü digər qurumların fəaliyyət göstərməsi cəmiyyətdə gəncliyə göstərilən qayğının bariz nəticəsidir. Xarici ölkələrə təhsil və elmi fəaliyyətlə məşğul olmağa göndərilən gənclərin də sayı ildən-ilə artmaqdadır. Gənc anaların və gənc ailədə doğulan uşaqların sağlamlığının qorunması və profilaktiki peyvəndləmə tədbirlərinin aparılması, dövlətin xüsusi nəzarətindədir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında bu problemlərin uğurlu həlli ilə əlaqədar olaraq dövlət or-

qanları qarşısında mühim vəzifələr qoyulmuş, ipoteka kreditləri vasitəsilə mənzil problemlərinin həlli vacib hesab edilmişdir [601].

Ölkədə həyata keçirilən sistemli və kompleks tədbirlər əlilliyi olanlar, uşaq evlərində tərbiyə alanlar, aztəminatlı ailədə və qaçqın-köçkün ailəsində yaşayanlar da daxil olmaqla, sosial həyata hazırlıq və onların iştirakı üçün imkanların genişləndirilməsi məsələsinə diqqət gündən-günə artırılır. Elə buna görə də gənclərə sistemli və müasir tələblərə cavab verən sosial xidmət müəssisələrinin, «gənclər evləri»nin fəaliyyətinin genişləndirilməsi və yaxşılaşdırılması ildən-ilə təkmilləşdirilməkdədir. Bu sahədə yoxsulluğun azaldılması və davamlı inkişaf, eləcə də məşğulluq sahəsində Dövlət Proqramlarının ardıcıl və sistemli şəkildə müəyyən edilməsi və həyata keçirilməsi öz uğurlu nəticələri ilə diqqəti cəlb edir [584; 590; 597; 599; 605].

Ailənin tərbiyə funksiyası reproduktiv sağlamlıq funksiyasının tərkib elementi olmasına baxmayaraq, müasir ailə problemlərində onun müstəsna əhəmiyyəti vardır. Belə funksiyaya ailədə doğulmuş uşağın sağlam böyüməsi, onunla müvafiq tərbiyəvi tədbirlər kompleksinin aparılması, xüsusi tərbiyə müəssisələrində məktəbə hazırlanması, məktəbdə elm və tərbiyə vəzifələrinin düzgün və səmərəli təşkilinin təmin edilməsi, idman, musiqi və digər sahədə biliklərin verilməsi, peşə yönümünün inkişaf etdirilməsi və s. bu kimi vəzifələr mühim əhəmiyyətə malikdir [48; 210; 211]. Ölkəmizdə sosial rifah dövləti yaratmaq sahəsində öhdəliklər çoxsaylı Dövlət Proqramlarında göstərilən qaydada həyata keçirilərsə, bu ölkə əhalisinin nümunəvi həyat şəraitini təmin edə biləcəkdir.

## 3.2. Azərbaycan ailə modeli

Elmi fəaliyyətdə təbiətə, cəmiyyətə və şəxsiyyətə aid olan ayrı-ayrı oxşar hadisələrin, proseslərin, institutların, təsisatların, əşyaların və dəyərlərin qarşılaşdırılması, üzləşdirilməsi və ya müqayisə edilməsi yolu ilə, onların mahiyyətinə aid olan səciyyəvi, oxşar və fərqli əlamətləri, mənfi və müsbət cəhətləri, xüsusiyyətləri və keyfiyyətləri üzə çıxarmağa xidmət edən elmi idrak metodu, yanaşma üsulu məcmu şəkildə müqayisəli tədqiqat metodu hesab edilir. Bu metod ən müxtəlif meyarlara və tələblərə əsaslanaraq aparıla bilər. «Ailə» institutunun statusunu, bir təsisat olaraq beynəlxalq və ona müvafiq olaraq hazırlanmış konstitusiya hüquq normalarının müqayisəsi əsasında aparılması, onun mahiyyətinin dərindən tədqiqinə imkan yaratmışdır. Bu da beynəlxalq hüquq normaları ilə milli hüquq normalarının, xüsusilə konstitusiya hüquq normalarının müqayisəsinə əsaslanır və onun başlıca səciyyəvi xüsusiyyətlərinin müəyyən edilməsinə imkan verir. Buna görə də ailənin konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqi, bu problemlə bağlı olan müxtəlif təsisatların, institutların, anlayışların beynəlxalq və milli hüquq normalarında təsbitinə əsaslanmışdır.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT-nin, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, digər beynəlxalq və regional təşkilatların üzvlüyünə qəbul edilmiş və dünyaya inteqrasiya proseslərinə xüsusi önəm verməkdədir. Ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bu müqavilələrlə ölkənin normativ-hüquqi aktları arasında ziddiyyətlər yaranarsa, beynəlxalq hüquq normalarının üstünlüyü tanınır və onun tətbiqi təmin edilir. Müstəqillik illərində ölkədə qəbul edilmiş bütün normativ-hüquqi aktlar əsasən beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Xüsusilə ailə, qadın və uşaq hüquqlarına dair normativ-hüquqi aktlar hazırlanıb qəbul edilərkən beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş əsas standartlar nəzərə alınmışdır. BMT-nin Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə təsdiq edilmiş «İnsan hüquqla-

rı haqqında Ümumi Bəyannamə»də «bəşər ailəsi» və ya "ailə" istilahı işlədilmiş, bununla da ailə institutunun beynəlxalq hüquqda tanınması ilk dəfə olaraq təmin edilmişdir. Ailə milli və beynəlxalq səviyyədə cəmiyyətin, dövlətin və bəşəriyyətin ən qədim və əsas sosial institutlarından biridir. Beynəlxalq statuslu Bəyannamədə işlədilən «bəşər ailəsi» ifadəsi yer üzərindəki bütün dövlətləri və onun xalqlarını, vahid və böyük bir ailə kimi təqdim etməklə, ailə institutuna böyük önəm verilməsini təcəssüm etdirir. Bəyannamədə «bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətlərini, onların təbii, bərabər və alınmaz hüquqlarını qəbul etməyin, azadlığın, ədalətin və ümumi sülhün təməli olduğu...» «kişi və qadının hüquq bərabərliyi» ifadələrinin xüsusi olaraq vurğulanması ailə institutuna verilən beynəlxalq hüquqi dəyərin ifadəsidir [122, s.51]. Sənəddə, öz ləyaqətləri və hüquqları etibarilə, irqindən, dərisinin rəngindən, cinsindən, dinindən, dilindən, əqidəsindən, milliyətindən, sosial və əmlak vəziyyətindən, silki mənsubiyyətindən, hansı ölkədə yaşamasından və digər xüsusiyyətlərindən asılı olmayaraq, ailə üzvlərinin bərabər hüquqlu olduqları təsbit edilmişdir [122, s.51-53].

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin ayrı-ayrı müddəaları, BMT-nin 16 dekabr 1966-cı il tarixdə qəbul etdiyi «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» və «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktları, Birinci Fakültətiv Protokolu, İkinci Könüllü Protokolu, «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləməklə, müdafiə etməklə bağlı cəmiyyətdəki fərdlərin, qrupların və orqanların hüquq və məsuliyyəti haqqında» 9 dekabr 1998-ci il tarixli BMT Bəyannaməsi, ailənin və ailə üzvlərinin hüquqları, vəzifələri və azadlıqları ilə bağlı olan bütün beynəlxalq standartların öz milli konstitusiyalarında və digər normativ-hüquqi aktlarında nəzərə alınmasını, üzv dövlətlərə tövsiyyə etmişdir [122, s.51-104].

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 16-cı maddəsinin 3-cü bəndində «ailənin – cəmiyyətin təbii və əsas özəyi olduğu» vurğulanmışdır. Bu beynəlxalq hüquqi sənəddə ailəyə verilən ən yüksək hüquqi qiymət olmaqla, onun hüquqi vəziyyətini və statusunu

müəyyən etmişdir. Bununla da ailənin cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququ beynəlxalq hüquq norması ilə tanınmışdır [122, s.54]. Bəyannamədə, ailənin və onun strukturuna daxil olan qadının, kişinin və uşağın, insan olaraq geniş hüquqları və azadlıqları təsbit olunmuşdur. Buna görə də Azərbaycan Respublikası öz konstitusiyasında ailənin statusuna və nikah hüququna həsr edilmiş normalarında «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də və yuxarıda qeyd edilmiş digər beynəlxalq sənədlərdə nəzərdə tutulmuş müddəalardan və standartlardan yaradıcılıqla istifadə etmiş və onları öz məzmununda təcəssüm etdirmişdir. Bəyannamənin 25-ci və 27-ci maddələrində konkret olaraq göstərilmişdir ki, «valideynlər öz kiçik yaşlı uşaqları üçün təhsil növlərini seçmək hüququna malikdirlər». Analıq və körpəlik (AR Konstitusiyasının 34-cü maddəsinin III hissəsində bu ifadə «uşaqlıq» kimi işlədilmişdir [85, s.18]), xüsusi himayə və yardım hüququ verir. Nikahlı və yaxud nikahsız doğulmuş uşaqlar, eyni sosial müdafiədən istifadə etmək hüququna malikdirlər... İşləyən hər bir insan, onun özünün və ailəsinin dolanışığını təmin edən ədalətli və qənaətbəxş həcmdə, zəruri hallarda isə həm də digər sosial təminat vasitələri almaq hüququna malikdir... Hər bir insan qida, geyim, mənzil, tibbi qulluq və digər sosial xidmətlər də daxil olmaqla, onun özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq, işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi hallarda, müvafiq təminat almaq hüquqlarına malikdirlər [122, s.55-56]. Qeyd edilməsi zəruridir ki, «Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında» 15 oktyabr 1975-ci il tarixli Avropa Konvensiyası da məhz həmin Bəyannamənin müddəalarına əsaslanmışdır [595].

Hüquqi dövlət quran ölkənin konstitusiyası olmaqla, Milli Konstitusiyamızın normaları ümumi formal bərabərlik prinsipi əsasında təsbit olunmuşdur. Məlumdur ki, Ümumi formal bərabərlik prinsipindən doğan bərabərlik iki üsulla: hüquqi icazələr və hüquqi qadağalar yolu ilə həyata keçirilir. Hüquqi icazə üsulu vasitəsilə həyata keçirilən hüquqi tənzim etmədə icazə verilən azadlıqların məz-

munu və həddi qanunda dəqiq müəyyən edilir. Hüquqi qadağa üsulunda isə insan hərəkətlərində və münasibətlərində ictimai təhlükəli anlar qadağan edilir. Bu da onu göstərir ki, "qanunla qadağan edilməyən hər bir şey" müsbət hesab edilərək müdafiə olunur. Ailə və ailə münasibətlərinin tənzimlənməsi üçün kifayət qədər normativ-hüquqi aktlar mövcud olmasına baxmayaraq, bizim tədqiqatlara qədər ailənin – ər-arvad, yaxud insan birliyi olaraq statusu, hüquqları, vəzifələri və məsuliyyəti əlahiddə, konkret, ayrıca və müstəqil normativ-hüquqi aktda heç vaxt öz ifadəsini tapmamış və müstəqil olaraq tədqiq edilməmişdir [193, s.38-39]. Buna görə də bu boşluğu aradan qaldırmaq üçün ailənin hüquqları, azadlıqları və vəzifələri haqqında «6 a» normasının (bax səh.22) hazırlanıb Ailə Məcəlləsinə əlavə edilməsi, habelə «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında» Qanun layihəsi (bax səh.355) hazırlanıb qanunverici orqana təqdim edilmişdir.

Ailənin və onun tərkibində təmsil olunan ailə üzvünün bir insan olaraq, bir vətəndaş olaraq azadlıq hüququ, seçki hüququ, işləmək hüququ, təhsil hüququ, sosial təminat hüququ, ayrı-seçkiliyə məruz qalmamaq hüququ, elmi-tərəqqidə iştirak etmək hüququ, vicdan azadlığı hüququ, öz fikrini sərbəst ifadə etmək hüququ.... və digər hüquqları ailə və ailə üzvlərinin statusu, hüquqları, vəzifələri və azadlıqları «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də, BMT-nin 16 dekabr 1966-cı il tarixdə qəbul etdiyi «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» və «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktlarında, onlara dair Birinci Fakültətiv Protokolda, İkinci Könüllü Protokolda mükəmməl təsbit edilmişdir ki, bütün bumlar da milli Konstitusiyamızın normalarında tam nəzərə alınmışdır. Ümumiyyətlə, müstəqillik illərində ölkəmiz ailənin, qadının və uşağın hüquq və azadlıqları ilə sıx bağlı olan «Qadına qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» (CEDAW), «Uşaq hüquqları haqqında», «İqtisadi, sosial və mədəni hüquqlar haqqında», «Vətəndaş və siyasi hüquqlar haqqında», «İrqi ayrı-seçkiliyin bütün formalarının qadağan olunması haqqında», «Əlilliyi olan şəxslərin hüquqları haqqında», «İşgəncə və digər qəddar, qeyri-insani

və alçaldıcı rəftar və ya cəzalandırma haqqında», «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» (Avropa Konvensiyası) Konvensiyaları, eləcə də «Yenidən baxılmış Avropa Sosial Xartiyası»nı ratifikasiya etmiş, «Məcburi yoxa çıxmış bütün şəxslərin müdafiəsi haqqında» Konvensiya isə imzalanmış və hazırda ratifikasiya mərhələsindədir [122].

«İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 10-cu maddəsində, «cəmiyyətin başlıca özəyi olan ailəyə imkan dairəsində, ələlxüsus onun yaranma dövründə və öhdəsinə kiçik yaşlı uşaqların böyüdülməsi və tərbiyə olunması sahəsində xüsusi məsuliyyət düşdüyü bir zaman, hərtərəfli mühafizə və köməklə təmin olunması» kimi humanist bir müddəa ifadə edilmişdir. Anaların doğuşdan əvvəl və sonra müəyyən müddət ərzində xüsusi himayə ilə təmin olunmasının zəruriliyi əsaslandırılmışdır. Bu müddət ərzində işləyən analara haqqı ödənilən məzuniyyətin və sosial müavinətlərin verilməsinin zəruriliyi beynəlxalq sənədlərdə təsbit edilmişdir. Bütün uşaqlara və yeniyetmələrə münasibətdə, ailə barəsində, onun öz mənşəyinə və digər əlamətlərinə görə heç bir ayrı-seçkilik salmadan xüsusi himayə və kömək göstərilməsi nəzərdə tutulmuşdur... Hər bir şəxsin, özünün və ailəsinin kifayət qədər qidalanmasının, geyiminin, yaşayış şəraitinin və həyat səviyyəsinin daim yaxşılaşmasını təmin edən, münasib həyat səviyyəsi hüququ nəzərdə tutulmuşdur... göstərilən Paktın qərarlarına müvafiq olaraq hər bir ailənin, qənaətbəxş yaşayışla təmin olunmaq hüququ vardır [122, s.61-62].

BMT-nin «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktının 23-cü maddəsində, ailəyə olan münasibət daha da inkişaf etdirilərək, onun cəmiyyətin təbii və əsas özəyi olduğu, buna görə də cəmiyyət və dövlət tərəfindən müdafiə hüququna malik olduğu təsbit edilmişdir [122, s.78]. Həmin Paktda konkret olaraq göstərilir ki, nikah yaşına çatmış kişilərin və qadınların nikah bağlamaq və ailə qurmaq hüququ vardır. Heç bir nikah, onu bağlayan tərəflərin sərbəst şəkildə və tam razılığı olmadan bağlanıla bilməz **Nuptias facit consensus**.... **Nuptiae sunt coniunctio maris et feminae et consortium omnis vitae, divini et humani iuris communicatio** [21,

s.11-41; 204; 329, s.118-130; 336, s.91-96; 343, s.108-118; 371, s.77-85; 472, s.149-150; 478, s.121-126; 479, s.120-127; 524, s.114-118; 528, s.58-66; 554, s.75-79; 596].

Ailə və ailə üzvlərinin statusu, hüquqları, vəzifələri və azadlıqları haqqında beynəlxalq hüquq normaları Avropa Şurasının müxtəlif sənədlərində də öz ifadəsini tapmışdır. Avropa Şurasının Nizamnaməsində, «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 4 noyabr 1950-ci il tarixli Konvensiyasında, «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya dair» 20 mart 1952-ci il tarixli Protokolda, 16 sentaybr 1963-cü il tarixli 4 saylı Protokolda, 28 aprel 1983-cü il tarixli 6 saylı Protokolda, 22 noyabr 1984-cü il tarixli 7 saylı Protokolda, 13 may 2004-cü il tarixli 14 saylı Protokolda, Avropa Sosial Xartiyasında, ona edilmiş əlavələrdə, bu və ya digər məzmunda təsbit edilmişdir [122, s.105-256].

BMT-nin «İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi»nin ayrı-ayrı müddəalarında kişi və qadın ittifaqının təcəssümü kimi qiymətləndirilən birliyin - ailənin hüquq və azadlıqlarına müəyyən yer ayrılmışdır. Belə ki, həmin sənəddə ailənin yaşamaq, azadlıq, qanun qarşısında bərabərlik, ayrı-seçkiliyə məruz qalmamaq, ədalətli məhkəmə, müdafiə olunmaq, şəxsi və ailə həyatının toxunulmazlığı, sərbəst hərəkət və yaşayış yeri seçmək, sığınacaq hüququ, ailənin və onun üzvlərinin qorunması, əmlaka sahib olmaq, sosial təminat, layiqli yaşamaq, sağlamlıq, mədəniyyət və s. bu kimi hüquqları və azadlıqları nəzərdə tutulmuşdur. BMT-nin 16 dekabr 1966-cı il tarixli «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» 2200 saylı Paktında ailənin sosial, iqtisadi və mədəni inkişafının təmin olunması, irqi, rəngi, dil, din, siyasi, əqidə, milli və sosial mənşəyinə, əmlak vəziyyətinə görə ayrı-seçkiliyə məruz qalmamaq, hüquq və azadlıqların azaldılmasının yolverilməzliyi, qənaətbəxş yaşamaq, normal iş şəraiti və istirahət, həmkarlar təşkilatında birləşmək, sosial təminat, ailənin qorunması, analığın və uşaqlığın müdafiəsi və mühafizəsi, aclıqdan müdafiə, sağlamlığın qorunması, sağlam ətraf mühitdə yaşamaq hüquqları təsbit edilmişdir. «Mülki və siyasi hüquqlar haqqında» BMT-nin 16 dekabr 1966-cı il tarixli Paktında isə ailənin mülki və siyasi

hüquqlarının təmin edilməsi, yaşamaq, işgəncəyə məruz qalmamaq, kölə halında saxlanılmamaq, məcburi əməyə məruz qalmamaq, insani rəftar və hörmət hüququnun gözlənilməsi, ölkədən qanunsuz çıxarmaya məruz qalmama, şəxsi və ailə həyatının toxunulmazlığı, ailənin qorunması, qanun qarşısında bərabərlik, ictimai xidmətlərdən yararlanmaq və s. bu kimi hüquqları və azadlıqları nəzərdə tutulmuşdur [115, s.3-6]. Bütün bunlara müvafiq olaraq Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 51-ci maddəsində göstərilmişdir ki, ailə dövlət tərəfindən müdafiə olunur. Nikah qadın və kişinin könüllü razılığına əsaslanır: ər və arvad ailə münasibətlərində hüquqca bərabərdirlər. Qeyd edilmişdir ki, dövlət uşaq tərbiyə müəssisələrinin geniş şəbəkəsini yaratmaq və onu inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda, habelə ailə çoxuşaqlı olduqda, onlara müavinət vermək, güzəştlər etmək, eləcə də ailəyə başqa növ müavinət vermək, yardım göstərmək və s. bu kimi yollarla ailənin qayğısına qalır [104, s.19]. Həmin normada qadının və kişinin hüquq bərabərliyi təsbit olunmuş, bu hüquqların həyata keçirilməsi, təhsil almaqda və peşə hazırlığı keçməkdə, əməkdə, əmək haqqı almaqda və işdə irəli çəkilməkdə, ictimai-siyasi və mədəni fəaliyyətdə, qadınlara kişilərlə bərabər imkanlar verilməklə, habelə qadınların əməyinin və sağlamlığının mühafizəsi sahəsində xüsusi tədbirlərlə; qadınlara əməyi analıq vəzifəsi ilə əlaqələndirmək imkanı verən şərait yaratmaqla; anaları və uşaqları hüquqi cəhətdən müdafiə etməklə, onlara maddi və mənəvi yardım göstərməklə, o cümlədən hamilə qadınlara və analara haqqı ödənilən məzuniyyət verilməklə, azyaşlı uşaqları olan qadınların iş vaxtını tədricən qısaltmaq yolu ilə güzəştlər edilməsi nəzərdə tutulurdu [104, s.19].

18 oktyabr 1991-ci ildə qəbul edilmiş «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda, dövlətin əzəli və əbədi özəyi olan ailənin, anaların və uşaqların himayə ediləcəyinə …şəxsin, ailənin …mənafeyinə uyğun surətdə, qanundan irəli gələn hüquqların və azadlıqların təmin olunması, ailələrin abad yaşayış sahəsi ilə, sosial müdafiə və layiqli həyat səviyyəsi ilə təmin

ediləcəyi bəyan edilirdi [77, s.7-8]. Müstəqillik illərində bu normalar daha da inkişaf etdirilmişdir. Belə ki, Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri nəticəsində hazırlanmış AR-nın Konstitusiyasının layihəsi 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edildi. Sonralar keçirilən referendumlarla Konstitusiyanın müxtəlif maddələrinin daha da təkmilləşdirilməsi və onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılması tam təmin edildi [12; 94]. Konstitusiyanın 17-ci maddəsində «Ailə, uşaqlar və dövlət», 34-cü maddəsi «Nikah hüququ»na müstəqil yer ayrılmış, bu institutların Konstitusiya hüquqi təsbiti təmin edilmişdir. Eləcə də Konstitusiyanın 25-ci maddəsində kişi ilə qadının hüquq bərabərliyi, 38-ci maddəsində ailə başçısının itirilməsinə görə sosial təminat hüququ, yardıma möhtac olanlara kömək etməyin ilk öncə ailə üzvlərinin borcu olduğu, ana dilindən istifadə hüququ, 66-cı maddədə hər kəsin özünə, arvadına (ərinə), bir sözlə yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi, 94-cü maddənin 14-cü bəndi ailə münasibətlərinə dair ümumi qaydaların Milli Məclis tərəfindən müəyyən edilməsi, 109-cu maddənin 20-ci bəndi vətəndaşlıq məsələlərinin həllinin ölkə prezidentinin səlahiyyətlərinə aid edilməsi, eləcə də ailə, qadın və uşaq problemlərinin həlli, səhiyyə, təhsil, mənzil, əmək, iş və digər sosial sahələrdə mövcud olan çətinliklərin aradan qaldırılması və kompleks həlli məsələləri ölkənin Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, bələdiyyə orqanlarına və digər əlaqədar təşkilatlara tapşırılmışdır [85].

Referendum yolu ilə qəbul edilmiş AR-nın Konstitusiyasında ailənin cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsində olduğu təsbit edilmişdir. Konstitusiya kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğunu elan etmiş, şəxsi və ailə həyatına müdaxilə edilməsi qadağan olunmuşdur. AR Mülki Məcəlləsinin 6.1.6 maddəsində şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi təsbit edilmişdir [97, s.5].

Beynəlxalq hüquq normalarına müvafiq olaraq AR-nın Konstitusiyasında hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq və hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən

müdafiə hüququ təsbit edilmişdir. Nikahın könüllü razılığa əsaslanması, heç kəsin zorla evləndirilə və ya ərə verilə bilməzliyi prinsipi konkretləşdirilmişdir. Nikah və ailə dövlətin himayəsində olmaqla analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çox uşaqlı ailələrə yardım göstərməyi öz üzərinə götürmüşdür. Hər kəsin qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə və qanunla nəzərdə tutulmuş digər hallarda, sosial təminat hüququ təsbit edilmişdir [85].

Ailənin statusunun bir sıra ölkələrin Konstitusiyalarında, o cümlədən İtaliyanın, Almaniyanın, İrlandiyanın, Rusiyanın, Türkiyənin, Fransanın, Yunanıstanın, Bolqarıstanın, İranın, Çinin və bu kimi bir sıra inkişaf etmiş ölkələrin Konstitusiyalarında təsbit edilmişdir. İtaliya Respublikasının Konstitusiyasının 29-cu maddəsində göstərilir ki, respublika nikaha əsaslanan təbii bir ittifaq olaraq ailənin hüquqlarını tanıyır. Nikah, ailə birliyini təminat altına almaq üçün qanunun təsbit etdiyi məhdudiyyətlər çərçivəsində ər-arvadın mənəvi və hüquqi bərabərliyinə əsaslanır. Həmin Konstitusiyanın 31-ci maddəsində göstərilir ki, respublika iqtisadi tədbirlərlə və digər yardımlarla ailənin qurulmasına və xüsusən böyük ailələrdə vəzifələrin yerinə yetirilməsinə şərait yaradır. Dövlət, analığa, körpəliyə və gəncliyə, onları himayə etməyi boynuna götürən müəssisələrə kömək etmək yolu ilə qayğı göstərir [196, s.35].

İrlandiya Konstitusiyasının 41-ci maddəsinin 1-ci hissəsinin 1-ci bəndinə görə, dövlət ailəni cəmiyyətin təbii ilk mənbəyi və birləşdirici əsası, habelə hər hansı pozitiv hüquqdan öndə gələn və ona münasibətdə ali olan ayrılmaz və özgəninkiləşdirə bilməyən hüquqlara malik olan əxlaq institutu kimi tanıyır [181, s.172].

Almaniya Federativ Respublikasının Konstitusiyasının 6-cı maddəsində göstərilir ki, nikah və ailə dövlətin xüsusi himayəsindədir ...Hər ananın cəmiyyətin himayə və yardımını almağa hüququ vardır [196, s.67].

Rusiya Federasiyasının Konstitusiyasının 38-ci maddəsində göstərilir ki, ailə, analıq və uşaqlıq dövlətin müdafiəsindədir. Uşaqla-

ra qayğı göstərilməsində və onların tərbiyə edilməsində valideynlərin hüquqları və vəzifələri bərabərdir. 18 yaşı tamam olmuş, işləyən uşaqların, işləməyən valideynlərinə qayğı göstərmək borcudur [416, s.36].

Türkiyə Cümhuriyyətinin Konstitusiyasının 41-ci maddəsinə görə, ailə - Türk cəmiyyətinin təməlidir və ər-arvad arasındakı münasibətlər bərabərlik prinsipinə əsaslanır. Dövlət, ailənin təhlükəsizliyi və rifahı üçün ana və uşaqların müdafiəsi, ailə planlamasının nəzəriyyəsi (təhsili) ilə tətbiqini formalaşdırmaq üçün önəmli işlər görür və təşkilat qurur. Hər bir uşaq, müdafiə və qayğıdan istifadə etmək, yüksək mənafeyə açıq bir formada zidd olmadıqca, ana və atası ilə şəxsi və birbaşa əlaqə qurmaq və davam etdirmək hüququna sahibdir. Dövlət, bütün növdə olan istismara və şiddətə qarşı uşaqları qoruyan tədbirlər həyata keçirir [296, s.26-27]. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir [85, s.10].

İtaliya Konstitusiyasına görə, ailə nikaha əsaslanan təbii insan birliyidir. Yunanıstan Konstitusiyası isə ailəni – millətin qorunub saxlanmasının və inkişafının əsası kimi səciyyələndirmişdir. Bu baxımdan İrlandiyanın Konstitusiyasına görə, ailə – cəmiyyətin təbii olaraq yaranmasının və birləşməsinin əsası, alınmaz və ayrılmaz təbii hüquqlara və mənəvi-əxlaqi dəyərlərə əsaslanan, ilk özək və birləşdirici qüvvə hesab edilir [413, s.351-361].

Fransa Konstitusiyasında göstərilir ki, qanun qadının bütün sahələrdə kişi ilə eyni hüquqlu olmasına təminat verir. ...Millət (dövlət) fərdin və ailənin inkişafı üçün zəruri şərtləri təminat altına alır. Millət hamının, xüsusən uşaqların, anaların və yaşı keçmiş insanların sağlamlığının mühafizəsini, maddi cəhətdən təmin edilməsini, istirahət və asudə vaxtını təminat altına alır... Millət, uşaq və böyüklərin bərabər olaraq təhsil, peşə və mədəni sərvətlərə yiyələnə bilməsini təmin edir [159, s.126-150].

Yunanıstan Konstitusiyasının 21-ci maddəsinə görə, millətin mövcudluğunun və inkişafının əsası kimi ailə, habelə nikah, analıq və uşaqlıq dövlətin mühafizəsi altındadır. Bolqarıstan Konstitusiyasının 14-cü maddəsinə əsasən ailə analıq və uşaqlıq dövrü dövlət və

cəmiyyət tərəfindən qorunur. İran İslam Respublikasının Konstitusiyasının 10-cu maddəsinə görə isə ailə islam cəmiyyətinin bünövrə vahidi olduğuna görə bütün qanunlar, qaydalar və müvafiq proqramlaşdırmalar ailə qurmağı asanlaşdırmağa, onun müqəddəsliyini qorumağa, ailə müasibətlərinin islam hüququ və əxlaq əsasında möhkəmləndirilməsinə yönəlmişdir [192].

Müqayisəli təhlildən aydın olur ki, Türkiyə Cümhuriyyətinin və AR-nın Konstitusiyaları, ailə institutunu cəmiyyətin təməli və özəyi kimi qiymətləndirilməklə, konstitusiya normasında təsbit edilməsi, ailəyə verilən yüksək dəyərin nəticəsi və təcəssümüdür. İtaliya Konstitusiyası «ailə»nin statusunu «təbii bir ittifaq» kimi tanıdığını bəyan etmişdir [196, s.35]. Beynəlxalq və Avropa hüququ ailə anlayışına konkret olaraq bitkin formada definisiya verməsə də, lakin ona, insanın ailə həyatının tərkib hissəsi kimi yüksək qiymət vermişdir. Bu da onunla əlaqədardır ki, rəsmi nikahı olub-olmamasından asılı olmayaraq beynəlxalq və Avropa hüququ, kişi ilə qadının ailə həyatı yaratmasını onun təbii hüququ kimi qəbul edir [43, s.341, 349, 374, 391]. Elə buna görə də Rusiya Federasiyasının Konstitusiyası beynəlxalq hüquqla tanınmış insan hüquqlarını və azadlıqlarını bütünlüklə Rusiya Federasiyası vətəndaşlarına şamil etsə də, lakin həmin sənəddə vətəndaşın «nikah hüququ» konkret olaraq nəzərdə tutulmamışdır [415, s.8-9, s.14]. Azərbaycan SSR-nın 1978-ci il Konstitusiyasında da vətəndaşların nikah hüququ təsbit edilməmişdir [103, s.19]. Görünür bu Konstitusiyaların müəllifləri bu yolu tutarkən ailə qurmağı insanın təbii hüquqi olaraq alınmaz və ayrılmaz olduğu müddəasını rəhbər tutmuşlar. AR-nın yeni Konstitusiyasının 34-cü maddəsi isə «nikah hüququ»na həsr olunmuşdur [85, s.18]. Orada göstərilmişdir ki, hər kəsin qanunda nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Eyni zamanda göstərilmişdir ki, nikah və ailə dövlətin xüsusi himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir [85, s.18].

Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Konstitusiyanın sosial təminat hüququ adlanan 38-ci maddəsində qeyd edilmişdir ki, yardıma möhtac olanlara kömək etmək, ilk növbədə ailə üzvlərinin bor-

cudur. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdirlər [85, s.20]. Konstitusiyanın 45-ci maddəsi ana dilindən istifadə hüququnu təsbit etmişdir. Orada göstərilmişdir ki, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz [85, s.22]. Bu da o deməkdir ki, hər bir vətəndaş ailədə, ailə mühitində milli dildən, ana dilindən istifadə etmək hüququna malikdir.

AR Konstitusiyasının 58-ci maddəsi hər kəsin başqaları ilə birləşmək, ...istənilən birliyə daxil olmaq hüququnu tanımış və bütün birliklərin sərbəst fəaliyyətinə təminat vermişdir. Bu normada eyni zamanda nəzərdə tutulmuşdur ki, heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz [85, s.26-27]. Ailə – qadının və kişinin, ailə qurmaq məqsədilə yaratdığı birlikdir, ittifaqdır. Bu baxımdan konstitusiyanın birləşmək hüququna həsr edilmiş 58-ci maddəsində nəzərdə tutulan müəyyən qaydaları, fikrimizcə ailəyə də şamil etmək mümkündür. Çünki ailə qadın və kişi birliyi hesab olunur. AR Konstitusiyasının 34-cü maddəsi, hər kəsin qanunda nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququnu tanıması, ailə nümunəsində insan birliyinin yaradılması, ailənin sərbəst fəaliyyətinə imkan verilməsi, eyni zamanda Konstitusiyanın 58-ci maddəsində nəzərdə tutulan insanların birləşmək hüququnun təcəssümü kimi dəyərləndirilə bilər [85, s.26-27].

AR Konstitusiyasının 94-cü maddəsinin bir sıra bəndlərində ailə və ailə münasibətlərinə dair müxtəlif normalar təsbit edilmişdir. Həmin maddənin 1-ci bəndi insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı, 6-cı bəndi məhkəmə icraatı və məhkəmə qərarlarının icrası, 10-cu bəndi fiziki və hüquqi şəxslərin statusu, 12-ci bəndi əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik, 13-cü maddəsi mülkiyyət hüququ, onun rejimi, əşya hüququ və öhdəlik hüququ, 14-cü bəndi ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq məsələləri,

16-cı maddəsi sosial təminat, 20-ci maddəsi təhlükəsizliyin əsasları sahəsində müvafiq normaların müəyyən edilməsini Milli Məclisin səlahiyyətlərinə aid etmişdir [85, s.41-45].

Konstitusiyanın 109-cu maddəsinin 2-ci bəndi ...sosial proqramların təsdiq edilməsi və 20-ci bəndi vətəndaşlıq məsələlərinin həllini AR Prezidentinin [85, s.53-55], dövlət sosial təminat Proqramlarının həyata keçirilməsinin təmin edilməsini isə AR Nazirlər Kabinetinin səlahiyyətlərinə aid etmişdir [85, s.60]. Naxçıvan Muxtar Respublikasının ərazisində sosial, səhiyyə proqramlarının həyata keçirilməsi, Konstitusiyanın 138 (bənd 5, 7), 139 (bənd 3) və 140 (bənd 3) maddələrinə əsasən Naxçıvan Muxtar Respublikasının müvafiq orqanlarının səlahiyyətinə aid edilmişdir [85, s.71-75]. Konstitusiyanın 144-cü maddəsi isə, yerli əhəmiyyəti sosial müdafiə və sosial inkişaf proqramlarının yerinə yetirilməsi vəzifəsini bələdiyyə orqanlarının səlahiyyətinə aid etmişdir [85, s.77].

AR Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına müvafiq olaraq, ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquqlarını və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən mükəmməl normalar sistemi müəyyən etmişdir [88]. Ailə və ailədaxili münasibətlərin yalnız müəyyən bir hissəsi normativ-hüquqi aktlarla, AR-nın Ailə Məcəlləsi ilə tənzimlənir. Ailə və ailədaxili münasibətlərdə, ər-arvad, valideynlər və uşaqlar, babalar və nənələr, ailənin digər üzvləri arasında çox vacib olan və çoxsaylı digər münasibətlər vardır ki, onlar illərlə formalaşan və bu gün də öz mövcudluğunu qoruyub saxlayan yazılmamış qanunlarla, adətlərlə, ənənələrlə, vərdişlərlə tənzim edilir. Azərbaycan ailəsində isə belə adətlər çox vaxt qanunlardan da kəsərlidir. Dövlət, ailənin daxili işlərinə qarışmamağı və ailədaxili münasibətlərin öz içərisində - ər-arvad və ailə üzvləri arasında əlahiddə qaydada həll edilməsini məqbul hesab edir. Buna baxmayaraq son illər kütləvi informasiya vasitələrində, xüsusilə telekanallarda bu prinsiplər pozularaq, ailə və ailədaxili münasibətlərin,

münaqişə və mübahisələrin müzakirəsi geniş vüsət almışdır. Bu qanunlara zidd olmaqla yanaşı, eyni zamanda ailə münasibətlərinin, hətta dağılma səviyyəsinə qədər gəlib çıxmasına təsir göstərir. Buna görə də belə halların qarşısının alınması üçün dövlət səviyyəsində qətiyyətli tədbirlərin görülməsi zəruridir [75, s.19; , s.59, 61, 67].

Konstitusiya dövlətin və şəxsiyyətin qarşılıqlı münasibətlərini, dövlət hakimiyyətinin və yerli özünü idarəetmənin təşkili sistemini, şəxsiyyətin statusunu müəyyən edir [85, s.13-32]. O, xalqın siyasi iradəsini əks etdirir. Konstitusiyanın aliliyi, onun aparıcı və əsas hüquqi xüsusiyyətlərində ifadə olunur. O təkcə əsas qanun deyil, həm də xüsusi hüquqi qüvvəyə malik olan qanundur. Onun aliliyi səmərəli müdafiə mexanizmlərinin məcmusu ilə etibarlı şəkildə təmin olunur. Konstitusiya həm də siyasi və ideoloji hüquqi funksiya yerinə yetirir [303, s.5-11; 353, s.85-90; 382, s.47-52; 458, s.34-44; 467, s.5-9; 490, s.33-41; 511, s.25-37; 556, s.18-25; 557, s.5-11; 567, s.5-17]. Konstitusiya dövlət və şəxsiyyətin qarşılıqlı münasibətlərinin əsaslarını, bütövlükdə dövlətin təşkilinin, dövlət hakimiyyətinin və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əsas mexanizmlərini müəyyən edir. Şəxsiyyətin hüquqi statusunun əsası, bütün sahə hüququ statuslarının fövqündə dayanır və vətəndaşlığından asılı olmayaraq hamıya şamil edilir [265, s.181-190; 313, s.17-26; 324, s.88-97; 325, s.87-94; 327, s.5-16; 344, s.74-83; 354, s.116-118; 363, s. 40-49; 367, s.5-18; 382, s.47-52; 399; 402; 405, s.102-104; 427, s.32-41; 496, s.101-108; 497, s.106-114; 520, s.114-115; 565, s.5-12]. Konstitusiya cəmiyyətdə fundamental dəyərlərlə sıx bağlı olan cəmiyyət-dövlət, cəmiyyət-şəxsiyyət, dövlət-şəxsiyyət, dövlət-din, dövlət-ailə, cəmiyyət-ailə, ailə-din [138, s.3-12] və digər bu kimi institutların statusunu, onlarla qarşılıqlı münasibətlərinin hüquqi təsbitini və həyata keçirilmə mexanizmlərini müəyyən edir [155]. Konstitusiya qanunvericilik, icra və məhkəmə orqanlarının statusunu, onların funksiyalarını əks etdirən, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyən edən normativ hüquqi akt hesab olunur. Konstitusiyanın əsas hüquq funksiyası – bütün hüquq sisteminə xas olan tənzimləmə vəzifələrini yerinə yetirir. Sosial funksiyası isə ailə,

din kimi sosial təsisatlara, atalıq, analıq kimi sosial dəyərlərə, təhsil, elm kimi sosial sistemə fəal təsir göstərir. Siyasi funksiya – siyasi qüvvələrin hakimiyyəti əldə etməsinin sivil formasını, hüquqi, demokratik meyarlarını, cəmiyyətin siyasi-hüquqi əsaslarını təsbit edir və onların icra mexanizmlərinin sistemini müəyyən edir. Tərbiyə funksiyası – hər bir insanda Konstitusiya qanunlarına, insan və vətəndaş hüquq və azadlıqlarına və dövlətə hörmət ruhu aşılayır [30, s.12-32; 152, s.40-46, 61-92, 154-155]. İlk əvvəllər ailənin özəyi müxtəlif cinslər – qadın və kişi cinsi arasında zəruri təbii ehtiyacların, ünsiyyətin, məhəbbətin, bioloji birliyin və mənəvi yaxınlığın ödənilməsi məqsədilə yaranmış, böyük təkamül yolu keçmiş və milyon illər ərzində tədricən ailə münasibətləri formalaşmışdır. Belə ki, insanlar vəhşi halında, nizamsız olaraq, sırf bioloji mənada kişi və qadın münasibətlərində olmuş və bununla da insan istehsalını və təkrar istehsalını faktiki olaraq təmin etmişlər. Təbiətlə amansız ölüm-dirim mübarizəsində, insan həmrəyliyinə, cinsindən asılı olaraq yaranmış müvafiq ehtiyac, insan qruplarının müxtəlif ibtidai formalarının, birliklərinin yaranmasına gətirib çıxarmışdır. Ailə öz tarixinə, təşəkkül formasına, quruluşuna, ailə üzvləri arasındakı münasibətlərin xarakterinə, səciyyəsinə, xüsusiyyətlərinə və digər cəhətlərinə görə fərqlənmişdir. İllər ötdükcə intensiv surətdə davam edən bu əlaqələr və münasibətlər yeni-yeni çalarlar əldə etmiş, mənəvi-əxlaqi cəhətdən cilalanmış, hüquqi baxımdan təkmilləşmiş və mükəmməlləşmişdir. Ailə üzvlərinin sayının artması, ailə münasibətlərinin yeni məzmun və məna kəsb etməsi, münasibətlərin hüquqi məzmununun zənginləşməsi hüquqi tənzimlənmənin təkmilləşməsinə tələbat yaratmış, ailənin formaları, tipləri, quruluşu, ailə münasibətlərinin məzmunu, maraqları, dəyəri, ailənin statusu, ailə üzvlərinin hər birinin yeri və rolu yeni-yeni elementlərlə zənginləşmişdir. Tarixdə ailə və nikah formaları cəmiyyətin inkişafına uyğun olaraq zaman-zaman dəyişmiş və təkmilləşmişdir. Tarixdə ibtidai ailə, qan qohumluğuna əsaslanan ailə, qrup nikahı – poliqamiya, poliandriya, ekzoqamiya, endoqamiya, qoşa nikah – monoqamiya və s. bu kimi çoxsaylı ailə tipləri mövcud olmuşdur [160, s.5-6].

Konstitusiya dövlətin təşkili əsaslarını, şəxsiyyətin hüquqi statusunu, cəmiyyət, dövlət və şəxsiyyət arasındakı münasibətləri tənzimləyir. Konstitusiya-hüquq normaları təsisedici, definitiv, prinsip müəyyən edici norma səciyyəsi daşımaqla, öz quruluşuna görə hipoteza, dispozisiya, sanksiya kimi norma elementlərini özünəməxsus şəkildə özündə birləşdirir. Konstitusiya cəmiyyətin və dövlətin yazılı bir modeli kimi özünü göstərir və o ölkədəki digər aktlardan üstün hüquqi qüvvəyə malikdir. Ölkənin digər qanunları konstitusiyaya müvafiq olaraq və onun prinsipləri nəzərə alınmaqla hazırlanır və qəbul edilir. Təsadüfi deyil ki, Konstitusiyanın 149-cu maddəsində göstərilir ki, ölkə qanunları və digər normativ-hüquqi aktlar AR-nın Konstitusiyasına müvafiq olaraq qəbul edilməlidir. Konstitusiya ölkədə siyasi qüvvələrin nisbətini nəzərə almaqla, referendum yolu ilə qəbul edildikdə, o ölkədə siyasi və hüquqi həmrəyliyi təmin edən və stabillik yaradan sənəd kimi özünü göstərir [85, s.79-80]. AR-nın Konstitusiyası xalqın suverenliyi, vahidliyi, dövlətin hüquqi əsasları, din-dövlət, ailə-dövlət və digər bu kimi qlobal məsələlərə xüsusi yer ayırmışdır. Bütün müasir cəmiyyətlər, əsasən beş fundamental sosial institut üzərində strukturlaşır. Bunlara daha çox ailə, din, dövlət, iqtisadiyyat, elm, təhsil kimi təsisatlar daxildir [15, s.13-18]. Cəmiyyətin daxilində onlarla digər sosial institutlar fəaliyyət göstərə bilər. Ancaq onların heç birini,həyatı əhəmiyyəti və digər parametrlərinə görə ailə qədər fundamental institut hesab etmək olmaz. Cəmiyyətin dayağı və dağılması prosesinə daha çox yuxarıda göstərilən fundamental dəyərlər təsir göstərə bilir [154, s.30].

Ailənin idarə edilməsi olduqca mürəkkəb və məsuliyyətli elementləri - hüquqların, vəzifələrin və öhdəliklərin reallaşdırılması məsələsini əhatə edir. Bu missiyanın uğurla həyata keçirilməsi təkcə onun öz rifahını deyil, həm də cəmiyyətdəki bir çox problemlərin həllini təmin edə bilər. Ailə mürəkkəb struktura malikdir, yalnız ərdən və arvaddan ibarət olan ailə sadə ailə hesab edilir. Bununla belə ailənin tərkibində uşaqlar, valideynlər, nəvələr, nəticələr, digər yaxın qohumlar da təmsil oluna bilər. AR-nın Ailə Məcəlləsində ailə idarəçiliyinin hüquqi tənzimlənməsi məsələsinə müstəqil yer ayrılmamış

və ailə idarəçiliyinin anlayışı verilməmişdir, halbuki bu çox zəruri idi. Ailə idarəçiliyinin əsas məqsədi ailənin sosial-mədəni inkişafı, uşaqların tərbiyəsi, təhsili, sağlam böyüdülməsi və ailənin rifah halının kifayət qədər normal təmin edilməsinə xidmət edən amildir. Bu isə ailə başçısının – atanın və ya ananın təşkilati fəaliyyətinin vaxtında, düzgün və səmərəli qurulmasından asılıdır. Bu zaman əsas diqqət yalnız hüquqların və vəzifələrin mükəmməl həyata keçirilməsi ilə deyil, habelə öhdəliklərə əməl olunmasına diqqət yetirilməlidir. Ailənin hər bir üzvü özünü idarə etmək, ailənin digər üzvləri ilə münasibətlərini ailə dəyərlərinə bağlılıq əsasında qurması valideynlərin mövqeyindən və münasibətindən çox asılıdır. Ailə başçısı, öz ağlı və təcrübəsi ilə öz hərəkətlərini düzgün qurmalı, qarşıda duran vəzifələri, ailənin rifahını təmin etməlidir. Ailənin mənzil şəraitinin təmin olunması çox önəmlidir. Ailədə onun üzvləri arasında sağlam münasibətin qurulması, davranış mədəniyyətinin və əxlaqın, ailə rifahının və ailədaxili münasibətlərin düzgün əlaqələndirilməsinə istiqamətlənməlidir. Ata və ana öz hərəkətləri və davranışları ilə uşaqlara nümunə olmalı, onların əməyə, təhsilə, halallığa öyrətməli, mənəvi-əxlaqi tərbiyəyə xüsusi diqqət yetirməli, ailənin madd rifah halının yaxşılaşdırılmasını təmin etməlidir. Uşağın təhsilinin, tərbiyəsinin və mədəniyyətinin formalaşmasında ailənin böyük rolu vardır. Müxtəlif müəlliflər tərəfindən ailəyə fərqli anlayışlar, definisiyalar, izahlar və təriflər verilmişdir. Psixoloq L.Qurbanova göstərir ki, ailə — cəmiyyət daxilində özünəməxsus qayda-qanunları və qapalı həyat tərzi ilə seçilən, doğmalıq münasibətlərinə əsaslanan xüsusi bir qurumdur [221, s.9]. Müəlliflərdən İ.Mirzəyevin mövqeyinə görə ailə – nikah, qan qohumluluğu və ya övladlığa əsaslanan üzvlərin biri-biri ilə eyni məişət, qarşılıqlı kömək və cavabdehlik əlaqələri əsasında formalaşan kiçik qrupdur [243, s.13]. Ailə – cəmiyyətin əsas özəyi, şəxsi məişəti təşkil etməyin mühim forması hesab olunur. Bu, ər-arvadlıq ittifaqına, qohumluq əlaqələrinə, bir yerdə yaşayan və ümumi ailə təsərrüfatı ilə məşğul olan kişi və qadın, ər və arvad, valideynlər və uşaqlar, qardaşlar və bacılar, digər qohumlar arasındakı çoxtərəfli münasibətlərə əsaslanan ittifaq kimi səciyyəvi xüsusiyyətləri ilə fərqlənir.

«Azərbaycan dilinin izahlı lüğəti»nə görə «ittifaq» və ya «birlik» sözləri biri-birinə çox yaxın və oxşar istilahlar olmaqla, onlar insan və ya insan qruplarının müəyyən bir məqsəd üçün birgə hərəkət etməsi, səylərini birləşdirməsi, bir olması, bütövlük, müttəfiqlik, bölünməzlik, vəhdət, sıx əlaqə, həmrəylik, ümumilik kimi məna çalarlarını ehtiva edir [49, s.320; 50, s.613]. Ailə institutu tarixən vətəndaş cəmiyyətinin əsas təsisatlarından biri kimi insani dəyərlərin, mədəniyyətin və nəsillərin tarixi varisliyinin qoruyucusu, sabitliyin və yüksəlişin təməlidir. Ailə hər bir sivil cəmiyyətin əsasını təşkil edən, insanlığın ən ali, ülvi və saf duyğularını, nəcib niyyətlərini özündə təcəssüm etdirən ər-arvad ittifaqdır. Dünyada ailə, qadın və uşaq hüquqlarının mühafizəsi və müdafiəsi sahəsində problemlərin ildən-ilə artması, bu sahədə çoxsaylı terminlərin, ailənin statusunun, onun beynəlxalq standartlarının müəyyən edilməsi baxımından çox vacibdir. Bu məqsədlə müasir mərhələdə BMT-nin «Ailənin statusu haqqında», «Qadınların statusu haqqında», «Uşaqların statusu haqqında» XXI əsrin üç müfəssəl və müstəqil Konvensiyalarının qəbul edilməsi dövrümüzün vacib tələbatına çevrilmişdir. Buna görə də bu məsələnin həll edilməsi üçün müvafiq qurumların BMT qarşısında məsələ qaldırılması məqsədəuyğundur. Bu Konvensiyalarda ailənin, qadının və uşağın hüquqlarının mahiyyətinin, məzmununun, prioritetinin, müdafiəsinin, mühafizəsinin və mexanizmlərinin, beynəlxalq standartlarının müəyyən edilməsi təmin olunmalıdır. Belə bir sənədin qəbul olunması, üzv dövlətlərin analoji normativ-hüquqi aktlarının hazırlanması və qəbul edilməsi üçün baza rolunu oynaya bilər. Beynəlxalq səviyyədə ən nüfuzlu təşkilat hesab olunan BMT-nin müvafiq qərarlarının, elə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı - 822, 853, 874, 884 nömrəli qərarlarının icra olunmaması, onun hörmətini, nüfuzunu aşağı salır və fəaliyyətində ciddi çətinliklər yaradır. Buna görə də «BMT-nin Qərarlarının icrası üzrə Konvensiya»nın hazırlanması və qəbul edilməsi bu gün aktual və həll edilməsi çox vacib olan ciddi bir problemə çevrilmişdir ki, bütün bunların da həll edilməsi çox zəruridir. Bu gün ölkədə hüquqi dövlət quruculuğu sahəsində beynəlxalq standartlara əməl edilməsi, eyni zamanda vətəndaş cəmiyyəti təsisat-

larının gücləndirilməsi demokratiyanın inkişafına dəyərli töhfələr verən amil kimi vacibdir. Çünki vətəndaş cəmiyyətinin yaranması hüquqi dövlət və siyasi demokratiya ilə sıx bağlıdır [134, s.22-26; 147, s.3-21; 156, s.27-33]. Vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı və siyasi demokratiya tarixi fenomen olub, cəmiyyətin və dövlətin müəyyən inkişaf mərhələsinin məhsuludur. Hegel hesab edirdi ki, vətəndaş cəmiyyəti və dövlət sərbəst institutlar kimi eyniyyət təşkil edirlər. Onun fikrincə vətəndaş cəmiyyətində özəl, dövlətdə isə ümumi maraqlar cəmləşir. Vətəndaş cəmiyyətinin yaranmasının mühim xüsusiyyətlərindən biri insan və vətəndaş hüquqlarının ayrılmasıdır. Əgər insan hüquqları vətəndaş cəmiyyəti tərəfindən təmin olunursa, vətəndaş hüquqları hüquqi dövlət tərəfindən təmin olunur. Hər iki halda nəticə şəxsiyyətin hüquq və azadlıqlarının yerinə yetirilməsinə xidmət edir. Birinci halda ayrı-ayrı insanın həyatı, mülkiyyəti, öz imkanlarını realizə etmək hüquqları nəzərdə tutulursa; ikinci halda konkret dövlətin vətəndaşı kimi, onun dövlətə münasibətdə siyasi hüquqlara malik olması tələb edilir. Ölkədə vətəndaş cəmiyyəti, iqtisadiyyatın modernləşməsi – ictimai həyatın demokratikləşməsi – milli məkanın sistemli liberallaşması paradiqması gerçəkləşdikcə tədricən formalaşır [228, s.49]. Vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının əsası ailədə qoyulur. Cəmiyyət, dövlət və şəxsiyyət ailə ilə sıx bağlıdır. Biri-biri ilə sıx əlaqədə və qarşılıqlı təsir gücündədir. Ailə bioloji, sosial və məişət funksiyalarına görə cəmiyyətin özəyi olmaqla yanaşı, hər bir normal insanın böyük sərvəti, həyatının mənası və əsasıdır. Ailə əxlaq, mənəviyyat, cəsarət, vəfa, ehtiqad, ömrün sonuna qədər biri-birinə saf bağlılıq kimi dəyərlərin əsasında dayanan insan birliyidir [225, s.6-17]. Öz əsasını beynəlxalq hüquq normalarından və konstitusiyadan götürən ailə qanunvericiliyi ailə münasibətlərinin yaranmasının tənzimlənməsi və möhkəmlənməsinin, nikaha xitam verilməsinin hüquqi əsasını və prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədəki vəzifələrini müəyyən etmişdir. Belə ki, Ailə Məcəlləsinin 1.3-cü maddəsində göstərilir ki, ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin

qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısındakı məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir [73].

Ailə, ər-arvad, valideynlər və uşaqlar arasında tarixən formalaşmış konkret, qarşılıqlı münasibətlər sisteminin məcmusudur. AR-nın ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə, onun qanunlarına tabe olan, Azərbaycan xalqının xüsusi sosial-mədəni və milli kodu kimi təcəssüm edən azərbaycançılıq ideologiyasına, milli, mənəvi və əxlaqi dəyərlərə, dil, mədəniyyət, məişət, ərazi, həyat tərzi, adətlər, ənənələr, milli iqtisadiyyat və millətin vahid bütövlüyünü təcəssüm etdirən, üzvləri arasında hüquqa müvafiq olaraq bağlanmış nikah, övladlığa vermə, latınca deyildiyi kimi ***adoptio imitatur naturam*** və qohumluq münasibətlərinə əsaslanan, şəxsi və əmlak hüquqlarının və vəzifələrinin yaranmasına səbəb olan, ümumi ailə təsərrüfatının birgə idarə edilməsinə, uşaqların doğulması və tərbiyəsi kimi məqsədlərə yönələn, ailə yaratmağa xidmət edən, dövlətin və cəmiyyətin kiçik sosial qrupu, insan birliyi olaraq Azərbaycan ailəsinin əsas mahiyyətini təşkil edir. Ailə konstitusiya hüququnun müstəqil və kompleks institutu olmaqla, o tədqiqatın həm obyekti və həm də subyektidir. Ailənin mühim və sistemaltı elementi hesab olunan atalıq, analıq, uşaqlıq institutları altsistemləri təşkil edir, onların hər birinin ailə münasibətlərində səciyyəvi cəhətləri, analığın və atalığın müdafiəsi və uşaqlara münasibətdə onların hüquqlarının qorunması kimi elementləri əhatə edir. Ailə konstitusiya hüquqi mənada öz üzvlərinin – ərin, arvadın, uşaqların, qan qohumlarının və yaxud da övladlığa götürülənlərin hüquqlarını, vəzifələrini və öhdəliklərini ailə qanunvericiliyi müəyyən edir. Ailə, dövlətin sosial siyasətinin nəinki obyekti, habelə müstəqil subyekti hesab oluna bilər. Beynəlxalq və milli qanunvericiliklə müəyyən edilmiş qaydada, ailənin hüquqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini, ümumi ailə təsərrüfatının birgə idarə edilməsini təmin edən fəaliyyətin məcmusu – ailənin idarəçiliyi hesab olunur. Sosial təsisat, institut, birlik, ittifaq

olaraq ailənin hüquqları qanunvericiliyimizdə müstəqil norma kimi indiyə qədər müəyyən edilməmişdir [48, s.47-57; 152; 261, s.14-16]. Bu isə olduqca vacib və əhəmiyyətli olduğundan, öz hüquqi həllini tələb edir. İnsanın təbiətə və cəmiyyətə münasibətləri müəyyən təkamül yolu keçmiş, ailə, dövlət, din kimi təsisatlar yaranmışdır. Əsrlərlə formalaşmış dini baxışlar insan psixikasına təsir edərək elə möhkəmlənmişdir ki, insan onları yaddaşından silə bilməmişdir. Bu səbəbdən də dini baxışlar əsrlər boyu dünya mədəniyyətinin tərkib hissəsi kimi möhkəmlənmiş, bu gün də ailəyə və insana öz təsirini göstərməkdədir. Ailə-din münasibətləri qədim tarixə və mühim əhəmiyyətə malikdir. Sosial təsisat olaraq din, insanın Uca Tanrıya, Yaradana, öz Rəbbinə, Allahına, Peyğəmbərinə, dini kitablarına olan inamının, əqidəsinin, duyğularının, hisslərinin, emosiyalarının məcmusunu ifadə edən baxışlar, inanclar sistemidir. Cəmiyyətdə din və ailə münasibətləri sıx əlaqədə, qarşılıqlı təsirdə olmaqla, onların biri-birinə təsiri güclüdür. Ailələrin və ailə üzvlərinin dinə olan inamı onun möhkəmliyinin, uzunömürlülüyünün, mənəvi və əxlaqi saflığının formalaşmasında və inkişafında böyük əhəmiyyətə malikdir. Dinlər ailələrdə təşəkkül tapır, qorunur, saxlanılır və yaşanır. Din insanların mənəvi dünyasını, varlığını, şəxsin fərdi xüsusiyyətlərini öyrənir, onun əqidə və məsləkinin, inam və inancının formalaşmasına əhəmiyyətli təsir göstərir. İnsanın ruhla əlaqəli belə bir tələbatı onun inam və inancı ilə bağlıdır. Bunun əsasında isə insanın axirət dünyasında ən yüksək səviyyədə təmin olunmuş həyata ümidi dayanır. Müxtəlif dinlərin qaydaları və qanunları ailəyə, ailə üzvlərinə, qadınlara və uşaqlara mühim təsir göstərir, bəşəri dəyərlərin formalaşmasında və inkişafında əhəmiyyətli rol oynayır. Xüsusilə islamda ailəyə, anaya, qadına, körpəyə olan münasibət ən yüksək səviyyədə qiymətləndirilə bilər. İslam dinində ailə və nikaha göstərilən münasibət səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir. Latınların dediyi kimi, ***nuptiae sunt coniunctio maris et feminae et consortium omnis vitae, divini et humani iuris communicatio.***

Bəşərin atası Adəmin Həvva ana ilə kəbini Allah tərəfindən göydə kəsilmişdir və onlar bir-birinə halal edilmişlər. O vaxtdan eti-

barən nikah kişi ilə qadını möhkəm tellərlə bir-birinə bağlayan halal və qanuni bir əlaqə formasına çevrilmişdir [148, s.5-6]. Nikah ailə birliyinin rəsmiləşdirmə formasıdır və o ailənin ən mühim tərkib elementlərindən biridir. Dini inanclar, dini ideologiya və dini rituallar öz varlığını cəmiyyətin özəyi olan ailələrdə təcəssüm etdirir, insanların ruhunda və qəlbində yaşayır, əməllərində özünü göstərir, nəsildən-nəsilə ötürülür və cəmiyyətin mənəvi-ideoloji əsasını təşkil edir. Din və dini qayda-qanun ailələrin mənəvi-əxlaqi dəyərlərinin və ailədaxili münasibətlərin düzgün qurulmasında, inkişafında və möhkəmləndirilməsində mühim rol oynayır. Ailə cəmiyyətin, dövlətin, insanlığın maddi, mənəvi, psixoloji, sosioloji, iqtisadi, siyasi inkişafının əsasında dayanır və onun təməlini təşkil edir. Mədəniyyətin, sivilizasiyanın, əxlaqın, tərbiyənin, ideyaların, elmin, dinin başlıca əsası, nəsildən-nəsilə keçən ötürücü, daşıyıcısı və qoruyucusu ailə hesab olunur [484, s.99-107]. Son illər dövlət-ailə münasibətlərində və cəmiyyətdə yaranmış mürəkkəb proseslərin, böhranların müəyyən müsbət məcraya yönəlməsində ailələrin rolunun gücləndirilməsinə diqqət artırılmışdır [197, s.7-35].

Ailənin ən mühim funksiyalarından biri maddi istehsal və maddi nemətlərlə sıx bağlı olan iqtisadi və ya təsərrüfat funksiyasıdır. Bu isə insanların və ailənin maddi ehtiyaclarını təmin edir və onsuz həyat mümükün deyildir. Canlı orqanizm olaraq, insan, ər-arvad birliyi kimi ailə və ailə üzvləri bütün şəraitlərdə, doğulandan ölənə qədər yeməklə və içməklə öz maddi ehtiyaclarını ödəmək, bioloji varlıqlarını təmin etmək üçün istehlak funksiyasını yerinə yetirilər. İnsan, ailə və onun üzvləri maddi nemətlər yemədən, içmədən, istehlak etmədən öz varlıqlarını qoruyub saxlaya bilməzlər. Maddi nemətlər istehsalının çeşidli və yüksək inkişafı insan rifahı ilə bağlıdır. Bütün sosial dövlətlərdə insanın və ailənin rifahına xidmət edən belə sosial təminatlar həmişə diqqətdə saxlanılmışdır. Məlumdur ki, iqtisadiyyat siyasəti müəyyən edir və siyasətdən öndə gəlir. Siyasət iqtisadiyyat təmərküzləşmiş ifadəsidir. Ona görə də onlar arasında sıx bağlılıq və qarşılıqlı əlaqə vardır [251, s.16]. Sivilizasiyalar yaranandan bəri bütün dövrlərdə iqtisadi amil həlledici olmuş, siyasi dəyişikliklərin,

mübarizələrin və müharibələrin əsasında dayanmışdır. Buna görə də cəmiyyətin bazisinin əsasında iqtisadiyyat və ictimai-siyasi quruluş dayanır. Bu isə cəmiyyətdə əmək alətləri, istehsal üsulu və maddi nemətlər istehsalı ilə sıx bağlıdır və cəmiyyətin iqtisadi əsasını təşkil edir. Ailənin istehsal və istehlak funksiyası cəmiyyətdə ən qədim tarixi köklərə malikdir, öz inkişafı, öz formaları və rəngarəng məzmunu ilə səciyyəvidir. Ailənin istehlak funksiyasının kifayət qədər yaxşı təmin edilməsi ailə rahatlığının əsasında dayanır. Maddi nemətlərin bolluğu ailə və ailə üzvlərinin sağlamlığı və firavan yaşaması üçün önəmlidir. Ailə təsərrüfatının ailənin və ailə üzvlərinin istehsal və istehlak funksiyalarının düzgün həyata keçirilməsi, onun maddi ehtiyaclarının ödənilməsinin mühim vasitələrindən biri hesab olunur. Buna görə də dövlət sahibkarlıq fəaliyyətinin və ailənin maddi təminatlarının ödənilməsinə xüsusi önəm verir. Ailə həyatı müxtəlif maddi-bioloji, fizioloji, təsərrüfat, mənəvi, əxlaqi, hüquqi, psixoloji, estetik proseslərin vəhdətini əks etdirir. Ailənin sosial rolu insanın özünün təkrar istehsalında və bəşər nəslinin davam etdirilməsində ifadə olunmaqla müqəddəs səciyyə daşıyır. Ailənin mənşəyi məsələsində başlıca olaraq iki əsas baxış mövcuddur. Belə hesab edilir ki, ibtidai icma quruluşunun əvvəlində nizamsız cinsi münasibətlər hökmran olmuş, sonra isə onu qrup nikahı əvəz etmişdir. Zaman keçdikcə müvafiq surətdə ana və ata nəslinə uyğun olan böyük ana ailə icmasının, daha sonra isə böyük ata ailə icmasının əsasını təşkil edən qoşa nikah münasibətləri dövriyyədən sıxışdırılıb çıxarılmışdır. Nəticədə qadın və kişi nəslinin biri digərini əvəzləməsi prosesi baş vermişdir. İstər ana və istərsə də ata nəsli üzrə qoşa nikah uzun müddət istifadədə olmuşdur. Monoqamiya, qadının kişi tərəfindən «əsarətə» alınması ilə nəticələnmişdir. Müəyyən cəmiyyətlərdə ailədaxili əlaqələrin xarakteri, xüsusi mülkiyyət münasibətləri ilə üzvi şəkildə inkişaf etmiş, səbəb-nəticə əlaqəsində olmuşdur. Formaları və funksiyaları mövcud istehsal münasibətlərinin, bütövlükdə ictimai münasibətlərin xarakteri və cəmiyyətin mədəni inkişaf səviyyəsi ilə şərtlənən ailə, öz növbəsində cəmiyyətin həyatına əhəmiyyətli təsir göstərmiş və onun inkişafını təmin etmişdir. Uşaqların doğulması, tərbiyəsi, yeniyetmələ-

rin sosiallaşması, əmək prosesinin fasiləsiz olaraq həyata keçirilməsi, fiziki, mənəvi və əxlaqi-estetik inkişafa təsir göstərən çox saylı amillər zaman-zaman təkmilləşmişdir [157, s.19].

«Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda insan hüquqlarına və azadlıqlarına, o cümlədən ailə hüquqlarının etibarlı müdafiəsinə təminat verilmişdir [101, s.3-10]. Qadın hüquqlarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində ən böyük hüquqi akt, referendum yolu ilə qəbul edilmiş AR-nın Konstitusiyası hesab oluna bilər. Bu sənəddə Azərbaycanda demokratik, hüquqi, dünyəvi və unitar respublika qurulduğu elan edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətimizin ali məqsədi olduğu bəyan edilmişdir [83, s.7-9].

Yaradıcı təfəkkürün məhsulu olmaqla milli konstitusiyamız, ölkənin iqtisadi, ictimai-siyasi və hüquqi həyatında baş vermiş proseslərə mütənasib olaraq vaxtaşırı olaraq təkmilləşdirilmişdir. Belə ki, 24 avqust 2002-ci ildə keçirilən referendumla Konstitusiyanın 3, 27, 71, 76, 83, 88, 89, 95-96, 101-102, 105, 109, 125, 128, 130-133-cü maddələrində, cəmi 24 dəyişiklik aparılmış və müvafiq əlavələr edilmişdir. Cəmiyyətin, dövlətin və ailənin həyatında baş verən real şərait ailə və ailə münasibətlərinə aid konstitusiya normalarında 18 mart 2009-cu il tarixdə keçirilən referendumla daha mühim dəyişikliklər aparılmasına zərurət yaratmışdır. Belə ki, Konstitusiyanın dövlətin ali məqsədinə həsr edilmiş 12-ci maddəsinə «Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin», iqtisadi inkişaf və dövlət münasibətlərinə həsr edilmiş 15-ci maddəsinə «sosial yönümlü», 17-ci maddənin adına «uşaqlar» sözü, habelə həmin maddəyə «valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər» məzmunlu III, «uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır» məzmunlu IV, «15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər» məzmunlu V, «uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir» məzmunlu VI əlavələr, şəxsi toxunulmazlıq hüququna həsr edilmiş 32-ci maddəyə «və

ailə həyatına», «hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır» və s. bu kimi söz və söz birləşmələri əlavə edilməklə, həmin maddələrin mükəmməlləşdirilməsi təmin edilmişdir. Bu referendumla Konstitusiyanın 12, 15, 17-19, 25, 29, 32, 39, 48, 50, 67, 71-72, 75, 84, 88, 92, 95-96, 101, 108-109, 125, 129-131, 146 və 149-cu maddələrində, cəmi 29 dəyişiklik aparılmış və əlavələr edilmişdir [12; 96].

«Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» 26 sentyabr 2016-cı il tarixdə keçirilən referendumda konstitusiyanın 23-cü maddəsinə müvafiq dəyişikliklər aparılmış, 6 maddə ilk dəfə olaraq konstitusiyaya əlavə edilmişdir. Belə ki, AR Milli Məclisinin buraxılmasına həsr olunmuş 98-ci maddəsi, AR-nın vitse-prezidentlərinə həsr olunmuş 103-cü maddəsi, AR vitse-prezidentlərinin toxunulmazlığına həsr olunmuş 106-cı maddəsi, onların təminatına həsr olunmuş $108^1$-ci maddəsi, dövlətlərarası və hökümətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun onlara verilməsinə həsr olunmuş $110^1$-cu maddəsi və bələdiyyələrin məsuliyyəti məsələsinə həsr olunmuş 146-cı maddəsi ilk dəfə olaraq tarixi zərurət və Azərbaycan cəmiyyətinin reallıqları nəzərə alınaraq konstitusiyamıza əlavə edilmişdir [87]. Eləcə də referendum zamanı silahlı qüvvələrin konstitusiya statusunun təkmilləşdirilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsiplərinin müasirləşdirilməsi, bərabərlik hüququ, mülkiyyət hüququ, şəxsi toxunulmazlıq hüququ, tətil hüququ, fikir və söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vətəndaşlıq hüququnun təminatı, seçki hüququ, müraciət etmək hüququ, birləşmək hüququ, azad sahibkarlıq hüququ, hüquq və azadlıqların inzibati və məhkəmə təminatı, zərərin ödənilməsini tələb etmək hüququ, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, AR Milli Məclisinin deputatlığına namizədlərə dair tələblər, AR Milli Məclisi deputatlığından məhrum etmə və onların səlahiyyətlərinin itirilməsi, AR-nın Prezidentliyinə namizədlərə aid tələblər, AR Prezidenti seçkilərinin əsasları, AR-nın Prezidenti vəzifəsindən getdikdə, onun səlahiyyətlərinin icrası, AR Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə və hakimliyə namizədliyə aid tələblərə həsr olunmuş 9, 24,

25, 29, 32, 36, 47, 49, 53, 56, 57, 58, 59, 60, 68, 71, 85, 89, 100, 101, 105, 121 və 126-cı maddələrində müvafiq dəyişikliklər aparılmış, onların daha da təkmilləşdirilməsi təmin edilmişdir. Göründüyü kimi konstitusiyaya edilmiş dəyişikliklərin 15 maddəsi bilavasitə «Əsas insan və vətəndaş hüquqları və azadlıqlarına dair» normalara, digər dəyişikliklər isə qanunverici, icraedici və məhkəmə hakimiyyətinin, habelə insan hüquq və azadlıqlarının konstitusiya təminatlarının möhkəmləndirilməsinə həsr olunmuşdur. Bütün bu dəyişikliklər və əlavələr bu və ya digər dərəcədə ailə qadın və uşaq hüquqlarının konstitusiya statusunun daha da təkmilləşdirilməsinə xidmət etmişdir [1]. Beləliklə, son üç referendumla ölkə həyatında baş vermiş inkişafa və dəyişikliklərə adekvat olaraq, Konstitusiyanın 82 maddəsinə əlavələr və dəyişikliklər edilmişdir. Bunların da əhəmiyyətli hissəsi ailə və ailə münasibətlərinə, ailənin və uşaqların hüquqlarının genişləndirilməsinə və mühafizəsinə bilavasitə aid olan dəyişiklər hesab oluna bilər [12; 96]. Konstitusiyada referendum yolu ilə aparılmış islahatlar və dəyişikliklər AR-nın Ailə Məcəlləsində, Mülki Məcəlləsində, Mülki-Prosessual Məcəlləsində və digər zəruri normativ-hüquqi aktlarda müvafiq dəyişikliklərin aparılması ilə nəticələnmişdir [92].

Ailənin və ailə münasibətlərinin inkişafı üçün mühim əhəmiyyət kəsb edən normalar konstitusiyada geniş təsbit olunmuşdur. Belə ki, 25-ci maddə hamının, ailənin, o cümlədən qadının və kişinin qanun və məhkəmə qarşısında bərabərliyi, kişi ilə qadının eyni hüquqlara və azadlıqlara sahib olması, cinsi fərqlərə görə ayrı-seçkiliyin qadağan edilməsi, qadının və kişinin dövlətin ictimai-siyasi həyatında və idarə olunmasında fəaliyyəti üçün çoxsaylı tədbirlər görülmüşdür. Ailənin təhlükəsizliyi və ailə sirlərinin qorunması şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi hüququnun tərkib hissəsi kimi xüsusi diqqətdə saxlanılmışdır [87]. Ailənin hüquqi cəhətdən yaranmasında yetkinlik yaşına çatmış qadın və kişi arasında könüllü ittifaqın bağlanmasının vacib hüquqi şərtlərindən biri bu əqdin xüsusi orqanlarda qeyd edilməsi ilə bağlıdır. Buna görə də AR-nın Konstitusiyasının 34-cü maddəsində nikah, onun hüquqi statusu, elementləri, şərtlə-

ri, tərəflərin hüquq və öhdəlikləri bu normada fundamental dəyərlər kimi özünün konstitusion-hüquqi təsbitini tapmışdır. Ailənin, yəni qadının və kişinin könüllü birliyinin hüquqi cəhətdən nikah rəsmiləşdirilməsi, tərəflərin könüllü razılığı əsasında həyata keçirilir, heç kəs zorla evləndirilə və ya ərə verilə bilməz.

Konstitusiyanın 34-cü və 17-ci maddələrində göstərilən normativ tənzimlənmə, bir qədər də mükəmməlləşdirilərək qeyd edilmişdir ki, «nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir» [85]. Bu da o deməkdir ki, evlənmək arzusunda olan yetkinlik yaşına çatmış və öz iradələrini sərbəst olaraq ifadə edən qadın və kişi məhz ailə qurmaq məqsədilə könüllü ittifaq yaradırlar. Konstitusiyanın 34-cü maddəsinin IV bəndində göstərilmişdir ki, ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ və həm də vəzifəsidir. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcu hesab olunur. 18 yaşına çatmış və əmək qabiliyyətli olan övladların əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borclu olması, konstitusiyanın 34-cü maddəsinin V bəndində nəzərdə tutulmuşdur [85].

Ailə və ailə münasibətləri beynəlxalq hüquq normalarına və AR Konstitusiyasına müvafiq olaraq hazırlanmış və 28 dekabr 1999-cu il tarixli qanunla təsdiq edilmiş Ailə Məcəlləsi ilə tənzim edilir [73, s.5]. Ailə Məcəlləsi ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə üzvlərinin hüquqlarını və vəzifələrini, dövlət orqanlarının bu sahədəki vəzifə və funksiylarının ailə ittifaqının müvafiq orqanlarına qeydə alınması qaydalarını müəyyən edir [71, s.3-4]. Vətəndaşların ailədəki hüquqlarının, yalnız qanun əsasında məhdudlaşdırılmasına yol verilir [71, s.3-7]. Ailənin qorunub saxlanmasında və inkişafında ailə muxtariyyətinin, ailə suverenliyinin mühim əhəmiyyəti vardır [47]. Ailə öz daxilində öz problemlərini və öz sirlərini qoruyub saxlamalı və yaranmış hər hansı bir çətinliyi müstəqil olaraq, muxtariyyət prinsipi əsasında özü həll etməyi bacarmalıdır. Buna görə də Ailə Məcəlləsi ailə muxtariyyətinin təmin olunmasına böyük üstünlük verir, bunu ailənin monalit birliyinin, uzun

ömürlülüyünün və möhkəmliyinin mühim elementi hesab edir. Təsadüfi deyil ki, Ailə Məcəlləsinin 1.3-cü maddəsi, ailənin işinə hər kəsin qarışmazlığının yolverilməzliyi prinsipini təsbit etmişdir. Soruşulanların 92.7%-i ailədaxili problemlərin, yalnız ailə üzvlərinin birgə səyi ilə həll edilməsinin vacibliyini vurğulamış, kənar təsirlərdən qorunmanın ailənin möhkəmliyi və onun daxili sirlərinin mühafizəsi üçün vacib hesab etmişlər [244, s.12-13]. Ailənin muxtariyyəti, həm də ailə üzvləri arasında xətrin, hörmətin, abırın, həyanın qorunub saxlanması üçün əhəmiyyətlidir. Çünki Azərbaycan ailəsinin hər bir üzvünün ailədə və cəmiyyətdə öz yeri, öz statusu və tarixən formalaşmış ənənəvi rolu vardır. Yazılmamış qanunlardan başqa, həm də sınaqdan çıxmış mənəvi-əxlaqi dəyərlərin ölçüləri ailə başçısının – kişinin, ananın, ağsaqqalların barışdırıcı rolunu, nisbətən kiçik ailə üzvlərinin özündən böyük və yaşlı nəslin nümayəndələrinə böyük hörmət etməsi, rəftar və münasibətlərin yerini gözləməsi yazılmamış ailədaxili qayda hesab edilir. Azərbaycan ailəsində ağsaqqalın, böyüyün sözü həmişə keçərli və üstün səciyyə daşımışdır. Cəmiyyətdə gedən dinamik inkişaf bu gün Azərbaycan ailəsinin əhəmiyyətinin və rolunun ildən-ilə artdığını göstərir. Buna adekvat olaraq son illər ailənin kompleks inkişafı üçün sistemli və ardıcıl Dövlət Proqramları hazırlanıb həyata keçirilməkdədir.

Müasir ailənin strukturunda valideynlərin və uşaqların yeri və rolu nəzərə alınaraq, onların hər biri haqqında hüquqmüəyyənedici normaların hazırlanmasına və qəbuluna zərurət yaranmışdır. Bu gün Azərbaycan ailəsində uşaqların sayının azalması, ailələrin dağılması, uşaqların dövlət himayəsinə verilməsi, münaqişələrin və ailə zorakılığının, yetkinlik yaşına çatmamışlar və qadınlar tərəfindən törədilən cinayətlərin artması bu sahədə problemlərin hələ də qaldığını təsdiq edir. Dünyada, natamam ailələrin artması, tək analar institutunun çoxalması ciddi narahatçılıq doğurduğu halda, bu rəqəm Azərbaycanda ildən-ilə azalmaqdadır. Bu baxımdan ənənəvi Azərbaycan ailəsinin qorunub saxlanması, gənc ailələrin inkişafı hazırda dövlət siyasətinin əsas prioritetləri sırasında yer tutur. Ailənin mənzil şəraitinin yaxşılaşması, Rusiyada olduğu kimi «ailə kapitalı»nın artırılması, uşaq müəssisələrinin genişlənməsi və müasirləşməsi əhəmiyyətli tədbirlər

sırasındadır. Beynəlxalq hüquq normalarının müəyyən etdiyi standartlar nəzərə alınaraq Azərbaycanda ailənin inkişafı üçün zəruri olan normativ-hüquqi aktlar, məcəllələr və digər sənədlər hazırlanıb qəbul edilmişdir [582]. «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 9 dekabr 1999-cu il tarixli, «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)» təsdiq edilməsi haqqında AR Prezidentinin 26 oktyabr 2005-ci il tarixli, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 15 sentyabr 2008-ci il tarixli, «Azərbaycan gəncliyinin inkişafı üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 7 iyul 2011-ci il tarixli Sərəncamları ailənin inkişafında əhəmiyyətli rol oynamışdır [582]. Bundan sonra da bir sıra əhəmiyyətli Dövlət Proqramları hazırlanmış və hazırda həyata keçirilməkdədir.

Ailə hüququ ilə sıx bağlı olan yetkinlik yaşına çatmamışların və uşaqların hüquqlarının qorunması sahəsində zəruri olan bir çox qanun layihələri üzərində işlər intensiv olaraq aparılmaqdadır. Artıq xeyli müddətdir ki, «Reproduktiv sağlamlığın qorunması və ailə planlaşdırılması haqqında» AR-nın Qanun Layihəsi ən müxtəlif təşkilatlar və onların mütəxəssisləri tərəfindən geniş müzakirə edilmişdir. Qürur hissi ilə qeyd etmək lazımdır ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi tədbirləri cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Belə ki, 6 fevral 2006-cı ildə İlham Əliyevin Fərmanı ilə «Qadın problemləri üzrə Dövlət Komitəsi»nin statusu daha da təkmilləşdirilərək «Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi» yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi genişləndirilmişdir. Müstəqillik illərində ailə və ailə münasibətlərinin tənzimlənməsi və inkişafını təmin edən və beynəlxalq hüquq normalarına və standartlarına cavab verən qanunlar hazırlanıb, qəbul edilmişdir. «Sanitariya-epidemioloji salamatlıq haqqın-

da» 10 noyabr 1992-ci il tarixli, «Əhalinin sağlamlığının qorunması haqqında» 26 iyun 1997-ci il tarixli, «İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu, «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» 24 may 2005-ci il tarixli, «İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli, «Ünvanlı dövlət sosial yardım haqqında»21 oktyabr 2005-ci il tarixli, «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında» 10 oktyabr 2006-ci il tarixli, «Məişət zorakılığının qarşısının alınması haqqında» 22 iyun 2010-cu il tarixli, «İcbari tibbi sığorta haqqında» 24 iyun 2011-ci il tarixli, «Uşaqların icbari dispanserizasiyası haqqında» AR-nın 5 mart 2013-cü il tarixli Qanunları, «Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı»nın təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin 15 sentyabr 2006-ci il tarixli Qərarı, «Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 24 oktyabr 2013-cü il tarixli, «Ana və uşaqların sağlamlığının yaxşılaşdırmasına dair (2014-2020-ci illər üçün) Dövlət Proqamı»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 13 iyun 2014-cü il tarixli, «2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası»nın təsdiq edilməsi haqqında AR Prezidentinin 26 yanvar 2015-ci il tarixli Sərəncamları və digər çoxsaylı normativ-hüquqi aktlar ailə və ailə münasibətlərinin inkişafında əhəmiyyətli rol oynamışdır [91, s.9-15]. Nəticədə ailələr və ailə münasibətləri möhkəmlənmiş, sağlam nəsil yetişdirilməsi və istedadlı gənclərin gələcəyimizin layiqli sahibi olacağı istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Ölkədə ən ali normativ-hüquqi akt olan AR-nın Konstitusiyası, ənənəvi olaraq, ən ali dəyərləri və təsisatları Konstitusiyada təsbit edilməklə yanaşı, lakin ailə münasibətlərində ayrı-ayrı subyektlərin hüquqlarını və vəzifələrini, öhdəliklərini ehtiva edən müstəqil qanunların və məcəllələrin qəbul edilməsi mühim əhəmiyyət kəsb etmişdir [88]. Təhlillər göstərir ki, müasir ailənin və ailə

münasibətlərinin yalnız qanunvericilik əsasları təkmilləşmir, həm də bu sahədə tarixən formalaşmış adətlər və ənənələr də özünə məxsus şəkildə dəyişikliklərə məruz qalır, müasirləşir. Buna görə də Azərbaycan ailəsinin statusunun hüquqi təsbitinin nəzəri və təcrübi əsasları müasirləşmiş, beynəlxalq standartların tələblərinə yaxınlaşmışdır. Tədqiqat zamanı dialektik inkişaf qanunlarından, təhlillərdən, ümumiləşdirmələrdən, sosial sorğulardan, müqayisəli yanaşmalardan, kompleks elmi-nəzəri metod və metodologiyalardan [234, s.7-41] yaradıcılıqla istifadə edilmişdir. Bu tədqiqat əsəri ailənin konstitusiya hüquqi statusunun möhkəmləndirilməsi ilə bağlı zamanın müasir çağırışlarına verilən cavab hesab oluna bilər. Bütün bunları, eləcə də AR-da ailə institutunun konstitusiya hüquqi statusunun təhlili, tədqiqi, perspektivləri və beynəlxalq hüquq normaları ilə müqayisəli təhlilini yekunlaşdıraraq, konstitusiyanın 17-ci maddəsinin aşağıdakı yeni redaksiyada qəbul edilməsini təklif edirik:

«Maddə 17. Ailə, uşaq və dövlət

I. Yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji və bioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq, onu tərbiyə edib yetişdirmək məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis edilən, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş qaydalara əməl etməklə, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan kişi və qadının könüllü birliyi, ər-arvad ittifaqı ailə hesab olunur.

II. Cəmiyyətin təbii və əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. O cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Ailə zorakılıqları qanunla qadağan edilir və məsuliyyətə səbəb olur. Dövlət ailənin inkişafına zəruri köməklik göstərir. Ər və arvad ailə münasibətlərində, o cümlədən ailə qarşısında duran vəzifələrin və öhdəliklərin həyata keçirilməsində və ailənin idarə olunmasında hüquqca tamamilə bərabərdirlər. Ailə imkan dairəsində, ələxüsus onun yaranma dövründə və öhdəsində kiçik yaşlı uşaqların

böyüdülməsi və tərbiyə olunması məsuliyyəti düşdüyü zaman, dövlət tərəfindən hərtərəfli mühafizə və müdafiə olunur, zəruri həyat şəraiti ilə təmin edilir. Analıq və uşaqlıq xüsusi himayə və yardım hüququ verir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Ailə üzvlərinin beynəlxalq və milli hüquqla müəyyən edilmiş hüquqlarının, vəzifələrinin və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən təminat verilir.

III. Hər bir şəxs 18 yaşına, yəni yetkinlik yaşına çatana qədər uşaq hesab edilir. Nikahla və yaxud nikahsız doğulmuş uşaqlar eyni sosial müdafiədən istifadə edirlər. Hər bir uşaq doğulduqdan sonra dərhal qeydə alınmaq, ada malik olmaq və vətəndaşlıq əldə etmək hüququna malikdir.

Uşaqlar və gənclər hər kəsin mənsub olduğu iqtisadi və sosial hüquqlara malikdirlər. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Valideynlər uşaqların təhsilinə və mənəvi-əxlaqi tərbiyəsinə qayğı göstərməli, onları ictimai faydalı əməyə hazırlamalı və cəmiyyətin layiqli üzvü kimi yetişdirməlidirlər. Valideynlərin bu borcunun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Dövlət uşaq tərbiyə və təhsil müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda ona birdəfəlik müavinət vermək, çoxuşaqlı ailələrin maddi vəziyyətini yaxşılaşdırmaq üçün yardımlar ayırmaq, güzəştlər etmək, habelə ailəyə başqa növ zəruri müavinətlər vermək, yardım göstərmək və mənzil şəraitini yaxşılaşdırmaq yolu ilə ailənin qayğısına qalır. Dövlət çoxuşaqlı ailələrə birdəfəlik, fasiləsiz yardımlar göstərir, analıq kapitalı fondunun yaradılması və qanunvericiliyin nəzərdə tutduğu hallarda ailələrə verilməsi üçün tədbirlər görür.

IV. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar 18 yaşına çatana qədər dövlətin himayəsindədirlər.

V. Uşaqları, onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən qanunsuz fəaliyyətə cəlb etmək qadağandır.

VI. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VII. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə dövlət nəzarət edir».

AR-nın Konstitusiyasında ailənin və uşağın statusuna dair təklif edilən konstitusiya normasının qəbul edilməsi hesab edirəm ki, müstəsna əhəmiyyət kəsb edəcək, ailə-dövlət, uşaq-dövlət münasibətlərinin mükəmməl tənzimlənməsinə münbit şərait yaradacaqdır. Bütün bunlara müvafiq olaraq Ailə Məcəlləsinin də ya yenidən hazırlanması, ya da əsaslı şəkildə təkmilləşdirilməsi zəruri olacaqdır.

# IV FƏSİL. AZƏRBAYCAN AİLƏSİNİN STRUKTURUNDA TƏMSİL OLUNAN SUBYEKTLƏRİN STATUSU

## 4.1. Qloballaşma və transformasiya şəraitində Azərbaycan ailəsinin strukturu

Tədqiqat obyekti kimi seçilmiş "Azərbaycan ailəsi" və onun konstitusiya hüquqi statusunun tədqiqinin cəmiyyətin mühim tərkib hissəsi kimi öyrənilməsi, ailə və ailə münasibətlərində baş verən proseslərin dünyada və ölkəmizin ictimai-siyasi, sosial və hüquqi həyatında baş verən köklü islahatlarla əlaqələndirilməsi, onun ən aktual problemlərinin üzə çıxarılması , bu problemlərin həll edilməsi məqsədi ilə müvafiq təkliflərin verilməsi kimi tədbirlər sisteminin həyata keçirilməsi, müasir Azərbaycan reallıqları üçün son dərəcə aktual və əhəmiyyətlidir. Eyni zamanda ümumilikdə ailənin və xüsusi ilə Azərbaycan ailəsinin quruluşunda-strukturunda əsrlər boyu baş verən müsbət və mənfi dəyişikliklərin tədqiqi, bu problemin öyrənilməsi baxımından çox vacibdir.

Bu gün artıq otuz ildən çoxdur ki, Azərbaycanda demokratik, dünyəvi və hüquqi dövlət quruculuğu prosesləri Ulu Öndər, dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin və onun layiqli siyasi varisi, ölkə prezidenti, cənab İlham Əliyevin böyük dövlətçilik təcrübəsi, iradəsi və qətiyyəti nəticəsində öz uğurlu inkişaf yolunu inamla davam etdirməkdədir. Bu mərhələ- böyük imperiya hesab edilən SSRİ-nin tədricən dağılması,müstəqil dövlətçiliyin bərpası və onun yeni, müasir tələblər baxımından tam təzədən qurulması, sosialist təsərrüfat sistemindən bazar münasibətlərinə keçid, sahibkarlığın inkişafına böyük dəstək verilməsi, ərazilərimizin erməni faşistləri tərəfindən işğal edilməsi və onun azad edilməsi uğrunda illərlə davam edən mücadilə, xüsusi ilə dünyada gedən qloballaşma, inteqrasiya və transformasiya prosesləri kontekstində götürüldükdə hər yerdə olduğu kimi mürəkkəb çətinliklərlə bağlı olmuşdur. Bununla belə dünya şöhrətli

böyük dövlət xadimi Heydər Əliyevin müdrik idarəçilik vərdişləri, böyük siyasi iradəsi, qətiyyəti , peşəkar rəhbərlik keyfiyyətləri və çox saylı digər zəruri problemlərin uğurlu həlli ölkəni böhrandan çıxarmağı bacarmış, dövlətimizin və onun tərkib elementi olan ailələrin quruculuq, iqtisadi və sosial problemlərinin həllini əsasən təmin etmişdir. Beynəlxalq inteqrasiya prosesləri, demokratiya və hüquqi dövlət quruculuğu ölkə əhalisinin sosial rifahının əhəmiyyətli dərəcədə yaxşılaşmasına, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsinə və inkişafına stimul vermişdir [134, s.22-26; 147, s.3-21; 156, s.27-33]. Etiraf edək ki, bu dövrün ictimai-siyasi, sosial, iqtisadi və hüquqi mənzərəsi Ulu Öndər Heydər Əliyevin və ölkə prezidenti, cənab İlham Əliyevin məruzə və çıxışlarında kifayət qədər mükəmməl, obyektiv və ətraflı şərh edilmişdir [167, s.166; 226; 231; 232]. Aydın olmuşdur ki, cəmiyyətdə mühim təsisatlardan biri olan ailə, qloballaşma və transformasiya şəraitində təbii olaraq müəyyən müsbət və mənfi yönümlü dəyişikliklərə məruz qalmışdır. Bu istər ailənin, istərsə də onun hüquqi əsası olan nikahın müxtəlif formalarının təhlili zamanı özünü tam göstərir [135, s.124-139]. Beləki, beynəlxalq əhəmiyyətli amillərin, iqtisadi və siyasi əlaqələrin, mədəni və informasiya mübadilələrinin, ayrı-ayrı ölkələrin sosial gerçəkliyinin, hərtərəfli artan təsir proseslərinin məcmusu, geniş mənada dünyəvi bir proses kimi qloballaşmanın mahiyyəti ilə sıx bağlıdır [576, s.7]. Müasir beynəlxalq institutların stimullaşdırdığı, onların qarşılıqlı təsir mexanizmlərini cilovladığı, ideyaların yayıldığı, onların daşıyıcılarının yerdəyişməsinin sərbəstliyini, kapitalı, əmtəəni, müasir xidmətlərin və yüksək texnologiyaların əsasında formalaşan vahid dünya maliyyə və informasiya məkanının qovuşması prosesini ehtiva edir [376, s.10]. Planetar hadisə kimi bu gün qloballaşma yalnız iqtisadiyyatda, siyasətdə, beynəlxalq münasibətlərdə, informasiya texnologiyalarında deyil, həm də dövlət, ailə, din və hüquq sistemlərinə də az və ya çox dərəcədə öz təsirini göstərməkdədir. Qloballaşma, bir-birindən asılı olmayan xalqların, ölkələrin, sistemlərin, institutların, dövlətlərin vahid dünya nizamında mərkəzləşdirilməsinə xidmət edir. Bu da bütün xalqların səylərini bir yerə cəmləşdirmək, qlobal problemlərin həllini, yeni dünya qay-

dalarını, yeni ümumbəşəri dəyərlərə nail olmağı nəzərdə tutur. Nəticə etibarilə bu proses, yer üzərində mövcud olan bütün insanların, təşkilatların, təsisatların, ölkələrin vahid dünya nizamında mərkəzləşməsini təmin etməlidir. Keçid dövrü üçün islahatların aparılması dərin proses olmaqla sosialist prinsipləri ilə qurulmuş cəmiyyətdən, tədricən demokratik hüquqi dövlətə keçidi şərtləndirilir. Bu proses bəzən «transformasiya» (lat. transformatio – dəyişdirmə, başqa şəklə salmaq mənasını verir) prosesləri kimi təqdim edilir. Modernləşmə, müasir tələblərə cavab verən sistemin təkmilləşməsi; transformasiya isə ictimai proseslərin köklü şəkildə yenidən qurulmasını təmin edən radikal dəyişikliklərin məcmusu kimi təqdim edilir. Transformasiya ictimai münasibətlər sahəsində bütün iqtisadi, ictimai, dövlət quruluşunun müsbət yönümdə kompleks dəyişməsi kimi təcəssüm edir. Bu isə iqtisadi və siyasi hakimiyyətin həyata keçirilməsi vasitəsinin və metodlarının məcmusunu özündə birləşdirməklə, siyasi rejimin dəyişilməsi, ölkənin siyasi-iqtisadi inkişafında və simasında baş verən əsaslı dəyişikliklərdə özünü göstərir. Mülkiyyətin müxtəlif formalarının üzvi surətdə əlaqələndirilməsi, bazar iqtisadiyyatı əsasında sahibkarlığın və azad rəqabətin inkişafının təmin edilməsi, bu proseslərə stimul verir və əhəmiyyətli təsir göstərir [445, s.15-18].

Qloballaşma kontekstində baş verən proseslər dünya nizamına mütənasib olaraq sahələrarası inteqrasiyanı təmin edir. Bu zaman iqtisadi asılılılıq və əlaqələr, nəticə etibarı ilə dünyada vahid təsərrüfat sisteminin yaranmasını hədəfləmişdir. Bütün pul, xidmət, ticarət, maliyyə, texnologiya, istehsal vasitələri və əmək ehtiyatları təmərküzləşir, ideal olaraq birləşir, milli sədlərdən azad olur, regionda vahid daxili bazar formalaşır, bu zaman əməyin effektivliyi, əhalinin yaşayış səviyyəsi yaxşılaşır, istehsal münasibətlərinin və xidmətin səviyyəsi əvvəllər olmadığı bir sürətlə moderinləşir və yüksək inkişafa gətirib çıxarır. Bu gün qloballaşma və inteqrasiya prosesləri gedən dünya sisteminə Azərbaycanın transformasiyası problemi, ön sırada durur və daim diqqətdə saxlanılır. Ölkəmizin dünya sisteminə və Qərbə inteqrasiyası, onun yüksək inkişafının əsasında dayanır [167, s.166]. Müşahidələr və təhlillər təsdiq edir ki, qloballaşan dünyada, bu gün

Qərbdə ailə, onun strukturu, mövcud durumu təəsüf ki, öz ənənəvi dəyərlərini tədricən itirməyə meyillidir.Xüsusi ilə qeyd edilməsi zəruridir ki, Qərbdə ailə bu gün, iqtisadi amilin mühim bir tərkib elementi kimi faktiki olaraq, investisiya gətirmək vasitəsinə çevrilmiş, zamanın ən qədim təsisatlarından biri olmasına baxmayaraq gündən-günə genişlənən kapitalist münasibətlərinin mənfi təsirlərinə məruz qalmış, dəyərlər, əxlaq, müqqəddəslik öz yerini və rolunu pula, əşyalara, başqa qiymətli vasitələrə üstünlük verməsi ilə fərqlənməyə başlamışdır. Mürəkkəb mexanizm kimi ailə öz tərkibində valideynləri, uşaqları və ailənin digər üzvlərini əhatə etməklə, cəmiyyətə ən müxtəlif təsir effektlərinə malik olan insan birliyi hesab olunur. Bütün bunlarla yanaşı, qeyd edilməsi zəruridir ki, Şərq və müsəlman ölkəsi kimi Azərbaycanın müasir ailə modelində tarixi, ənənəvi dəyərlərə, milli-mənəvi və əxlaqi keyfiyyətlərə üstünlük verilir, qadına, uşağa hörmət, böyüyə, kiçiyə diqqət zaman-zaman formalaşmış müsbət ənənələrə söykənir. Tarixdə olduğu kimi hər bir azərbaycanlı üçün ailədən üstün dəyər, müqəddəs təsisat yoxdur. Ailə Vətən hesab olunur və o müqəddəs mahiyyət daşıyır. Ailə cəmiyyətin iqtisadi, siyasi, sosial, hüquqi inkişafının güzgüsü kimi özünü göstərir və ən müxtəlif proseslərə əhəmiyyətli təsir göstərir.

Müasir ailələrin strukturunda əhəmiyyətli dəyişikliklər baş verməkdədir. Latınca "quruluş", "qayda", "yerləşmə" mənasında işlədilən «struktur» sözü, ailəyə tətbiq edilərkən, müxtəlif meyarlara əsaslanır və bu birliyin toplusunu səciyyələndirir. İbtidai dövrlərdən başlayaraq icma, tayfa, qəbilə münasibətlərində ailə, əsasən ümumi təsərrüfatın birlikdə yaradılmasına, nəslin qorunub saxlanmasına və davamlı inkişafına xidmət etmişdir. Nəsil artırmaq xüsusiyyəti bütün cəmiyyətlərdə ailə fəaliyyətinin əsasında, məqsədlərində öncül yer tutur. Zaman keçdikcə böyük ailələr kiçik ailələrə bölünür və ya kiçik ailələrin tarixi birliyi böyük ailələrə, hətta deyərdim ki, dövlət tipli strukturlara çevrilir. Əmək bölgüsü inkişaf etdikcə, ailələrin iqtisadi təmayülü müxtəlif çalar qazanır, yeni təsərrüfat münasibətləri , peşələr və əmək bölgüləri yaranır. Bu gün müasir Azərbaycan ailəsində bir çox nəsilləri özündə birləşdirən böyük ailələr və onlardan

ayrılaraq muxtariyyət qazanan kiçik ailələr geniş yer almışdır. Ailənin tərkibi, quruluşu, sosial strukturu əhəmiyyətli inkişaf yolu keçmişdir və mükəmməl formalaşma mərhələsinə illər ərzində zaman-zaman daxil olmuşdur. Qloballaşma prosesləri Azərbaycan ailəsinə müəyyən ötəri təsirlər etsə də, lakin onun əsas ənənəvi keyfiyyəti və dəyərləri mahiyyət baxımından qorunub saxlanmışdır. Azərbaycan ailəsinin üzvü hesab edilən valideynlərin – o cümlədən, atanın, ananın, uşaqların, babanın, nənənin, övladlığa götürülənlərin, qohumların və digərlərinin hüquq sistemində bu və ya digər dərəcədə təsbiti, onların hər birinə konstitusiya hüququnun müstəqil bir institutu kimi yanaşmanı tələb edir. Ailə Məcəlləsi və digər normativ-hüquqi aktlarda ailəyə, valideynlərə, uşaqlara, onların hüquq və vəzifələrinə müəyyən yer ayrılsada, lakin onları mükəmməl hesab etmək olmaz . Müasir Azərbaycan ailəsi bəzən sadə və bəzən də mürəkkəb, lakin bütöv bir struktura malikdir. Bu strukturu, onun sistemini və sistemaltı elementlərini elmi-nəzəri baxımdan öyrənmədən, ailənin konstitusiya hüquqi statusunu müəyyən etmək, öyrənmək, təhlil etmək, onun statusunun səciyyəvi cəhətlərini müəyyənləşdirmək mümkünsüzdür. Ailə və ailə münasibətlərində, ailə qanunvericiliyində istifadə edilən anlayışlara və kateqoriyalara aydınlıq gətirilməsi, tədqiq edilən problemin mahiyyətinin və məzmununun açılması üçün olduqca vacibdir. Metodoloji baxımdan elmdə anlayışların, kateqoriyaların və predmetlərin qarşılıqlı əlaqədə olan tərkib elementlərinin vəhdəti, onun «bütöv», onu təşkil edən elementlərin özü isə «hissə» kimi səciyyələndirilə bilər , qarşılıqlı münasibətlərdə və təsirlərdədir. Elementlər nisbətən sabit, keyfiyyətcə elə reallıqlar hesab olunurlar ki, onlar başqa reallıqlarla qarşılıqlı əlaqədədir və yalnız birlikdə götürüldükdə bütöv sistem anlayışını ehtiva edir. Sistemin elementləri arasındakı daxili əlaqələrin müəyyən qaydası isə struktur anlayışının tərkibinə daxildir. Latın dilində «struktur» – «quruluş», «nizam», «əlaqə» mənasını verməklə, obyektin bütövlüyünü təmin edən dayanıqlı əlaqələrin məcmusunu ifadə edir. «Ailənin strukturu» onun qarşılıqlı əlaqədə olan tərkib hissəsinin, quruluşunun, məzmununun, hüquq sisteminin, hüquq və vəzifələrinin vəhdətini və digər vacib məsə-

ləlari əhatə edir [578]. Bu baxımdan struktur, məzmun etibarı ilə sistem elementləri arasında qarşılıqlı əlaqə vasitəsi hesab olunur. Sistemin elementləri arasındakı münasibətlərin cəmi, həmin elementlərin təşkil edilməsi və qaydaya salınması mənasını ifadə edir. Hər bir sistem bütöv bir struktura malikdir və qarşılıqlı əlaqədə olan elementləri müəyyən funksiyalar daxilində faəliyyətini əhatə edir [258, s.48-51].

Struktur sistemin sabitliyini, funksiya isə onun dəyişkənliyini ifadə edir. Deməli, sistem, struktur, funksiyanın ziddiyyətli vəhdəti hesab oluna bilər. Funksiyada olmaq, elementləri və onların daxili əlaqələrini şərtləndirir [258, s.48-51]. Kişi və qadın, ər və arvad birliyini ifadə edən ailə bütöv və mükəmməl bir sistem olmaq etibarilə, onun sistemaltı elementlərinə subyekt olaraq kişi, qadın, uşaq və s. bu kimi elementlər daxildir. Ailə və onun funksiyalarını həyata keçirən sistem və struktur biri-biri ilə sıx qarşılıqlı əlaqədə və vəhdətdədir. Buna görə də ailə institutunun konstitusiya hüquqi statusu, bu sistemə daxil olan sistemaltı elementlərin hər birinin də statusunu, tədqiqini və onların məcmusunu öyrənməyə zərurət yaradır. Ailə - və ailə üzvləri cəmiyyətdə və ictimai-siyasi həyatda maddi nemətlər istehsalının əsas yaradıcısı, istehsalçısı və istehlakçısı olmaqla, olduqca rəngarəng və mürəkkəb funksiyalar həyata keçirirlər. Ailə – sosiomədəni və biososial fenomen olmaqla, o heç bir vaxt bir yerdə sabit, dəyişilməz olaraq dayanıb durmur, cəmiyyət asağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yuxarı formaya keçir, yeni-yeni funksiyalar yerinə yetirir və yeni-yeni vəzifələr həyata keçirir, bu isə zaman-zaman müəyyən dəyişikliklərə məruz qalır [200, s.189]. Dünya şöhrətli mütəfəkkirlər- İ.B Yakob, F.Engels, K.Yunq, E.Fromm və başqaları, cəmiyyətdə əhəmiyyətli yer tutan ailə təsisatının ən müxtəlif baxımdan öyrənilməsini və tədqiqini son dərəcə vacib hesab etmişlər. Ailənin struktur tərkibi baxımından, bəzi tədqiqatçılar onun həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən yaranmış konkret münasibətlər sistemi, ailə üzvlərnin nikah və qohumluq əlaqələrini, ümumi məişət və qarşılıqlı münasibətlərin ailə adlanan vahid bir sistemdə birləşməsini , onun sosial vacibliyinin böyük əhəmiyyətini xüsusi olaraq qeyd etməklə, hər

hansı bir ölkənin əhalisinin armasına xidmət edən insan birliyi olduğunu vurğulamışlar. [397, s.94].

Ailə institutunun konstitusiya-hüquqi statusunun tədqiqi «ailə»nin, «nikah»ın, «ailə üzvləri»nin – «valideyn»lərin, «uşaq»ların, «atalığ»ın, «analığ»ın, «uşaqlığ»ın hüquqi vəziyyətinin, statusunun müəyyən edilməsi, valideynlik hüququndan məhrum etmə, aliment öhdəliklərinin hüququ tənzimlənməsini, ailənin sınaqdan çıxmış tarixi ənənələrinin bərpasını, qorunub saxlanılmasını və s. təmin edən hüquq normalarının mükəmməlləşdirilməsi məsələlərini daim diqqətdə saxlamağı zəruri hesab etmişlər. Ailə, ər və arvad, valideynlər və uşaqlar arasında qarşılıqlı münasibətlərin tarixən formalaşan konkret sistemini ehtiva edir. Bu da ailənin yaradılması, uşaqların doğulması və tərbiyə edilməsi məqsədilə təsis edilən; üzvlərinin nikah, hüquqi rəsmiləşdirməsi və qohumluq münasibətlərinə, məişət və təsərrüfat ümumilliyinə, qarşılıqlı mənəvi məsuliyyətə əsaslanan, millətin xüsusi sosiomədəni kodu ilə şərtlənən, cəmiyyətdə, ictimai-siyasi və dövlət həyatında kiçik sosial qrup və insan birliyi kimi səciyyəvi xüsusiyyətləri ilə fərqlənməsində ifadə olunur [304, s.9-12].

Ailə cəmiyyətin mühim bir təsisatı kimi, konstitusiya hüququnun müstəqil, fundamental və kompleks institutu hesab oluna bilər. Buna görə də ailə və ailədaxili münasibətlər müstəqil, yekcins, birtipli və konstitusiya-hüquqi institut olaraq xüsusi tənzimləmə meyarları ilə fərqlənir. Ailə və ailədaxili münasibətlər valideynlər, uşaqlar və ailənin digər üzvlərinin subyektliyinə əsaslanır, onların hüquqlarının və vəzifələrinin məcmusunu ehtiva edir. Bu zaman «atalıq», «analıq», «uşaqlıq» kimi sosial və hüquq institutları ümumi ailə institutunun tərkib elementləri, altsistemləri kimi özünü göstərir və onların hər birinin ailə və ailə münasibətlərindəki yeri və rolu konkret hüquq normaları ilə müəyyən edilir. Bununla bağlı qeyd edilməsi zəruridir ki, bu məsələlər normativ-hüquqi aktlarda konkret olaraq göstərilsədə, ailə münasibətlərində tarixən formalaşmış ənənələr, hətta yazılmamış qanunlar belə Azərbaycan ailəsində öz əhəmiyyətini saxlamaqdadır. Ailə adlanan bu sistem valideynləri, uşaqları və qohumluq münasibətlərində təmsil olunan digər şəxsləri - övladlığa və qəyyum-

luğa götürülənləri də əhatə edə bilər. Bu baxımdan ailə sosial dövlət siyasətinin həm obyekti və həm də müstəqil subyekti hesab oluna bilər [304, s.9-12]. Ailənin və ailə üzvlərinin hüquqları və vəzifələri, vətəndaşın və insanın çoxsaylı hüquqlarının və vəzifələrinin məcmusu ilə əsasən eynilik təşkil edir. Belə hüquqlar və vəzifələr beynəlxalq sənədlərdə, AR-nın Konstitusiyasında, Ailə Məcəlləsində və eləcə də digər müvafiq normativ-hüquqi aktlarda özünün geniş ifadəsini tapmışdır [75; 85, s.13-34]. AR-nın dövlət ailə siyasəti – ailə və ailə münasibətlərinin inkişafının təmin olunmasına, ailə üzvlərinin hüquqlarının və vəzifələrinin mükəmməl təsbitinə, bu hüquqların və vəzifələrin etibarlı mühafizəsinə və həyata keçirilməsinə xüsusi önəm verilməsini vacib hesab edir. Belə tədbirlər mərhələli, zaman və məkan göstəricilərinə görə əhatəli, ardıcıl və bütöv bir sistem təşkil edir. Bu da ərazi baxımından bütün ölkəni əhatə etməsi şərti ilə mükəmməl hesab oluna bilər [404, s.70; 489, s.47-54].

«Azərbaycan dilinin izahlı lüğəti»ndə «ana», «analıq» və digər oxşar sözlərə müəyən izahlar verilmişdir. Orada qeyd edilmişdir ki, «ana» dedikdə, «övladı olan qadın», «analıq» dedikdə isə, ananın öz uşaqları ilə olan əlaqələri və münasibətləri, ananın vəzifəsi, analıq hissi, analıq borcu, analıq etmək kimi məna və məzmun elementlərini əhatə edir [49, s.114]. «Analıq» – qadının, ananın uşaq doğması, saxlaması və tərbiyə etməsi kimi funksiyalarla əlaqədar olan hüquqların və vəzifələrin, psixoloji durumun məcmusunu ehtiva edir [215, s.57]. Əgər etimioloji baxımdan məsələyə yanaşsaq, onda «ana» – uşağın bioloji valideyni və ya bu rolu sosial baxımdan daşıyan qadın, doğduğu uşağın süd anası, genetik anası, yumurtalığındakı hüceyrələrdən uşaq əmələ gələn və onu doğan bioloji ana başa düşülür. «Analıq» isə «ana» sözü ilə, sözdüzəldici «-lıq$^4$» şəkilçisinin birləşməsi nəticəsində yaranmış bir istilah olmaqla, qadının dünyaya uşaq gətirməsi, uşaq doğması prosesi ilə yaranan, sosial və bioloji statusunu, analıq keyfiyyətini, analığı, analıq hissini, emosional və psixoloji analıq duyğularını əhatə edir [495, s.116-122; 515, s.34-40]. Etnoqraflar hesab edirlər ki, «ana» sözü ana-ene, əmə, əmcək, əmmək, məmə

sözlərindən yaranaraq tədricən «ana» kimi formalaşmış və müqəddəs mahiyyət daşımışdır [212, s.15-17].

Təsadüfi deyil ki, «Əhalinin sağlamlığının qorunması haqqında» AR-nın 26 iyun 1997-ci il tarixli Qanununda göstərilir ki, yetkinlik yaşına çatmış hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır [604]. Ana olmaq və buna müvafiq olaraq analıq hüququ, qadının uşaq doğması faktı ilə sıx bağlı olan hüquq və vəzifələrin məcmusunu, analığın hüquqi statusunu ehtiva edir. Bu, mahiyyət etibarilə hüquqi anlayış olsa da, lakin onun bioloji, sosioloji, psixoloji, tibbi və digər aspektləri məsələyə kompleks yanaşmanı tələb edir. Qadının ana olması və onun uşaq doğması faktı reproduktiv fəaliyyətlə və sağlamlıqla üzvi surətdə əlaqəli olmaqla yanaşı, bu fakt qadının statusunun əhəmiyyətli dərəcədə dəyişməsi və analıq hüququ əldə etməsi ilə nəticələnir. Analıq hüququnun məzmunu, tərkib elementləri qadının sosial, əmək, inzibati, cinayət, prosessual, sağlamlıq, təhsil və digər hüquq sahələrində ictimai münasibətləri tənzim edən normativ-hüquqi aktlarda – məcəllələrdə, qanunlarda ifadə olunur, onun müdafiəsinin və mühafizəsinin təşkilati-hüquqi mexanizmləri, üsul və vasitələri müfəssəl şəkildə əks etdirilir [524, s.114-118; 528, s.58-66]. Bir subyekt və fərd olaraq ana olmaq və analıq hüququ qazanmaq, hər şeydən öncə, onun qadın cinsinə mənsub olması kimi bioloji və cinsi xüsusiyyəti ilə bağlıdır. Ana olmaq və buna müvafiq olaraq analıq hüququ əldə etmək, normalda yalnız qadın cinsinə mənsub konkret fərdə aid edilə bilər. Ana, istisnasız olaraq yalnız qadın cinsinə mənsub olan şəxs, fərd ola bilər. Bununla da qadın, analıq hüququna sahib olmaq imkanını əldə etmiş olur. Qadına, anaya tez-tez “evdar qadın” kimi də baxılır. Bu mənada «evdar qadın» dedikdə, nikah münasibətlərində olduğu əri ilə birlikdə ailə və ev təsərrüfatını birlikdə idarə edən, uşaqların doğulması, böyüdülməsi, təhsili, tərbiyəsi, sağlamlığı və digər ailədaxili işlərlə məşğul olub, ev təsərrüfatını təcrübi olaraq həyata keçirilməsini təmin edən qadın, ana, “evdar qadın” hesab olunur.

Yer üzündəki bütün canlıların ən yüksək və ali təbəqəsi, maddi və mənəvi mədəniyyətin yaradıcısı və onun inkişafının subyekti olan

insana, təəssüf ki, indiyə kimi bitkin elmi anlayış verilməmiş, onun mahiyyəti və səciyyəvi xüsusiyyətləri sona qədər araşdırılmamışdır. İnsan cinsinə məxsus olan subyektlərin – qadının və kişinin mahiyyəti, ümumi və fərdi səciyyəvi xüsusiyyətləri tam öyrənilməmiş, ümumiyyətlə bu məhfuma və onun ifadə etdiyi insan fərdinə – kişi və qadına bioloji, sosioloji, tibbi, hüquqi, fəlsəfi və sair mənalarda mükəmməl hüquqi anlayışlar verilməmişdir. Tədqiqatlarda insan – qadın, kişi hüquqları, onların ümumi və fərdi cəhətləri, mahiyyəti, yeri və rolu dəqiqləşdirilməmiş, ictimai-siyasi, humanitar və təbabət elmlərinin müxtəlif sahələri tərəfindən kompleks tədqiqatlara tam, geniş mənada cəlb edilməmişdir.

Sosioloqlar ailənin funksiyalarını tədqiq edərkən bu funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə təsir edən amilləri də təhlil edirlər. Buna görə də milli və xarici ölkə sosiologiyasında ailəyə institut və ya qrup qismində yanaşmaqla, onları birləşdirməyə, bir araya salmağa təşəbbüslər göstərilir. Sosial institut kimi ailənin sabit fəaliyyət göstərməsi yalnız o zaman mümkündür ki, ailə digər institutlarla, hər şeydən əvvəl dövlətlə, hüquqla, ictimai rəylə, dinlə, təhsillə, mədəniyyətlə qarşılıqlı əlaqədə və münasibətlərdə götürülmüş olsun [391, s.73-76]. Cəmiyyətin struktur tərkibinə, funksional və normativ sistemlərinə daxil olmaqla, ailə öz üzvlərinin davranışını tənzimləyir, onlara xas olan sosial rolları və statusları müəyyən edir. Əgər tarixən qədim dövrdə ailədaxili münasibətlər, dəyərlər, ənənələr, adətlər, vərdişlər əsasında tənzimlənirdisə, sonralar bu münasibətlər, həm də müəyyən normativ hüquqi aktlarla tənzimlənməyə başlandı. Ailə rolları – insanın cəmiyyətdəki sosial rollarından biri kimi ər-arvad, valideyn – ana, ata, uşaq – oğul, qız, qardaş, bacı, nəsillərarası və nəsillərdaxili münasibətlərdə – baba, nənə, böyük, kiçik rolların fərqliliyini nəzərə alan yanaşma tələb edir. Ailədə ayrı-ayrı rolların icrası bir sıra şərtlərdən asılıdır. Bu da hər şeydən əvvəl, rol obrazının düzgün formalaşması ilə bağlıdır. Buna görə də fərd, motivasiyanın ona diktə etdiyi qaydaları və normaları dəqiq və aydın təsəvvür etməlidir. Ailənin düzgün və uğurla formalaşdırılması üçün lazım gəldikdə xüsusi çətinlik çəkmədən roldan çıxmaq və yeni rola daxil olmaq ba-

carığına yiyələnmək qabiliyyəti ailə münasibətləri üçün çox vacibdir [21, s.11-41; 74, s. 4-5; 111; 136; 261, s.7-31; 274, s.281-284; 315]. İnsan bütün canlıların ən müdriki və ağıllısı olsa da, bununla belə heyvanlarla müqayisədə onun təbiətlə instinktiv uyğunlaşma qabiliyyətinə daha az malik olan varlıqdır. Doğulduğu anda ən köməksiz və bütün canlıların ən bacarıqsızı kimi o, daha çox himayəyə ehtiyac duyur. Çünki insan həyata uyğunlaşmaq üçün lazım olan zəruri vasitələrlə təmin edilməmişdir. Onun heyvanlar kimi təbiətlə qarşılıqlı ünsiyyəti və bağlılığı zaman-zaman itirilmişdir. Ağlı, şüuru hələ lazımi səviyyədə olmayan və yeni həyata başlayarkən öz ailəsinin himayəsində yaşayan, nə özünü, nə də başqalarını tanımayan insan, uzun bir inkişaf mərhələsini keçməyə məhkumdur. Belə keçidlər onu daha da müdrikləşdirir, cəmiyyətdə və ailədə roluna stimul verir. Bu sahədə insan fərdinin və cəmiyyətlə birlikdə insan şəxsiyyətinin yeri və rolu kifayət qədər əhəmiyyətlidir. Cəmiyyətdə insanın, fərdin, geniş mənada şəxsiyyətin statusu daim təkamüldə olmuşdur,hətta bəzi müəlliflər tarixi-insan azadlığı uğrunda mübarizə tarixi olduğunu xüsusi olaraq qeyd edirlər. Əgər fərd bioloji amillə daha çox səciyyələnirsə, şəxsiyyət dini-mənəvi, əxlaqi kateqoriya olmaqla, ruhla daha çox bağlı olur. İnsanın parlaq fərd olması keyfiyyəti, onun hələ şəxsiyyət olması mənasını vermir [603].

İnsan və şəxsiyyət problemlərinin görkəmli tədqiqatçısı, amerika filosof və psixoloq Uilyam Ceyms şəxsiyyətin tərkib elementlərini üç əsas qrupa - fiziki, sosial və mənəvi qrupa bölür. Bizim hər birimizin bədən quruluşu fiziki şəxsiyyəti; başqa insanlar tərəfindən etiraf olunan keyfiyyətlərin məcmusu- sosial şəxsiyyəti; konkret götürülmüş mənəvi qabiliyyət və xüsusiyyətlər isə təfəkkürün ayrı-ayrı vəziyyətlərinin tam birləşməsi yolu ilə onun mənəvi tərəfini ifadə edir [603]. Şəxsiyyət fərdi xarakterizə edən sosial əhəmiyyətli əlamətlərin davamlı sistemi, ictimai inkişafın məhsulu və konkret fəaliyyət və ünsiyyət vasitəsi olmaqla, sosial münasibətlər sisteminə fərdlərin qoşulmasında ifadə olunur [422, s.144].

Şəxsiyyətin və cəmiyyətin qarşılıqlı münasibəti kontekstində insan subyekt kimi çıxış edir. O, yalnız cəmiyyətlə, ictimai münasi-

bətlərin subyekti olmaq etibarilə şəxsiyyət statusu alır. Şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibətləri dövlət-vətəndaş, dövlət-ailə, vətəndaş-cəmiyyət münasibətlərinə transformasiya olunur. Şəxsiyyət, dövlət-hüquq kateqoriyasına münasibətdə vətəndaş kimi çıxış edir. İnsan dövlətçilik sisteminə daxil edilərkən bu zaman onun vətəndaşlığı mühim amil rolunu oynayır. Ailə və cəmiyyət, ailə və şəxsiyyət, ailə və dövlət, ailə və din münasibətləri hakim istehsal üsulunun, həyat tərzinin və ictimai münasibətlərin təsiri altında, bütün tarix boyu dəyişərək inkişaf etmiş və mükəmməlləşmişdir. Cəmiyyət inkişaf edərək kişinin və qadının qarşılıqlı münasibətlərini xeyli dərəcədə tənzimləmiş, təkmilləşdirmiş, qadınların istehsalatda, sosial və mənəvi sahədəki diskriminasiyasını aradan qaldırmaq sahəsində mühim işlər görülmüşdür. Bu proses bu gün də davam etməkdədir. Ailənin mahiyyətinin, məzmununun, strukturunun və formasının təhlili, onu tarixən dəyişən sosial qrup adlandırmağa imkan verir. Bu qrupun da universal əlaməti heteroseksual əlaqədə, qohumluq əlaqələri sistemində, şəxsiyyətin sosial və fərdi keyfiyyətlərinin təmin edilməsində və iqtisadi fəaliyyətin həyata keçirilməsində ifadə olunur [366, s.31].

Qohumluq və nikah ailəyə yaxın olan, ailənin strukturundan danışarkən tez-tez istifadə edilən anlayışdır. ***Qohumluq*** – bu, fərdlər arasında nikaha və ya qan qohumluğu münasibətlərinə əsaslanan doğma, yaxın, isti əlaqələrin məcmusundan ibarətdir [412, s.29].

Qloballaşan dünyada tibb elminin son nailiyyətləri əsasında, indi kişi cinsinə mənsub olan müəyyən şəxslərin öz təkidli tələbləri ilə, tibbi yolla, əməliyyat yolu ilə orqanizmində müvafiq dəyişikliklər aparmaq yolu ilə «ana olması», uşaq doğması hallarına rast gəlinsə də, lakin bu kimi təzahürlər ümumiləşmiş formada qəbul edilə bilməz. Buna görə də tədqiqatımız ana və analıq hüququnun elmi-nəzəri tədqiqi zamanı yalnız təbii prosesləri, bioloji, sosial, hüquqi, psixoloji istiqamətləri əhatə etmiş, «insan», «qadın», «kişi», «ana», «analıq», «analıq hüququ» kimi terminlərə aydınlıq gətirilmiş və ilk dəfə olaraq onların müəllif definisiyasına yer ayrılmışdır. Kompleks elmi araşdırmalar və aparılmış təhlillər, insana bir fərd olaraq aşağıdakı kimi anlayış verməyə imkan verir. Yer üzündəki canlıların ən yüksək

və ali təbəqəsi, tarixi prosesin, maddi və mənəvi mədəniyyətin yaradıcısı və inkişafının subyekti, həyatın digər formaları ilə genetik cəhətdən bağlı olan, əmək alətləri və maddi nemətlər istehsal etmək qabiliyyətinə, aydın nitqə, təfəkkürə, şüura, zəkaya, cəmiyyətdə ictimai-siyasi rola malik olan, fəal hərəkətlər edən, həyatın gözəlliklərindən, təbiətin ecazkarlıqlarından zövq almağı bacaran, bioloji, fizioloji, morfoloji, genetik, anatomik əlamətlərin məcmusunu özündə birləşdirən, öz nəslini artırmaq kimi bioloji funksiyanı yerinə yetirməyə qadir olan, biososial və intellektual varlıq - ***insan hesab olunur***. İnsan, kişi – erkək və qadın – dişi kimi iki bioloji cinsdə təmsil olunur [371, s.77-85; 495, s.116-122; 515, s.34-40].

Bioloji fərqlərdən asılı olmayaraq insanların sosial rollarında, fəaliyyət formalarında, emosional xüsusiyyətlərində, davranışlarında, hərəkətlərində, səslərində, vərdişlərində, yazışmalarında, həyata münasibətlərində, bioloji, psixi alqoritmlərində olan vəziyyət bir fərd olaraq, qadının və ananın başlıca xüsusiyyətlərini səciyyələndirir. Cinsi əlamət üzrə kateqoriyalaşdırmanı qəbul etmək, fərdi seçimdən asılı olmadan daha çox bioloji cəhətlərlə şərtlənir və sosial cəhətdən məcburi hesab olunur. Bu baxımdan hər bir insanın öz mahiyyətinə və xüsusiyyətlərinə görə ya kişi, ya da qadın cinsinə mənsub olması qaçılmazdır və təbii prosesdir. Qadın və ana kimi insanı bioloji cəhətdən səciyyələndirən keyfiyyət xüsusiyyətləri, bir qayda olaraq ana və analıq hüququnun əsasını təşkil edir.

Həyat, yaranan və hissə-hissə dağılan proseslərin fasiləsiz, ritmik hərəkətlərinin məcmusudur. Təsadüfi deyil ki, hər hansı bir orqanizmin inkişafı ömür adlanan müəyyən zaman kəsiyi ilə məhdudlaşır. Bu müddət ərzində o reproduktiv baxımdan yetkin bir vəziyyətə qədər inkişaf edərək, özündən sonrakı nəsli yaratmaq xüsusiyyətləri qazanır. Canlıların ən böyük və ən əsas xüsusiyyəti, onun özü kimi canlıları təkrar yarada bilmək, nəsil artırmaq qabiliyyətidir. Qidalanma, böyümə, üz və toxumaların forma və kimyəvi tərkibinin sabit və eyni qalması kimi keyfiyyətlər canlıların ən mühim xüsusiyyəti hesab olunur. Canlı hüceyrənin özü-özünü eyni və təkrar yaratmaq üçün çox böyük gücə malik olması,irsiyyətin bütün hallarda və za-

manlarda heyrətamiz dərəcədə qorunub saxlanılması tədqiqatçıları daha dərindən düşünməyə və onun bioloji səbəblərini axtarmağa vadar edir. Ali heyvanlarda və insanda yenidən bərpa olunma prosesləri, onlarda bütün həyatı boyu, fasiləsiz olaraq davam edir. Canlı materiyanın əbədi olmasının əsasını, materialın və onun tərkib xüsusiyyətini təşkil edən informasiya energetik özülün varislik yolu ilə ardıcıl olaraq, nəsildən nəsilə ötürülməsi kimi xüsusiyyətlər belə deməyə əsas verir ki, hazırda yaşayan canlı insan orqanizmlərinin hər biri əslində öz cinsi hüceyrələri vasitəsilə milyon illər bundan əvvəl yaşamış qədim insanla əlaqə yaratmış olur. Bu əlaqə və informasiya varisliyi DNT molekullarındakı ***informasiya energetik özülün*** üzü köçürülərək, çox böyük dəqiqliklə sonrakı nəslinə ötürülməsi yolu ilə təmin edilir. Obrazlı desək, cinsi hüceyrələr bütün tarix boyunca və indinin özündə də potensial, əbədi hüceyrələr hesab oluna bilərlər. Elm sübut edir ki, insanın qoloqrafik modeli yetkinləşmiş ana bətnində fiziki cismin – bədənin yaranmasından əvvəl əmələ gəlir. İnsanın DNT – dezoksiribonuklein spiralındakı genlər, yalnız zülalların quruluşu haqqında informasiya daşıyır. Lakin zülallar hələ orqanizm demək deyildir. Genetik kodun özü DNT uzunluğunun cəmi 1%-ni təşkil edir. Qalan 99%-i isə özündə elektromaqnit dalğalarını daşımaqla, xüsusi proqram əsasında irsi olaraq həyata keçirilir. Bu proqram əsasında insan orqanizmini bütün incəliklərinə qədər dəqiq əks etdirən model formalaşır. Bu inkişaf öz gücünü ilahi mənbədən – ***Vakumdan, kosmik fəzadan*** alır. Sevgi hisslərinin nəticəsi olaraq xarici mühitdən daxil olan informasiya, xromosomları məcbur edir ki, hər bir konkret insanın spesifik obrazını yaratsın. İnsan embrionunun bölünən hüceyrələri ilk öncə, yalnız qoloqrafik nüsxənin həcminin doldurulmasını təmin edir. İnsan bədəni embrion formasında, cinsi əlaqə zamanı ata spermasının ana yumurta hüceyrəsinin, gələcək insanın qoloqramını verən informasiya – energetik özülün – şüurun eyni bir vaxtda uşaqlığa daxil olub, onların orada qovuşması prosesində yaranır. Bu isə kişi orqazmı nəticəsində fəzanın rezonans axını sayəsində qadının uşaqlığına atılır. Yumurta hüceyrəsinin DNT spiralı, yaranmış embirionu öz informasiya-energetik mənbəyi ilə şüalandırır və

nəticədə orqanizmin bütün ilkin fərdi cizgiləri və xüsusiyyətləri yaranmış olur. Model reallaşdırılır. Şüuru-informasiya energetik özülü hərəkətə gətirən fəzanın rezonans axınları, şüuru – onun öz informasiya energetik göstəricilərinə görə öz valideynlərinin normasına uyğun gələn nöqtəyə doğru yönəldir. Embrion onu canlandıran, ona həyat verən, informasiya-energetik özülün ana bətnində inkişafı nəticəsində oğlan yaranırsa, bu zaman şüur – informasiya energetik mənbə ataya ədavət və anaya məhəbbət duyaraq, özünü ata toxumu ilə eyniləşdirir və ata şüuruna – informasiya energetik mənbəyə çevrilir. Əks halda isə, şüur – informasiya energetik mənbə anaya ədavət və ataya məhəbbət duyaraq, ananın yumurta hüceyrəsi ilə özünü eyniləşdirirsə, ***ana şüuruna*** – informasiya energetik mənbəyə çevrilir. Nəticədə, energetik-informasiya mənbəyi özünü qadın, yaxud kişi kimi dəqiq qurub, formalaşdırır. Əgər seçim dəqiq aparılırsa, o zaman birmənalı şəkildə kişi və ya qadın cinsi yaranmış olur. Əgər qeyri-dəqiqliyə, yayxınlığa yol verilmişdirsə, şüur – energetik-informasiya mənbəyi cinsi aydın seçilməyən – interseks, yaxud hər iki cinsin əlamətlərini özündə əks etdirən qermafrodit insanı yaradır. Belə fərqli doğulan, yəni qəti olaraq nə kişi və nə də qadın cinsinə mənsub olmayan insanların yaranması bu səbəbdən baş verir [205, s.9-17].

İnsanın sinir sisteminin ayrı-ayrı hissələri və mərkəzləri də ana bətnində müxtəlif mərhələlərlə yaranır və getdikcə kamilləşir. Ana bətnində inkişaf etməkdə olan dölün beyni hamiləliyin sonunda onun xarici aləmə çıxması üçün hazırlanır. Sanki o, doğum günü özünü təhvil verməyə hazırlaşır. Ana bətnində iki aylıq uşaq artıq toxunmanı, təzyiqi hiss edir, üçüncü ayda onun əzələlərində aktivlik yaranır və ana onun hərəkətini bütünlüklə hiss edir. Beş aylıq döldə isə əl, ayaq, baş, bədən tam formalaşmağa doğru inkişaf edir. Döl ana bətnində çox gərgin həyat yaşayır və bir sıra tədqiqatçılar hesab edirlər ki, insanın şəxsiyyəti hələ ana bətnində olarkən formalaşmağa başlayır. Altıncı aydan sonra ana bətnində o, ətrafda baş verən səs-küyə reaksiya verir, öz anasının səsini başqalarından ayıra bilir, ana ürəyinin ahəngdar və fasiləsiz döyüntülərini, ritmini hiss edir, duyur və onu eşitməyə bir vərdiş yaranır. O sanki ana orqanizminin bir hissəsi,

davamı kimi özünü göstərir. Ana ilə körpə arasındakı bağlılığın, onlar arasındakı ümumiliyin, vəhdətin əsası, bünövrəsi, doğmalıq, əzizlik, qançəkərlik məhz ana bətnində, dölün inkişaf mərhələsində formalaşır və insanın həyatının sonuna qədər davam edir. Ananın kədəri, sevinci, həyəcanı dölə təsir edir və bu kompleks hisslər təbii olaraq anadan uşağa, uşaqdan anaya nəql edilir və bir vəhdət təşkil edir. Ana bətnində uşaq parlaq işığı, uca səsi hiss edir. Doğuşdan cəmi 10 dəqiqə sonra o, ətrafda baş verənləri açıq-aydın hiss edir və ona reaksiyalar verir. Lakin insan beyninin növbəti inkişaf etapları doğuşdan sonra baş verir. Doğuşun ilk günündə o, öz üzərində yerin cazibə qüvvəsini hiss edir. Ana bətnində dölətrafı mayedə nisbi çəkisizlik şəraitində olan körpə, bütün orqanizmi ilə qravitasiyanın təsiri altına düşür. Doğuşdan sonra, ilk 8-10 ay ərzində uşağın beyni yenidən qurulur, sanki format olunur və həyata uyğunlaşmaq üçün zəruri şəraitlə təmin edilir. Ən çox inkişaf və əsaslı dəyişikliklər isə insanın sinir sistemində, yaddaşında, hissiyyatında baş verir. Tədqiqatlar birmənalı şəkildə təsdiq edirlər ki, insan yaddaşı onun beyninin hər bir yerində, xüsusilə sinir hüceyrələrinin birləşdiyi yerlərdə, sinapslarda lokalizə olunur. Bununla belə insanın bir şəxsiyyət olaraq yetişməsi prosesi valideynlərin, tərbiyəçilərin, onu əhatə edən insanların ciddi və fasiləsiz təsiri nəticəsində formalaşır. Məsələn, körpə güzgüdə özünə baxıb asanlıqla özünü tanıya bilir. Bu onun düşüncəsinin ilk əlaməti hesab oluna bilər. Uşaq özünə «mən» demir. Onu başqaları necə çağırırsa, o, özünü həmin çağırışa müvafiq olaraq da hiss edir və beləliklə onu adı ilə çağırarkən cavab alır. Təbiət bir fərd olaraq insanı kişi və qadın cinsi kimi iki növə ayırmaqla əslində insanın bioloji, sosioloji, psixi və hüquqi fərqliliyinin ilkin əsasını qoymuşdur. İbtidai cəmiyyətdə güc, qüvvə, qüdrət, cəsarət, insan və təbiət münasibətlərində bir qayda olaraq həlledici rol oynamışdır. Buna görə də əsrlər boyu kişi-qadın münasibətlərində fiziki gücü ilə fərqlənən kişinin rolu, yeri və mövqeyi üstün olmuş, cəmiyyətdə və ailədə təbii olaraq hökmran mövqeyi ilə fərqlənmişdir. Yaradıcı varlıq olaraq ailənin və nəslin inkişafında qadınların əvəzsiz rolu cəmiyyətin, dövlətin və ailənin həyatında onun bacarıqlarının və imkanlarının son də-

rəcə geniş olduğunu önə çəkmiş və bütün bu istiqamətlərdə mübadilə prosesləri, təkrar insan istehsalı, qadının – ananın böyük zəhməti hesabına fasiləsiz olaraq davam etdirilmişdir. İnsan cinsinin, qadının, kişinin, ananın biloloji, fizioloji və digər istiqamətlərdə tədqiqi, onların hər birinin ümumi və fərdi səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə imkan verir.

Sosial hakimiyyətdə bərabər paya, ictimai ehtiyatlara və bərabər haqqa malik olan fəaliyyət təcrübədə cinslərin bərabərliyi müddəasına əsaslanır. Lakin bu hələ cinslərin, onların əlamət və xüsusiyyətlərinin eyniliyi demək deyildir. Tarixən sosial yönümlü ədalətli cəmiyyətlərdə insanlar arasında tam bərabərlik ideyasının bir xəyal olduğu öz təsdiqini tapmış və bununla da əsrlərlə arzu edilən cinslərarası bərabərliyin kifayət qədər dəqiq olmadığı müəyyən edilmişdir. İnsanın cinsi, qadın və kişi arasındakı psixoloji və sosioloji fərqlərin başlıca səbəbi və əsası hesab olunur. Bununla belə bioloji fərqlərdən asılı olmayaraq, insanların sosial rollarında, fəaliyyət formalarında və emosional xüsusiyyətlərində fərqlər vardır [160, s.53]. Kişi və qadın təbiəti dedikdə, ilk öncə hökmranlıq, tabeçilik münasibətləri başa düşülür. «Qadını idarə etmək, himayəçi və başçı olmaq hüququ» daha çox kişiyə aid edilir və əslində qadın bununla, özünün güclü hamisini qazanmış olur. Aristotelin mövqeyinə görə, güc, aktivlik, hərəkət, həyat kişi təbiətindən törəndiyi halda, qadın yalnız passivlik əks etdirir. Hippokrat qadını zəif, kişini güclü varlıq hesab edirdi. Hegel isə iki cins haqqında danışarkən, onlardan birini aktiv olaraq – kişi, digərini isə passiv olaraq – qadın hesab edirdi [160, s.51-79].

Bizim fikrimizcə, müxtəlif elm sahələrinin apardığı tədqiqatlar, araşdırmalar, təhlillər və əldə olunmuş məlumatlar məcmuu şəklində yekunlaşdırılaraq «insan»a bir varlıq kimi, onun biri-birindən fərqli cinsləri olmaq etibarı ilə «kişi»yə və «qadın»a ayrı-ayrılıqda müstəqil olaraq definisiyasının verilməsi məqsədəmüvafiq hesab edilməlidir [337; 358; 364; 383; 384, s.195; 433; 521, s.89; 552, s.129].

Ailədə və cəmiyyətdə kişi kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin erkək histoloji quruluşu, kişi cinsinə mənsub olan hor-

manlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, qadının dünyaya uşaq gətirmək sahəsindəki fəaliyyətində aktiv erkək rolu oynayan, atalığın bütün keyfiyyətlərini özündə ehtiva edən və ata kimi səciyyələndirilə bilən bioloji və intellektual insan cinsi kişi hesab edilir və bu kişi cinsinin əsas mahiyyətini təşkil edir. Fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olub hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və dövlətdaxili hüquq sistemində təsbit olunması mühim əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, beynəlxalq hüququn ən mühim prinsiplərindən birini, dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin insan hüquqlarına və azadlıqlarına hörmət etməsi prinsipi təşkil edir. Qadın hüquqlarının kişi hüquqları ilə bərabərləşdirilməsi, eyniləşdirilməsi, yaxud qadın hüquqlarının genişləndirilməsi uğrunda hərəkat, cinslərin bərabərliyinin təmin olunması sahəsində ictimai-siyasi təlimlər – feminizm və gender siyasəti bir çox ictimai-siyasi xadimləri öz ətrafında birləşdirsə də, apardığımız və yuxarıda şərh etdiyimiz müddəalar, qadının və kişinin fiziki, bioloji, fizioloji, sosial və digər baxımdan faktiki bərabərliyinin mümkünsüz olduğunu tam təsdiq edir. Buna görə də qadın və kişinin hüququnun bərabərliyi dedikdə, burada bərabərlik yalnız hüquq və azadlıqların ruhi və mənəvi bərabərliyi mənasını ifadə etməsi ciddi şəkildə nəzərə alınmalıdır. Etika üzrə mütəxəssis R.Skruton haqlı olaraq yazırdı ki, qadının bakirəliyi onun seksual ləyaqətinin əsas göstəricisi hesab olunmalıdır. Bu isə seksual davranışdan imtina etmək yox, erotik məhəbbətə olan qadağanın nəticəsidir. Məhəbbətin əsas meyarı qadının ləyaqətidir [28, s.78-79]. Amerika psixoloqu A.Maslou insan tələbatlarını bir piramidaya bənzədərək, onun əsasında iki qrupu – həyati və ictimai-sosial tələbatları fərqləndirir. Sosial tələbatlar özü və başqaları üçün olan tələbatlara bölünür. Belə bölgü reallığa çox yaxın olmaqla, insan şəxsiyyətinin dərindən dərk edilməsi üçün çox əhəmiyyətlidir. İdrak, ağıl və təfəkkür insan tələbatlarının reallaşdırılması üçün müstəsna əhəmiyyətə malikdir. ***«Ağıl»*** ərəb mənşəli söz olmaqla, dəvənin ayağını bağlamaq üçün işlədilən ip mənasını verir və insanın varlığı və həyatı üçün lazım olan istiqamətlərin seçilməsinə xidmət edir. Buna görə də qəlbi, ürəyi ka-

sıb, lakin ağıllı bir insan Cəlaləddin Ruminin təbiri ilə desək «əsanı işıqdan üstün tutan kor adama bənzəyir».

AR Konstitusiyası ailənin statusunu, o cümlədən onun dövlətin xüsusi himayəsində olmasını, valideyn və uşaq münasibətlərinin hüquqi tənzimlənməsini, ailə, uşaq və valideyn hüquqları və onların qorunması üzərində dövlət nəzarətinin mövcudluğunu, uşaqların həyatı, sağlamlığı, əməyi və s. məsələlər müfəssəl şəkildə təsbit edilmişdir. Bundan fərqli olaraq Konstitusiyanın 34-cü maddəsi insan və vətəndaş hüquqları kontekstində, nikah hüququnun konstitusiya təsbitinin əsas meyarlarını müəyyən etmiş, nikah hüququnu, ər-arvad münasibətlərinin başlıca məzmununu əks etdirmiş, nikahı insanın təbii hüququ kimi səciyyələndirmişdir. Nikah tərəflərin könüllü razılığı əsasında bağlanılır. Heç kəs zorla evləndirilə və ya ərə verilə bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Ərin və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar [85, s.18]. ***Nuptiae sunt coniunctio maris et feminae et consortium omnis vitae, divini et humani iuris communicatio***

Valideynlər sırasında ailə birliyinin mühim tərəflərindən biri – qadın, ana, arvad terminindən istifadə etməklə ifadə olunur. Ailə hüququnda valideynlər dedikdə, doğulan uşağın atası və anası, başqa sözlə, ər və arvad, yaxud kişi və qadın başa düşülür [73, s.4]. AR-nın «Normativ-hüquqi aktlar haqqında» Konstitusiya Qanununun 31-ci maddəsinin tələbləri pozularaq, Ailə Məcəlləsində istifadə edilən xüsusi bilik tələb edən terminlərin, anlayışların tərifi və ya definisiyası verilməmişdir [68, s.29]. Buna görə də tədqiqat zamanı ayrı-ayrı anlayışlara və terminlərə verdiyimiz izahların və definisiyaların əhəmiyyətli olacağı şübhə doğurmur. AR-nın ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə

hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir [73, s.4]. Təsadüfi deyil ki, AR-nın Mülki Məcəlləsinin 6.1.6-cı maddəsi, şəxsi və ailə həyatına kimsənin özbaşına qarşımasının yolverilməzliyini prinsip kimi tanımışdır [96, s.5].

«Analıq», «atalıq», «uşaqlıq» ifadələri, eyni zamanda AR Ailə Məcəlləsinin 29, 44, 45, 46, 47, 57 və bir sıra başqa maddələrində, habelə ailə, qadın və uşaqla bağlı olan çoxsaylı digər normativ-hüquqi aktlarda da istifadə edilmişdir. Lakin nə Konstitusiya, nə Ailə Məcəlləsi və nə də digər normativ-hüquqi aktlar, Konstitusiyada göstərilən, digər normativ-hüquqi aktlarda da istifadə edilən «analıq» məfhumunun, termininin nəyi ifadə etməsinə, «analığ»ın məzmun göstəricisinin nədən ibarət olmasına, onun statusuna, hüquq və vəzifələrinə konkret aydınlıq gətirilməmişdir. Yuxarıdakı təhlillər zamanı bu terminlərə, anlayışlara müvafiq qaydada aydınlıq gətirilmiş və hüquqi definisiyaları verilmişdir. Buna görə də AR-nın Ailə Məcəlləsinə «Anlayışlar» adlı 1-ci maddənin əlavə edilməsi qanunvericilik yolu ilə həll edilməlidir. Həmin maddəyə «insan», «qadın», «kişi», «uşaq», «ana», «analıq» və Ailə Məcəlləsində istifadə edilən başqa terminlərin, anlayışların daxil edilməsi «Normativ-hüquqi aktlar haqqında» Konstitusiya Qanununun tələblərinə əməl edilməsini təmin etməklə yanaşı, həm də Ailə Məcəlləsinin tətbiqinə, təfsirinə və istifadəsinə əhəmiyyətli təsir göstərəcəkdir. AR-da hər bir qadının analıq hüququ vardır. Beynəlxalq və milli hüquq normaları əsasında ümumiləşdirmələr aparılarkən, qadının və ya ananın hüquqlarının başlıca məzmununu aşağıdakı kimi müəyyən etmək olar. Belə ki, hər bir qadının və ananın əsas hüquqlarına ailə münasibətlərində qarşılıqlı məhəbbət və hörmət hisslərinə əsaslanaraq könüllü qaydada nikah münasibətinə girmək, ailə qurmaq, uşaq doğmaq, ona tərbiyə və təhsil vermək, sağlam və Vətənə sədaqət ruhunda böyütmək, ailədaxili məsələləri qarşılıqlı razılıq əsasında həll etmək, uşaqların ailə tərbiyəsinin üstünlüyünü tanımaq, onların rifahına, inkişafına qayğı göstər-

mək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarını təmin etmək, ailə üzvlərinin və uşaqlarının hüquqlarını və qanuni mənafelərini qorumaq, ailə münasibətlərində zərərli adətləri aradan qaldırmaq, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissini tərbiyə etmək, şəxsi və qeyri-şəxsi əmlak hüquqlarını qorumaq, tibbi-genetik, tibbi-psixoloji və ailə planlaşdırması qaydalarına əməl etmək, zərurət yarandıqda ərindən aliment almaq, qadın və kişi bərabərliyinə hörmət etmək, özünə məşğuliyyət, sənət və yaşayış yeri seçmək, ailənin möhkəmləndirilməsinə və uşaqların tərbiyəsinə kömək etmək, soyadı seçmək, birgə və şəxsi mülkiyyət hüququnu qorumaq, öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququndan istifadə etmək, nikah müqaviləsi bağlamaq və onun şərtlərinə əməl etmək, uşaqların hüquq və azadlıqlarının qorunmasını təmin etmək, atalığın, analığın və uşaqlığın müəyyən edilməsində maraqlı olmaq və iştirak etmək, iddia qaldırmaq, uşağına doğum haqqında şəhadətnamə almaq, atalığa və analığa dair məhkəmədə mübahisə açmaq, iddia qaldırmaq, uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququna əməl etmək, başqa qohumlarla ünsiyyət yaratmasını təmin etmək, uşağın fikrini dinləmək, uşağın ata adını və soyasıdını daşımaq hüququna hörmət etmək, uşağın əmlak hüquqlarını qorumaq və təmin etmək, onun fiziki və psixiki sağlamlığına zərər yetirməmək, valideynlik hüququnun müdafiəsini təmin etmək, aliment öhdəliklərinə əməl etmək, övladlığa uşaq götürmək və ya götürməmək, uşaqları onların həyatına, sağlamlığına, mənafeyinə təhlükə törədə bilən fəaliyyətə cəlb etməmək, 15 yaşına çatmayan uşaqlarını işləməsinə imkan verməmək, hər kəsin hüquqlarına hörmət etmək, ana olaraq uşaq doğmaq, nikah, müavinət, tibbi və sosial yardım almaq, istirahət, sığorta hüquqlarından istifadə etmək, yaşamaq, azadlıq, mülkiyyət, əqli mülkiyyət, şəxsi toxunulmazlıq, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı, təhsil, əmək, istirahət, mədəniyyət, məzuniyyət, tətil və əmək haqqı almaq hüququ, fəaliyyət, peşə, məşğuliyyət, iş yeri seçmək, sağlam şəraitdə yaşamaq və işləmək, yardıma möhtac olan ailə üzvlərinə kömək etmək, xəstəliyə, əlilliyə, ailə başçısını itirməyə, işsizliyə görə sosial təminat almaq, əmlakına vurulmuş ziyanın

əvəzini almaq, mədəni sərvətlərdən istifadə etmək, tarix və mənəvi irsə hörmət etmək, milli mənsubiyyətini qorumaq, ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq, şərəf və ləyaqətini qorumaq, işgəncə və əzablara məruz qalmamaq, fikir və söz azadlığından istifadə etmək, vicdan azadlığı hüququndan istifadə edərək dinə inanmaq, yaxud inanmamaq, sərbəst toplaşmaq, yaradıcılıq və məlumat azadlığından istifadə etmək, ölkənin vətəndaşı olmaq, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlət idarəçiliyində iştirak etmək, seçmək və seçilmək, müraciət etmək, birləşmək, azad sahibkarlıqla məşğul olmaq, hüquqi yardım almaq, qohumlar əleyhinə ifadə verməmək, siyasi sığınacaq almaq, hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququndan istifadə etmək və s. bu kimi çoxsaylı hüquqları və azadlıqları vardır. Anaya hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli övlad, əmək qabiliyyəti olmayan anasını saxlamağa borcludurlar. Bu zaman BMT Baş Məclisinin «Nikaha daxil olma, minimum nikah yaşı və nikahın qeydiyyatı haqqında» 1962-ci il tarixli Konvensiyasının, habelə «Nikaha razılıq, minimum nikah yaşı və nikahın qeydiyyatı haqqında» 1965-ci il Tövsiyyəsinin başlıca şərtləri AR-nın Ailə Məcəlləsində müvafiq qaydada nəzərə alınmışdır. Beynəlxalq və milli hüquqda ananın, qadının analıq hüququnun kompleks şəkildə müəyyən edilməsi və mühafizəsi sahəsində geniş imtiyazlar nəzərdə tutulmuşdur. «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktda müəyyən edilmişdir ki, hər bir insan öz ailəsinin sağlamlığı və əmin-amanlığı üçün zəruri olan sosial-tibbi xidmət, geyim, qida, həyat səviyyəsini təmin edən zəruri vasitələrlə təmin olmaq hüququna malikdir [121].

Müstəqillik illərində AR-da analıq hüququnun genişləndirilməsi, mühafizəsi və müdafiəsi sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilmişdir. Qadının hüquq bərabərliyi və analıq hüququ müstəqilliyin ilk illərində qəbul edilmiş 18 oktyabr 1991-ci il tarixli «Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı»nda beynəlxalq standartlara cavab verən bir səviyyədə təsbit olunmuşdur. 19 sentyabr 1994-cü ildə Azərbaycan qa-

dınlarının Milli Komitəsinin yaradılması haqqında Fərman imzalanmış və Azərbaycan qadınları Pekində keçirilən IV Ümumdünya Konfransında geniş şəkildə təmsil olunmuşlar. 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul edilmiş AR-nın Konstituisyasında qadının və ananın hüquq və azadlıqlarının geniş sistemi əks olunmuşdur. Bu istiqamətdə ölkə Prezidentinin «Azərbaycan qadınlarının rolunun artırılması haqqında» 14 yanvar 1998-ci il tarixli Sərəncamı, «Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» 6 mart 2000-ci il tarixli Fərmanı mühim əhəmiyyət kəsb etmişdir. 29 dekabr 1999-cu il tarixli Qanunla təsdiq edilmiş AR-nın Ailə Məcəlləsi beynəlxalq standartlara və beynəlxalq hüquq normalarının tələblərinə müvafiq olan bir səviyyədə hazırlanmış və qəbul edilmişdir. 20 oktyabr 1999-cu ildə «Qadın əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalçıların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında» AR-nın Nazirlər Kabineti Qərar vermişdir. Beynəlxalq Əmək Təşkilatının «Analığın mühafizəsi haqqında» Konvensiyası müzakirə edilib təkmilləşdirilməsi barədə təkliflər əsasında «Analığın müdafiəsi haqqında» 183 saylı Konvensiya təkmilləşdirilmiş formada yenidən qəbul edilmiş, hamiləliyə və doğuşa görə məzuniyyətin, güzəştlərin, sosial müavinətlərin standartları əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. 1 fevral 1999-cu il tarixli Qanunla AR-nın Əmək Məcəlləsi qəbul edilərkən və sonradan təkmilləşdirilərkən, bütün bu standartlar nəzərə alınmış, Məcəllədə qadınların əmək hüquqları və onların həyata keçirilməsinin təminatları, işçilərin sosial sığorta olunmasının tənzimlənməsi və əmək mühafizəsinə dair müasir standartlar qüvvəyə minmişdir. Bu zaman Avropa Sosial Xartiyasının «Qadınların və anaların hüquqlarının müdafiəsinə və mühafizəsinə dair Başlıca Standartları» tamamilə nəzərə alınmışdır [582].

«2003-2005-ci illər üçün yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın 20 fevral 2003-cü il tarixdə təsdiq edilməsi sonradan da digər dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi üçün stimul rolunu oynamışdır. 6 mart 2000-ci ildə «Azərbaycan Respublikasının qadın problemləri üzrə Milli Fəaliyyət Proqramı haqqında (2000-2005-ci illər)» Nazirlər Kabinetinin qərarı, sonrakı illərdə də sistemli şəkildə davam etdirilmişdir. 6 fevral 2006-

cı il tarixdə AR-da Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin statusu tamamilə yenidən müəyyən edilmiş və əhəmiyyətli dərəcədə təkmilləşdirilmişdir. 2006-cı ildə «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında» Qanun qəbul edilmiş, beynəlxalq standartlara əməl edilməsi üçün geniş imkanlar nəzərdə tutulmuşdur. Analıq hüququnun inkişafı və genişləndirilməsi sahəsində əhəmiyyətli rol oynayan beynəlxalq Konvensiyalar milli səviyyədə, bütünlüklə ratifikasiya edilmiş, bu sahədə milli qanunvericilik aktlarının təkmilləşdirilməsi başa çatdırılmışdır [262, s.7-124; 266]. 19 may 1998-ci ildə «Uşaq hüquqları haqqında», 22 iyun 1999-cu ildə «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Qanunlar qəbul edilmişdir. 25 avqust 1992-ci ildə «Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlmalıq imkanları məhdud olan uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında», 5 iyun 2001-ci ildə «Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili (xüsusi təhsil) haqqında», 24 may 2005-ci ildə «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında», 17 iyun 2003-cü ildə «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında», 8 fevral 1997-ci ildə «Sosial sığorta haqqında», 7 fevral 2006-ci ildə «Sosial müavinətlər haqqında», 7 fevral 2006-cı ildə «Əmək pensiyaları haqqında» Qanunları, 29 mart 2006-cı ildə Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)»nın təsdiq edilməsi haqqında Sərəncam, 12 mart 2007-ci ildə «2005-ci il dekabrın 29-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında 2005-2009-cu illər üçün Ölkə Proqramı üzrə Fəaliyyət Proqramı», 12 aprel 2007-ci ildə «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010cu illər)»nın təsdiq edilməsi haqqında Sərəncamı, 17 mart 2000-ci ildə AR-nın qoşulduğu «Nikahdankənar uşaqların hüquqi statusu haqqında» Avropa Konvensiyası, 13 yanvar 2004-cü ildə AR-nın qoşulduğu «Uşaq əməyinin ən

pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair» Konvensiyası, 30 mart 2004-cü ildə AR-nın qoşulduğu «Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında» Konvensiya ratifikasiya edilməklə yanaşı, həm də bu sahədə milli qanunvericilik aktlarının hazırlanması, mövcud olanların isə təkmilləşdirilməsi təmin edilmişdir. Qadınların analıq hüququnun cinayət, inzibati, mülki, əmək və s. hüquqi vasitələrlə müdafiəsi sahəsində səmərəli tədbirlər həyata keçirilməkdədir. Qadının və analığın hüquqi mühafizəsi sahəsində görülmüş tədbirlər ölkə vətəndaşları və ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Əminliklə demək olar ki, bu sahədə iş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası kontekstində uğurla davam etdirilməkdədir. Ailədə və ailə münasibətlərində tez-tez işlədilən «ata» və «atalıq» terminlərinə müəyyən anlayış verilməsi də vacib hesab edilmişdir. Həyatda «kişi» və ya «kişilik» dedikdə, hüquqi mənada «ata» və ya «atalıq» məfhumları göz önünə gəlir. Bu baxımdan «ata» dedikdə, «övladı olan kişi», «atalıq» dedikdə isə ata ilə övlad arasındakı qan qohumluğuna əsaslanan və ya övladlığa götürmə ilə bağlı olan kişinin – atanın öz uşağı ilə olan əlaqələrini və münasibətlərini səciyyələndirən, «atalıq vəzifəsi», «atalıq hissi», «atalıq borcu», «atalıq etmək» kimi məna və məzmun elementlərinin məcmusu başa düşülür. Təbiətdə, ailədə və cəmiyyətdə kişi kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi və fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin erkək histoloji quruluşu, kişi cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus kişi orqanları olan, qadının dünyaya uşaq gətirmək sahəsindəki fəaliyyətində aktiv erkək rolu oynayan, habelə kişi kimi səciyyələndirilə bilən çoxsaylı digər xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi, kişi olmaq etibarilə «atalıq» anlayışının əsasında dayanır. Bioloji baxımdan «atalıq» ailə münasibətlərində qadınla birgə münasibətdə olan, kişi fəaliyyətinin nəticəsi olaraq doğulan uşağın, övladın bioloji atası, qadının – ananın uşaq doğması prosesində kişi funksiyasını həyata keçirən və kişi cinsinə mənsub olan insan fərdi hesab edilir. Atalıq ailə münasi-

bətlərində valideyn olaraq hüquqi nəticələr doğurur. Ailə münasibətlərində hüquqi nəticələr doğuran «ata» və ya «atalıq» terminlərinin hüquqi məzmununun Ailə Məcəlləsində müəyyən edilməsi təcrübədə əhəmiyyətli rol oynayırdı. Bu baxımdan fərdi mahiyyət daşıyan qadın cinsi, qadına mənsub olub hüquqların və azadlıqların, eləcə də kişi cinsinə mənsub olan «ata» və «atalığın» beynəlxalq standartlarının müəyyən edilməsi, dövlətdaxili hüquq sistemində bütün bunların mükəmməl nəzərə alınması və təsbit olunması mühim əhəmiyyətə malikdir. Beləliklə, kişi cinsinə mənsub olan fərdin öz istəyi əsasında, könüllü olaraq qadınla ünsiyyətə girməsi, ər-arvad münasibətlərində olması, uşağın doğulması, valideyn kimi onun bioloji, sosial və fiziki inkişafını təmin etməsi, bəsləməsi, nəvaziş və qayğı göstərməsi, tərbiyə edib insan kimi böyütməsi və s. bu kimi kompleks maddi, mənəvi, psixoloji, bioloji və əxlaqi xüsusiyyətləri, hüquqları, vəzifələri və öhdəlikləri sistemli və məcmu şəkildə özündə birləşdirən vəziyyət, status «atalıq» hesab olunur. Bununla bağlı olan hüquqların, azadlıqların və öhdəliklərin məcmusu isə «atalıq hüququ»nun əsas məzmununu təşkil edir. Ailə və ailə münasibətlərində tez-tez istifadə edilən «uşaqlıq» terminінə də aydınlıq gətirilməsi zəruridir. Belə ki, yetkinlik yaşına, yəni 18 yaşı tamam olmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən insan cinsinə – qıza və oğlana, beynəlxalq və milli hüquqla müəyyən edilmiş uşaq hüquqlarının və azadlıqlarının məcmusunu əhatə etməklə, onların təcrübi olaraq həyata keçirilməsi prosesini sistemli və məcmu şəkildə özündə birləşdirən vəziyyət, status «uşaqlıq» hesab edilir və bununla bağlı olan hüquqlar, vəzifələr və öhdəliklər «uşaqlıq» termininin məzmununu ehtiva edir. Beləliklə, Azərbaycan ailəsinin mövcud strukturunun tərkib elementlərinə dair verilmiş definisiyalar, ailə və ailə münasibətlərinin hüquqi tənzimlənməsini, onun tətbiq və təfsirini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır.Ailənin strukturu dəyişməz, ehkam deyildir. O müxtəlif tarixi zamanlarda, müxtəlif millətlərdə və xalqlarda tarix,təhsil, adət-ənənə, din və s. bu kimi amillərdən asılı olaraq müsbət və ya mənfi mənada dəyişə bilər. Bu cəhət tədqiqatlar zamanı nəzərə alınmalıdır.

## 4.2 Azərbaycan ailəsində qadının – ananın hüquqi statusu: müqayisəli təhlil

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.
Ricavü xəvfə məkan vermərəm gər alimlər
Min il də vəz edələr dəhşətü-qiyamətdən.
Yanımda gər dura cəllad əlində şəmşiri,
Ölüm gücilə mənə hökm edə olum təslim,
Əyilmərəm yenə haşa! Ölüm nədir ki, onun
Gücilə xalqa həqiranə eyləyim təzim?
Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?
Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.
Bunlar mənə əsər eylərmi ? Mütləqa yox! Yox!- Yox!!!
Fəqət Ana! O müqəddəs adın qabağında-
O pak bağrına bassın məni, desin layla,
Təbəssüm oynadaraq titrəyən dodağında.
Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,
Uçar səmalara o, aləmi-xəyalətdə.
Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
-Ana… Ana… Sənə mən rahibəm itaətdə!..

C.Cabbarlı

İnsan hüquqlarının və azadlıqlarının tərkib hissəsi olan qadın hüquqlarının elmi nəzəri tədqiqinə, insan nəslinin və müasir cəmiyyətin mühim sosial qrupunu təşkil edən qadınların və qızların, ilk öncə bir varlıq olaraq bioloji və sosioloji xüsusiyyətlərinə müəyyən aydınlıq gətirilməsi zəruridir. Belə yanaşma olmadan qadın hüquqlarının və azadlıqlarının kompleks araşdırılmasını uğurla başa çatdırmaq mümkünsüzdür. Bu baxımdan müxtəlif elmi nəzəriyyələrim müddəaları və müxtəlif elm sahələri tərəfindən aparılan kompleks araşdırmalar, yekun olaraq «qadın» anlayışına müəyyən definisiya verilməsinə imkan yaradır. Buna görə də təbiətdə, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, bioloji, fizioloji, psixi, fiziki xüsusiyyətləri, dünyaya uşaq gətirmək, ona süd vermək, analığın digər keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən insan cinsi, qadın anlayışını ehtiva edir. Fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olan hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və konstitusiya hüquq sistemində təsbit olunması, metodoloji cəhətdən bütün digər məsələlərin uğurlu həllinin əsası kimi çıxış edə bilər. Cinsi fərqlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsi qadın və kişi fərqliliyinin, feminist antropologiyanın və etnoqrafiyanın tədqiqinə zərurət yaradır. Bioloji fərqlərdən asılı olmayaraq insanların sosial rollarında, fəaliyyət formalarında, emosional xüsusiyyətlərində, davranışlarında, hərəkətlərində səslərində, vərdişlərində, yazışmalarında, həyata münasibətlərində aşkar edilən mövcud fərq , qadın hüquqlarının qanunvericilikdə təsbitinə, tətbiqinə və müdafiəsinə diqqətin artırılmasını tələb edir. Cinsi əlamət üzrə kateqoriyalaşdırmanı qəbul və istifadə etmək, fərdi seçimdən asılı olmadan daha çox bioloji, psixoloji xüsusiyyətlərə diqqət yetirmək önəmlidir. Bu baxımdan hər bir insanın öz mahiyyətinə və xüsusiyyətlərinə görə ya kişi, ya da qadın cinsinə mənsub olması qaçılmazdır. Qadın hüquqlarının və azadlıqlarının kompleks elmi nəzəri öyrənilməsinə onun bioloji xüsusiyyətlərinin tədqiqindən başlanılması problemi dərindən bilməyə imkan yaradır. Bu mühim cəhət zaman-zaman qadınların kişilərdən fərqləndirilməsi amilinin-keyfiyyət xüsusiyyətlərinin əsasın-

da dayanmışdır. Cəmiyyətdə bu kateqoriyadan olan insanlar digərlərindən – kişilərdən ona görə fərqləndirilmiş, sıxıldırılmış, hüquqsuz vəziyyətə salınmışdır ki, o bioloji cəhətdən qadın cinsinə mənsub olmuşdur. Buna görə də bir insan olaraq, cinsinə görə qadının fərqləndirilməsi çox önəmlidir. Tədqiqatımızın əsas obyekti olan qadının, bioloji xüsusiyyətlərinin və səciyyəvi cəhətlərinin müəyyən edilməsinin, qadın hüquqlarının və azadlıqlarının bioloji əsasının müəyyən olunmasının vacibliyi çox əhəmiyyətlidir. [257; 362; 378; 385; 408; 426; 438; 448; 453; 454; 501; 502; 506; 511; 513; 515; 526].Təbiət insanı kişi və qadın cinsi kimi iki növə ayırmaqla əslində bioloji, sosioloji və hüquqi fərqliliyin ilkin əsasını, bünövrəsini qoymuşdur. Buna görə də əsrlər boyu kişi-qadın münasibətlərində fiziki gücü ilə tarixən üstünlük qazanan və fərqlənən kişinin rolu həmişə üstün olmuş, cəmiyyətdə və ailədə hakim mövqeyinin üstünlüyü ilə seçilmişdir. Bütün bunlara görə də tarixin müəyyən mərhələlərində, təbii olaraq qadın hüquqları uğrunda hərəkat başlanmış və bu uzun illər davam etdirilmişdir. Qadınlar təbiətin onlara verdiyi «zəiflik» meyarları ilə razılaşmamış, əqli, fiziki, mənəvi, əxlaqi və digər xüsusiyyətləri ilə güclü olduqlarını bəşəriyyətə sübut etməyə çalışmışlar. Yaradıcı varlıq olaraq ailənin və nəslin inkişafında qadınların əvəzsiz rolu güman edildiyindən fərqli olaraq cəmiyyətin, dövlətin və ailənin həyatında onun bacarıqlarının və imkanlarının son dərəcə geniş olduğunu önə çəkmiş və bütün bu istiqamətlərdə fasiləsiz mübarizələr davam etmişdir. Qadına münasibətdə əsaslı dəyişikliklər, əsasən 20-ci əsrdə baş vermişdir. Bu proses indi də davam etməkdədir. Dünyanın inkişaf etmiş ölkələrində qadın hüquqları sahəsində böyük uğurlar əldə edilsə də, bununla belə dünyanın bəzi regionlarda qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində ciddi böhran indi də qalmaqdadır [168, s.78-90]. Bu gün dünyada aparılan müxtəlif istiqamətli elmi tədqiqatlarda insan hüquqlarının və azadlıqlarının təmin olunması probleminə xüsusi önəm versə də, fəqət qadın hüquqlarının və ya kişi hüquqlarının müstəqil tədqiqat mövzusu kimi araşdırılmasına yalnız son illərdə rast gəlmək mümkündür. Qadın hüquqları və azadlıqları ilə bağlı bir sıra beynəlxalq və dövlətdaxili hüquq norma-

ları mövcud olsa da, bu gün nə milli, nə də beynəlxalq səviyyədə müstəqil olaraq «qadın hüquqları və azadlıqları haqqında» normativ hüquqi akt indiyə kimi hazırlanmamış və qəbul edilməmişdir. Tarixən cəmiyyət – dövlət münasibətlərində insan amili həmişə aparıcı mahiyyət daşımışdır. Bu da onunla əlaqədardır ki, bəşəriyyət tarixində bütün hadisələrin və proseslərin əsasında, mərkəzində məhz İnsan – Fərd – Şəxsiyyət faktoru dayanır. Təsadüfi deyil ki, məhz insanın bir varlıq olaraq müxtəlif elm sahələri tərəfindən öyrənilməsi, tədqiq olunması zaman-zaman davam etdirilmişdir. C.Ceyms özünün «Şəxsiyyət» adlı əsərində bu kateqoriyanın – şəxsiyyətin tərkib elementlərini fiziki, sosial və mənəvi elementlərdən ibarət olmaqla üç əsas hissəyə ayırırdı. Bizim hər birimizin bədən quruluşu bir varlıq olaraq şəxsiyyətin fiziki, cəmiyyətlə birlikdə və digər insanlara münasibətdə götürülmüş şəxsiyyət sosial, insanın mənəvi qabiliyyətinin, xüsusiyyətlərinin və təfəkkürünün vəhdəti isə şəxsiyyətin mənəvi keyfiyyətlərini əhatə edir [380, s.624]. Yer üzündəki canlıların ən yüksək və ali təbəqəsi, tarixi proseslərin əsasında dayanan, maddi və mənəvi mədəniyyətin yaradıcısı və onun inkişafının subyekti olan insana indiyə kimi mükəmməl definisiya verilməmiş, onun mahiyyəti və səciyyəvi xüsusiyyətləri tam araşdırılmamışdır. Eyni zamanda, insan cinsinə mənsub olan subyektlərin – qadının və kişinin mahiyyəti, ümumi və fərdi səciyyəvi xüsusiyyətləri tam araşdırılmamış, ümumiyyətlə bu məhfuma və onun arxasında dayanan insan obrazına – kişi və qadına bioloji, sosial, hüquqi, fəlsəfi və sair mənalarda mükəmməl aydınlıq gətirilməmiş, kompleks tədqiq edilməmişdir. Bu baxımdan insan hüquqlarının, o cümlədən qadın hüquqlarının mahiyyətinin, hüquqi aspektlərinin və səciyyəvi xüsusiyyətlərinin tədqiq olunması son dərəcə vacib və aktualdır [280, s.14]. Məhz son illər insan hüquqlarının və azadlıqlarının genişləndirilməsi və bu problemin ayrı-ayrı istiqamətlərinin tətqiqi zamanı insan dedikdə, təbii olaraq həm də qadın nəzərdə tutulmuşdur. Bununla belə qadın hüquqlarının müstəqil tədqiqat mövzusu kimi əlahiddə araşdırılması son dərəcə vacib və əhəmiyyətli olmasına baxmayaraq bu missiya tam yerinə yetirilməmişdir. Hələdə cəmiyyətin aparıcı qüvvəsi kimi təqdim olu-

nan kişilər yaratdıqları normativ hüquqi aktlarda əks cinsin – qadınların hüquqlarına və azadlıqlarına ümumiyyətlə, ya yer ayırmamış, ya da qadın hüquqlarının mükəmməl təsbitinə diqqət yetirməmişlər. Bəşər tarixində ağıllı və müdrik qadınlar isə bu ədalətsizliklə barışmamış və zaman-zaman kişilər arasında da öz tərəfdarlarını tapmaqla mübarizələrini davam etdirmişlər.

İnsan – cəmiyyət – dövlət münasibətlərində hüquqi tənzimlənmə, idarəçilik sistemində istisnasız olaraq ən çox ehtiyac duyulan fəaliyyət sahələrindən biri hesab olunur. Hüquq isə cəmiyyətdə qanunauyğun olaraq meydana gələn, sosial baxımdan qarşılıqlı fəaliyyətin elə bir xüsusi formasıdır ki, onun bütün iştirakçıları qarşılıqlı, ötürücü hüquqlara və vəzifələrə sahib olur və insanın tələbatlarını, maraqlarını dövlətin qadağan etmədiyi, yaxud yaratdığı ixtisaslaşmış orqanların simasında təminat verdiyi və mühafizə etdiyi xüsusi qaydada realizə edilir. Hüquq münasibəti cəmiyyətdə və dövlət həyatında tərəflərin konkret davranışını müəyyənləşdirir və ictimai təcrübəyə tənzimlənmə, qayda yaratma elementləri daxil etməklə sosial-iqtisadi əsasa və özünəməxsus hüquqi xüsusiyyətlərə malik olur. Bu baxımdan son illər insan-cəmiyyət-dövlət münasibətlərində diqqəti ən çox çəkən məsələlərdən biri, bəlkə də birincisi məhz insan hüquqlarının və azadlıqlarının tədqiqi, öyrənilməsi, onların etibarlı müdafiəsinin təmin olunması sahəsində səmərəli fəaliyyətin təşkilatı – hüquqi əsaslarının təkmilləşdirilməsi problemi hesab oluna bilər. Şəxsiyyətin hüquqlarının və azadlıqlarının hüquqi baxımdan qanunvericilikdə əks olunması, həyata keçirilməsi və müdafiəsi demokratik və hüquqi dövlətin ən vacib funksiyalarından birinə daxildir. Bu hüquqların mükəmməlliyi və müdafiəsi bəşər tarixində insanlığın ən ideal arzularından biri olmaqla, müasir hüquqi dövlətlər qarşısında da duran mühim prioritetlərdən hesab edilir. Buna görə də vaxtı ilə, «tarixi – siniflər mübarizəsi tarixi» kimi səciyyələndirən tədqiqatçılar, siyasi xadimlər, nəzəriyyəçilər, bu gün tarixi – «insan hüquqları və azadlıqları uğrunda mübarizə tarixi» kimi xarakterizə etməkdə tamamilə haqlıdırlar. Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatı, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və

ayrılmaz hüquqlarını qəbul etməyi – azadlığın, ədalətin və ümumi sülhün təməli olduğunu, insan hüquqlarına laqeydliyin və həqarətin bəşəriyyətin vicdanını hiddətləndirən vəhşi əməllərə gətirib çıxardığını və insanların söz və əqidə azadlığına mane olacağı qorxusu və ehtiyaclardan azad olacaq bir dünyanın yaradılmasının insanların ən ali arzusu kimi bəyan etdiyini, insanın müstəbidliyə və zülmkarlığa qarşı sonuncu vasitə kimi əl atmağa məcbur qalmasını təmin etmək məqsədi ilə insan hüquqlarının qanun hökmüylə qorunmasının zəruri olacağını, insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərlərinə, kişilərin və qadınların hüquq bərabərliyinə olan inamlarını təsdiq etdikləri və daha çox azadlıq şəraitində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına yardım göstərmək, insan hüquqlarına və əsas azadlıqlarına hamılıqla hörmət və riayət etmək niyyətini alqışlayaraq «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»ni – insan hüquqlarının və azadlıqlarının zəngin və mükəmməl formada ifadə edən beynəlxalq əhəmiyyətli Bəyannaməni elan etməklə uzun tarixi proseslərəə sanki yekun vurmuşlar. Bu Bəyannamənin preambula hissəsində, insan hüquqlarına və azadlıqlarına dair yaranmış tarixi zərurətin beynəlxalq zəminləri, məqsədləri və vəzifələri mükəmməl formada öz ifadəsini tapmış və əsaslandırılmışdır [120, s.51-58].

İnsanın dünyaya qadın və ya kişi cinsi olaraq gəlməsinin mahiyyəti alimləri həmişə dərindən düşündürmüşdür. Aydın olmuşdur ki, hər şeydən əvvəl insanın qadın və ya kişi cinsi kimi yaranmasının və formalaşmasının səbəbi,bioloji amillərlə bağlıdır. Ana bətnində olan yumurta hüceyrəsinin X və ya Y xromosomunun hansı birindən mayalanması və baş verən fizioloji proseslər bu məsələnin əsasında dayanır. Orqanizmdə olan və heç bir digər hüceyrəyə oxşamayan yumurta hüceyrəsi, öz formasına və fiziologiyasına görə ana bətnindəki inkişaf prosesində ardıcıl, sistemli və həm də qanunauyğun dəyişikliklərə məruz qalır. Nəticədə gələcək insanın toxumaları və xüsusi funksiyalı orqanları formalaşır. Əslində isə, yumurta hüceyrəsinin inkişaf proqramının mənbəyi, ana bətnindəki vakumdan, necə deyərlər «kosmik fəza«dan bəhrələnərək insanın qolokrafik modeli əsasında, gələcək konkret insanın spesifik obrazını formalaşdırmağa başlayır.

İnsan embrionun bölünən hüceyrələri yalnız qoloqrafik nüsxənin həcmini doldurur və yumurta DNT spiralını öz informasiya mənbələri ilə, toxumaları gələcək insana xas olan spesifik, fizioloji xüsusiyyətlər, daxili və zahiri əlamətlər kimi səciyyəvi bir formada yetişdirir. Gələcək insanın şüurunu isə hərəkətə gətirən, fəzanın rezonans axınları nəticəsində öz informasiya göstəricilərini, valideynlərinin normasına uyğun gəldiyi nöqtəyə, səviyyəyə qədər gətirib çatdıran inkişaf prosesləri ilə başa çatır. Embrionunun informasiya, energetika mənbəyi cinsi mənsubiyyətdən məhrum olsa da, onda gələcək şüur, məhz ana bətnində yaranır, inkişaf edir və baş verən digər fizioloji proseslər əsasında müvafiq olaraq qadın və ya kişi cinsinə mənsub olan insan yaranır [452, s.3-8]. Tədqiqatlar göstərir ki, qadın və kişi – «insan» adlanan varlığın iki tərəfini, iki fərdi cinsi ehtiva etsə də, zahiri və daxili baxımdan müəyyən oxşarlıq elementləri mövcud olsa da, mahiyyət etibarı ilə onlar heç də eyni deyillər və fərqlənirlər. Nəsil artırmaq üçün kişi cinsinə mənsub olan orqanlardan fərqli olaraq, ana təbiət qadının nəsil artırmaq üçün vacib olan orqanlarını möhkəm sümük müdafiə sistemi ilə etibarlı şəkildə, hər hansı xarici təsirlərdən və zədələrdən qoruyan bir sahədə, qarın boşluğunda yerləşdirmişdir. Bu anaya olan ilahi məhəbbətin əsl təcəssümü kimi də qiymətləndirilə bilər. Dünyaya uşaq gətirmək üçün vacib olan əlaqə zamanı kişi toxumlarının sayı bir milyonu keçdiyi halda, qadın orqanizmi bütün həyatı boyu cəmi dörd yüz ədəd yumurta hüceyrəsi hasil edir. Qadın yumurta hüseyrəsi olduqca mürəkkəb quruluşa malik olmaqla, nəsillərarası irsiyyət xüsusiyyətlərinin ötürülməsində əsas daşıyıcı funksiyasını yerinə yetirir. Qadın yumurtasının yaranması və inkişafı da kifayət qədər mürəkkəb olmaqla, yalnız insan orqanizminin normal temperatur şəraitində - 36,6 dərəcədə yetişir. İnsan genomundakı 23 cüt xromosomdan 22-nin insanin cinsiyyətinə heç bir dəxli yoxdur, yalnız 23-cü xromosomun – qadındakı «XX», kişidəki «XY» xromosomlarının cinsiyyətə bilavasitə təsiri vardır. Kişi Y – xromosomu, qadın X-xromosomuna nisbətən olduqca az informasiya daşıyıcısıdır. Kişi toxumu yalnız eyni şansla «Y» və «X» daşıyıcısı olmaq imkanına malikdir. Əgər mayalanma zamanı yumurta hüceyrəsinə Y xromo-

somu keçərsə, dölün cinsinin oğlan, X xromosomu keçərsə, qız olacağı müddəası elmi cəhətdən tam təsdiq edilmişdir. Oğlanlarda Y xromosomunun genealogiyasını genetik analizini yoxlamaq mümkün olduğu halda, qızlarda X xromosomlarının hansının atadan, hansının anadan alındığını yoxlamaq çətindir [257; 305; 337; 358; 364; 383; 384; 400; 433; 450; 521; 522; 552]. Bu gün genetika elmi bir mənalı şəkildə təsdiq edir ki, bizim bir gözümüz öz mənbəyini atamızdan, digər gözümüz isə öz mənbəyini anamızdan alır. Övlad olaraq atamızın və anamızın bütün müsbət və mənfi xüsusiyyətləri, əlamətləri bizim simamızda, canımızda və ruhumuzda özünü birbaşa təcəssüm etdirir. Hər gen cütünün bir surəti anadan, digər surəti isə atadan qaynaqlanır. Əgər şəklimizin sol yarısından – üzün sol yarısından iki nüsxə götürüb birini güzgüdə çevirib bir bütöv üz-sima yaratsaq, anamıza sağ tərəfdən eyni qaydada qurama isə bizi müvafiq olaraq atamıza oxşacadaqdır. Beynin sol yarımkürəsi kişi – ata bazisindən formalaşırsa, sağ yarımkürəsi isə qadın – ana təməlindən formalaşır. Hər bir yarımkürəni bədənin əks tərəfindəki orqan, əza və ya ətraflar idarə edir [257; 305; 337; 358; 364; 383; 384; 400; 433; 452; 521; 522; 552].Ümumiyyətlə, qadın və kişi cinsi bioloji, fizioloji, psixioloji, genetik, sosial və bir çox digər xüsusiyyətlərinə görə fərqli mahiyyət daşıyırlar, hətta onlar vahid «insan» adı altında təmsil olunsalar da və ya ilk baxışda oxşar görünsələr də təhlillər göstərir ki, hər iki cins biri-birindən əhəmiyyətli dərəcədə fərqlidirlər. Ən qədim hüquq abidələri hesab edilən dini kitablarda – Zəburda, Tövratda, İncildə, Quranda qadına və kişiyə fərqli münasibət az və ya çox dərəcədə öz təsbitini tapmışdır. İncildə və dünyanın ən qədim eposu sayılan «Bilqamış» dastanında kişinin və qadının ayrı – ayrı cins olaraq Allah tərəfindən yaradıldığı, xəlq edildiyi göstərilmişdir. Orada qeyd edilmişdir ki, Adəm və Həvva ilk insanlar olaraq yaradıldıqdan sonra, onlar arasında mehr yaranmış, ünsiyyətə girərək ər-arvad kimi yaşamağa başlamışlar. Bu da kişi – qadın münasibətlərinin başlanğıcı, əvvəli, mabədi hesab oluna bilər. Kişinin qadının qabırğasından yaradılması müddəası, bir ideya kimi hələ qədim Şumer rəvayətlərində öz əksini tapmışdır. İncildə isə bundan fərqli olaraq, qadının kişinin qa-

bırğasından yaradılması müddəası irəli sürülmüşdür. İnsan adlanan bu varlıqların – qadının və kişinin fərqli yaranışı, onların heç də biri-birinin eyni olması demək deyil, fərqli və müəyyən mənada əksikliklərin vəhdəti kimi vahid bir adda, «insan» kimi yaradılması və təşəkkül tapması müəyyən bir məntiqə, qanunauyğunluqlara söykənmişdir. Belə ki, antik fəlsəfədə göstərildiyi kimi, dünyada hər şeyin ikili mahiyyəti olduğu kimi, qadın və kişi də fərqli mahiyyət daşıyırlar. Bu da ondan irəli gəlir ki, tarixən yalnız biri-birinə zidd olan qüvvələrin yeni həyatın başlanğıcı və inkişafı üçün əsas ola bilməsi müddəası elmdə aparıcı mahiyyət daşımışdır. Çünki qadın və kişi fərqliliyi olmadan, bu gün insan nəslinin inkişafının mümkünsüz olması müddəası artıq elm tərəfindən birmənalı şəkildə təsdiq edilmişdir. Bu gün müasir elmin inkişafı tam təsdiq edir ki, mayalanmış insan rüşeyminin ilkin mərhələsində faktiki olaraq cins olmur. Əslində o, cinssiz olaraq, ümumi bir insan rüşeymi kimi özünü göstərir və bu rüşeym beş həftədən sonra öz cinsi əlamətlərini, özününün ilkin elementlərini formalaşdırmağa başlayır. Doqquz həftəlik dölün cəmi 2 qram çəkisi, 3 sm uzunluğu olmasına baxmayaraq, mikroskop altında gələcək kişinin və ya qadının ilkin əlamətlərini müşahidə etmək mümkündür. Artıq hamiləliyin dördüncü ayından sonra dölün cinsiyyətini - qız və ya oğlan olacagını həkimlər müəyyən edə bilirlər. Hətta bu gün elmi fəaliyyət nəticəsində sübuta yetirilmişdir ki, ana bətnində olan rüşeymin inkişafının ilkin mərhələsində dölün gələcəkdə qız və ya oğlan olacağına stimul vermək, istiqamətləndirmək, təsir göstərmək, tənzimləmək, necə deyərlər idarə etmək artıq reallığa çevrilmişdir. Qız doğularkən oğlana nisbətən cəmisi 25 qram yüngül olur. Bu fərq sonralar da yaş nisbətinə görə davam edir. Yetkin qadının ürəyi kişinin ürəyi ilə müqayisə də həcmcə kiçik olur. Qan dövranı miqdarca azlıq təşkil edir, nəfəs sisteminin imkanları geri qalır. Qadın orqanizminin bütün funksional sistemi, xolestrin mübadiləsi istisna olmaqla, öz zəifliyi ilə seçilir. Buna görə də kişinin qan damarlarında xolestrin daha çox yığılıb qalır və nəticədə qadınlara nisbətən kişilərdə ürək-damar xəstəlikləri əhəmiyyətli dərəcədə çox olur. Kişilərdə sümüklərin ölçüləri və əzələ kütləsi çox olduğuna gö-

rə o, fiziki cəhətdən daha güclü olur. Qeyd edilməsi zəruridir ki, on yaşadək olan qızların qol qüvvəsi eyni yaşlı oğlanlara nisbətən artıq olmasına baxmayaraq, sonralar bu fərq oğlanların xeyrinə əhəmiyyətli dərəcədə artır və dəyişir. Statistik təhlillər göstərir ki, bütün dünya ölkələrində qadınların orta yaş ömrü kişilərə nisbətən daha çox olur. Bu da kişilərin payına düşən fiziki işin ağırlığı, spirtli içkilər, tütün qəbulu, zərərli vərdişlərin təsiri və digər bu kimi mənfi amillərlə sıx bağlıdır. Təhlillər göstərir ki, kişinin və qadının əqli qabiliyyətlərində, başında və beynində belə aşkar fərqli cəhətlər vardır. Qadınların intusiya imkanları geniş olur və onlar kifayət qədər emosionallıqları ilə seçilirlər. Qadınlar həyat münasibətlərində və əlaqələrində özləri üçün mənəvi qida almaq imkanına üstünlük verdikləri halda, kişilər maddi tərəfə daha çox diqqət yetirirlər. Onlar öz istedadlarını poeziyada və təsviri incəsənətdə reallaşdırdıqları halda, bəstəkarlıq istedadı zəif inkişaf edir, özlərinə məlum olan həqiqətləri üzə vurmağa, ailələrinin və ya münasibətlərinin korlanacağı, dağılacağı qorxusu ilə gizlətməyə meylli olur, məkrlilik, hiyləgərlik bacarığı ilə fərqlənirlər. Kişiləri pis xəbərlər, peşə uğursuzluqları, maddi çətinliklər, qadınları isə tənhalıq, ailə narazılıqları, uşaqlarla bağlı problemlər daha çox narahat edir. Qadınları sevgidə məhəbbət, nəzakət, diqqət və hörmət maraqlandırırsa, kişiləri öz vaxtlarını zövqlə keçirmək, şəhvət hissi və şöhrətpərəstlik xüsusiyyətləri daha çox cəlb edir [118, s.74].

İslam dininə görə Allah dünyanı əvvəl yaratmış, sonra isə insanı xəlq etmişdir. "Qurani-Kərim" də göstərilmişdir: «Mən palçıqdan bir insan (Adəmi) yaradacağam, onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığım ruhdan) üfürən kimi ona səcdə edin»(31, əl-Hicr surəsi) Dini kitablarda qadın kimi təqdim edilən Həvva hər şeyi bilməyə, öyrənməyə can atan varlıq kimi təsvir edilir. Bu da qadın psixologiyasını, xislətini, onun istənilən hadisələrə və proseslərə daxilən marağını, hər şeyi öyrənmək və bilmək həvəsini xarakterizə edən və fərqləndirən tipik səciyyəvi qadın keyfiyyətlərdən hesab oluna bilər. Kişi kimi təqdim edilən Adəm isə əksinə, sadəlövh, çox passiv və primitiv formada – «gil-palçıq parçası» kimi

təqdim edilir. Elə bunun nəticəsidir ki, ilahi qaydaları pozaraq Həvva qadağan olunmuş meyvəni dadıb yeməklə dəyişir və Adəmi də yoldan çıxarmaqla qoyulmuş qadağaları pozur. Həvvanı çılpaq və cazibədar bir xanım kimi görən Adəm, kişilər üçün səciyyəvi olan bir hal keçirərək sevib-sevilmək eşqi ilə yanır, alovlanır. Nəticədə Allahın qoyduğu qaydalara əməl etməyən Həvvanın özbaşına hərəkətləri, onun bir növ şeytanın felinə uyaraq yoldan çıxması, Həvvanın simasında qadın nəslinə nifrət yaradır və zaman-zaman Həvvanın irsi davamçıları olan qadınların lənətlənməsinə gətirib çıxarmışdır. Dini mənbələrdə, təsvirlərdə qadın, «kişini yoldan çıxaran», «qoyulmuş qaydalara əməl etməyən» varlıq təəssüratı yaradır. Xristianlıq dinində qadınların hüquqları bir qayda olaraq məhdudlaşdırılmışdır. Məhz buradan da qaynaqlanaraq Avropanın müxtəlif ölkələrində qadınların «murdar olmaları» haqqında fikir formalaşmış və dini kitablarda qadınların müqəddəs «İncil»ə toxunması yasaq edilmişdir. Demokratiyanın beşiyi olan Fransa kimi bir ölkədə hələ 18-ci əsrdə «Qadın insandır, yoxsa Şeytan?» adlı mövzu ətrafında elmi konfransın keçirilməsi dediyimizə nümunə ola bilər. Ümumilikdə isə demokratiya, azadlıq, qadın hüquqları və mənafeləri uğrunda ardıcıl və qətiyyətli mübarizə aparılmasına baxmayaraq 19-cu əsrin sonlarına qədər olan müddətdə xristian aləmində qadın hüquqları sahəsində uğurlu heç bir nəticə əldə etmək mümkün olmamışdır. Qədim dinlərdə və rəvayətlərdə qadının rolu bir ana kimi çox vaxt müqəddəsləşdirilmiş, qədim şumerlər qadını- ananı hər şeydən – vardan, dövlətdən, övladdan belə üstün tutmuş, ana müqəddəs hesab olunmuş, analıq ləyaqəti, analıq haqqı hər bir övlad üçün, hansı cinsə mənsub olmasından asılı olmayaraq əzəli və əbədi olmuşdur. Ümumiyyətlə qadının və kişinin genetik, bioloji, fizioloji xüsusiyyətləri, davranış və düşüncə tərzləri, intellektuallıq əmsalları, əqli kamillik səviyyəsi, sosial təyinatı əhəmiyyətli dərəcədə fərqlidir. Qadın məntiqi, kişi məntiqindən kəskin surətdə seçilir. Öz fəaliyyətində qadın həmişə nə istədiyini bilir. Qadın düşüncəsinə görə əgər məqsədə çatmaq qarşıya qoyulmuşdursa, o zaman məqsədə çatmaq yolları ikinci dərəcəli əhəmiyyət kəsb edir. Bu gün feminizim ictimai hərəkatı qadınların cəmiyyətdə rolu, hü-

quqları və vəzifələri ilə məşğul olan bir fəlsəfi təlim, hərəkat kimi müəyyən uğurlara nail olsa da, müxtəlif mənfi təzahürlərin də meydana çıxmasına səbəb olmuşdur. İnsanlar cinsi həyatın təbii gedişinə ən müxtəlif üsullarla və vasitələrlə müdaxilə etmək imkanlarına sahib olmuşlar. Qadınlar hamiləliyin qarşısını müxtəlif üsullarla almağa çalışır, rüşeymin hansı cinsə mənsub olmasını bildikdən sonra müəyyən istiqamətlər seçir, ona daha çox sərf edəni – oğlanı və ya qızı seçim edərək saxlamaq imkanı və ya əksinə, məhv etmək imkanı əldə edirlər. Qadın orqanizmi heç nəyə baxmadan hormon ifraz etmək keyfiyyətini qoruyub saxlayır. O bu fəaliyyətini müəyyən yaşa qədər davam etdirmək iqtidarında olur. Məhz belə əməliyyatlar və müdaxilələr nəticəsində, cinsi əlaqənin intensivliyinə baxmayaraq, hamiləlik baş vermir və populyasiyada gender disbalansı yaranır. Seksual aktiv qadınların sayı çoxalır, onların cinsi cüt tapmaq şansı azalır. Qadın aqressivləşir və bu aqressivlik kişiyə doğru istiqamət alır. Bu zaman qadının cinsi instinkti nə baş verdiyini dərindən «anlamır», nəticədə qadının cinsi meyli öz cinsindən olan fərdlərə doğru yönəldilir. Beləliklə də lesbiyanlıq kimi xoşagəlməz təzahürlər yaranmağa başlayır. Cinsi cəhətdən fəal qadınların çox olması kişilərdə «cinsi toxluğ»un yaranmasına gətirib çıxarır, onlar passivləşir və oyanma vəziyyətinə gəlmək üçün müxtəlif süni dərman vasitələrindən, preparatlarından istifadə etmək məcburiyyətində qalırlar. Bu zaman qadın aqressivliyinin yaratdığı qorxu hissi kişiyə öz zəifləmiş cinsi meylini başqa səmtə yönəltməyə təhrik edir. Bütün bunların nəticəsində də qadınlar və kişilər arasında müxtəlif cinsi pozğunluqlar, anormal hadisələr və proseslər baş verir. Yaxud uşaq doğumunu tənzim etmək üçün qadınlar müxtəlif vasitələrdən istifadə edir, doğuşun qarşısını alır, uşaqların sayını və cinsini tənzim edir və bəzən də genetik cəhətdən qüsurlu doğulan zəif fərdlər nəsil törətmədən tələf olurlar. Öz körpəsini itirən ana ruhi sarsıntılar keçirir və bu sarsıntının təsiri altında yenidən uşaq doğmağa həvəs qalmır. Dünyaya qüsurlu gələn körpələrin yaşamaq imkanları müasir tibbi texnologiyalardan istifadə etməklə genişlənir və qüsurlu doğulan uşaqların sayı çoxalmağa başlayır. Bu gün seksual pozğunluqlar kontekstində və

qüsurlu yanaşmalar nəticəsində təəssüf ki, homoseksualizm yanlış olaraq orqanizmin xüsusiyyəti kimi təqdim edilir. Son illər feministlər kişinin və qadının xarici görünən fərqlərinin aradan qaldırılmasını vacib hesab edir və bu cəhətə xüsusi diqqət yetirirlər. Bəzi kişilər özlərini «üçüncü cins»in nümayəndələri kimi aparmağa xüsusi meyl və həvəs göstərirlər. Uniseks geyim qaydasının və geyim paltarlarının təbliğinə geniş yer ayrılır. Homoseksualizmdən başqa uniseksin ən pozğun təzahür formalarından biri kimi özünü göstərən karnaval mədəniyyəti mahiyyət etibarı ilə transvestizm fenomeninin artmasına səbəb olur. Bu fenomenin əsas mahiyyəti fiziki cinsin xarici əlamətlərini minimum səviyyədə aşağı salmaqla qadın və kişi arasındakı fərqin aradan qaldırılmasına istiqamətlənmişdir. Bu günki meyllər və reallıqlar belə nəticəyə gəlməyə əsas verir ki, dünyamız feminizasiyalaşmaqdadır. Bu baxımdan Məhəmməd peyğəmbərin – «özünü qadına oxşadan kişini və özünü kişiyə oxşadan qadını lənətləməsi» tamamilə haqlı hesab edilməlidir. Xristianlıqdan fərqli olaraq islam qadının və kişinin Allah qarşısında bərabər olduğunu və bərabər hüquqlu yaradıldığını təsbit edir. «Mömin olub yaxşı işlər görən – Allaha itaət edən kişiyə və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcək» kimi müddəalar islamın son dərəcə mütərəqilliyini və müasirliyini şərtləndirir. Ümumiyyətlə, qadın cinsinə mənsub olaraq doğulmuş körpələrini ən amansız üsullarla qətlə yetirən ərəb dünyasında Məhəmməd peyğəmbərə (s.ə.s) tanrıdan daxil olan müqəddəs kəlamların təsiri altında birdən-birə kəskin surətdə dəyişməsi islam dininin dünyəvi və fəlsəfi mahiyyətini və əhəmiyyətini dərindən başa düşmək üçün olduqca ibrətamizdir. Məhz İsam dini qadına və anaya ən yüksək dəyər və hörmət təcəssüm etdirərək, «cənnətin anaların ayağı altında olması» kimi böyük bir qiymət vermiş, ana, qadın, qız ictimai mühitdə və ailədə verilən yüksək dəyəri ilə seçilmişdir [257; 337; 358; 364; 383; 384; 433; 521; 552].

Qadın və kişi münasibətlərini ən müxtəlif istiqamətlərdə tədqiqi və təhlili təsdiq edir ki, onlar fərqli bioloji varlıq olmaqla yanaşı, cəmiyyətdə və ictimai siyasi proseslərdə fərqli mövqeləri ilə seçilir-

lər. Qadının cəmiyyətdəki rolu haqqında danışarkən xüsusilə qeyd edilməlidir ki, bu gün bəşəriyyət insan cinsinin mövcudluğunda, artmasında, təşəkkülündə və təkamülündə qadına – anaya minnətdar olmalıdır. Qadın – ana, kişilərdən fərqli olaraq dünyaya insan – övlad, nəsil gətirmək qabiliyyətinə malikdir. Ailənin qorunub saxlanılması, dünyaya uşaq gətirilməsi, ona süd verilməsi, böyüdülməsi, inkişaf etdirilməsi, tərbiyə olunması, insan cinsinin bioloji fərqliliyinin qorunub saxlanılması məhz ananın, qadının adı ilə bağlıdır.

Təbiətdə və cəmiyyətdə qadın cinsinə mənsub olan fərdin öz istəyi ilə əks cinslə – kişi ilə könüllü olaraq ünsiyyətə girməsi, ər-arvad münasibətlərində olması, nəticədə bətnində uşaq yetişdirməsi, dünyaya gətirməsi, doğması, ona döşlərindən süd verib bioloji inkişafının təmin etməsi, bir ana kimi nəvaziş və qayğı göstərməsi, tərbiyə edib yetişdirməsi, gələcək həyata hazırlaması və sair bu kimi maddi, mənəvi, bioloji və əxlaqi xüsusiyyətlərin məcmusu, özündə analıq hüququnun mahiyyətini təşkil edir və ana olmaq keyfiyyətlərini ehtiva edir. Əslində bu proseslər bir sistem kimi analıq hüququnun səciyyəvi elementlərini özündə birləşdirir. Analıq hüququ son dərəcə vacib və bəşəri mahiyyət daşıdığından hesab edirəm ki, Konstitusiyada belə bir normanın – «analıq hüququ»nun müstəqil olaraq təsbit olunması bir çox problemlərin həllinə kömək etmiş olardı. Normal vəziyyətlərdə analığın və ya analıq xüsusiyyətlərinin və geniş mənada bu fəaliyyətin kişidə və ya kişi cinsli şəxslərdə olması mümkünsüzdür.

Zaman-zaman bilavasitə səyi ilə qadınların rolunu təəssüf ki, azaltmış, qadınlar ən müxtəlif mənalarda təqib olunmuş, sıxıntılara məruz qalmış və cəmiyyətin sonrakı inkişafında həyat onları öz hüquqları uğrunda mübarizə aparmağa vadar etmişdir. Bu proses əsrlərlə ən müxtəlif coğrafi ərazilərdə, regionlarda, ölkələrdə, ictimai-siyasi quruluşlarda az və ya çox dərəcədə təkamül yolu keçmiş, cinslər arasında günü bu gündə bərabərlik, ideal vəziyyətdə təmin olunmamışdır. Buna görə də bu gün qadın hüquqlarının müstəqil fenomen kimi tədqiqi son dərəcə vacib və əhəmiyyətlidir. Hüququn subyekti kimi qadın hüquqlarının kompleks tədqiqi, hər şeydən öncə ən müxtəlif elm sahələr – biologiya, fiziologiya, genetika, antropologiya,

psixologiya, təbabətin müxtəlif sahələri, fəlsəfə, hüquq, ictimai-siyasi elmlərin ən müxtəlif sahələri tərəfindən zaman-zaman əldə edilmiş elmi kəşflərə, təlimlərə, nəzəriyyələrə, baxışlara əsaslanaraq insana – o cümlədən kişiyə və qadına müstəqil olaraq bir subyekt kimi, bioloji, sosial varlıq kimi konkret anlayış verilməsindən başlanmalıdır. Bu fenomenə indiyə kimi mükəmməl anlayış, definisiya verilməmişdir. Heç şübhəsiz, bu da insan hüquqlarının və azadlıqlarının, o cümlədən qadınla bağlı olan ən müxtəlif problemlərin, o cümlədən qadın hüquqlarının tədqiqində müəyyən çətinliklər yaratmışdır. Buna görə də, bizim fikrimizcə, müxtəlif elm sahələrinin apardığı tədqiqatlar, araşdırmalar, təhlillər və əldə olunmuş məlumatları məcmuu şəklində yekunlaşdırılaraq «insan»a bir varlıq kimi, onun biri-birindən fərqli cinsləri olmaq etibarı ilə «kişi»yə və «qadın»a ayrı-ayrılıqda müstəqil olaraq aşağıdakı təriflərin verilməsi məqsədəmüvafiq hesab edilməlidir [337; 358; 364; 383; 384; 433; 521; 552]. Beləliklə, yer üzündəki canlıların ən yüksək və ali təbəqəsi, tarixi prosesin, maddi və mənəvi mədəniyyətin yaradıcısı və inkişafının subyekti, həyatın digər formaları ilə genetik cəhətdən bağlı olan, əmək alətləri və maddi nemətlər istehsal etmək qabiliyyətinə, aydın nitqə, təfəkkürə, şüura, zəkaya, cəmiyyətdə ictimai-siyasi rola malik olan, fəal hərəkətlər edən, həyatın gözəlliklərindən, təbiətin ecazkarlıqlarından zövq almağı bacaran, bioloji, fizioloji, morfoloji, genetik, anatomik əlamətlərin məcmusunu özündə birləşdirən, öz nəslini artırmaq kimi bioloji funksiyanı yerinə yetirməyə qadir olan, biososial və intellektual varlıq – insan cinsi hesab olunur. İnsan kişi – erkək, və qadın – dişi kimi iki bioloji cinsdə təmsil olunur. Təbiətdə, ailədə və cəmiyyətdə kişi kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi və fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin erkək histoloji quruluşu, kişi cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus kişi orqanları olan, qadının dünyaya uşaq gətirmək sahəsindəki fəaliyyətində aktiv erkək rolu oynayan, habelə kişi kimi səciyyələndirilə bilən çoxsaylı digər xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi, kişi hesab edilir və bu kişi cinsinin əsas mahiyyətini təşkil edir. Təbiətdə,

ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus qadın cinsi orqanları olan, dünyaya uşaq gətirmək, ona süd vermək, analığın digər başqa keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi isə qadın hesab olunur. Buna görə də fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olub hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və dövlətdaxili hüquq sistemində təsbit olunması müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, beynəlxalq hüququn ən mühim prinsiplərindən birini, dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin insan hüquqlarına və azadlıqlarına hörmət etməsi prinsipi təşkil edir. Qadın hüquqlarının kişi hüquqları ilə bərabərləşdirilməsi, eyniləşdirilməsi, yaxud qadın hüquqlarının genişləndirilməsi uğrunda hərəkat, cinslərin bərabərliyinin təmin olunması sahəsində ictimai-siyasi təlimlər – feminizm və gender siyasəti bir çox ictimai-siyasi xadimləri öz ətrafında birləşdirsə də, apardığımız və yuxarıda şərh etdiyimiz müddəalar qadın və kişi bərabərliyinin bioloji, fizioloji, hüquqi, sosial və digər baxımdan mümkünsüz olduğunu tam təsdiq edir**.** Qadınların həyat tərzində qızlıq və ya dulluq mərhələsinin fərqləndirilməsinə də zərurət vardır. Qızlıq dövrü adətən 10-12 yaşdan başlayaraq, qadın cinsinə mənsub olan fərdin ərə getdiyi dövrə qədər olan müddəti əhatə edir. Bakirəlik mərhələsi kimi qiymətləndirilən bu dövr daha çox tanınmış və kübar ailələr üçün səciyyəvi olsa da, orta əsrlərdə bakirəlik tələbləri şəhərli qadınlara da tətbiq edilməyə başlanıldı. Dulluq isə sosial və hüquqi baxımdan ərə getmiş qadının həyat yoldaşının ölməsindən və ya nikah münasibətlərinin pozulmasından sonrakı mərhələni əhatə edir. Hüquqi baxımdan qadının statusuna, hüquqlarına və vəzifələrinə müəyyən dərəcədə olsa da təsir göstərən qızlıq, bakirəlik və dulluq dövrü qanunvericilikdə tənzim edilməsə də, lakin uzun illərin adətləri, ənənələri, etik və əxlaqi dəyərləri bu məsələyə aydınlıq gətirmişdir [160, s.28, 139]. Qadının və kişinin tə-

biət tərəfindən bəxş edilmiş bioloji, fizioloji, sosial, genetik, psixoloji və digər çoxsaylı cəhətlərindəki kəskin fərq, feminizm və gender təlimlərinin illuziya olduğunu sübuta yetirir. Buna baxmayaraq, ailədə, cəmiyyətdə, dövlət həyatında qadının müstəsna rolu, dünyaya uşaq gətirmək kimi müstəsna yaradıcılıq fəaliyyəti, insan nəslinin inkişafında, maddi nemətlər istehsalında onun rolu qadın hüquqlarının aparıcı mahiyyətini təsdiq edir. Bu baxımdan qadın hüquqları, bütün mənalarda genişləndirilməli, cəmiyyətdə qadın, həm də ana olmaq etibarı ilə onun rolu, imkanları intihasız olmalıdır [169, s.105-114; 170, s.102-112; 171, s.105-110; 172, s.259-264].

Beynəlxalq və milli hüquq normalarında qadının statusuna dair bu və ya digər hüquq normalarına zaman-zaman müəyyən yer ayrılmış, onun statusunun müəyyən edilməsinə səylər göstərilmişdir. Bu da onunla əlaqədardır ki, ailənin strukturunda mühim və müstəsna yer tutan qadının, eyni zamanda bir ana kimi geniş hüquqlara və azadlıqlara sahib olması tamamilə təbiidir. Qadın dedikdə, eyni zamanda ana nəzərdə tutulur. Apardığımız tədqiqatlar birmənalı şəkildə təsdiq edir ki, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, dünyaya uşaq gətirmək, onu bəsləmək, analığın bütün keyfiyyətlərini özündə ehtiva edən və ana kimi səciyyələndirilə bilən, kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi qadın hesab edilir. Qadın ailənin ən əsas simalarından biri olmaqla, o, ailə ilə sıx bağlıdır və onun tərkib hissəsində başlıca fiqur olaraq səciyyələnir. Yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji və bioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq, onu tərbiyə edib yetişdirmək məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis edilən, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş qaydalara əməl etməklə, müvafiq icra hakimiy-

yəti orqanlarında rəsmiləşdirilən nikah əqdi əsasında yaranan kiçik sosial qrup, kişi və qadın birliyi ailə anlayışını təşkil edir. Beynəlxalq Əmək Təşkilatının 28 iyun 1952-ci il tarixli «Analığın mühafizəsi haqqında» 103 nömrəli Konvensiyasının 2-ci maddəsində göstərilir ki, bu Konvensiyanın qadın termini yaşından, milliyyətindən, irqindən və ya dinindən asılı olmayaraq, nikahda olan və ya olmayan, qadın cinsindən olan… şəxsi ifadə edir [121, s.137, 143]. Bütöv bir təsisat olan ailə öz strukturuna və subyektlərinə görə ümumi və fərdi əlamətləri ilə səciyyəvidir. Onun statusu – yaranmasının hüquqi əsasları, hüquqları, vəzifələri, öhdəlikləri, quruluşu, tərkib elementləri subyektlərinin statusu mükəmməl tənzimləmə tələb edir. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 23-cü maddəsində göstərilir ki, hər bir insan, o cümlədən hər bir qadın işləmək, işlədiyi işi sərbəst seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq, işsizlikdən müdafiə olunmaq, heç bir ayrı-seçkiliyə məruz qalmadan, bərabər əməyə görə bərabər haqq almaq, özünün və ailəsinin layiqli dolanışığını təmin edən, ədalətli və qənaətbəxş həcmdə, zəruri hallarda isə digər sosial təminat vəsaitləri də əlavə edilməklə, haqq almaq hüququna malikdir [122, s.55-56]. İnsan hüquqları sistemində qadının əmək hüququnun, istirahət hüququnun, normal əmək şəraitinin və digər zəruri məsələlərin beynəlxalq standartlara cavab verən bir səviyyədə təmin olunması BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» və «Mülki və siyasi hüquqlar haqqında» beynəlxalq Paktlarında, müvafiq fakultativ protokollarında və digər sənədlərdə öz ifadəsini tapmışdır. Ailənin konstitusiya hüquqi statusu ilə yanaşı onun hər bir subyektinin özünün də sistemaltı element kimi müstəqil konstitusiya hüququ statusu vardır ki. bu da öz hüquqi əsasını beynəlxalq hüquq normalarından götürür. Qadının analıq hüququ Konstitusiya ilə yanaşı, həm də Ailə Məcəlləsində və digər sahəvi normativ-hüquqi aktlarda təsbit olunmuşdur. Azərbaycan ailəsinin strukturunda qadının mühim yeri və rolu vardır**.** Müstəqillik illərində qadının statusuna dair kifayət qədər normativ-hüquqi aktlar, Konvensiyalar, qərarlar, bəyannamələr və sair qəbul edilsə də, lakin onun statusu barədə müstəqil normativ hüquqi akt nə beynəlxalq, nə də milli sə-

viyyədə qəbul edilməmişdir. BƏT-nın 1952-ci ildə yenidən işlənmiş «Analığın mühafizəsi haqqında» 103 saylı Konvensiyasının 2-ci maddəsində göstərilmişdir: «Bu Konvensiyanın məqsədləri üçün «qadın» termini yaşından, milliyyətindən, irqindən və ya dinindən, nikaha daxil olub-olmamasından asılı olmayaraq, qadın cinsindən olan istənilən şəxsi, «uşaq» termini isə valideynlərinin nikahda olub-olmamasından asılı olmayaraq istənilən uşağı ifadə edir» [583; 585]. Göründüyü kimi qadının və uşağın definisiyasına beynəlxalq sənəddə müəyyən aydınlıq gətirilməsinə təşəbbüs göstərilsə də, lakin bir çox parametrlərinə görə bu terminlərə verilən anlayışı mükəmməl hesab etmək olmaz. İnsan nəslinin təşəkkülündə, təkamülündə və inkişafında qadının – ananın böyük rolu vardır. O, dünyaya insan gətirən, ona can, qan və ruh verən, onu bəsləyən, böyüdən və tərbiyə edən yaradıcı bir varlıqdır. Qadın mənəvi, əxlaqi dəyərlərin və ənənələrin ən böyük daşıyıcısı, qoruyucusu və nəsildən-nəsilə ötürücüsüdür. Qadının cəmiyyətdəki və ailədəki konstitusiya hüquqi statusunun müasir vəziyyəti əsirlərlə aparılan mübarizənin nəticəsidir [153, s.30-72; 186, s.11-60, 172-195; 189, s.8-40; 272, s.6-17]. Qadın hüquqlarının və azadlıqlarının müasir anlamı əslində sivilizasiyanın və mədəniyyətin ən yüksək ifadə forması və təcəssümü hesab oluna bilər.

AR-nın qanunvericilik tarixində qadın hüquqlarının və azadlıqlarının konstitusiya təsbitinə daimi xüsusi diqqət yetirilmişdir. Şərqdə ilk Demokratik Respublikanın elan olunduğu vaxtdan, 28 may 1918-ci ildən etibarən Azərbaycanda qadın və kişi hüquqlarının bərabərliyi elan edilmişdir. «Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsi»ndə milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq ölkədə bütün vətəndaşlara siyasi və vətəndaşlıq hüquqlarının verilməsi və onların bərabər olması bəyan edilmişdir [54, s.71]. Öz dövrü üçün bu Şərq tarixində böyük bir hadisə idi. Ölkəmizdə qadın hüquqları sahəsində beynəlxalq standartlar referendum yolu ilə qəbul edilmiş AR-nın ilk Milli Konstitusiyasında ifadə edilmişdir. Dövlətin ali qanunu hesab edilən konstitusiyada qadının statusunun təsbit olunması, bir insan, bir vətəndaş və bir şəxsiyyət kimi qadına göstərilən böyük hörmətin, diqqətin və qayğının

nəticəsidir. Konstitusiyamızın ikinci bölməsinin üçüncü fəsli «Əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına» həsr olunmuş, kişinin və qadının eyni hüquqları və azadlıqları olduğu bəyan edilmiş, onların bərabərliyinə təminat vermişdir. İnsanın və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması və ayrı-seçkilik qadağan edilmişdir [82, s.7-9; 155, s.113-285]. Tədqiqat zamanı ailənin üzvü olaraq qadının konstitusiya hüquqi statusu ətraflı tədqiq olunmuş, müəllif «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında Qanun» layihəsinin hazırlanmasını təmin etmiş, bu sənəddə qadınların hüquqları, azadlıqları və öhdəlikləri beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Hazırladığım müəllif layihəsi aidiyyəti üzrə Milli Məclisə təqdim edilmişdir.

BMT-nin 20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnamə ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiya dünyanın müxtəlif ölkələrində illərlə aparılan siyasi hüquqlar uğrunda qadın hərəkatının nəticəsidir. Bu Konvensiya qadınlara kişilərlə bərabər şərtlər əsasında bütün seçkilərdə səs vermək, seçilə bilmək, ictimai və dövlət xidmətində vəzifə tutmaq, dövlət funksiyalarını yerinə yetirmək hüquqları verdi [123, s.101-105]. BMT Baş Məclisinin 20 dekabr 1952-ci il tarixli Qətnaməsi ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiya 8 dekabr 1992-ci ildə, «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması haqqında» 19 dekabr 1965-ci il tarixli Qətnamə 30 iyun 1995-ci ildə, «İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» 21 dekabr 1965-ci il tarixli Konvensiya 31 may 1996-cı ildə, «İnsan alveri ilə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında» 2 dekabr 1949-cu il tarixli Konvensiya 31 may 1996-cı ildə, «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı mübarizə haqqında» 10 dekabr 1984-cü il tarixli Konvensiya 31 may 1996-cı ildə, «Ərdə olan qadının vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il tarixli Konvensiya 31 may 1996-cı ildə, «Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında» 11 may 2011-ci il tarixli İstanbul Konvensiyası, Avropa Şurasının, digər bey-

nəlxalq və regional təşkilatların qadın hüquqları ilə bağlı sənədləri ölkəmizdə ratifikasiya edilmiş və milli qanunvericilikdə bütün bunların nəzərə alınması təmin olunmuşdur [266]. Qeyd edilməsi zəruridir ki, son vaxtlar İstanbul konvesiyasının bir sıra müddəalarının müsəlman hüququna zidd olması barədə müddəalar müzakirə predmetinə çevrilmişdir.

Beynəlxalq Əmək Təşkilatı əmək və sosial təminat məsələlərinin müxtəlif problemlərinin həllini təmin edən 150-dən çox Konvensiya və tövsiyə qəbul etmişdir. AR 12 may 1992-ci ildən BƏT-nın üzvü olmuş, ötən dövr ərzində onun yüzdən çox əhəmiyyətli Konvensiyasını və tövsiyələrini tanımış və bu istiqamətdə müvafiq tədbirlər görmüşdür. BƏT-nın 1930-cu il «İcbari və ya məcburi əmək haqqında» Konvensiyası, «Hər cür şaxtalarda, yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında» 25 iyun 1935-ci il tarixli 45 nömrəli Konvensiyası, «Əmək haqqının düzgün ödənilməsi haqqında» 1951-ci il Konvensiyası, «Bərabər dəyərli əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında» 09 iyun 1951-ci il tarixli 100 nömrəli Konvensiya və 90 nömrəli Tövsiyə, «Analığın mühafizəsi haqqında» 28 iyun 1952-ci il tarixli 103 nömrəli Konvensiyası və eyni adlı 95 nömrəli Tövsiyəsi, «Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında» 25 iyun 1958-ci il tarixli Konvensiyası, «Ticarətdə və idarələrdə gigiyena haqqında» 09 iyun 1964-cü il tarixli 120 nömrəli Konvensiya, «Məşğulluq sahəsində siyasət haqqında» 1964-cü il 122 nömrəli Konvensiyası, «Ticarətdə və idarələrdə gigiyena haqqında» 17 iyun 1964-cu il tarixli 120 nömrəli Tövsiyəsi, «Ailə öhdlikləri olan işçilər haqqında» 1981-ci il Konvensiyası, «Məşğulluğa yardım və işsizlikdən müdafiə haqqında» 1991-ci il 168 saylı Konvensiyası, «Sosial təminatın minimum normaları haqqında» 122 nömrəli Konvensiyası, «Sosial təminatın hüququnun haqqında minimum normaları haqqında» 118 nömrəli Konvensiyası, «İş yerlərində havanın çirklənməsi ilə, səslə və titrəyişlə yaranan peşə risklərindən müdafiə haqqında» 1 iyul 1979-cu il 148 nömrəli Konvensiyası, «Əmək miqrasiyası və mühacir zəhmətkeşlərin sosial müdafiəsi sahəsində» Tövsiyəsi və onlarla digər beynəlxalq sənədlər qadın hüquqlarının beynəl-

xalq standartlarını müəyyən etmiş, qadın əməyinin və sağlamlığının etibarlı mühafizəsinə və müdafiəsinə şərait yaratmışdır.

Avropa Şurasının məqsəd və vəzifələrinə uyğun olaraq 18 oktyabr 1961-ci ildə Turində Avropa Sosial Xartiyası və ona aid olan Protokol qəbul edilmiş bu sənədə sonralar dəfələrlə əlavələr və zəruri düzəlişlər edilmiş, üzv dövlətlər hər bir qadının sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşamaq üçün qazanc əldə etmək, ədalətli, təhlükəsiz və sağlam iş şəraiti, özlərinin və ailələrinin normal həyat səviyyəsi üçün yetərli olan ədalətli mükafatlandırma, iqtisadi və sosial maraqların müdafiəsi məqsədilə milli və ya beynəlxalq təşkilatlarda sərbəst birləşmək, kollektiv müqavilələr bağlamaq, uşaqlar və yeniyetmələrin məruz qaldıqları fiziki və mənəvi ziyan təhlükəsindən müdafiə olunmaq, işləyən qadınların analıq dövründə müdafiəsi, şəxsi qabiliyyətinə və maraqlarına uyğun olaraq peşə seçimi baxımından ona yardım göstərilməsi, səhhətini yaxşı səviyyədə saxlamaq, sosial təminat, sosial və tibbi yardım almaq, ailənin, uşaqların və gənclərin sosial, hüquqi və iqtisadi müdafiəsi, hər bir vətəndaşın gəlir gətirən fəaliyyətlə məşğul olmaq, işçi-miqrantlar və onların ailə üzvlərinin müdafiə olunmaq və yardım almaq, cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmamaq, əmək şəraitini və istehsal mühitini yaxşılaşdırmaq, işəgötürənin ödəmə qabiliyyətsizliyi halında, onların iddialarının müdafiəsi hüququna malik olmaq, iş yerlərində insan ləyaqətini qorumaq, işə girən və ya işə girmək istəyən, ailə öhdəlikləri olan hər bir şəxsin heç bir ayrı-seçkiliyə məruz qalmadan və mümkün qədər öz işi ilə ailə öhdəlikləri arasında toqquşma yaratmadan bunu etmək və mənzil hüququ təsbit edilmişdir. 18 oktyabr 1961-ci ildə qəbul edilmiş Avropa Sosial Xartiyasının əlavə protokolunda cinsi əlamətə görə ayrı-seçkilik olmadan məşğulluq və peşəyə aid olan bərabər imkan və bərabər şərait hüququ, əmək şəraitinin müəyyən edilməsi və yaxşılaşdırılmasında iştirak etmək hüququ, ahıl şəxslərin sosial müdafiə hüququ təsbit olunmuşdur [38, s.82-94; 46, s.7-11]. Bütün bunlara müvafiq olaraq əmək münasibətlərində qadınların və kişilərin bərabərliyi prinsipi əmək qanunvericiliyində öz ifadəsini tapmış, hər hansı səbəbdən ayrı-seçkiliyin salınması qəti qadağan

edilmişdir. Qadınların əmək hüquqları, onlara edilən güzəştlər, ödəmələr, mükafatlar, yardımlar, əmək mühafizəsi qaydaları beynəlxalq standartlara tam uyğunlaşdırılmışdır. Məcəllənin 10-cu bölməsinin 36-cı fəslində qadınların əmək hüquqları və onun həyata keçirilməsi üçün təminatlar nəzərdə tutulmuşdur. Hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlarla əmək müqaviləsinin bağlanma şərtləri yüngülləşdirilmiş, qadın əməyinin tətbiqi qadağan olunan sahələr konkretləşdirilmiş, onların gecə işlərinə cəlb edilməsi, zərərli və yeraltı sahələrdə işlədilməsi qadağan edilmiş, əlavə güzəştlər, yardımlar nəzərdə tutulmuşdur. Məcəllədə və onunla bağlı verilən normativ-hüquqi aktlarda BƏT-in «Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında» 24 may 1950-ci il tarixli 100 saylı Konvensiyada, «Qadınların müxtəlif yeraltı işlərdə və şaxtalarda əməyinin məhdudlaşdırılması haqqında» 21 iyun 1935-ci il tarixli, «Analığın mühafizəsi haqqında» 28 iyun 1952-ci ildə qəbul edilmiş Konvensiyalarda nəzərdə tutulmuş şərtlərə tam əməl olunmuşdur. Bu da həmin Konvensiyaların AR-nın Milli Məclisində ratifikasiya edilməsi və ölkəmizin bu sahədə öz üzərinə müvafiq öhdəliklər götürməsi ilə əlaqədar olmuşdur. Qadınların tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığını qorunması hüququ, cəmiyyətin və dövlətin ictimai siyasi həyatında iştirak etmək hüququ, azad sahibkarlıqla məşğul olmaq hüququ AR Konstitusiyasında nəzərdə tutulmuş və onun həyata keçirilməsi üçün BMT-nın, BƏT-nın, Avropa Şurasının, digər beynəlxalq və regional qurumların tələblərinə, şərtlərinə və standartlarına əməl edilməkdədir [38; 39; 46; 71; 112; 160; 209].

Ulu Öndər Heydər Əliyev tərəfindən inkişaf etdirilmiş dövlət qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi sahəsində kompleks tədbirlər sistemi, cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilmiş və təkmilləşdirilmişdir. 6 fevral 2006-cı ildə İlham Əliyevin Fərmanı ilə «Qadın problemləri üzrə Dövlət Komitəsi»nin statusu daha da təkmilləşdirilərək, onun bazasında «Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi» yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi genişləndi-

rilmişdir. 10 oktyabr 2006-cı ildə «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında», 22 iyun 2010-ci ildə «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycanda ilk dəfə olaraq Qanunlar qəbul edilmişdir. Xalqın suveren iradəsi üzərində qurulan Azərbaycan dövlətinin başlıca məqsədi və fəaliyyət istiqamətləri milli maraqları qorumaqla, həm də qadın hüquqlarını və azadlıqlarını etibarlı şəkildə təmin etməyə xidmət edir. Konstitusiyanın ikinci bölməsinin üçüncü fəslində nəzərdə tutulan 48 normada insan üçün zəruri olan hüquqların və azadlıqların bütün növləri beynəlxalq standartlara uyğun olaraq və hətta bir sıra hallarda daha da genişləndirilmiş formada öz təsbitini tapmışdır. Həmin bölmənin dördüncü fəsli isə «Vətəndaşların əsas vəzifələri» məsələlərinə həsr edilməklə,bu 9 maddədə təsbit olunmuşdur.

AR Konstitusiyasının 76-cı maddəsində Vətənin müdafiəsi hər bir vətəndaşın borcu hesab olunur. Bu Konstitusion normanın icrası ilə əlaqədar olaraq ölkəmizdə müxtəlif normativ-hüquqi aktlar qəbul edilmişdir. «Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında» Qanunun tələbinə görə 18 yaşından 35 yaşınadək olan kişi cinsli vətəndaşlar hərbi xidmətə çağırılırlar. Bununla belə, qanunun tələbinə görə AR-nın tibbi və ya başqa ixtisas təhsili olan qadın vətəndaşları da, yalnız özlərinin razılığı ilə hərbi uçota götürülə bilər və müqavilə əsasında AR-nın Silahlı Qüvvələrinin müvafiq bölmələrində xidmət edə bilərlər. Göründüyü kimi, AR-nın qadın vətəndaşlarının, hərbi xidmətə çağırışı, müstəsna hal kimi yalnız onların öz razılığı əsasında mümkün hesab edilir. Bu da kişilərlə eyni statusa malik olan qadınların cəmiyyətin bərabər üzvü kimi Vətəni müdafiə etmək vəzifəsinin könüllülük prinsipinə əsaslanması, onlara olan humanist münasibətin nəticəsi kimi qiymətləndirilə bilər.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 1-ci və 2-ci maddələrində göstərilir ki, bütün insanlar öz ləyaqətləri və hüquqları etibarı ilə azad və bərabər doğulurlar. ...Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidəsi, milli, silki və sosial mənsubiyyəti, əmlak vəziyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də

elan edilmiş bütün hüquqlara və azadlıqlara malikdirlər [122, s.52]. Qadının mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməsi və ya suverenliyi, hər hansı digər şəkildə məhdudlaşdırılan ərazi olub-olmamasından asılı olamayaraq, insan hüquqlarına münasibətdə heç bir fərq qoyulmamalıdır [122, s.52]. Bu normalar və onların məzmunu AR Konstitusiyasının 24-cü maddəsində «insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi» kimi verilmiş və orada qeyd olunmuşdur ki, AR-nın vətəndaşı olan hər bir qadının doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Bu gün hüquq elmində insan  hüquqların və azadlıqların ən müxtəlif təsnifatları mövcud olsa da, fikrimizcə cəmiyyətin mühim sosial qrupu hesab olunan qadınlara münasibətdə, daha legitim təsnifat, beynəlxalq sənədlərdə müəyyən edilən təsnifatlar əsas hesab oluna bilər. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də, BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar» haqqında» Paktında, «Mülki və siyasi hüquqlar haqqında» Paktda, «İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasında, AR-nın Konstitusiyasında və digər mühim və mötəbər sənədlərdə təsbit olunan hüquqların və azadlıqların ardıcıllığı, sistemi, məcmusu, dəyəri və əhəmiyyəti belə təsnifatlara nümunə ola bilər. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin, «İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasının, müxtəlif Paktların və Fakultativ protokolların qəbulundan və onları ratifikasiyasından sonra ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının dairəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş və  universal xarakteri artırılmışdır. «İnsan hüquqları üzrə Vyana Bəyannaməsi»nin 5-ci maddəsində isə göstərilir ki, bütün insan hüquqları universal və bölünməzdir, biri-birindən asılıdır və bir-biri ilə əlaqəlidir. Beynəlxalq ictimaiyyət insan hüquqlarına qlobal şəkildə ədalətli və bərabər şəkildə, eyni əsaslarla və eyni diqqətlə yanaşmalıdır. Milli və regional xüsusiyyətlərin, müxtəlif tarixi, mədəni və dini şəraitlərin nəzərə alınması vacibdir. Bütün insan hüquqlarının və əsas azadlıqlarının dəstəklənməsi və müdafiəsi siyasi,

iqtisadi və mədəni sistemdən asılı olmayaraq üzv dövlətlərin mühim vəzifəsi hesab olunmalıdır [189, s.12-17; 389, s.137-197].

«İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasının 14-cü maddəsinə görə hüquqlardan və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, harada doğulması və ya digər statusun olması kimi hər hansı əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır [38, s.44]. BMT-nin «Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 18 dekabr 1979-cu il tarixli Qətnaməsi qadınlara münasibətdə bir çox məsələləri nəzəri baxımdan həll etməklə yanaşı, həm də hər hansı meyara görə qadınlar barəsində «ayrı-seçkilik» anlayışına aydınlıq gətirmişdir [122, s.595-607]. Konvensiya qadınlar barəsində ayrı-seçkiliyin bütün istiqamətlərdə ləğv edilməsini üzv dövlətlərə tövsiyə etmiş, qadınların siyasi, əmək, əmlak, nikah, təhsil, sosial təminat, seçki, sağlamlıq, şəxsi həyat, məhkəmə müdafiəsi, vicdan azadlığı və digər hüquqlarının və azadlıqlarının milli hüquq sistemində əks olunmasını vacib hesab etmişdir [122, s.595-607]. Bu gün dünyada qadınların imkanlarının genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu sahədə ən yüksək və müsbət göstəricilər İsveçdə müşahidə edilir. Bu ölkənin parlament üzvlərinin 45%-ni qadınlar təşkil edirlər. Finlandiyada deputatların 37%-i, Norveçdə 34.6%-i qadınların payına düşdüyü halda, İranda və Türkiyədə bu rəqəm 4-5%, Nigeriyada 1.2%, Yəməndə 0.3% təşkil edir. Qadınlarla kişilərin bərabərhüquqluluğunun təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması sahəsində görülmüş tədbirlər nəticəsində son illər ölkənin ictimai-siyasi həyatında qadınların rolu xeyli artmışdır. Məlumatlardan və təhlillərdən görünür ki [116; 263, s.50], ölkəmizdə hazırda dövlət qulluğunda çalışanların 28%-ni, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların 17%-ni, bədən tərbiyəsi və idman sahəsində çalışanların 39.8%-ni, bələdiyyə üzvlərinin 26.7%-ni qadınlar təşkil edirlər.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 3-cü maddəsinə görə, hər bir insan, o cümlədən qadının yaşamaq, azadlıq və

şəxsi toxunulmazlıq hüququ vardır [116; 263, s.52]. Bu norma Avropa Konvensiyasının 2-ci maddəsində [40, s.4-5] və AR Konstitusiyasının 27-ci maddəsində «yaşamaq hüququ» adı altında təsbit olunmuşdur [85, s.14]. Qadın cinsinə mənsub olan insanlar, bir varlıq olaraq doğularkən, dünyaya gələrkən ilk olaraq yaşamaq hüququndan bəhrələnir və onun yaşamaq hüququ elə məhz təbii olaraq dünyaya gəlişindən başlanır [464, s.56-72]. Təsadüfi deyildir ki, dünyanın bir çox mütərəqqi ölkələrində abort nəinki qadağa edilmiş, hətta buna görə qanunvericlikdə müəyyən məsuliyyət nəzərdə tutulmuşdur. Con Lokk, Hüqo Qrotsi, Benedikt Spinoza, Jan-Jak Russo, Şarl Monteskyö və digər böyük mütəfəkkirlərin fikirlərində yaşamaq hüququ təbii hüquqların tərkib hissəsi kimi səciyyələndirilmişdir. 16-17-ci əsrlərdə formalaşmış «təbii hüquq» nəzəriyyəsi insanın yaşamaq hüququna onun varlığın ayrılmaz hüququ kimi baxırdı. «Təbii hüquq» nəzəriyyəsinin, banilərindən biri olan Con Lokk yazırdı: «İnsan azadlıq hüququ və onun imtiyazlarından məhdudiyyətsiz istifadə etmək üçün doğulur. O, öz təbiətinə görə öz mülkiyyətini, öz həyatını, öz azadlığını və öz əmlakını mühafizə etmək hüququna malikdir» [446, s.310]. Con Lokk təbii hüquqlar içərisində ilkin yerlərdən birini məhz yaşamaq hüququna verirdi. Huqo Qrotsi yaşamaq hüququnu səciyyələndirərkən ağırlıq mərkəzini məhz onun təbii xarakteri üzərinə salırdı. Onun ideyasına görə, insanın yaşamaq hüququ deyərkən, «təbii hüququn özü və insanın təbiəti başa düşülür» [368, s.45]. Fransız maarifçisi, Şarl Lui Monteskyö yazırdı ki, bütün mülki və siyasi hüquqlardan əvvəl «təbii hüquqlar» gəlir və onlar bizim təbii - bioloji varlığımızdan doğulduqları üçün də «təbii hüquqlar» adlandırılır [470, s.165]. Ölkəmizdə hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları tanınmışdır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq, sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır [82, s.14-20]. BMT-nin «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 6-cı maddəsində göstərilir: «Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla mühafizə olu-

nur. Heç kəs həyatdan özbaşına məhrum edilə bilməz» [464, s.56-72]. Yaşamaq hüququ ilə, ondan özbaşına məhrum etmənin qadağan olunmasının əlaqəsi «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 4 noyabr 1950-ci il tarixli Avropa Konvensiyasında [346; 529] da öz ifadəsini tapmışdır. Yaşamaq hüququ digər hüquqların və azadlıqların təməlini, ilkin əsasını təşkil edir. AR müsəlman Şərqində ölüm cəzasını ləğv edən ilk ölkələrdən birincisidir [10, s.4-35]. AR-da 24 dekabr 2002-ci il tarixdə «Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanununun qəbul edilməsi mühim əhəmiyyətə malik olmuşdur. Avropa dövlətlərinin Konstitusiyalarında ifadə edilən yaşamaq hüququnun təsbit edilməsi demək olar ki, oxşar mətn və oxşar məzmun təşkil edirlər. Məsələn, Portuqaliya Konstitusiyasının 17-ci maddəsinin 1-ci hissəsində belə bəyan edilir: «İnsan həyatı toxunulmazdır». Həmin Konstitusiyanın 24-cü maddəsinin 2-ci hissəsində deyilir: «Ölüm cəzasının tətbiqinə yol verilmir». Yaxud Albaniya Respublikasının Konstitusiya Qanununun V fəslinin 1-ci maddəsində elan edilir ki, insanın yaşamaq hüququ qanunla müdafiə olunur. Məhkəmənin qanuni qüvvəyə minmiş ölüm cəzası haqqında hökmü olmadan, heç kəs həyatdan məhrum edilə bilməz. Cinayətin törədildiyi anda 18 yaşına çatmayan şəxslərə, habelə qadınlara ölüm cəzası tətbiq edilmir. İrlandiyanın Konstitusiyasının 40-cı maddəsi bəyan etmişdir ki, dövlət hələ doğulmayanın, yəni ana bətnində olan rüşeymin də yaşamaq hüququnu tanıyır, uşağın yaşamaq hüququnu nəzərə alaraq, buna hörmət edilməsinə təminat verir və bu hüququ öz qanunları ilə mühafizə edir. İspaniya Konstitusiyasının 15-ci maddəsində deyilir: «Hamı yaşamaq hüququna, fiziki və mənəvi toxunulmazlıq hüququna malikdir. Heç kəs heç bir halda işgəncələrə və ya ləyaqəti alçaldan qeyri-insani rəftara məruz qala bilməz. Müharibə dövründə hərbi cinayət qanunları ilə nəzərdə tutulan hallar istisna olmaqla, ölüm cəzası ləğv edilir» [413, s.16-275; 414, s.45].

«Yaşamaq hüququ» və «həyat» mübahisəsiz olaraq eyni olmayan, bir-birilə eynilik təşkil etməyən anlayışlardır. Ona görə ki, hü-

quq – bu, sosial kateqoriya, həyat isə bioloji kateqoriya olmaqla qəbul edilməlidir. «Həyat» və «yaşamaq hüququ»na, onların hər birini, bir tam kimi səciyyələndirən tərkib elementlərinin və alt sistemlərin məcmusu kimi baxılmalıdır. AİHM-si 2002-ci ildə Türkiyə ilə bağlı qərarı maraq kəsb edir. Həmin işdə iddiaçılar məişət tullantıları atılan poliqonun yaxınlığında qanunsuz ev tikmiş və orada öz yaşamaq hüquqlarını həyata keçirmişlər. Tullantıların altında yaranan metan qazının partlaması nəticəsində iddiaçının bir neçə ailə üzvü ölmüşdür. Hökumət iddia edir ki, bu işdə iddiaçıların öz günahları vardır, heç kəs onlara poliqonun yaxınlığında yaşamağa icazə verməmişdir, onlar bu təhlükəli yeri özləri seçmişlər. Üstəlik metan qazının partlayıb-partlamayacağı və nə zaman partlayacağı təxmin oluna bilən bir hal deyildir. Lakin ölkədaxili məhkəmə çəkişməsində artıq müəyyən olunmuşdur ki, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları səhlənkarlığa yol vermişlər. Belə ki, milli qanunvericiliyə görə məişət tullantıları poliqonunun min metr radiusunda olan ərazidə yaşayış yeri olmamalı idi. Eləcə də, hələ partlayışdan iki il əvvəl bu əraziyə baxış keçirən ekspertlər qrupu bu zibilliyin hər cür təhlükə törədə biləcəyi barədə rəy vermişlər. Bütün bunlara görə də AİHM-si Türkiyə Hökumətinin etirazı ilə razılaşmadı. Çünki məhkəmənin mövqeyinə görə Türkiyə hökuməti lazım olsa, iddiaçını və onun ailə üzvlərini poliqonun yaxınlığındakı yaşayış yerindən zorla da olsa, köçürməli idi. Bütün bunları nəzərə alan AİHM-si iddiaçı Önər Yıldızın Türkiyəyə qarşı iddiasını təmin etdi. Bu qərar qəbul edilərkən onun əsasında insanın yaşamaq hüququnun dövlət tərəfindən qorunmasına verilən konstitusiya təminatı əsas götürüldü [225, s.66]. Y.İ.Kozlova və O.Y.Kutafin yazır: «Yaşamaq hüququ dedikdə, təhlükəsiz sosial və təbii həyat şəraitinin yaradılması və müdafiəsi üzrə bütün dövlət orqanlarının, ictimai strukturların və hər bir insanın fəal hərəkətlərinin kompleksini başa düşmək lazımdır» [409, s.216].

AR Konstitusiyasının 27-ci maddəsi hər kəsin, hər bir qadının yaşamaq hüququnu tanıyır, həmin sənədin 24-cü maddəsi isə hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğunu bəyan edir. AR-nın vətəndaşlarının azadlıq

hüququ (maddə 28), təhlükəsiz yaşamaq (maddə 31) hüququ, şəxsi toxunulmazlıq (maddə 32) hüququ, habelə hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ (maddə 41) vardır. Buna görə də insan həyatının qorunması və yaşamaq hüququnun başladığı anı müəyyən etmək kifayət qədər hüququ nəticə doğuran məsələlərdəndur. Müasir hüquq elmində insanın yaşamaq hüququnun onun bətnində mayalanmanın başlandığı vaxtdan və ya uşağın ana bətninə düşdüyü andan hesablanmasına dair fikirlər vardır. Belə yanaşmaya görə abort təkcə hamiləliyin pozulması deyil, habelə qəsdən ölüm kimi də qiymətləndirilə bilir. L.N.Linik göstərir ki, konstitusiyada nəzərdə tutulan yaşamaq hüququnun mənasına görə ana bətnində mayalanmanın başlanması anı, həyatın başlanğıc anı hesab edilməlidir [441, s.23]. Avropa İttifaqının bioetika üzrə keçirdiyi sessiyasında bir sıra alimlər yekdil fikrə gəlmişlər ki, ana bətnində mayalanmanın 14-cü günündən sonra embrion insan hesab oluna bilər. İnsan hüquqları haqqında Amerika Konvensiyasının 4-cü maddəsi birmənalı şəkildə təsdiq etmişdir ki, insan həyatının başlanğıcı mayalanma dövründən başlanır. Elə buna görə də ABŞ-ın sabiq prezidenti Corc Buş «Doğulmamış qurbanların zorakılıqdan müdafiəsi haqqında Akt»ı təsdiq etmişdir. İrlandiya qanunvericiliyi müstəsna hallar istisna edilməklə abortu qadağan etmişdir. Rusiya qanunvericiliyində də həyatın başlanğıc anına dair İ.Y.Foynitskinin, R.Şarapovun, V.D.Nabokovun, N.S.Taqansevin fikirləri diqqəti cəlb edir.

AİHM-si insanın yaşamaq və ölmək hüququnun ən mühim elementlərinə dəfələrlə qayıtmış və bu müddəalar müzakirə edilərək daha bitkin və təkmil tövsiyyələr verilmişdir. Elə bunun nəticəsidir ki, AİHM-nin artıq 2004-cü il iyul tarixli qərarına görə könüllü abort tibbi əməliyyat hesab olunduğundan, məhkəmə bu əməliyyat nəticəsində dölün ölməsi faktının uşaq ölümü kimi qiymətləndirilməsi nəticəsinə gəlmişdir [43, s.90-95]. İtaliyada, Fransada və ABŞ-ın bir sıra ştatlarında insan ölümünün beyinin ölməsi anından hesab edilməsinə dair normativ hüquqi aktlar qəbul edilmişdir. Ürək və nəfəs fəaliyyətinin dayanması, kliniki ölüm hesab edilirsə, beyinin öz

funksiyalarını tam dayandırması, artıq bioloji ölümün baş verməsi anı kimi dəyərləndirilir [476, s.139].

AR Konstitusiyasının 27-ci maddəsi hər kəsin yaşamaq hüququnu və bu hüququn AR-nın vətəndaşlarına, onların anadan olduğu vaxtdan etibarən verilməsini məqbul hesab edir. Lakin bir çox beynəlxalq sənədlərdə insanın yaşamaq hüququnun onun, ana bətninə düşdüyü və mayalanmanın başlandığı vaxtdan etibarən hesablanmasına dair müddəalar vardır. Albert Berner Roma hüquqşünaslarının mövqeyini tənqid edərək, ana bətnində olan embrionun, rüşeymin, insan dölünün ana bətnindən xaric olunmayınca, onu müstəqil varlıq hesab etməyin məntiqsizliyini göstərir [580, s.113]. İngilis hüquq doktrinası bu mövqeyi müdafiə etmiş və ana bətnindən uşağın doğulmasını həyatın əvvəli kimi qiymətləndirmişdir. Onlar belə hesab edirdilər ki, ana bətnindən xaric olmadan, doğulmadan insan varlığından söhbət gedə bilməz. Müəlliflərdən S.Kenni göstərirdi ki, əgər doğulanın, hətta bir ayağı ananın bətnində qalmışdırsa, bu zaman insanın doğulmasından və ya insan ölümündən söhbət gedə bilməz. Uşaq ana bətnindən bütünlüklə xaric olunmuşdursa və nəfəs almağa başlamışdırsa, yalnız bu zaman insandan söhbət gedə bilər [574, s.120]. Bu mövqe ilə razılaşmayan N.S.Taqansev insanın nəfəsalma amilinin həyatın başlanğıcı ilə əlaqələndirilməsi mövqeyini tənqid etmişdir. Müəllif göstərmişdir ki, belə yanaşma cinayət hüquq nəzəriyyəsinə və tibb elminin tələblərinə tam cavab vermir. Təcrübədən aydındır ki, bəzən doğulmuş uşaq bir müddət nəfəs almır, hərəkətsiz qalır, ona müəyyən tibbi yardımlar edilir, yumşaq yerinə yüngül sillə vurulur və yalnız bundan sonra o, nəfəs almağa və deməli yaşamağa başlayır. Bütün bunları nəzərə alaraq N.S.Taqansev dölün ana bətnindən bütünlüklə ayrılmasını həyatın başlanğıc anı hesab edirdi [581, s.25-31]. Bu mövqe A.K.Vulfert, M.N.Gernet, H.A.Neklyudov, V.D.Nabokov, A.A.Jijelenko tərəfindən də dəstəklənmişdir. Ümumiyyətlə, sovet dövrünün görkəmli tədqiqatçıları A.A.Piontokovski, B.S.Utevski, Ş.S.Raşkovski haqlı olaraq belə hesab etmişlər ki, həyatın başlanğıcı, fizioloji doğuşun başa çatdığı andan başlanır [544, s.20].

Ümumdünya Səhiyyə Təşkilatı müddətindən asılı olmayaraq hamiləliyin məhsulu olan yetişmiş dölün ananın bətnindən tamamilə xaric edildiyi və doğulanın nəfəs aldığı vaxtı, insanın həyatının başlanğıc anı hesab edir [593].

İnsanın yaşamaq hüququ ilə sıx bağlı olan təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, sağlam ətraf mühitdə yaşamaq, tibbi yardım almaq və sair bu kimi hüquqlar göstərilən beynəlxalq hüquqi sənədlərdə əks olunduğu kimi AR Konstitusiyasının müxtəlif maddələrində də nəzərdə tutulmuşdur. Vaxtı ilə Con Lokk özünün «İdarəçilik haqqında iki traktat» əsərində, burjua cəmiyyətinin təşkilinin üç əsas prinsipini – mülkiyyət hüququnun təmin edilməsini, etiqada və fikrə dözümlülük göstərilməsini və siyasi qərarların çoxluğun rəyi ilə qəbul edilməsini vacib hesab edirdi [447, s.293].

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə ilk olaraq qəbul edilmiş qanunlar sırasında «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» 25 may 1991-ci il tarixli Konstitusiya Qanunu, eləcə də «Azərbaycan Respublikasında mülkiyyət haqqında» 9 noyabr 1991-ci il tarixli Qanunu xüsusi olaraq qeyd edilməlidir [90, s.143-157]. «İqtisadi müstəqilliyin əsasları haqqında» Qanunda ölkənin iqtisadi müstəqilliyinin əsas məzmunu, məqsədi, prinsipləri, eləcə də mülkiyyətin dövlət mülkiyyəti, kollektiv mülkiyyət, xüsusi mülkiyyət və qarışıq mülkiyyət kimi dörd növü, habelə Respublikanın hüdudlarından kənarda olan mülkiyyət kimi növləri fərqləndirilmiş və onların hüquqi rejiminin əsas meyarları müəyyən edilmişdir. İstehsal alətləri və vasitələri üzərində dövlət mülkiyyətinin tam üstünlüyünün mövcud olduğu sosialist sistemindən yenicə qurtulmuş bir ölkədə «Mülkiyyət hüququ haqqında» Qanunun qəbul edilməsi mühim tarixi əhəmiyyətə malik idi. AR-nın 12 noyabr 1995-ci il tarixli müstəqillik Konstitusiyasında mülkiyyətin daha geniş anlayışı və hüququ rejimi öz təsbitini tapmışdır. «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» 25 may 1991-ci il tarixli Konstitusiya Qanunundan fərqli olaraq 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul edilmiş Konstitusiyada mülkiyyətin 3 növü - dövlət mülkiyyəti, xüsusi mülkiyyət və

bələdiyyə mülkiyyəti kimi növləri konkretləşdirilmişdir. Eləcə də Konstitusiyanın 13-cü maddəsinə əsasən ölkəmizdə mülkiyyətin toxunulmazlığı və dövlət tərəfindən müdafiə edilməsi norması təsbit olunmuşdur. Ailə Məcəlləsi [72, s.1-116] ailə və nikah münasibətlərinin tənzimlənməsinin əsaslarını müəyyən etməklə yanaşı, həm də nikah dövründə qadının və kişinin mülkiyyətinin hüququ vəziyyətini, rejimini, tənzimetmənin digər məsələlərini qaydaya qoyur. Məcəllədə göstərilir ki, ailə üzvləri arasında, ailə qanunvericiliyi ilə tənzimlənməyən əmlak və şəxsi qeyri-əmlak münasibətləri, mülki qanunvericiliyin ailə münasibətlərinin mahiyyətinə zidd olmayan hissədə müvafiq normalar tətbiq olunur. Qadın əri ilə birlikdə ümumi əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir. Bu gün «Sahibkarlara dəstək Fondu»nun köməyi ilə ölkədə qadın sahibkarlığının gündən-günə genişlənməsi və inkişafı diqqəti cəlb edir. Vergilər Nazirliyinin məlumatlarından görünür ki, 81647 nəfərdən çox qadın artıq öz təşkilatını yaratmış, istehsalın, satışın, xidmətin və digər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi fəaliyyəti ilə məşğul olurlar. Konstitusiyamızın 28-ci maddəsi, insanın azadlıq hüququna həsr edilmişdir. Fəlsəfi mənada azadlıq – insanların iradi və idraki müstəqilliyi və zərurətə yiyələnmək vasitəsilə nail olduğu real sərbəstlik vəziyyətini ehtiva edir. Hegelə görə, dünya tarixi – azadlığın şüurda tərəqqisi mərhələsini əhatə edir [157, s.15]. Azadlıq hüququ isə cəmiyyətin sosial, iqtisadi və hüquqi əsasları ilə müəyyən edilən, normativ hüquqi aktlarda öz əksini tapan və təmin edilən, başqalarının və cəmiyyətin hüququnu pozmamaq şərti ilə, sosial və hüquqi normalar çərçivəsində, insanın öz arzularına, istəklərinə və iradəsinə görə sərbəst davranmaq müstəqilliyini ehtiva edir [130, s.148]. AR vətəndaşının hər zaman maneəsiz olaraq öz ölkəsinə qayıtmaq hüququ vardır [82, s.15]. Qadının təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ qanunvericiliklə müəyyən edilmişdir. Qadının həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qanunvericiliklə qadağan edilmiş və belə əməllərin məsuliyyət yaradacağı nəzərdə tutulmuşdur. Vətəndaşların azadlıq və şəxsi toxunulmazlıq hüququ «Azərbaycan Respublikasının

vətəndaşlığı haqqında», «yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında», «mənzil hüququ», «milli mənsubiyyət hüququ», «ana dilindən istifadə etmək hüququ», «şərəf və ləyaqətin müdafisəi hüququ», «sərbəst toplaşmaq azadlığı», «vicdan azadlığı», «cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ», «seçki hüququ» və digər hüquqlarla sıx bağlıdır. Bütün bunlar azadlıq hüququnun həyata keçirilməsinin mühim təminatları kimi dəyərlidir. Vətəndaşı fərdən azad olmayan ölkənin, özünün azad ölkə olması mümkün deyildir. Böyük fransız mütəfəkkiri Ş.L.Monteskyüyə görə azadlıq qanunlarla icazə verilən hər bir şey etmək müstəqilliyidir. O, Roma tarixini tədqiq edərək göstərirdi ki, yalnız vətəndaşı azad olan, qayda-qanunun hökm sürdüyü respublikalarda cəmiyyət uğurla inkişaf edə bilər [471, s.316]. Hegel isə hüququ - azadlığın ölçüsü və ya qanunla müəyyən edilən azadlıq kimi səciyyələndirirdi. Bu ölçünün müəyyən edilməsində qanunların müstəsna rolu vardır. Çünki azadlığın sərhədləri qanunlarla müəyyən edilir. Hüquq isə, azadlığın hamı üçün eyni olan ölçüsüdür [355, s.31].

Cinayət-Prosessual fəaliyyətin və mühakimə icraatının əsas prinsipləri sırasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarında onun müdaifəsinə etibarlı təminat verilmişdir. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətlərinin həyata keçirilməsi zamanı insanın şəxsi azadlığının mühafizəsi qaydasına ciddi əməl edilməsi tələb edilir. Bu qaydaların pozulması da məsuliyyətə səbəb ola bilər (CM-nin 302-ci maddəsi). Göründüyü kimi Konstitusiyada müəyyən edilən şəxsi azadlıq hüququnun gözlənilməsi və ona əməl edilməsi qanunvericiliyin və hüquqmühafizə fəaliyyətinin mühim prinsiplərindən hesab olunur. Bu normalar mülki, inzibati, cinayət və digər qanunvericilik aktları vasitəsi ilə dövlət tərəfindən mühafizə edilir. Buna görə də CM-də şəxsi azadlıq hüququna qəsd edilməsi və ya onun məhdudlaşdırılması ilə bağlı əməllərin məsuliyyətə səbəb olması nəzərdə tutulmuşdur. Hüquqi dövlət quran Azərbaycanda hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ təsbit olunmaqla yanaşı, eyni zamanda Konstitusiyanın 26-cı

maddəsinin 2-ci bəndində dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi öhdəliyi təsbit edilmişdir [85, s.12-13].

«İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasının 12-ci maddəsində qeyd edilir ki, nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən daxili qanunlara müvafiq olaraq nikaha girmək və ailə qurmaq hüququna malikdirlər [202, s.25]. «Ərdə olan qadınların vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il tarixli 1040 saylı Qətnamə ilə təsdiq edilmiş Konvensiya, «Nikaha daxilolmaya razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında» 7 noyabr 1962-ci il tarixli Konvensiya, «İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişənin istismarına qarşı mübarizə haqqında» 2 dekabr 1949-cu il tarixli 317 saylı Qətnamə ilə təsdiq edilmiş Konvensiya ailə və nikah münasibətlərinin beynəlxalq standartlarının müəyyən olunması sahəsində mühim əhəmiyyətə malik olmuşdur. BMT-nin «İqtisadi, sosial, mədəni hüquqlar haqqında» Paktının 25-ci maddəsinə tam cavab verən bu hüquq müstəqillik illərində AR Konstitusiyasının 39-cu və 41-ci maddələrində, eləcə də 10 noyabr 1992-ci il tarixli «Sanitariya epidemioloji salamatlıq haqqında», 26 iyun 1997-ci il tarixli «Əhalinin sağlamlığının qorunması haqqında», 28 oktyabr 1997-ci il tarixli «Tibbi sığorta haqqında» və digər normativ hüquqi aktlarda geniş təsbit edilmişdir. Bu kompleks tədbirlər Avropa Sosial Xartiyasının tələblərinə tamamilə cavab verir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 16-cı, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt»ın 23-cü maddələri, BMT-nin 7 noyabr 1962-ci il tarixli «Nikaha daxil olmağa razılıq, minimum nikah yaşı və nikahların qeydə alınması haqqında» Konvensiyaya müvafiq olaraq Azərbaycan qadının analıq və nikaha girmək hüququ Azərbaycan Repsublikası Konstitusiyasının 34-cü və sosial təminat hüququnu tənzim edən 38-ci maddələrində təsbit olunmuşdur.

BMT-nin «İnkişaf hüququ haqqında» Bəyannaməsində haqlı olaraq göstərilir ki, hər bir insan və bütün xalqlar bütün insan hüquq-

larının və əsas azadlıqlarının tam şəkildə gerçəkləşə biləcək, iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək və buna töhfələr vermək, habelə onlardan faydalanmaq hüququna malikdir. İnkişaf hüququ bütün insan hüquqlarının və əsas azadlıqlarının bölünməzliyi və qarşılıqlı aslılığı prinsiplərinə söykənir. 2000-ci ilin sentyabr ayında qəbul edilmiş BMT-nin «Minillik Bəyannaməsi» də cəmiyyətin və ailənin yüksək inkişafının təmin olunmasını, yoxsulluğun aradan qaldırılmasını inkişaf prosesinin başlıca məqsədi kimi müəyyən etmişdir. BMT-nin üzv dövlətləri 2020-ci ilə qədər olan müddətdə, dünyada gündə bir dollardan az miqdar hesabına yaşayan və aclığa məruz qalan insanların miqyasını yarıya kimi azaltmaq, tam ümumi ibtidai təhsilə nail olmaq, uşaq ölümünü 2/3 dəfə azaltmaq, ana ölümünü 3 dəfə azaltmaq, yoluxucu və geniş yayılmış xəstəliklərin qarşısını almaq, ətraf mühitin davamlı inkişafını təmin etmək və qlobal inkişafı təmin etmək kimi öhdəliklər götürmüşdür [238, s.384-394]. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 6-cı maddəsinə görə «hər bir insan, harada olmasından asılı olmayaraq, özünü hüququn subyekti kimi qəbul etməsini tələb etmək hüququna malikdir» [122, s.52]. AR Konstitusiyasının tələbələrinə cavab verən «Vətəndaşlıq haqqında» AR-nın Qanunu 30 sentyabr 1998-ci il tarixdə qəbul edilmişdir. Bununla əlaqədar olaraq, 30 avqust 1999-cu ildə AR Prezidentinin 189 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həll edilməsi qaydası haqqında» Əsasnamə bir çox münasibətlərin tənzimlənməsinə və icrasına əlverişli şərait yaratmışdır. AR-nın vətəndaşının, o cümlədən qadının heç bir halda vətəndaşlıqdan məhrum edilə bilməzliyi, Azərbaycan Respublikasından qovula bilməzliyi və ya xarici dövlətə verilə bilməzliyi, Azərbaycan dövlətinin, onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan ölkə vətəndaşlarının hüquqi müdafiəsinə dair təminatların verilməsi, onlara hamilik edilməsi və digər bu kimi müddəalar Konstitusiyanın 53-cü maddəsində nəzərdə tutulmuşdur. Eləcə də «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Qanuna 30 may 2014-cü il tarixdə edilmiş son dəyişikliklərdə AR vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyəti-

nin tanınmaması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, AR-nın ərazisində doğulmuş uşaqlarının vətəndaşlığı məsələsinin hüquqi tənzimlənməsində yeni və daha mütərəqqi yanaşmalarla diqqəti cəlb edir. 30 avqust 1961-ci il tarixli Konvensiya nəzərə alınaraq AR-nın vətəndaşlığının itirilməsi üçün yeni şərtlər müəyyən edilmişdir. Bu şərtlərə görə 1) AR vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi; 2) AR vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi; 3) AR vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı; 4) AR-nın vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi kimi hallar vətəndaşlığın itirilməsi üçün hüquqi əsas hesab edilmişdir [3].

«İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 13-cü maddəsi təhsil hüququnu insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilmiş mühim tədbir kimi yüksək qiymətləndirir. Təhsil hüququ hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı kimi dəyərləndirilir. Təhsil hüququnun qadınlara şamil edilməsi cəmiyyətin inkişafının və təkamülünün mühim vasitəsi kimi dəyərləndirilir. Ölkəmizdə 19 iyun 2009-cu ildə qəbul edilmiş «Təhsil haqqında» AR-nın Qanunu və onunla bağlı olaraq qəbul edilmiş normativ hüquqi sənədlər qadın təhsilinin inkişafı üçün əlverişli imkan və şərait yaratmışdır. Bu gün ölkəmizin təhsil sistemində qadınların rolu kişiləri dəfələrlə üstələmişdir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birincin Vitse-Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə təhsil müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. Xaricdə təhsilin dinamik şəkildə inkişafı, inteqrasiya və elmi nailiyyətlərdən yaradıcılıqla istifadə edilməsinə geniş imkankar açmışdır [185]. AR Konstitusiyası ailə ilə sıx bağlı olan milli mənsubiyyət hüququna, ana dilindən istifadə etmək hüququna, şərəf və ləyaqətin müdafiəsi hüququna, fikir və söz azadlığına, vicdan azadlığına təminat verir. Ulu Öndər Heydər Əliyevin «Azərbaycan Respublikası ilə Avropa Şurasının əməkdaşlığının dərinləşdirilməsi sahəsində

tədbirlər haqqında» 20 yanvar 1998-ci il tarixli Sərəncamı, «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» 22 fevral 1998-ci il tarixli Fərmanı, eləcə də ölüm hökmünün ləğv edilməsi haqqında qərarı xalqımızın tarixində yadda qalan hadisələrdən olmuşdur. 1993-cü ilin iyun ayından başlayaraq, ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, Şərqdə, eləcə də Azərbaycan tarixində ilk dəfə olaraq ən ağır cəza – ölüm cəzası 10 fevral 1998-ci ildən etibarən ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmişdir. Heydər Əliyevin bununla bağlı olaraq xalqa etdiyi müraciətində deyirdi ki, mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib, bu barədə müvafiq qərar qəbul edirəm [66, s.3-40, 41-95]. Dövlət həyatında iştirak etmənin mühim vasitələrindən biri olan seçki hüququ və vətəndaşlıq məsələləri tarixən müəyyən mərhələlərdən keçmişdir.

AR Konstitusiyasında göstərildiyi kimi insan hüquqları və azadlıqları ilə bağlı konstitusion hüquq normaları vətəndaşların əsas vəzifələri ilə nisbətdə bərabər münasibətlərə bərabər mənafelər kimi səciyyələndirilməklə haqqa və ədalətə əsaslanır. Vətənə sədaqət göstərmək, vətəni müdafiə etmək borcu, dövlət rəmzlərinə hörmət, tarix və mədəniyyət abidələrinin qorunmasında şəxsi məsuliyyət, ətraf mühitin qorunmasını öz borcu hesab etmək, konstitusiya və qanunlara zidd vəzifələrin icrasına məcbur edilə bilməzlik, vergilərin və başqa dövlət ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsini təmin etmək kimi vəzifələr mühim əhəmiyyət kəsb edir. Heç bir qadın törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyətə cəlb edilə bilməz. AR Konstitusiyasının 54-cü maddəsində cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, 55-ci maddəsində dövlətin idarə olunmasında iştirak etmək hüququ, 56-cı maddəsində seçki hüququ kişilərlə bərabər şəraitdə, həm də qadınlara verilmişdir. Azərbaycan qadınının əmək, tətil, istirahət, sosial təminat, mədəniyyət, təhsil, vicdan azadlığı, yaradıcılıq azadlığı və sair bu kimi hüquqları və azadlıqları vardır.

Son illər insan hüquqlarının və azadlıqlarının, o cümlədən qadın hüquqlarının tənzimlənməsi sahəsində sistemli olaraq normativ hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. 1998-ci ildə, 2006-cı ildə və 2011-ci ildə «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi üç milli fəaliyyət Proqramı»larının qəbul edilməsi mühim irəliləyişə səbəb olmuşdur [573]. Eləcə də, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli Qanunu, «Vətəndaşların hüquqlarını və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» 11 iyun 1999-cu il Qanunu, «Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Qanunu, «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında» 10 oktyabr 2006-cı il tarixli Qanunu, «Həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında» 22 may 2012-ci il tarixli Qanunu, «Məişət zorakılığının qarşısının alınması haqqında» 22 iyun 2012-ci il tarixli Qanunu və sairə bu kimi normativ hüquqi aktlar, eyni zamanda qadın hüquqlarının tənzimlənməsi və qorunması sahəsində mühim dəyişikliklərə səbəb olmuşdur. Ölkənin ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi qadın hüquqlarının artırılması və mühafizəsi sahəsində sistemli tədbirlər həyata keçirmişdir. Dövlət və cəmiyyə həyatında beynəlxalq standartlara cavab verən əsaslı dəyişikliklər aparılmış və qadınların rolu əhəmiyyətli dərəcədə artmışdır [302, s.13-22; 334, s.57-62; 348, s.33-39; 392, s.95-99; 396, s.20-29; 410; 425, s.43-50; 449, s.13-21; 466, s.13-21; 490, s.33-41; 491, s.44-51; 498, s.64-73; 499, s.83-90; 504, s.37-50; 506, s.45-62; 559, s.103-108].

Pekin Bəyannaməsinin yekun qərarına görə qadınların tərəqqi yolunda inkişafına mane olan 12 əsas problemi: qadınlar və yoxsulluq, qadınların təhsili və peşəkar hazırlığı, qadınlar və səhiyyə, qadınlara münasibətdə zorakılıq, qadınlar silahlı münaqişələr zamanı, qadınların rəhbər orqanların işində və qərar qəbulu prosesində iştirakı, qadınların vəziyyətinin yaxşılaşdırılmasının institsional mexa-

nizmləri, qadınlar və insan hüquqları, qadınlar və kütləvi informasiya vasitələri ilə problemləri tam həll etmədən, qadının və ailənin problemlərini uğurla həll etmək mümkünsüzdür [608]. Buna görə də, üzv dövlətlərin və dünya ictimaiyyətinin diqqəti məhz bu problemlərin həllinə səfərbər edilmişdir. BMT-nin 2000-ci ilin sentyabr ayında keçirilən Minillik Bəyannaməsinin sənədlərində də sülh, təhlükəsizlik və tərksilah, inkişaf və yoxsulluğun aradan qaldırılması, ətraf mühitin mühafizəsi, insan hüquqlarının təmin edilməsi, demokratiya və səmərəli idarəetmə, aztəminatlı ailələrin və təbəqələrin müdafiəsi, köməksiz mühacirlərə və qaçqınlara diqqətin artırılması, uşaq hüquqlarının təmin olunması, etnik təmizləmə, soyqırım və insanlıq əleyhinə olan cinayətlərə qarşı mübarizənin gücləndirilməsi və digər bu kimi problemlərin həllinə beynəlxalq çağırışların əsas məzmunu, ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə istiqamətləndirilmişdir. Eyni platforma 17 may 2005-ci il Varşava Bəyannaməsinin sənədlərində də müdafiə olunmuş və dövlətlərin fəaliyyəti məhz bu məsələlərin həllinə səfərbər edilmişdir. BMT-nin, Avropa Birliyinin, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşklatının, digər çoxsaylı beynəlxalq və regional təşkilatların son illər keçirdiyi bütün tədbirlərin ana xəttində ailə, qadın və uşaq problemlərinin uğurlu həlli strategiyası dayanır. Elə Bakıda keçirilən beynəlxalq humanitar forumların gündəlikləri və yekun qərarları da bu problemlərin həllinə səfərbəredici strategiya müəyyənləşdirmişdir. AR-da ailə, qadın və uşaq problemlərinin uğurlu həlli və bu sahədə insan hüquqlarının təmin olunması sahəsində ölkəmizin həyata keçirdiyi tədbirlər çox önəmli və səmərəlidir. Buna görə də cəmiyyətin və ailənin aparıcı qüvvəsi olan qadının – ananın konstitusiya hüquqi təsbiti, bu sahədə əsaslı və mütərəqqi dəyişikliklərə əhəmiyyətli töhfə verəcəkdir.Buna görə də cəmiyyətdə baş verən prosesslər konstitutsiyada referendum yolu ilə dəyişikliklərin vaxtaşırı aparılmasına zərurət yaradır.

## 4.3. Azərbaycan ailəsinin üzvü kimi uşağın hüquqi statusu

Azərbaycan ailəsinin strukturunda ən mühim və ən önəmli yerlərdən birini, sistemaltı element kimi uşaqlar tutur. Uşaqların statusu beynəlxalq hüquq normalarında mükəmməl təsbit edilmişdir. Belə ki, 20 noyabr 1959-cu ildə BMT Baş Məclisinin 1386 saylı Qətnaməsi ilə elan edilmiş «Uşaq hüquqları Bəyannaməsi», BMT Baş Məclisinin 20 noyavbr 1989-cu il tarixli 44-cü sessiyasında qəbul edilmiş «Uşaq hüquqları haqqında Konvensiya», 25 may 2000-ci il tarixli «Uşaq hüquqları haqqüında Konvensiyanın uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültətiv Protokolu», 6 sentyabr 2000-ci ildə qəbul edilmiş «Uşaq hüquqları haqqında Konvensiyanın uşaqların silahlı münaqişələrə cəlb edilməasinə dair Fakültətiv Protokolu», 29 may 1993-cü ildə «Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında Konvensiya», «Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında» 14 dekabr 1979-cu il tarixli Bəyannamə, uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə dair müxtəlif beynəlxalq hüquq normaları, BMT-nin və Avropa Şurasının müxtəlif sənədləri uşağın statusunu – hüquqlarını, vəzifələrini mükəmməl təsbit etmişdir [394, s.70-76; 421, s.48-53; 439, s.77-86; 440, s.72-78; 476, s.55-62; 480, s.68-75; 481, s.52-59; 542, s.97-103]. Bu beynəlxalq hüquq normalarına müvafiq olaraq müstəqillik illərində qanunvericilik sistemimizdə uşaqların statusunu, hüquqlarını və vəzifələrini müəyyən edən mükəmməl normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmiş və müvafiq mexanizmlər yaradılmışdır. Milli ailə modelimizdə gələcək nəslin müasir nümayəndəsi hesab olunan uşaqlar kiçik, zərif və körpə olduqlarına, öz hüquqlarını və vəzifələrini dərindən bilmədiklərinə, qayğıya, diqqətə, sevgiyə və hörmətə daha çox möhtac olduqlarına görə öz rəhmdilliyi və insanpərvərliyi ilə xarakterizə olunan Azərbaycan ailəsində ənənəvi olaraq, həmişə böyük diqqətə və hörmətə layiq olmuşlar. Uşaqlar ailəni - əri və arvadı biri-birinə möhkəm bağlayan təbii bir qüvvədir. Yaşından, cinsindən, təhsilindən, digər meyarlarından asılı olmayaraq uşaqlar Azərbaycan

ailəsinin ən çox diqqət tələb edən üzvi hesab olunurlar. Beynəlxalq və milli hüquq normalarına əsasən, 18 yaşına çatanadək və ya yetkinlik yaşına çatmamış fəaliyyət qabiliyyəti əldə etməyən qızlar və oğlanlar öz statusuna görə uşaq hesab edilirlər. 7 yaşınadək olan uşaqlar körpə, 7-14 yaşınadək olan uşaqlar yeniyetmə, 14-16 yaşınadək olan uşaqlar azyaşlı, 18 yaşınadək olan və yetkinlik yaşına çatmamış şəxslər isə uşaq hesab edilirlər. Təsadüfi deyil ki, Azərbaycanın dövlətçilik tarixində uşaq hüquqlarının və azadlıqlarının qanunuvericilik təsbiti, onların müdafiəsi və mühafizəsi həmişə diqqətdə saxlanmışdır [27, s.87-102]. Hələ 1920-ci ildə Sovet hakimiyyətinin qurulduğu ilk vaxtlarda Azərbaycan İnqilab Komitəsi «Azyaşlılar komissiyaları haqda Dekret» qəbul etdi. Bu dövrdə qanun pozuntusuna yol vermiş yetkinlik yaşına çatmamış, kimsəsiz uşaqların həbs edilməsi qadağan edilirdi. 1920-ci ilin 15 dekabrında isə «Azərbaycanda ana və uşaqların mühafizəsinə dair dekret», «Azərbaycan uşaq qidalanmasının təşkilinə dair dekret» imzalandı. Daxili İşlər orqanlarının bütün qurumlarına, kimsəsiz uşaqları aşkar etməsi və onların «Açıq qapılar evi» adlanan mənzillərdə yerləşdirilməsi barədə tədbir görülməsi tapşırılmışdı. 27 yanvar 1923-cü ildə Mərkəzi İcraiyyə Komitəsi «Aclıq çəkən uşaqlara kömək göstərilməsi və onların vəziyyətinin yaxşılaşdırılması haqqında qərar qəbul etdi. Eləcə də ölkədə «Kimsəsiz uşaqlar Fondu» yaradıldı. Ümumiyyətlə, Sovet hakimiyyəti illərində, hətta müharibə dövründə belə uşaqlara qayğı daim diqqətdə saxlanmış, «Kimsəsiz uşaqlara kömək həftəsi», «Baxımsızlıqla mübarizəyə dair», «Uşaq baxımsızlığı sahəsində tədbirlərə dair» və s. bu kimi xeyriyyə marafonları keçirilmişdir. Sov. İKP-nin Siyasi Bürosu, Azərbaycan KP MK və Mərkəzi İcraiyyə Komitəsi uşaq problemlərini vaxtaşırı olaraq müzakirə etmiş və müvafiq qərarlar qəbul etmişdir [607]. Bununla yanaşı uşaq problemlərinə qayğı və diqqət ən çox müstəqillik illərində geniş yer almışdır. Uşaq hüquqlarının müdafiəsi və mühafizəsinə dair çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmiş və təşkilati-hüquqi tədbirlər görülmüşdür [55, s.205-235; 56, s.536].

AR Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu

borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Valideynləri və qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədir. ...15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir [86, s.10]. Uşağın konstitusiya hüquqi statusunun əsas elementləri bu normada təsbit edilməklə yanaşı, eyni zamanda Konstitusiyanın 24-cü maddəsində göstərilmişdir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır [86, s.13]. Bu hüquqlar və azadlıqlar Konstitusiyamızın II bölməsində geniş təsbit edilmiş, uşaq hüquqlarının geniş şəbəkəsi BMT-nin 20 noyabr 1959-cu il «Uşaq hüquqları Bəyannaməsi»ndə, 20 noyabr 1989-cu il «Uşaq hüquqlarına dair Konvensiya»sında, AR-nın 19 may 1998-ci il «Uşaq hüquqları haqqında» Qanununda, 24 may 2005-ci il tarixli «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanununda və çoxsaylı digər normativ-hüquqi aktlarda təsbit edilmişdir. Bu sahədə bütün normativ-hüquqi aktlar beynəlxalq və regional sənədlərə müvafiq olaraq hazırlanmış, təşkilati tədbirlər görülmüşdür. Meksika Konstitusiyasının 4-cü maddəsinin 5-ci hissəsinə görə, uşaqların öz tələblərini təmin etmək, zehni və fiziki inkişafı hüququna riayət etmək, hər bir valideynin borcu hesab edilir [181, s.171].

AR-da uşaqlara, onların hüquqlarına xüsusi qayğı, uşağın və ailənin dövlətin mühafizəsi altında olması, dövlətin və hökumətin qarşısında duran ən mühim vəzifələrdən biri kimi səciyyələnməsi AR-nın Konstitusiyasının tələblərindən irəli gəlir. Bu baxımdan «Uşaq hüquqları haqqında» AR Qanununun 19 may 1998-ci il tarixdə qəbul edilməsi mühim hadisə olmuşdur [279]. «Uşaq hüquqları haqqında» Qanun AR Konstitusiyasına, BMT-nin 20 noyabr 1959-cu il «Uşaq hüquqları Bəyannaməsi»nə, BMT-nin 20 noyabr 1989-cu il «Uşaq hüquqlarına dair Konvensiya»sına və digər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq hazırlanmış və ölkəmiz öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. Bu Qanunun uşaqların hüquq və azadlıqlarının müəyyən edilməsində və müdafiəsində əvəzsiz rolu olmuşdur. Qanunda uşaq hüquqları ilə bağlı dövlət siyasətinin əsas istiqamətlə-

ri, prinsipləri, uşaq hüquqlarının müdafiəsi və belə müdafiənin təmin edilməsi sahəsində dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin vəzifələri qanunvericilik yolu ilə təsbit edilmişdir. 18 mart 2009-cu il tarixdə referendum yolu ilə Konstitusiyanın 17-ci maddəsinə müvafiq dəyişikliklər aparılmış və bu norma daha da təkmilləşdirilmişdir. Belə ki, orada valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqların dövlət himayəsində olduğu, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etməyin, o cümlədən 15 yaşına çatmamış uşaqların işə qəbulunun qadağan edildiyi və uşaq hüquqlarının həyata keçirilməsinə dövlətin nəzarət etməsi müddəası qeyd edilməklə, bu norma beynəlxalq hüququn tələblərinə uyğunlaşdırılmış və mahiyyət etibarilə daha da mükəmməlləşdirilmişdir [82, s.10-11]. Son illər BMT-nin «Uşaqlara qarşı zorakılıq. Dünya Hesabatı» və AR-nın DİN-nin statistik məlumatları [59; 271] uşaq hüquqlarının pozulmasına dair təzahürlərin artmağa meylli olduğunu göstərir. Bu da uşaq hüquqlarının mühafizəsinə və müdafiəsinə diqqətin artırılmasının aktual olduğunu bir daha təsdiq edir [463, s.83-115]. Uşaq hüquqlarının Konstitusiya təsbitinin aktual problemlərini tədqiq etmək üçün «uşaq» anlayışının, «uşaq hüququ», «uşağın statusu» terminlərinə aydınlıq gətirilməsi vacibdir. BMT-nin «Uşaq hüquqları Konvensiyası»nın 1-ci maddəsində göstərilir ki,doğulan «hər bir insan 18 yaşına çatanadək, bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tərtib edilə bilən qanuna görə o, yetkinlik yaşına çatmamış olsun» [56, s.536]. Konvensiyada uşaqlıq dövrünün başlanması vaxtı ilə bağlı hər hansı müddəa göstərilməmişdir. Lakin 1996-cı ildə Avropa Şurasının bioetika üzrə keçirdiyi sessiyasında alimlər yekdilliklə belə qərara gəlmişlər ki, uşaq ana bətninə düşdükdən 18 gün sonra artıq onu insan hesab etmək mümkündür [461; 462, s.12]. Elm birmənalı şəkildə təsdiq edir ki, ana bətninə düşdükdən 18 gün sonra döldə canlı insan üçün vacib olan ürək və əsəb sisteminin ilkin elementləri formalaşır, 12 həftədən sonra isə o tam fəaliyyət göstərir. Beyin isə hamiləliyin ilk 5 aylığında artıq tam formalaşmış olur. Bu da uşağın, başqa sözlə, insanın təşəkkül tapdığı vaxtın, zamanın

başlanğıcı hesab oluna bilər. Buna görə də son illər insan həyatının başlanğıc anının, uşağın ana bətninə düşdüyü vaxtdan hesablanması mövqeyini dəstəkləyənlərin arqumentləri daha da güclənmiş və artmışdır. Bu təklifin tərəfdarları artıq aborta hamiləliyin pozulması kimi deyil, insan həyatına qəsd kimi qiymətləndirməyi təklif edirlər.Məsələn, L.N.Linik Rusiya Federasiyası Konstitusiyasının mənasına görə həyatın başlanğıc anının uşağın ana bətninə düşdüyü vaxtdan hesablanmasını təklif edir [441, s.23]. Rusiyalı mütəxəssis A.N.Popov öz əsərlərində uşağın ana bətninə düşdüyü vaxtı insan həyatının başlanğıc anı kimi qəbul edir [503, s.27]. Elə buna görə də dünyanın bir sıra ölkələrində abort qadağan edilmişdir. Bioloji varlıq olaraq insan, cəmiyyətlə birlikdə və onun təsiri altında tədricən və məcmu şəklində götürüldükdə şəxsiyyətə çevirir. Bütün insanlar xüsusi hallar istisna edilməklə, bir çox parametrlərinə görə kifayət qədər oxşardırlar. Bu da təsadüfi hesab oluna bilməz. Ona görə ki, bu gün dünya elmi birmənalı şəkildə sübut edir ki, növündən, cinsindən, yaşından, məkan və zaman göstəricilərindən asılı olmayaraq, bütün canlıların hüceyrələrində olan DNT-nin quruluşu eynidir. Bu isə dünya haqqında, canlılar haqqında, insanlar haqqında müəyyən informasiyaların əldə edilməsinə mükəmməl imkan və şərait yaradır. Təbiətin, cəmiyyətin və şəxsiyyətin ümumi və fərdi keyfiyyət göstəriciləri və xüsusiyyətləri bəzən oxşar və bəzən də fərqli olsalar da, bütün bu proseslər insan təfəkkürünün dərin və mükəmməl tədqiqinə və təhlilinə əsaslanır. Çünki bütün elmi tədqiqatların əsası və uğuru insan özünüdərkindən keçir. BMT, Avropa Şurası, Avropa Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər beynəlxalq və regional təşkilatlar uşaqların bu və ya digər hüquqları və azadlıqları ilə bağlı 30-dan çox Konvensiya, Bəyannamə, Tövsiyyə, Fakültətiv Protokol qəbul etmiş və bunların əksəriyyəti ötən dövr ərzində AR tərəfindən ratifikasiya edilmişdir. Tədqiqat zamanı yuxarıda göstərilən bu və ya digər beynəlxalq sənədlərə, fəsil və yarımfəsillərə müvafiq olaraq ətraflı yer ayrıldığından onlara yenidən şərh verilməsi məqsədəmüvafiq hesab edilməmişdir [266]. Bütün bunlara baxmayaraq, qeyd edilməsi zəruridir ki, müstəqillik illərində uşaq hüquqları, xüsusilə vali-

deynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi, yetkinlik yaşına çatmayanların baxımsızlığı, sosial rifahı, ana və uşaqların sağlamlığının qorunması, uşaqların ictbari dispanserizasiyası, əlil uşaqların sosial müdafiəsinin daha da yaxşılaşdırılması, körpələrin qidalanması haqqında və onlarla digər məzmunlu normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmiş, təşkilati-hüquqi tədbirlər görülmüşdür. Bu zaman mütəxəsislər yeni doğulmuşların ana südü ilə qidalanmasının son dərəcə vacib olduğunu elmi cəhətdən sübuta yetirmişlər. Ana südü təbiətin uşaq üçün təyin etdiyi ən möhtəşəm və ən məqbul qida hesab olunur.Uşaq südlə bərabər ananın xarakterini də əmir. Uşaq anadan olanda zərdaba oxşayan ilkin süd, onun üçün ziyanlıdır və buna görə də uşaq əmməyə başlamazdan əvvəl, ana onu-zərərli «meconium»u kənarlaşdırmağa borcludur.Təsadüfi deyil ki,təzəcə doğulan uşaqda həkimlərin «meconium» adlandırdıqları vasitə ən asan olaraq ilkin ana südü ilə zərərsizləşdirilir.Ot yeyən heyvanların südünə şərab,limon turşusu və s əlavə edildikdə onda dərhal çürümə prosesi baş verir. Qadın südü isə bundan fərqli olaraq heç vaxt çürümək bilmir. Analar baş verən bu prosesləri dərindən bilməli və ona əməl etməlidirlər. Müstəqillik illərində uşağın statusu, eləcə də onunla bağlı müxtəlif tənzimlənmə məsələlərinə dair çoxsaylı normativ-hüquqi və normativ xarakterli aktlar qəbul edilmişdir. Buna görə də «Normativ-hüquqi aktlar haqqında» AR-nın Konstitusiya Qanununa müvafiq olaraq, ölkəmizdə uşaq hüquqlarına dair qəbul edilmiş çoxsaylı normativ-hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ-hüquqi aktlarda birləşdirilməsi – məcəlləşdirilməsi uşaqların müdafiəsi və mühafizəsi üçün mühim rol oynaya bilər. Uşaqlarla bağlı bütün normativ-hüquqi aktların məcmu şəklində, sistemli və məntiqi olaraq birləşdirilməsi və məcəlləşdirilməsi yolu ilə «Azərbaycan Respublikasının Uşaq Məcəlləsi»nin hazırlanmasını və qəbulunu vacib hesab edirəm.

İnsanın beyni insanın normal həyat fəaliyyəti üçün sağ və sol yarımkürələrin funksional assimetriyası qanunu ilə idarə olunur. Elə buna görə də təbiət, Böyük Tanrı insan beynini iki yarımkürədən iba-

rət yaratmışdır. İnsanın əsas və son məqsədi dünyanı mükəmməl dərk etməklə yanaşı, həm də onunla birləşmək və onun alqoritmlərinə qovuşmaqdadır. Bu isə elə bir yaşam formasıdır ki, dünyanın özündə, dünya ilə bir vəhdət halında onun tərkib hissəsi kimi mövcudluq, əslində dünya ilə insanın məntiqi bütövlüyünü, tamlığını təmin edir. Bütün bunlar insanın məntiqə, dəlilə, sübuta əsaslanmaqla, əqli mühakimə yolu ilə, daxili işıqlanma, intuisiya, zövq, vəcd və ilham vasitəsilə fəth edilir. Hazırkı dünyanın və müasir insanın mənəvi həyatının ən əsas cəhəti insan düşüncəsinin, idrakının ilahi mahiyyəti, onun təkrarolunmaz xüsusiyyətləri və fasiləsiz fəaliyyəti ilə bağlıdır. İnsanın cismi ilə onun ruhu arasında dünyəvi meyllərə can atan nəfs dayanır. Nəfs, insanın maddi tələbatlarının ödənilməsini təmin edir. Bu baxımdan əgər nəfs olmazdısa, insan yaşamağa qadir ola bilməzdi. Beləliklə, tanrı və insan münasibətləri baxımından ümumi bir vəhdət, birlik mövcuddur ki, bunun da kökündə məhz insan fenomeni dayanır. Xaliq ilə xəlq, haqq ilə məxluq arasında fərqlə yanaşı, ruhi mənəvi yaxınlıq, ünsiyyət də vardır. Uşağın Konstitusiya hüquqi statusunun tədqiqi həm də onun bioloji bir varlıq olaraq kamil şəxsiyyətə doğru təkamülü ilə sıx bağlıdır. Beynəlxalq və milli hüquq bütün bunları üzvi surətdə nəzərə almaqla uşağın hüquqlarının və azadlıqlarının standartlarını müəyyən edir. Buna görə də insan hüquqları və azadlıqları haqqında danışarkən, onun ən çox qadınlara və uşaqlara aid olduğunu dərk etmək və düşünmək tamamilə əsaslıdır. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 6-cı maddəsinə görə «hər bir insan harada olmasından asılı olmayaraq, özünün hüquqi subyekt kimi qəbul edilməsini tələb etmək hüququna malikdir» [122, s.52; 266].

Mülki qanunvericilik 18 yaşınadək olan şəxsləri fəaliyyət qabiliyyətinə görə iki kateqoriyaya ayırır: AR Mülki Məcəlləsinin 28.3-cü maddəsinə uyğun olaraq fəaliyyət qabiliyyəti olmayan şəxslər – 7 yaşınadək; məhdud fəaliyyət qabiliyyətli şəxslər – 7 yaşından 18 yaşınadək olan şəxslər hesab olunurlar [95, s.14]. Beynəlxalq Konvensiya yetkinlik yaşının əsaslandırılmamış şəkildə aşağı həddə müəyyən etməyi məqbul hesab etmir. Konvensiyanın həyata keçirilməsi-

nin monitorinqini aparmaq üçün təsis edilmiş «Uşaq Hüquqları Komitəsi»nin fəaliyyətindən aydın görünür ki, insan həyatı üçün çox önəmli olan məqamlarda minimum yaş hədləri, xüsusən də nikah münasibətinə girmək və əmək fəaliyyətinə başlamaq üçün yaş hədləri tətbiq edilərkən Konvensiyanın tələbləri, uşaq maraqlarının üstünlüyü nəzərə alınmalı, ayrıseçkiliyə yol verilməməlidir. Bundan fərqli olaraq Mülki Məcəllənin 28.4-cü və 28.6-cı maddələrinə görə 18 yaşına çatmayan şəxslər də bəzən müstəsna hallarda tam fəaliyyət qabiliyyəti əldə edə bilərlər. Belə ki, qanunvericiliyin tələbinə görə on altı yaşı tamam olan, əmək müqaviləsi üzrə işləyən və ya valideynlərinin, övladlığa götürənlərin, yaxud qəyyumların razılığı ilə sahibkarlıq fəaliyyətilə məşğul olan və qanunun yol verdiyi hallarda 18 yaşına çatmadan nikah münasibətinə daxil olan şəxslər, bu şərtlər daxilində artıq vaxtından tez fəaliyyət qabiliyyəti əldə edə bilərlər [95, s.15]. Bu da onu göstərir ki, ölkəmizdə insanın fəaliyyət qabliyyəti yalnız onun yaşı ilə, zaman göstəricisi ilə deyil, bəzən həm də onun həyatında baş verən taleyüklü hadisələrlə də şərtləşə bilər. Elə yetkinlik yaşına çatmadan nikah münasibətinə daxil olmaq, yaxud əmək fəaliyyətinə başlamaq kimi amillər, nəticə etibarı ilə fəaliyyət qabliyyəti əldə etməyə hüquqi əsas verə bilər. «Uşaq» anlayışına beynəlxalq hüququn müxtəlif normaları ilə yanaşı, AR-nın ailə, mülki, inzibati, əmək, cinayət və digər qanunvericiliklərində müəyyən aydınlıq gətirilmişdir. MM-nin 25.2-ci maddəsinin tələbinə əsasən fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xitam edilir [95, s.13]. Vərəsə olmaq hüququ isə uşağın ana bətninə düşdüyü andan yaranır. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti o, yetkinlik yaşına çatdıqda, yəni 18 yaşı tamam olduqda tam həcmdə əmələ gəlir. MM-nin 28.3-cü maddəsinin tələbinə görə 7 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti yoxdur. 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti məhduddur. 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxs əmək müqaviləsi üzrə işləyirsə, o, tam fəaliyyət qabiliyyətli şəxs sayıla bilər. Eləcə də 18 yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi hallarda, 18 yaşına çatmamış fiziki şəxs

nikaha girdiyi vaxtdan etibarən tam fəaliyyət qabiliyyəti əldə etmiş olur. Qanunvericilik 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdlərin onların adından, yalnız valideynlərin və ya qanunvericilikdə nəzərdə tutulmuş digər şəxslərin imzalaya bilməsi şərtini nəzərdə tutmuşdur. Bununla belə MM-nin 29-cu maddəsi 7-14 yaşlı şəxslərin hansı əqdləri imzalamaq hüququ olduğunu daha konkret olaraq təsbit etmişdir. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar MM-nin 30-cu maddəsində göstərilən əqdləri müstəqil şəkildə bağlamaq hüququna malikdirlər [95, s.12-26]. Əmək Məcəlləsinin 42-ci maddəsinin 3-cü bəndinə əsasən yalnız 15 yaşı tamam olmuş şəxslər əmək müqaviləsində tərəf ola bilər [78, s.57] və işə qəbul edilə bilərlər. Ailə Məcəlləsinin 49.1-ci maddəsinə görə «18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar» [70, s.55]. Bu norma eyni zamanda BMT-nin «Uşaq Konvensiyası»nın tələblərinə tam uyğundur.

AR Konstitusiyasının 17-ci maddəsinə əsasən 15 yaşına çatmamış şəxslər işə götürülə bilməzlər [82, s.11]. Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən nikah yaşı kişilər və qadınlar üçün 18 yaş müəyyən edilmişdir [70, s.14]. İlk variantda qəbul edilmiş AR Konstitusiyasının 85-ci maddəsinə əsasən yaşı 25-dən aşağı olmayan hər bir AR vətəndaşı Milli Məclisin deputatı, 100-cü maddəsinə əsasən yaşı 35-dən aşağı olmayan hər bir şəxs AR-nın Prezidenti, 30 yaşı tamam olmuş hər bir şəxs Baş nazir, yaşı 25-dən aşağı olmayan hər bir şəxs AR Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyət orqanının rəhbəri vəzifəsini tuta bilərdilər [82, s.36, 48, 61, 63]. Konstitusiyanın 126-cı maddəsinə əsasən yaşı 30-dan aşağı olmayan, son vaxtlar isə yaşı 28-dən aşağı olmayan şəxslər hakim seçilə bilərlər. 16 yaşına çatmış şəxslər dövlət qulluğuna qəbul edilə bilərlər [8, s.37]. Yaşı 20-dən aşağı olmayan şəxs polis orqanlarına, 30 yaşınadək olan şəxslər prokurorluq orqanlarına [252, s.421-452] işə qəbul edilə bilərlər. Bu kimi yaş senzinə dair digər çoxsaylı nümunələr də göstərmək mümkündür. Bu yaş senzləri müəyyən tarixi zərurətdən irəli gələrək, əslində insan hüquqlarının tətbiqi sahəsində müəyyən

ayrıseçkiliyə imkan yaradırdı. Elə buna görə də, ölkə prezidentinin təşəbbüsü ilə 26 sentyabr 2016-cı il tarixli referendumla belə ayrıseçkiliyin aradan qaldırılmasına təşəbbüs göstərilmiş, referendumda bu yaş senzlərinin aradan qaldırılmasına dair təkliflər dəstəklənərək, nəticə etibarı ilə insan hüquqlarının bərabərliyi təmin edilmişdir [18]. Bu da ölkə qanunvericiliyinin daim təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində yaradıcı münasibətin nəticəsidir[124, s.8-36].

Hüquq ədəbiyyatında, ümumiyyətlə «vətəndaşın hüquqi statusu» institutu daha çox tədqiqatlara cəlb edilmişdir. Bu da problemin cəmiyyətdəki vəziyyətinin, yəni vətəndaşın hüquqi statusunun tam müəyyən olunmasına edilən təşəbbüslərdən irəli gəlir. Hüquq ədəbiyyatında düzgün olaraq qeyd edilir ki, şəxsiyyətin bu və ya digər ictimai münasibətlər sahəsində faktiki vəziyyəti, onun hüquqi statusunu müəyyən edir [387, s.55]. Fikrimizcə, şəxsiyyətin, o cümlədən «uşağın hüquqi statusu» haqqında məsələyə, ona AR-nın qanunvericiliyi ilə verilmiş hüquqi imkanlar kontekstində nəzər yetirmək lazımdır. Bu mənada bir fərd olaraq insanın kollektivlə və ya cəmiyyətlə birlikdə götürdükdə şəxsiyyət kimi statusunun, onun hüquq qabiliyyətinin, fəaliyyət qabiliyyətinin və delikt qabiliyyətinin qanunvericiliklə dəqiq tənziminin nəzəri və təcrübi problemlərinin tədqiqinə zərurət yaradır [351, s.63-69]. Bəzi müəlliflər hesab edirlər ki, «hüquqi vəziyyət» və «hüquqi status» anlayışlarının bir-birinə münasibətdə müstəqil anlayışlar olmasına baxmayaraq, onların eyniliyi istisna olunur [341, s.16]. Digər tədqiqatçıların fikrincə isə, əksinə, bu anlayışların fərqləndirilməsinə əsas yoxdur, onlar öz məzmununa görə eyni anlayışlardır. Azərbaycan Sovet Ensiklopediyasında «həddi-buluğa çatmayan» ifadəsi «tam fəaliyyət qabiliyyətinə malik olma yaşına çatmamış şəxs» mənasında işlədilmişdir [100, s.187]. Ümumilikdə isə, əgər «yetkinlik yaşına çatmaq» ifadəsi insanın fiziki, psixi, bioloji, əqli və mənəvi cəhətdən tam yetkinliyini və vətəndaşlıq hüququ qazanması xüsusiyyətlərinin məcmusunu ifadə edirsə, «yetkinlik yaşına çatmama» insanda bu keyfiyyət göstəricilərinin olmamasını, onun bir insan kimi hələ yetişməməsini, natamam olması vəziyyə-

tini ifadə edir. «Hüquqi status»un məzmunu adətən, hüquq subyektliliyinin, hüquq qabiliyyətinin, hüquqlarının, azadlıqlarının, öhdəliklərinin, vəzifələrinin, vətəndaşlığın, prinsiplərin, təminatların, məsuliyyətin və s. bu kimi struktur elementlərin tədqiq edilməsi yolu ilə nəzərdən keçirilə bilər. Bu halda, bir qayda olaraq, «hüquqi status»un anlayışı və məzmunu bir-birindən fərqlənmir və onlar əsasən eynilik təşkil edirlər. Bununla yanaşı, vətəndaşın statusunun hüquqi təbiətində iki əsas məqamı nəzərə almaq zəruridir. Birinci məqamda «hüquqi status» dar mənada, yəni hüquqların və vəzifələrin məcmusu kimi başa düşülür. İkinci məqam isə ondan ibarətdir ki, hüquqi statusun məzmununda hüquqlardan və vəzifələrdən başqa, digər elementlər də ehtiva olunur və bu, hüquqi statusun geniş mənada başa düşülməsinə imkan verir. Hüquqi statusun belə başa düşülməsi hüquq normaları, hüquq subyektliliyi, hamı üçün ümumi olan hüquqlar və vəzifələr, onların birliyinin təminatı, vətəndaşlıq, məsuliyyət, onun prinsipləri, ümumi (status) xarakterli hüquq münasibətləri, qanunla mühafizə olunan mənafelər və s. bu kimi elementlərlə müəyyənləşdirilir. Şəxsin hüquqi statusunun belə başa düşülməsi öz məzmununa görə geniş həcmli elementləri özündə birləşdirən kateqoriya kimi mühim əhəmiyyət kəsb edir. Uşağın hüquqi statusuna münasibətdə onun normativ mənada başa düşülməsi, fikrimizcə, daha təqdirəlayiq hesab olunmalıdır. Bununla belə, hüquqi statusun məzmununun ancaq uşağın hüquqları və vəzifələri ilə əhatə olunması ilə kifayətlənsək, onda biz bu statusun çoxşaxəliliyini, çoxaspektliliyini və kompleksli xarakterini aşkar etmədən məsələyə məhdud mənada baxmış olarıq. Uşağın ümumi statusunun mahiyyətinin başa düşülməsi üçün onun ancaq hüquqlarını və vəzifələrini diqqət mərkəzində saxlamaq kifayət etmir. Lakin uşağın hüquqi statusunun məzmununa vətəndaşlıq kimi elementin daxil edilməsi, fikrimizcə, uşağın gələcəkdə AR-nın vətəndaşı olarkən hansı hüquqlara və vəzifələrə malik olduğunu birmənalı şəkildə ayırmağa, AR-nın vətəndaşı olmayan uşaqlarla müqayisədə hüquqi vəziyyətini daha dəqiq müəyyən etməyə imkan verərdi. İngilis filosofu Frensis Bekon haqlı olaraq göstərir ki, vətənə məhəbbət ailələrdən başlanır. O uşaqların doğulmasını insani, yaradılışı isə ila-

hi anlayış hesab edirdi [330, s.474]. Bu mənada cəmiyyətin qurucusu olan gələcək insanın ilkin forması kimi uşağın mənəvi-əxlaqi tərbiyəsi, təhsili, elmi, mübarizliyi, cəsarəti və dünyagörüşü, cəmiyyətin sabahı və gələcəyi üçün çox önəmlidir. Bu eyni zamanda hər bir ölkənin dəyərlər sisteminin əsasında dayanan insanın və vətəndaşın fədakarlığından çox asılıdır. Uşağın hüquqi statusu heç də həmişə öz mütləq müəyyənliyi ilə fərqlənmir. Hüquq ədəbiyyatında belə bir mülahizə mövcuddur ki, uşaq iki müxtəlif vətəndaşlığa, yəni həm Azərbaycan Respublikasının, həm də xarici dövlətin vətəndaşlığına malik ola bilər. İkili vətəndaşlığa malik olan uşaq Azərbaycanlı uşağın ümumi statusunu təşkil edən hüquqlara və vəzifələrə faktiki olaraq malik olur. Bununla yanaşı o eyni zamanda mənsub olduğu xarici dövlətin uşaqlarına verilən hüquqları və vəzifələri də əldə edir. Bu zaman belə uşaqda eyni vaxtda bir-birilə bağlı olan ümumi və xüsusi status mövcud olur [439, s.79]. Buna görə də onlara ümumi ilə xüsusinin, hissə ilə tamın qarşılıqlı münasibəti kimi baxıla bilər. Göründüyü kimi uşaqların statusunun müəyyən edilməsində və uşaq anlayışının definisiyasının verilməsində müxtəlif fikirlər və mövqelər vardır. Hüquq elminin müxtəlif sahələri bu məsələyə hər biri öz mövqelərindən yanaşmağa üstünlük verirlər. Ümumilikdə götürüldükdə isə «uşaq», «yetkinlik yaşına çatmayan» və s. bu kimi söz və söz birləşmələri sinonim anlayışlar kimi başa düşülsə də, qanunvericilikdə bütün bunlar haqqında, onların mahiyyəti və keyfiyyət əlamətləri haqqında indiyə qədər qəti mövqe bildirilməmişdir. Əslində bu məsələ haqqında danışılarkən ən lokonik ifadə «uşaq» istilahıdır. «Yetkinlik yaşına çatmayan» ifadəsi müxtəlif hüquq sahələrində aydın şəkildə öz ifadəsini tapmışdır. Bu baxımdan «Uşaq hüquqları haqqında» AR-nın 19 may 1998-ci il tarixli Qanunundan fərqli olaraq «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» AR-nın 24 may 2005-ci il tarixli Qanunu üstün mövqeyə malikdir [55, s.205-235]. Bu Qanun beynəlxalq uşaq hüquqları Konvensiyalarına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq mükəmməl hazırlanmışdır. Bundan başqa bu Qanun hüquq pozuntularının profilaktikasına dair ölkədə ilk dəfə hazırlanmış və qəbul edilmiş

normativ-hüquqi akt olaraq müstəsna əhəmiyyətə malikdir. Buda uşaq hüquqlarına verilən böyük diqqətin bariz nümunəsidir. Uşağa aşağıdaki definisiya verilməsi təklif olunur: «Uşaq – yetkinlik yaşı, yəni 18 yaşı tamam olmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən insan cinsi – qız və ya oğlan, hesab edilir». Bu fikrimizcə, həm də ona görə əsaslıdır ki, AR-nın Konstitusiyasının 17-ci maddəsində də «yetkinlik yaşına çatmayan şəxs» terminindən deyil, məhz «uşaq» terminindən istifadə edilmişdir [82, s.10].

Ailə münasibətlərində uşaq hüquqlarının və azadlıqlarının mükəmməl təsbiti təmin edilsə də, bəzi normaların təkmilləşdirilməsinə zərurət vardır. Məsələn, Ailə Məcəlləsinin 52-ci maddəsinə görə, məhkəmə, qəyyumluq və ya himayə orqanı, yalnız 10 yaşına çatmış uşağın razılığı ilə müvafiq qərar qəbul edə bilər. Təcrübədə valideynlərdən hər hansı biri tərəfindən uşağın «ələ alınması» və yaxud «şirnikləndirilməsi» halları mümkün ola bilər. Bu baxımdan həmin maddədə müvafiq dəyişikliklər edilməklə, müəyyən edilə bilər ki, məhkəmə, qəyyumluq və ya himayə orqanı uşağın fikrini nəzərə almaqda haqlı hesab edilsin. Buna görə də Ailə Məcəlləsinin 52-ci maddəsinin sonuncu cümləsinin aşağıdakı redaksiyada verilməsini təklif edirəm:

«...Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə, qəyyumluq və ya himayə orqanı, yalnız 10 yaşına çatmış uşağın fikrini nəzərə almaqda haqlıdır».

Uşağın ümumi statusunun məzmununu onun əsas hüquqlarının və vəzifələrinin kompleksi elementlərini təşkil edir. Lakin onların heç də hamısı konstitusiya hüquqlarına və ya vəzifələrinə aid edilmir. Əsas hüquqların və konstitusiya hüquqlarının həm öz aralarında, həm də statusun məzmununun elementləri qismində qarşılıqlı münasibəti haqqında məsələ indi də öz aktuallığını saxlamaqdadır. Məsələn, V.S.Osnovin hesab edir ki, şəxsiyyətin dövlətlə və cəmiyyətlə bilavasitə əlaqələrini müəyyən edən hüquqlar və vəzifələr əsas sayılırlar. Çünki məhz əsas hüquq və vəzifələr vətəndaşın cəmiyyətdə rolunu, onun dövlət işlərində iştirak dərəcəsini müəyyən edir [494, s.181-182]. Ailə Məcəlləsinin 11-ci fəsli ailədə uşaqların hüquqlarının mükəmməl sistemini nəzərdə tutmuşdur. Bu hüquqlar sırasında uşağın

ailədə yaşamaq, tərbiyə olunmaq, valideynləri və başqa qohumlarla ünsiyyətdə olmaq hüququ, uşağın müdafiə hüququ, özü ilə bağlı məsələlərə fikir bildirmək hüququ, ad, ata adı və soyadı daşımaq hüququ, əmlak hüququ, adının və soyadının dəyişdirilməsi hüququ və digər bu kimi hüquqları nəzərdə tutulmuşdur. Bununla belə qeyd edilməsi zəruridir ki, təcrübədə, Azərbaycan ailə modelində ailənin başçısının ər – kişi olması heç bir mübahisə yaratmadığı, ənənəvi olaraq Azərbaycan ailələrində bir qayda olaraq uşağa atanın soyadı verildiyi halda, təəssüf ki, milli qanunvericiliyimizdə bu reallıq əks etdirilmir. Buna görə də Ailə Məcəlləsinin 53.3 maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Uşağın soyadı, bir qayda olaraq valideynlərin razılığı əsasında atanın soyadı ilə müəyyən edilir. Valideynlərinin soyadları müxtəlif olduqda, uşağın soyadı, valideynlərin razılığı əsasında ananın soyadı ilə də müəyyən edilə bilər. Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur».

Ailədə uşağın hüquqlarının, azadlıqlarının və öhdəliklərinin geniş şəbəkəsi ilə yanaşı, həm də onların öz valideynlərinə hörmət etmək, onların qayğısına qalmaq vəzifəsi konstitusiyanın 34-cü maddəsində nəzərdə tutulmuşdur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar, əmək qabiliyyəti olmayan valieynlərini saxlamağa borcludurlar. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir [75, s.6]. Uşaqların konstitusiya hüququ statusu, eyni ilə fərq qoyulmadan nikahda olmayan şəxslərdən doğulmuş uşaqlara da şamil edilir. AR-nın Ailə Məcəlləsinin 18-ci fəsli «Yaşı 18-dən az olan işçilərin – uşaqların əməyindən istifadənin hüquqi tənzimlənməsi məsələlərinə həsr edilmişdir. Burada yaşı 18-dən az olan işçilərin əmək hüququ və onun xüsusiyyətləri, işə düzəlmə təminatları, məhdudiyyətləri, tibbi müayinəsi, güzəştlər, gecə işlərinə cəlb edilmənin şərtləri, əmək müqaviləsinin ləğv edilməsi zamanı nəzərdə tutulan güzəştləri və s. nəzərdə tutulmuşdur [79, s.185-189].

Avropa Şurasına üzvlük ərəfəsində Azərbaycan ümumavropa hüquq məkanına inteqrasiya olunmağa başladı və bu proses hazırda

da davam etməkdədir. 2001-ci ilin yanvar ayının 25-də Azərbaycan Avropa Şurasının üzvü qəbul edildi, Avropa «İnsan hüquqlarının müdafiəsi haqqında» Konvensiyasına qoşuldu, AHİM-nin yuridiksiyasını qəbul etdi. «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimləməsi haqqında» 2002-ci ilin dekabr ayında qəbul edilmiş Konstitusiya Qanunu bu sahədə mühim əhəmyyətə malik oldu. Bu qanun əslində uşaq hüquqlarına nisbətdə, milli insan hüquqları standartlarının Avropa «İnsan hüquqlarının müdafiəsi haqqında» Konvensiyasına uyğunlaşdırılmasının mühim mərhələsi hesab oluna bilər. Beynəlxalq hüquq normalarında uşaq hüquqlarının birmənalı şəkildə təsbit edilməsi, bu hüquqların beynəlxalq və milli səviyyədə müdafiəsinin təminatı kimi çox qiymətlidir. 15 sentyabr 2005-ci il tarixdə BMT-nin Baş Məclisi tərəfindən keçirilmiş Ümumdünya Sammitində hüququn aliliyi və insan hüquqları prinsiplərinə xüsusi diqqət yetirilərək bunun həm beynəlxalq və həm də milli səviyyədə yerinə yetirilməsinin zəruriliyi və vacibliyi xüsusi olaraq qeyd edilmişdir [122, s.375].

«Uşaq hüquqları haqqında» Qanunun 5-ci maddəsində göstərilir ki, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. AR-nın normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquqlarını və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsız hesab olunur [279, s.15]. Uşaq hüquqlarının etibarlı müdafiəsinin istənilən səviyyədə təmin edilməsindən ötrü müvafiq dövlət, öz milli hüquq və qanunvericilik sistemini elə təşkil etməlidir ki, üzərinə götürdüyü beynəlxalq öhdəlikləri layiqincə yerinə yetirə bilsin. Belə amil uşaq hüquqlarının insan hüquqları sistemində tutduğu yeri daha da mötəbərləşdirir. «Beynəlxalq müqavilələr hüququ» haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsinə əsasən beynəlxalq hüquq, milli hüquq sistemlərinin normal fəaliyyəti və onların qarşılıqlı inteqrasiyası üçün əlverişli şərait yaradır. Buna görə də beynəlxalq hüquq olmadan milli hüquq sistemlərinin zəngin-

ləşməsini və təkmilləşməsini təsəvvür etmək çətindir. V.M.Şumilovun yazdığı kimi, beynəlxalq hüquq uzun müddət dövlətlərin daxili səlahiyyətinə aid olmuş və ya aid olan məsələlər hesabına obyektiv tənzimetmə sahəsini daim genişləndirmişdir. Bu zaman beynəlxalq hüquq insan hüquqlarının və azadlıqlarının üstünlüyünə daha geniş yer ayırmışdır ki, bu da insan hüquqlarının beynəlxalq hüquqi tənzimlənməsində baş verən dəyişikliklərlə xarakterizə olunur [566, s.398-399]. İnsan hüquqlarının realizəsi və onların müdafiəsinin etibarlı təminatı, beynəlxalq öhdəliklərin icrası prosesində, yüksək vicdanlılıq və humanizm tələb edir. Bu məqsədlə müvafiq müqavilə və sazişlərin iştirakçısı olan dövlətlərdən milli səviyyədə bir sıra zəruri tədbirlərin həyata keçirilməsi tələb olunur. İnsan hüquqları sahəsində çoxsaylı beynəlxalq sazişlərdə iştirak edən dövlətlər ***«Racta sunt servanda»*** prinsipinə uyğun olaraq, onları vicdanla yerinə yetirməli və bu məqsədlə də beynəlxalq öhdəliklərin realizəsi üçün milli səviyyədə geniş tədbirlər həyata keçirməlidir. İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn hamılıqla qəbul olunmuş normaları və prinsipləri müvafiq dövlətin özünün bu sahədəki beynəlxalq öhdəliklərinə əməl etmək vəzifəsini bütün dövlətlərin borcu sayır. AR-da ixtisaslaşmış ailə məhkəmələrinin yaradılması təklif edilir. Hesab edilir ki, yetkinlik yaşına çatmayanların cinayət və mülki işlərinə, ailə və ailə münasibətləri sahəsində cinayət, mülki, inzibati, mənzil və digər qanunvericiliyin pozulması ilə bağlı məsələlər, həm də ailə sirlərinin qorunması məqsədilə yaradılmış müstəqil ailə məhkəmələrində baxılması yolu ilə həll edilməsi effektiv nəticələr verə bilər. Buna görə ölkədə ailə məhkəmələrinin yaradılması məqsədəmüvafiq hesab edilməlidir. Azərbaycan Respublikasının uşaq hüquqlarının müdafiəsi və mühafizəsi sahəsində son illər görülən kompleks, ardıcıl və sistemli tədbirlər əminlik yaradır ki, ölkədə uşaq hüquqlarının qorunması və müdafiəsi beynəlxalq standartlara uyğun olan bir səviyyədə təmin ediləcəkdir. Bununla əlaqədar olaraq ailənin üzvü kimi uşağın Konstitusiya hüquqi statusunun təsbiti sahəsində ölkəmizdə zəruri olan bütün normativ hüquqi bazanın və təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsi, bu sahədə müstəqillik illərində ardıcıl və sistemli işlər

görüldüyünü tam təsdiq edir. Cəmiyyətin ən zərif, ən zəif və həm də əsas gələcək qüvvəsi hesab edilən uşaqların statusununun – hüquqlarının və azadlıqlarının konstitusiyada təsbit edilməsi və qorunması əhəmiyyətli rol oynayacaq, cəmiyyətin gələcəyinə dəyərli töhfələr verəcəkdir.

## 4.4 Azərbaycan ailəsinin statusunun təkmilləşdirilməsi, onun hüquqlarının müdafiəsi və mühafizəsi məsələləri.

Dünyanın ən böyük və ən iri beynəlxalq qurumlarından biri hesab edilən Birləşmiş Millətlər Təşkilatının təsis edilməsinə dair Nizamnamədə göstərilir ki, birləşmiş millətlərin xalqları, gələcək nəsilləri həyatımızda ilk dəfə sözlə deyilə bilməyən bəlalar gətirmiş müharibənin müsibətlərindən xilas etmək və əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərinə, kişi və qadınların, böyük və kiçik millətlərin hüquq bərabərliyinə inamı yenidən təşkil etmək, ədalətin, müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmətin bərqərar olduğu şəraiti yaratmaq, sosial tərəqqiyə və daha artıq azadlıq şəraitində yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yardım göstərmək və bu məqsədlərlə mehriban qonşular kimi dözümlülük nümayiş etdirmək və birlikdə, biri-birimizlə dinc, yanaşı yaşamaq və beynəlxalıq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün öz gücümüzü birləşdirmək və prinsiplər qəbul etmək, sosial tərəqiyyə yardım göstərmək üçün beynəlxalq mexanizmlərdən istifadə etmək əzmində olaraq, bu məqsədlərə nail olmaq üçün səylərimizi birləşdirmək qərarına gəldik. Beləliklə də BMT-nin yaradılması faktiki olaraq təmin edilmiş oldu. Sonralar yaradılan Avropa Şurası, Avropa Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, digər beynəlxalq və regional təşkilatların yaranmasının əsas qayəsində, bir qayda olaraq dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, eyni zamanda insan hüquqlarının və azadlıqlarının qorunmasını, etibarlı müdafiəsini və mühafizəsini təmin etmək qayəsi dayanır. Bu eyni zamanda hər bir suveren və milli dövlətin ali məqsədi hesab edilir. Buna görə də suveren dövlətlərin, dövlətlərarası beynəlxalq və regional təşkilatların, transmilli kooperasiyaların, beynəlxalq münasibətlərin digər subyektlərinin siyasi, iqtisadi, hərbi, hüquqi, humanitar, geopolitik və digər beynəlxalq münasibətlərini tənzim edən hüquq sahəsi olmaqla, beynəlxalq hüququn üstünlüyü tanınır və milli qanunvericiliyin beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş standartlara uyğunlaşdırılmasına xüsusi

önəm verilir. Azərbaycan Respublikasında müstəqillik illərində ratifikasiya edilmiş və beynəlxalq standartları müəyyən edən konvensiyaların əksəriyyəti ölkəmiz tərəfindən tanınmış və milli hüquq normalarının bu konvensiyalara uyğunlaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

Ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının əsas dairəsini müəyyən edən konstitusiya hüquq normaları mühim əhəmiyyət kəsb etsələr də, lakin bu hüquqların müdafiəsinin və mühafizəsinin real təmin edilməsi daha mühim əhəmiyyətə malikdirlər [81, s.112-117; 191, s.126-153]. Buna görə də ailənin, qadının və uşağın konstitusiya hüquqi statusunun müdafiəsini və mühafizəsini təmin edən mükəmməl beynəlxalq [22; 176; 463], regional və milli hüquqi mexanizmlərin yaradılması, bu hüquqların və azadlıqların təcrübədə həyata keçirilməsi və təmin olunması üçün çox əhəmiyyətlidir. Bu hər bir ölkənin beynəlxalq imicini artırmaqla yanaşı, həm də hər bir xalqın sağlam gələcəyinə, ədalətli cəmiyyət quruculuğuna ximət edir [403, s.6]. Azərbaycanda ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində müstəqillik illərində səmərəli tədbirlərin həyata keçirilməsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bu hüquqların tənzimlənməsi və təmin edilməsi beynəlxalq və milli səviyyədə müəyyən edilmiş çoxsaylı prinsiplər və şərtlər əsasında həyata keçirilir [145, s.24-56; 195]. AR Konstitusiyasının 26-cı maddəsinə görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə, o cümlədən məhkəmə müdafiəsinə təminat verir. Çünki insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi hesab olunur [86, s.9, 13-14]. Bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunsuz hərəkətlər etməyə məcbur

ediIə bilməz [86, s.31-32]. Hüquqlardan sui-istifadə halları və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur [86, s.34]. Milli Konstitusiyamızın ədalətliliyi, humanizmi və hüquqi dövlət prinsiplərinə tam uyğunluğu mühim fəlsəfi mahiyyət daşıyır. Ölkəmizdə ailənin, qadının və uşağın hüquq və azadlıqlarının etibarlı mühafizəsi və müdafiəsi qarşıda duran mühim prioritet vəzifələrdən biridir. AR-nın Ailə Məcəlləsinin 1.2-ci maddəsində analığın, atalığın, uşaqlığın qanunla mühafizə edildiyi, 1.3-cü maddədə isə ailə hüququnun müxtəlif məsələlərinin məhkəmə müdafiəsinə təminat verildiyi təsbit olunmuşdur. Ailə Məcəlləsinin ikinci fəsli ailə hüquqlarının həyata keçirilməsinin və müdafiəsinin mükəmməl sistemini nəzərdə tutur. Ailənin hüquqları, ilk öncə ailənin üzvü olan subyektlərin özləri tərəfindən qorunmalıdır. Ailə Məcəlləsinin 6.1-ci maddəsində göstərilir ki, vətəndaşlar ailə hüquqlarının müdafiəsini müstəqil olaraq həyata keçirə bilərlər. Ailənin hər bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərini və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmaqda haqlı deyillər. Ailə Məcəlləsinin 7-ci maddəsinin tələbinə əsasən ailənin, qadının və uşağın hüquq və azadlıqlarını ölkənin məhkəmə, icra hakimiyyəti, digər dövlət orqanları, hökumət təşkilatları, hüquq mühafizə və vətəndaş cəmiyyəti təsisatları, qanunvericiliklə müəyyən olunmuş qaydada və əsaslarla müdafiə və mühafizə edilirlər [75, s.19-22].

Azərbaycan dilinin izahlı lüğətində göstərildiyi kimi «mühafizə» nəyinsə və ya kiminsə bütövlüyünü, tamlığını, mövcudluğunu hücumdan, təhlükədən, zərbədən, qəsdən xüsusi vasitələrlə hifz edilməsi, qoruması, saxlaması fəaliyyətinin məcmusunu ifadə edirsə, «müdafiə» sözü nəyinsə və ya kiminsə mövcudluğunun, bütövlüyünün, vəhdətinin gözlənilən, yaxud edilmiş hücumlardan, təhlükələrdən, sui-qəsdlərdən qoruması, onlara qarşı durması və dayanması vəziyyətini təmin edən fəaliyyətin məcmusunu ehtiva edir. Oxşar və yaxın sözlər olsa da, lakin əslində «müdafiə» dedikdə, nəyinsə və ya kiminsə mövcudluğunun, bütövlüyünün və tamlığının qorunması və saxlanması vəziyyətini təmin edən fəaliyyət başa düşülür və bu, fəa-

liyyət ilkin, statistik vəziyyəti əhatə edir [29, s.268-269]. Mühafizə isə, daha çox pozulmuş hüquqların bərpası məqsədilə həyata keçirilən tədbirlər sistemini özündə birləşdirir. Bu isə məsələyə kompleks yanaşma tələb edir. Bu vəzifə ailə ilə, insanla, qadınla, uşaqla sıx bağlı olduğuna görə, onun həyata keçirilməsi və bu vəziyyətə dair statusun bütövlüyünün təmin olunması mühim əhəmiyyətə malikdir. Ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının müdafiəsi məsələsi, beynəlxalq və konstitusiya hüququnun ən mühim prioritetlərindən hesab olunur. Əgər ailənin və ya onun üzvlərinin hüquqları pozulmuşdursa, belə vəziyyətlərdə bütün fəaliyyət, müdafiə vasitələri onların bərpa olunmasını və ya ən azı əvvəlki vəziyyətə qaytarılmasını təmin etməyə səfərbər edilir. Son illər beynəlxalq və milli səviyyədə, xüsusi qurumlarla yanaşı, bu şərəfli işə müxtəlif səviyyəli qeyri-hökumət təşkilatları və hüquq müdafiəçiləri də qoşulmuşlar [527, s.63-71; 558, s.78-80]. Çünki hər bir dövlət öz konstitusiyasına müvafiq olaraq ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində üzərinə götürdükləri beynəlxalq öhdəliklərə müvafiq olaraq səmərəli tədbirlər görməyə və müvafiq müdafiə mexanizmləri yaratmağa borcludurlar. Bu sahədə ən vacib məsələlərdən birincisi, müxtəlif səviyyəli normativ-hüquqi aktlarda ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının ifadə olunması – təsbit olunması məsələsidirsə, digər vacib məsələ bu hüquqlara və azadlıqlara müxtəlif səviyyələrdə əməl edilməsinin təmin olunması məsələsidir. Üçüncü vacib məsələ ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının pozulması zamanı beynəlxalq, regional və milli səviyyədə mövcud olan mexanizmləri, pozulmuş hüquqların bərpasını təmin etməyə səfərbər etməkdə ifadə olunur. Bu kompleks vəzifənin icrası milli və suveren dövlətlərin milli hökumətləri üzərinə məsuliyyətli vəzifələr qoyur. İnsan hüquqlarına dair beynəlxalq sazişlərə tərəfdar çıxmaqla dövlətlər faktiki olaraq üç öhdəliyə: hörmət etmək, mühafizə etmək, qorumaq və yerinə yetirmək öhdəliyinə riayət etməyə borcludurlar. Monitorinqlərin, yoxlamaların, gündəlik nəzarətin, təhlillərin, məhkəmə baxışlarının, dinləmələrin, görülmüş tədbirlərin, daimi nəzarətin nəticələri ölkədə bu sahədə mühim təd-

birlərin həyata keçirildiyini təsdiq edir. Beynəlxalq hüququn tələblərinə görə «hörmət etmək öhdəliyi» dedikdə dövlətin müdaxilə etmək imkanlarından çəkinməsi, bu hüquqların həyata keçirilməsini sarsıda biləcək müəyyən hərəkətlərin qadağan olunmasını və yolverilməzliyini təmin edən fəaliyyət başa düşülür. «Qorumaq və ya mühafizə etmək öhdəliyi» isə dövlətləri şəxslərin qeyri-dövlət subyektləri tərəfindən müxtəlif sui-istifadə hallarından qorunması vəziyyətini ehtiva edir. Dövlətlər öz üzərilərinə götürdükləri öhdəliklərə müvafiq olaraq elə tədbirlər kompleksi hazırlayıb həyata keçirməyə borcludurlar ki, bu zaman ailənin, qadının və uşağın hüquqlarının ideala yaxın səviyyədə həyata keçirilməsini təmin etmək mümkün olsun [144, s.217-222; 186, s.470-531; 200, s.342-381; 225, s.30-32, 296-306; 238, s.183-189]. Bu sahədə beynəlxalq və regional təşkilatların, eləcə də milli qurumların üzərinə məsuliyyətli vəzifələr qoymuşdur. Müasir beynəlxalq təşkilatların fəaliyyətində, son illər səlahiyyətlərinin genişləndirilməsi, strukturlarının təkmilləşdirilməsi və daha da mürəkkəbləşdirilməsi meylləri müşahidə edilməkdədir [424, s.81]. Dünyada fəaliyyət göstərən çox saylı beynəlxalq və hökumətlərarası təşkilatların qarşılıqlı əlaqələrinin və əməkdaşlığının əsasında BMT ən qüdrətli və ən aparıcı bir qurum olaraq səmərəli fəaliyyəti dayanır. Dünyanın bütün ölkələri üçün açıq təşkilatlara misal olaraq BMT-nin və onun ixtisaslaşdırılmış qurumlarının fəaliyyətini qeyd etmək olar. Regional təşkilatlar isə müəyyən regionun və ya regionda yerləşən bir sıra dövlətlərin ərazisində fəaliyyət göstərən qurumlar hesab olunurlar. Regional beynəlxalq təşkilatlara yalnız bu regiona daxil olan dövlətlər üzv ola bilərlər [474, s.97].

Müəlliflərdən N.A.Uşakov beynəlxalq təşkilatların beynəlxalq hüquqa uyğun olaraq dövlətlər birliyi tərəfindən təsis edilən, təşkilati-hüquqi strukturlarla təmin olunan; təşkilatın qaydalarına uyğun olaraq öz orqanları vasitəsilə müvafiq funksiyalarını və səlahiyyətlərini həyata keçirən, o cümlədən öz adından üzv dövlətlərlə qarşılıqlı münasibətlərdə çıxış edən qurum hesab edilir [545, s.152]. K.A.Bekyaşev beynəlxalq təşkilatların hüquq subyektliyinin mühim xüsusiyyətləri qismində müdafiə funksiyalarını yerinə yetirməsi, bey-

nəlxalq hüququn subyektləri tərəfindən beynəlxalq səviyyədə tanınma; xüsusi hüququn və öhdəliklərin mövcud olması; öz funksiyalarının yerinə yetirilməsində sərbəstlik; müqavilələr bağlamaq; beynəlxalq hüquq normalarının yaradılmasında iştirak etmək; immunitet və imtiyazlara malik olmaq; beynəlxalq hüquq normalarının icrasını təmin etmək və s. bu kimi xüsusiyyətləri qeyd etmək olar [465, s.255-263]. BMT-nin Baş Assambleyasının «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqları dəstəkləmək və müdafiə etməklə bağlı cəmiyyətdəki fərdlərin, qrupların və orqanların hüquq və məsuliyyəti haqqında» 9 dekabr 1998-ci il tarixli 53/144 saylı Qətnaməsi bu sahədə mühim səfərbəredici əhəmiyyət kəsb edir [39, s.3-4].

«Avropa Birliyinin Əsas azadlıqlar haqqında Şərti»nin Preampula hissəsində göstərilir ki, ortaq ruhu və mənəvi miras, şüurda olan Avropa Birliyi, insan ləyaqətinin, azadlığın, bərabərliyin və həmrəyliyin ayrılmaz və universal dəyərləri üzərində qurulmuş demokratiya və hüquqi dövlət prinsiplərinə əsaslanır. Bu birlik azad, təhlükəsiz və ədalətli məkan yaratmaqla, öz fəaliyyətinin başlıca məqsədinin insan rifahı olduğunu təsbit edir. Üzv dövlətlər bu ortaq dəyərlərin qorunub saxlanmasına və inkişafına dəstək verir, milli kimliklərinə, yaratdıqları hakimiyyət orqanlarının quruluşuna, Avropa xalqlarının mədəniyyətinin və ənənələrinin müxtəlifliyinə hörmətlə yanaşırlar. Elə buna görə də Avropa Birliyi tarazlıq və davamlı inkişafı təmin etməyi özünə başlıca hədəf seçmişdir. Bu birlik şəxslərin və sərmayələrin sərbəst hərəkətini və azad sahibkarlıq fəaliyyətini təmin edir, ailənin, qadının və uşağın əsas hüquqlarının və azadlıqlarının qorunmasını başlıca məqsəd və həm də vəzifə hesab edir [586]. Oxşar niyyət və məqsəd Avropa təhlükəsizlik və əməkdaşlıq Təşkilatının, digər beynəlxalq və regional təşkilatların təsis sənədlərində də bəyan edilmişdir. Avropa məkanında ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının başlıca mahiyyətində insan ləyaqəti, azadlıq, bərabərlik, həmrəylik və ədalət kimi dəyərlər dayanır. «Avropa Birliyinin əsas azadlıqlar Şərti»ndə sadalanan bu dəyərlər sistemi ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının yeni modelinin başlıca

keyfiyyət göstəricilərini ehtiva edir [481, s.52-59; 482, s.25-31; 484, s.99-107].

Avropa Şurası, Avropa Birliyi, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Şurası, Müstəqil Dövlətlər Birliyi, Avropa Sosial Xartiyası və digər beynəlxalq və regional qurumlar tərəfindən ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının əsas sistemi, prinsipləri, şərtləri və icrası ilə bağlı çoxsaylı qərarlar qəbul etmiş, onların icrasına nəzarət edən, mühafizə və müdafiə edən mexanizmlər yaradılmışdır. Bütün bunlar birmənalı şəkildə belə bir nəticəyə gəlməyə əsas verir ki, ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının ifadə forması öz məzmununa, strukturuna və tərkibinə görə zəngin, rəngarəng və çoxaspektlidir [190]. BMT-nin Baş Məclisi, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblik kimi strukturlar beynəlxalq səviyyədə səmərəli fəaliyyət həyata keçirirlər. BMT Nizamnaməsinin 68-ci maddəsi «İqtisadi və sosial Şura»ya insan hüquqlarına dəstək vermək sahəsində müvafiq komissiyalar təsis etmək səlahiyyəti vermişdir. Nizamnamənin 4-cü, 9-cu və 10-cu fəsilləri BMT Baş Məclisinin səlahiyyətlərinə və funksiyalarına həsr edilmişdir. Hazırda 195 nəfər nümayəndədən ibarət olan Baş Məclis Məşvərətçi orqan kimi hər hansı bir məsələni müzakirəyə çıxarmaqla 2/3 səs çoxluğu ilə qərar qəbul etmək səlahiyyətinə malikdir. Onun tərkibində fəaliyyət göstərən 6 əsas altkomitənin biri – hüquq məsələləri üzrə Komitə hesab edilir. Ümumilikdə isə Baş Məclis hər hansı bir məsələni öz sessiyasında, pleniumunda və ya iclasında müzakirəyə çıxarıb müvafiq qərar qəbul etmək səlahiyyətinə malikdir. Bundan fərqli olaraq 15 üzv dövlətdən (5 daimi, 10 müvəqqəti üzv) təşkil edilmiş Təhlükəsizlik Şurası BMT-yə yeni üzvlərin qəbuluna, Beynəlxalq Məhkəmənin üzvlərinə dair tövsiyələrin verilməsi, Baş Katibin, Beynəlxalq Məhkəmənin hakimlərinin seçilməsini və qəyyumluq vəzifələrinin həyata keçirilməsini təmin edir. Təhlükəsizlik Şurası sülh və təhlükəsizlik məsələlərinə dair xüsusi komitələr və komissiyalar yaradır, illik və xüsusi məruzələr dinləyir və müvafiq qərarlar qəbul edir. İnsan hüquqları və azadlıqları ilə bağlı məsələyə münasibətdə beynəlxalq məhkəmənin Nizamnamədə nə-

zərdə tutulan geniş hüquqları, səlahiyyətləri və vəzifələri vardır [122, s.35-50].

BMT-nin «İnsan hüquqları üzrə Ali Komissarı» Baş Katib tərəfindən bu vəzifəyə təyin olunmaqla ona hesabat verir və öz statusuna görə onun müavini hesab edilir. Ali Komissar BMT-nin İnsan hüquqları sahəsində siyasəti ilə bağlı Baş Katibə müvafiq məsləhətlər verir, onu təmsil edir, insan hüquqları ilə bağlı layihələri, onun əsas istiqamətlərini müəyyən edir, «İnsan hüquqları sahəsində» Şuranın fəaliyyətinə nəzarət edir və koordinasiyanı həyata keçirir. Onun üç bölməsi və 250 nəfərdən ibarət əməkdaşı, bu sahədə xidməti fəaliyyətini uğurla həyata keçirməkdədir. BMT-nin «İnsan hüquqları» Şurası isə bu sistemdə daxili beynəlxalq orqan statusuna sahib olmaqla, onun əsas fəaliyyəti insan hüquqları sahəsində pozuntuların araşdırması ilə bağlı olur. Son illər bu komissiyanın tərkibi əsaslı surətdə yaxşılaşdırılmış və fəaliyyəti təkmilləşdirilmişdir. «Azərbaycanda insan hüquqlarının təminatı üzrə infrastrukturların genişləndirilməsi Proqramı»na müvafiq olaraq bu qurum ölkəmizdə elmin və təhsilin bu sahədə əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına yadda qalan töhfələr vermişdir. «Vətəndaş və siyasi hüquqlar haqqında» Sazişin 28-ci maddəsinə əsasən yaradılan «İnsan hüquqları Komitəsi» 18 nəfər mütəxəssisdən ibarət orqan olmaqla üzv dövlətlərin hesabatlarını, fərdi məlumatlarını dinləyir, müvafiq tövsiyyələr verir və insan hüquqları sahəsindəki beynəlxalq standartların həyata keçirilməsini təmin edir. BMT-nin 1984-cü ildə «İşgəncələrə qarşı» Konvensiyası əsasında yaradılan «İşgəncəyə qarşı Komitəsi», məsləhətçi bir orqan olmaqla insanlara qarşı işgəncə və pis rəftar göstərilməsinə dair tədqiqatlar aparan bir qurumdur [122, s.18-25]. Son illər bu Komitənin strukturunda və fəaliyyətində əsaslı keyfiyyət dəyişiklikləri baş vermiş, onun əlaqələri və faəliyyət dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir [22].

BMT-nin «İqtisadi və sosial Şurası» insan hüquqları sahəsində 1235, 1503 prosedurlar daxilində ayrı-ayrı ölkələrdə insan hüquqlarının vəziyyəti ilə bağlı situasiyaları və problemləri öyrənir, Baş Katibə və Baş Məclisə bununla bağlı müvafiq tövsiyyələr və təkliflər ve-

rir. Qadın hüquqları ilə bağlı 1979-cu ilin dekabr ayında BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyanın qəbulundan sonra BMT-nin «Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi» təsis edilmişdir. Bu Komitə 23 ekspertin köməyi ilə şərh edilən Konvensiyanın «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktın tələblərinə müvafiq olaraq yoxlama aparılması və aşkar edilən qanunsuzluqların üzv dövlətlərin diqqətinə çatdırılması sahəsində tədbirlər görməyə borcludur. Komitə eyni zamanda, «İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiyanın vəziyyətini öyrənmək, təhlil etmək və əsas problemləri üzv dövlətlərin diqqətinə çatdırmaq səlahiyyətinə malikdir. BMT-nin Baş Assambleyasının tərkibində fəaliyyət göstərən «İrqi ayrı-seçkiliyin ləğvi Komitəsi» (CERD), «Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi» (CEDAW), «Qadınların vəziyyəti üzrə Komissiya» (CSW), «İqtisadi, sosial və mədəni hüquqlar Komitəsi» (CESCR), «İşgəncələrə qarşı Komitə» (CAT), «İnsan hüquqları Komitəsi» (HRC), «Beynəlxalq əmək Təşkilatı» və digər bu kimi qurumlar bu və ya digər şəkildə üzv dövlətlərdə qadın hüquqlarının təmin olunması sahəsində mühim tədbirlər həyata keçirməkdədir. İnsan hüquqları Komissiyasının tərkibində fəaliyyət göstərən «Qadınlara qarşı zorakılıq üzrə», «Zorakılıqla və ya könüllü olmayan yoxa çıxarılma üzrə», «İrqçiliyin və irqi ayrı-seçkiliyin müasir formaları üzrə» İşçi Qruplar müxtəlif ölkələrdə qadın və uşaq hüquqlarının vəziyyətini öyrənir, təhlil edir və müvafiq rəhbər qurumlara məlumatlar təqdim edirlər. «Qadınların statusu üzrə» Komissiya isə qadın hüquqları ilə bağlı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, dünyada qadınların kişilərlə bərabər hüquqlara sahib olması haqqında normaların icrasına dair yoxlamalar aparır və hesabatlar təqdim edir [145, s.51-92; 151; 188, s.13-30; 225, s.8-20; 254, s.28-36].

Ailənin, qadının və uşağın hüquqlarının müdafiəsini təmin edən regional təşkilatların fəaliyyəti hazırda üç əsas istiqamətdə təzahür edir. Bu müdafiə sistemi özündə insan hüquqlarının müdafiəsinin Avropa sistemini; insan hüquqları üzrə Amerikaarası Konvensiyanı;

insan və xalqların hüquqlarının Afrika Xartiyasını əhatə edir. Avropa Şurası ailənin, qadının və uşağın hüquqlarının müdafiəsi üzrə Avropa qitəsində ən böyük regional təşkilat hesab edilir [570]. Romada 4 noyabr 1950-ci ildə Şuranın üzvləri tərəfindən «İnsan hüquqlarının və əsas azadlıqlarının mühafizəsi haqqında» Avropa Konvensiyası qəbul edildi və 1953-cü il sentyabr ayının 3-dən etibarən qüvvəyə mindi. Konvensiya qəbul edildikdən 25 il sonra Avropa Şurasının bütün üzvləri faktiki olaraq onun iştirakçıları oldular [381].

Avropa Konvensiyasına əsasən iki orqan dövlətlərin və eləcə də ayrı-ayrı şəxslərin şikayətlərinə baxmaq səlahiyyətinə malik olan insan hüquqları üzrə Avropa Komissiyasını və İnsan hüquqları üzrə Avropa Məhkəməsini yaratmışdır. İstənilən iştirakçı dövlət Konvensiya qaydalarının 24-cü maddəsinə əsasən digər dövlət tərəfindən ailənin, qadının və uşağın hüquqlarının pozulması barədə Komissiyaya şikayət verə bilər. Avropa Şurası ilə yanaşı insan hüquqları məsələləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (ATƏM) fəaliyyətində də mühim yer tutur. Bütün Qərbi və Şərqi Avropa dövlətlərini, habelə ABŞ və Kanadanı birləşdirən bu Müşavirə 1973-cü il iyul ayının 3-də Helsinkdə işə başlamış ən nüfuzlu Avropa regional təşkilatı hesab olunur. Müşavirə mahiyyət etibarilə 1994-cü ildə ATƏT-ə çevrilmişdir. Paris Xartiyasında yeni Avropa üçün ATƏM-in Parlament Assambleyasının yaradılması nəzərdə tutulmuş və buraya bütün iştirakçı dövlətlərin parlament üzvləri daxil edilmişlər.

Avropada iqtisadi birliyə və atom enerjisi sahəsində əməkdaşlığa söykənən Avropa İttifaqı, əsasən iqtisadi birlik səciyyəsi daşımaqla, faktiki olaraq 1958-ci ildən başlayaraq öz fəaliyyətini genişləndirmişdir. Avropa İttifaqı «İnsan hüquqları və əsas azadlıqlarına dair Avropa Konvensiyası»nın, «İştirakçı ölkələrin Konstitusiya ənənələrindən irəli gələn və həmin ölkələrdə tətbiq olunan hüquqların və azadlıqların», «Ümumi hüquq prinsipindən yaranan hüquqlar və azadlıqlar» və «Avropa vətəndaşlığının tətbiq edilməsinə dair» müddəaların tətbiqində və ümumiyyətlə Avropada insan hüquqlarının və azadlıqlarının bərqərar olmasında bu təşkilatın, onun Parlamentinin,

Nazirlər Şurasının, Avropa Komissiyasının, eləcə də Avropa İttifaqı Ombudsmanın müstəsna xidmətləri olmuşdur [45; 335; 406; 463; 570]. İnsan hüquqlarının və azadlıqlarının təmin olunması məqsədi ilə yaradılmış ilk regional sistem kimi Avropa Şurasının və onun qurumlarının fəaliyyətə başlaması qadın hüquqlarının qorunmasına müəyyən töhfələr vermişdir. Avropa Şurası öz Nizamnaməsinə müvafiq olaraq öz işçi təşkilatlarını - Nazirlər Komitəsini, Parlament Assambleyasını, Katibliyini, müvafiq alt qurumları yaratdı. Bu gün onlar ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının qorunması sahəsində mühim tədbirlər həyata keçirməkdədir [266, s.5-21].

Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, Avropanın ən böyük regional təşkilatı hesab olunur. 1 avqust 1975-ci ildə insan hüquqlarının və azadlıqlarının təmin olunmasına xidmət edən «Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Helsinki Yekun Aktı»nın imzalanması, əslində beynəlxalq hüququn on əsas prinsipinin tamamlanması ilə nəticələndi. 1994-cü ildən isə bu təşkilat «Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı» adı altında öz fəaliyyətini davam etdirir [122]. «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası»nın 19-cu maddəsinə müvafiq olaraq 1950-ci ildən etibarən Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilmişdir [151, s.25-39; 335, s.107-117]. Mahiyyət etibarı ilə bu məhkəmə dövlətlərin və fiziki şəxslərin şikayətləri üzrə, konkret şərtlər daxilində, işləri icraata qəbul etmək və baxmaq səlahiyyətinə malikdir. Bu Məhkəmə eyni zamanda fərdi şəxslərin müraciətlər üzrə də şərh vermək və qərar qəbul etmək səlahiyyətinə malikdir.

«İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası, əslində «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin Avropa məkanında özünəməxsus davamı və inkişafı kimi səciyyələndirilə bilər. İnsan hüquqları və azadlıqları Konvensiyanın I fəslinin 2-18-ci maddələrində və ona əlavə edilmiş Protokollarda təsbit olunmuşdur. Lakin bu sənəd nəinki ailənin, qadının və uşağın təməli hüquqlarını bəyan etdi, həm də, onların müdafiəsinin xüsusi mexanizmlərini yaratmış oldu. 1 oktyabr 1994-cü ildən Komissiya tərəfindən qəbul olunması mümkün hesab edilən şikayətlər

üzrə işlərin məhkəməyə ərizəçilərin özləri tərəfindən təqdim olunması qaydası tətbiq edilməyə başlanıldı. Avropa İnsan hüquqları Məhkəməsi üzv dövlətlərin Konvensiyaya əməl etməsinə və onu həyata keçirilməsinə xidmət edir [151, s.25-39]. O, bu vəzifəni fiziki şəxslərin, şəxslər qrupunun və ya qeyri-hökumət təşkilarının verdiyi fərdi şikayətlər əsasında icraatına qəbul etdiyi konkret işlərə baxmaq və onları həll etmək yolu ilə həyata keçirir. AİHM-si Konvensiyanın iştirakçısı olan dövlətin məhkəmə sisteminə münasibətdə ali hüquqi instansiya hesab edilmir. Buna görə də, o, dövlət hakimiyyəti orqanının və ya milli məhkəmənin qəbul etdiyi qərarı ləğv etmir, qanunvericiyə göstərişlər vermir, milli qanunvericilik və ya məhkəmə təcrübəsi üzərində mücərrəd nəzarəti həyata keçirmir. Məhkəmənin hüquqi nəticələr doğuran sərəncam vermək hüququ da yoxdur. Məhkəmə Konvensiyanın tələblərinin həqiqətən pozulub-pozulmadığmı müəyyən etmək üçün yalnız konkret şikayətlərə baxır. Azərbaycanda AİHM-nin president hüququndan istifadə edilməsinə dair məhkəmələrə verilən göstərişlər təcrübədə mühim keyfiyyət dəyişikliklərinə imkan verir. AİHM-nə Azərbaycanla bağlı şikayətlər artmaqdadır. Bu məhkəmə 2011-ci ilin sonuna qədər Azərbaycanla bağlı baxdığı 93 işdən 22-i qadın hüquqlarının və azadlıqlarının bu və ya digər dərəcədə pozulması ilə bağlı olmuşdur [44]. Azərbaycan qanunvericiliyinin tərkib hissəsi kimi Konvensiyanın və onun əsas nəzarət orqanı olan Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinin öyrənilməsi çox vacibdir [41, s.3-5].

«İnsan hüquqlarının Ümumi Bəyannaməsi»nə, «Avropa insan hüquqları» Konvensiyasına, «İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt»a, «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»a və digər beynəlxalq hüquqi sənədlərə əsaslanaraq AR Konstitusiyasının 26-cı maddəsi hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnu təsbit etmişdir [82, s.14-15]. Beynəlxalq Konvensiyalara qoşulduqdan sonra ölkəmizdə qanunvericilik yolu ilə qadın hüquqlarının müdafiəsi məsələsi məhkəmə, prokurorluq, polis, insan hüquqları üzrə müvəkkil (Ombudsman), Ailə, Qadın və Uşaq Prob-

lemləri üzrə Dövlət Komitəsi, digər çoxsaylı dövlət və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir [279, s.15]. Eyni zamanda hazırkı vəziyyət ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində problemlərin aradan qaldırılmasına daha da gücləndirmək məqsədilə müstəqil ailə, qadın və uşaq hüquqları üzrə xüsusi müvəkkilin – Ombudsmanın təsis edilməsi və Komitənin nəzdində «Ailə Problemləri üzrə Elmi Tədqiqat İnstitutu»nun yaradılmasını məqsədəmüvafiq hesab edirəm.Ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının beynəlxalq müdafiə mexanizmləri nə qədər mükəmməl və səmərəli olsalar da, onlar heç bir halda ölkədaxili mexanizmləri əvəz edə bilmir və yalnız bu mexanizmlərin tərkib hissəsi kimi fəaliyyət göstərdikdə səmərəli nəticələr verir. Bu da onu göstərir ki, hər bir inkişaf etmiş dövlətdə ailənin, qadının və uşağın hüquqlarının müdafiəsini təmin edən beynəlxalq vasitələrlə və mexanizmlərlə yanaşı, ölkədaxili milli mexanizmlərdən də qətiyyətlə və yaradıcılıqla istifadə edilməsi səmərəli nəticələr verə bilər. Ailənin, qadının və uşağın hüquqlarının müdafiəsinin təmin olunmasına dövlət orqanlarımız dövlətimizin ən ali məqsədi kimi yanaşır. Bu sahədə icra hakimiyyəti və onun orqanlarının rolu dövlət həyatında onun birbaşa bu prosesə rəhbərlik edən qurum kimi çıxış etməsi ilə izah olunur. İcra hakimiyyətinin AR-nın Prezidentinə məxsus olması, ilk növbədə onun insan hüquqları sahəsində əsas fəaliyyət istiqamətlərini müəyyən etməkdən başlanır. AR Konstitusiyasının 8-ci maddəsinin III hissəsində qeyd olunur ki, AR-nın Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır [82, s.8]. Konstitusiyanın 109-cu maddəsində təsbit edilən AR Prezidentinin səlahiyyətləri sırasına hökumətlərarası beynəlxalq müqavilələrin bağlanması, dövlətlərarası və AR-nın qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiqi və ləğv olunmaq üçün AR-nın Milli Məclisinə təqdim edilməsi və s. bu kimi məsələlər daxildir [82, s.53-56].

AR-nın Prezidenti tərəfindən ailənin, qadının və uşağın hüquqlarının müdafiəsi və təminatı sahəsində verilən mühim dövlətdaxili

normativ hüquqi aktlar siyasi-hüquqi əhəmiyyətə malik olması ilə seçilir. «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» AR Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı; «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında» AR Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı; «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında» AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı, «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın təsdiq edilməsi haqqında 27 dekabr 2011-ci il tarixli Sərəncamı, İnsan alverinə qarşı mübarizə üzrə (2009-2013, 2013-2018-ci illər) Milli Fəaliyyət Planı və s. sənədlər ailənin, qadının və uşağın hüquqlarının müdafiəsini təmin edən dövlət və qeyri-hökumət təşkilatlarının fəaliyyət mexanizmlərinin təkmilləşdirməklə yanaşı, həm də bu fəaliyyətin məzmununu əhəmiyyətli dərəcədə zənginləşdirmiş və qüvvələri səfərbər etmişdir. Ölkədə 28 dekabr 2001-ci il tarixdə AR-nın insan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradılmışdır. Məhz bunun nəticəsi olaraq Azərbaycan cəmiyətində ilk dəfə olaraq AR-nın insan hüquqları üzrə müvəkkili (Ombudsman) seçilmişdir [266]. Bu institut yeni yaradılan qurum olmasına baxmayaraq, ailənin, qadının və uşağın hüquqlarının müdafiəsinə xüsusi önəm verir. Həmin dövrdən başlayaraq hər il Ombudsmanın hesabatında ailənin, qadının və uşağın hüquqlarının vəziyyəti ölkə üzrə təhlil edilir, səciyyəvi hallar, ailənin, qadının və uşağın hüquqlarının pozulmasına şərait yaradan amillər və onların aradan qaldırılmasına dair təkliflər hesabatda öz əksini tapır. Bu hesabatlar kütləvi informasiya vasitələrində, xüsusilə «Qanun» jurnalında tam dərc edilir [112]. Ailənin, qadının və uşağın hüquqlarının müdafiəsi mexanizmləri içərisində ədalət mühakiməsi orqanlarının fəaliyyəti öz təsiri imkanlarına, fəaliyyətin səmərəliliyinə və qətiyyətinə görə diqqəti cəlb edir. Məhkəmə müdafiəsi insan hüquqlarının və azadlıqlarının təmin edilməsinin müxtəlif mexanizmlərinin və vasitələrinin ən geniş yayılmış və ən etibarlı forması hesab olunur. Onun təyinatı yalnız «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq

Pakt»da deyil, həm də «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də qeyd olunur. Belə ki, Bəyannamənin 8-ci maddəsinə əsasən, hər bir insan konstitusiya və ya qanunla ona verilmiş əsas hüquqlarının pozulduğu hallarda, səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa olunması imkanına malikdirlər. Belə ki, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 8-ci və AR Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilmişdir. Dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən və yaxud hərəkətsizliyindən məhkəməyə şikayət etmək hüquqları vardır [82, s.27].

AR Konstitusiyasının 25-ci maddəsinə əsasən hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi təsbit edilmişdir [82, s.13-14].

«Konstitusiya Məhkəməsi haqqında» AR-nın 23 dekabr 2003-cü il tarixli Qanunun qəbul edilməsi, ailənin, qadının və uşağın hüquqlarının qorunması sahəsində bu orqanın üzərinə mühim vəzifələr qoymuşdur [11]. Qanunun 1-ci maddəsində göstərilir ki, AR-nın Konstitusiya Məhkəməsi AR Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali Konstitusiya ədalət mühakiməsi orqanıdır. Onun əsas məqsədləri AR Konstitusiyasının aliliyini təmin etməkdən, hər kəsin əsas hüquqlarını və azadlıqlarını müdafiə etməkdən ibarətdir. Ailə, qadın və uşaq hüquqları ilə bağlı AR-nın Konstitusiya Mərhəkəmsinin son illər verdiyi çox saylı qərarlar hüquqtətbiqetmə təcrübəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına və məhkəmə fəaliyyətinin səmərəliliyinə əhəmiyyətli təsir göstərmişdir [25].

Ailənin, qadının və uşağın hüquqlarının müdafiəsi hüquq-mühafizə orqanlarının əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Bu baxımdan ilk növbədə prokurorluq orqanlarının fəaliyyəti hələ Sovet dövründən əhali arasında geniş hörmət qazanmış, insan hüquqlarının müdafiəsində müsbət təcrübəsi ilə seçilmişdir [82, s.70-71]. «Prokurorluq haqqında» AR-nın 7 dekabr 1999-cu il tarixli Qanununun 2-ci maddəsində qeyd olunur ki, AR-nın Prokurorluğu məhkəmə

hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorların AR-nın baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqanı hesab edilir [69, s.3]. Bu orqan ölkədə qanunların eyni cür və dürüst icrasına, ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının qorunmasına nəzarəti həyata keçirir. Bununla belə tarixi təcrübə və ənənələr nəzərə alınaraq bu gün qanunların hər yerdə eyni cür və dürüst icrasını təmin etmək üçün, prokurorluğun ümumi nəzarət və hüquq-mühafizə fəaliyyətini koordinasiya etmək funksiyalarının bərpası zamanın tələbatına çevrilmişdir. Bu məsələ qanunvericilik yolu ilə həll edilməlidir. Eləcə də hökumətin bütün üzvlərinin təmsil olunduğu Nazirlər Kabinetini, habelə ixtisaslaşmış qurum olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin funksiyaları genişləndirilməli, səlahiyyətləri artırılmalıdır [393, s.143-172].

AR-da fəaliyyət göstərən bütün nazirliklərin, dövlət komitələrinin, səhmdar cəmiyyətlərin, bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının fəaliyyəti bu və ya digər dərəcədə ailə, qadın və uşaq hüquqları ilə bağlıdır. Hazırda ölkədə fəaliyyət göstərən üç minə qədər qeyri-hökumət təşkilatının yüz əllisi ailə, qadın və uşaq problemlərinin müxtəlif məsələləri ilə məşğuldur. Bu sahədə vəziyyətin öyrənilməsi, onun problemlərinin müəyyən edilməsi, aradan qaldırılması sahəsində təkliflərin verilməsi, maarifçilik fəaliyyətinin gücləndirilməsi çox əhəmiyyətlidir. 2016-cı ilin «Multikulturalizm ili» elan edilməsi, bütün ölkədə ümumi güclərin və ideoloji təbliğatın bu məqsədlərə xidmət etməsi ilə əlaqədar olmuşdur [363, s.40-49; 391, s.73-76; 404; 488, s.56-67].

Ailə təsisatında birləşən qadın, uşaq, kişi və yaşlı nəslin nümayəndələrinin hüquqlarının və azadlıqlarının zorakılıq yolu ilə pozulması çox vaxt ağır nəticələrə səbəb olur. Bu da ümumilikdə, cəmiyyətdə müəyyən problemlərin yaranmasına gətirib çıxardır. «Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu Hesabatı», «Müasir Azərbaycanda ailə və nikah institutu: sosioloji təhlil», «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya dair dövrü hesabat», «Azərbaycanda gender münasibətləri:

tendensiyalar və problemlər», «Bizim zorakılıqdan qorunmaq hüququmuz», «Qadınlara qarşı zorakılıq probleminin gender təhlili», «Qadınlara qarşı zorakılığın mənfi təsiri», «Uşaqlara qarşı zorakılıq», «Yeni qadın psixologiyasına doğru», «Məişət zorakılığı: öz hüquqlarını bil» və onlarla digər nəşrlər, sosioloji sorğular, məhkəmə-istintaq təcrübəsinin materialları, kütləvi informasiya vasitələrinin məlumatları [13; 67; 206; 331, s.92-97; 350, s.102-104; 390, s.36-47; 442, s.108-116; 443, s.110-117; 444, s.121-128; 523, s.64-71; 561; 562; 572, s.74-83] problemin tədqiqi və təhlili zamanı faydalı mənbələr kimi nəzərə alınmış və onlardan istifadə edilmişdir «Məişət zorakılığının qarşısının alınması haqqında» AR-nın Qanunu bu sahədə problemin hüquqi tənzimlənməsi, belə zorakılıqların qarşısının alınması sahəsində ən mükəmməl normativ hüquqi aktlardan biri hesab oluna bilər. Bu sənəd beynəlxalq Konvensiyaların tələblərindən irəli gəlmişdir. Məişət zorakılığı ilə bağlı hələ 1853-cü ildə İngiltərədə «Qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması və cəzalandırılması haqqında» Akt sonradan daha da təkmilləşdirilmiş və başqa ölkələr üçün də nümunə olmuşdur. Dünyada ilk dəfə olaraq 1872-ci ildən başlayaraq, Amerikanın Massaçusets və Alabama ştatlarında qadınlara qarşı zorakılıq cinayət əməli kimi məsuliyyətə səbəb olmuşdur [13, s.16]. Qadın hüquqlarının və azadlıqlarının müdafiəsini təmin etmək üçün son iki əsrdə beynəlxalq səviyyədə bir çox normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. ABŞ-ın Müstəqillik Bəyannaməsində, 17 sentyabr 1787-ci il ABŞ Konstitusiyasında, 1885-ci il «Köləlik haqqında» Berlin Ümumi Aktında, 1890-cı il «Köləlik haqqında» Brüssel Ümumi Aktında və Bəyannaməsində, 1904-cü il «Ağdərili qadın qulların ticarəti ilə mübarizə haqqında» Millətlər Cəmiyyətinin Beynəlxalq Konvensiyasında, 1919-cu il «Quruda və dənizdə qul alverini ləğv etmək haqqında» Sen-Jermen Konvensiyasında, 1921-ci il «Qadın və uşaq alveri ilə mübarizə haqqında» Konvensiyasında, 1948-ci il BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannamədə, 1949-cu il BMT-nin «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında» Konvensiyasında, 1950-ci il «Köləliyin, qul ticarətinin və köləliyə oxşar

institutların və adətlərin ləğv olunması haqqında» Konvensiyasında, BMT-nin 1952-ci il «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasında, «Ərdə olan qadının vətəndaşlığı haqqında» 1957-ci il Konvensiyasında, «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında» 1962-ci il Konvensiyasında, «İrqi ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi haqqında» 1965-ci il Konvensiyanda, «Qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi haqqında» 1967-ci il Bəyannaməsində, «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 1979-cu il Konvensiyasında, «İşgəncələrə və digər qəddar, qeyri-insanı, yaxud ləyaqəti alçaldan davranış rəftar və cəza növlərinə qarşı» 1984-cü il Konvensiyasında, İstanbul Konvensiyasında və onlarla digər beynəlxalq sənədlərdə - Konvensiyalarda, Bəyannamələrdə, Qətnamələrdə ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində mükəmməl hüquq normaları hazırlanıb, qəbul edilmişdir [121].

BMT-nin Baş Məclisi tərəfindən 20 dekabr 1993-cü ildə «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» Bəyannamə qəbul edildi. Bəyannamədə, qadınlara qarşı zorakılığın insan hüquqlarına zidd olması, Nairobi perspektiv Strategiyasına müvafiq olaraq, belə əməllərin qadınlara qarşı ayrı-seçkiliyin bariz nümunəsi kimi hüquqi qiymət verilirdi. Qeyd olunurdu ki, qadınlara qarşı zorakılıq, onların kişilərə nisbətən asılı vəziyyətdə olduqlarını və onlara qarşı münasibətdə ayrı-seçkiliyin faktiki olaraq mövcud olduğunu təsdiq edir. Buna görə də BMT-nin İqtisadi və Sosial Şurası, özünün 29 may 1990-cı il tarixli Qətnaməsində qeyd edirdi ki, ailədə və cəmiyyətdə qadınlara qarşı zorakılıq hallarının artması əmlakından, sosial vəziyyətdən və mədəni səviyyədən asılı olmayaraq, bütün qadınlara münasibətdə, bu və ya digər dərəcədə müşahidə edilməkdədir. Avropa Şurasının «Qadınları hər növ zorakılıqdan qoruma haqqında» 5 saylı Tövsiyyəsi bütün Avropa ölkələrini əhatə etmiş, ayrı-ayrı ölkələrdə bu sahədə dövlət proqramları, mübarizə kampaniyaları və profilaktiki tədbirlər sistemi geniş vüsət almışdır. İlkin məlumatlara görə bu dövrdə Avropa ölkələrində, iki yüzdən artıq geniş miqyaslı belə

tədbirlər həyata keçirilmiş, sanki Avropanın mütərəqqi ictimaiyyətinin diqqəti məsələnin aktuallığına və tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsinin vacibliyinə diqqət çəkirdi. 2001-ci ildə Lozanna şəhərində keçirilən Birinci Avropa Kriminoloji Konqressinin qərarı ilə ailədə zorakılıq probleminin aradan qaldırılması məsələsinin vacibliyi ideyasını irəli sürdü. 7-9 aprel 2006-cı ildə Moskva şəhərində «Ailə zorakılığını aradan qaldıraq: yekunlar və perspektivlər» mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Avropa Şurasının «Qadınlara qarşı zorakılıqla mübarizə: Avropa Şurası Konvensiyasına doğru» 2008-ci il 1635 saylı Tövsiyyəsi Avropa ölkələrində bu sahədə Konvensiyanın qəbul edilməsinin zərurətini bir daha irəli sürürdü. Bu baxımdan Avropa Şurasının Parlament Assambleyası tərəfindən 2006-2008-ci illərdə «Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında» Konvensiyanın qəbul edilməsinə böyük tarixi tələbat və zərurət yaranmışdı. Beləliklə, 11 may 2011-ci il tarixdə Türkiyənin İstanbul şəhərində çoxdan arzu edilən və tarixdə «Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında» Konvensiyanın qəbul edilməsi ilə nəticələndi. Şərq və müsəlman ölkəsi olaraq Türkiyədə və İstanbul şəhərində «Zorakılıqdan azad qadınlar» Parlament şəbəkəsinin səmərəli fəaliyyəti nəticəsində belə bir Konvensiyanın qəbul edilməsi əslində böyük tarixi hadisə oldu. 2010-cu ilin dekabr ayında mətni üzərində iş tamamlanan və 2011-ci ilin aprel ayının 7-də Nazirlər Komitəsi tərəfindən qəbul edilən Konvensiya, 11 may 2011-ci ildən imzalanmaq üçün açıq elan edildi. Əvvəlcədən, Konvensiyanın Avropa Şurasının üzvü olan səkkiz dövlət və on parlament tərəfindən ratifikasiya olunduqdan sonra qəbul edilməsi şərti nəzərdə tutulurdu [206].

İstanbul Konvensiyasının nəticəsi olaraq Türkiyədə 8 mart 2012-ci il tarixdə «Ailənin qorunması və qadına qarşı zorakılığın qarşısının alınmasına dair» («Ailenin korunması ve kadına karşı şiddetin önlenmesine dair») 6284 nömrəli Qanun qəbul edildi. Türkiyənin bu Qanunu digər ölkələrdə də qadın zorakılığının qadağan edilməsinə və

qarşısının alınmasına dair analoji normativ-hüquqi aktların qəbul edilməsi üçün əhəmiyyətli bir örnək rolu oynadı [282, s.757-769].

Heydər Əliyev Fondunun, BMT-nin Əhali Fondunun dəstəyi ilə keçirilən «XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə» adlı birgə layihə problemin yeni, lakin ciddi səciyyə daşıdığını təsdiq etmişdir. Xüsusilə Əhali Fondu ilə birlikdə ölkədə 2008-2011-ci illərdə həyata keçirilən gender əsaslı zorakılıqla mübarizə layihəsi bu sahədə bütün tərəqqipərvər insanları və ölkə vətəndaşlarını bu işə səfərbər etmiş və qüvvələri birləşdirmişdir. «Məişət zorakılığının qarşısının alınması haqqında» AR-nın Qanunun tətbiq edilməsi barədə AR Prezidentinin 1 oktyabr 2010-cu il tarixli Fərmanı bu sahədə qarşıya mühim vəzifələr qoymuşdur. «Məişət zorakılığının qarşısının alınması haqqında» AR-nın 22 iyun 2010-cu il tarixli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» AR Qanununun tətbiq edilməsi barədə 22 yanvar 2000-ci il tarixli 265 nömrəli Fərmanında müvafiq dəyişikliklərin edilməsi haqqında 24 noyabr 2011-ci il tarixli 537 nömrəli Fərmanı müxtəlif təşkilatlar və vəzifəli şəxslər qarşısında geniş tədbirlər sisteminin həyata keçirilməsinə stimul vermişdir [67, s.29-34]. Bu Qanun qüvvəyə mindikdən sonra Ailə Məcəlləsinə «valideynlik hüquqlarından məhrum etmə adlı» 64-cü, İnzibati Xətalar Məcəlləsinə «döymə» adlı 38-1, «məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması» adlanan 38-2 maddələri, Mülki Prosessual Məcəllənin üçüncü yarımbölməsinin Xüsusi icraat hissəsinə «Ümumi müddəalar» adı altında 5 yeni maddə əlavə edilmişdir. Eləcə də «Məişət zorakılığının qarşısının alınması haqqında» AR-nın Qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Cinayət Məcəlləsinin 61, 120-134, 149-154 və 176-1 maddələrində müvafiq dəyişikliklər aparılmışdır. 14 fevral 2012-ci il tarixdə AR-nın Nazirlər Kabineti «Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma qaydası haqqında» 46 saylı Qərar qəbul etmişdir. Eləcə də AR-nın Nazirlər Kabinetinin 19 dekabr 2011-ci il tarixli 206 nömrəli qərarı ilə «Məişət zorakılığı törətmiş şəxslərin

profilaktiki qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi qabaqlayıcı işin aparılması Qaydası» təsdiq edilmişdir. Qanunun icrası, məişət zorakılığının vəziyyəti, dinamikası və statistikası, profilaktiki tədbirlərin hazırlanması və həyata keçirilməsi üçün mühim əhəmiyyət kəsb edən milli məlumat bankının yaradılması üçün Nazirlər Kabinetinin «Məişət zorakılığı ilə məlumat bankının təşkili və aparılması haqqında Qaydaları»nın 19 dekabr 2011-ci il tarixli 207 saylı Qərarı ilə təsdiq edilməsi mühim təcrübi əhəmiyyət kəsb etmişdir. «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyət qaydasının və məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları»nın təsdiq edilməsi haqqında 25 aprel 2012-ci il 89 saylı Qərarı, ölkədə ilk dəfə olaraq yardım Mərkəzlərinin yaradılması və fəaliyyətinin tənzimlənməsini təmin etmişdir [67]. İstanbul Konvensiyası «Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında», Azərbaycanda isə «Məişət zorakılığının qarşısının alınması haqqında» Qanun adlandırılmışdır. Hər iki sənəddə «məişət» ifadəsindən istifadə edilmişdir. Azərbaycan dilinin izahlı lüğətində göstərildiyi kimi «məişət» - «ümumi yaşayış tərzi», «yaşayış», «yaşama», «həyat», «güzəran» mənasını ifadə etməklə, etnoqrafik mahiyyət daşıyır və müəyyən bir mühitin məkan göstəricisi mənasında işlədilir [52, s.328]. Fəlsəfə ensiklopedik lüğət isə «məişət»i – tələbatın ödənilməsinə xidmət edən maddi və mədəni mühit kimi səciyyələndirir [157, s.278]. İstintaq və məhkəmə təcrübəsi göstərir ki, belə zorakı əməllər məişətlə – güzəranla, ümumi yaşayış və yaşam tərzi ilə deyil, daha çox əvvəllər və ya hadisə zamanı faktiki olaraq mövcud olan və ya olmuş, ailə, nikah, qohumluq, ünsiyyət və tanışlıq, vətəndaş nikahı münasibətləri zəminində, ailə mühitində, ailədə, kişi və qadın cinsinə mənsub olan tanış şəxslər arasında baş verir. Burada ailə – kişi və qadın ittifaqını, onların hüquqi birliyini ifadə etsə də, o həm də müəyyən mühiti – ailə üzvlərinin, qohumların, tərəfdaşların birgə yaşadığı mühiti, mənzili, evi, həyəti, bağı, şəraiti və bu göstəricilərə aid olan məkan sistemini ehtiva edir. Bu mənada şərh edilən hadisənin mənzilin və ya evin içərisində deyil, həm də həyət-

də, məhəllədə, yaşayış yerində baş verməsi, yaxud ailə üzvləri, qohumlar və tərəfdaşlar arasında münaqişə zəminində, lakin hətta kənar bir yerdə baş verməsi özü də ailə zorakılığı kimi qiymətləndirilə bilər. Buna görə də ailə, qohumluq və tərəfdaşlıq münasibətləri zəmində baş verən zorakılıqların «məişət zorakılığı» kimi adlandırılması, əlbəttə ki, məqbul hesab edilə bilməz. Çünki belə zorakılıqlar məkan göstəricisi ilə deyil, daha çox insanlararası münasibət zəminində baş verir. Şərh edilən əməllər əsasən ailə, qohumluq və yaxınlıq münasibətləri zamanı yaranmış münaqişə və ziddiyyətlərdən doğduğuna və zorakılıq münaqişənin davamı olaraq və icra edilmə üsullarına və vasitələrinə çevrildiyinə görə, belə əməllərin «ailədaxili zorakılıq» və ya daha lokanik şəkildə «ailə zorakılığı» kimi adlandırılması hüquqi və məntiqi cəhətdən daha düzgün hesab edilməlidir. Bəzi mütəxəssislər və bəzi tədqiqatlar bu ifadəni qadınlara qarşı zorakılıq kimi də təqdim edirlər. Bu da onunla bağlıdır ki, təcrübədə çox vaxt belə zorakılıqlarda zərər çəkmiş şəxs qadın olur. Əslində isə ailə və ailə münaqişəsinin qurbanları sırasında cinsindən asılı olmayaraq uşaqlar da zərər çəkirlər. Yetkinlik yaşına çatmamış qızların və ya hətta oğlanların zorakılıq qurbanı olması, başqa sözlə, uşaqlara qarşı zorakılıq təzahürləri də ildən-ilə artmaqdadır. Bu zorakılığın da çox vaxt məişət və ya ailə mühitində baş verdiyi məhkəmə və istintaq materialları ilə təsdiq edilir. Belə bir vəziyyətdə şərh edilən təzahürün «qadınlara qarşı zorakılıq», «uşaqlara qarşı zorakılıq» kimi təsnifatlara ayrılması, qlobal problem kimi «ailə zorakılığı»nın tərkib hissəsi kimi qiymətləndirilə bilər. Buna görə də «məişət zorakılığı», «qadınlara qarşı zorakılıq», «uşaqlara qarşı zorakılıq», «ailədaxili zorakılıq» ifadələrinin ümumi şəkildə «ailə zorakılığı» kimi adlandırılması məqsədəmüvafiq hesab edilməlidir. Təsadüfi deyil ki, Ukrayna, Rusiya və digər ölkələrdə də analoji qanun beynəlxalq sənədlərdən və Konvensiyalardan irəli gələrək «məişət zorakılığı» kimi adlandırılsa da, həmin ölkələrin elmi mühitində və tədqiqatlarında çox vaxt «ailə zorakılığı» istilahından istifadə edilir. Məsələn, Rusiyanın görkəmli kriminoloqları, professorlar D.A.Şestakovun, Y.İ.Qilinskinin tədqiqatlarında belə təzahürlər – «ailə zorakılığı» («semeynaya nasiliya» və ya «se-

meynaya kriminoloqiya») kimi təqdim olunur [360; 505; 563]. Bütün bunları nəzərə alaraq qadınlara, uşaqlara qarşı məişətdə və ya ailənin daxilində törədilən zorakılıqların ümumi bir ifadə ilə «ailə zorakılığı» kimi adlandırılması məqsədəmüvafiq hesab olunmalıdır. Buna görə də həmin qanunun və Konvensiyanın adının dəyişdirilərək «Ailə zorakılığının qarşısının alınması haqqında» Qanun adlandırılması məqsədəuyğun və məntiqi olardı. Digər normativ-hüquqi aktların da təklif etdiyimiz terminə uyğunlaşdırılması təmin edilməlidir [13; 308; 309; 435; 563; 564]. Ailənin cəmiyyətin özəyi olaraq hüquqi, sosial, siyasi, iqtisadi, mənəvi, əxlaqi, tərbiyəvi, təşkilati rolunun vaxtaşırı olaraq elmi-nəzəri tədqiqinin aparılması son dərəcə vacib və əhəmiyyətli hesab olunmalıdır. Ailə daim dövlətin himayəsində və diqqətində saxlanılmalı, onun sosial təminatlarının, maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxuşaqlı ailələrin dövlət himayəsinə götürülməsi, doğum evlərinin, uşaq xəstəxanalarının, bağçaların, orta və ali təhsil müəssisələrinin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsinə diqqətin artırılması zəruridir. Doğulmuş hər bir uşağa görə müavinətlərin artırılması, «ailə kapitalı»nın təsisi, uşaqlı ailələrin dövlət səviyyəsində mənzillə təmin edilməsi, uşaq tərbiyə və sağlamlıq müəssisələrinin mövcud tələblər baxımından geniş şəbəkəsinin təkmilləşdirilməsi və anaların sosial təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması vacibdir. Ölkədə uzunmüddətli dövr üçün «Azərbaycan ailəsinin İnkişaf Strategiyası»nın və «Uşaq Strategiyası»nın hazırlanması və həyata keçirilməsi təklif edilir. Bu Strategiyalar əsasında uzunmüddətli və ayrı-ayrı illər üzrə Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsi ailə problemlərinin uğurlu həllinə dəyərli töhfələr verə bilər. Ona görə də ailənin və bununla sıx bağlı olan insan münasibətlərinin psixologiyasını bilmək, insanın ailə mühitinə psixoloji cəhətdən hazırlanmasını təmin etmək, gələcək ailə tərəfdaşlığının subyektləri olan oğlanın və qızın ünsiyyət məsələlərinə gündəlik diqqətin arıtırılması son dərəcə vacibdir [13; 308; 309; 435; 563; 564].

Mükəmməl şəxsiyyətin yetişdirilməsi sahəsində ailənin, bağçanın, məktəbin, valideynin, müəllimin, əmək kollektivinin, cəmiyyətin

və dövlətin üzərinə məsuliyyətli vəzifələr düşür. İnsan həyatının bünövrəsi ailədə qoyulur, inkişaf edir və getdikcə daha da mükəmməlləşir. Sistemli, ardıcıl, mükəmməl və kompleks yanaşma tələb edən bu məsuliyyətli iş, nəticə etibarı ilə gələcək cəmiyyətin qurucusu kimi insanın, yüksək ixtisaslı mütəxəssis, bacarıqlı rəhbər, istedadlı təşkilatçı, nümunəvi ailə başçısı, qayğıkeş valideyn və ya sadəcə olaraq ailə üzvü kimi yetişməsində fəal rol oynayır [118; 161; 205; 221; 242; 243; 423, s.239-249; 507, s.396].

Ailə səviyyəsində biz cəmiyyətdəki idarəetmə proseslərinin mini formasını görürük. Ailə üçün idarəetmənin hüquqi deyil, əsasən mənəvi-etik formaları səciyyəvidir. Ailənin həyat fəaliyyətinin idarə edilməsi, onun tələbatlarının təmin olunması və inkişafının strateji planlaşdırılması, ailə mədəniyyətinin formalaşdırılması və qorunması, onun üzvlərinin mənəvi sağlamlığı, uşaqların maddi təminatı və mənəvi inkişafı, onların əməyə və yüksək mənəvi dəyərlərə sahib olması, uşaqların müstəqil həyata hazırlanması – dərin bilik, enerji, təcrübə, dözüm, müdriklik tələb edir. Ailənin hər bir üzvünün fərdi xüsusiyyətlərinin nəzərə alınması, bütöv sosial mikrosistem kimi, ailədə psixoloji uyğunluğa nail olaraq, onların münasibətlərinin tənzimlənməsi bacarığı, ailənin idarə olunmasında mühim əhəmiyyətə malikdir. Ailədə və əmək kollektivində münasibətlərin xarakteri psixoloji cəhətdən ayrı-ayrı olsa da, bir-birindən fərqlənsə də, lakin idarəetmə üslubu eyni ola bilər. Bu da daha çox liderlik rolunu icra edən ailə başçısının xarakterindən asılıdır. Ailə idarəçiliyi milli mədəniyyətin və sivilizasiyanın ən əhəmiyyətli nailiyyətlərinin mənimsənilməsini, müstəqillik, məsuliyyət və yaradıcılıq qabiliyyətini nəzərdə tutan, şəxsi mədəniyyətin bütöv formalaşmasını tələb edir [118; 161; 205; 221; 243; 423, s.239-249; 507, s.396]. Müstəqillik illərində ailə, qadın və uşaq hüquqlarının müdafiə və mühafizəsi üçün mükəmməl milli və beynəlxalq mexanizmlər yaradılmış və fəaliyyət göstərməkdədir. 30 sentyabr 2015-ci il tarixli «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu bu sahədə əsaslı dəyişiklik yaratmış, elektron hökumət, elektron müraciət formaları genişlənmişdir. Üçpilləli məhkəmə sisteminin, Konstitusiya Məhkəməsi-

nin, Ali Məhkəmənin, apellyasiya məhkəmələrinin fəaliyyəti gücləndirilmiş, hüquq-mühafizə orqanlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarından istifadə genişləndirilmişdir. Sahibkarlığın inkişafı üçün münbit şərait yaradılmış, qanunsuz yoxlamalar məhdudlaşdırılmışdır. İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən onun səmərəliliyinin artırılması barədə 27 dekabr 2011-ci il tarixli Milli Fəaliyyət Proqramı, ailələrin və uşaqların hüquqlarının qorunması sahəsində səyləri birləşdirmiş və bu da öz müsbət nəticələrini vermişdir. Bununla belə bu gün ölkəmizdə ailənin, qadının və uşağın hüquqlarının müdafiəsi və mühafizəsi sahəsində ardıcıl, sistemli və kompleks dövlət proqramlarının hazırlanıb həyata keçirilməsi səmərəli nəticələr verir. Son illərin statistik məlumatları göstərir ki, hazırda Azərbaycan əhalisinin və ailəsinin sayı sürətlə artmaqdadır. Yeni yaradılan ailələrin il ərzində sayı artıq yüz mini keçməkdədir [113; 178]. Əlbəttə ki, bu rəqəmlər daim dinamik inkişafda olmaqla tez-tez dəyişilir və bütün bunların nəzərə alınması çox vacibdir. Ailə və ailə münasibətlərinin ədalətli tənzim edilməsi bu sahədə qanunvericiliyin daim təkmilləşdirilməsini tələb edir. Bütün bu proseslər ailə və ailə münasibətlərinin vaxtaşırı olaraq, diqqətlə, elmi səviyyədə öyrənilməsi, bu işlərin səmərəli və effektli aparılması zamanın tələblərindən irəli gəlir. Göründüyü kimi əvvəlki illərlə müqayisədə məhkəmələrdə nikahın pozulması və etibarsız hesab edilməsi, atalıq faktının tanınması, valideyn hüquqlarından məhrumetmə, valideynlik hüquqlarının məhdudlaşdırılması sahəsində iddialar əhəmiyyətli dərəcədə artmaqdadır [108, s.71]. AR Dövlət Statistika Komitəsinin məlumatlarına görə ölkədə son illər əhalinin sayında, yaş və cins göstəricilərində bir sıra dəyişikliklər baş vermişdir. 1 yanvar 2021-ci il tarixə olan məlumatlara görə AR-nın əhalisi 10119,1 min nəfər, bunun da 5358.5 min nəfəri və ya 53.0%-i şəhər, 4760.6 min nəfər və ya 47%-i kənd yerlərində yaşayan şəxslər olmuşlar. Ölkə əhalisinin 5065.3 min nəfərini və ya 50.1%-ni qadınlar, 5053.8 min nəfərini və ya 49.9%-ni kişilər təşkil etmişlər. 20-24 yaş qrupunadək kişilərin sayının qadınlara nisbətən üstünlük təşkil etməsi, oğlan uşaqlarının daha çox doğulması ilə izah oluna bilər. Lakin kişilər ara-

sında ölüm səviyyəsinin daha yüksək olması, 20 və yuxarı yaşda olan qadınların sayının kişilərə nisbətən artması ilə nəticələnmişdir. Ölkənin Bakı şəhəri, Sumqayıt şəhəri, Gəncə şəhəri, Lənkəran şəhəri, eləcə də Lənkəran iqtisadi rayonu əhalisinin daha çox artımı müşahidə edilir. 2020-ci ildə kişilər arasında sağlam ömür uzunluğu 70.1 olmaqla 3.9, qadınlar arasında 1.2% azalaraq 76.5 təşkil etmişdir. Ölkədə kənd əhalisinin şəhər əhalisinə nisbətən sağlam ömür uzunluğu daha çox olmuşdur. Ölkədə nəsil artma əmsalının uzun illər tədricən azalması tendensiyası müşahidə edildiyi halda, 2000-2020-ci illərdə bu rəqəm nəzərə çarpacaq dərəcədə azalmağa meyilli olmuş, həmin dövrdə qadın və kişilər arasında ölüm artmağa meyilli olmuşdur. Əhalinin ölüm səbəbləri sırasında müxtəlif xarici təsirlərdən, travmalardan, həzm sisteminin, tənəffüs orqanlarının, qan dövranı sisteminin xəstəliklərindən ölməsi tendensiyaları üstünlük təşkil etmişdir. Mövcud statistikaya görə ölkəmizdə 2020-ci ildə 35348 nikah qeydə alınmışdırsa, boşananlar 14628 təşkil etmişdir. Müqayisədə hər min nəfərə düşən nikahların sayı 3.5, boşananlar isə 1.5 təşkil etmişdir. Ölkədə bir uşaqlı ev təsərrüfatlarının, cəmi sayı 1314.5 min olmuşdursa, onların 396.0 mini və ya 30.1%-i bir uşaqlı, 529.9 mini və ya 40.3%-i 2 uşaqlı, 261.9 mini və ya 19.9%-i 3 uşaqlı, 126.7 mini və ya 9.7%-i 4 və çoxuşaqlı ailələr olmuşdur. Göründüyü kimi həm şəhər və həm də kənd yerlərində 2 uşaq olan ev təsərrüfatlarının sayı üstünlük təşkil etmişdir ki, bu da ölkədə əhali artımının imkişafını göstərir. Bununla yanaşı tək uşağı olan ev təsərrüfatları şəhərdə, çox uşaqlı ev təsərrüfatları isə kənd yerlərində üstünlük təşkil etmişdir. Şəhər yerində başçısı qadın olan ev təsərrüfatları kənd yerlərinə nisbətən daha çox olmuşdur. Bu dövrdə ölkədə hər min nəfərə düşən abortların sayı 14.2 əmsal təşkil etmişdir. Bunun da ən çoxu 26.0 olmaqla 25-29 yaşlı, 23.4 olmaqla 30-34 yaşlı, 20.1 olmaqla 20-24 yaşlı qadınlar olmuşlar. 35 yaşdan yuxarı olan qadınlar arasında abort azaldığı halda, bu rəqəm 18-19 yaşlı qadınlar arasında 11.6, 15-17 yaşlı qadınlar arasında isə 0.3 əmsal təşkil etmişdir. Bu dövrdə ölkədə 5.5 min nəfər uşaq vaxtından əvvəl doğulmuşdur. Bu cür doğum halları əsasən anaların əvvəllər tez-tez abort etməsi ilə əlaqədar olaraq baş vermiş-

dir. 2019-cu ildə qeydə alınmış 37308 abortun *1023-ü və ya 3.8%*-i ilk dəfə hamilə olmuş qadınlar tərəfindən həyata keçirilmişdir ki, bütün bunlar da qadınların süni olaraq abort etmə yolu ilə uşaqların sayınında ildən-ilə azalmasınada mənfi təsir göstərmişdir. Əgər 15-49 yaşlı 1000 nəfər qadına düşən abortların sayı 2000-ci ildə 7.8 olmuşdursa, 2019-cu ildə bu rəqəm artaraq 14.2 təşkil etmiş, başqa sözlə, abortların sayı çoxalmışdır. Bunun isə bir sıra səbəbləri vardır. Ölkədə son vaxtlar əhalinin sayının artması qloballaşma konteksində cəmiyyətdə baş verən ciddi iqtisadi, siyasi, sosial və digər proseslər nəticəsində baş vermişdir. Eləcə də kənd əhalisinin sayının tədricən şəhər əhalisinin sayına yaxınlaşdığı halda, qadınların sayı son illər kişilərin sayını üstələmişdir. 1975-ci ildən başlayan proseslər əhalinin orta ömür müddətinin son otuz ildə tədricən azaldığını göstərir. Ölkədə dinamik şəkildə inkişaf edən yüksəliş, ölkə əhalisinin sosial həyatında qadınların rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Ölkənin ictimai-siyasi, sosial və iqtisadi həyatında qadınların rolunun dinamik artması müşahidə edilir. [113, s.12-34; 281, s.49-61].

Konstitusiyamızda kişi və qadın hüquqlarının bərabər olması təsbit edilməsinə baxmayaraq, işsizlik, yoxsulluq, sərxoşluq və digər mənfi amillər ailə münaqişələrində qadının rolunu xeyli dərəcədə fəallaşdırmışdır. Belə ki, qəsdən adam öldürmə və adam öldürməyə cəhd hadisələri ilə əlaqədar olaraq 2010-cu ildə 39, 2011-ci ildə 30, 2012-ci ildə isə 27 hadisə məhz məişət şəraitində - evdə, ailədə törədilmişdir ki, bu hadisələrdə də qadın fəal rol oynamışdır. Bu rəqəmlər 2013-2016-cı illərdə artmışdır [110]. Cinayətkarlığın statistikasından aydın olur ki, 2012-ci ildə törədilmiş cinayətlər üzrə zərər çəkmiş 10391 nəfərin 3759 nəfərini və ya 36,2%-ni, 2013-cü ildə 18565 nəfər zərər çəkmiş şəxsin 5110 nəfəri (364 nəfər ölmüşdür) və ya 27.5%-i, 2020-ci ildə isə 19739 nəfərin 5640-nı qadınlar təşkil etmişdir. Daha konkret desək statistik məlumatlardan görünür ki, ölkədə qeydə alınmış cinayətlər artmağa meyillidir. Beləki əgər 2000-ci ildə 13958, 2005-ci ildə 18049, 2010-cu ildə 23010, 2015-ci ildə 26916, 2019-cu ildə 26672, 2020-ci ildə isə 26004 cinayət qeydə alınmışdırsa və bunlarında 2000-ci ildə 4586-sı, 2005-ci ildə 1680-i, 2010-cu

ildə 2590-ı, 2015-ci ildə 3922, 2018-ci ildə 2921-i, 2019-cu ildə 3192-si, 2020-ci ildə 3636-sı ağır və xüsusi ilə ağır cinayət kateqoriyalarına aid olmuşdur. Əhalinin hər yüz min nəfərinə düşən orta cinayətlərin sayı 2000-ci ildə 176, 2005-ci ildə 218-i, 2010-cu ildə 258, 2015-ci ildə 277, 2018-ci ildə 265-i , 2019-cu ildə 266-sı, 2020-ci ildə 258 olmuşdur.Beləliklə təhlil göstərir ki, ölkədə 2000-ci illə müqayisədə 2020-ci ildə qeydə alınan cinayətlərin, ağır və xüsusi ilə ağır cinayətlərin və əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayı orta hesabla 2 dəfə artmışdır. Əgər 2000-ci ildə 12906, 2005-ci ildə 17303, 2010-cu ildə 18689, 2015-ci ildə 16322, 2018-ci ildə 16727, 2019-cu ildə 17823, 2020-ci ildə isə 17482 nəfər cinayət törətmiş şəxs aşkar edilmişdir ki, bununda 2000-ci ildə 1180, 2005-ci ildə 2520, 2010-cu ildə 2318, 2015-ci ildə 1128, 2018-ci ildə 1022, 2019-cu ildə 1039 və 2020-ci ildə 869 nəfəri qadınlar tərəfindən törədilmişdir.Bu dövrdə məhkum edilən şəxslərin 2000-ci ildə 810, 2005-ci ildə 1272, 2010-cu ildə 1073, 2015-ci ildə 595, 2018-ci ildə 569, 2019-cu ildə 571, 2020-ci ildə isə 399 nəfəri qadınların payına düşmüşdür.Təhlil göstərir ki, 2020-ci ildə məişət zorakılığı-ailə münaqişəsi nəticəsində cəmi 1260 cinayət qeydə alınmış və bu cinayətlərin 75-i qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 44-ü qəsdən sağlamlığa ağır zərər vurma, 119-u sağlamlığa az ağır xəsarət vurma, 989-u yüngül zərər vurma əməllərinə aid olmuşdur.

Təhlillər göstərir ki, 14-17 yaşlı uşaqlar arasında 1995-ci ildə 23, 2000-ci ildə 15, 2005-ci ildə 27, 2008-ci ildə 16, 2009-cu ildə 28, 2010-cu ildə 25, 2011-ci ildə 1, 2012-ci ildə 18, 2013-cü ildə 16, 2014-cü ildə isə 22, 2020-ci ildə isə 12 nəfəri yetkinlik yaşına çatmamış qız uşaqları olmuşlar. Bu uşaqlar içərisində hər iki valideyni olan və ailə tərbiyəsi almış uşaqlar əhəmiyyətli dərəcədə çoxalmış, işləməyən, oxumayan və qrup formasında törədilən cinayətlər içərisində qızlar tərəfindən törədilən kriminal əməllərin sayı artmışdır. Bir fakta diqqət yetirmək əhəmiyyətlidir ki, 1996-ci ilə 393, 2000-ci ildə 186, 2005-ci ildə 56, 2008-ci ildə 61, 2009-cu ildə 86, 2010-cu ildə 60, 2011-ci ildə 62, 2012-ci ildə 45, 2013-cü ildə 51, 2014-cü ildə 54, 2020-ci ildə isə 83 nəfər qadın narkotik vasitələrin və psixotrop mad-

dələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olaraq cinayət əməlləri törətdiklərinə görə məsuliyyətinə cəlb edilmişdir [14]. İqtisadi sahədə cinayət törətmiş məhkumların sayında qadınlar 1995- ci ildə 8.3%, 2000-ci ildə 8.4%, 2005-ci ildə 4.1%, 2008-ci ildə 12.6%, 2009-cu ildə 8%, 2010-cu ildə 7.1%, 2011-ci ildə 7.4%, 2012-ci ildə 8.6%, 2013-cü ildə 9.2%, 2014-cü ildə 7.9%, 2020-ci ildə isə 4.9 % təşkil etmişdir. Müvafiq olaraq həmin dövrdə məhkum olunmuş qadınların sayı da mütənasib qaydada artmağa meylli olmuşdur [109, s.45, 57, 66-69].

Ailə və nikah münasibətləri ilə əlaqədar olaraq iddialar məhkəmə mübahisəsinin tez-tez predmeti olmuşdur. Vətəndaşlıq vəziyyətinin akt qeydiyyatı ilə əlaqədar olaraq məhkəmələrdə 2005-ci ildə 325, 2008-ci ildə 312, 2009-cu ildə 319, 2010-cu ildə 242, 2011-ci ildə 268, 2012-ci ildə 346, 2013-cü ildə 412, 2014-cü ildə 326, 2018-ci ildə 323, 2019-cu ildə 393, 2020-ci ildə isə 249 iddia qaldırılmış və onlara mahiyyəti üzrə baxılaraq müvafiq qərarlar çıxarılmışdır. Bütün bunlarda onun göstərir ki, ailə və nikah münasibətlərində maarifləndirmə tədbirlərinin gücləndirilməsinə və genişləndirilməsinə böyük zərurət vardır [109, s.76]. Bu qəbildən olan iddialar rayon və kənd yerlərində yaşayan şəxslər tərəfindən daha çox verilir. Ailə münaqişələrinin və mübahisələrinin məhkəmədən kənar, ağsaqqalların və ictimai təşkilatların rolu ilə həll edilməməsi nəticəsində, eləcə də münaqişələrin vaxtında qarşısının alınmaması üzündən ailələr dağılır, bəzən insanların həyatına son qoyulur, qətlə yetirilən kişi ölür, qadın həbsxanaya düşür və nəticədə ailə bütünlüklə dağılır, uşaqlar kimsəsiz qalır və müxtəlif hüquq pozuntularına yol verməklə cəmiyyətin özündə ziddiyyətlər kəskinləşməyə və dərinləşməyə meylli olur.

Aparılan təhlillər təsdiq etmişdir ki, müstəqillik illərində əhalinin illik sayı orta hesabla 9-12% artaraq hazırda 10 milyonu keçmişdir. Mütənasib qaydada il ərzində şəhər əhalisinin 6-7, kənd əhalisinin isə 14-15%, bununla belə kəndə nisbətən şəhərdə əhalinin sayının intensiv olaraq artdığı müşahidə edilir. Əgər İttifaq miqyasında 1959-1989-cu illərdə SSRİ-də əhalinin orta illik artımı 1.2% olduğu halda,

bu Azərbaycanda orta hesabla 3% və ya 2.4 dəfə yüksək olmuşdur. Lakin bu proses 1965-ci ildən başlayaraq tədricən aşağı düşmüş, hazırda hər min nəfərə düşən doğumun və artımın səviyyəsi 1.5-1.8 dəfə aşağı düşmüşdür. 1991-1997-ci illərdə nikahın sayı azalaraq 75 mindən 47 minə düşmüş və ya 36.8% azalmışdır. Bununla yanaşı ölkəmizdə 25-29 yaşlı gənclər arasında subayların sayı MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Nikahsız doğulan uşaqların sayı isə 2.8 dəfə artaraq 7.3% təşkil edir. Əsasən reproduktiv yaşda olan kişilərin miqrasiyası nəticəsində əhalinin yaş-cins strukturunun pozulduğu müşahidə edilir. Ailə və ailə münasibətlərinə dair göstərilən məlumatlar ailənin konstitusiya statusunun təcrübi və nəzəri əhəmiyyətinin son dərəcə vacib olduğunu şərtləndirir. Çünki bu mövzu son 40 ildə ilk dəfədir ki, tədqiqatlara cəlb edilir. Ailə və ailə münasibətlərində subyekt hesab olunan şəxslərin hüquqlarının və azadlıqlarının müdafiəsi və mühafizəsi bütün beynəlxalq və milli təşkilatların mühim vəzifəsi hesab olunur və bu sahədə çoxsaylı mükəmməl mexanizmlər fəaliyyət göstərirlər. Onların fəaliyyəti mütyəmadi olaraq təkmilləşdirilir və fəallaşdırılır.

Ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının etibarlı müdafiəsi və mühafizəsi sahəsində ailə başçısının – atanın, ananın üzərinə mühim vəzifələr düşür və bu sahədə ailə idarəçiliyinin səmərəli həyata keçirilməsi mühim əhəmiyyətə malikdir. Elə buna görə də təəssüf hissi ilə qeyd edilməlidir ki, AR-nın Ailə Məcəlləsində ailə idarəçiliyinin hüquqi tənzimlənməsi məsələsinə müstəqil yer ayrılmamışdır. Ailə idarəçiliyinin əsas məqsədi ailənin sosial-mədəni inkişafı, uşaqların tərbiyəsi, təhsili, sağlam böyüdülməsi və ümumiyyətlə ailənin rifah halının kifayət qədər normal təmin edilməsi ilə bağlıdır. Bu isə ailənin rəhbərlərinin – atanın və ananın təşkilati fəaliyyətinin vaxtında, düzgün və səmərəli həyata keçirilməsindən asılıdır. Bu zaman əsas diqqət yalnız hüquq və vəzifələrin mükəmməl həyata keçirilməsi ilə deyil, habelə öhdəliklərə əməl olunması ilə bağlıdır. Ailə Məcəlləsi valideynlərin hüquqlarını, vəzifələrini və öhdəliklərini dəqiq müəyyən etmişdir. Ailədaxili münasibətlər daha çox adət və ənənələrlə, vərdişlərlə, davranışlarla, münasibətlərlə qaydaya sa-

lınmalıdır. Ailə idarəçiliyinin əsas ağırlığı qanunla ərin və arvadın üzərinə müştərək qaydada qoyulmuşdur. Lakin təcrübədə güclü cins hesab olunan kişi – ər, ailənin rəhbəri kimi öz funksiyasını daha inamla yerinə yetirir. Ailə başçısı kimi kişinin evdə üstünlüyü ələ alması, öz iradəsini diktə etməsi və ailə münasibətlərinin ahəngdarlığını öz xeyrinə dəyişməsi, bəzi hallarda hətta zorakılıq yolu ilə həyata keçirilməsi halları qaçılmazdır. Ailənin yazılmamış sosioloji, psixoloji, hətta cəmiyyətə və dövlətə təsir edə bilən siyasi funksiyaları da vardır. Bu münasibətlərin bütün incəlikləri tarixən müəyyən dəyişikliklərə məruz qalsa da, dəyişsə də, lakin həm də dəyişməyən nizamı da vardır. Bu ahəngdarlığın və bu nizamın pozulması qeyd edildiyi kimi ən müxtəlif, ən rəngarəng və çoxsaylı, çeşidli səbəblər üzündən pozula bilər. Münaqişələr, mübahisələr yarana bilər. Tərəflərin biri-birini başa düşməməsi, güzəştə getməməsi, sosial rollarını düzgün dərk etməməsi, məsuliyyətin əsaslarına laqeyd münasibəti, bütün bunların kimin xeyrinə həll ediləcəyi barədə tərəfləri dilemma qarşısında qoyur. Ailə münasibətlərində adətlərlə, ənənələrlə, vərdişlərlə həll edilə bilməyən mübahisələr, münaqişələr ailə zorakılığının hüquq müstəvisində, cinayət-hüquqi vasitələrlə həll edilməsinə gətirib çıxarır. Lakin bunun təzahürü onunla yadda qalır ki, münaqişə tərəflərindən kimsə, təqsirli şəxs məsuliyyətə cəlb edilir, ailələr dağılır və uşaqların taleyi arzuedilməz, ümidsiz bir vəziyyətə düşür. Budur, ailədaxili zorakılığın sosial-siyasi və psixoloji təhlilinin yekun nəticələri. Ailə zorakılığının sosial, siyasi və hüquqi təhlili əsasında, hər şeydən əvvəl, törədilmiş hərəkətlərin cinayət və ya inzibati xəta olub-olmamasını fərqləndirmək məsələsi, işin nəticəsi kimi özünü göstərir. Buna görə də ailə zorakılığının sosial, siyasi və hüquqi təhlilinin obyektiv, tam və hərtərəfli aparılmasının mühim sosial-siyasi və hüquqi əhəmiyyəti vardır. Onun nəticələri, ailə zorakılığının təhlili, onun nəticələrinin aradan qaldırılması və profilaktikasının gücləndirilməsi üçün mühim elmi-nəzəri və təcrübi əhəmiyyət daşıyır. AR Ailə Məcəlləsinə «ailə idarəçiliyi» ilə bağlı 6 b maddəsinin əlavə edilməsi təklif olunur:

«Maddə 6 b. Ailə idarəçiliyi

AR Ailə Məcəlləsində müəyyən edilmiş qaydada, ailənin hüquqlarının, azadlıqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini və ailə vəzifələrinin yerinə yetirilməsini təmin edən fəaliyyətin məcmusu ailənin idarəçiliyi hesab olunur. Ailənin idarəçiliyi ər və arvadın bərabər hüquqluluğu prinsipi əsasında həyata keçirilir. Ər və arvad ailə idarəçiliyində bərabər hüquqlar və bərabər vəzifələr daşıyırlar». Azərbaycanda ailə, qadın və uşaq hüquqlarının müdafiəsi və mühafizəsi sahəsində konstitusiya təminatları kifayət qədər mükəmməl, etibarlı və imperativdir. Milli və beynəlxalq səviyyədə fəaliyyət göstərən mexanizmlər, beynəlxalq qurumlar, milli məhkəmələr, hökumət təşkilatları, vətəndaş cəmiyyəti təsisatları bu missiyanı daha da yaxşılaşdırmağa ciddi səylər göstərirlər. Elə buna görə də beynəlxalq ekspertlər ölkəmizdə insan hüquqlarının müdafiəsi və mühafizəsi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirir və bu işin daha da təkmilləşəcəyinə ümidli olduqlarını bildirirlər. Azərbaycan ailəsinin inkişafı, onun Konstitusiya hüququ statusunun möhkəmləndirilməsi, ailə və ailə münasibətlərinin hüquqi tənzimlənməsi, onunla bağlı olan təşkilatı-hüquqi və idarəçilik sahəsində son illər mühim tədbirlər həyata keçirilmişdir [143, s.107-108]. Müstəqillik illərində milli mənəvi və əxlaqi dəyərlərin və Azərbaycançılıq ideologiyasının bütün sahələrdə üstünlüyü təmin edilmişdir. Buna baxmayaraq müstəqilliyin ilk illərində yaranan təbii çətinliklər, bazar münasibətlərinə keçid, «açıq dövlət» siyasəti, işsizlik, sosial təbəqələşmə, qloballaşma prosesləri, Avropadan və Qərbdən gələn mənfi təsirlər öz rolunu göstərməkdədir. Dövlətin ailə siyasətini düzgün qurması, ailənin inkişafına göstərilən qayğı, mənfi təsirlərin mümkün qədər zərərsizləşdirilməsinə baxmayaraq,ən müxtəlif səbəblər üzündən ailələrin dağılması, məişət zorakılığının artması, doğumun və uşaqların sayının azalmağa meyilliliyi, uşaqların qanunsuz yollarla övladlığa verilməsi, yetkinlik yaşına çatmamışlar və qadınlar arasında cinayətkarlığın çoxalması, nəsillərarası, dinlərarası və cinslərarası münasibətlərin kəskinləşməsi və onlarla digər mənfi təzahürlər ailə böhranının artmasına şərait yaratmaqdadır [117, s.494-504]. Bütün

bunlarla yanaşı qeyd edilməsi zəruridir ki, Heydər Əliyev Fondunun dəstəyi nəticəsində Azərbaycanın ailə modelinə marağın artması və bu modelin müsbət təmayüllərinin öyrənilməsinə ən müxtəlif səviyyədə təşəbbüslərin göstərilməsi də xüsusi olaraq qeyd edilməlidir. Yaranmış vəziyyət, Azərbaycan ailəsinin, qadınının və uşağının keçid mərhələsində düşdüyü çətin vəziyyətdən çıxarmaq üçün dövlətin məqsədyönlü, elmi cəhətdən əsaslandırılmış tədbirləri, siyasi və iqtisadi rıçaqları, təhsil, tərbiyyə, əmək, hüquq mühafizə və vətəndaş cəmiyyəti təşkilatlarının, beynəlxalq təşkilatlarla birlikdə həyata keçirdikləri səmərəli tədbirlər öz müsbət nəticələrini verməkdədir.. Bir çox beynəlxalq Konvensiyaların, bəyannamələrin qəbulundan uzun illər keçmiş, dünyanın siyasi mənzərəsində köklü dəyişikliklər baş vermiş, hüquqlar, azadlıqlar və müdafiə məsələlərinə münasibətdə beynəlxalq yanaşmalar əhəmiyyətli dərəcədə dəyişmişdir. Fəqət, müstəsna əhəmiyyət kəsb etməsinə baxmayaraq, indiyə qədər ailənin və qadının hüquqlarına və azadlıqlarına dair müfəssəl beynəlxalq konvensiyalar hələdə qəbul edilməmişdir. «Uşaq hüquqlarına dair Konvensiya» isə imperativlikdən daha çox bəyannamə səciyəsi daşıyır. Buna görə də BMT-nin ailənin, qadının və uşağın hüquqlarına və azadlıqlarına dair XXI əsrin üç müfəssəl beynəlxalq Konvensiyalarının hazırlanması və qəbul edilməsi siyasi, iqtisadi, mülki, sosial, hüquq və s. sahələrdə kompleks bir sənəd ola bilər. BMT-nin, Avropa Şurasının və s. beynəlxalq təşkilatların qəbul edikləri və mühim siyasi-hüquqi əhəmiyyət kəsb edən beynəlxalq sənədlərə dünya birliyi dövlətlərinin demək olar ki, hamısı yekdilliklə tərəfdar çıxsalar da, fəqət onların icrası bir çox halda müşkülə çevrilir. Bu vəziyyət beynəlxalq təşkilatların qərarlarının icrası sahəsində ciddi problemlərin olduğunu təsdiq edir. Buna görə də «BMT Qərarlarının icrası üzrə Konvensiya»nın lahiyəsinin hazırlanması və qəbul edilməsi çox vacibdir. Beləliklə, dünyada ailə, qadın və uşaq hüquqlarının mühafizəsi və müdafiəsi sahəsində kəskinləşən problemlərin ildən-ilə artması və aktuallığı nəzərə alınaraq BMT-nin «Ailənin hüquqları», «Qadının hüquqları» və «Uşağın hüquqları» adlı 21-ci əsrin üç müfəssəl Konvensiyasının, habelə «BMT qərarlarının icrası üzrə Konvensi-

ya»nın qəbul edilməsi üçün beynəlxalq səviyyədə təxirə salınmaz tədbirlərin görülməsinə zərurət yaratmışdır [185].

Avropa Sosial Xartiyasının müxtəlif maddələrində ailə və ailə üzvlərinin sosial hüquqlarının və onların müdafiəsinin müxtəlif məsələlərinə, meyarlarına, tələblərinə geniş yer ayrılmış, onların hüquqlarının və azadlıqlarının müdafiəsi üçün mükəmməl sistem müəyyənləşdirilmişdir. Ailənin tərkibinə daxil olan üzvlər sırasından müxtəlif kateqoriya işçilərin əmək və əmək mühafizəsi hüququ, işləyən qadınların analıq dövründə xüsusi müdafiə sistemi ilə təmin edilməsi hüququ, hər bir şəxsin əmək qabiliyyətinə, peşə yönümünə və gördüyü işə görə ədalətli əmək haqqı almaq hüququ, sosial təminat hüququ, tibbi yardım almaq, sağlam şəraitdə yaşamaq və işləmək hüququ, sosial xidmətlərindən istifadə etmək hüququ, əlillər üçün müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak etmək hüququ, uşaqların və gənclərin sosial, hüquqi və iqtisadi müdafiəsinin təmin edilməsi hüququ, cinsi ayrı-seçkiliyin qadağan edilməsi və digər bu kimi məsələlərin öz ədalətli tənzimlənməsinə və təkmilləşdirilməsinə zərurət yaradır. Xartiyanın 16-cı maddəsində, cəmiyyətin əsas özəyi olan ailənin tam inkişafı üçün zəruri şəraitin təmin edilməsi, sosial və ailə müavinətlərinin verilməsi, ailənin ehtiyaclarına uyğun olaraq, habelə gənc ailələr üçün müvafiq güzəştlərin nəzərdə tutulması, ailə həyatının iqtisadi, hüquqi və sosial müdafiəsini təmin edən normaların təsbit edilməsi, bu sahədə beynəlxalq tənzimlənmənin mühim ifadə forması kimi qiymətləndirilə bilər [122, s.185-207].

Avropa Şurasının sənədləri, o cümlədən «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı» 10 dekabr 1984-cü il tarixli 39/46 saylı Qətnaməsi, belə hərəkətlərin qarşısının alınması haqqında 26 noyabr 1986-cı il tarixli Avropa Konvensiyası, bu Konvensiyaya dair 4 noyabr 1993-cü il tarixli 1 və 2 nömrəli Protokollar, ailədə işgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan hərəkətlərin ailə üzvlərinin biri-birinə qarşı etməsi kimi hərəkətləri qadağan etmişdir [122, s.552-593].

«Ölkə daxilində yerini dəyişmiş şəxslərin məsələləri üzrə» BMT-nin rəhbər müddəaları və tövsiyələri olduqca mühim əhəmiy-

yət kəsb edir. Bu sənəddə «yerini dəyişmiş şəxslər» kateqoriyasına anlayış verilməklə yanaşı, bu mürəkkəb və ağrılı prosesin nəticəsi olaraq müxtəlif hüquq pozuntularına qarşı kompleks mübarizə tədbirlərinin geniş sistemi müəyyən edilmişdir. Sənədin 17-ci maddəsində göstərilir ki, hər bir insanın ailə həyatına hörmət edilməlidir. Ölkə daxilində yerini dəyişmiş şəxslərin, bu hüququnun təmin edilməsi məqsədilə, onlarla birlikdə qalmağı arzu etmiş ailə üzvlərinin istəklərinin reallaşdırılmasına imkan verilməlidir. Köçkünlük nəticəsində ayrı düşmüş ailələr, imkan daxilində, qısa müddət ərzində bir-birinə qovuşdurulması zəruridir. Belə ailələrin, xüsusilə uşaqların öz ailəsinə qovuşdurulması məsələsi üçün mümkün olan bütün tədbirlərin görülməsi vacib hesab edilmişdir [122, s.632-635].

BMT-nin «Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında» 14 dekabr 1974-cü il tarixli Bəyannaməsi fövqəladə vəziyyətlərdə yaranmış çətinlikləri və situasiyanı nəzərə alaraq yetişməkdə olan gənc nəslin taleyinə, cəmiyyətdə və ailədə nəsil yetişdirmək funksiyası sahəsində mühim rol oynayan anaların taleyinə dərindən narahatçılıq keçirərək, belə bir Bəyannamənin qəbul edilməsini vacib hesab etmişdir. Bu sənəd hərbi əməliyyatlar gedişində mülki əhalinin, xüsusilə onun ən müdafiəsiz hissəsi olan qadınların, uşaqların və yaşlıların xilas edilməsi üçün atılmış insanpərvər və humanist bir addımdır. Hərbi əməliyyatlar gedişində kimyəvi və bakterioloji silahdan istifadə edilməsi, qadınların, uşaqların və yaşlıların müharibənin dağıdıcı təsiri altında saxlanması, onların təqib edilməsi, işgəncələrə, alçaldıcı davranışlara, zorakılığa, qətliama məruz qalması kimi qeyri-insani və qeyri-bəşəri hərəkətlər yol verilməz hesab edilmişdir. Bütün bu tələblər 1925-ci il Cenevrə Protokolunun və 1949-cu il Cenevrə Konvensiyasının tələblərindən irəli gəlir. Azərbaycan, erməni seperatizminin və erməni ordusunun qanunsuz hərbi əməliyyatlarına uzun zaman məruz qalan bir ölkə olmuşdur. Ailələrin, qadınların, uşaqların və yaşlıların insan ağlına sığmayan qəddar və qeyri-insani hərəkətlər nəticəsində çoxsaylı qurbanlar verməsi, ailələrin və nəsillərin tarixin səhifələrindən birdəfəlik silinməsi acı həyat reallıqlarıdır. Ölkəmizdə ailə, qadın və uşaq hüquq-

larının münaqişə və müharibə dövründə müdafiəsi haqqında BMT-nin, Avropa Şurasının və digər beynəlxalq və regional təşkilatların qərarları yüksək qiymətləndirilir və beynəlxalq əhəmiyyət daşıyır. Bununla belə bu şikayətlər üzrə AİHM-nin hətta icraata artıq qəbul edilmiş işlər üzrə belə məhkəmə proseslərini illərlə süründürməsi yalnız təəssüf doğurur. Çıraqov və qeyrilərinin işi üzrə başlanmış məhkəmə prosesi buna misal ola bilər [5, s.3]. BMT-nin 20 noyabr 1959-cu il «Uşaq hüquqları Bəyannaməsi», 15 oktyabr 1975-ci il tarixdə «Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında» Avropa Konvensiyası, 29 noyabr 1985-ci il BMT-nin «Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına dair minimum standart Qaydaları (Pekin qaydaları)», 3 dekabr 1986-cı il BMT-nin «Uşaqların, xüsusilə onlar milli, beynəlxalq səviyyələrdə tərbiyəyə verilərkən və övladlığa götürülərkən müdafiəsinə və əmin-amanlığının təmin edilməsinə dair sosial və hüquqi prinsiplər haqqında Bəyannamə», 20 noyabr 1989-cu il BMT-nin «Uşaq hüquqları haqqında Konvensiya», 29 may 1993-cü il BMT-nin «Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlığı haqqında Konvensiya», 17 iyun 1999-cu il BMT-nin «Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiya», 25 may 2000-ci il tarixli BMT-nin «Uşaq hüquqları haqqında Konvensiyanın uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına qarşı fakultətiv protokolu», 25 may 2000-ci il tarixli BMT-nin «Uşaq hüquqları haqqında Konvensiyanın uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına qarşı fakultətiv protokolu», 31 may 2002-ci il BMT-nin «Uşaq hüquqları haqqında Konvensiyanın uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair fakultetiv Protokolu» [121; 122] və s. sənədlər mühim əhəmiyyət kəsb etmişdir [23, s.11-20; 173].

Ailə və uşaq hüquqlarının beynəlxalq hüquqi tənzimlənməsi, bu normaların tətbiqi, mühafizəsi və təmin olunması beynəlxalq miqyasda müxtəlif qurumlar tərəfindən nəzarətdə saxlanılır və onlara əməl edilməsi sahəsində müvafiq təsirli tədbirlər görülür. Hazırda dünya üzrə 300-dən çox hökumətlərarası və yüzlərlə qeyri-hökumət

təşkilatları ailə, qadın və uşaq hüquqlarının qorunması sahəsində səmərəli fəaliyyət göstərməkdədir. Belə qurumlar sırasında Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, BMT-nin Köləlik Əleyhinə Beynəlxalq İttifaqı, Beynəlxalq Əmək Təşkilatı, YUNESKO, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin İqtisadi və Sosial Şurası (EKOSOK), onun Sosial İnkişaf üzrə Komissiyası, Əhali və İnkişaf üzrə Komissiyası, Qadınların vəziyyəti üzrə Komissiya, Davamlı İnkişaf üzrə Komissiya, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı, Avropa Şurası və onun Nazirlər Komitəsi, İslam Əmək Təşkilatı, İnsan Hüquqları Komitəsi, İrqi Ayrı-Seçkiliklərin Ləğvi üzrə Komitə, İşgəncə Əleyhinə Komitə, İşgəncənin Qarşısının Alınması üzrə Alt Komitə, Qadınlara qarşı İrqi Ayrı-Seçkiliyin Ləğvi üzrə Komitə, Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə, Uşaq Hüquqları Komitəsi, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə, İşgəncənin və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi, Amerikaarası İnsan Hüquqları Komissiyası və Məhkəməsi, İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası, Avropa İnsan Hüquqları Məhkəməsi, BMT-nin İnsan Hüquqları Şurası, BMT-nin Ali Komissarılığı, onlarla digər beynəlxalq və regional təşkilatlar ailə hüququnun, qadın və uşaq hüquqlarının bu və ya digər məsələləri üzrə beynəlxalq nəzarəti həyata keçirir, vaxtaşırı olaraq ümumiləşdirmələr aparır, vəziyyəti təhlil edir və gələcək perspektivlər üçün tövsiyələr verirlər [121; 122]. Nyu-Yorkda keçirilən Minillik Sammitdə «Birşləmiş Millətlərin Minillik Bəyannaməsi»nə dair 147 dövlətin və hökumətin başçıları, nəticə etibarilə 191 millətin maraqlarını müdafiə edərək «Minillik Bəyannamə» qəbul etmiş və həmin sənəd BMT-nin Baş Katibi tərəfindən imzalanaraq, dünyada yayımlanmışdır. Yoxsulluq, evsizlik, xəstəliklər, milli, dini və etnik münaqişələr, təbii fəlakətlər, ekoloji böhran, sülh və təhlükəsizliyə qarşı edilən davamlı təhdidlər, transmilli mütəşəkkil cinayətkarlığın genişlənməsi, kütləvi qırğın silahlarının, o cümlədən nüvə silahının, narkomaniyanın, sağalmaz yoluxucu xəstəliklərin, epidemiyaların, insan alverinin, cinsi istismarın və

başqa təhlükəli təzahürlərin real nəticələri bu gün bəşəriyyəti ciddi surətdə narahat etməkdədir. Bu proseslər ənənəvi ailə dəyərlərinin pozulmasına, boşanmaların, uşaq cinayətkarlığının və uşaqlara qarşı cinayətkarlığın artmasına, uşaqların nəzarətsiz qalmasına, nikah münasibətlərinin, ailə dəyərlərinin öz əhəmiyyətini və hüquqi nəticələrini tədricən itirməsinə, təhsilin və elmin əhəmiyyətinin azalmasına, ətraf mühitin və ekologiyanın dözülməz vəziyyətə düşməsinə, demokratiyanın və insan hüquqlarının kütləvi pozulmasına gətirib çıxarmışdır. Birləşmiş Millətlər dünyada mövcud olan və gündən-günə genişlənən ailə böhranının nəticələrindən ciddi narahatçılığını bildirmişdir. Buna görə də BMT-nin Baş Məclisi tərəfindən keçirilmiş Ümumdünya Sammiti 16 sentyabr 2005-ci il tarixdə qəbul etdiyi Qətnaməsində bir çox problemlərin həllini zəruri hesab etməklə yanaşı, eyni zamanda ailə və onun fəaliyyətinin hüquqi tənzimlənməsinə diqqətin artırılmasını vacib hesab etmişdir [609].

Qətnamədə haqlı olaraq göstərilir ki, kişilər və qadınlar layiqli həyat tərzi keçirtmək, öz uşaqlarını da bu tərzdə böyütmək, aclıqdan və zorakılıq qorxusundan, təzyiqlərdən və ədalətsizlikdən uzaq böyütmək hüququna malikdirlər. Xalqların azad iradəsinə əsaslanan demokratik xarakterli hakimiyyət, bu hüquqların ən yaxşı təminatçısı olmalıdır [609]. Sənəddə göstərilir ki, qadınlara qarşı zorakılıq hallarının bütün formalarına qarşı mübarizə aparmaq, «Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğvi üzrə Konvensiya»nı həyata keçirmək qanunun aliliyinin təmin olunması, ailə mühitində demokratik dəyərlərə hörmət edilməsi, qadın və uşaq hüquqlarının gözlənilməsi, insan inkişafının vacibliyi, mədəniyyətlərarası, dinlərarası, cinslərarası, elmlərarası əlaqələrin və əməkdaşlığın genişləndirilməsi, qayda-qanunun və əmin-amanlığın təmin edilməsi, insan rifahının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin etmək vacibdir. Beynəlxalq birlik miqrantların, miqrant işçilərin və onların ailələrinin hüquqlarına hörmət etmək, onları qorumaq, bir çox cəmiyyətlərdə artmaqda olan irqçilik və ksenofobiya – xarici vətəndaşlara qarşı kinli münasibətlərə son qoymalı və bütün cəmiyyətlərdə harmoniya və dözümlülüyü gücləndirmək məqsədilə müvafiq addımlar atmalıdır [609].

Minillik Sammitin iştirakçıları belə yekdil qərara gəlmişlər ki, təbii fəlakətlərdən, soyqırımlardan, silahlı münaqişələrdən və başqa qeyri-insani əməllərdən əzab çəkən uşaqlara və sivil vətəndaşlara yardım etmək və onları müdafiə etmək üçün bütün imkanlar səfərbər edilməli, həmin insanlar mümkün qədər tezliklə normal həyat şəraitinə qaytarılmalıdırlar. Qaçqınları özündə məskunlaşdıran ölkələrdə problemlərin bölüşdürülməsi və bu ölkələrin aldığı yardımın əlaqələndirilməsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, bütün qaçqınların və didərginlərin sağ-salamat və könüllü olaraq öz yurd-yuvalarına qaytarılması, öz cəmiyyətlərində rahat şəkildə məskunlaşmaları təmin edilməlidir. Eləcə də «Uşaq hüquqları üzrə Konvensiya»nın, uşaqların silahlı münaqişələrə cəlb edilməsi, uşaqların satılması və uşaq pornoqrafiyası kimi məsələlərə dair protokolun təsdiqi və icrası təmin edilməlidir [114; 270].

Birləşmiş Millətlər əmin olduqlarını bəyan etmişlər ki, üzv dövlətlər qarşıda duran qlobal problemlərin uğurlu həllini, dünyanın bütün insanlarının tərəqqisini və inkişafını təmin edəcək, cahilliyə, xəstəliklərə, ədalətsizliyə, zorakılığa, terror və cinayətlərə qarşı mübarizədə qüvvələri birləşdirəcək, ümumi evimiz olan dünyanın korlanmasına və dağıdılmasına qarşı mübarizəni gücləndirəcəklər. Sonda Sammit iştirakçıları dünya əhalisinə üz tutaraq belə bir vəd verirlər: «Biz bu tarixi hadisə ilə əlaqədar hamılıqla təsdiq edirik ki, Birləşmiş Millətlər Təşkilatı bütün bəşər ailəsinin ümumi bölünməz evidir. Onun vasitəsilə biz sülh, əməkdaşlıq və inkişaf sahəsində ümumi məqsədlərimizə nail olmağın yollarını axtaracağıq. Buna görə də biz, bu ümumi vəzifələrin həyata keçirilməsinə güclü dəstək verəcəyimizə və onlara nail olmaq üçün əlimizdən gələni əsirgəməyəcəyimizə söz veririk» Göründüyü kimi BMT-nin müraciəti, Minillik Sammitin Bəyananməsi çox dərin məzmunlu, bəşəri mahiyyət daşısa da, təəssüf ki, Azərbaycanla münasibətdə bu çağırışlar cavabsız qalmış [609].Ölkəmiz müttəfiqləri ilə, ölkə daxilində və xaricində çevik, diplomatik gedişlərlə bu mənfi nəticələri aradan qaldırmağa böyük üstünlük verir.

BMT Baş Assambleyasının 8 dekabr 1989-cu il tarixli Qərarı ilə 1994-2004-cü illərin «Beynəlxalq ailə onilliyi» kimi qeyd edilməsinə dair göstərişi dünya səviyyəsində ailəyə olan diqqətin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuş, ailə problemlərinin həllinə münasibət dəyişmişdir [21, s.16]. Demokratiya, insan hüquqları və bu hüquqların aliliyinin təmin olunması sahəsində, Avropa Şurasının 16 may 2005-ci il tarixdə 46 üzv dövlətə müraciəti imzalanmışdır. Eləcə də ailə münasibətlərində sivilizasiyalı inkişafın, mədəniyyətlərin tərəqqisi və ailələrin müasir inkişafının təmin olunması sayəsində Avropa ölkələrinin səylərinin birləşdirilməsi barədə qərar mühim əhəmiyyət kəsb etmişdir. Ötən dövr ərzində ailənin müxtəlif beynəlxalq problemləri daim diqqət mərkəzində saxlanılmış, dövlətlər səviyyəsində ailə problemlərinin və onunla bağlı məsələlərin uğurlu həlli dəyərli töhvələrlə zəngin olmuşdur. Azərbaycanda ailənin müasir tələblər səviyyəsində inkişafı üçün iqtisadi, sosial, siyasi, ideoloji, mənəvi-əxlaqi tədbirlər sistemi kompleks şəkildə hazırlanmış və Dövlət Proqramları səviyyəsində həyata keçirilməkdədir. Bu gün Azərbaycan Respublikası öz iqtisadi inkişafına və dinamik yüksəlişinə görə hazırda dünyanın qabaqcıl ölkələri sırasındadır. Bu baxımdan ölkəmizin «Minillik Bəyannamə»yə qoşulması, yoxsulluqla mübarizəyə xüsusi diqqət yetirilməsi və əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülmüş ardıcıl tədbirlər ölkəmizdə «2003-2005-ci illər üçün Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı», eləcə də «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf proqramı» hazırlanaraq təsdiq edilməsi və uğurla həyata keçirilməsi təmin edilmişdir. Bu ölkəmizin qarşıya qoyduğu böyük məqsədlərdən və vəzifələrdən irəli gəlir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyev 6 oktyabr 2016-cı il tarixdə «Azərbaycan Respublikasının dayanıqlı inkişafı üzrə milli əlaqələndirmə Şurasının yaradılması haqqında» Fərman imzalamışdır. Fərmanda qeyd edilir ki, Azərbaycan ötən illər ərzində «Minilliyin inkişaf məqsədləri» üzrə bir çox hədəfləri – xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan

qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühim nailiyyətlər əldə etmişdir. BMT-nin üzvü olan dövlətlərin 25-27 sentyabr 2015-ci il tarixlərində keçirilən «Dayanıqlı inkişaf Sammiti»ndə 2016-2030-cu illər üçün təsdiqlənmiş dayanıqlı inkişaf məsələlərinin həlli hazırda qarşıda mühim vəzifə kimi dayanır. Elə buna görə də «Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik»dən irəli gələn vəzifələrin həyata keçirilməsi ölkəmiz üçün prioritet istiqamət kimi müəyyən edilmişdir. Bu Gündəlikdə 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun olan milli prioritetlər və onlara dair göstəriciləri müəyyən etmək, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların dayanıqlı inkişafın əsas meyarlarına uzlaşdırılması üçün hazırda kompleks tədbirlər hazırlanmaqdadır [7, s.2]. Bu tədbirlər sistemi ölkəmizdə ailənin, qadının və uşağın rifahının yüksəldilməsini təmin edəcəkdir.

Müstəqillik illərində ölkənin ictimai-siyasi və sosial həyatında vacib hesab edilən problemlərin uğurlu həlli sahəsində uzun müddətli dövr üçün Dövlət Proqramlarının kompleks hazırlanması və həyata keçirilməsi öz müsbət nəticələrini verməkdədir. «Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası»nın 29 dekabr 2012-ci il tarixli Fərmanla təsdiq olunması mühim bir hadisə hesab oluna bilər. Bu sənəd mövcud vəziyyəti təhlil etməklə müasir çağırışlara müsbət cavab vermək üçün hazırlanmışdır. Bu isə yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın yeni modelinin hazırlanması, iqtisadi strukturun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, elmin və innovasiyaların vəhdəti, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin yaradılması, o cümlədən elmin, səhiyyənin, təhsilin, sosial müdafiənin, gender bərabərliyinin, idmanın, idarəçiliyin, qanunvericiliyin, vətəndaş cəmiyyətinin, mədəni irsin qorunması kimi çoxsaylı tədbirlər kompleksini nəzərdə tutmuşdur. Bu tədbirlər ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə istiqamətlənmişdir [601].

«Tibbi sığorta haqqında» AR-nın 28 oktyabr 1999-cu il tarixli Qanunu uzun müddət reallaşdırılmamış, yalnız 2016-cı ildən başlayaraq bununla bağlı pilot layihələr həyata keçirilmiş və «2014-2020-ci illər üçün Səhiyyə Nazirliyinin strateji planlaşması»na dair tibbi tədbirlər sistemi müəyyənləşdirilmişdir. Ana və uşaqların sağlamlığının qorunması sahəsində Ümumdünya Səhiyyə Təşkilatının «Uşaqların xilası – 2015» Beynəlxalq Proqrama dəstək olaraq ölkəmizdə hələ 15 sentyabr 2006-cı il tarixli 2011 nömrəli qərarla ana və uşaqların salamlığının qorunması üzrə dövlət proqramı hazırlanmış və uğurla həyata keçirilmişdir. Sonrakı illərdə isə bu tədbir ölkə Prezidentinin 13 iyun 2014-cü il tarixli Sərəncamı ilə «Ana və uşaqların sağlamlığının yaxşılaşdırılması sahəsində 2014-2020-ci illərə dair Dövlət Proqramı»nın təsdiq edilməsi ilə davam etdirilmişdir.

Ana və uşaqların sağlamlığının və rifahının yoxsulluqla sıx şəkildə bağlı olması nəzərə alınaraq, AR Prezidentinin 15 sentyabr 2008-ci il tarixli 343 nömrəli sərəncamı ilə «2008-2015-ci illərdə AR-da yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» təsdiq edilmişdir [590]. Aparılan təhlillər zamanı aydın olmuşdur ki, çoxuşaqlı ailələrin və uşaqların yoxsulluq riski kifayət qədər yüksəkdir. Ailələrdə olan maddi çətinliklər nikahın pozulması, nikahsız yaşama, nikahdankənar doğuşun, erkən nikahların artmasına şərait yaradır. Təhsil, səhiyyə və sosial təminat sistemini təkmilləşdirmədən, bu problemləri həll etmək mümkün deyildir. Əhalinin sayında uşaq və gənclərin çoxluq təşkil etməsi, bu məsələyə xüsusi diqqət yetirilməsini tələb edir. Buna görə də ailələrin, uşaqların, yaşlı və xəstə şəxslərin, qaçqın və köçkünlərin yoxsulluq probleminin aradan qaldırılması və səmərəli sosial müdafiə sisteminin möhkəmləndirilməsi vacib hesab edilmişdir. Bu isə dövlət sosial yardımı və sosial müavinətlər sisteminin əsaslı surətdə təkmilləşdirilməsinə zərurət yaratmışdır. Ailə, qadın və uşaq hüquqlarının mühafizəsi və müdafiəsi sahəsində yüzlərlə normativ-hüquqi akt, qanun, təlimat, əsasnamə hazırlanıb qəbul edilmiş müvafiq orqanlar yaradılmışdır. Vətəndaş cəmiyyəti təşkilatlarının, bələdiyyələrin bu sahədə diqqəti artırılmış, onların fəaliyyətinə ictimai nəzarət gücləndirilmişdir. İctimai nəzarət, po-

lisin fəaliyyətinə cəmiyyət üzvlərinni cəlb edilməsi, qeyri-hökumət təşkilatlarının və bələdiyyələrin yerlərdə apardıqları sistemli işlər cəmiyyətdə razılıqla qarşılanmışdır. Qadınların öz ictimai fəallıqlarını ailəyə qurban verməsi ailənin iqtisadi vəziyyətinə mənfi təsir edə bilər. Bununla yanaşı qadının yüksək ictimai fəallığı ölkədə doğum səviyyəsinin aşağı düşməsinə əhəmiyyətli təsir göstərir [590]. Buna görə də Dövlət Proqramı haqlı olaraq müəyyən etmişdir ki, ailə siyasətinin gücləndirilməsi, şəhər və kənd yerlərində yaşayan ailələrin yaşayış səviyyəsi arasındakı fərqin aradan qaldırılması, aylıq gəlirlərin yüksəldilməsi, ev təsərrüfatlarının və ailə sahibkarlığının inkişafı, ailə institutunun qorunmasının təmin edilməsi, ailədaxili münasibətlərin möhkəmləndirilməsi, məişət zorakılığının profilaktikası və onun mənfi nəticələrinin aradan qaldırılması, erkən nikahların qarşısının alınması və digər çoxsaylı problemlərin həlli vacib və önəmlidir. Bu da məsələyə kompleks yanaşma tələb edir [590]. Elə buna görə də ölkə əhalisinin sayında əhəmiyyətli yer tutan gənclərin 2013-2023-cü illərdə inkişaf stragetiyasının hazırlanıb həyata keçirilməsi vacib hesab edilmişdir. Gənc ailələrin iş və mənzil problemlərinin həlli önə çəkilmişdir. Bu da onunla əlaqədardır ki, mənzil problemi həll edilməyən gənc ailələrin uzunömürlülüyü və möhkəmliyi, eləcə də uşaqların və qadınların rifahının yüksək səviyyədə təmin edilməsi mümkünsüzdür. Təsadüfi deyil ki, 26 yanvar 2015-ci il tarixdə AR Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş «2015-2025-ci illər üçün Azərbaycan gənclərinin inkişaf Strategiyası» çox ciddi problemlərin uğurlu həllinə stimul vermişdir. Bu sənəd ölkədə gənclər siyasətinin məqsədlərini, vəzifələrini və icra mexanizmlərini tam müəyyən etmişdir. Bu da AR Prezidentinin 1999-cu il 9 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası», 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)», 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə AR-da yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı», 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqra-

mı», 2011-ci il 15 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» və digər kompleks tədbirlərlə sıx bağlıdır. Bu sahədə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası əhəmiyyətli rol oynamışdır. Problemlərin həlli «Məşğulluq haqqında» AR-nın Qanununun daha da təkmilləşdirilməsini, Avropa Sosial Təminat Məcəlləsinin ratifikasiyasının təmin olunmasını və ondan irəli gələn vəzifələrin həllinə zərurət yaratmışdır. Bu da ölkə prezidentinin 15 noyabr 2011-ci il tarixli Sərəncamı ilə «Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı»nın hazırlanıb uğurla həyata keçirilməsinə səbəb olmuşdur.

AR-nın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin beynəlxalq və regional təşkilatlarla keçirdiyi sistemli tədbirlər, dövlət proqramları, sosioloji sorğular, təhlillər, müzakirələr və konfranslar ölkədə ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə böyük stimul vermiş və səfərbəredici əhəmiyyət kəsb etmişdir. Belə ki Komitənin beynəlxalq və regional təşkilatlarla birlikdə keçirdiyi tədbirlərə həsr olunmuş «Müasir Azərbaycanda nikah və ailə institutu: sosioloji təhlil», «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın Azərbaycanda həyata keçirilməsi haqqında» II və III dövr Hesabatı, «Azərbaycanda küçə uşaqlarının vəziyyətinin təhlili», «Erkən nikahlar: uşaq hüquqlarının pozulması», «İnsan alverinə qarşı mübarizə üzrə hakimlər və prokurorlar üçün təlimat kitabı», «Azərbaycan: qanunla ziddiyyətlərdə olan uşaqların durumu», «Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyyələrinin icra vəziyyətinin qiymətləndirilməsi», «Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı» ailə zorakılığına və ümumiyyətlə ailənin problemlərinə həsr olunmuş çoxsaylı tədbirlər mühim əhəmiyyət kəsb etmiş və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir [62; 64; 125; 244].

Ölkəmiz uşaqların hüquq və azadlıqları ilə bağlı, nikahdan kənar doğulan uşaqların hüquqi statusu haqqında, ölkələrarası övladlığa

götürmə haqqında, uşaq alverinə [371, s.77-85], uşaq fahişəliyinə, uşaq pornoqrafiyasına, uşaqların silahlı münaqişələrə cəlb edilməsi haqqında, uşaq əməyinin mühafizəsi haqqında və onlarla digər beynəlxalq hüquqi sənədlər AR-da ratifikasiya edilmiş və buna müvafiq olan milli hüquq normaları yaradılmışdır. «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 4 noyabr 1950-ci il tarixli Avropa Konvensiyasında mükəmməl sistem nəzərdə tutulmuşdur. Bu sənəddə insan hüquqları və azadlıqları ilə yanaşı, şəxsi və ailə həyatına hörmət hüququ, insan hüquqlarına hörmət olunması öhdəliyi, ayrı-seçkiliyin qadağan olunması, hüquqlarla bağlı məhdudlaşdırmadan istifadə həddlərinin müəyyən edilməsi kimi normalar Konvensiyanın 4, 6, 7, 12 saylı Protokollarında, ailə mülkiyyətinin müdafiəsi, borca görə azadlıqdan məhrum etmənin yolverilməzliyi, vətəndaşların ölkədən məcburi çıxarmanın qadağan olunması, cinayət işləri üzrə şikayət vermək, məhkəmə səhvlərinə görə konpensasiya almaq, iki dəfə məhkum edilməmək və cəzalandırılmamaq kimi hüquqları da nəzərdə tutulmuşdur. Avropa Sosial Xartiyası işləyən qadınların müdafiəsi, peşə yönümü, peşə hazırlığı, sağlamlığın müdafiəsi, sosial və tibbi yardım almaq, sosial xidmətdən faydalanmaq, ailənin, anaların və uşaqların sosial və iqtisadi hüquqlarının müdafiəsi, əməkçi miqrantların ailələrinin müdafiəsi və onlara kömək göstərilməsi, əmək şəraitinin müəyyən edilməsi və yaxşılaşdırılması, ahıl yaşlı şəxslərin sosial müdafiə hüquqlarını təsbit etmişdir [121; 122]. Bütün bunlarla yanaşı Avropanın bir sıra ölkələrində, eyni zamanda sosial sığorta, ailə vəziyyətinə görə əmək münasibətlərində qorunma, yaşlıların hüquqları, istədiyi peşəni seçmə və işə girmə, incəsənət və elmi araşdırma azadlığı, şəxsin maddi və mənəvi bütövlüyü, ombudsmana müraciət etmək hüququ [602], cəzanın cinayət əməlinə mütənasibliyi, səyahət və yerləşmə azadlığı, yaxşı idarə olunma hüququ, bələdiyyələri seçmə və seçilmə hüququ və s. bu kimi hüquqlar və azadlıqlar nəzərdə tutulmuşdur [121; 122]. Ailənin hüquq və azadlıqlarının beynəlxalq, regional və milli hüquq normalarında təsbiti, ifadəsi, icrası, müəyyən oxşar və fərqli cəhətləri ilə seçilsə də, lakin əsas diqqət ailənin insan birliyi kimi mükəmməl hüquqlara və azadlıqlara

sahib olmasına, ailə və ailə üzvlərinin xoşbəxtliklərinin təmin olunmasına xidmət edir [121; 122].

AR-nın Ailə Məcəlləsində yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarının və mənafelərinin müdafiəsini təmin etmək (mad.2), ailədə uşaqların ictimai tərbiyəsi ilə üzvi surətdə əlaqədar olan Vətənə sədaqət və məhəbbət ruhunda tərbiyə etmək (mad.3.0.3), ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatını təmin etmək (mad.3.0.4), ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması (mad.3.0.5), uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə etmək (mad.3.0.6) [73, s.4-9] və digər bu kimi hüquqları və vəzifələri nəzərdə tutmuşdur. Beynəlxalq hüquq normalarında ailənin azad sahibkarlıq, vətəndaşlıq, milli mənsubiyyət, ana dilindən istifadə, müraciət etmək, təhsil, mədəniyyət, birləşmək, tətil, bərabərlik, hüquqi yardım almaq, hüquq və azadlıqların məhkəmə təminatı, vicdan azadlığı, qanunazidd hərəkətlərin icrasına yol verilməməsi, ətraf mühitin qorunması, dövlət rəmzlərinə hörmət edilməsi və digər bu kimi hüquqlar və azadlıqlar tətbiq edilmişdir. Göründüyü kimi ailənin hər bir üzvünün hüquqları, azadlıqları və vəzifələri istər beynəlxalq hüquq normalarında, istərsə də milli konstitusiyada geniş şəkildə təsbit edildiyi halda, bir institut, bir insan birliyi, bir hüquq subyekti olaraq ailənin hüquqları və vəzifələri indiyə kimi konkret müəyyən edilməmişdir. Buna görə də bu boşluğun aradan qaldırılması vacibdir. Çünki belə bir qanun qəbul edilmədən, ailənin statusu müəyyən edilmədən, ailənin hüquqları və azadlıqlarından danışmaq lüzumsuz görünür.

Beləliklə, yuxarıda göstərilən təhlilləri və şərhləri yekunlaşdıraraq hesab edirəm ki, AR-nın Ailə Məcəlləsinə aşağıdakı məzmunda «6 a» maddəsi əlavə edilməlidir .

«Maddə 6 a. Ailənin hüquqları, azadlıqları və vəzifələri

Qadının və kişinin ailə qurmaq məqsədilə yaratdıqları ailə - insan birliyi və ittifaq olaraq ailənin azadlıq hüququ, mülkiyyət hüququ, bərabərlik hüququ, hüquq və azadlıqların məhkəmə təminatı hüququ, birləşmək hüququ, siyasi sığınacaq hüququ, azad sahibkarlıq hüququ, yaşayış yeri seçmək hüququ, aclıqdan qorunmaq hüququ, öl-

kəni tərk etmək hüququ, sosial sığorta hüququ, şəxsi və mənzil toxunulmazlığı hüququ, istirahət hüququ, ailəni qorumaq və təhlükəsiz yaşamaq hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, təhsil hüququ, internetdən və informasiya texnologiyalarından istifadə etmək hüququ, sağlamlığı qorumaq hüququ, mənzil hüququ, övlada sahib olmaq hüququ, ailənin şərəf və ləyaqətinin müdafiə etmək hüququ, ailə üzvlərin birinin digərinə - özünə, arvadına (ərinə), yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi, uşaqların qayğısına qalmaq, onları sağlam böyütmək, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etmək, müstəqil həyata hazırlamaq, ailə tərbiyəsinə üstünlük vermək, onların rifahına və inkişafına qayğı göstərmək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarının və mənafelərinin müdafiəsini təmin etmək, uşaqları Vətənə sədaqət və məhəbbət ruhunda tərbiyə etmək, ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi, hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi, ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi, ailə üzvləri olan valideynlərin öz uşaqlarını saxlamaq borcu, valideynlər, həmçinin əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamaq, yetkinlik yaşına çatmış övladların maddi yardıma ehtiyacı olan, əmək qabiliyyəti olmayan valideynlərini saxlamaq, onlara qayğı göstərmək, hər bir ailə üzvünün öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və ümumiyyətlə digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmağa haqlı hesab edilməyən hüquqları, azadlıqları və vəzifələri vardır. Ailə dövlətin xüsusi himayəsindədir, ailə hüquqlarının, azadlıqlarının və vəzifələrinin qorunmasına dövlət nəzarət edir». Ailənin hüquqlarının, azadlıqlarının və vəzifələrinin icrasına dövlət nəzarəti Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir. Bununla belə bu Komitənin hüquq və səlahiyyətlərinin, xüsusilə yerlərdə ailənin, qadının və uşaqların hüquqlarının icrasına nəzarət səlahiyyətləri genişləndirilməli, onun adı «Azərbaycan Res-

publikasının Ailə Problemləri üzrə Dövlət Komitəsi» kimi adlandırılması zəruridir. AR Prezidentinin 23 may 2007-ci il tarixli 2198 saylı Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası» Azərbaycan xalqının mədəni tarixi irsinin və mənəvi dəyərlərinin qorunmasını, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsini, dilinin, özünüdərkinin, vətənpərvərliyinin və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsini ölkənin milli maraqlarına daxil etmişdir [268, s.9].

AR Konstitusiyasından sonra ailə və ailə münasibətləri ən mükəmməl olaraq AR-nın Ailə Məcəlləsi ilə tənzim edilir [73, s.5]. Lakin bu Məcəllədə əsassız boşanmaların qarşısını almaq, ailənin və uşaqların sosial rifahını yüksəltmək, ailə idarəçiliyində ananın və atanın rolunu konkretləşdirmək istiqamətində dəyişikliklərin aparılmasına hazırda böyük zərurət yaranmışdır. Ölkəmiz uşaqların hüquq və azadlıqları ilə bağlı, nikahdan kənar doğulan uşaqların hüquqi statusu haqqında, ölkələrarası övladlığa götürmə haqqında, uşaq alverinə, uşaq fahişəliyinə, uşaq pornoqrafiyasına, uşaqların silahlı münaqişələrə cəlb edilməsi haqqında, uşaq əməyinin mühafizəsi haqqında və onlarla digər beynəlxalq hüquqi sənədlər AR-da ratifikasiya edilmiş və buna müvafiq olan milli hüquq normaları yaradılmış və qanunlar qəbul edilmişdir. AR-nın Milli Məclisi «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında» Əsasnaməni 31 may 2002-ci il tarixli Qanunla təsdiq etmişdir. 24 may 2005-ci il tarixdə «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanun qəbul edilmişdir. «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» 30 avqust 1999-cu il tarixli Qanunun qəbul edilməsi uşaqlar haqqında Konstitusiya normalarının həyata keçirilməsi üçün mühim əhəmiyyətə malik olmuşdur. Buna baxmayaraq Ailə Məcəlləsində ailənin idarə olunmasında tərəflərin – ərin və arvadın hüquqları, vəzifələri və öhdəlikləri konkretləşdirilməmiş, ailə və ailə münasibətləri ilə bağlı olan və xüsusi bilik tələb edən terminlərin definisiyası verilməmişdir. Ailədaxili zorakılıq ildən-ilə artmasına baxmayaraq, onun konstitusion təminatları

konkret müəyyənləşdirilməmişdir. Bütün göstərilənlər AR Konstitusiyasında və Ailə Məcəlləsində zamanın tələblərindən irəli gələrək müvafiq dəyişiklilərinn aparılması vacibdir [73, s.3-7].

Ailə münasibətlərində, ər və arvad arasında yaranan hər hansı ziddiyyət və mübahisə zəminində çox vaxt emosiyaların təsiri altında tərəflərdən birinin boşanma haqqında məhkəmədə qaldırdığı iddialara qısa müddətdə baxılması və boşanmanın reallaşdırılması təcrübəsi ikrah hissi doğurur. Təcrübə belə təəsürat yaradır ki, tarixi ənənələrdən fərqli olaraq, bu gün sanki məhkəmələrimiz o qədər də dərin olmayan zahiri səbəblər üzündən ailə boşanmalarına necə deyərlər «yaşıl işıq» yandırmaqdadır. Ailə zorakılığı zəminində qaldırılmış iddialar əsasında tərəflərin barışmasına təşəbbüslər göstərilmir, ağsaqqalların nüfuzundan, dostların köməyindən və başqa ənənəvi üsullardan sona qədər istifadə etmirlər. Barışıq imkanları tükənmədiyi halda, məhkəmələr ailə boşanmalarına münbit şərait yaradırlar. Bəzən buna insan hüquqları prizmasından yanaşan məhkəmələrimiz, nəzərə almırlar ki, cüzi səbəblər üzündən ailələrin boşanması cəmiyyətə, uşaqlara ciddi zərər vurur. Uşaqlar başsız qalır, əxlaqsızlıq və mənəvi tərbiyə sahəsində yol verilən qanun pozuntuları gündən-günə artır [319, s.80-85; 391, s.73-76; 488, s.56-67; 493; 496, s.101-108; 509, s.92-93; 512, s.47-57; 535, s.18-32; 536, s.97-101]. Cəmiyyətin də bu ciddi problemə reaksiyası laqeydliklə müşayət olunur. Qadının və uşağın gələcək taleyi, inkişafı təhlükə altında olduğu hallarda, o cümlədən onların mənzil, maddi rifah, təhsil və tərbiyə məsələləri həll edilmədən, kişinin təşəbbüsü ilə boşanmaların qanunvericilik yolu ilə məhdudlaşdırılması üçün müvafiq tədbirlərin görülməsi zəruridir. Bu da AR-nın Mülki Prosessual və Ailə Məcəllələrində müvafiq dəyişikliklərin aparılmasına zərurət yaradır. AR Konstitusiya Məhkəməsi Plenumunun son qərarlarından biri olan «Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsinin şərh edilməsinə dair» 2015-ci il 16 oktyabr tarixli Qərarında ailə institutunun tarixən vətəndaş cəmiyyətinin əsas təsisatlarından biri kimi insani dəyərlərin, mədəniyyət və nəsillərin tarixi varisliyinin qoruyucusu, sabitlik və yüksəliş təməli sayılmasını vurğulayaraq qeyd etmişdir ki, ailə hər bir sivil cəmiyyə-

tin əsasını təşkil edən, insanlığın ən ali, ülvi və saf duyğularını, nəcib niyyətlərini özündə təcəssüm etdirən ittifaq kimi çox dəyərli və əhəmiyyətlidir. Ailə, əxlaq, mənəviyyat kimi dəyərləri uca tutan insan birliyidir. Ailə institutuna dövlətin verdiyi dəyərin nəticəsidir ki, ailənin qurulmasının əsasını təşkil edən nikah, Konstitusiyada təsbit edilmişdir. Konstitusiyanın və ailə qanunvericiliyinin müvafiq normalarını təhlil edərək Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, nikahın könüllülüyü, nikaha daxil olan şəxslərin iradə ifadəsinin sərbəstliyi, ailənin möhkəmləndirilməsi zərurəti, ər və arvadın hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunması və onların bu hüquqlarının məhkəmədə müdafiəsi imkanları, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması və s. prinsiplər nikahın bütün mərhələlərini (nikaha daxil olma, nikahda olma və nikaha xitam verilməsini) əhatə etməlidir. Konstitusiya Məhkəməsinin Plenumu Ailə Məcəlləsinin 15-ci maddəsinin arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ərin nikaha xitam verilməsi barədə iddia qaldıra bilməməsi barədə tələbinin uşağın ölü doğulduğu, yaxud 1 yaşı tamam olanadək öldüyü hallara şamil edilib-edilməməsi ilə əlaqədar belə qənaətə gəlmişdir ki, məhkəmə təcrübəsində fikir ayrılığına səbəb olan qanunun bu məhdudlaşdırıcı göstərişi ailənin tamlığına, ana və uşağın hüquqlarının qorunmasına xidmət etməklə qadının müəyyən zaman kəsiyində, yəni hamiləlik və uşağın doğulmasından sonrakı dövrdə nəinki qəbuledilləndir, eyni zamanda, analığa verilən yüksək insani dəyərdir. Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, qanunun mənasına görə, arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ərin nikaha xitam verilməsi barədə iddia qaldırmasına məhdudiyyətin qoyulması yalnız doğum faktı ilə şərtləndirilir və normanın «doğulduqdan sonra» ifadəsi, doğum faktından 1 il müddət keçməsini nəzərdə tutur [63]. Bununla belə hesab edirik ki, bu müddət çox azdır və ailənin öz imkanlarının bərpası üçün kifayət deyildir. Buna görə də Ailə Məcəlləsinin 15-ci maddəsinə dair təklifimiz daha uğurlu hesab olunmalıdır (bax: təklif 24). AR Konstitusiyasının 25-ci

maddəsində kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğu təsbit edilmişdir. Konstitusiyanın 34-cü maddəsi ər ilə arvadın hüquqlarının bərabərliyini müəyyən etmişdir. AR Ailə Məcəlləsinin 2-ci maddəsi ər və arvadın hüquq bərabərliyini nəzərdə tutmuşdur. AR Ailə Məcəlləsinin 29-cu maddəsi ər və arvadın hüquq bərabərliyini bir qədər də konkretləşdirərək, ərin və arvadın ailə münasibətlərində hüququnun bərabər olduğunu təsbit etmişdir. Bu baxımdan hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi beynəlxalq və konstitusiya hüququnun mühim prinsipi olsa da, lakin yuxarıda göstərilən bərabərlik prinsipi bir qədər fərqli səciyyə daşıyır. İnsanların hüquq və azadlıqlarının bərabərliyi prinsipi insan hüquqlarının beynəlxalq standartlarının tərkib hissəsini təşkil edir. Bundan fərqli olaraq ailə münasibətlərində ərin və arvadın, kişinin və qadının hüquq bərabərliyi Ailə Məcəlləsinin 29-cu maddəsində bərabər şəxsi və əmlak hüquqlarına malik olmaq hüququndan irəli gəlir. Həmin Məcəllənin 29.3 maddəsində göstərilir ki, ər və arvad özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddırlar. Belə yanaşma ailənin subyektləri olan ərin və arvadın hüquq bərabərliyinin real təminatının ifadəsi kimi təcəssüm olunsa da, lakin ailə münasibətlərində bu bərabərliyi real olaraq gözləmək, təcrübədə müəyyən çətinliklərlə bağlıdır. Belə ki, Ailə Məcəlləsinin 2.2 maddəsinin məzmununa və məntiqinə görə ailə daxili məsələlər, ailə üzvü olan ərin və arvadın qarşılıqlı razılığı əsasında həll olunmalıdır. Təcrübədə isə ər və arvadın özünə məşğuliyyət, sənət və ya yaşayış yeri seçməsi hüququnun ideal olaraq reallaşdırılmasını və ailə üzvləri arasında qarşılıqlı razılığın əldə olunmasını, heç də həmişə uğurla həll etmək mümkün olmur. Bir sıra boşanmalarda bu motivlə yaranan ziddiyyətlər gələcəkdə ailələrin dağılmasının mühim səbəbi kimi özünü göstərir. Bəzən ailənin hər hansı bir üzvünün özünə məşğuliyyət, sənət və yaşayış yeri seçmək azadlığının, başqa sözlə ailənin bir üzvünün seçim hüququnun reallaşması və ya ailənin digər üzvünün seçimini öz istəyinə uyğun olaraq dəyişdirməsi, fərdin azadlıq hüququnun pozulmasına gətirib çıxarır. Bu məsələ daha çox yaşayış yeri seçmək hüququnun reallaşdırılmasında özünü göstərir. Aparılan sosioloji sorğular və ümu-

miləşdirmələr təsdiq edir ki, ailə böhranının, o cümlədən boşanmaların səbəbləri sırasında, ailənin bütövlüyünün və möhkəmliyinin təmin olunmaması, ərin və arvadın bir mənzildə, bir evdə ailə üzvləri ilə birlikdə yaşamaması, ərin bir, ana və uşaqların isə başqa ünvanlarda yaşaması, ümumi problemlərin birgə həllinin subyektiv mülahizələr əsasında həll edilməsi, ailədə narazılığa, ziddiyyətə və qısqanclığa səbəb olur. Nəticədə ailənin ümumi problemləri, uşaqların tərbiyəsi, ər-arvadın birgə səyi ilə deyil, daha çox fərdi qaydada ana tərəfindən həll edilir. Bu isə ailənin bütövlüyünün pozulmasına gətirib çıxarır. Ailə qanunvericiliyi ərin və arvadın müxtəlif məsələlərdə seçim azadlığını nəzərdə tutsa da, başqa normalar, o cümlədən uşaqların mənafeyi və ailənin bütövlüyünün qorunmasına həsr olunmuş bir sıra maddələrin tələbləri faktiki olaraq gözlənilmir. Ailə Məcəlləsinin 49.2 maddəsinə əsasən, hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından bəhrələnmək, onlarla birgə yaşamaq hüququna malikdirlər. Həmin Məcəllənin 60.3 maddəsi isə uşaqların tərbiyəsinə və təhsilinə aid olan bütün məsələlər, uşaqların hüquqları və mənafeləri, onların rəyi nəzərə alınmaqla valideynlərin qarşılıqlı razılığı əsasında həll olunması qaydasını nəzərdə tutmuşdur. Ailə Məcəlləsinin 6.2-ci maddəsində göstərilir ki, ailənin bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən, ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır.

Ailə üzvlərinin məşğuliyyət, sənət və yaşayış yeri seçmək hüquqlarının və azadlıqlarının həllində isə birgə razılığın əldə edilməsi, hüquqi mexanizmləri və həlli qaydasının qanunvericilik yolu ilə tənzimlənməsi ailənin və xüsusilə uşaqların mənafeyi üçün olduqca zəruridir.

Azərbaycan SSR-nin 1 aprel 1970-ci ildən qüvvəyə minmiş, keçmiş Nikah və Ailə Məcəlləsinin bir sıra normaları ailə üzvlərinin bir yerdə, birlikdə yaşamasını, ümumi təsərrüfatı birgə idarə etməsini, uşağın birlikdə tərbiyə olunmasını və saxlanılmasını (maddə 57) zəruri hesab etdiyi halda, yeni Ailə Məcəlləsində ailəyə qarşı belə tələblər və şərtlər irəli sürülməmişdir. Halbuki yeni Ailə Məcəlləsinin

1-ci maddəsində ailə qanunvericiliyi və onun əsasları sırasında ailənin möhkəmləndirilməsinin zəruriliyi önə çəkilmiş və vacib hesab edilmişdir. Ailənin və ailə üzvlərinin bir yerdə, bir mənzildə, bir evdə yaşamadığı, ümumi ailə təsərrüfatını birlikdə idarə edilmədiyi, uşaqların tərbiyyəsini birgə həyata keçirmədiyi və onları birgə saxlanmadığı halda, ailənin bütövlüyünü və uzun ömürlülüyünü qorumaq və möhkəmləndirmək kifayət qədər çətindir. Boşanmaların və ailə dağılmalarının mühim səbəblərindən biri də məhz elə budur. Məsələn, Almaniya Mülki Məcəlləsinin 1567 §-da boşanma barədə iddia qaldıran tərəf, eyni zamanda ər və arvadın ən azı bir il ayrılıqda yaşadığını sübut etməsələr, məhkəmələr qaldırılan iddianı təmin edə bilməzlər [207, s.27-29]. Bütün bunlar onu göstərir ki, nikah münasibətində olan ərin və arvadın ailədə, bir yerdə yaşaması, ailənin daim möhkəmləndirilməsi zəruriliyi üçün çox vacibdir. Əgər ailə üzvlərinin - ərin və ya arvadın məşğuliyyəti, iş yeri, sənət və ya məşğuliyyət seçmək sahəsində razılığı qarşılıqlı güzəşt əsasında həll etmək mümkündürsə, ərin və arvadın fərqli yaşayış yeri, yaşayış mənzili və ya evi seçməsi yolverilməzdir. Bu gələcəkdə ailənin dağılması və uşaqların tərbiyə funksiyasının birlikdə yerinə yetirilməsi hüququnun pozulmasına gətirib çıxara bilər. Bütün bunlar nəzərə alınaraq Ailə Məcəlləsinin 1.3-cü maddəsində, «zəruriliyindən» sözündən sonra «valideynlərin və uşaqların bir yerdə yaşamaq hüququnun təmin olunması» söz birləşməsinin əlavə edilməsini təklif edirik. Hesab edirik ki, bu nəzəri və təcrübi baxımdan olduqca vacibdir.

Müasir AR-nın başqa dövlətlərlə əlaqələrinin və əməkdaşlığının gündən-günə artması və genişlənməsi halları müşahidə edilir. Elə bu baxımdan da qarışıq ailələrin artması və çoxalması təbii hal kimi qəbul edilməlidir. Bununla yanaşı müxtəlif tənzimləmə məsələlərində beynəlxalq hüquq normalarının üstünlüyünün tanınmasının, sahə qanunvericilik aktlarında da nəzərə alınması labüddür. Lakin təcrübədə ailə və ailə münasibətlərində müxtəlif ölkələrin qanunvericilik aktları ilə AR-nın qanunvericilik aktları arasında fərqli hallara rast gəlinir. Bu eyni ilə beynəlxalq hüquq normalarına da şamil edilə bilər. Lakin AR Konstitusiyasının 151-ci maddəsi beynəlxalq aktların

hüquqi qüvvəsinin üstünlüyün tanıyır [85, s.65]. Bütün bu hallar nəzərə alınaraq AR Ailə Məcəlləsinin birinci fəslinə aşağıdakı məzmunda «5a» maddəsinin əlavə edilməsini təklif edirəm:

«Maddə 5a. Əgər Azərbaycan Respublikasının ailə qanunvericiliyi ilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydalar arasında fərqli hallar aşkar edilərsə, bu zaman beynəlxalq müqavilələrdə müəyyən edilmiş qaydalar tətbiq edilir».

Bundan başqa Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr hüquq sistemimizin tərkib hissəsi olduğundan və onların üstünlüyü tanındığından, Ailə Məcəlləsinin 1.1 maddəsində «ibarətdir» sözündən sonra aşağıdakı məzmunlu mətnin əlavə edilməsi təklif edilir:

«Belə beynəlxalq müqavilələr, məzmunu dəyişdirilmədən, müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilmək yolu ilə inkorporasiya edilir».

Hesab edirik ki, bu iki dəyişiklik Ailə Məcəlləsində mühim əhəmiyyət kəsb edən və AR-nın Konstitusiyasından irəli gələn beynəlxalq hüququn üstünlüyünün tanınması prinsipinə tamamilə uyğundur.

Beləliklə, aparılan tədqiqatlar və müqayisələr ailə institutunun, onun statusunun, ailə üzvlərinin hüquqlarının və azadlıqlarının etibarlı qorunmasını təmin etmək üçün Konstitusiyanın müvafiq normasının təkmilləşdirilməsinə zərurət yaradır. AR Konstitusiyasının təkmilləşdirilməsi məqsədilə verdiyimiz təkliflərin qəbul edilməsi Ailə Məcəlləsinin ayrı-ayrı normalarının və digər əlaqədar normativ-hüquqi aktların da təkmilləşdirilməsinə səbəb olacaqdır. Bu isə cəmiyyətin və dövlətin təməlində dayanan ailə instititunun və ailə üzvlərinin hüquqlarının və vəzifələrinin Konstitusiya tənzimlənməsinə böyük töhfə verəcəkdir. Azərbaycan dövlətinin ailə siyasəti Azərbaycan Hökumətinin daim diqqət mərkəzindədir. Bu baxımdan ölkə prezidenti cənab İlham Əliyev qeyd edir ki, güclü ailə – güclü dövlətdir. Məhz güclü və sağlam ailələr dövlətin əsasını təşkil edirlər. Ailənin inkişafı və sosial təminatı, qadın və uşaq hüquqlarının müdafiəsi

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında prioritet kimi nəzərdə tutulmuşdur. Həmin sənədin 7.4-cü maddəsində göstərilir: «Ölkədə gender bərabərliyinin təmin edilməsi məsələsi diqqət mərkəzində saxlanılacaq və onun həlli istiqamətində müvafiq tədbirlər gerçəkləşdiriləcəkdir. Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilməsi, rəhbər vəzifə tutmaq imkanlarının genişləndirilməsi kimi işlərə diqqət artırılacaqdır. Ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, Beynəlxalq Əmək Təşkilatının ratifikasiya olunmuş «Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya»sına uyğun olaraq, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması, uşaq bağçalarının sayının artırılması, ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi dəstəklənəcəkdir. Qeyd edilən istiqamətlərin reallaşdırılması üçün bir sıra sənədlər qəbul ediləcəkdir. Bununla bağlı «Azərbaycan ailəsi Strategiyası»nın, «Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı»nın, «Uşaq Məcəlləsi»nin və «Milli Uşaq Strategiyası»nın hazırlanması sahəsində səmərəli tədbirlər həyata keçirilmiş «Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli sərəncamı ilə» «Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası»təsdiq edilmiş və fəaliyyət planı hazırlanmışdır. Mütəxəssislər hesab edirlər ki, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzlərinin və sığınacaqların, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sisteminin yaradılması da çox vacibdir [601].

Müstəqillik illərində Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və ISESCO-nun xoşməramlı səfiri, respublikanın Birinci Vitse-preezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən ailə problemlərinin həlli istiqamətində önəmli layihələrin uğurla həyata keçirilməsini fərəhlə qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan, ailələrimizin rifahına yönəlmiş böyük layihələr Azərbaycanın ailə dəyərlərinin qorunub saxlanmasında və inkişafında mühim əhəmiyyət daşıyır [185].

Müstəqillik illərində ailənin, qadının, uşağın, gənclərin inkişafı, tərəqqisi, onların hüquq və azadlıqlarının genişləndirilməsi sahəsində əhəmiyyətli tədbirlər görülmüşdür. Bu baxımdan «2008-2015-ci illərdə AR-da yoxsulluğun azaldılması və davamlı insan inkişafına dair» Dövlət Proqramında, AR-da «Elmin inkişafı üzrə 2009-2015-ci illər üzrə Milli Strategiya» və Dövlət Proqramında, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasının təsdiq olunması haqqında» Dövlət Proqramında, «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün» Milli Fəaliyyət Planı»nda, «Gender bərabərliyi üzrə Milli Fəaliyyət Proqramı»nda, «Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası»nda, «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nda, habelə hazırda üzərində iş gedən ailə və uşaq strategiyalarına dair sənədlərdə ailə və uşaq problemlərinin, ailə və nikah institutunun öyrənilməsi, kompleks tədqiqi və təkmilləşdirilməsi sahəsində elmi tədqiqatlara diqqətin artırılması prioritet istiqamətlər kimi nəzərdə tutulmuş və bu sahədə əhəmiyyətli, ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir [582].

Müasir dövrdə beynəlxalq və milli hüquq elmi tərəfindən ailə institutunun kompleks elmi-nəzəri tədqiqi və təkmilləşdirilməsi sahəsində vaxtaşırı olaraq tədbirlər görülməkdədir. Buna görə də ailənin statusu və ailə münasibətlərinin konstitusion hüquqi tənzimlənməsi sahəsində kompleks araşdırmaların aparılması dövlət siyasətinin tərkib hissəsini təşkil edir [30; 67; 83; 132; 136; 143; 148; 152; 157; 160; 164; 187; 202; 213; 221; 223; 227; 244; 246; 258; 261; 272; 274; 312; 315; 395; 430; 492; 563]. Belə tədqiqatların beynəlxalq hüquqla müqayisəli şəkildə aparılması metodlarından istifadə edilməsi səmərəli nəticələr verir. Son illər Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi beynəlxalq təşkilatlarla birlikdə ailə, qadın və uşaq problemlərinin öyrənilməsinə, onun problemlərinin həllinə və ailənin inkişafına, sosial təminatlarına xüsusi önəm verməkdədir.Eləcə də təhlil boyu qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının Ailə Məcəlləsi 28 dekabr 1999-cu ildə qəbul edilməklə ailə münasibətlərinin yaranmasının və möhkəmləndirilməsinin, onlara xitam ve-

rilməsinin prinsiplərinin, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı qaydalarını tənzimləyən normaları müəyyən etməklə onun qəbulundan iyirmi ildən çox bir müddət keçmiş, ölkəmiz ailə və ailə münasibətləri ilə bağlı zəruri beynəlxalq konvensiyalara qoşulmuş, çox saylı Normativ-hüquqi aktlar qəbul etmişdir. Təhlil boyu bir sıra təkliflər irəli sürülmüşdür ki, bunlarında Məcəlləyə daxil edilməsi zəruridir. Buna görə də yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının yeni Ailə Məcəlləsinin lahiyəsi hazırlanıb, müzakirə olunub qəbul edilməsi üçün Milli Məclisə təqdim edilməsi təklif edilir. Eləcə də ailə məhkəmələrinin yaradılması, aliment fondunun təsis edilməsi və digər bu kimi məsələlərdə həll edilməlidir.

Ailə və nikahın konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli təhlili və tədqiqi göstərir ki, BMT-nin ailəyə dair Konvensiyasının qəbul edilməsi mühim əhəmiyyət kəsb edir. Eləcə də ailə və ailə münasibətləri ilə əlaqədar olaraq bir çox terminlərə anlayış verilməsi, AR-nın Konstitusiyasında ailənin və nikahın hüquqi statusunun müəyyən edilməsi, ailə və ailə münasibətləri ilə bağlı olan terminlərə aydınlıq gətirilməsi vacib və əhəmiyyətlidir. Beləliklə, ailə institutunun konstitusiya və beynəlxalq hüquqi statusunun təkmilləşdirilməsinə dair təkliflərin hesab edirik ki, təcrübədə böyük uğurlara səbəb olacaq, ölkəmizdə ailə institutunun cəmiyyətin və dövlətin inkişafına dəyərli töhfələr verilməsini təmin edəcəkdir.

# NƏTİCƏ

«Ailəlogiya» problemlərinin elmi-nəzəri təhlilinə və tədqiqinə həsr olunmuş monoqrafiya müasir elm tariximizdə ilk dəfə olaraq müraciət edilən mövzulardan biri olmaqla, müasir Azərbaycan cəmiyyəti, dövləti, ailəsi üçün mühim əhəmiyyət kəsb edəcəkdir. İşdə hüquq elmlərinin müxtəlif sahələrinin elmi müddəalarından istifadə etməklə yanaşı, insan və ailə ilə bağlı olan təbiət elmlərinin – biologiyanın, fiziologiyanın, genetikanın və psixologiyanın elmi nailiyyətlərindən kompleks şəkildə istifadə edilmişdir. Müstəqillik illərində qloballaşma prosesləri kontekstində, mühim sosial, siyasi, mədəni, hüquqi, iqtisadi əhəmiyyət kəsb edən, yeni və böyük elmi problemin – müasir ailə institutunun konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqi, Azərbaycan ailəsinin perespektiv inkişafı üçün böyük nailiyyət hesab edilən, yeni və elmi cəhətdən əsaslandırılmış aşağıdakı nəticələr çıxarılmışdır:

1. Azərbaycan Respublikasında müasir ailə – öz ictimai, siyasi, sosial və hüquqi əhəmiyyətinə, strukturuna, funksional parametrlərinə, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, sosiomədəni mühitə göstərdiyi fəal təsir effektlərinə, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanmasına, insanın, cəmiyyətin və dövlətin təşəkkülünə, bu günkü yüksək inkişafına əhəmiyyətli təsir göstərən fenomenal, sosiomədəni və hüquqi təsisatdır. İnsan nəslinin davamlı inkişafında və tərəqqisində, maddi nemətlər istehsalında, mədəniyyətin və sivilizasiyanın inkişafında, bəşəriyyətin tərəqqisində ailənin misilsiz rolu vardır. Cəmiyyət, dövlət və şəxsiyyət problemlərinin mərkəzində insan və insan birliyi olan ailə dayanır və o bütün problemlərin uğurlu həlli və inkişafı ilə sıx bağlıdır. Ölkəmizin dinamik inkişafı ailənin konstitusiyada təsbitinə tarixi zərurət yaratdı və elə buna görə də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyasında, eləcə də müstəqillik illərində referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında ailə institutunun hüquqi

statusu təsbit edildi. Sonrakı illərdə keçirilən referendumlarda ailənin hüquqi statusu və onun məzmunu daha da təkmilləşdirilmişdir. Bu gün ailə və nikah konstitusiyanın və konstitusiya hüquq elminin ən mühim və ən əhəmiyyətli institutlarından birinə çevrilmişdir. Buna görə də tədqiqat mövzusu konstitusiya hüquq elminin ən mühim, ən müasir və ən aktual problemlərindən biridir.

2. Müasir Azərbaycan ailəsinin statusunu təsbit edən konstitusiya və konstitusiya hüquq normaları öz tənzim etmə predmetinə, dəyərinə, əhəmiyyətinə, məzmununa, oxşarlığına, təkrarlanan, yekcins və bir tipli olması keyfiyyətlərinə görə konstitusiyanın və konstitusiya hüquq elminin müstəqil bir institutudur. Ailənin konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqi, nəticə etibarilə bu mövzunun son dərəcə aktual və müasir olduğunu şərtləndirmişdir. Daim dinamik inkişafda və təkamüldə olan ailənin elmi-nəzəri cəhətdən vaxtaşırı olaraq öyrənilməsi cəmiyyətdə ən əhəmiyyətli və ən aktual olan müasir problem kimi elm qarşısında duran prioritet vəzifələrdən biri hesab oluna bilər. Müstəqillik illərində referendum yolu ilə qəbul edilmiş Konstitusiyada ailənin, nikahın, ailə üzvlərinin - qadının, uşağın konstitusiya hüquqi statusu təsbit edilmişdir. Bu da ailəyə və onun strukturunda təmsil olunan üzvlərin – qadının və uşağın konstitusiya hüquqi statusunun tədqiqinə zərurət yaratmışdır. Mövzu araşdırılarkən konstitusiya hüququ, beynəlxalq hüquq, insan hüquqları, ailə hüququ, dövlət və hüquq nəzəriyyəsi və digər bu kimi hüquq elmlərinin, habelə sosiologiya, biologiya, etnoqrafiya elmlərinin son nailiyyətlərində yaradıcılıqla istifadə edilmişdir. İddiaçının ixtisasca hüquqşünas və hakim olması ailənin, qadının və uşağın konstitusiya hüquqi statusunun bioloji və psixoloji əsaslarının, onun mahiyyətinin, məzmununun və dəyərinin əsas və başlıca elementlərinin müəyyən edilməsinə imkan yaratmışdır. Bu da tədqiqatın kompleksliliyini və bütövlüyünü təmin etmişdir.

3. Ailənin hüquqi statusunu təsbit etmiş müstəqil AR-nın yeni Konstitusiyası xalqın iradəsinin ümumxalq referendumu yolu ilə ifadəsi və təcəssümü olmaqla, ən yüksək legitimliyi ilə fərqlənir. Konstitusiya xalqın, millətin və dövlətin suverenliyinin iradə ifadəsinin

forması olmaqla, ali hüquqi qüvvəyə malikdir. O qanunvericilik sisteminin əsasında və ən yüksək pilləsində dayanır, digər normativ-hüquqi aktların hazırlanması və qəbulu üçün baza rolu oynayır və qanunların konstitusiyaya müvafiq olmasını tələb edir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab olunur və buna görə də onların inkorporasiya yolu ilə toplularda birləşdirilməsi zəruri hesab edilir. Konstitusiyaya dəyişikliklər və əlavələr yalnız xüsusi qaydalar əsasında həyata keçirilə bilər. Belə mükəmməl və beynəlxalq standartlara cavab verən ilk milli konstitusiyada, ailənin, uşağın, qadının statusunun təsbit edilməsi ailə institutuna verilən yüksək dəyər kimi qiymətləndirilir.

4. Ailənin beynəlxalq və milli hüquq sisteminin sintezi əsasında tədqiqi, onun hüquqlarının, azadlıqlarının və öhdəliklərinin yerinə yetirilməsi sahəsində müstəqil dövlət qurumu – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rolunu tədqiq etməyə imkan vermişdir. Bu Komitə problemin müxtəlif məsələlərini vaxtaşırı olaraq öyrənir, problemləri üzə çıxarır və onların həlli üçün səmərəli və təsirli tədbirlər həyata keçirir. Ölkədə çoxsaylı qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin digər təsisatları ailə problemlərinin həllinə diqqəti artırmışdır. Bu gün Komitə bütün ölkə üzrə sağlam və mütərəqqi qüvvələri öz ətrafında birləşdirməklə, dövlətin ailə siyasətinin formalaşmasını və həyata keçirilməsini uğurla təmin edən müasir bir idarəçilik strukturuna çevrilmişdir. Bununla belə onun səlahiyyətlərinin artırılması, rayonlarda və regionlarda onun müvafiq qurumlarının yaradılması və onların inzibati səlahiyyətlərinin artırılması zəruridir. Ailənin problemlərinin ildən-ilə artması, mürəkkəbləşməsi, profilaktiki və qabaqlayıcı tədbirlərin vaxtaşırı olaraq öyrənilməsi və islahatların səmərəli tətbiqinin zəruriliyi nəzərə alınaraq, Komitənin nəzdində «Ailə Problemləri üzrə Elmi Tədqiqat İnstitutu»nun yaradılması təklif edilmişdir.

5. AR Konstitusiyasında ailə, nikah və onlarla bağlı olan ayrı-ayrı təsisatların hüquqi statusu təsbit edilmişdir. Konstitusiyada göstərilmişdir ki, AR-da dövlət hakimiyyətinin yeganə mənbəyi - bir

ölkənin əhalisi mənasını verən, əlahiddə coğrafi əraziyə, milli kodu kimi təcəssüm edən etnik dilə, maddi, mənəvi və spesifik sosial həyata, iqtisadi və məişət birliyinə, azərbaycançılıq ideologiyasına söykənən və tarixən formalaşmış insan birliyi statusu alan Azərbaycan xalqıdır. Sərbəst və müstəqil olaraq öz müqəddəratını təyin etmək və öz idarəetmə formasını seçmək bu xalqın suveren hüququdur. O ölkə ərazisində və ondan kənarda yaşayan Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan AR-nın vətəndaşlarından ibarət olmaqla, vahiddir, bütövdür və ayrılmazdır. Azərbaycan xalqı Azərbaycan insanından, Azərbaycan ailəsindən və ailənin üzvlərinin məcmusundan ibarət olmaqla, onun vahidliyi, bütövlüyü və ayrılmazlığı Azərbaycan dövlətinin təməlini təşkil edir və milli suverenliyinin təcəssümüdür.

6. Müasir Azərbaycan cəmiyyətinin, dövlətinin və şəxsiyyətinin sosial, siyasi, iqtisadi və hüquqi əsasının formalaşmasında və inkişafında ailə institutu müstəsna əhəmiyyətə malikdir. Ailə, insan nəslinin yetişdirilməsini, onların tərbiyəsini, cəmiyyət üçün faydalı bir şəxsiyyət olaraq formalaşmasını, maddi nemətlər istehsalını, mənəvi və əxlaqi dəyərlərin yaradılmasını, qorunmasını, nəsildən-nəslə ötürülməsini, varisliyin təmin olunmasını, dəyərlər sisteminin təşəkkülünü, inkişafını və mühafizəsini təmin edən insan birliyi olmaqla cəmiyyət üçün ən əhəmiyyətli və ən dəyərli bir təsisatdır. O cəmiyyət və şəxsiyyət, şəxsiyyət və dövlət, cinslərarası, nəsillərarası, dinlərarası, millətlərarası münasibətlərin yaranmasında vasitəçilik rolu oynamaqla, sosial-mədəni strukturların formalaşmasında, sivilizasiya və mədəniyyətin yaranmasında və inkişafında böyük rol oynayır, müxtəlif növ və müxtəlif məzmunlu ictimai münasibətləri özündə ehtiva edir. Ailə dövlətin sosial, siyasi, iqtisadi və hüquq siyasətinin müəyyən olunmasında, onun formalaşmasında və həyata keçirilməsində öz yetişdirdiyi intellektual insanlar vasitəsilə əhəmiyyətli rol oynayır. Uşaqların illərlə və fasiləsiz olaraq sosiallaşmasını məhz ailə təmin edir. Qadın və kişi, ər və arvad birliyi olan ailənin könüllü olaraq yaradılması, cəmiyyətin, şəxsiyyətin və dövlətin inkişafına dəyərli töh-

fələr verir. İnsan, məhz ailə ilə birlikdə daha güclü, qüdrətli və möhtəşəmdir.

7. Tədqiqat göstərir ki, ailə birliyi tərəflərin – ərin və arvadın fizioloji, maddi və mənəvi tələbatlarının ödənilməsinə, insanda coşqun və stimulverici məhəbbətin, mənəvi rahatlığın, sağlamlığın, yaşamaq həvəsinin artmasına əhəmiyyətli təsir göstərir, insan nəslini yetişdirmək kimi bəşəri vəzifəni həyata keçirir. Maddi və mənəvi həyatın, dini inam və inancların, bəşəriyyətin bu gününün və sabahının, cəmiyyətin, dövlətin və şəxsiyyətin bütün uğurlarının və dəyərlər sisteminin əsasında məhz insan və ailə dayanır. O iki sevən fərdin, bioloji cinsin, kişinin və qadının, gələcək ərin və arvadın qarşılıqlı məhəbbətinə əsaslanan, könüllü yaradılan ittifaq, insan birliyidir. Ailənin rolu, vəzifəsi və funksiyaları olduqca geniş və əhatəli olmaqla, o illərlə, fasiləsiz olaraq davam edən ictimai və fərdi proses olmaqla, bütün cəmiyyəti əhatə edir. Cəmiyyətin, dövlətin və şəxsiyyətin həyatında elə bir sahə yoxdur ki, o insanla və ailə ilə bağlı olmasın. Çünki cəmiyyətin, dövlətin və şəxsiyyətin yaradıcısı insan və insan birliyi olan ailədir. Ailəni əvəz edəcək, ailə qədər geniş təsir imkanlarına malik olan insan birliyi yoxdur. O cəmiyyətin, dövlətin və şəxsiyyətin əsasında, bünövrəsində, təməlində dayanır. Ailə – ər-arvad, valideynlər və uşaqlar arasında tarixən formalaşmış konkret, qarşılıqlı ictimai münasibətlər sisteminin məcmusudur.

8. AR-nın ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə, onun qanunlarına tabe olan, Azərbaycan xalqının xüsusi sosial-mədəni və milli kodu kimi təcəssüm edən azərbaycançılıq ideologiyasına, milli, mənəvi və əxlaqi dəyərlərə, dil, mədəniyyət, məişət, ərazi, həyat tərzi, adətlər, ənənələr, milli iqtisadiyyat və millətin vahid bütövlüyünü təcəssüm etdirən, üzvləri arasında hüquqa müvafiq olaraq bağlanmış nikah, övladlıq və qohumluq münasibətlərinə əsaslanan, şəxsi və əmlak hüquqlarının, vəzifələrinin və öhdəliklərinin yaranmasına səbəb olan, ümumi ailə təsərrüfatının birgə idarə edilməsinə, uşaqların doğulması və tərbiyəsi kimi məqsədlərə yönələn, ailə yaratmağa xidmət edən, dövlətin və cəmiyyətin kiçik sosial qrupu, insan birliyi olaraq Azərbaycan ailəsinin əsas mahiyyəti və

məzmunu daim dinamik inkişafda, təkamüldə və möhkəmlənməkdədir. Buna görə də ailənin və nikahın konstitusiya hüquqi statusunun daim təkmilləşdirilməsi vacib hesab edilirdi.

9. Ailə konstitusiya hüququnun müstəqil və kompleks institutudur. Bu da ailə münasibətlərinin müstəqil, eynicinsli, konstitusiya hüquq normaları ilə təsbiti və tənzimlənməsi ilə izah oluna bilər. Ailənin konstitusiya ilə müəyyən edilən hüquqları, vəzifələri və öhdəlikləri vardır. O tədqiqatın həm obyekti və həm də subyekti kimi çıxış edə bilər. Ailənin mühim və sistemaltı elementi hesab olunan atalıq, analıq, uşaqlıq institutları altsistemləri təşkil edir, onların hər birinin ailə münasibətlərində səciyyəvi cəhətləri, analığın və atalığın müdafiəsi və uşaqlara münasibətdə onların hüquqlarının qorunması kimi elementləri əhatə edir. Ailə, konstitusiya hüquqi mənada öz üzvlərinin – ərin, arvadın, uşaqların, qan qohumlarının və yaxud da övladlığa götürülənlərin hüquqlarını, vəzifələrini və öhdəliklərini ailə qanunvericiliyi tənzim edir. Ailə, dövlətin sosial siyasətinin nəinki obyekti, habelə müstəqil subyekti hesab oluna bilər. Ailə institutunun konstitusiya-hüquqi statusu konstitusiya ilə müəyyən edilir, ailə və ailə üzvlərinin statusunun mükəmməlliyi ilə şərtlənir.

10. Cəmiyyətdə ailənin və ailə üzvlərinin statusunu, onların rolunun artırılması üçün müstəqil dövlət ailə siyasətinin hazırlanması və həyata keçirilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir. Ailə, qadın və uşaq siyasətinə dair kompleks tədbirlərin hazırlanmasına demək olar ki, bütün cəmiyyət üzvləri – alimlər, siyasətçilər, dövlət xadimləri, qadın liderləri və s. qoşulmuşlar. Bu Dövlət Proqramlarının kompleks, mərhələli və elmi surətdə hazırlanması və həyata keçirilməsi ailə problemlərinin uğurlu həllinə dəyərli töhfələr verəcəkdir.

11. Ailənin cəmiyyətin özəyi olaraq hüquqi, sosial, siyasi, iqtisadi, mənəvi, əxlaqi, tərbiyəvi, təşkilati rolunun vaxtaşırı olaraq elmi-nəzəri tədqiqinin aparılması son dərəcə vacib və əhəmiyyətli hesab olunmalıdır. Ailə daim dövlətin himayəsində və diqqətində saxlanılmalı, onun sosial təminatlarının, maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxuşaqlı ailələrin dövlət himayəsinə götürülməsi,

doğum evlərinin, uşaq xəstəxanalarının, bağçaların, orta və ali təhsil müəssisələrinin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsinə diqqətin artırılması zəruridir. Doğulmuş hər bir uşağa görə müavinətlərin artırılması, «ailə kapitalı»nın təsisi, uşaqlı ailələrin dövlət səviyyəsində mənzillə təmin edilməsi, uşaq tərbiyə və sağlamlıq müəssisələrinin mövcud tələblər baxımından geniş şəbəkəsinin təkmilləşdirilməsi və anaların sosial təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması vacibdir. Ailənin rifahı və xoşbəxtliyi cəmiyyətin və insanın rifahı və xoşbəxtliyinin əsasıdır.

12. Konstitusiya və beynəlxalq hüququn sintezi əsasında hazırlanmış «Azərbaycan ailə institutunun konstitusiya hüquqi statusu: kompleks təhlil» adlı monoqrafiya 2019-cu ildə nəşr edilməklə əslində bu ölkəmizdə problemin kompleks elmi-nəzəri tədqiqinə həsr olunmuş ilk monoqrafiyadır. Zəngin elmi-nəzəri mənbələr və təcrübi materialların kompleks tədqiqi və üzvi surətdə əlaqələndirilməsi nəticəsində müəllif yenilik və yenilik elementi kimi bir çox anlayışları, müddəaları, təklifləri və nəticələri kifayət qədər mötəbər müddəalarla əsaslandırmış, mühim nəzəri və təcrübi əhəmiyyətə malik olan bir sıra aktual məsələlərin uğurlu həllinin yeni variantlarını təklif etmişdir. Bütün bunlar monoqrafiyada mükəmməl və yerində əks olunmuşdur.

13. «Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi»nin adının mürəkkəb və çox sözlü olması nəzərə alınaraq, onun adının daha lakonik və qısa formada «Azərbaycan Respublikasının Ailə Problemləri üzrə Dövlət Komitəsi» adlanması təklif edilir. Dövlət Komitəsinin regional şöbə və idarələrinin yaradılması və onun inzibati təsir etmə imkanlarının və hüquqlarının artırılması məqsədəmüvafiq hesab edilir.

14. Ölkədə uzunmüddətli dövr üçün «Azərbaycan ailəsinin İnkişaf Strategiyası»nın və «Uşaq Strategiyası»nın hazırlanması və həyata keçirilməsi təklif edilir. Bu Strategiyalar əsasında uzunmüddətli və ayrı-ayrı illər üzrə Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsi ailə problemlərinin uğurlu həllinə dəyərli töhfələr verə bilər.

15. «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında» Qanunun layihəsi hazırlanıb, müzakirəsi üçün Milli Məclisə təqdim edilmiş, bəyənilmiş və müzakirə üçün qəbul edilmişdir. Lahiyənin əhəmiyyəti və dəyəri nəzərə alınaraq, onun Milli Məclisdə müzakirə edilməsinin və qəbul olunmasının tezləşdirilməsi məqsədə müvafiq hesab edilir.

16. Dünyada ailə, qadın və uşaq hüquqlarının mühafizəsi və müdafiəsi sahəsində problemlərin ildən-ilə artması, bu sahədə çoxsaylı terminlərin, ailənin statusunun – hüquqlarının, azadlıqlarının və öhdəliklərinin beynəlxalq standartlarının müəyyən edilməsi məqsədilə BMT-nin «Ailənin statusu haqqında», «Qadınların statusu haqqında», «Uşaqların statusu haqqında» XXI əsrin üç müfəssəl və müstəqil Konvensiyalarının qəbul edilməsi təklif edilir. Bu barədə BMT qarşısında məsələ qaldırılması məqsədəuyğun hesab edilir. Bu Konvensiyalarda ailənin, qadının və uşağın hüquqlarının mahiyyəti, məzmunu, prioriteti, müdafiə və mühafizə mexanizmlərinin, habelə beynəlxalq standartlarının müəyyən edilməsi təklif olunur. Belə bir sənədin qəbul edilməsi üzv dövlətlərin də müvafiq normativ-hüquqi aktlarının hazırlanması və qəbul edilməsi üçün baza rolunu oynaya bilər.

17. Beynəlxalq səviyyədə ən nüfuzlu və geniş əhatəli təşkilat kimi BMT-nin müvafiq qərarlarının icra olunmaması, onun hörmətini, nüfuzunu aşağı salır və fəaliyyətində ciddi çətinliklər yaradır. Buna görə də BMT-nin qərarlarının həyata keçirilməsini təmin etmək məqsədilə «BMT-nin Qərarlarının icrası üzrə Konvensiya»nın hazırlanması və qəbul edilməsi təklif edilir.

18. AR-da ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində müstəqil «Ailə, Qadın və Uşaq hüquqları üzrə müvəkkil»in – Ombudsmanın təsis edilməsi təklif edilir.

19. AR-da ixtisaslaşmış ailə məhkəmələrinin yaradılması təklif edilir. Hesab edilir ki, yetkinlik yaşına çatmayanların cinayət və mülki işlərinə, ailə və ailə münasibətləri sahəsində cinayət, mülki, inzibati, mənzil və digər qanunvericiliyin pozulması ilə bağlı məsələlər,

həm də ailə sirlərinin qorunması məqsədilə yaradılmış müstəqil ailə məhkəmələri effektiv nəticələr verə bilər.

20. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulundan 25 ildən çox müddət keçmiş, ölkəmizin həyatında heç vaxt olmayan yüksək inkişaf təmin edilmişdir. Ümumxalq referendum yolu ilə konstitusiyaya edilmiş dəyişikliklər ailə və ailə münasibətlərinin də hüquqi tənzimlənməsinin mükəmməlliyini təmin etmişdir. Bununla belə işin təsviri hissəsində göstərildiyi kimi ailənin və nikahın konstitusiya hüquqi statusunun müasir baxımdan tədqiqi onun bir sıra qüsurlarını üzə çıxarmış və təkmilləşdirilməsinə zərurət yaratmışdır. Buna görə də Konstitusiyanın «Ailə, uşaq və dövlət» münasibətlərinə həsr olunmuş 17-ci maddəsinin və «Nikah hüququ»na həsr olunmuş 34-cü maddəsinin yeni redaksiyada verilməsinə dair layihə mətnini yenilik kimi irəli sürmüşdür. «Ailə» və «nikah»a dair konstitusiya hüquq normalarının məzmunu beynəlxalq standartlara tamamilə uyğunlaşdırılmış, onların definisiyası verilmiş və konstitusiya təsbitinin ən uğurlu variantı təklif edilmişdir. Nikah tədqiqat zamanı ailənin tərkib elementi kimi təqdim olunmuş, ailə institutu ilə üzvi surətdə əlaqələndirilərək araşdırılmışdır.

21. Konstitusiyanın və konstitusiya hüquq elminin fundamental institutu olaraq ailənin və nikahın konstitusiya hüquqi statusu, onun tətbiqini təmin edən sahə normativ-hüquqi aktların, Ailə Məcəlləsinin, Mülki Məcəllənin və digər çoxsaylı məcəllələrin öyrənilməsinə, müqayisə edilməsinə və tədqiqinə əhəmiyyətli yer ayırılmış, onların beynəlxalq hüquq normaları ilə müqayisəli təhlili təmin edilmişdir. Müəllif tədqiqatın sistemli-struktur metodlarına və təcrübə ilə əlaqələndirilməsinə üstün yer ayırmış, ailə ilə sıx bağlı olan «ailə», «müasir ailə», «milli ailə modeli», «insan», «qadın», «kişi», «uşaq», «nikah», «analıq», «atalıq», «valideyn», «uşaqlıq», «evdar qadın» və s. bu kimi terminlərin beynəlxalq və milli səviyyədə ilk dəfə olaraq definisiyasını vermişdir. Eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına, Ailə Məcəlləsinə, Mülki Məcəlləyə, Mülki-Prosessual Məcəlləyə, Cinayət Məcəlləsinə, dövlətin ailə, qadın və uşaq siyasə-

tinə dair təkliflər və yeni müddəalar irəli sürülmüş və əsaslandırılmışdır.

22. Tədqiqat zamanı Ailə Məcəlləsinin tətbiqi və təfsiri, eləcə də ailənin möhkəmləndirilməsi və uşaqların rifahının yaxşılaşdırılması üçün son dərəcə zəruri olan «ailə idarəçiliyi»nə, «ailə başçısı»na, nikahın bağlanmasına mane olan hallara, ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılmasına, nikahın etibarsızlığına, ailə münasibətlərində mülki tələblərə dair iddia müddətlərinə, valideynlik hüququndan məhrum etməyə, «Aliment Fondu»nun yaradılması zəruriliyinə dair son dərəcə vacib olan dəyərli təkliflər, müddəalar və mülahizələr irəli sürülmüşdür. Beynəlxalq və milli səviyyədə ilk dəfə olaraq, «Azərbaycanda qadın hüquqları və azadlıqları haqqında», habelə «Ailənin hüquqları, azadlıqları və vəzifələri haqqında» normanın müəllif variantları hazırlanıb, müvafiq orqanlara təqdim edilmiş, bəyənilmiş və müzakirə üçün qəbul edilmişdir.

23. Tədqiqat zamanı ailə və ailə münasibətlərinin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının genişləndirilməsi, onların müdafiəsi və mühafizəsinin gücləndirilməsi və digər bu kimi məsələlərə dair çoxsaylı təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsi, ailə münasibətlərinin cinayət-hüquqi vasitələrlə möhkəmləndirilməsi və məişət zorakılığına qarşı mübarizədə yeni metod və üsullardan istifadə edilməsinə dair təkliflər irəli sürülmüşdür.

24. Tədqiqatın nəticəsi olaraq irəli sürülmüş çoxsaylı təşkilati-hüquqi tədbirlər, beynəlxalq və milli normativ-hüquqi aktların təkmilləşdirilməsinə dair layihələr təcrübə ilə sıx əlaqələndirilmiş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin beynəlxalq təşkilatlarla birlikdə həyata keçirdiyi çoxsaylı sosioloji sorğulardan, Bakıda keçirilən beynəlxalq forumların materiallarından geniş istifadə edilmiş, işin elmi nəticələri və müddəaları bir qayda olaraq təcrübədə sınaqdan keçirilmiş və özünü doğrultmuşdur. Məsələn, nikahdankənar ailə münasibətlərinin və doğulmuş uşaqların statusunun müəyyən edilməsinə və qanunvericilikdə təsbitinə dair təklifin irəli sürülməsi illərdə davam edən mühim bir problemin uğurlu həllini təmin edəcəkdir.

25. Bütün dünyada olduğu kimi Azərbaycan Respublikasında da ailə və uşaq hüquqlarının etibarlı müdafiəsi və mühafizəsi hər yerdə öz aktuallığı ilə diqqəti cəlb edir. 30 ildən çox davam edən münaqişə ölkəmizdə ailələrin dağılması, uşaqların və qadınların, kimsəsizlərin və qocaların hüquqlarının kütləvi pozulması və münaqişənin həllinə dair BMT-nin 822, 853, 874, 884 nömrəli qətnamələrinin icra edilməməsi,nəhayət olaraq bu qərarların Azərbaycanın öz qüvvəsi ilə icra edilməsi mühim tarixi hadisə kimi qiymətləndirilməlidir. Bütün bunlar ölkədə məişət zorakılığının, qadın və uşaq cinayətkarlığının mövcudluğu ciddi narahatçılıq doğurur, beynəlxalq və milli səyləri bu problemlərin həllinə səfərbər etməyə dair müasir çağırışlara adekvat cavab verməyin vacibliyin şərtləndirir. Buna görə də müəllif beynəlxalq miqyasda BMT-nin «Ailə statusu haqqında», «Qadınların statusu haqqında», «Uşaqların statusu haqqında» üç müfəssəl Konvensiyanın və BMT-nin Qərarlarının İcrası üzrə Konvensiyanın qəbul edilməsinin hazırda vacib olduğunu əsaslandırmışdır. Əminliklə demək olar ki, bu qətnamələrin icrası və ümumiyyətlə BMT qərarlarının icra mexanizmlərinin yaradılması və müasirləşdirilməsi ailə və uşaq problemlərinin uğurlu həllinə dəyərli töhfələr verə bilər.

26. Ailənin əsasını təşkil edən bioloji insan cinsinin fiziologiyasının və psixologiyasının öyrənilməsinə əhəmiyyətli yer ayrılmışdır. Çünki ailə və ailə üzvləri olan kişinin və qadının konstitusiya hüquqi statusu tibbi, bioloji, fizioloji və psixoloji əsaslarla sıx bağlıdır və onlara söykənir. Buna görə də biologiya, fiziologiya, psixologiya, genetika, təbabət kimi müxtəlif elm sahələrinin nailiyyətlərindən və müddəalarından istifadə edilərək, ailənin və ailə üzvlərinin konstitusiya hüquqi statusunun tədqiqinin kompleksliliyi və mükəmməlliyi təmin edilmişdir.

27. Tədqiqat zamanı ailənin hüquqi statusunun tərkib hissəsi olan qadının statusunun, uşağın statusunun konstitusiyada təsbit edilməsi, konstitusiya hüququnun müstəqil institutları kimi onların hər birinin kompleks tədqiqini şərtləndirmişdir. Ailə və ailə üzvlərinin konstitusiya hüquqi statsunun mükəmməl tədqiqi, onların problemlərinin üzə çıxarılması və həll edilməsi təmin olunmuşdur. İlk dəfə ola-

raq ailənin, qadının və uşağın konstitusiya hüquqi statusunun məzmununda əhəmiyyətli rol oynayan bioloji, psixoloji, genetik amillərin yeri və rolu müəyyən edilmiş, qadın və kişi fərqliliyinin bioloji və psixoloji əsasları tədqiqatlara cəlb edilmişdir. Bu əsasda gender münasibətlərinin tətbiqinə mütləq və nisbi yanaşmalara müəyyən yer ayrılmış, Azərbaycanda qadının hüquqlarının real surətdə genişləndirilməsinə dair təkliflər verilmişdir.

28. Beynəlxalq hüquq normalarına dair iki, ailə, qadın və uşaq siyasətinin təkmilləşdirilməsinə dair səkkiz, Azərbaycan Respublikasının Konstitusiyasına dair iki, «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının proflikatikasına dair» Qanuna bir, Ailə Məcəlləsinə dair iyirmi altı, Mülki Məcəlləyə dair bir, Mülki-Prosessual Məcəlləyə dair iki, Cinayət Məcəlləsinə dair üç və beləliklə, qırx beş əsaslandırılmış təklif irəli sürülmüşdür. Bunların da hər birinin kifayət qədər əsaslandırılması təmin olunmuşdur. Eləcədə, ailə ilə bağlı olan 15-dən çox terminə ilk dəfə olaraq definisalar verilmişdir. Tədqiqatın nəticəsi olaraq irəli sürülmüş yeni təkliflərdən və müddəalardan təcrübədə və elmi fəaliyyətdə istifadə edilməsi faydalı olacaqdır.

Beləliklə, tədqiqatın nəticəsi olaraq irəli sürülmüş yeni təkliflər və müddəalar hesab edirəm ki, ailənin konstitusiya hüquqi statusunun möhkəmləndirilməsini, müdafiəsini və mühafizəsini əhəmiyyətli dərəcədə gücləndirəcək, hüquqların və azadlıqların müdafiəsinin səmərəliliyin və effektliyini təmin edəcəkdir.

***САИДА ГАСАНЗАДЕ***

## РЕЗЮМЕ

Права женщин, будучи составной частью прав и свобод человека, сегодня сформировались в независимый правовой институт и превратились в самостоятельную тему для исследования. Закрепление прав и свобод женщин в международном праве и национальной правовой системе, может характеризоваться как результат борьбы проводимой на протяжении многих веков. Тем не менее, неоднозначные подходы множества исследователей на различных уровнях в разных странах и периодах времени, а также в различающихся аспектах исследований в этой области, свидетельствуют о серьезных проблемах, которые по-прежнему остаются с теоретической и практической точек зрения. Поэтому, достаточно важным и актуальным должно рассматриваться периодическое привлечение проблем прав женщин, как предмет исследования на уровне международного и внутригосударственного права, определение и решение этих проблем, а также изучение и ликвидация пробелов на международном и национальном уровне.

Исследование различных видов норм международного права в этой области, изучение обобщений и анализа подтверждают, что определение прав и свобод женщин на международных и национальных уровнях и их соответствие определенным базовым стандартам, уже завершено. Главная цель этих правовых актов различных уровней, состоит в том, что должно быть обеспечено в полном объеме равноправие женщин и мужчин в обществе, государстве, семье, запрещена дискриминация по половому признаку, женщинам должны быть даны наряду с другими членами общества равные права и свободы,

должны быть приняты решительные меры, чтобы гарантировать эти ценности.

Исследования показывают, что наряду с гражданскими, политическими, экономическими, социальными правами женщин в органическом соответствии с другими их правами и свободами, благоприятным материнством, рождением и воспитанием детей в семьях, очень важно повышение внимания к материальным, производственным и другим условиям труда в правилах охраны здоровья и труда женщин. Должны быть продолжены до конца, меры в области соответствия и имплементации национальных законов нормативно правовым актам носителям международного права, конвенциям, договорам, пактам, декларациям, протоколам. Очень важно работать в области создания совершеенных и гибких механизмов по улучшению прав и свобод женщин, а также продолжение работ по их интенсивному совершенствованию.

В контексте Нагорно-Карабахского конфликта сопровождающегося массовыми и опасными формами нарушения прав женщин, а в последующем ликвидации их тяжелых последствий, требуется разрешение этого конфликта в соответствии с принципами и нормами международного права. В отношении преступлений против мира и человечности и военных пресступлений совершенных против женщин, является очень важным и необходимым рассмотрение этих действий в международном уголовном суде. В связи с этим, важная роль и задачи ставятся перед правоохранительными органами страны.

Права и свободы женщин тесно связаны с динамичным развитием общества. Процессы, происходящие в обществе, общественной жизни и семье, обеспечивают необходимость время от времени изучение этих прав и свобод и создания надежных мер для защиты этих прав.

Исторические факты показывают, что традиционно в Азербайджане к женщинам всегда проявляли большую заботу и уважение. Следует признать, что основой этого являлось, уде-

ление особого внимания в исламе правам и свободам женщин, однако надо отметить, что в дальнейшем развитии национальные обычаи и традиции, исторические основания и ценности, элементы национального менталитета и национальной культуры со временем полностью формируется и достигают своего уровня совершенства. Таким образом, увеличение прав женщин на Ближнем Востоке впервые, именно в Азербайджане было закреплено на нормативном уровне. Азербайджанская женщина добилась больших успехов в образовании, культуре, здравоохранении, дипломатии, науке, государственном управлении и этим успешно оправдала оказанное доверие со стороны общества.

В Азербайджанской Республике, в области закрепления прав и свобод женщин в законодательстве, их защите и охране, происходит обеспечение на самом высоком уровне исполнения своих обязательств перед международным сообществом.

В период актуализации прав и свобод человека, регулирование, защита, совершенствование и охрана прав и свобод женщин в международном и внутригосударственном праве, имеют важное научно-практическое значение. Проводимые меры в области регулирования прав и свобод женщин, прав человека в международном праве, соответствующие идеи и достижения права следует рассматривать как исторически значимый вклад в правосознание и правовое мышление человечества, и в этой области должны быть выдвинуты новые критерии для научных исследований. Как и каждое правовое учреждение и правовая проблема, они постоянно должны изучаться, и необходимо и важно их развивать.

Вопросы связанные с регулированием прав женщин, в зависимости от различных событий и процессов нашли свое точное выражение в отдельных конвенциях и декларациях. Считаем, что в связи с тем, что в течение многих лет в международных конвенциях регулирующих права и свободы женщин, происходят качественные изменения в международных

отношениях и международном праве, и поэтому имеет важное значение с учетом других серьезных факторов, вместе с усилиями международного сообщества подготовка и принятие под эгидой ООН Конвенции «XXI-й век о правах и свободах женщин». В то же время, постоянно должна совершенствоваться нормативно правовая база по правам и свободам женщин, и также проводиться адаптация к требованиям международного права. Исходя из этих требований, автором был подготовлен и представлен в соответствующие органы проект Закона «О правах и свободах женщин в Азербайджанской Республике». Мы можем с уверенностью сказать, что принятие такого Закона вызовет значительные изменения в правовом регулировании и надежной защите прав и свобод женщин.

Несмотря на системно и комплексно принимаемые меры в годы независимости в сфере регулирования, защиты и охраны прав и свобод женщин в Азербайджане, создания и развития организационно-правовых механизмов, для нас важно принятие мер по усовершенствованию деятельности международных и национальных учреждений и созданию новых гибких механизмов в этом совершенствовании.

Важно обратить особое внимание на защиту семьи образующей устои общества, а также прав женщин и детей, повысить внимание к соблюдению этих интересов, увеличению эффективности организационно-правовых мер в направлении результативности государственного управления. Условно все это можно сгруппировать нижеследующим образом:

- В целях восстановления прав и свобод человека со стороны Организации Объединенных Наций, Совета Европы, Европейского Союза, Организация по Безопасности и Сотрудничеству в Европе - (ОБСЕ), для обеспечения выполнения решений и распоряжений международных организаций существует целесообразность принятия мер в области обеспечения самостоятельного исполнения их решений либо прикреплением к НАТО, либо созданием специализированнного отдельного

международного учреждения. Иначе, формальные и без обеспечения исполнения эти решения, могут нанести серьезный ущерб репутации международных организаций:

- Важное значение имеет поднятие вопроса перед Советом Безопасности ООН о создании военного трибунала для дачи правовой оценки действиям международных преступников совершивших преступления против мира и человечества в контексте Нагорно-Карабахского конфликта. Следует обеспечить завершение расследования уголовных дел и направление их в суды, при наличии попадания их под юрисдикцию национальных судов. Поднять вопрос перед законодательным органом, для дополнения Уголовно-Процессуального Кодекса Азербайджанской Республики процессуальной нормой, разрешающей судам в порядке исключения заочным образом рассматривать дела в отношении лиц совершивших преступления против мира и человечности;

- Необходимо считать важным повышение уровня деятельности представителей нашей страны в работе органов обеспечивающих международную безопасность, проведение систематических, последовательных и решительных мер в целях обеспечения национальной интересов в зарубежных странах и международных организациях.

- Целесообразно расширение связей и сотрудничества со странами и международными организациями в борьбе с региональной милитаризацией, распространением оружия масссового уничтожения, международным терроризмом, транснациональной организованной преступностью, экстремизмом и сепаратизмом;

- Увеличить внимание к использованию передовых методов в международных отношениях и международном праве для развития экономических, социальных, культурных, национальных и религиозных отношений;

- Признание наличия условий и времени к адаптации национального законодательства в соответствии с международным

правом, разработке и подготовке новых и более прогрессивных Конвенций ООН, Совета Европы, Европейского Союза, Организации Исламская Конференция, Кодификации международных правовых документов, двусторонних и многосторонних договоров, подготовке и публикации их сборников;

- Особое внимание должно быть уделено изучению теоретических и правовых основ международных и региональных отношений, их рассмотрению и проведению исследований, подготовке и публикации нормативных правовых актов и научных трудов по международному праву, подготовке высококвалифицированных научных и практических кадров, проведению научно-практических конференций;

- Важны действия в связи с разработкой и принятием комплексных мер по эффективному осуществлению тщательного изучения международных и внутригосударственных нормативно правовых актов, научно-теоретических исследований в сфере регулирования и защиты прав и свобод женщин.

- Существует необходимость повышения статуса Государственного Комитета по Проблемам Семьи, Женщин и Детей, а также создания полномочных органов Комитета в районах, городах и регионах;

- Необходимо рассмотрение вопроса о создании в стране специального органа - научного отдела, научного центра или института по проблемам семьи, который бы регулярно занимался научно-теоретическим исследованием проблем семьи, женщин и детей, их изучением и дачей соответствующих рекомендаций;

-Должны быть осуществлены систематические и последовательные меры в сфере усовершенствования законов обеспечивающих права семьи, женщин и детей, и их адаптацию в соответствии с международным правом;

- Должен быть изучен и реализован на международном уровне положительный опыт в сфере защиты прав семьи, женщин и детей;

- Должно быть увеличено внимание к усилению профилактических мер, изучению причин и условий, периодическому анализу ситуаций связанных с нарушением прав семьи, женщин и детей;

- Необходимо увеличение внимания к организации программ по правовому просвещению и пропаганде в сфере защиты прав семьи, женщин и детей, в средствах массовой информации, особенно на радио и телевидении;

- Следует уделять особое внимание научно-теоретическому исследованию вопросов семьи, женщин и детей, с точки зрения права, философии, психологии, социологии.

***SAIDA HASANZADEH***

**SUMMARY**

Though woman's rights are the constituent part of universally recognized human rights and freedoms, nevertheless they have formed as an independent legal institution and turned into the subject of self-dependent research. The absolute consolidation of woman's rights and freedoms in the international law and inner law system may be characterized as a result of the struggle have been carried out for centuries to come, However, the studies carried out by different researchers on various levels, and at different approaches, in different for centuries and at different time crossings testify to remaining still the serious problems in this sphece from the theoretical and practical points of view. Therefore, drawing periodically the problem of woman's rights, been independent on international and inner level to the research, determining her problems, solution, studying on international and national level and removing the gaps should be considered quite actnal and significant.

Investigation of different kinds of the norms of international law, the studies, generalizations and analyses in this sphere testify monosemonsly to thar the stage of establishing the main standards of woman's rights and freedoms on international and national level has been already completed. The main purpose of these normative-law acts on different levels is that then the equality of woman's and man's rights in a society state, family should be absolutely guaranteed, division by sing should be prohibited, the women should be provided the equal rights and freedoms with other members of a society and to guarantee these values, the resolute measures are to be undertaken. The investigations display that maternity right alongside with woman's civic, political, economic, social rights, in child's birth, grewing up and education should be paid inereased attention,

as well as to guarantee of providing the rules of protection of woman's health and labour in industrial, material and other conditions.

The consecutive and systematic measures in a sphere of adjusting the national laws to the normative law acts bearing the leading essence of the international law-conventions, negotiations, pacts, declarations, protocols, and their implementations should be continered to the end. As well, creation of the efficient, perfect and procupt mechanisms in a sphere of protection of woman's rights and freedoms, and improving intensively their activity is very important.

Violation of woman's rights in mass and dangerous form in the comtext of Nagorno-Karabagh context and removing its grave consequences demand solution to this conflict on basic of the principles and norms of international law. Hearing the actions of the persons committed against woman, peace and humanity at the international criminal court is very important and necessary. In connection with this the important daties fall on enforcement bodies.

The woman's rights and freedoms are closely connected with a dynamic development of a society/ the processes taking place in a society, in state's life and family creates the necessity to studying periodically there rights and freedoms and undertaking the measures providing in trusrworthy manner protection of there rights.

The historical facts show that in Azerbaijan a woman was historically honoured and paid a great attention. Its foundation, we have to confers, though originates from a particular attention paid to woman's rights and freedoms, with this the nation values and traditions, historical grounds and values, national mentality and elements of national cultura were formed at times and elevated to the level of perfection. Therefore in the Eastern countries namely in Azerbaijan, for the first time, extension of woman's rights has been consolidated on normative-law level. Azerbaijani woman has gained the great achievements in education, culture, health services, diplomacy, science, state governing and won successfully confidence trusted to her by a society.

Azerbaijan Respublic has been providing on a high level putting in practice the duties undertaken before international unity in a sphere of consolidating woman's rights and freedoms in the legislation her protection and sugeguarding.

In the period when human rights and freedoms acquire actual essence, regulation of woman's rights and freedoms by international and innerstate law, perfection, defendence and protection have important and practical importance. The measures taken in a sphere of regulation of woman's rights and freedoms in international law should be estimated as historical achievement of legal thinking and legal mentality and the new criteria of scientific theoretical studies in this sphere are to be put foreground.

The constant study and development of this task as any legal institution and law problem is very important and necessary too.

The problems of regulation of woman's rights in connection with different evemts and processes have found their absolute reflection in some conventions and declarations. We think that since many years have passed for conventions concerning regulation woman's rights and freedoms of international scale, the qualibative changes taken place in the international relations and international law and taking into account other factors, it is important to prepare and abopt the Convention «On woman's rights and freedoms, the XXI$^{st}$ century» by the joint efforts of world unity countries and the patronage og UNO. As well, the normative law base of woman's rights and freedoms is to be constantly improved and adjusted to the requirements of international law.

Imoroving the national security mechanisms is also very important, Prosseding from these requirements the draft of the law «On woman's rights and freedoms in the Azerbaikan Republic has been prepared by the author and submitted to the corresponding bodies. We can say with certainty that adoption of such Law will cause the important changes in legal regulation and reliable defence of woman's rights and freedoms».

Despite the systematic and complex measures taken during the years of independence in Azerbaijan in a sphere of regulation, defence and protection of woman's rights and freedom, the creation and development on improving activities of the international and national institutions and the new quick mechanisms in this perfection is very important for us.

It is important to pay a particular attention to protection of a family as a core of a society, as well the women's and children;s rights, to increase attention to observing these interests, increasing an efficiency of organization – legal measures in direction towards achievenements in state governing. All this can be conditionally grouped as follows;

- For the purpose of restoration of human rights and freedoms on the side of the Organization of United Nations, European Council, European Union, Organization on security and Cooperation in Europe (OSCE) – for guarantee of implementation of decisions and orders of the international organizations it is expedient to undertake measures in a field of providing independent solving these resolations either by attaching to NATO or foundation of the specialized international institution. Otherwise, the formal and unsolved decisions may seriously discreadit the reputation of the international organizations;
- Raising a wuestion before the Security Council of UNO on foundation of the «Military Tribunalon the Nagorno-Karabagh conflict» for a legal assessment of the actions of the foreign felons committed the crimes against the world and mankind in the context of the Nagorno-Karabagh conflict is of great importance;
- Completing investigation of the criminal cases and submission of them to the courts, if they are under the jurisdiction should be provided. To raise a question before the legislative body for supplementing the Criminal-Procedural Code of the Azerbaijan Respublic by procedure norm, allowing the courts as an exception to hear by default the cases in relation to the persons committed the crimes agains peace and mankind;

- It is necessary to consider important increasing the level of activities of the representatives of our country in the work of the bodies providing the international security, taking systematic, successive, and resolute measures for the purpose of providing the national interests in the foreing countries and international organizations:
- Expansion of the ties and cooperation with the countries and international oeganizations in the struggle against regional militarization, sprecding the weapons of mass annihilation, international terrorism, transnational organized criminality, extremism and separatism, is expedient;
- To increase attention to application of aduanced methods in international relations and international law for development of the economic, social, cultural, national and religious relations;
- Recognition of the presence of the conditions and time for adaptation of the national legislation in conformity with international law, elaboration and preparation of the new and more progressive Conventions of UNO, European Council, European Union, Organization of Islamic Conference, Codification of the international legal documents, bilateral and multilateral treaties, making ready and publication of their collections;
- Particular attention should be paind to a study of theoretical and legal foundations of the international and regional relations, their consideration and carrying out research, preparation and publication of highly qualified scientific and practical personnel, holding the scientific and practical conferences;
- The actions are of importance in connection with elaboration and undertaking the complex measures on efficient realization of thourgh studying the international and innerstate normative-legal act, scientific and theoretical investigations in a sphere of regulation and deferce of woman's rights and freedoms;
- There is a necessity of raising the status of the state Committee on the problems of a family, woman and children, as well

creation of the plenipotentiary agencies of the Committee in the districts, towns and regions;

- Consideration of question on creation of a special body – scientific department, scientific centre or institution or the institute on the problems of a family in the country, which would regularly cleal with a scientific and theoretical study of the problems of a family, woman and children, their study and giving the proper recommendations;
- Systematic and consecutive measures in a sphere of improving the laws, guarantecing the rights of a family, women and children and their adaptation in conformity with the international law should be brought into practice;
- Positive experience in a sphere of defence of the rights of a family, women and children is to be studied and realized;
- Attention to enforcement of the preventive measures, study of the cases and conditions, periodical analysis of the sitnations connected with infringement of the rights of a family, women and children is to be increased;
- Particular attention should be paid to the scientific and theoretical reseazed into the issues of a family, women and children from the points of view of law, philosophy, psychology, sociology.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. «Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında» 26 sentyabr 2016-cı il tarixli referenduma dair materiallar toplusu, Mərkəzi Seçki Komissiyasının məlumatları. «Azərbaycan» qəzeti, 2016-cı il, 15 s.
2. «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununun elmi-təcrübi şərhi. B., Qanun, 2009. 127s.
3. «Azərbaycan» qəzeti. 02 iyul 2014-cü il
4. «Azərbaycan» qəzeti. 20 iyun 2011-ci il
5. «Azərbaycan» qəzeti. 20 iyun 2015-ci il
6. «Azərbaycan» qəzeti. 27 dekabr 2016-cı il. № 288 (7432)
7. «Azərbaycan» qəzeti. 7 oktyabr 2016-cı il. № 220 (7364)
8. «Dövlət qulluğu haqqında» Qanun. B., «Hüquq ədəbiyyatı» nəş., 2011, 41 s.
9. «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanunu. B., «Hüquq ədəbiyyatı» nəş., 2010. 68 s.
10. «İnsan hüquqları» sənədlər toplusu. B., Azərnəşr, 1998, 95 s.
11. «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanunu. B., «Hüquq ədəbiyyatı» nəş., 2004, 57 s.
12. «Qanunçuluq» jurnalı. № 6. 2002, 8 s.
13. «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanununun kommentariyası. B., NAT MMC, 2011, 131 s.
14. «Reytinq» qəzeti. 23 yanvar 2011-ci il
15. «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu. B., «Qanun», 2009. 107 s.
16. «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət Qaydası». B., AR AQUPDK nəşr., 2016, 23 s.

17. «Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikasının Qanunu. B., «Qanun» nəş., 2003. 53 s.

18. 26 sentyabr 2016-cı il tarixdə keçirilən referendumun nəticələri barədə xüsusi bülleten. B., 2016, Mərkəzi Seçki Komissiyasının məlumatı, 21 s.

19. Abbasov Ə. İdarəetmənin sinergetik fəlsəfəsi: Yeni dialoq naminə. Bakı 2006, 211 səh.

20. Abbasova Q. Etika, tarix, nəzəriyyə və təcrübə. Bakı 2016, 367 səh,

21. Abdallı H. Şabanov Z. Qadın: ailədə, siyasətdə, təhsildə, dində, ədəbiyyatda. B., Avropa, 2013, 330 s.

22. Abdullayev Ə., Azadov A., Nifner K., Röyter V. İnsan hüquqları: beynəlxalq və milli müdafiə mexanizmləri. B., Elm, 2008. 487 s.

23. Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. B., Zərdabi LTD MMC, 2013. 664 s.

24. Abdullayev F. Azərbaycan Respublikasında Konstitusiya icraatının nəzəri və praktiki problemləri. B., Zərdabi LTD MMC, 2009. 392 s.

25. Abdullayev F. Azərbaycan Respublikasında Konstitusiya icraatının nəzəri və praktiki problemləri. Hüq.elm.dok...diss. avtoreferatı, B., 2009, 45 s.

26. Abışov V. Modelləşdirmə və Elmi idrak. B., 2000. 202 sə

27. Adilov N.A. Müasir beynəlxalq hüquq və Azərbaycan Respublikası qanunvericiliyində uşaq hüquqlarının müdafiəsi (nəzəri və praktiki məsələlər). B., «Aypara-3 NPM», 2010. 288 s.

28. Ağayeva G.Ç. Etika və gender: sosial-əxlaqi davranışın təhlili. B., «Sabah» nəş., 2007. 163 s.

29. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti, B., Elm, 2005. 451 s.

30. Ailə Məcəlləsinin yozumu. B., «Qapp-poliqraf» nəş., 2005. 440 s.

31. Ailə və iş. B., AR AQUPDK nəşri, 2009. 21 s.

32. Ailənin əlifbası. B., AR AQUPDK nəşri, 2009, 55 s.
33. Allahverdiyeva İ.R. Azərbaycan ailəsində ər-arvad münasibətlərinin sosial-psixoloji təhlili. Psix. elm. nam. diss... avtoreferatı. B., Bakı Dövlət Universitetinin nəşri, 1994. 28 s.
34. Allahyarova T.B. Fəlsəfə, ictimai elm və metodologiya: Vəhdət Fəlsəfəsi metodoloji ideal kimi. B., Elm, 2005. 172 səh.
35. Allahyarova T.B. Sinergetika-I sinergetik ontologiya. B., Elm, 2005. 372 səh.
36. Aristotel. Politika. (tər. A.Tağıyev) B., Bakı Dövlət Universitetinin nəşri, 1997. 282 s.
37. Aslanova R. Müasir dövlət və dövlətşünaslıq elmi. B., 2011. 439 səh.
38. Avropa İnsan Hüquqları Konvensiyası və Avropa Sosial Xartiyası. B., Avropa Şurasının nəşri, 2001. 125 s.
39. Avropa İnsan Hüquqları Konvensiyası. B., «İqtisadi azadlıq», 2006, 112s.
40. Avropa İnsan Hüquqları Konvensiyası. B., Avropa Şurasının nəşri, 2002. 76 s.
41. Avropa İnsan Hüquqları Məhkəməsi. Seçilmiş qərarlar toplusu. I cild, B., Hüquq Maarifçilik Cəmiyyətinin nəşri, 2008. 545 s.
42. Avropa İnsan Hüquqları Məhkəməsi: Konvensiyanın 3-cü maddəsi ilə bağlı məhkəmə təcrübəsi. B., Hüquq Maarifçilik Cəmiyyətinin nəşri, 2007. 89 s.
43. Avropa İnsan Hüquqları Məhkəməsi: şərhlər və normativ aktlar. B., Hüquq Maarifçilik Cəmiyyətinin nəşri, 2006. 862 s.
44. Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlar toplusu. B., Hüquq Maarifçilik Cəmiyyətinin nəşri, 2012. 773 s.
45. Avropa Şurası hüququ. B., «Avropa Şurası» nəş., 2006. 272 s.
46. Avropa Şurası yenidən baxılmış Avropa Sosial Xartiyası, B., Hüquq Maarifçilik Cəmiyyətinin nəşri, 2004, 171 s.
47. Azadlıq, müstəqillik və suverenlik. B., İnam pluralizm mərkəzi nəş., 1996. 26 s.

48. Azərbaycan ailəsi. B., «Elm və təhsil» nəş., 2016. 130 s.
49. Azərbaycan dilinin izahlı lüğəti. I cild. B., Elm nəş., 2006. 740 s.
50. Azərbaycan dilinin izahlı lüğəti. II cild. B., Elm nəş., 2006. 792 səh.
51. Azərbaycan dilinin izahlı lüğəti. III cild. B., Azərnəşr, 2000. 376 s.
52. Azərbaycan dilinin izahlı lüğəti. III cild. B., Elm nəşr, 2006
53. Azərbaycan dilinin izahlı lüğəti. IV c. B., Azərnəşr, 1987. 393 s.
54. Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsi 28 may 1918-ci il / Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası B., Lider nəşr., 2 c. I cild, 2004. 439 s.
55. Azərbaycan qanunvericiliyində uşaq hüquqları. B., «Azərbaycan» nəş., 2009. 672 s.
56. Azərbaycan qanunvericiliyində uşaq hüquqları. Uşaq hüquqları haqqında Konvensiya. B., «Azərbaycan» nəş., 2001. 685 s.
57. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu müasir fəlsəfə problemləri şöbəsi, Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. B., 2014. 303 səh
58. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. B., «Hüquq yayın evi», 2016 I cild 750s., II cild 830 s.
59. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Məlumatı. B., DİN-nin mətbəəsi, 2011, 34 s.
60. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-2016-cı illərə dair məlumatları, B., Baş hesablama mərkəzi, 2016.
61. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. B., Baş hesablama mərkəzi. 2015. 109 s.
62. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. B., Baş hesablama mərkəzi. 2016. 78 s.

63. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlumatı / «Xalq qəzeti». 17 oktyabr 2015-ci il

64. Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş. Qurumların tövsiyyələrini icra vəziyyətini qiymətləndirilməsi. B., AR AQUPDK nəşr., 2015. 120 s.

65. Azərbaycan Respublikasında demoqrafik göstəricilər. B., Baş hesablama mərkəzi, 2016

66. Azərbaycan Respublikasında insan hüquqları. B., 1998. 94 s.

67. Azərbaycan Respublikasında məişət zorakılığının qarşısının alınmasına dair qanunvericilik toplusu. B., «Oskar» NPM mətbəəsi, 2012, 83 s.

68. Azərbaycan Respublikasının «Normativ-hüquqi aktlar haqqında» 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu. B., «Hüquq ədəbiyyatı» nəş., 2011. 90 s.

69. Azərbaycan Respublikasının «Prokurorluq haqqında» Qanunu. B., «Hüquq ədəbiyyatı» nəş., 2009. 72 s.

70. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2006. 256 s.

71. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2011. 254 s.

72. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2013. 256 s.

73. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2014. 256 s.

74. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2015. 256 s.

75. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq yayın evi» nəş., 2016. 240 s.

76. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. B., «Hüquq Yayın evi» nəş., 2016. 784 s.

77. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. B., Milli Məclisin nəşr, 1994. 63 s.

78. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. B., «Hüquq ədəbiyyatı», 2009. 291 s.

79. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. B., «Hüquq ədəbiyyatı», 2013. 303 s.
80. Azərbaycan Respublikasının Konstitusiyası (əsas Qanun). B., «Azərnəşr», 1990, 71 s.
81. Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya qanunları. B., «Qanun» nəş., 2015. 203 s.
82. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2009. 94 s.
83. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2012. 96 s.
84. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2013. 97 s.
85. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2014. 99 s.
86. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2015. 94 s.
87. Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2016. 90 s.
88. Azərbaycan Respublikasının qanunlar külliyatı. B., «Qanun» nəşr., 2010. Cild I 836 s., Cild II 618 s.
89. Azərbaycan Respublikasının qanunlar külliyatı. B., «Qanun» nəşr, 2003, 562 s.
90. Azərbaycan Respublikasının qanunlar külliyatı. I kitab. B., «Qanun» nəşr., 1997, 836 s.
91. Azərbaycan Respublikasının qanunvericilik toplusu. B., «Qanun» nəşr, 2006, Cild I. 892 s.
92. Azərbaycan Respublikasının qanunvericilik toplusu. B., Milli Məclisin nəşri, 2003-2010, 672 s.
93. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2012. 161 s.
94. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının Referendumla bağlı xüsusi bülletenləri. B., 2002, 2009, 2016-cı illər

95. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2008, 652 s.
96. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2013, 638 s.
97. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. B., «Hüquq Yayın Evi», 2016. 856 s.
98. Azərbaycan Respublikasının Mülki-Prosesual Məcəlləsi. B., «Hüquq Yayın Evi», 2016. 564 s.
99. Azərbaycan Respublikasının Prosessual Məcəlləsi. B., «Digesta» nəşr., 2013, 520 s.
100. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, X c. Bakı, Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1987. 608 s.
101. Azərbaycan Sovet Ensiklopediyası. I cild. B., Sovet Ensklopediya Nəriyyatının Baş redaksiyası, 1976, 591 s.
102. Azərbaycan Sovet Ensiklopediyası. III cild. B., 1979
103. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası. B., «Azərnəşr», 1978. 71 s.
104. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası. B., Azərnəşr nəşr., 1990. 71 s.
105. Azərbaycan SSR-nin Konstitusiyası (Əsas qanun). Bakı, «Azərnəşr», 1994, 72 s.
106. Azərbaycan tarixi (İ.A.Hüseynov, Ə.S.Sumbatzadə və b. redaktəsilə). I cild. B., Az.SSR EA nəşri, 1961, 1001 s.
107. Azərbaycan Tarixinin Zəfər Salnaməsi. B., Avropa, 2020. 512 səh.
108. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. B., AR Statistika Komitəsinin Baş Hesablama Mərkəzi, 2010, 35 s.
109. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. B., AR Statistika Komitəsinin Baş Hesablama Mərkəzi, 2015, 28 s.
110. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. B., AR Statistika Komitəsinin Baş Hesablama Mərkəzi, 2016, 34 s.
111. Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərdə inkişaf mövzusunda III Respublika konfransının materialları. B., «Avropa» nəşr., 04.03.2014-cü il, 320 s.

112. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti (2002-2016-cı illərə dair məruzələrin hesabatı). B., «Qanun» nəşr, 2002-2016-cı illər

113. Azərbaycanda qadınlar və kişilər. B., AR Statistika Komitəsinin Baş Hesablama Mərkəzi, 2015, 191 s.

114. Azərbaycanda qanunla ziddiyyətdə olan uşaqların durumu, prof. Karolin Hamiltonun təhlilləri. B., «Təknur», 2006. 40 s.

115. Azərbaycanda siyasi hüquqların və azadlıqların qanunvericilik təminatları. B., «İnam» Plur. Mərkəzi, 2000. 24 s.

116. Azərbaycanın demoqrafik göstəriciləri. B., AR Statistika Komitəsinin Baş Hesablama Mərkəzi, 2014, 191 s.

117. Bayramov Ə., Əliyev B. Hüquq psixologiyası. B., «Təhsil» nəş., 2012. 656 s.

118. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2000. 561 s.

119. Bernard M. Dikkens, Rebekka C. Kuk, Ester Kismodi. Reproduktiv sağlamlıq. Etik şərhlərlə misallar. B., «Elm və Təhsil» nəşr., 2006, 85 s.

120. Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild

121. Beynəlxalq sənədlər toplusu. B., «Hüquq Maarifçilik Cəmiyyəti» nəş., 2008, 643 s.

122. Beynəlxalq sənədlər toplusu. I cild. B., «Qanun» nəş., 2005, 610 s.

123. Bərabər hüquqlar, bərabər imkanlar. B.Əbilov, Zeynalov. B., 2002, 223 s.

124. BMT-nin «Uşaqlara qarşı zorakılıq üzrə Baş katibin Ümumdünya Hesabatı». B., BMT-nin nəşri, 2006, 892 s.

125. BMT-nin Qadınlar üçün inkişaf Fondu. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın həyata keçirilməsi haqqında 2-ci və 3-cü dövrü hesabat. B., BMT-nin Bakı ofisinin nəşri, 2005. 81 s.

126. Bünyadova Ş.T. Orta əsr Azərbaycan ailəsi. B., «Elm» nəşr., 2012, 384 s.

127. Camal Abdulkərim Abdo. Yəmən ailəsində valideynlərlə uşaqların qarşılıqlı münasibətləri: psixoloji təhlil. Psix.elm.nam.diss... avtoreferatı. B., Bakı Universiteti nəşr., 1996. 31 s.

128. Cəbrayılov R. Ailə modelini qloballaşmanın mənfi təsirindən necə qorumalı? / «Azərbaycan» qəzeti. 16 aprel 2015-ci il

129. Cəbrayılov R. Azərbaycan Respublikasında hüquq islahatı. B., ABS poliqrafiya çap evi., 2014. 304 s.

130. Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. B., «Hüquq ədəbiyyatı» nəşr., 2010. 724 s.

131. Cəmiyyət, siyasət, ideologiya. B., «İnam» Plur. Mərkəzi, 1997. 32 s.

132. Cəmiyyətin və dövlətin hüquqi əsasları. B., «İnam» Plur. Mərkəzi, 1996. 27 s.

133. Cin Beyker Miller. Yeni qadın psixologiyasına doğru. B., AR AQUPDK nəşr, 2000, 141 s.

134. Demokratiyanın təməl prinsipləri. B., «İnam» Plur. Mərkəzi, 1997. 26 s.

135. Dəmirçiyeva M. Ailə strukturuna dövlətin və onun iqtisadiyyatının təsiri formaları // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 21-ci buraxılış, 2008, 124-139 s.

136. Dəmirçiyeva M. Azərbaycan Respublikasının ailə hüququ. B., «Qanun» nəşr., 2008, 486 s.

137. Dəmirçiyeva M. Uşaqların tərbiyəsində valideynlərin hüquq və vəzifələri. B., «Qanun» nəşr., 1996, 62 s.

138. Din və cəmiyyət: təsirlər, nəticələr və problemin demokratik həlli. B., «İnam» Plur. Mərkəzi, 1997. 25 s.

139. Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik. B., «Elm və Təhsil» nəşr., 2010, 550 s.

140. Dövlət idarəçiliyi. İzahlı lüğət. B., «Təknur» nəşr, 2006, 395 s.

141. Dr. John Coleman. Üçyüzlər Komitəsi. Dünya hökumətinin sirrləri. B., Qanun, 2011. 415 s.

142. Əfəndiyev M. Sosiologiya. B., Bakı Universitetinin nəşr., 2013, 537 s.
143. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. B., «Elm» nəşr., 2013. 345 səh.
144. Əliyev Ə. İnsan hüquqları. B., «Hüquq ədəbiyyatı» nəşr., 2013, 506 s.
145. Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Dərslik. B., «NAT-CO MMC», 2009. 490 s.
146. Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 cilddə. B., Azərnəşr, 1997-2013-cü illər
147. Əliyev Q.C. Demokratiya anlayışı. B., «Təbib», 1995. 55 səh.
148. Əliyev R. İslamda ailə və nikah münasibətləri. B., «İrşad» nəşr., 2003, 191 s.
149. Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar (nəzəri və praktiki məsələlər). B., Bakı Universitetinin nəşr, 2008. 368 s.
150. Əliyev T.X. Təbiətin qadağan qanunları. B., «Elm» nəşr., 2007, 139 s.
151. Əliyev Z. Avropa İnsan Hüquqları Məhkəməsi. B., «Hüquq ədəbiyyatı» nəşr, 2010. 275 səh.
152. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. B., «Maarif» nəş., 1989. 370 səh.
153. Əsgərov Ə. Beynəlxalq hüquq. B., «Maarif» nəş. 1979, 442 s.
154. Əsgərov Ş.Q. Düşüncə tərzi. B., «Azərnəşr», 2008, 334 s.
155. Əsgərov Z. Konstitusiya hüququ. Dərslik. B., Bakı Universitetinin nəşr., 2011. 757 s.
156. Fəxrəddin. Demokratiya və islahatlar. B., «İnam» Plur. Mərkəzi, 1999. 36 s.
157. Fəlsəfə ensiklopedik lüğət. B., Azərbaycan Ensiklopediyası nəş., 1997. 518 s.
158. Fərziyeva N.M. Müasir beynəlxalq hüquqda və Azərbaycan Respublikası qanunvericiliyində qadın hüquqlarının

müdafiəsi. Hüq.elm.nam.diss... avtoreferatı. B., Bakı Universitetinin nəşr, 2007. 28 səh.

159. Fransa Respublikasının Konstitusiyası // «Qanun» jurnalı. 1994, 126-150 s.

160. Gender terminlərinin izahlı lüğəti. B., BMT-nin əhali Fondu, 2005. 201 s.

161. Haqverdiyev B. İdarəetmə psixologiyası. B., «Elm və Təhsil» nəşr, 2008, 301 s.

162. Hayek F.A. Hüquq, qanunvericilik və azadlıq. Qaydalar və nizam. 3 cilddə. I c. B., «Qanun» nəş., 2002. 260 s.

163. Hegel. Hüquq fəlsəfəsi (tərcüməçi A.Tağıyev). B., «Nərgiz» nəş. 2007. 374 s.

164. Heydər Əliyev və dövlət qadın siyasəti. B., «Nurlar» nəş., 2008. 414 səh.

165. Heydər Əliyev: dövlət xalq üçündür. B., «Adiloğlu» nəş., 2008, 336 s.

166. Həsənov E., Abdullayev Ə. Azərbaycançılıq ideyasının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu // «Dövlət idarəçiliyi (nəzəriyyə və təcrübə)» jurnalı. 2013 №2 (42), 65-75 s.

167. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycan xarici siyasəti. Dərslik. Bakı: Azərnəşr, 2005. 752 s.

168. Həsənzadə S.B. «Heydər Əliyevin Azərbaycan qanunveciliyində qadın hüquqlarının təsbit olunması sahəsində rolu», Ulu Öndər Heydər Əliyevin 90 illiyinə həsr olunmuş Konfransın materialları, Bakı, may 2013

169. Həsənzadə S.B. Azərbaycanda qadın hüquqlanın bəzi səciyyəvi xüsusiyyətləri haqqında, Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları, Bakı, 6-7 may 2014-cü il

170. Həsənzadə S.B. İnsan hüquqları kontekstində qadının mahiyyəti və səciyyəvi xüsusiyyətləri, DİN Polis Akademiyasında BMT-nin Ümumdünya insan hüquqları bəyannaməsinin 65 illiyinə həsr olunmuş «Müasir dövrdə insan hüquqlarının təminatının aktual

problemləri» mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2014

171. Həsənzadə S.B. Qadın hüquqları – insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi kimi, «Hüquq elminin müasir problemləri» mövzusunda III Respublika konfransının materialları, B., mart 14-15 may 2013

172. Həsənzadə S.B. Qadın və uşaq hüquqlarının qorunması aktual problem kimi, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri (hüquq seriyası). № 1 (18). B., 2012

173. Hüquq mühafizə orqanı əməkdaşlarının insan hüquqlarına dair məlumat kitabı. B., «Elm və Təhsil» nəşr, 2009. 563 səh.

174. Hüquq və azadlıqlar: təmini və bərpası qaydaları. B., «Hüquq ədəbiyyatı» nəş., 2008. 71 səh.

175. Hüseynli N. Təfəkkürün anlayış-kateqoriyal aparatı:qnesoloji və metodoloji təhlil, Bakı 2003, 489 s.

176. Hüseynov L. İnsan hüquqlarının beynəlxalq müdafiəsi. Dərs vəsaiti. B., «Qanun» nəşr., 2008. 160 səh.

177. Hüseynov S. Davamlı insan inkişafı və ailə // Müstəqil Azərbaycan 20 il: dövlət ailə, qadın və uşaq siyasəti. B., 2012, 180-186 s.

178. Hüseynova H. Cəmiyyətin təməli // «Azərbaycan» qəzeti, 15 may 2016-ci il № 104 (7248)

179. Hüseynova H. Sosial-mənəvi inkişafı təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması, müasir dövrün prioritetidir // Azərbaycan ailəsi. B., «Elm və təhsil» nəş, 2016, 14-19 s.

180. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007, 518 səh.

181. Xəlilov Y. Azərbaycan Respublikası Konstitusiyasının Preambulası və ümumi müddəaların şərhi. B., «Qanun» nəş., 2007. 247 səh.

182. Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi (Azərbaycan dilinə tərcümə). B., «Sabah» nəşr., 1998, 174 s.

183. İbayev V. Avropa Məhkəməsinin presedentləri: mülkiyyət hüququ. B., «Elm» nəş., 2007. 250 s.

184. İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. B., «Qanun» nəşr., 2006, 695 s.

185. İbrahimov Z. Heydər Əliyev Fondu: şəxsiyyətin fenomeni və milli-mənəvi dəyərlər. B., «Çıraq» nəş., 2013. 192 s.

186. İnsan hüquqları (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi). B., «Şirvannəşr», 2005, 570 s.

187. İnsan hüquqları institutunun tərəfdaşları. B., «Qərb-Şərq» nəşr., 2013. 287 s.

188. İnsan hüquqları və polis. Dərs vəsaiti. B., «Çaşıoğlu» nəş., 2002. 290 səh.

189. İnsan hüquqları: bəşər rifahının təməli. B., «İnam» Plüralizm Mərkəzi, 2001. 608 s.

190. İnsan hüquqlarının müdafiəsi: BMT sistemi, Avropa sistemi, ölkədaxili mexanizmlər. B., «Adiloğlu» nəş., 2004. 312 səh.

191. İnsanların əsas hüquq və azadlıqlarının müdafiəsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2008. 175 səh.

192. İran İslam Respublikasının Konstitusiyası. B., «Elm və Təhsil» nəşr, 1998. 153 s.

193. İsmayılov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. B., «Qanun» nəş., 1999. 191 səh.

194. İsmayılov İ., Əmirov M., Qurbanov H., Cəfərli C., İmanov E. Azərbaycan Respublikasının Konstitusiyası. Dərslik. B., Bakı Universitetinin nəşr, 2010, 334 s.

195. İsmayılov İ.İ., Qasımov A. İnsan və vətəndaş hüquqlarının məhkəmə müdafiəsi haqqında. B., «Qanun» nəş., 2000. 164 səh.

196. İtaliya Respublikasının Konstitusiyası // «Qanun» jurnalı. 1994, 30.64 s.

197. IV Bakı Beynəlxalq Humanitar Forumunun materialları (cənab İlham Əliyevin, Valdis Zatlersin (Latviya Respublikasının sabiq prezidenti) və s. çıxışları). B., 2014, 7-35 s.

198. Kalankatuklu Moisey. Albaniya tarixi. Mıxtar Qoş Alban salnaməsi, B., «Avrasiya press», 2006, 296 s.
199. Karl Marks, Fredrix Engels. Anti-Durinq. Bakı, 1967. Təbiətin Dialektikası. Bakı, 1966. səh 54-84
200. Karl Marks, Fredrix Engels. Seçilmiş əsərləri. 2 cilddə, II cild. B, «Azərbaycan Dövlət Nəşriyyatı», 1953. 544 s.
201. Köçərli F. Sosializm cəmiyyətində ailə. B., «Azərnəşr», 1959, 191 s.
202. Kuinin F. İnsan haqqları və sən. B., BMT-nn nəşr., 2002, 64 s.
203. Qadın hüquqları: beynəlxalq və milli qanunvericilikdə. B., «Elm» nəşr., 2002, 119 s.
204. Qadın hüquqları: reallıq və faktları təkzib edir // D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiə Cəmiyyətinin nəşri. B., 2001, 43 s.
205. Qadın sirləri, kişi problemləri. B., «Nur-A» nəş., 2002. 129 səh.;
206. Qadınlara qarşı zorakılığın məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası). Parlament üzvləri üçün stolüstü kitab. B., Avropa Şurasının nəşri, 2012, 111 s.
207. Qaracayev C. Ailə münasibətlərinin qorunmasında məhkəmə Konstitusiya nəzarətinin rolu // «Ailə, Qadın, Uşaq» jurnalı. №18. 2016 , 27-29 s.
208. Qarayev R. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq . B., «Təknur» MMC, 2012. 344 s.
209. Qasımov A., Məmmədov O., Abdullayev M. Beynəlxalq əmək hüququ. B., «Mütəlcim» nəşr., 2012, 192 s.
210. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah. I c. B., «Elm» nəşr., 1994. 264 s.
211. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah. II c. B., «Elm» nəşr., 1994. 437 s.

212. Qədirzadə Q., Qədirzadə T. Türkün müalicəsi – türkəçarə. Naxçıvan, «Qızıldağ» nəşr, 2010. 115 s.

213. Qılıcov Y., Məmmədov İ. Hüququn mənbələri. B., «Araz» nəş., 2006. 306 s.

214. Quliyev A. Sosioloji hüquqşünaslığın tarixi aspektləri. Bakı, 2017. 274 səh.

215. Quliyev A.İ. Hüquq terminləri lüğəti. B., «Qanun» nəşr., 2007, 1107 s. S.57

216. Quliyeva N. Etnoqrafiya və etnologiya. B., ADPU-nun nəşr., 2009, 157 s.;

217. Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. B., ADPU-nun nəşr., 2005. 346 s.

218. Quliyeva N.M. Müstəqillik illərində Azərbaycan ailəsi. B., «Elm» nəşr., 2006. 241 s.

219. Quliyeva Ş. Estetika: insan və təbiət. B., «Təhsil» nəşr, 2013, 94 s.

220. Qurbanov H. Ailə qanunvericiliyində qadınların hüquqlarının təmin edilməsi // Müstəqil Azərbaycan 20 il: dövlət ailə, qadın və uşaq siyasəti. B., 2012, 135-140 s.

221. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. B., «Bilik» nəşr, 2012, 240 s.

222. Mahmudov M., Şabanov Z., Ələkbərov F. İdarəetmə nəzəriyyəsi. B., «Elm və təhsil» nəş., 2012. 343 s.

223. Manayev Q.İ. Sovet ailə hüququ. Dərslik. Azərbaycan Dövlət Universitetinin nəşri. B., 1989, 428 s.

224. Mehdiyev F. İnzibati idarəetmə hüququ. B., Qafqaz Universiteti nəşr., 2008. 428 s.

225. Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları. B., Qafqaz Universiteti nəşr, 2009, 404 s.

226. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri (rus, türk və azərb. dilində). B., «XXI əsr Yeni Nəşrlər» nəşr, 2004, 463 s.

227. Mehdiyev R. Fəlsəfə. B., «Şərq-Qərb», 2010. 360 səh.

228. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, «Şərq-Qərb» nəş., 2008. 216 s.

229. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003. 246 səh.

230. Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı 2010, 414 səh.

231. Mehdiyev R. İnkişafın Azərbaycan modeli. B., «Azərbaycan» qəzetinin nəşri, 2010, 465 s.

232. Mehdiyev R. Modernləşmə xətti yenə də gündəlikdədir. B., «Şərq-Qərb», nəşr., 2008. 224 s.

233. Məlikova M. Dövlət və hüquq nəzəriyyəsi. B., «Maarif» nəşr, 1979, 383 s.

234. Məmmədov Ə. Dialektik idrak və ümumelmi tədqiqat metodları. B., «Azərnəşr» nəşr, 1997. 287 səh.

235. Məmmədov Ə. və qeyriləri. Təbii elmi biliyin fəlsəfi əsasları. B., Təknur, 2014-cü il, 558 səh.

236. Məmmədov Ə. və Mustafayev A. Təbii-elmi idrak və insan dünyası. Bakı, Təknur, 2011. 463 səh.

237. Məmmədov F. İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi. Dərs vəsaiti. B., «Elm və Təhsil» nəşr, 2013, 321 s.

238. Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri, B., «Elm və Təhsil» nəşr, 2009, 415 s.

239. Məmmədov Z.Ə Notariat təcrübəsində ailə hüquqi məsələləri // Müstəqil Azərbaycan 20 il. Dövlət, ailə, qadın və uşaq siyasəti. B., «Aypara» nəşr., 2011, 239-245 s.

240. Məmmədov Z.Ə. Nikah müqaviləsinin notariat qaydasında təsdiqi problemləri // Elmi əsərlər. 2011. № 1 (16), 308-312 s. S.308-312

241. Mənsimov A. İnkişaf etmiş sosializm cəmiyyətində ailə və nikah. B., «Maarif» nəş., 1979, 165 s.

242. Mirzəcanzadə A.X. Yaradıcılıq haqqında düşüncələr. B., «Yazıçı» nəş., 1984. 192 s.

243. Mirzəyev İ. Ailənin sosial psixologiyası. B., «Çaşıoğlu» nəşr, 2011, 640 s.
244. Müasir Azərbaycanda ailə və nikah institutu: sosioloji təhlil. B., AR AQUPDK nəşr, 2010, 103 s.
245. Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri. Bakı, 2014
246. Müstəqil Azərbaycan 20 il: dövlət, ailə, qadın və uşaq siyasəti. B., «Nurlar» nəş., 2012. 503 s.
247. Müstəqillik yollarında – 25 il. B., «Şərq-Qərb» nəş., 2016, 627 s.
248. Nağıyev F. Konstitusiya hüququ. B., «Qanun» nəşr., 2014, 239 s.
249. Nağıyev F.T. Konstitusiya hüququ. Bakı, «Qanun» nəş., 2009. 240 s.
250. Nəcəfov E. İctimai elmlərdə akademik yazı və tədqiqat metodları. Bakı, Mütərcim, 2017. 232 səh.
251. Parenti M. Seçilmişlər üçün demokratiya. Bakı: Çaşıoğlu, 2008. 512 s.
252. Prokurorun stolüstü kitabı. B., «Hüquq ədəbiyyatı» nəş., 2012. 1280 s.
253. Radbrux Gustav. Hüquq fəlsəsi. B., «Qanun» nəş., 2016. 272 s.
254. Rəcəbli H. BMT-nin ixtisaslaşmış qurumları. B., «Elm» nəşr., 2003, 255 s.
255. Robert Dahl. Demokratiya haqqında. B., «Azərbaycan» nəş., 2004. 248 s.
256. Roma hüququ. B., «Qanun» nəşr., 2008, 288 s.
257. Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din: ictimai fikir toplusu, Bakı, 2011, №4, s.87-104
258. Rüstəmov Y. Fəlsəfənin əsasları. B., «Elm» nəş., 2004. 499 s.
259. Rzayev Ə.H. Demokratiya: mahiyyəti və prinsipləri / Azərbaycanda dövlət və hüquq quruculuğunun aktual problemləri.

Elmi məqalələr məcmusu. 3-cü buraxılış. Bakı, «Nosir» nəş., 2002, 27-34 s.

260. Rzayev Ə.H. Şəxsiyyət, dövlət, möcüzə. B., Bakı Universitetinin nəşr, 2016, 419 s.

261. Salmanova N.Ə. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı (sosial-fəlsəfi təhlil). B., «Avropa» nəş., 2013. 178 s.

262. Səfixanlı A. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti. B., «Azərnəşr», 2003. 128 s.

263. Səmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzünün qurbanı olmuş uşaqlar və qadınlar. Beynəlxalq konfransın materialları. B., «Təknur» nəşr, 2009, 125-134 s.

264. Süleymanov C. Konstitusiya hüququ. B., «Mütəlcim» nəşr, 2014, 540 s.

265. Süleymanov C. Konstitusiya islahatları Azərbaycanda konsolidasiyalı demokratiyanın yaranmasına əsaslı zəmin yaratdı. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı. №3 (47). B., 2014., 181-190 s.

266. Süleymanova E. Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyasında Ombudsmanın rolu. B., 2010. 82 s.

267. Tatarova Q.Q. Sosialogiyada məlumatların təhlili metodologiyası. Bakı, 2014. 311 səh.

268. Təhlükəsizlik Xidməti (normativ-hüquqi aktlar toplusu). B., «Hüquq ədəbiyyatı» nəşr, 2009. 172 s.

269. Tolstoy L. «Anna Karenina» romanı. B., «Azərnəşr», 1961, 466 s.

270. UNİCEF-in Azərbaycanda küçə uşaqlarının vəziyyətinə dair təhlili. B., AQUPDK nəşr., 2011. 403 s.

271. Uşaqlara qarşı zorakılıq. BMT-nin dünya hesabatı. B., «Çaşıoğlu» nəş., 2007, 912 s.

272. Ümumi hüquq və dövlət nəzəriyyəsi. B., «Qanun» nəş., 2007. 491 s.

273. Ümumi sosiologiya / tərc. İ.Rüstəmov. B., «Diplomat» nəş., 2007, 494 s.

274. Vahidov F., Ağayev T. Sosiologiya. Dərs vəsaiti. B., Zərbadi LTD MMC, 2013. 351 s.

275. Valideyn-uşaq münasibətlərinə dair vəsait BAKI, 2020-ci il. Səh.,118-121

276. Vəliyeva Z.R. Nikah və ailənin inkişaf tarixi // «Qanun» jurnalı, 2015, 106-108 s.

277. Vətəndaşlıq və miqrasiya haqqında normativ-hüquqi sənədlər toplusu. B., «Qanun» nəş., 2008. 400 s.

278. Yardımlar, müavinətlər, pensiyalar. B., «Hüquq ədəbiyyatı» nəş., 2008. 80 s.

279. Yeni sənədlər. Qanun toplusu. B., «Qanun» nəş., 1998. № 15-16, 14-21 s.

280. Zahidov B. İntihar (həyat və ölüm haqqında kriminoloji, sosioloji və psixoloji etüdlər), Bakı, 2012

281. Zahidov B.S. Cinayətkarlıqla mübarizə – ölkənin milli təhlükəsizliyin tərkib hissəsidir // Polis Akademiyasında keçirilən «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» adlı III Beynəlxalq elmi-praktik konfransın materialları. B., 2015, 49-62 s.

**Türk dilində**

282. «Ailenin korunması ve kadına karşı şiddetin önlenmesine dair» 6284 saylı Qanun. // İnsan hakları standartlarının etkili uygulaması bağlamında kadına yönelik şiddetle mücadele. Uluslararası Sempozyum. İstanbul, 07-08 Haziran 2012

283. Akıncı Z., Gökyayla C.D. Milletlerarası ile Hukuku. İstanbul, Vedat, 2010. 606 syf.

284. Akıntürk T., Ateş D. Türk Medeni Hukuku Aile Hukuku. İstanbul, Beta Basım Yayın, 2016. 584 syf.

285. Ayferi Göyzel. Siyaset düşünceler ve yönetimler. İstanbul: Vedat kitabcılık, 2009. 648 s.

286. Doğan İ. Anayasa teorisi. Ankara, Lale Yayınları, 2014. 964 syf.

287. Doğan İ. Dövlet hükuku. Ankara, Astana Yayınları, 2013. 442 syf.

288. Dural M., Öğüz T., Gümüş M.A. Türk Özel Hukuku Cilt:3 (Aile Hukuku). İstanbul, Filiz, 2016. 471 syf.

289. Gençcan Ö.U. Aile Hukuku. Ankara, Yetkin, 2011. 1717 syf.

290. Hatemi H., Oğuztürk B.K. Aile Hukuku. İstanbul, Vedat, 2014. 208 syf.

291. İş və sosial güvenlik hükuku. Eskişehir. 2013. Dərslik. 485 səh.

292. Kılıçoğlu A.M. Aile Hukuku. Ankara, Turhan, 2016. 802 syf.

293. Köseoğlu B., Kocaağa K. Aile Hukuku ve Uygulaması Bilimsel Görüşler Yargı İçtihatları. Bursa, Ekin, 2011. 763 syf.

294. Öztan B. Aile Hukuku. Ankara, Turhan Kitabevi Yayınları, 2015. 1526 syf.

295. Şahin E. Aile Hukuku Davaları Açıklamalı - İçtihatlı - Uygulamalı - Gerekçeli. Ankara, Adalet, 2012. 1688 syf.

296. Türk Anayasa hukuku mevzuatı. 3. Baskı. Ankara, 2014.

297. Yıldırım A. Türk Aile Hukuku. Ankara, Savaş, 2014. 256 syf.

298. Zevkliler A., Ertaş Ş., Havutçu A., Gülpınar D. Yeni Medeni Kanuna Göre Medeni Hukuk Temel Bilgiler. Ankara, Turhan Kitabevi Yayınları, 2015. 642 syf.

## Rus dilində

299. 100 великих книг. М., «Вече», 2004. 480 с.

300. Алин Д.Г., Парахневич А.В., Предыбайло С.Д. Опыт анализа не состоящих в браке в Беларуси // Журнал «Социологические исследования». № 9. 2007, с. 99-101

301. Авдеенкова М., Дмитриев Ю. Понятие основ правового статуса человека и гражданина. М., Право и жизнь № 4, 2004, с. 68-71

302. Авдеенкова М.П., Дмитриев Ю.А. Право на физическую свободу // Журнал «Государство и право». №3, 2012, с. 13-22

303. Автономов А.С. Ценность Конституции // Журнал «Государство и право». №3, 2009, с. 5-11

304. Агеева А.В. Конституционно-правовой статус семьи в Российской Федерации: автореф.дисс. …канд.юрид.наук. М., 2014. 26 с.

305. Айала Ф. Кайнер Дж. Современная генетика: В 3 т. М., «Мир», 1987-1988, т.1- 295 с., т.2 – 368 с, т.3 – 332 с.

306. Айтхожин К.К. Конституционная модернизация в Республике Казахстан: теоритико-методологические вопросы // Журнал «Государство и право». №10. 2008, с. 49-52

307. Акулич М.М. Социология согласия. Учебное пособие. Тюмень, 2002, 340 с.

308. Алауханов Е., Каирова Н. Преступное насилие в отношении женщин. Алматы, 2008, 227 с.

309. Алауханов Е.О. Криминологические проблемы предупреждения корыстно-насильственных преступлений. СПб., «Юридческий Центр Пресс», 2005, 272 с.

310. Алексеев Н.Н. Основы философии права. СПб., «Юридческий Центр Пресс», 1998, 216 с.

311. Алиев И. Очерк истории Атропатена. Б., Азернешр, 1989, 160 с.

312. Алиев Ш. Научно-практический комментарий к конституции Азербайджанской Республики. Баку, Юридичес-ский литер. Азернешр, 2000, 276 с.

313. Андрианов Н.В. Конституция в свете коннотации // Журнал «Государство и право». № 1. 2014, с. 17-26

314. Анохин Ю.В. Механизм государственно-правового обеспечения прав и свобод личности (на материалах РФ). Автореф.дисс.докт.юрид.наук. Саратов, 2007. 51 с.

315. Антокольская М.В. Семейное право. М., ИЗД «Юристъ», 1999, 333 с.

316. Антонов А.И., Сорокин С.А. Судьба семьи в России XXI века. М., ««Юрист», 2000, 137 с.

317. Ануфриев Е.А. Социальный статус и активность личности // Личность как обьект и субьект социалных отношений. М., «Закон и право», 2004, 98 с.

318. Аристотель. Политика. IV т. Москва, «Наука», 198, 378 с.

319. Артюхов А.В. Семейная политика на российском Севере: эффективность и резервы // Журнал «Социологические исследования». № 4. 2001, с. 80-85

320. Асадов А. Семейное право. Баку, Азернешр, 1959, 238 с.

321. Асланов Х.Г. Обеспечение интересов отца в родительских правоотношениях по семейному законодательству Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. М., 2009. 21 с.

322. Багирова А.П., Шубарт О.М. Образ родительства и его развитие в концепции родительского труда // Журнал «Социологические исследования». № 4. 2014, с. 103-110;

323. Баглай М.В. Конституционная права Российской Федерации. Учебник. М., «Норма», 1998, 784 с.

324. Байматов П.Н. Конституционное право граждан на социально обеспечение: федеральный и региональный аспекты правовой политики // Журнал «Государство и право», № 8, 2014, с. 88-97

325. Баймаханова Д.М. Конституционализм и его роль в развитии прав человека (на материалах Республики Казахыстан) // Журнал «Государство и право». № 5, 2014, с. 87-94

326. Бальзак О. Собранные сочинения. М., «Художественный литературы», 1955, 552 с.

327. Барциц И.Н. Доктрина конституционного патриотизма: Европейский вызов и Российская перспектива (к 20-летию конституции Российской Федерации), Государство и право, 2014, №1, с. 5-16

328. Безрукова О.Н. Модели родительства и родительский потенциал: межпоколенный анализ // Журнал «Социологические исследования». № 9. 2014, с. 85-97

329. Безрукова О.Н. Отцовство в трансформирующемся обществе: ожидания матерей и практики отцов // Журнал «Социологические исследования». № 11. 2013, с. 118-130

330. Бекон Ф. Сочинения. I, II т. М., «Мысьл», 1971-1972, т. – 590с., т. 2- 582 с.

331. Бексултанова Р.Т. Проблемы обеспечения безопасности несовершеннолетних лиц семейно-правовыми средствами // Журнал «Государство и право». № 2. 2014, с. 92-97

332. Бердяев Н. Смысл творчества // Эрос и личность. Вердяев Н. Смысль творчество. Книга для чтения составитель И.С. Андреева, А.В.Гульга, М., «Мысьл», 1989, 257 с.

333. Бернал Дж. «Наука в истории общества». Москва: изд. Иностранной литературы, 1956. 735 ст.

334. Бернхардт Р. Европейский суд по правам человека Страсбурге: новый этап, новые проблемы // Журнал «Государство и право». №7. 1999, с. 57-62

335. Бессарабов В.Г. Европейский суд по правам человека. М., «Юрлитинформ», 2004. 176 ст.

336. Быстров А.А. Материнский капитал: стимулирование рождаемости // Журнал «Социологические исследования». № 12. 2008, с. 91-96

337. Богданов В. Преступность в крови // Российская газета. 30 октября 2008

338. Большая Советская энциклопедия / т. 2, М., (изд. Большая Совет. Энклоп), 1970, 632 с.

339. Большая Советская энциклопедия. т. 3, М., (изд. Большая Совет. Энклоп), 1970, 640 с.

340. Большая Советская энциклопедия. т. 5, М., (изд. Большая Совет. Энклоп), 1970, 654 с.

341. Борисов Н.Е. Конституционные основы правового положения несовершеннолетних в Российской Федерации (Проблемы теории и практики). Дисс.доктора юрид.наук. М., «Норма», 2004. 379 с.

342. Борминская Д. Новые тенденции в развитии семейного права: внебрачные союзы на примере отдельных европейских стран // Семейное и жилищное право. № 2. 2007, с. 19

343. Бороздина Е.А., Здравомыслова Е.А., Темкина А.А. Как распорядиться «материнским капиталом» или граждане в семейной политике // Журнал «Социологические исследования». № 7. 2012, с. 108-118

344. Бринчук М.М. Конституционное право на благоприятную окружающую среду в свете национальной безопасности // Журнал «Государство и право». №1. 2014, с. 74-83

345. Бутенко И.А. Организация прикладного социологического исследования. М., «Норма», 1998, 216 с.

346. Бюллетень международных договоров. «Международные отношения», 2001 №3, с. 81-93;

347. Вавильченкова С.Е. Правовое регулирование материнство и детства и семьи в Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. М., 2012. 30 с.

348. Варламова Н.В. Юрисдикция государства как основание ответственности за обеспечение прав и свобод человека (практика европейского суда по правам человека) // Журнал «Государство и право». №11. 2007, с. 33-39

349. Варламова С.Н., Носкова А.В., Седова Н.Н. Семья и дети в жизненных установках россиян // Журнал «Социологические исследования». № 11. 2006, с. 61-73

350. Вдовина М.В. Межпоколенные конфликты в современной российской семье // Журнал «Социологические исследования». № 1. 2005, с. 102-104

351. Воеводин Л.Д. Индивудальное и коллективное в конституционном статусе личности // Вестник МГУ. Серия «Право». II, № 5. 1997, с. 63-69

352. Воеводин Л.Д. Юридический статус личности в России. Учебное пособие. М., Издательство МГУ, Издательская группа Инфра•М-Норма, 1997, 304 с.

353. Волосникова Л.М. «Академическая мобильность» как Конституционно-правовая категория // Журнал «Государство и право». №4. 2010, с. 85-90

354. Всероссийская научно-практическая конференция «Конституция России и отраслевое законодательство», посвященная 20-летию со дня принятия Конституции РФ // Журнал «Государство и право». № 5. 2014, с. 116-118

355. Гегель Г.В. Философия права. М., «Мысьл», 1934, 378 с.

356. Геллер М.В. Реализация и защита права несовершеннолетнего жить и воспитываться в семье по законодательству Российской Федерации: Автореф. дисс. канд. юрид.наук. М., 2007. 27 с.

357. Гендер, история, общество, культура. Баку, «Текнур», 2003, 121 с.

358. Герцензон А.А. Против биологических теории причин пресступности// Вопросы предупреждения преступности. №4. М., 1966, с. 69-77

359. Гиддес Э. Социология. М., Социология, Изд. УРСС, 1999, 704 с.

360. Гилинский Я.И. Девиантология. СПб., «Юридческий Центр Пресс», 2004. 520 ст.

361. Глущенко П.П. Социально-правовая защита семьи Российской Федерации. СПб., «Юридческий Центр Пресс», Монография, 1999, 181 с.

362. Головистикова А.Н. Философское содержание категории «Жизнь» и ее реализация в праве, Государство и право, 2000, №6, с.30-39

363. Голод С.И. Социолого-демографический анализ состояния и эволюции семьи // Журнал «Социологические исследования». № 1. 2008, с. 40-49

364. Голоднюк М.Н. Некоторые вопросы женской пресс-тупности// Вестник МГУ, 1978, №1

365. Гольцова Е.В., Лещенко Я.А. Факторы социальной среды как детерминанты брачности и рождаемости // Журнал «Социологические исследования». № 2. 2010, с. 125-130

366. Горшков М.К. Общественное мнение. История и современность. М., «Политиздат», 1988, 383 с.

367. Гриценко Е.В. Формирование доктрины прямого действия Конституции в российском конституционном праве // Журнал «Государство и право». № 6. 2015, с. 5-18

368. Гроций Г. О праве войны и мира. М., «Ладомир», 1987, 868 с.

369. Грудцына Л.Ю. Народ, гражданское общество и Конституция // Журнал «Государство и право». №1. 2014, с. 56-62

370. Гурко Т.А. Опыты сексуальных отношений, материнства и супружества несовершеннолетних женщин // Журнал «Социологические исследования». № 11. 2002, с. 83-91

371. Гурко Т.А. Репродуктивные планы супругов // Журнал «Социологические исследования». № 9. 2014, с. 77-85

372. Давыдов Ю.Н., Роднянская И.Б. Социология контркультуры. М., «Наука», 1980, 264 с.

373. Дамирчиева М.Д. Актуальные проблемы брачных правоотношений в Азербайджанской Республики: Автореф. дисс.док.юрид.наук. Тбилиси, 2003, 107 с.

374. Дамирчиева М.Д. Социальные и правовые проблемы воспитания детей в семье: Автореф.дисс.канд.юрид.наук. Тбилиси, 1997, 72 с.

375. Данилюк И.А, Правовой статус личности: понятие, юридическая конструкция. М., «Право», 2004, с.90-93

376. Делягин М.Г. Мировой кризис: общая теория глобализации. Курс лекций. М., «ИНФРА-М», 2003. 768 с.

377. Дементьева И.Ф. Социальное самочувствие семьи // Журнал «Социологические исследования». № 9. 2008, с. 102-109

378. Демичев А.А., Исаенкова А.В. Смерть с точки зрения права, Государство и право, 2008, №8, с.86-89

379. Демографическая энциклопедия. М., изд. Большая Совет. Энклоп., 1985, 395 с.

380. Джеймс Дж.У. Личность, М., Политиздат, 1991, с.624

381. Дженкис М., Кей Р., Брэдли Э. Европейская право в области прав человека. М., 1997, 625 с.

382. Дмитриев Ю.А. Проблемы развития Российской Конституционно-правовой науки // Журнал «Государство и право», №4. 2014, с. 47-52

383. Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.46-57

384. Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, М, «Политиздат», 1982, 304 с.

385. Жуков В.Н. Право как ценность, Государство и право, 2010, №1, с.21-34

386. Заикина Г.А. Основные направления и меры регулирования брачно-семейных отношений. Опыт социологического анализа: Автореф.дисс.канд.юрид.наук. М., 1988, 31 с.

387. Зайцев О.Б. Трудовая правосубъектность как правовая категория. Оренбург. Автореф.дисс.канд.юрид.наук. М., 2006, 34 с.

388. Зорькин В.Д. Проблемы конституционно-правового развития России (к 20-летию Конституции РФ). Материалы международной научно-практической конференции «Конституционализм и правовая система России: итоги и перспективы» //

Вестник Московского Университета. Серия «Право». № 1. 2014, с. 3-22

389. Иванов Г.И. Права человека. Минск, Лень, 2011, 368 с.

390. Ивасюк О.Н. Семейное насилие в механизме детерминации пресступного поведения несовершеннолетних // Журнал «Российский криминологический взгляд». № 3. 2013, с. 36-47

391. Игебаева Ф.А. Семья в трансформирующемся российском обществе (на примере Республики Башкортостан) // Журнал «Социологические исследования». № 9. 2014, с. 73-76

392. Идеалы всеобщей декларации прав человека и современный мир // Журнал «Государство и право». №11. 1999, с. 95-99

393. Ильин Ю.Д. Право человека и государства на безопасность в современном мире. М., «Норм», 2007. 288 ст.

394. Ильина О.Ю. Об определении интересов ребенка как семейно-правовой категории // Журнал «Государство и право». № 11. 2005, с. 70-76

395. Ильичева М.Ю. Семейные споры. «Феникс» Ростов на Дон, 2012, 320 с.

396. Информационно-аналитические материалы и предложения по вопросу «о мерах по защите прав граждан Российской Федерации в государствах - участниках СНГ и странах Балтии» // Журнал «Государство и право». № 6. 2005, с. 20-29

397. История теоретической социологии. СПб., 4 том. Изд. Канон, 1997 т. 1. 496с., Изд. Канон 1998, т.2. 460 с., Изд Реаблитация, 2002 т.3. 448 с., Изд. Канон 2002, т. 2. 320 с.

398. Исупова О.Г. Отказ от новорожденного и репродуктивные права женщины // Журнал «Социологические исследования». № 11. 2002, с. 92-99

399. Кабышев В.Т. С конституцией по жизни. М., «Формула права», 2013.

400. Кайданов Л.З. Генетика популяций. М., «Высшая школа», 1996, 320 с.

401. Кант И. Критика практического разума. с. … Сочинения: В 6-и т. Т.4, ч.2. М.: Мысль, 1966. 478 с.

402. Кант И. Метафизика нравов. М., «Мысьл», 1980, 431 с.

403. Карташкин В.А. Права человека: международная защита в условиях глобализации. Т. 6. М., «Норм», 2009. 285 ст.

404. Карцева Л.В. Семья в трансформирующемся обществе // Вестник Моск. Ун-та. Серия 18. № 1. 2004, с. 34-41

405. Киселёв В.С. К вопросу о классификации конституционных принципов организации и функционирования судебной власти // Журнал «Государство и право». № 6. 2015, с. 102-104

406. Классификация наук, кн. 1-2 Москва 1961-1965

407. Ковалев А.А. Международная защита прав человека, Учебное пособие. М., «Статут», 2013, 591 ст.

408. Ковалев М.И. Право на жизнь и право на смерть Государство и право, 1992 № 7, с.68-75

409. Козлов Е.И., Кутафин О.Е. Конституционное право России. М., «Юрист», 1999, 520 с.

410. Козулин А.И. Об источниках прав человека // Научные сообщения. «Юрист», 1994, 31 с.

411. Колдин В.Я. Проблемы методологии правоприменения // Журнал «Государство и право». № 1. 2011, с. 71-78

412. Кон И.С. Социология личности. М., 1967, 389 с.

413. Конституции государств Европы. Т.3. М., «Дипломат», 2001, 840 с.

414. Конституционное (Государственное) право зарубежных стран. Общая часть, М., «Юридическое литература», 2007, 543 с.

415. Конституция Российской Федерации. М., «Айрис-пресс», 2015, 61 с.

416. Конституция Российской Федерации. М., «Юрист», 1994, 59 с.

417. Конституция США: история и современность. М., «Международные отношении», 1988. 287 ст.

418. Кормушкина Н.В. Конституции зарубежных стран. М., «Норм», 2011. 180 с.

419. Короткова Л.П. Что таит фиктивный брак? Журнал «Государство и право». № 8. 1993, с. 137-142.

420. Косарева И.А. Квазибрак: проблемы и перспективы // Журнал «Государство и право». № 5. 2010, с. 70-75

421. Кравчук Н.В. Конвенция о правах ребенка ООН как инструмент защиты семейных прав ребенка в России // Журнал «Государство и право». № 4. 2006, с. 48-53

422. Краткий словарь по социологии / Под ред. Д.М.Гвишани и Н.И.Лапина. М., «Политиздат», 1989. 479 с.

423. Криминалная психология. М., Изд. РАУ, 2007, 495 с.

424. Крылов Н.Б. Правотворческая деятельность международных организаций. М., «Наука», 1998, 170с.

425. Крусс В.И. Личностные («Соматические») права человека в конституционном и философско-правовом измерении: к постановке проблемы // Журнал «Государство и право», №10. 2000, с. 43-50

426. Кряжков В.А. Женщины и право (Обзор материалов конференции в Саратове), с. 133-138

427. Кряжков В.А. Законодательство о конституционном суде РФ: новеллы 2014 года // Журнал «Государство и право». № 12. 2014, с. 32-41

428. Кудрявцев В.Л. Конституционно-правовой институт квалифицированной юридической помощи в Российской Федерации // Журнал «Государство и право». №2. 2008, с. 83-89

429. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. М., «Юрист», 2001. 380 ст.

430. Кудрявцев В.Н. Преступность и нравы переходного общества. М., «Гардарики», 2002, 237 с.

431. Кузнецов В.Н. Социология безопасности. М., «Мысьл», 2003, 340 с.

432. Кузнецова О.В. Конституционно-правовая защита семьи, материнства, отцовства и детства в России: Автореф.дисс.канд.юрид.наук. Челябинск, 2004. 32 ст.

433. Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9

434. Кукушкина Е.И. Развитие социологии в России с момента зарождения до конца XX века. М., «Мысьл», 2004, 161 с.

435. Кулиев Р. Бытовое насилие против женщин: состояние и пути преодоления. Баку, «Элм», 2001, 240 с.

436. Курбатов В.И. Современная западная социология. Ростов н/Д., «Феникс», 2001, 416 с.

437. Лавров И.А. Историко-этнографическиеочерки Кафказа. Л., Лень, 1978, 183 с.

438. Лейбин В.М. Человек глобально-уникальная проблема современности // Век глобализации. № 1. 2011, с. 130-139

439. Летова Н.В. Правовой статус ребенка // Журнал «Государство и право». № 11. 2010, с. 77-86

440. Летова Н.В. Специальная правоспособность и правовой статус ребенка // Журнал «Государство и право». № 9. 2012, с. 72-78

441. Линик Л.Н. Конституционное право на жизнь: Введение в теорию. Чебоксары, 2005, 210 с.

442. Лысова А.В. Насилие в семье – объект социальной политики в США // Журнал «Социологические исследования». № 12. 2005, с. 108-116

443. Лысова А.В. О границах радикальной феминистской теории в объяснении насилия в семье // Журнал «Социологические исследования». №4. 2012, с. 110-117

444. Лысова А.В. Физическое насилие над женами в российских семьях // Журнал «Социологические исследования». № 9. 2008, с. 121-128

445. Лытов Б.В. Государственная служба: управленческое отношение. М., РАГС, 2006. 154 ст.

446. Локк Дж. Два трактата о направлении. Соч., т.3. М., «Мысьл», 137 с.

447. Локк Дж. Сочинение в трех томах (Сер. Философское наследие), т.3., М., 1985-1988, т.1. 622с., т. 2. 560с., т.3. 670 с.

448. Лунеев В.В. О равенстве и равноправии в современной России, Автономов А.С. Ценность Конституции, Государство и право, 2009, №3, с.5-11

449. Лунеев В.В. Свобода лучше, чем несвобода // Журнал «Государство и право». № 9. 2012, с.13-21

450. Льюин Б. Гены: Пер. с англ. М., Мир, 1987. 544 с.

451. Макаренко В.П. Вера, власть и бюрократия, критика социологии М.Вебера. М., изд-во Ростовского Университета, 1988. 304 с.

452. Малахов Г. Женские тайны, мужские проблемы. М., Медицина, 2002, 116 с.

453. Малеина М.Н. Право на имя, Государство и право, 1998, №5, с.99-103

454. Малеина М.Н. Правовой взгляд на проявление нетрадиционных способностей (качеств) человека, 1994

455. Маркс К. Капитал. М., «Полиздать», 1961. 545 с.

456. Маркс К., Энгельс Ф. Соч., 2-е издание. Т.2. М., «Полиздать», 1974. 536 с.

457. Маркс К., Энгельс Ф. Соч., 2-е издание. Т.25. ч.1, «Полиздать», 1961. 545 с.

458. Мартышин О.В. Конституция и идеология // Журнал «Государство и право». № 12. 2013, с. 34-44

459. Марченко М.Н. Источники права. М., «Проспект», 2005, 417 с.

460. Матвеев Г.К. Советское семейное право. М., «Юридическое литература», 1985. 208 с.

461. Медведева И., Шишова Т. Безмолвный крик // Советская Россия. 5 сентября 2000

462. Романовски Г.Б. Гнесалогия. Право на жизнь. СПб., «Юридческий Центр Пресс», 2003, 370 с.

463. Международная и внутригосударственная защита прав человека. Учебник / Под ред. д.ю.н., проф. Р.М.Валеева. М., «Статут», 2011, 830 с.

464. Международный пакт о гражданских и политических правах / Нью-Йорк. 19.12.1966/ Сборник международных документов. М., «Норма», 1993, с. 56-72

465. Международное право. Учебник / Под ред. К.А.Бекяшев. Учебник, М., «Юрист», 2003, 640 с.

466. Миролюбова С.Ю. Право граждан на выбор места жительства: содержание и перспективы развития // Журнал «Государство и право». №12. 2012. С. 13-21

467. Миронов О.О. Конституция не может быть неизменной // Журнал «Государство и право». №4. 1998, с. 5-9

468. Миронова Т.Н. Социоюридическая природа понимания категории «семья» // Журнал «История государства и права». № 24. 2007, с. 24-31

469. Митрикас А.А. Семья как ценность: состояние и перспективы ценностного выбора в странах Европы // Журнал «Соц.исследования». № 5 (241). 2000, с. 67-72

470. Монтескье Ш. О духе законов. М., Советская литература, 1990. 615 с.

471. Монтескье Ш.Л. Избранные произведения. М., Советская литература 1955, 739 с.

472. Моор С.М. Женщина на пороге XXI века: гендерные исследования социально-экономических проблем. Тюмень, 1999. 243 с. // Журнал «Социологические исследования». № 11. 2002, с. 149-150

473. Моргун В.Ф., Ткачева Н.Ю. Проблема периодизации развития личности в психологии. Учебное пособие. М., Изд. МГУ, 1981, 84 с.

474. Морозов Г.И. Международные организации. Некоторые вопросы теории. М., «Мысьл» , 2004, с.97

475. Мустаева Ф.А. Социальные проблемы современной семьи // Журнал «Социологические исследования». № 7. 2009, с. 109-114

476. Неговский В.А. Методологические проблемы современной реаниматологии// Вопросы философии. 1978.

477. Нечаева А.М. XXI век и наши дети // Журнал «Государство и право». № 6. 2014, с. 55-62

478. Нечаева А.М. Государственно-правовая охрана детей-сирот в России // Журнал «Государство и право». № 6. 1991, с. 121-126

479. Нечаева А.М. Дети-сироты в России (послеоктябрьский период) // Журнал «Государство и право». № 1. 1993, с. 120-127

480. Нечаева А.М. Конвенции о правах ребенка – 20 лет // Журнал «Государство и право». № 11. 2009, с. 68-75

481. Нечаева А.М. Правовая охрана детства в России // Журнал «Государство и право». № 6. 2011, с. 52-59

482. Нечаева А.М. Самозащита по семейному праву // Журнал «Государство и право». № 7. 2008, с. 25-31

483. Нечаева А.М. Семейное право. «Наука», 1998, 197 с.

484. Нечаева А.М. Семья как самостоятельный объект правовой охраны // Журнал «Государство и право». № 12. 1996, с. 99-107

485. Низамиева О.Н., Сакулин Р.А. Некоторые проблемы формирования содержания брачного договора // Журнал «Государство и право». № 3. 2010, с. 66-73

486. Николаева Ю.В. Охрана интересов семьи уголовно-правовыми средствами: Автореф.дисс.канд.юрид.наук. М., 1996. 29 ст.

487. Ницше Ф. По ту стороны добра и зла. М., «Мысьл» , 2000, 216 с.

488. Носкова А.В. Семейная политика в Европе: эволюция моделей, дискурсов, практик // Журнал «Социологические исследования». № 5. 2014, с. 56-67

489. Носкова А.В. Семья перед лицом вызовов глобализирующегося мира // Журнал «Социологические исследования». № 5. 2013, с. 47-54

490. Нудненко Л.А. Функции конституционных прав и свобод личности в контексте взаимодействия гражданского общества и правового государства // Журнал «Государство и право». №2. 2012, с.33-41

491. Обсуждение проблем народовластия и прав человека в Российской Академии Правосудия // Журнал «Государство и право». №12. 2012, с. 44-51

492. Общество: государственность и семья. М., «Семья», 2010, 151 с.

493. Осипов Г.В. Социология и социальное миротворчество. М., «Норма», 2002, 617 с.

494. Основин В.С. О сущности и роли основных прав, свобод и обязанностей граждан СССР. Саратов, 1980, 91 с.

495. Панкратова Н.В. Социальный и биологический аспекты родительства // Журнал «Социологические исследования». № 10. 2006, с. 116-122

496. Пахомов А.А. Особенности трансформации семьи и государственной семейной политики (на примере Республики Саха (Якутия) // Журнал «Социологические исследования». №12. 2005, с. 101-108

497. Пенитенциарно-правовая политика России: Конституционные основы // Журнал «Государство и право». № 12. 2014, с. 106-114

498. Пенкрат В.И. Семейное право Беларусии. Минск, 2014, 276 с.

499. Петрухин И.Л. Человек как социально-правовая ценность, Государство и право, 1999, №10, с. 83-90

500. Платонова А.П. Детство и его защита в условиях реформирования российского общества: Автореф.дисс.канд.юрид.наук. М., 1995, 34 с.

501. Поленина С. Международно-правовая защита прав женщин: принцип универсальности и культурного разнообразия. М., 2000. 255 ст.

502. Полиция. Женщина. Гуманизм (Международный научный конгресс женщин-полицейских). Научная жизнь, 1996, с.133-146

503. Попов А.Н. Преступления против личности при смягчающих обстоятельствах. СПб., «Юридческий Центр Пресс», 2001, 465 с.

504. Права человека в России: декларации, нормы и жизнь // Журнал «Государство и право» №3. 2000, с. 37-50

505. Преступность среди социальных подсистем. СПб., «Юридческий Центр Пресс» , 2003, 492 с.

506. Принципы, пределы, основания Ограничения прав и свобод человека по Российскому законодательству и международному праву // Государство и право, 1998, №8, с.39-70; № 10, с.45-62

507. Психологическая энсиклопедия. СПб., «Юридческий Центр Пресс» 2002, 396 с.

508. Пчелинцева Л.М. Семейное право России. Наука, 1999, 190 с.

509. Рабжаева М.В. Историко-социальный анализ семейной политики в России XX века // Журнал «Социологические исследования». №6. 2004, с. 92-93

510. Рамих В.А. Материнство как социокультурный феномен: Автореф.дисс.канд.философ.наук. Ростов-на-Дону, 1997, 33с.

511. Реализация конституционного принципа равноправия полов // Журнал «Государство и право»., №6. 1998, с. 25-37

512. Ржаницына Л.С., Рыбальченко С.И. Состояние семейной политики и предложения по ее совершенствованию // Журнал «Социологические исследования». № 6. 2013, с.47-57

513. Романовский Г.Б. Юридическое определение момента возникновения права на жизнь, Государство и право, 2007, №11, с.71-78

514. Саенко Л.В. Конституционно-правовые основы охраны и защиты семьи в Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. Саратов, 2006. 31 ст.

515. Салагай О.О. Дефиниция биологического пола человека в международном и национальном праве // Журнал «Государство и право». № 6. 2011, с. 34-40

516. Сартаева Н.А. Наркотизм, социально-правовой аспект // Журнал «Государства и право». №2. 2003, с. 119-131

517. Свердлов Г.М. Советское семейное право. Контракт, 1958, 235 с.

518. Семейный Кодекс Российской Федерации. М., «Проспект», 2015. 64 ст.

519. Семенов Ю.И. Как возникло человечество. М., «Наука», 1966, 576 с.

520. Серков П.П. Конституционная ответственность в Российской Федерации: современная теория и практика // Журнал «Государство и право». № 1. 2015, с. 114-115

521. Сеченов И.М. Рефлексы головного мозга, М., Изд. АНСССР, Медицина, 1961, 100 с.

522. Сингер М., Берг П. Гены и геномы: В 2 т. т. 1. 376 с., т.2. 391 с. М., «Мир», 1998

523. Скифский И.С. Криминологическое моделирование насильственной преступности в Австралии и России // Журнал «Государство и право». № 9. 2010, с. 64-71

524. Скутнева С.В. Раннее материнство // Журнал «Социологические исследования». № 7. 2009, с. 114-118

525. Сырых В.М. Теория государства и права. Учебник. М.: ЗАО «Юстицинформ», 2005, 575 с.

526. Смирнова Р.М. Правные возможности для женщин: опыт европейского сообщества, За рубежом, с. 143-152

527. Снежко О.А. Конституционно-правовая защита семьи // Журнал «Государство и право». № 2. 2008, с. 63-71

528. Снежко О.А. Проблемы государственной защиты материнства в Российской Федерации // Журнал «Государство и право». № 10. 2010, с. 58-66

529. Собрание законодательства ООН. Международные отношении. 08.01.2001 №2, 671 с.

530. Советское семейное право / под ред. В.А.Рясецева. М., «Юридическое литература» 1982, 335 с.

531. Сорокин П.А. Человек. Цивилизация. Общество. М., «Мысьл» , 1992, 543 с.

532. Социалистическая интеграция и наука. Москва, 1977

533. Социальная стратификация Российского общества / Отв. ред. З.Т.Голенкова. Институт Социологии РАН, М., Изд. «Летны сад», 2003, 368 с.

534. Спиркин А.Г. Философия. М., «Гардачика», 2000. 368 с.

535. Степанова М.Н. Государственная семейная политика в странах Западной Европы (1990-2000-е годы) // Политические исследования. № 5. 2010, с. 18-32

536. Стрельник Е.А. Государственный неотрадиционализм и семейная политика в Украине // Журнал «Социологические исследования». 2014. № 9, с. 97-101

537. Стучка П.И. Революционная роль советского права. Изд. 3-е. М., «Юридическая литература», 1934, 317 с.

538. Тагор Р. Собранные сочинения. VI т. М, «Художественная литература», 1963. 450 ст.

539. Тихомиров Ю.А. Теория компетенции. М., «Мысьл» , 2005. 355 с.

540. Токарев С.Ф. Исследование семье в зарубежных социологический и этнографической литературе этносоциаль-

ные аспекты изичения семьи у народов Зарубежной Европы. М., «Наука», 1987, 338 с.

541. Трофимец И.А. Онтология брака: российские и зарубежные учения // Журнал «Государство и право». № 12. 2012, с. 59-68

542. Трунцевский Ю.В., Сумачев А.В. Права ребенка и секс-индустрия (подрастающее поколение России нуждается в государственной защите от разлагающего влияния безнравственной продукции) // Журнал «Государство и право». № 2. 1999, с. 97-103

543. Уголовный Кодекс Индии. М., «Норма», 1958. 912 с.

544. Уголовное право РФ. М., «Юрист» , 1996, 835 с.

545. Ушаков Н.А. Международное право. Учебник. М., «Международное отношение», 2000. 304 с.

546. Философская энциклопедия. М., изд. Большая Совет. Энклоп., 1983, 602 с.

547. Философский энциклопедический словарь / глав.ред. Иличов Л.Ф., Федосейев П.Н., Ковалев С.М., Пенов В.Г. М., изд. Большая Совет. Энклоп 1963, 712 с.

548. Хазова О.А. Брак и развод в английском праве. Автореферат дисс.канд.юрид.наук. М., 1982, 31 с.

549. Хазова О.А. Семейное право на постсоветском европейском пространстве: основные новеллы законодательства о браке и разводе // Журнал «Государство и право». № 4. 2011, с. 31-41

550. Хазова О.М. Семейный Кодекс РФ с кратким комментарием. М., БЕК, 1996, 33 с.

551. Хван С.У., Ким Д.С. Феномен семьи-кироги в современной Корее // Журнал «Социологические исследования». № 2. 2015, с. 91-96

552. Холлигер В. Человек и агрессия. М., Просвещение, 1985, 168 с.

553. Чебаев В.Н. О статусе объекта права в конституционном праве // Журнал «Государство и право». №5. 2008, с. 90-94

554. Чефранова Е.А. Обеспечение неприкосновенности собственности при обращении взыскания на имущество супругов // Журнал «Государство и право». № 1. 2003, с. 75-79

555. Чиркин В.Е. Государствоведение. Учебник. М.: Юристь, 1999. 400 ст.

556. Чиркин В.Е. О базовых ценностях Российской Конституции (К 20 летию конституции России) // Журнал «Государство и право». №12. 2013, с. 18-25;

557. Чиркин В.Е. Российская конституция и международный опыт // Журнал «Государство и право». №12. 1998, с.5-11

558. Чурилова Е.В. Состав и благосостояние неполных семей в России // Журнал «Социологические исследования». № 3. 2015, с.78-80

559. Чухвичев Д.В. Свобода личности и юридическая ответственность // Журнал «Государство и право». №3. 2005, с.103-108

560. Шахрай С.М. «Неизвестная конституция – constitio incoginata». М., «Норма», 2013. 320 ст.

561. Шестаков Д.А. Конфликтная семейная ситуация как криминогенный фактор. Автореф. дис…докт.юрид. наук. М., 1977, 31 с.

562. Шестаков Д.А. Криминологические проблемы семейных отношений. Автореф. дис…докт.юрид. наук. Ленинград, 1986, 48с.

563. Шестаков Д.А. Семейная криминология. Криминофамилистика. СПб., Юрид. центр Пресс, 2003. 389 с.

564. Шестаков Д.А. Суждения о преступности и вокруг нее. СПб., «Юридческий Центр Пресс», 2015, 83 с.

565. Шульженко Ю.Л. О понятии «правовая охрана конституции» // Журнал «Государство и право». № 7. 2002, с. 5-12

566. Шумилов В.М. Международное экономическое право. М., Всероссийкий Академия Внешний Торговли, Изд. Международные отношении, 2014, 287 с.

567. Эбзеев Б.С. Конституции Российской Федерации – 20 лет: государство, демократия, личность сквозь призму практического конституционализма // Журнал «Государство и право». №12. 2013, с. 5-17

568. Эбзеев Б.С. Конституция Российской Федерации: прямое действие и условия реализации // Журнал «Государство и право». №7. 2008, с. 5-15

569. Энгелс Ф. Происхождение семьи, частной собственности и государства. М., «Политическая литература», 1986, т.3. 639 с.

570. Энтин М.Л. Международные гарантии прав человека. Практика Совета Европы. М., «Международные отношении», 1992. 327 с.

571. Энциклопедический словарь работников кадровой службы. М., «Инфра-М», 1999. 328 с.

572. Ярская-Смирнова Е.Р., Романов П.В., Антонова Е.П. Домашнее насилие над детьми. Стратегии объяснения и противодействия // Журнал «Социологические исследования». Т. 7. № 1. 2008, с. 74-83

## İngilis dilində

573. American Journal of International Law. 1972. April. Vol. 66. No.2

574. Kenny's outlines of criminal law. 17th ed. Cambridge, 1958

575. Lag om sambors gemensamma hem (Cohabitees (Joint Home) Act), SFS, 1987.

576. Robertson R. Globalization Social Theory and global culture. London: Sage, 1992. 211p.

## İnternet resursları

577. http://az.wikipedia.org/wiki/Ail%C9%99

578. http://www.azleks.az/az/online-dictionary/struktur

579. http://www.azpolitika.info/?p=266779

580. http://www.bibliard.ru/vcd-677-1-726/goodsinfo.html // Бернер А.Ф. Учебник уголовного право, СПб, 1867

581. http://www.bibliotekar.ru/ugolovnoe-pravo-3/7.htm // Таганцев Н.С. О преступлениях против жизни по русскому праву. СПб, 1870

582. http://www.e-qanun.az/

583. http://www.e-qanun.az/framework/19883 // BƏT-in «Analığın mühafizəsi haqqında» 103 saylı Konvensiyası

584. http://www.e-qanun.az/framework/5277

585. http://www.e-qanun.az/framework/8424

586. http://www.eur-lex.eu-ropa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:C:2010:083:0389:0403:en:PDF // «Charter of Fundamental Rights of European Union»

587. http://www.interpress.az/19589-obama-homoseksual-nikahn-tsdiqldi.html#.WFjo3VOLTIU

588. http://www.juristlib.ru/book_1562.html // Королев Ю.А. Семья как субъект права // Журнал российского права, 2000

589. http://www.lawlibrary.ru/izdanie49859.html // Лист Ф. Учебник уголовного право, СПб, 1905

590. http://www.minenergy.gov.az/db/law_307974773_7329.pdf
591. http://www.moderator.az/news/122493.html
592. http://www.moderator.az/news/163284.html
593. http://www.modern.az/az/news/112926#gsc.tab=0
594. http://www.news.milli.az/society/148388.html
595. http://www.ombudsman.gov.az/view.php?lang=az&menu=91
596. http://www.owl.ru/win/books/polenina/13.htm // Поленина С.В. Международно-правовая защита прав женщин: принцип универсальности и культурного разнообразия
597. http://www.president.az/articles/12060
598. http://www.president.az/articles/14132
599. http://www.president.az/articles/2721
600. http://www.president.az/articles/7790
601. http://www.president.az/files/future_az.pdf // «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası
602. http://www.president.az/letters/laws/2
603. http://www.psychologos.ru/articles/view/lichnost_po_u.dzheymsu
604. http://www.sehiyye.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html // «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu. Maddə 30
605. http://www.ses.gov.az/az/menu-69.html
606. http://www.supremecourt.gov.az/post/view/795 // Azərbaycan Respublikası Ali Məhkəməsinin 28 mart 2016-cı il 8-2/2016-cı il tarixli Plenumun Qərarı
607. http://www.teleqraf.com/arxiv.php?id=27512#sthash.BXmGqlqk.dpuf // Süleymanov M. Sovet Azərbaycanında uşaq kimsəsizliyi ilə mübarizə
608. http://www.un.org/ru/documents/decl_conv/declarations/womdecl.shtml

609. http://www/un-az.org/doc/mdg.html // BMT-nin Minilliyin Bəyannaməsi. A/RES/55/2 saylı Qətnamə. 8 sentyabr 2000-ci il

Format: 60x84 1/16

27 ş.ç.v

Tiraj: 300

***«OPTİMİST» MMC çap mərkəzi***

***Kitab hazır diapozitivlərdən çap olunub***